**AZƏRBAYCAN RESPUBLİKASI**
**SİLAHLI QÜVVƏLƏRİNİN HƏRBİ AKADEMİYASI**

**MEHMAN SÜLEYMANOV**

# AZƏRBAYCANIN QƏDİM VƏ ORTA ƏSRLƏR HƏRB TARİXİ

**"Elm və təhsil"**
**Bakı – 2016**

Baş məsləhətçi və
ön sözün müəllifi: **Heydər Piriyev**
*Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyasının rəisi, genereal-leytenant*

Rəyçi: **Əsgər Rəsulov**
*Filologiya üzrə elmlər doktoru, professor*

Məsləhətçilər: **Yaşar Aydəmirov**
*Ehtiyatda olan general-leytenant*

**Elşən Həşimov**
*Polkovnik, dosent*

**Əziz Talıbov**
*Polkovnik, dosent*

**Mehman Süleymanov.**
**Azərbaycanın qədim və orta əsrlər hərb tarixi.**
**Bakı, "Elm və təhsil", 2016, 416 səh.**

*Kitabda ən qədim dövlərdən başlayaraq təxminən XIII əsrin əvvəllərinə qədər Azərbaycan ərazisində hərb işinin təşəkkülü, inkişaf xüsusiyyətləri və tarixi təcrübəsi araşdırılmışdır.*

*ISBN 978-9952-8176-1-2*

© *Mehman Süleymanov, 2016*

# ÖN SÖZ

Günü-gündən möhkəmlənməkdə olan Azərbaycan Ordusunun şəxsi heyətinin, bütünlükdə Azərbaycan gəncliyinin mənəvi-vətənpərvərlik tərbiyəsinin daha da təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin müəyyənləşdiridiyi vəzifələrin icrası istiqamətində xalqımızın hərb tarixinin öyrənilməsi kifayət qədər aktuallıq kəsb edir. Çünki bu tarix Vətənə bağlılığın, xalq işinə sədaqətin, sonsuz qəhrəmanlıqların əyani nümunəsidir və bu tarix gənclərimizin Vətənə məhəbbət ruhunda yetişdirilməsi üçün ən yaxşı örnəkdir.

Qərar tutduqları ərazilərin təbii sərvətlərinə, gediş-gəliş imkanlarına görə Azərbaycan xalqı ən qədim zamanlardan ardı-arası kəsilməyən hərbi yürüşlərə, dağıdıcı müharibələrə məruz qalmış və öz mövcudluğunu ağır döyüşlərdə müdafiə etməli olmuşdu. Azərbaycan tarixinin bütün mərhələ və dövrlərində belə müharibələrə və sınaqlara rast gəlmək mümkündür. Bu mərhələ və dövrlərin hər biri də özünün çoxsaylı qəhrəmanlarını yetişdirmiş və bugünkü nəsillərə miras qoymuşdur.

Müasir gəncliyi, xüsusilə Azərbaycan Ordusunun şəxsi heyətini yüksək mənəvi keyfiyyətlər üzərində yetişdirmək üçün Azərbayanın hərb tarixi canlı bir məktəb, heç vaxt əhəmiyyətini itirməyəcək bir örnəkdir. Məhz bu məktəbin ənənlərini davam etdirmək və yaşatmaqla azərbaycanlılar arasında yeni qəhrəmanlar nəsli yetişdirmək mümkündür.

Ona görə də Azərbaycan hərb tarixini qəhrəmanlıq tarixi kimi də dəyərləndirmək olar. Amma Azərbaycanın hərb tarixi yalnız qəhrəmanlıq mənbəyi, Vətənə məhəbbət nümunəsi deyildir. Bu tarix həm də böyük təcrübə mənbəyidir və müasir

hərb işinin təşkili və uğurla davam etdirilməsi üçün də bu təcrübənin böyük əhəmiyyəti vardır.

Hərb işi müasir elmi-texniki nailiyyətlərə dayaqlanmaqla bərabər, həm də ənənəçiliyə dayaqlanan və onun üzərində təkmiləşdirilən fəaliyyət sahəsidir. Bəşəriyyət öz köklərindən nə qədər uzaqlaşsa belə, onun hərb işi sahəsində qazandığı təcrübədən hər zaman səmərəli şəkildə faydalanmaq mümkündür. Bu baxımdan Azərbaycanın hərb tarixi də kifayət qədər zəngin bir təcrübə mənbəyidir.

Azərbaycanın tarixi ərazisi ən qədim zamanlardan hərb işinin inkişaf mərkəzlərindən biri olmuşdur və burada əldə edilmiş təcrübə uzun illər boyu bölgənin və dünyanın hərb tarixinə dəyərli töhfələr kimi yazılmışdır. Bu təcrübə davamlı olaraq qonşu xalqlar tərəfindən, hətta Azərbaycan sərhədlərdən uzaqlarda da maraqla izlənmişdir.

Bizi böyük zaman fasiləsi ayırmasına baxmayaraq Azərbaycan tarixinin müxtəlif mərhələlərində hərb işi sahəsində əldə edilmiş qabaqcıl təcrübədən hər zaman bəhrələnmək mümkündür. Hərb işinin elə sahələri vardır ki, bu sahədə əldə edilmiş təcrübə metoloji baxımdan heç zaman dəyərini itirmir. Məsələn, insanların hərb işinə alışdırılması, dövlətin hərb sahədəki aparıcı rolu, xalq və ordu münasibətləri, hərbi işin kütləviləşdirilməsi məsələsi, hərb işinə irəli sürülən tələblər, hərb işinin iqtisadi inkişaf səviyyəsi ilə bağlılığı, ölkənin müharibələrin aparılmasına necə səfərbər edilməsi və s. belə məsələlərdəndir. Tariximizin müxtəlif dövrlərində hərb işinin bu sahələri ilə bağlı çox maraqlı və gərəkli yanaşmalarla rastlaşmaq mümkündür. Həmin təcrübə bu günün özündə də öz əhəmiyyətini itirməyibdir. Ona görə Azərbaycanın hərb tarixinin öyrənilməsi həm də təcrübi baxımdan əhəmiyyət kəsb edir.

Məhz bunun üçün idi ki, 2016-cı il may ayının 4-də "Heydər Əliyev və Azərbaycanın hərb tarixi" mövzusunda keçirilən elmi konfransda Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov da Azərbaycanın

hərb tarixinin sistemli şəkildə öyrənilməsini mühüm bir vəzifə kimi irəli sürdü.

Bu vəzifənin yerinə yetirilməsi istiqamətində hazırda Azərbaycan Respublikasının Silahlı Qüvvələrin Hərbi Akademiyasında çox ciddi tədqiqat işlərinə başlanmışdır. Hər şeydən əvvəl bu sahəyə qayğı artırılmışdır, Akademiyanın elmi planında çoxşaxəli tədqiqat mövzuları öz əksini tapmışdır, konkret istiqamətlər müəyyənləşdirilmişdir. Artıq konkret nəticələr də vardır. Təqdim olunna bu kitab da bu istiqamətdə görülən işlərdən biridir və ümid edilir ki, bu kitab hərb tarixi ilə maraqlananlar və bütünlükdə oxucular tərəfindən maraqla qarşılanacaqdır.

**Heydər Piriyev**
***Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyasının rəisi, general-leytenant***

# I.GİRİŞ

## 1. Hərb tarixinin predmeti

Təbəqəli cəmiyyətin meydana gəldiyi vaxtdan bəri hərb işi insan fəaliyyətinin geniş sahələrindən birini təşkil etmişdir. İctimai-tarixi şəraitin reallığından doğan müharibələr qədim insanların əsas qayğılarından biri olduğu kimi bu sahədə əldə edilən nəticələr, primitiv qənaətlər, ayrı-ayrı döyüş faktları müasir bəşəriyyətə miras qalan ilkin yazılı mənbələrin də başlıca mövzularından birini təşkil edirdi. Şahlar, fatehlər qazandıqları hərbi uğurları qayaüstü yazılarda və başqa mənbələrdə həkk etdirir və öz qələbələrindən nişanə qoymağa çalışırdılar. Şərq xalqlarının, o cümlədən Azərbaycan xalqının qədim əcdadlarının tarixinin öyrənilməsində hərbi xarakterli həmin mənbələr elə indi də çox böyük əhəmiyyətə malikdir.

İnsan cəmiyyəti inkişaft etdikcə. mədəniyyət yüksəldikcə yazılı mənbələrdə hərbi məsələlərə daha geniş yer ayrılırdı və bəzən ayrı-ayrı əlyazmalar bütünlükdə bu və ya digər müharibənin təsvirinə həsr edilirdi. Lakin həmin mənbə və əsərlər sistemli xarakter daşımırdı və buna görə də bu əsərlərin meydana çıxdığı dövrdən hərb tarixinin insanın zehni fəaliyyətinin müstəqil sahəsi kimi formalaşdığını qəbul etmək olmaz. Bu, xeyli sonralar baş vermişdi. Dünya təcrübəsində hərb tarixinin bir elm sahəsi kimi formalaşması XVII-XVIII əsrlərə aid edilir. Azərbaycanda isə bu daha gec başlamışdır. Bununla belə, hərb işinə aid hər hansı bir məlumatı özündə əks etdirən yazılı mənbələr hərb tarixi üçün qiymətli materiallardır və ona görə də qədim mənbələrin, hərbi fikir tarixinin araşdırılması da hərb tarixinin öyrəndiyi sahələrdən biridir.

Bütünlükdə, konkret zaman müddətində hərb işinə aid məsələlərin qoyuluşu və həlli xüsusiyyətləri hərb tarixinin

predmetini təşkil edir. İnkar etmək olmaz ki, qədim yazılı mənbələrdə də bu və ya digər vaxt ərzində baş verən hərbi hadisələr haqqında, hərb işinin ayrı-ayrı tərəflərinin gedişi haqqında konkret fakt və məlumatlar vardır. Lakin həmin məlumatlar daha çox təsviri xarakter daşıyır. Aydındır ki, bu zaman baş verən hadisələrin mahiyyəti, qanunauyğunluqları açılmırdı. Hərb tarixi isə sadəcə təsviri məlumatlardan ibarət deyil. O, ayrılıqda götürülmüş (konkret zaman müddətində) müharibəni və ya müharibələrin, hərb işinin vəziyyətini öyrənir, onun tarixi doğruluğunu müəyyənləşdirir və sonra ümumiləşdirmələr apararaq onların arxasında dayanan qanunauyğunluqları üzə çıxarır.

Konkret olaraq hərb tarixi müharibələrin meydana gəlməsi qanünauyğunluqlarını, onların gedişini və nəticələrini, təzahür xüsusiyyətlərini, tarixdəki ictimai yerini, mürəkkəbliyini və ziddiyyətlərini, iqtisadi-siyasi səbəblərini, məzmun və məqsədini, müharibələrin aparılmasında xalq kütlələrinin və ayrı-ayrı şəxslərin rolunu və s. məsələləri öyrənir. Bu zaman zəruri ümumiləşdirmələr aparmaqla bərabər, tədqiqat obyektinə çevrilmiş konkret müharibənin, onun bu və ya digər kampaniyasının və ya əməliyyatının hazırlanmasına, aparılmasına, döyüşlərin təhlilinə xüsusi diqqət yetirilir.

Hərb tarixinin öyrəndiyi sahələrdən biri silahlı qüvvələr quruculuğu tarixidir. Bu sahə müxtəlif dövrlərdə və zaman çərçivəsində ordu quruculuğunun qanunauyğunluq və prinsiplərinin tətbiqi xüsusiyyətləri, orduların, qoşun növlərinin formalaşması və inkişafı, maddi-texniki bazası və komplektləşdirilməsi, daxili quruluşu, təlim-tərbiyə sistemi və s. məsələləri əhatə edir. Silahlı Qüvvələr quruculuğu tarixinin öyrənilməsi ordunun inkişaf mənzərəsini, onun cəmiyyətlərin ictimai-siyasi həyatında oynadığı rolu və tutduğu mövqeni düzgün qavramağa imkan verir.

Hərb tarixinin öyrəndiyi sahələrdən biri də hərb sənəti (məharəti) tarixidir. Müharibələrin başladığı gündən ona hazırlığın və aparılması üsullarının təkmilləşdərilməsi hərb işinə

cəlb olunan insanların diqqət mərkəzində olmuşdur. Vaxt ötdükcə şübhəsiz ki, bu sahədə də müəyyən təcrübə əldə edilmiş və bu təcrübə gələcək inkişaf üçün bir özül rolunu oynamışdır.

Məlumdur ki, hərb sənətinin (məharətinin) üç tərkib hissəsi vardır: strategiya, əməliyyat (oparetiv) sənəti və taktika. Hərb sənəti (məharəti) tarixi həm müharibələrin aparılması forma və üsullarının meydana gəlməsini, onların inkişaf mənzərəsini (strategiya) öyrənir, həm də əməliyyatların (əməliyyat sənəti) və döyüşlərin (taktika) aparılması forma və üsullarını, müxtəlif vaxtlarda onların qanun və üsullarının təzahür xüsusiyyətlərini öyrənir.

Konkret dövr və zaman müddətində hərbi əməliyyatların aparılması üçün mövcud olan fikir və baxışların, istər müharibə və istərsə də sülh dövründə hərbi sərkərdələrin onlara rəhbərlik sahəsindəki praktiki fəaliyyətləri, xalq kütlələrinin, o cümlədən tanınmış şəxsiyyət və sərkərdələrin hərbi fəallığı, hərb sənətinin inkişafını şərtləndirən qanunauyğunluqların mahiyyətinin açılması və öyrənilməsi də hərb sənəti tarixinin predmetini təşkil edir.

Bunlardan başqa, hərb tarixi hərbi silah və texnikanın, hərbi təbabətin, hərbi rabitənin və hərb işinin digər müxtəlif sahələrinin tarixini də öyrənir. Zaman baxımından hərb tarixi yaşanıb arxada qalmış mərhələlərin öyrənilməsi ilə məşğul olsa da heç də donuq bir sahə deyildir. Çünki hərb tarixi təkcə keçmiş tarixi tədqiq etmir. Eyni zamanda bu tarixi tədqiq edib ümumiləşdirməklə hərb işinin və elminin gələcək nəzəri və praktiki inkişafı üçün zəruri proqnozlar, elmi qənaətlər verir. Ona görə də hərb elminin və işinin davam etdirilməsi, elmi, nəzəri və təcrübi qənaətlərin ümumiləşdirilməsi hərb tarixinin əhatə dairəsinə aiddir.

## 2. Müharibələrin meydana gəlmə səbəbləri

Bəşər tarixi boyu xalqların cığırdaşına çevrilmiş müharibələrin meydana gəlmə səbəbləri, hərəkətverici qüvvələri, onların qarşısının alınmasının mümkünlüyü yolları, dövrün ictimai-siyasi və hərbi fikir cərəyanlarının diqqət mərkəzində olub. Vaxt ötdükcə müəyyən müşahidə və ümumiləşdirmələrdən sonra bu barədə bir sıra fikir və mülahizələr meydana gəlib. Lakin bu fikir və mühakimələr dövrün ictimai-inkişaf səviyyəsindən irəli gedə bilmədiyi üçün sözsüz ki, onun toxunduğu məsələlər də bəsit şəkildə açıqlanırdı. Təbiətin və cəmiyyətin ictimai-inkişaf qanunauyğunluqları kəşf edilmədiyi bir vaxtda ictimai-tarixi bir hadisə olan müharibənin meydana gəlmə qanunauyğunluqları haqqında irəli sürülən fikir və nəzəriyyələr obyektiv gerçəkliyi ifadə etmir və bununla da təbii ki, onun elmi şəkildə qavranılmasını da qeyri-mümkün edirdi. Bəsit qənaətlərin, elmi nəticə və nəzəriyyələrin müəlliflərinin irəli sürdüyü fikirlər tarixi baxımdan müəyyən əhəmiyyətə malik olsalar da onlar hələ müharibələrin meydana gəlmə və inkişaf qanünauyğunluqlarını izah etməyə nəinki qabil deyildir, əksinə onlar öz qeyri-elmi mövqeləri ilə ictimai fikir tarixində yanlış qənaətlərin yayılmasına zəmin yaradırdılar. Bu nəzəriyyələrin bəziləri müharibələrin başlanmasını ilahi qüvvələrlə bağlayıb onları xalqların və insanların alın yazısı kimi qələmə verirdi. Ancaq cəmiyyətin bütün sahələrində olduğu kimi hərb elminin, ictimai-siyasi fikir tarixinin inkişafı nəticəsində aydın oldu ki, müharibələr heç də xalqların alın yazısı deyil, onların meydana gəlməsinin səbəbləri konkret tarixi şəraitdə cəmiyyətdə baş verən ictimai-siyasi və iqtisadi ziddiyyətlərdə axtarılmalıdır. Müharibələr heç də təsadüfdən meydana gəlmir. O müəyyən dairələrin və qüvvələrin həyata keçirdikləri siyasətin tərkib hissəsidir, onun başqa vasitələrlə davamıdır. Bu fikri ilk dəfə elmi şəkildə formalaşdıran K.Klauzevits siyasətdən danışarkın onu

mütləqləşdirib cəmiyyətin iqtisadi möstəvisindən təcrid edilmiş şəkildə götürsə də əslində həmin müddəa müharibələrin mahiyyətinin düzgün araşdırılması üçün prinsipial əhəmiyyətə malikdir.

Dövlətlər, partiyalar, siyasi dairələr və qüvvələr həmişə qarşılarına qoyduqları məqsədlərə çatmaq üçün müxtəlif yollardan və vasitələrdən istifadə edirlər. Sülh dövründə bu formalar ideoloji, siyasi, iqtisadi və s. yönümdə ola bilər. Lakin ziddiyyətlərin kəskinləşdiyi, qarşıya qoyulan məqsədlərə dinc vasitələrlə çatmağın mümkün olmadığı vaxt siyasətin zorakı vasitələrinə-silahlı mübarizəyə əl atılırdı. Buna görə müharibə siyasi münasibətlərin davamı kimi qəbul və təhlil edilir. Siyasətsiz müharibə mümkün deyil. Siyasi məqsədi olmayan  güclü döyüşlər də müharibə yox, adi dava-dalaşdan başqa bir şey deyildir. Müharibə aparan tərəflərin siyasi maraqları müharibənin məqsədini, silahlı mübarizə isə həmin məqsədə çatmağın vasitəsini təşkil edir.

Lakin müharibə elə mürəkkəb bir prosesdir ki, bəzən onun əsil mahiyyətinin başa düşülməsi çətinləşir. Bu da ondan irəli gəlir ki, müharibəyə əl atan dövlət və qüvvələr ixtiyarlarında olan idjeoloji vasitələrdən, diplomatik kanallardan, siyasi imkanlardan istifadə edərək ölkə daxilində və xaricində apardıqları təbliğat vasitələri ilə yanlış təsəvvürlər yarada bilirlər. Müharibənin meydana gəlmə qanunauyğunluqlarına ciddi bələd olmayan adamlar isə yalnız müharibənin xarici əlamətlərinə görə nəticə çıxarırlar ki, bu da çox vaxt düzgün olmur. Onun üçün böyük hərb nəzəriyyəçisi K.Klauzevits müharibəni buqələmunla müqayisə edir. Çünki müəyyən vaxtlarda müharibə elə xarici əlamətlərlə müşayət olunur ki, həmin əlamətlərə görə müharibənin sosial xarakterini və siyasi məzmununu müəyyənləşdirmək mürəkkəbləşir. Tarixdən də məlumdur ki, ədalətsiz müharibələrdə silahlı qüvvələr bütün gücü ilə döyüşərək qorxu, zorakılıq, aldatma, ideoloji təsir və s. kimi amillərdən istifadə edib müharibənin sosial mahiyyətini gizlədirlər.

Ermənistanın təcavüzkar dairələri Azərbaycana qarşı müharibəni başlayarkən məhz belə üsul və vasitələrdən məharətlə istifadə etdilər. Onlar öz siyasətlərinin mahiyyətini Dağlıq Qarabağ ermənilərinin hüquqlarının Azərbaycan tərəfindən kobud şəkildə pozulması, tarixi həqiqətlərin bərpası, millətlərin öz müqəddəratını müəyyənləşdirmək hüququ və s. kimi şüarlar altında gizlədərək keçmiş İttifaq və dünya ictimaiyyətində yanlış təsəvvür yaratmağa nail oldular. Havadarlarının təzyiqi və köməyi nəticəsində hətta Amerika senatı da erməni millətçilərinin işğalçılıq siyasətini ört-basdır edən qərarlar qəbul etdi. Müharibənin ideoloji və diplomatik hazırlığının yüksək səviyyədə təmin edilməsi bir sıra digər amillərlə birlikdə müəyyən dövr üçün Ermənistanın öz məqsədlərinə zorakı yolla çatmağa münasib xarici şərait yaratdı. Doğrudur, vaxt ötdükcə istər dünya ictimaiyyəti, istərsə də Ermənistanın ayrı-ayrı dairələri müharibənin hansı məqsədlərə xidmət etdiyini və onun hansı nəticələrə gətirib çıxardığını açıqlamağa başladılar. Lakin bu keyfiyyət bir daha cöstərir ki, müharibənin ideoloji hazırlığının aparılması üçün fəal siyasət yeridilməsi tərəflər üçün əlverişli şərait yarada bilər.

Müharibənin aparılması diplomtik, ideoloji hazırlıqdan başqa ölkənin iqtisadi və hərbi hazırlığını, elmi potensialının da səfərbər olunmasını tələb edir. Çünki müharibə çox böyük miqyaslı sosial hadisə olduğu üçün onun aparılması da böyük miqyasda güc, qüvvə və potensial tələb edir.

### 3. Müharibələrin gedişini və başa çatmasını şərtləndirən qanunlar

Silahlı mübarizənin başlanması ilə siyasətin aparıcı rolunda müəyyən keyfiyyət dəyişiklikləri meydana gəlir. Çünki bu zaman müharibənin aparılması siyasətin dinc qanunauyğunluqlarına deyil, yeni şəraitin tələblərinə əsaslanır. Bu da müharibənin, silahlı mübarizənin xüsusiyyətlərindən irəli gəlir. Bir söz-

lə, müharibənin başlanması üçün əmr verildikdən sonra quruda və suda hərbi fəaliyyət artıq diplomatların arzu və istəklərindən deyil, müharibənin öz qanunauyğunluqlarından irəli gəlir. Hərbi əməliyyatların başlanması silahlı mübarizənin yenilməz qanunlarını hərəkətə gətirir və onlara riayət olunmasını tələb edir. Bütün qanunlar kimi bu qanunlar da obyektivdir, insaneların iradə və zəkasından asılı olmayaraq mövcuddurlar və həmin qanunlara riayət edilməməsi məntiqi olaraq ordunun məhvinə, dövlətin isə məğlubiyyətinə yol aça bilər. Mürəkkəb ictimai-tarixi hadisə olan müharibənin və silahlı mübarizənin xarakterinin və məzmununun aydın dərk edilməsi üçün bu qanunauyğunluqların mahiyyətinə nüfuz etməyin böyük əhəmiyyəti vardır. Onlar müharibələrin meydana gəlməsinin, aparılmasının və başa çatdırılmasının ümumi tərəflərini əks etdirir. Mahiyyət etibarilə bütün müharibələrin arasında bir ümumilik, oxşarlıq var və onların düzgün təhlili üçün ilk növbədə müharibənin qanunauyğunğuqları öyrənilməlidir. Ancaq müharibələr arasında mahiyyətcə bir oxşarlıq, ümumilik olmasına baxmayaraq xarici əlamətlərinə və təzahür xüsusiyyətlərinə görə bir-birinin oxşarı olan müharibə tapmaq mümkün deyil. Belə fərqlilik bir çox tarixçilərə müharibənin sabit qanunlarının olmasını inkar etməyə əsas versə də əslində bu mütəhərriklik elə müharibə qanunlarının öz daxili xarakterindən doğur. Məlumdur ki, ictimai-tarixi hadisələr, o cümlədən də hərbi-tarixi hadisələr mütləq eyni şəkildə təkrar olunmur. Onların yalnız hərəkətverici qüvvələrində bir oxşarlıq tapmaq və ümumiləşdirmələr aparmaq mümkündür. Hərb tarixindən də məlumdur ki, müharibə aparan tərəflər həmişə bir çox obyektiv şərtlərlə qarşılaşmalı olur. Bunlar hansılardır? Birincisi, müharibə aparan tərəflər yalnız aid olduqları cəmiyyətin daxili iqtisadi potensiala və imkanlara uyğun olaraq verə bildiyi maddi vəsait, texnika və canlı qüvvə ilə kifayətlənməyə məcburdurlar. İkincisi, vuruşan tərəflər mövcud ictimai və iqtisadi münasibətlərlə, hərbi şəraitlə müəyyənləşən konkret siyasi və hərbi məqsədlər uğrunda mübarizə

aparırlar. Üçüncüsü, vuruşan tərəf qarşı tərəfin əks fəaliyyəti ilə rastlaşmalı olur. Dördüncüsü isə vuruşan tərəflər müəyyən xarici amillərlə - məkan, zaman, metroloji və s. amillərlə hesablaşmalı olurlar.

Bütün bu sadalanan xüsusiyyətlər əsasında vuruşan tərəflərin iradəsindən və istəyindən asılı olmayaraq mövcud olan müharibə qanunlarının əsas əlaqələrini və zəruri həlqələrini izləmək mümkündür. Bu qanunların obyektivliyi heç də onların elm tərəfindən nə dərəcədə öyrənilməsindən, insanlar tərəfindən nə səviyyədə başa düşülməsindən asılı deyil. Qanunlar elm və ayrı-ayrı subyektlər tərəfindən təsdiq edilməsindən asılı olmayaraq mövcuddur və onların subyektiv şəkildə ləğv etmək və ya aradan qaldırmaq mümkün deyildir. Əksinə, onların tələblərinə riayət edilməməsi, praktiki fəaliyyətdə rəhbər tutulmaması acı nəticələrə gətirib çıxara bilər. Müharibə qanunlarının obyektiv xarakteri başqa qanunlar kimi xüsusən özünü o zaman qabarıq hiss etdirir ki, insanlar onların əksinə gedirlər və bununla da qarşıya qoyulan məqsədə çata bilməyib uğursuzluğa düçar olurlar. Lakin müharibənin başlaması ilə ona qədərki siyasətə son qoyulmur, yalnız başqa vasitələrlə davam etdirilir. Cəmiyyətin inkişafında özünü göstərən qanunlar da yeni şəraitə uyğunlaşaraq müharibənin qanunları ilə qarşılıqlı əlaqədə təzahür edir.

Müharibə qanunauyğunluqlarını şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq mümkündür: 1) Müharibələrin meydana gəlməsini, onların məqsədlərini və həmçinin müharibələrə siyasi rəhbərliyin iqtisadi və siyasi şəraitdən asılılığını müəyyənləşdirən qanunauyğunluqlar; 2) Müharibələrin gedişinin və başa çatdırılmasının qüvvələr nisbətindən (iqtisadi, elmi-texniki, mənəvi, hərbi) asılılığını ifadə edən qanunauyğunluqlar; 3) Silahlı mübarizənin gedişi və başa çadırılmasının hərbi əməliyyatların aparılması üsullarından asılılığını ifadə edən qanunauyğunluqlar; 4) Hərbi əməliyyatların aparılması üsullarının onların inkişafından və yeniləşməsindən asılılığını ifadə edən qanunauyğunluqlar.

Hərbi ədəbiyyatda müharibənin qanunauyğunluqlarının başqa şəkildə də, başaq forma və əlamətlərinə görə də qruplaşdırılmasına da rast gəlmək mümkündür. Mütəxəssislərin fikrincə, yuxarıda sadalanan qanunauyğunluqların içərisində birinci və ikinci qanunauyğunluqlar daha üstün rola malikdirlər və onların düzgün həlli ilə müharibənin gedişinə həlledici təsir göstərmək mümkündür. Ancaq, bu heç də digər qanunauyğunluqların rolunun kiçildilməsi, diqqətdən qaçırılması kimi qəbul edilməməlidir.

Beləliklə, müharibələrin meydana gəlməsi onu başlayan dövlətlərin daxili və xarici siyasətləri ilə birbaşa bağlıdır və bu bağlılıq özünü aşağıdakı şəkildə təzahür etdirir: Birincisi, müharibə və onun əsas atributu olan silahlı mübarizə siyasətin davamıdır. Bəzi dövlətlər qarşılarına qoyduqları məqsədə dinc yolla çata bilmədikdə siyasətin zorakı vasitələrinə əl atıb müharibə seçimi edirlər. Burada bir cəhət də nəzərə alınmalıdır ki, müharibənin başlanması dolayı yolla təcavüzə məruz qalan dövlətin tutduğu mövqedən də asılıdır. Təcavüzə məruz qalan tərəf siyasi mənafelərinin qorunması üçün düzgün daxili və xarici siyasət yeridərsə, təcavüzkarın cilovlanması üçün lazımi işlər görə bilər. Ölkə daxilində müdafiə işlərini düzgün təşkil etməklə təcavüzü zəiflətmək və ya düşmən tərəfdə təcavüzün mənasızlığına yəqinlik yaratmaq olar. Xarici siyasətin düzgün qurulması nəticəsində isə müttəfiqlər taparaq onların hərtərəfli köməyinə arxalanıb təcavüzkarı təkləmək və beləliklə, müharibə kəsinin qarşısını almaq olar. Azərbaycanın cəlb olunduğu müharibənin nəticələri göstərir ki, Ermənistanın işğalçılıq müharibəsinə başladığı dövrdə respublikamızda buna qarşı konkret və ciddi tədbir görülməmişdi və bu da məntiqi olaraq müharibəyə gətirib çıxardı.

Müharibənin siyasətlə bağlılığı bir də onda özünü göstərir ki, müharibənin sosial xarakteri, onun ədalətli və ədalətsiz olması müharibəyə gətirib çıxaran siyasətin xarakteri ilə müəyyənləşir. Bu bağlılıq müharibənin mahiyyətini, onun hərəkətverici qüvvələrini və mənbəyini araşdırmağa daha geniş zəmin yaradır.

## 4. Hərb işində dövlət siyasətinin rolu

Ölkənin müharibəyə hazırlanması öz başlanğıcını müharibənin başlanmasından xeyli əvvəl götürür və onun məzmunu ölkənin hərbi siyasəti ilə müəyyənləşir. Bu hazırlığın məqsədi, metod və yolları isə dövlətin siyasətinin xarakterindən asılıdır. Əgər ölkənin daxili və xarici siyasəti təcavüzkar məqsədlərə xidmət edirsə sözsüz ki, onun hərbi sahədə yeritdiyi siyasət də ona əsaslanacaqdır. Ola bilsin ki, ehtimal olunan düşmənə qarşı ölkənin dövlət sənədlərində və aktlarında təcavüzkar xətt pərdələnmiş olsun. Belə hallarda həmin ölkənin həyata keçirdiyi siyasətin dəqiq və hərtərəfli təhlili bu siyasətə qarşı nəzərdə tutulan hərbi siyasətin düzgün formalaşdırılması üçün zəruri qənaətlər çıxarmağa imkan verə bilər.

İctimai-tarixi hadisə kimi siyasət bir-birilə sıx qarşılıqlı əlaqədə olan iki tərəfi-obyektiv və subyektiv tərəfləri özündə birləşdirir. Obyektiv tərəfin xüsusiyyəti ondan ibarətdir ki, o, iqtisadi bazis əsasında sosial təbəqələrin, siyasi qüvvələrin, millətlərin, dövlətin qarşılıqlı münasibətlərindən doğur. Subyektiv siyasət isə hakimiyyətdə olan siyasi qüvvələrin qarşıya qoyduğu proqram məqsədlərinə çatmaq üçün seçdikləri yol, forma, üsul və sairdir. Siyasətin bu xarakterik tərəfini bəzən siyasi strategiya və taktika da adlandırırlar. Hərb işinin subyektiv amillərindən biri kimi siyasətdən danışanda da siyasətin ikinci tərəfi, subyektiv tərəfi nəzərdə tutulur. Çünki hakimiyyətdə olan partiyanın və ya qüvvələrin yeritdiyi ümumi siyasət hərb işinin bütün sahələrinə təsir göstərməyə qabildir. Bu təsir dövlətin təşkilati rolu ilə həyata keçirilir. Ona görə də hərbi siyasət dövlət tərəfindən formalaşdırılır və onun səmərəli olması üçün reallığı əks etridməsinə xüsusi diqqət yetirilir. Formalaşdırılan hərbi siyasətin səmərəli və optimal olması üçün isə bu prosesin qanunauyğunluqları mütləq diqqət mərkəzində olmalıdır. Həmin qanunauyğunluqlar əsasında formalaşdırılan hərbi siyasət

dövlətin istiqamətləndirici rolu, hakimiyyətdə olan qüvvələrin isə təşkilatçılıq fəaliyyəti nəticəsində həyata vəsiqə alır. Çünki hazırda hərb sənəti, silah və texnika, hərb elmi və s. inkişaf edərək elə bir səviyyəyə çatmışdır ki, müharibənin aparılması və ya müdafiə işinin qurulması cəmiyyətin bütün potensialının səfərbər olunmasını tələb edir. Buna isə dövlətin təşkilatçılıq fəaliyyəti olmadan nail olmaq mümkün deyil. Məhz dövlət müəyyənləşdirir ki, hansı imkanlara malikdir və bu imkanlar necə bölüşdürülməlidir ki, dövlətin iqtisadiyyatı müharibə dövrünün tələblərinə uyğun olaran ahəngdar şəkildə işləsin. Doğrudur, hərbi siyasətin formalaşmasına təsir göstərən və siyasi rəhbərliyin iradəsindən asılı olmayan bir sıra obyektiv amillər də vardır. Məsələn, ölkənin əhalisinin sayı, təbii ehtiyatlarının miqdarı, ərazinin ölçüsü və şəraiti və s. Lakin bununla belə, ölkənin mövcud imkanlarına nəzərən planlaşdırılan tədbirlər heç də qeyri-real xarakter daşımamalıdır. İmkan və qüvvələrin düzgün qiymətləndirilməməsi ciddi səhvlərə gətirib çıxara bilər. Bu cəhət ölkənin hərbi siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində bir daha dövlətin rolunu nümayiş etdirir.

Ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün müdafiəsinin təmin edilməsi üçün dövlət tərəfindən bir sıra siyasi, iqtisadi, hüquqi, hərbi və sosial tədbirlər həyata keçirilmələdir. Bu tədbirlərə aşağıdakılar daxildir: Təcavüzün qarşısının alınması üçün beynəlxalq aləmdə müvafiq tədbirlərin görülməsi, hərb elminin inkişafı, dövlətin hərbi doktrinasının formalaşdırılması, müdafiə və hərbi quruculuq məsələlərinin hüquqi tənzimlənməsi, silahlı qüvvələrin strukturunun hazırlanması, formalaşdırılması və təkmilləşdirilməsi, ordunun zəruri sayının təmin olunması, onun yüksək döyüş qabiliyyətinin, döyüş və səfərbərlik hazırlığının saxlanması, dövlətin hərbi-texniki siyasətinin hazırlanması və həyata keçirilməsi, silahlı qüvvələrin silah, hərbi texnika, ərzaq, geyim və digər material ehtiyatları ilə təmin olunması, dövlət orqanlarının, iqtisadiyyatın, əhalinin və ölkə ərazisinin səfərbərlik hazırlığı, dövlət sərhədinin müha-

fizəsi, dövlət sirrinin və hərbi sirrin qorunmasının təmin edilməsi. Dövlətin hərbi siyasətinin hansı nəticəyə malik olması yuxarıda sadalanan tədbirlərin hansı səviyyədə həyata keçirilməsindən asılıdır. Onların səmərəli şəkildə həyata keçirilməsində isə dövlət orqanlarının rolu böyükdür. Bu isə müvafiq dövlət orqanlarının və qurumlarının mükəmməl fəaliyyət göstərə bilməsini, dövlətin müdafiəsinin əsasını təşkil edən tədbirlər sisteminin bütövlüklə yerinə yetirilməsi mexanizminin işlənib hazırlanmasını və ona lazımi şəraitin yaradılmasını tələb edir.

Hərb quruculuğu dövlət quruculuğunun tərkib hissəsidir. Bu sahə digər sahələrlə dialektik vəhdətdə olmalıdır. Ona birtərəfli üstünlük verilməsi və ya dövlət quruculuğunun digər sahələri ilə qarşılıqlı əlaqələrinin nisbətinin düzgün müəyyənləşdirilməməsi arzuedilməz nəticələrə gətirib çıxara bilər. Ona görə bu məqam da dövlət siyasəti tərəfindən düzgün tənzimlənməli və istiqamətləndirilməlidir.

Ölkənin müdafiəsi naminə zəruri olan tədbirlərin tam həyata keçirilməsi siyasi rəhbərliyin, dövlətin bütün orqanlarının böyük siyasi yetkinliyini və təşkilatçılıq qabiliyyətini tələb edir. Müasir dövrün müharibələri ölkənin iqtisadi, siyasi, mənəvi-siyasi və hərbi imkanlarının sınağı olduğu kimi həm də bu amilləri düzgün əlaqələndirərək müharibənin qələbə ilə başa çatdırılmasına istiqamətləndirməli olan dövlətin, rəhbərlikdə olan siyasi qüvvələrin təşkilatçılıq, yetkinlik keyfiyyətlərinin sınağıdır. Müharibənin gedişinin və başa çatdırılmasının, eləcə də ölkənin müdafiəsinin təşkili mövcud olan iqtisadi, siyasi, mənəvi-siyasi və hərbi potensialın ölkənin siyasi rəhbərliyi tərəfindən necə istiqamətləndirilməsindən, uzlaşdırılmasından birbaşa asılıdır. Əks təqdirdə ölkənin obyektiv imkanları hərəkətsiz qalmaqla son nəhayətdə onun məğlubiyyətinə gətirib çıxara bilər.

Bunun üçün ölkənin siyasi rəhbərliyi nəzəri və praktiki təcrübədən doğan düşünülmüş addımlar atmalı, müharibə qanunlarının obyektiv tələblərindən doğan qərarlar qəbul etməli, bu qanunların yaratdığı real imkanları həqiqətə çevirməyi,

müharibə qanunlarının şərtləndirdiyi amillərə məqsədyönlü təsir göstərməyi bacarmalıdır. Deyilənlərə nail olmaq üçün təkcə müharibə qanunlarını dərk etmək və praktiki fəaliyyətdə onlara riayət etmək kifayət deyildir. Müharibənin obyektiv qanunauyğunluqlarının həyata keçirilməsi mexanizminin qanunauyğunluqlarına və prinsiplərinə də ciddi əməl edilməlidir. Bu qanunlar və prinsiplər siyasi rəhbərliyin fəaliyyətini tənzimlədiyindən onları siyasi rəhbərliyin qanunları və prinsipləri, bəzi ədəbiyyatdə isə hərbi siyasətin həyata keçirilməsi qanunları və prinsipləri adlandırırlar. Onların təzahür etməsi həm cəmiyyətin inkişafı, həm də müharibə qanunlarının fəaliyyəti ilə müəyyənləşir və obyektiv xarakter daşıyır. Hərbi siyasətin həyata keçirilməsi qanunlarına və prinsiplərinə əməl edilməsi müharibənin planlaşdırılmasına, onun başlıca strateji məqsədlərinin formalaşdırılmasına, onlara nail olunması üçün müvafiq üsulların seçilməsinə və tətbiqinə, Silahlı Qüvvələrə rəhbərliyin səmərəliliyinə, dövlətin potensialının, xalq kütlələrinin maddi və mənəvi qüdrətinin müharibənin uğurla başa çatdırılması üçün səfərbər edilməsinə ciddi təsir göstərir.

## 5. Hərbi siyasət qanunları və prinsipləri

Hərbi siyasət və onun həyata keçirilməsinə rəhbərlik insan fəaliyyətinin bir sahəsidir və öz qanunlarına və prinsiplərinə malik olması insan fəaliyyətinin bu sahəsinin nizamlanması və məqsədyönlü şəkildə istiqamətləndirilməsi ehtiyacından doğur.

Mütəxəssislər hərbi siyasətin həyata keçirilməsinin aşağıdakı qanunları olmasını qeyd edirlər: Səylərin əsas vəzifələrin həllinə və əsas məqsədin əldə edilməsinə yönəldilməsi; plan və ideyaların həyata keçirilməsində qətiyyət və inadkarlıq göstərilməsi; əldə edilmiş nəticələrin ardıcıl təhlili və fəaliyyətin operativ şəkildə dəqiqləşdirilməsi; hərbi-siyasi mexanizmin bütün qatlarının fəaliyyət və məqsəd birliyi; ümumi vəzifələri yerinə yetirən orqan və müəssisələrin səylərinin ardıcıl uzlaşdırılması.

Dinc dövrə nisbətən müharibə şəraitində bu qanunlar özlərini bir qədər fərqli şəkildə göstərə bilər. Eyni zamanda müxtəlif şəraitdə sadalanan qanunların bəziləri müəyyən dərəcədə qabarıq, digəri isə qeyri-fəal şəkildə təzahür edə bilər. Bu cəhət siyasi rəhbərlikdən çeviklik və operativlik, güclü duyum və proseslərə dərindən nüfuz etmək qabiliyyəti tələb edir.

Hərbi siyasətin həyata keçirilməsinin əsas prinsipləri aşağıdakılardır: Xalqla sıx əlaqə və ona arxalanmaq, onların yaradıcı fəallığının və təşəbbüskarlığını hərtərfli müdafiə və inkişaf etdirmək; siyasi və hərbi rəhbərliyin vəhdəti; məqsəd və planların reallığı və elmi şəkildə əsaslandırılması; əsas həlqənin müəyyən edilməsi; qələbənin real imkanlarının həqiqətə çevrilməsi; rəhbərliyin mərkəzləşdirilməsi; elmi nəzəriyyənin və təcrübənin vəhdəti; planauyğunluq və məqsədyönlülük; qəbul edilmiş qərar və göstərişlərin icrasına nəzarət.

Son zamanlar cəmiyyətin ictimai-siyasi sistemində baş verən dəyişikliklər, tədricən planlı ictimai təsərrüfatçılıqdan imtina edildiyi bir şəraitdə hərbi siyasətin həyata keçirilməsi prinsiplərinin sonuncusu, yəni planauyğunluğun aktuallığı müəyyən şübhə altına alına bilər. Ancaq qeyd olunmalıdr ki, hərb quruculuğu, xüsusən silahlı qüvvələrin təşkili dövlət quruculuğunun özünəməxsus xüsusiyyətləri olan hissəsi kimi daim dövlətin nəzarəti altında olmasını və onun inkişafı üçün məqsədyönlü xətt seçilməsini tələb edir. Ona görə də bu prinsipin aktuallığı nəinki itmir, əksinə elmin, texnikanın sürətlə inkişaf etdiyi bir dövrdə böyük əhəmiyyət kəsb edir.

Müdafiənin etibarlı təşkili və ya müharibənin uğurla başa çatdırlması siyasi rəhbərlik (dövlət) tərəfindən iqtisadi, siyasi, mənəvi-siyasi və hərbi imkanların bacarıqla uzlaşdırılmasından və istiqamətləndirilməsindən asılıdır. Ancaq bu mücərrəd şəkildə başa düşülməməlidir. Müasir dövrün müharibələri və ya ölkənin müdafiə qabiliyyətinin təmin edilməsi mövcud imkanlarla kifayətlənməyi deyil, həm də mənəvi-siyasi. hərbi, başlıcası isə iqtisadi qüdrətin gücləndirilməsini tələb edir.

## 6. Ordu, onun mahiyyəti və inkişaf qanunauyğunluqları

Müharibələrin aparılmasının əsas vasitəsi ordudur. Onun meydana gəlməsi tarixən müharibələrin meydana gəldiyi dövrə təsadüf edir. Yəni, istər müharibələrin, istərsə də ordunun yaranması öz tarixini cəmiyyətin sosial parçalanmasından, dövlətlərin meydana gəlməsindən götürür.

İbtidai icma quruluşu dövründə ordu yox idi. Dövlətin mövcud olmadığı bir vaxtda xüsusi təşkil edilmiş silahlı quruma ehtiyac yox idi. Cəmiyyətdə insanları yalnız yaşayış üçün təbiətlə mübarizə məşğul edirdi və bu mübarizədə icmanın bütün üzvləri birgə mübarizə aparırdılar. Təbiətlə, vəhşi heyvanlarla mübarizə üçün heç şübhəsiz ki, icma üzvləri silahlardan istifadə edirdilər və silahlanırdılar. Lakin onların bu silahlı dəstəsi siyasi məqsədə xidmət etmirdi. Yəni bu dəstə icmanın daxili hakimiyyətinin təmin edilməsi və ya başqa bir icmanın istismar edilməsi xatirinə yaradılmamışdı. İbtidai insanlar sadəcə olaraq kollektiv şəkildə onları təhdid edən təbiət təhlükələrindən birgə qorunurdular.

İcma quruluşunun dağılması, iqtisadiyyatın inkişafı ilə əlaqədar olaraq getdikcə bir sıra adamlar, qəbilə başçıları əllərinə daha çox sərvət keçirir və öz qəbilə üzvlərindən fərqlənirdilər. Meydana gələn və mökəmlənən bu sosial təbəqə başqalarının üzərindəki üstünlüyü saxlamaq üçün xüsusi bir quruma ehtiyac duyurdu. Beləliklə də dövlət və onun atributlarından olan ordu meydana gəldi. Çünki, varlanan sosial təbəqə ətrafındakıları itaət altında saxlamaq, qonşu ərazilərə hücum etmək, öz ərazilərni genişləndirmək və ya onu kənar təcavüzlərdən qorumaq üçün xüsusi silahlı quruma ehtiyac duyurdular ki, ordu da belə qurum idi. Buna görə də ordu silahlı adamların dövlət tərəfindən saxlanılan nizami birliyi olduğu üçün onun meydana gəlməsi də dövlətlərin yaranmasındaen sonrakı dövrə təsadüf

edir. Dövlət təşkilatı olması ordunun başlıca əlamətlərindən biridir. Onun formalaşması, inkişafı, xarakteri və digər xüsusiyyətləri də dövlətin formalaşması, inkişafı, xarakteri və digər cəhətləri ilə şərtlənir. Ordu dövlətin atributu olduğundan dövlət olmayan bir quruluşda ordu da ola bilməzdi. O, hər şeydən əvvəl dövlətin orqanı, dövlət siyasətinin xüsusi vasitəsidir. Məlumdur ki, tarixin müxtəlif vaxtlarında müxtəlif üsyançı qüvvələrin silahlı dəstəlri və qurumları olmuşdur. Məsələn, Babəkin hərbi qüvvəsi, Babəkdən əvvəl və sonra istər ərəblərlə, istərsə də yerli və xarici istilaçılara qarşı qaldırılmış üsyanların aparılması üçün istifadə edilən hərbi dəstələr belə qurumlar olmuşdur. Lakin, onlar dövlət tərəfindən yaradılmadığı üçün ordu sayıla bilməz. Bir sözlə dövlətin sanksiyası olmadan yaradılan silahlı qurum ordu adlana bilməz.

Eyni zamanda o də məlumdur ki, dövlətin sanksiyası ilə dövlət daxilində bir neçə silahlı qurum yaradıla bilər. Məsələn, polis, təhlükəsizlik, ədliyyə orqanları və s. Lakin, ordunu onlardan fərqləndirən və bütünləkdə ordunun bir qurum kimi başqa bir fərqləndirici əlaməti ondan ibarətdir ki, o, dövlətin əsas silahlı qüvvəsidir. Bu qüvvələr xüsusi şəraitlərdə müəyyən daxili vəzifələr yerinə yetirsələr də, əsasən müharibələrin aparılması üçün nəzərdə tutulur. Ordunun tərkibində həm yüksək hazırlıqlı insanlar, həm də ən müasir silahlar cəmlənir ki, onlar da bu orqanın qüdrətini xüsusil artırır.

Ölkələrin iqtisadi, siyasi inkişaf səviyyəsindən asılı olaraq orduların maddi-texniki bazasında baş verən dəyişikliklər onun daha da təkmilləşməsinə zəmin yaratmışdır. Tarixən Azərbaycanda piyada və süvari qoşun növləri üstünlük təşkil etmişdir. Lakin, məlumdur ki, ən qədim zamanlarda cəng arabalarında vuruşanlar müstəqil qoşun növü kimi mövcud olmuşdur. Orta əsrlərdən başlayaraq Azərbaycanda dəniz qüvvələri də yaradılmağa başladı. Lakin, bu qoşun növü elə böyük çoxluq təşkil etmirdi.

Cəmiyyətin tərkib hissəsi olan ordunun ümumi inkişafı bütünlükdə cəmiyyətin ümumi inkişaf qanunauyğunluqları çər-

çivəsində baş versə də, o, dövlətin xüsusi orqanı kimi öz inkişafında nisbi müstəqilliyə malikdir. Bu nisbi müstəqillik onun qarşısında dayanan vəzifə ilə - müharibə aparmaq vasitəsi olması ilə izah olunur. İcra etdiyi vəzifə və daxili rejimi baxımından dövlətin başqa orqanlarınldan fərqləndiyi üçün ordunun özünəməxsus inkişaf qanunları da vardır.

Bu qanunlardan biri ordunun inkişafının dövlətin, hakimiyyətdə olan qüvvələrin ordu quruculuğu sahəsində apardığı siyasətin xarakterindən asılılığıdır. Ordu dövlətin orqanı olduğu üçün onun təşkili, təkmilləşdirilməsi və inkişaf etdirilməsi də dövlətin istiqamətverici rolu sayəsində mümkündür. Dövlət yeritdiyi düzgün və əsaslandırılmış siyasət ilə ordunu daha da möhkəmləndirə və inkişaf etdirə bilər. Eyni zamanda, əksinə, ordu quruculuğu sahəsində aparılan siyasət lazımi tələblərə cavab verməzsə, onda ordu dərin böhrana düşə bilər. Ordunu möhkəmləndirib inkişaf etdirə biləcək siyasətin yeridilməsi isə dövlətin rəhbərliyindən böyük səriştə tələb edir.

Ordunun inkişafının başqa bir qanunauyğunluğu onun ölkənin mövcud iqtisadi vəziyyətindən asılı olmasıdır. Ordunun inkişaf səviyyəsi ilk növbədə onun malik olduğu maddi-texniki bazanın xarakteri ilə müəyyənləşir. Ehtimal olunan müharibələrdə qalib gəlmək üçün hər bir tərəf daha müasir və daha geniş təsir gücünə malik silah və texnikadan istifadə etməyə çalışır. Ordunu daha müasir silah və texnika ilə təchiz etmək və bütünlükdə ordunun saxlanılması üçün zəruri olan maliyyə vasitələrini tapmaq isə ölkənin iqtisadiyyatının yüksək inkişaf səviyyəsində olmasını tələb edir. Yalnız yüksək iqtisadi inkişaf səviyyəsinə malik olan ölkə öz ordusunun tələbatını ödəyərək onu müasir maddi-texniki baza ilə təchiz edə bilər.

Ordunun malik olduğu müasir silah və texnika öz-özlüyündə qələbə gətirmir. Silah və texnikanın döyüş imkanları müharibədə insanların vasitəsilə üzə çıxarılır. Xüsusən, qədim və orta əsrlərdə işlədilən silahların hərəkətə gətirilməsi insanelardan böyük iradə və qətiyyət tələb edirdi. Ona görə də ordu-

nun fəaliyyəti qoşun hissələrinin şəxsi heyətinin və bütünlükdə ona dayaq duran xalqın mənəvi əhval-ruhiyyəsindən asılıdır. Yüksək və döyüşgən əhval-ruhiyyəyə malik olmayan ordu ağır döyüşlərin gərginliyinə tab gətirib qələbə əldə edə bilməz. Yalnız qarşıya qoyulan məqsədin ədalətliliyinə, onun əldə edilməsinin fərdi və ümumi mənafelərə cavab verməsinə inamı olan döyüşçü müharibədən qələbə ilə çıxa bilər.

Ordu xalqın tərkib hissəsi olduğu üçün onun mənəvi əhval-ruhiyyəsi də xalqın ümumi əhval-ruhiyyəsinin səviyyəsindən birbaşa asılıdır. Dağınıqlıq, özbaşınalıq, qanunsuzluq, cəzasızlıq, biganəlik, ümumdövlət mənafelərinə laqeydlik hökm sürən bir ordu mənəvi cəhətdən zəif olacaqdır. Ordudakı mübariz əhval-ruhiyyənin əsas mənbəyi xalqın mübariz iradəsi, əzmkarlığı və qətiyyətidir. Ona görə də orduda yüksək mənəvi əhval-ruhiyyəyə o vaxt nail olmaq mümkündür ki, onun təmsil etdiyi xalq yüksək mənəvi keyfiyyətləri ilə fərqlənsin.

Ordunun inkişaf qanunauyğunluqları obyektivdir və insanların iradəsindən asılı olmayaraq mövcuddur. Cəmiyyətin müxtəlif inkişaf səviyyəsində onlar müxtəlif şəkildə təzahür etsələr də, güclü ordunun yaradılması üçün bu qanunlara mütləq riayət edilməlidir.

Başqa dövlətlərdə olduğu kimi Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin orduları da bir sıra komplektləşdirmə üsullarından istifadə etmişdilər. Azərbaycan tarixində azad icmaçılardan, könüllü və məcburi şəkildə toplananlardan, muzdlulardan təşkil edilmiş ordular mövcud olmuşdur.

Azad icmaçılardan ibarət olan ordunun şəxsi heyəti azad icmaçılar arasından yığılırdı. Belə şəxslər başqa bir fəaliyyətlə məşğul olmurdular. Onlara torpaq sahələri verilirdi və həmin sahələrdən, habelə hərbi yürüşlərdən əldə edilən sərvətlər hesabına həyat sürürdülər.

Muzdlu ordunun şəxsi heyəti başqa tayfaların və ya ölkələrin təbəələri hesabına formalaşdırılırdı və onlar xidmətləri əvəzində razılaşdırılmış həcmdə pul alırdılar.

Könüllülük əsasında ordu hissələrinin formalaşdırılması ölkə vətəndaşlarının razılığı əsasında həyata keçirilirdi. Xarici təcavüzkarlara qarşı mübarizənin genişləndirilməsi zərurəti yarananda bu üsul xüsusi aktuallıq kəsb edirdi.

Məcburi üsul isə hazırda ordunun komplektləşdirilməsinin əsas üsuludur. Hərbi mükəlləfiyyətli olan hər bir şəxs qanunla müəyyənləşdirilmiş şəkildə hərbi xidmət keçməlidir. Tarixən də bu üsuldan istifadə edilmişdir. Zərurət yaranarkən şahların göstərişi ilə silah tutmağı bacaran şəxslər yaşından asılı olmayaraq ordu hissələrinə cəlb edilirdilər.

Dünya hərb təcrübəsindən orduların daimi və milis formaları da mövcuddur. Ordunun milis forması Azərbaycan dövlətləri üçün xarakterik deyil. Bu formanın tətbiqi əsasən maliyyə problemləri ilə bağlı idi. Bu forma ilə təşkil edilən ordu əsasən müharibə vaxtı cəmləşdirilirdi. Sülh dövründə isə onlar evə buraxılırdılar. Lakin bu ordu heç də qeyri-müəyyən kütlə deyildi. Onların sayı, maddi-texniki bazası konkret şəkildə məlum olurdu və bəzən sülh dövründə də onlar təlim toplanışlarına çağırılaraq müəyyən hazırlıq keçirdilər.

Daimi ordular isə mövsümi olmayan, həm müharibə, həm də sülh şəraitində saxlanılan ordulardır.

Ordular eyni zamanda nizami və qeyri-nizami olmağına görə fərqlənirlər. Nizami ordu daimi ordu olmaqla vahid ştat strukturuna, vahid komplektləşdirmə sisteminə, vahid təlim-tərbiyə sisteminə malik olub bütünlükdə dövlət tərəfindən maliyyələşdirilir. Belə ordunun şəxsi heyəti adətən eyni tipli silah, sursat və təchizatla təmin edilir, bir yerdə yerləşdirilir, eyni təlim, xidmət və yaşayış rejiminə riayət edirlər.

Qeyri-nazimi ordularda isə adətən bu tələblərə əməl edilmir. Belə ordular müxtəlif üsullarla komplektləşdirilir, vahid ştat strukturuna, təlim-tərbiyə sisteminə malik olmurlar. Onların xidmət, təlim və yaşayış rejimləri də vahid tələb əsasında qurulmur, eyni tipli silah və təchizatla təmin edilmirlər.

## 7. Hərb sənəti (məharəti), onun tərkib hissələri, qanun və prinsipləri

Hərb sənəti (məharəti) hərb elminin mühüm sahələrindən biridir. O, müharibəyə, müxtəlif əməliyyat və döyüşlərə hazırlaşmağın, onların aparılmasının üsul və formasını öyrənir. Bir elm sahəsi kimi formalaşması çox-çox sonralara təsadüf etsə də hərb sənətinin kökləri müharibə və orduların meydana gəldiyi dövrlərə gedib çıxır. Çünki, hələ ən qədim zamanlarda əlinə silah alan insanlar qarşı tərəfə qalib gəlmək üçün müxtəlif yollar və vasitələr axtarıb tapmaq məcburiyyətində qalmışdılar. Döyüşdə adətən o tərəf qalib gəlirdi ki, həmin tərəf şüurlu şəkildə fəaliyyət və təsir formalarını axtarıb tapırdılar, müəyyən təcrübəyə riayət edirdilər. Vaxt ötdükcə bu sahəyə diqqət xeyli artırıldı. Çünki, adi say üstünlüyü ilə qələbə çalmaq heç də həmişə mümkün olmurdu və döyüşün taleyi daha çox hansı tərəfin sınanmış fəndlər işlətməsi ilə həll olunurdu. Sözsüz ki, hərb sənətinin əsasını təkcə onun praktiki tərəfi təşkil etmirdi. Bu elm sahəsinin də nəzəri əsasları vardır. Ancaq, onu hərbin digər sahələrindən daha çox fərqləndirən xüsusiyət ondan ibarətdir ki, hərb sənəti bir qayda olaraq nəzəriyyə və praktikanın daha qabarıq vəhdəti kimi özünü göstərir. Bu, praktiki vərdişlərin həyata keçməsinin bütün səviyyələrdə olan komandirlərin və şəxsi heyətin yaradıcı zəkası, təşəbbüskarlığı, qətiyyəti və digər keyfiyyəti ilə şərtlənirdi. Hərb tarixinə maraqlı səhifələr yazmış görkəmli sərkərdələrin böyüklüyü də məhz praktiki vərdişləri və fəndləri, döyüşdən döyüşə əldə edilmiş təcrübi qənaətləri zamana və şəraitə uyğunlaşdıraraq məharətlə tətbiq etməsi məharəti ilə ölçülürdü. Bir sözlə hərb sənəti silahlı mübarizənin obyektiv qanunauyğunluqlarının əks etdirsə də bu qanunauyğunluqların həyata keçirilməsində subyektiv amilin rolu böyükdür və hərb sənəti nəzəriyyəsi də bu cəhətə xüsusi diqqət yetirir.

Hərb sənəti üç tərkib hissəsindən ibarətdir: strategiya, əməliyyat sənəti (operativ sənət) və taktika.

Strategiya - ölkənin və onun silahlı qüvvələrinin müharibəyə hazırlaşdırılması, strateji əməliyyat və kampaniyaların aparılması, ölkənin ərazi bütövlüyünün qorunması üçün başqa mübarizə formalarından, o cümlədən, partizan hərəkatından istifadə edilməsi ilə bağlı olan məsələləri öyrənir. Strategiya eyni zamanda ölkənin müharibəyə hazırlaşdırılmasına və silahlı mübarizənin aparılmasına məsuul olan ali baş komandanlığın, ali hərbi-siyasi rəhbərliyin, ali hərbi orqan və qərargahların fəaliyyət sahəsidir.

Hərb sənətinin bu tərkib hissəsinin qarşısında aşağıdakı vəzifələr dayanır:

- Silahlı mübarizənin ümumi qanunauyğunluqlarının öyrənilməsi;
- Gələcək müharibələrin xarakterini, onun gedişini və başa çatdırılmasını şərtləndirən şəraitin və amillərin müəyyənləşdirilməsi və öyrənilməsi;
- Ölkənin və silahlı qüvvələrin müharibəyə hazırlanmasının nəzəri əsaslarının öyrənilməsinə (silahlı qüvvələrin, maddi-texniki ehtiyatların səfərbər edilməsi, silahlı qüvvələrin sülh vəziyyətindən müharibə vəziyyətinə gətirilməsi, hərbi əməliyyatların keçiriləcəyi ərazilərin müharibəyə hazırlaşdırılması) və onların həyata keçirilməsinə praktiki hazırlıq;
- Böyük miqyaslı hərbi əməliyyatların keçirilməsi üçün strateji qərarların qəbul edilməsi, müharibənin və onun ayrı-ayrı kampaniyalarının həyata keçirilməsinin prinsipinin müəyyənləşdirilməsi;
- Silahlı qüvvələrin fəaliyyətinə və müharibənin aparılmasına rəhbərlik;
- Silahlı mübarizə aparılmasının strateji üsul və formalarının işlənməsi və öyrənilməsi;
- Strateji ehtiyatların yaradılması və onların düzgün istifadəsinə rəhbərlik.

Konkret zaman çərçivəsində strategiyanın məqsəd və vəzifələri dövlətin yetirdiyi siyasətin məqsəd və vəzifələri ilə müəyyənləşir. Yəni siyasətlə strategiya arasında qarşılıqlı əlaqə mövcuddur. Lakin, bu qarşılıqlı əlaqədə siyasət daha üstün və aparıcı rola malikdir. Çünki, silahlı qüvvələri dinc vəziyyətdən hərbi vəziyyətə gətirən səbəb və məqsəd dövlətin siyasəti ilə müəyyənləşir. Siyasi rəhbərlik aparılan müharibədə güddüyü siyasi məqsədi müəyyənləşdirərək onun əldə edilməsi üçün hərbi strategiya qarşısında müvafiq vəzifələri qoyur və eyni zamanda onun icrasına da strateji planda nəzarət edir.

Siyasi rəhbərlik daim silahlı mübarizənin gedişinə rəhbərlik edir, onu istiqamətləndirir, daxili və xarici siyasətlə uzlaşdırılmasına diqqət yetirir. Siyasi rəhbərlik eyni zamanda müharibənin gedişində həlledici zərbənin yerinin və zamanının müəyyənləşdirilməsinə də təsir göstərə bilər. Bu isə müharibənin gedişində bütün hərbi əməliyyatların xarakterinə və taleyinə ciddi təsir göstərə bilər.

Hərb sənətinin başqa bir tərkib hissəsi əməliyyat (operativ) sənətidir. O, strategiya ilə taktika arasında aralıq mərhələni təşkil edir və hərbi strategiya tərəfindən müəyyənləşdirilən məqsədlərin əldə edilməsi üçün orduların və daha böyük hərbi vahidlərin hərbi əməliyyatlarının hazırlanması və aparılması ilə bağlı məsələləri əhatə edir.

Əməliyyat (operativ) sənətinin əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- müasir hərbi əməliyyatların xarakterinin öyrənilməsi;
- hərbi əməliyyatların hazırlanmasının və aparılmasının ümumi qanunauyğunluqlarının, prinsip və qaydalarının öyrənilməsi, onların praktiki icrasına rəhbərlik;
- hərbi əməliyyatların praktiki icrasının əsaslarının işlənməsi;
- operativ (əməliyyat) birliklərin imkanlarının, xüsusiyyətlərinin və təşkilati formalarının öyrənilməsi;
- hərbi əməliyyat aparan operativ vahidlərin maddi-texniki təchizatının təmin edilməsinin əsaslarının hazırlanması;

- hərbi əməliyyatlar zamanı operativ vahidlərin idarə edilməsinin əsaslarının hazırlanması;

- əməliyyat zamanı operativ vahidlər arasındakı qarşılıqlı əlaqələrin tənzimlənməsinin əsaslarının hazırlanması;

Hərb sənətinin üçüncü tərkib hissəsi taktikadır. Taktika bölmə, hissə və birləşmələrin döyüşlərinin hazırlanması və aparılması məsələlərini əhatə edir.

Taktikanın aşağıdakı vəzifələri vardır:

- müaisr döyüşün xarakterinin müəyyənləşdirilməsi və öyrənilməsi;

- döyüşün aparılmasının əsas prinsiplərinin işlənməsi;

- qoşun növlərinin rolunun və onların döyüşdə istifadə edilməsi prinsiplərinin müəyyənləşdirilməsi;

- qoşun növlərinin taktiki təşkilati formalarının öyrənilməsi;

- döyüşün planlaşdırılmasının və onun praktiki icrasının əsaslarının öyrənilməsi;

- döyüş zamanı müxtəlif qoşun növlərinin bölmə, hissə və birləşmələrin arasında qarşılıqlı əlaqələrin yaradılması əsaslarının öyrənilməsi;

- hissə və bölmələrin döyüş zamanı maddi-texniki tələbatının təmin edilməsi əsaslarının öyrənilməsi və işlənilməsi;

- döyüş zamanı hissələrin idarə edilməsinin nəzəri və praktiki əsaslarının öyrənilməsi;

Taktika ümumqoşun taktikasına və qoşun növlərinin və qisimlərinin taktikasına bölünür: Məsələn, piyada qoşunlarının taktikası, dəniz qoşunlarının taktikası, süvari qoşunlarının taktikası, artilleriya qoşunlarının taktikası və s.

Taktika strategiya və əməliyyat sənətindən asılı vəziyyətdədir və onların müəyyənləşdirdiyi vəzifələrin həyata keçirilməsi üçün əsas vasitədir. Ancaq, eyni zamanda taktika strategiya və əməliyyat sənətinə əks təsir göstərmək qabiliyyətinə malikdir. Çünki, taktiki vəzifələrin icra səviyyəsi və onun imkanları strateji və əməliyyat vəzifələinin xarakterinə və pers-

pektivinə təsir göstərir. Yəni strategiya, əməliyyat sənəti və taktika arasında sıx qarşılıqlı əlaqələr mövcuddur.

Strategiya hərbi-siyasi rəhbərliyin fəaliyyət sahəsi kimi özünü göstərməsi və onun əsas istiqamətlərinin siyasətlə müəyyənləşdiyi üçün xarakter baxımından hərbi-siyasi məqamları özündə daha güclü şəkildə əks etdirir. O, bir növ qoşunların praktiki fəaliyyəti üçün hərbi-siyasi zəmin və şərait yaradır.

Qoşunların hərbi-praktiki və döyüş fəaliyyəti daha çox əməliyyat sənəti və taktikada özünü əks etdirir. Hərb sənətinin üç tərkib hissəsinin arasındakı qarşılıqlı əlaqələrin əhəmiyyətini inkar etmədən qeyd olunmalıdır ki, əməliyyat sənəti və taktiki səviyyələrdə hərbçilərin praktiki vərdişlərinin icra məharəti daha çevik və qabarıq nümayiş olunur. Bu sahələrdə sərkərdələrin, bütün səviyyələrdə olan komandirlərin təşəbbüskarlığına, müstəqil və sərbəst fəaliyyət göstərmək qabiliyyətinə, bütünlükdə subyektiv amilin təsirinə geniş imkanlar olsa da bu imkanlar sərhədsiz deyil və bir sıra obyektiv qanunlarla tənzimlənir. Bu qanunlar aşağıdakılardır: silahlı mübarizənin forma və üsulunun döyüşün və əməliyyatın maddi əsaslarından asılılığı qanunu; hər bir döyüşün və əməliyyatın onun gedişinin müxtəlif anlarında qarşı duran tərəfin hansının daha böyük hərbi qüdrətə malik olmasından asılılığı qanunu.

Birinci qanun döyüşdə iştirak edən insanların hərbi-mənəvi keyfiyyətlərini, onların döyüşü təşkil etmək və aparmaq bacarığını, kadrların yerləşdirilməsini, hazırlıq səviyyəsini, istifadə etdikləri silah və texnikanın taktiki və texniki xüsusiyyətlərini, onlardan istifadə edilməsi məharətini və s. məslələri, ikinci qanun isə strateji səviyyədə mövcud olan qüvvə üstünlüyünün, əməliyyat və taktiki səviyyələrdə, onların ayrı-ayrı məqamlarında təmin edilməsi məsələlərini əhatə edir.

Əməliyyat sənəti və taktikanın tətbiqində onların prinsiplərinə əməl edilməsinin də böyük əhəmiyyəti vardır. Bu prinsiplər özləri də uzun inkişaf yolu keçmişlər və hərb tarixinin ayrı-ayrı mərhələlərində hərb işinin səviyyəsindən asılı olaraq

müxtəlif şəkildə özlərini göstərmişlər. XX əsrin elmi və təcrübi qənaətlərinin ümumiləşdirilməsi əməliyyat sənətinin və taktikanın silahlı mübarizə qanunlarından doğan aşağıdakı prinsiplərinin mövcudluğunu əsas götürməyə imkan verir: bölmə, hissə və birləşmələrin daimi yüksək döyüş hazırlığı; döyüşün aparılmasının fasiləsizliyi; yüksək fəallıq və qətiyyətlilik; döyüşdə qoşun növlərinin və xüsusi qoşunların razılaşdırılmış birgə fəaliyyəti və onların arasında ardıcıl qarşılıqlı əlaqələrin saxlanılması; gözlənilməzlik; lazımi vaxtda lazımi istiqamətdə qoşunların əsas səylərinin təmin edilməsi; bölmə və hissələrin atəşlə manevri; qarşıya qoyulan vəzifənin yerinə yetirilməsi naminə mənəvi-siyasi və psixoloji amillərin nəzərə alınması və onların bütünlüklə istifadə edilməsi; döyüşün hərtərəfli təmin edilməsi; qoşunların döyüş qabiliyyətinin qorunması və vaxtında bərpa edilməsi; qoşunların fasiləsiz idarə edilməsi; qarşıya qoyulan məqsədə çatmaq üçün qətiyyət və əzmkarlıq göstərilməsi.

## 8. Hərb tarixinin mərhələləri

Ümumdünya hərb tarixinin tədqiqatçıları ümumən hərb tarixini dörd mərhələyə bölürlər: qədim dövrün hərb tarixi. feodalizm dövrünün hərb tarixi, kapitalizm dövrünün hərb tarixi və XX əsrdən başlanan hərb tarixi. Bir çox sovet tədqiqatçıları XX əsrin oktyabr inqilabına qədərki dövrünü də kapitalizm mərhələsinə aid etsələr də sonuncu mərhələnin XX əsrin əvvəlindən götürülməsi daha düzgündür. Çünki, XX əsrdə elmin, texnikanın yüksək inkişaf səviyyəsi hərb işinin maddi əsasında da ciddi keyfiyyət dəyişikliyi yaratmışdı və xarakter baxımından XX əsrin əvvəllərində hərb işinin səviyyəsi XIX əsrin hərb işinin səviyyəsindən xeyli fərqlənirdi.

Hərb tarixinin mərhələlərə bölünməsi onun inkişaf mənzərəsinin daha yaxşı öyrənilməsinə, hər mərhələnin öz inkişaf xüsusiyyətlərinin araşdırılmasına, bu inkişafı şərtləndirən amillərin tədqiqinə əlverişli zəmin yaradır. Azərbaycanın hərb tarixi

də çox böyük inkişaf yolu keçmişdir və heç şübhəsiz ki, müxtəlif dövrlərdə Azərbaycanın hərb işi forma və məzmun baxımından keyfiyyət dəyişikliklərinə məruz qalmış və xalqın ictimai-tarixi inkişafına uyğun şəkildə özünü göstərmişdir. Keçdiyi tarixi yolu daha ətraflı tədqiq etmək və öyrənmək üçün ümumdünya hərb tarixinin yuxarıda göstərilən bölgüsündən istifadə edilməsi mümkün olsa da onun eyni ilə Azərbaycanın hərb tarixinə tətbiq edilməsi düzgün olmazdı. Çünki Azərbaycanla hərb işinin daha çox inkişaf etdiyi  Avropa ölkələrinin iqtisadi inkişaf səviyyəsi və bununla bağlı olaraq onun hərb işinin inkişaf səviyyəsi heç də həmişə eyni və ya yaxın vəziyyətdə deyildi. Ona görə də Azərbaycanın hərb tarixinin mərhələləri Azərbaycan xalqının tarixi inkişaf xüsusiyyətlərinə görə aparılmalıdır. Azərbaycanın hərb tarixi də dörd mərhələyə bölünə bilər: qədim dövr, ilkin orta əsrlər, XV əsrdən Azərbaycanın Rusiyaya birləşdirilməsinə qədər və XX əsrdən başlanan dövr. Bu bölgüdə çox güman ki, yalnız üçüncü mərhələnin başlanğıc və qurtarma tarixi müəyyən mübahisə doğura bilər və heç şübhəsiz ki, gələcəkdə hərb tarixi geniş şəkildə öyrənildikcə bu məsələ də tam həllini tapacaqdır. Hər halda bu barədə bəzi qənaətləri bölüşmək maraqlı olardı. Məlumdur ki, 1828-ci ildə Azərbaycan Rusiyaya birləşdirildikdən sonra Azərbaycanda müstəqil hərb işi yox idi. Az sayda azərbaycanlılar çar Rusiyasının ordusunda olsalar da şübhəsiz ki, bunun Azərbaycan xalqının tarixində müstəqil mərhələ kimi götürülməsi düzgün olmazdı. Üçüncü mərhələnin başlanğıcının XV əsrdən götürülməsinə gəlincə isə bu, müəyyən qənaətlərlə bağlıdır. Aydındır ki, hər bir mərhələ özündən əvvəlki mərhələdən hərb işinin daha yüksək keyfiyyət səviyyəsi ilə fərqlənir. Hərb işinin keyfiyyətcə yeni səviyyəyə qalxması isə cəmiyyətin özünün inkişafında ciddi irəliləyişlər olmadan mümkün deyil. Bu mənada XV əsr monqol-tatar və Teymurləng basqınlarından sonra Azərbaycan dövlətlərinin sürətli inkişafı, onun hərb işinin yenidən qurulması üçün başlanğıc nöqtəsi sayıla bilər. XV-XVI əsr həm

də hərb işində inqilab yaratmış olan odlu silaha keçid dövrüdür. Odlu silahın tətbiqi Azərbaycanda da hərb işinə yeni dəyişikliklər gətirmişdi.

Azərbaycanda hərb işinin inkişafının sonuncu mərhələsini müəyyənləşdirən əlamətlər isə hərb işi üçün xarakterik olan ümumi tendensiyaların, hərbi təfəkkürün yeni səviyyəsidir. Nizami ordunun meydana gəlməsi, ordunun təchizatının və maddi-texniki bazasının əvvəlki mərhələlərdən fərqlənməsi, ordunun cəmiyyət və dövlət həyatındakı yeri, dövlət və xalqın hərb işindəki rolunun qabarıqlaşması hərb tarixinin yeni mərhələsinin xarakterik tərəfləridir. XX sonlarından isə Azərbaycanın hərb tarixinin yeni bir səhifəsi açılmışdır. Dövlət rəhbərliyinin hərb işinin inkişafını şərtləndirən tendensiyaları düzgün qiymətləndirməsi, onların reallaşdırılması üçün uyğun siyasət izləməsi Azərbaycanın maraqlarına xidmət edən hərbin inkişafına yeni bir zəmin yaratmışdır.

# II. MANNA DÖVLƏTİNİN HƏRB TARİXİ

## 1. Dövlətlərin meydana gəlməsindən əvvəl Azərbaycanda hərb işinin ilkin əlamətləri

Başqa xalqlarda olduğu kimi Azərbaycanda da qoşunların, müharibələrin, hərb işinin tarixi onun ərazisində dövlətin, təbəqəli cəmiyyətin meydana gəldiyi vaxtlardan başlanmışdır. Bu prosesin reallaşması min illərlə davam edən ictimai-tarixi inkişafın məntiqi nəticəsi kimi baş vermişdir. Ən qədim dövrlərdən insanlar ictimai inkişafın daşıyıcısı olmuş və onlar cəmiyyətin təbəqələşməsinə qədər keçdiyi yolla dövlətin meydana gəlməsinə, onun atributlarından biri olan qoşunların formalaşmasına obyektiv zəmin yaratmışlar. Yəni hərb tarixi öz başlanğıcını cəmiyyətin sinfi təbəqələşmə dövründən götürsə də onun kökləri çox-çox uzaqlara - insanların öz mövcudluğunu və varlığını qoruyub saxlamaq üçün təbiətlə mübarizə apardığı dövrlərə gedib çıxır. Çünki bu mübarizədə insanlar ən bəsit silahlar düzəldərək silahlanmış, müxtəlif qruplarda və dəstələrdə birləşməli olmuş, qarşılaşdıqları təhlükələrin aradan qaldırılmasında ilkin döyüş vərdişləri əldə etmişlər.

Azərbaycanın yaşayış üçün əlverişli təbii-coğrafi şəraitə malik olması ən qədim zamanlardan burda insanların məskunlaşmasına imkan vermişdir. Son onilliklərdə aparılan tədqiqatlar və arxeoloji qazıntılar də bu deyilənləri bariz şəkildə sübut edir. Həmin tədqiqatlar nəticəsində Azərbaycan ərazisində nəinki ən qədim insan izlərinə, həm də sadə silahların qalıqlarına rast gəlmək mümkündür. Məsələn, Azıx mağarasından neandertal tipli insana məxsus 350-400 min yaşı olan çənə sümüyü ilə bərabər, burada ilk kobud və ibtidai daş alətlər, çapacaqlar və digər əşyalar tapılmışdır (1). İlk kobud alət və silahların hazırlanması insanın əqli fəaliyyətini daha da genişlən-

dirmiş və bu fəaliyyət genişləndikcə ilk alət və silahlar daha da təkmilləşmişdir. Vəhşi heyvanların ovlanmasına başlanması həmin vaxta qədər əsasən yem bitkiləri yığmaqla ərzağa olan tələbatını ödəyən insanların silahlarının da keyfiyyətcə təkmilləşməsini zəruri edirdi (2). Vəhşi heyvanların ovlanması və onlardan qorunmaq üçün dəyənəkdən istifadə etməklə bərabər, daşları bir-birinə sürtmək yolu ilə hazırlanan silah və alətlər də qədim insanların həyatına geniş daxil olurdu. Belə silahların hazırlanması üçün çaxmaq daşından, dəvəgözü daşından daha çox istifadə olunurdu.

Azərbaycan ərazisində aşağı və orta paleolit dövrünə aid olan insan məskənlərinə - Aveydağ, Damcılı, Daşsalahlı, Tağlar, Qazma, Büzeyir və digər mağaralarda rast gəlinmişdir (3). Yuxarı paleolit dövründə daş alətlər daha da təkmilləşmiş (4), mezolit dövründə isə kaman və oxun istifadəsinə başlanmışdır (5). Bu da ovçuluğun inkişafına zəmin yaratmışdır. Ox və kamandan istifadəyə başlanması və onun səmərəliliyinin artırılması isə öz növbəsində sözsüz ki, bu silahın daha da təkmilləşdirilməsi zərurətini ortaya atmışdı. Damcılı mağarasından, Qobustan yaşayış məskənlərindən tapılmış balaca ox ucluqları, daş qəlpələrdən düzəldilmiş ox ucluqları (6) qədim insanların bu istiqamətdəki fəaliyyətlərinin ilk bəhrələridir.

Neolit və eneolit dövründə qədim insanların istifadə etdikləri silah və alətlər daha da yaxşılaşmış və bu də ictimai həyatın inkişafına təsir göstərmişdir. Neolit dövründə insanlar ilk dəfə olaraq daşları cilalamağı öyrənib silahların və alətlərin kəsərliyini artırmağa nail olmuşlar.

Kaman və oxun kəşf edilməsi isə ovçuluğu insanların daimi peşələrindən birinə çevirmişdir. Elə həmin vaxtlardan da insanlar ilk dəfə metalla rastlaşmış və ondan öz məqsədləri, o cömlədən də silah istehsalı üçün istifadə etməyə başlamışlar. Naxçıvan ərazisində yerləşən Kültəpə yaşayış məntəqəsindən tapılan misdən düzəldilmiş kiçik əyri bıçaq, nizə ucu, qıyıq, bəzək əşyaları və s. ilk metal alətlərdən hesab olunur (7).

Tuncdan istifadəyə başlanması isə bu silahların daha da təkmilləşməsinə imkan yaratdı. Tuncdan düzəldilmiş əmək alətləri və primitiv silahlar ona qədər olan alət və silahlardan möhkəmliyi və keyfiyyəti ilə seçilirdi. Həmin dövrə aid olan Mingəçevir təpəliklərində arxeoloqlar böyük tunc qılınc, balta-təbərzinlər, xəncər, obsidan ox ucları tapmışlar (8). Təsərrüfat həyatında əkinçiliyin və maldarlığın mühüm rolu artdıqca ictimai həyatda kişilərin rolu da genişlənirdi. Tuncdan hazırlanan möhkəm və keyfiyyətli əmək alətləri təsərrüfatın müxtəlif sahələrinin sürətli inkişafına zəmin yaradırdı. Yaşayış məskənləri arasında mübadilə genişlənir, qarşılıqlı əlaqələr güclənirdi. İctimai təsərrüfat inkişaf etdikcə məskənlər və tayfalar arsındakı əlaqələr bəzən ziddiyyətlərə çevrilir və bu də öz növbəsində yaşayış məskənlərinin sakinlərini digər tayfa üzvlərinin basqınlarından qorunmaq üçün yollar axtarmağa məcbur edirdi. Həmin məqsədlə insanlar müdafiə tikililərindən istifadə etməyə başladılar. Qədim insanlar öz məskənlərini adətən daha yaxşı müdafiə olunmaq imkanı verən hündürlüklərdə və ya digər coğrafi sahələrdə tikir, ətrafına müdafiə hasarları çəkirdilər. Ticarət yollarının kəsişməsində, tayfalar üçün strateji əhəmiyyətə malik olan məntəqələrdə qala şəhərlər salınırdı (9). Heç şübhəsiz ki, qədim insanlar xarici təhlükədən qorunmaq üçün təkcə müdafiə hasarları və qala şəhərdəri ilə kifayətlənmirdilər. Bu tikililər onların müdafiəsini yalnız müəyyən qədər asanlaşdırırdı. Qədim insanlar eyni zamanda güclü müdafiə silahları düzəltməyə çalışır və təhlükə yaranan vaxt müdafiə dəstələrində birləşirdilər. Qədim insanlar digər tayfaların hücumlarından təkcə öz yaşayış məskənlərini deyil, onların yaşayışı üçün zəruri olan heyvandarlığın, əkinçiliyin inkişaf etdirildiyi əraziləri də qoruyur və imkan yarandıqda öz ərazilərini genişləndirməyə səy göstərirdilər. Bu da tayfalar arasında toqquşmalara gətirib çıxarırdı. Lakin, bu toqquşmaları təbəqəli cəmiyyətdə olan müharibələrlə eyniləşdirmək olmaz. Çünki ibtidai icma dövründə nəsillər və qəbilələr arasında gedən silahlı toqquşma-

lar siyasi xarakter daşımırdı. O, qədim insanların yaşamaq uğrunda, yaxşı əkin sahələri, otlaqlar və s. üçün apardıqları mübarizənin bir formasıdır (10). Bu işdə tayfanın bütün üzvləri və qadınlar da iştirak edirdi. O vaxt nə silahlı insanların xüsusi təşkilatı (yəni qoşun), nə də müharibənin aparılması üçün xüsusi bir silah mövcud idi. Ona görə də ibtidai icma insanları arasında gedən silahlı toqquşmalar sözün əsil mənasında müharibə deyildi (11).

Xüsusi mülkiyyətin olmadığı ibtidai icma quruluşunda tayfaların, qəbilələrin özünə məxsus hərbi qrupları mövcud idi. Bu qurumlar əhalinin özü-özünə fəaliyyət göstərən hərbi təşkilatı idi. Yəni bu vaxt qəbilənin və tayfanın bütün üzvləri həm döyüşçü idi, həm də onlar ehtiyac yarananda hamılıqla kollektiv marağın müdafiəsində dayanırdılar.

İctimai təsərrüfat inkişaf etdikcə təxminən e.ə. III minilliyin sonu, ikinci minilliyin əvvəllərindən başlayaraq silahlı toqquşmalar insanların cığırdaşına çevrildi. Əmlak bərabərsizliyinin dərinləşməsi, xüsusi mülkiyyətçilik meyllərinin güclənməsi Azərbaycanda ilk dövlətlərin meydana gəldiyi ərazilərdə yaşayan qəbilə və tayfalar arasında da silahlı toqquşmalara, insanlarda hərb işinə bağlılığın artmasına səbəb olurdu. Bunu həmin ərazilərdən tapılan abidələrin izləri də sübut edir. İran ərazisindən tapılmış və tarixi e.ə. III minilliyin sonlarına aid olan heykəltaraşlıq nümunəsində (12) öz dövrünün yəqin ki, ən müasir silahları ilə silahlanmış və döşməni ayağı altına salmış döyüşçü əks edilmişdi. Həmin döyüşçünün ox-kamanı və kəmərinə keçirdiyi kiçik balta təsdiqləyir ki, bu silahlar həmin dövrdə ən çox işlədilən silahlar olub.

E.ə. III minilliyin sonlarından Cənubi Azərbaycanda və ona qonşu olan ərazilərdə silahlı toqquşmaların baş verməsi bu günə qədər gəlib çıxmış yazılı mənbələrdə də öz əksini tapmışdır. Belə ki, şumer mənbələrinin birində Akkad hökmdarı Naramsinin e.ə. kutilərin İkiçayarasında hökmranlıq etməsindən danışılır. Kutilərin başçısı Enridavazir akkad qoşunlarını

məğlub edərək İkiçayarasının cənub hissəsinə kimi gəlib çıxır və burada özünü dünyanın dörd ölkəsinin hökmdarı elan edir (13). Mənbələrdən məlumdur ki, kutilər bir neçə dəfə İkiçayarasına basqın etmiş və uzun zaman bu əraziləri öz nəzarətləri altında saxlaya bilmişdi (14).

E.ə. III minilliyin sonlarından ilk və orta tunc dövrlərində hərbi toqquşmaların artması ilk tayfa ittifaqlarının yaranmasını şərtləndirirdi. Ardı-arası kəsilməyən toqquşmalar, kollektiv sərvətləri qorumaq, yeni və daha zəngin mənbələrin əldə edilməsi istəyi bir sıra tayfaların birləşməsinə gətirib çıxarırdı. Bu yolla tayfa birlikləri həm yaxşı müdafiə olunur, həm də öz yaşayışları üçün zəruri şərait yaradırdılar. Azərbaycan ərazisində yaşamış kuti, lullubi, huri və digər tayfa ittifaqları belə ittifaqlardan idi. Bu tayfa ittifaqlarını digər keyfiyyətləri ilə bərabər həm də kollektiv müdafiənin ilkin rüşeymləri saymaq olar.

Mövcud silahların təkmilləşdirilməsi, atların hərb işində istifadə olunması tayfaların müdafiə gücünü sözsüz ki, artırırdı. Yazılı mənbələrdə II minilliyin III rübündə Kiçik Asiyada atlardan cəng arabalarını hərəkətə gətirən vasitə kimi istifadə olunması haqqında məlumatlar vardır (15). Hərb işinə belə çevik və canlı qüvvənin cəlb olunması heç şübhəsiz ki, onun döyüş imkanlarına uyğun olan taktiki üsul və vasitələrin axtarılıb tapılmasını tələb edirdi. Çünki atın sürəti piyadalarla müqayisədə daha yüksək idi. Bu isə daha çevik manevr etməyə imkan verirdi.

E.ə. II minilliyin ikinci yarısı və I minilliyin əvvəllərində Azərbaycan ərazilərində də dəmir dövrünün başlanması buranın qəbilə və tayfalarının ictimai inkişafının yeni mərhələsinə yol açdı. Dəmirdən düzəldilmiş və daha keyfiyyətli olan alətlərin təsərrüfata tətbiq edilməsi əkinçiliyin, maldarlığın, sənətkarlığın inkişafı əmək məhsuldarlığını da artırırdı. Əmək məhsuldarlığının artması nəticəsində isə tayfa üzvlərinin istehlak etdiyindən artıq maddi nemətlər bolluğu yaranırdı. Artıq əmək məhsuldarlığı isə onların mənimsənilməsinə, insanların insan-

lar tərəfindən istismar edilməsinə obyektiv zəmin hazırlayırdı. Başqa tayfalarla baş verən silahlı toqquşmalar da bu və ya digər tayfaların çoxlu sərvət ələ keçirməsinə və istehlakdan əlavə çoxlu maddi sərvətlər toplanmasına imkan verirdi. Bu dövrdə təbəqələşmə ibtidai icma quruluşunun dağılmasını sürətləndirirdi.

E.ə. III minillikdə Azərbaycan ərazisində də ibtidai icma quruluşu dağılır, ilk sinifli cəmiyyətə keçid başlayırdı (16). Getdikcə köhnə sosial, mədəni, dini ənənələr öz əhəmiyyətini itirir, insanların ərazi prinsipləri üzrə birləşməsi güclənirdi. Şəxsi mülkiyyətçiliyin inkişafı ayrı-ayrı adamların varlanaraq cəmiyyətin digər üzvlərindən daha da fərqlənməsinə, onların arasında ziddiyyətlərin güclənməsinə səbəb olurdu. Sərvətə daha çox hərislik varlılara təkcə öz qəbilə üzvlərini deyil, digər qəbilələrdən gətirilmiş adamların onların xeyrinə işləməsinə sövq edirdi və hərbi toqquşmalar zamanı təkcə maddi sərvətlər yox, həm də digər tayfaların üzvləri əsir götürülərək qul kimi işlədilirdi. Genişlənməkdə olan mülkiyyətçilər təbəqəsinin hakim mövqelərinin qorunub saxlanması cəmiyyətin ibtidai icma quruluşundan fərqlənən yeni formasının meydana gəlməsini zəruriləşdirirdi. Zorakılıq vasitəsi, quldarların qullar üzərində ağalığının qorunub saxlanması vasitəsi kimi xarakterizə edilən dövlətin yaranması da yeni dövrün reallıqlarının məntiqi nəticəsi idi. Ancaq dövlət təkcə quldarların qullar üzərindəki ağalığını qorumurdu. O həm də yeni hakim silkin nəzarəti altında olan ərazilərin qorunmasını, müdafiə edilməsini öz üzərinə götürmüşdü. Yeni dövr, yeni cəmiyyət quruluşu hərb işində də köklü dəyişikliklər yaratmışdı. Yenicə meydana gələn dövlətlər zorakılıq və güc alətləri olmadan yaşaya bilməzdilər. Ona görə də dövlətin formalaşması onun güc aləti olan xüsusi qüvvəsinin, xüsusi silahlı dəstələrin yaradılması ilə üzvi əlaqədə idi.

## 2. Azərbaycan ərazisində meydana gəlmiş ilk dövlətlərdə hərb işinin vəziyyəti

İbtidai icma quruluşunu əvəzləyən quldarlar cəmiyyətinin özünə yeni silahlı dəstələr formalaşdırdığına görə artıq əhalinin özü-özünə fəaliyyət göstərən silahlı təşkilatının yaşaması qeyri-mümkün idi. Çünki bir vaxtlar eyni cəmiyyətin bərabər hüquqlu üzvləri olan insanlar parçalanaraq barışmaz sinfi təbəqələrə bölünmüşdülər. Hakim sinfin mənafeyi bütün cəmiyyətin, xüsusən, qulların maraq və mənafeləri ilə üst-üstə düşmədiyindən bu maraqların qorunması üçün dövlətə tabe olan xüsusi silahlı dəstələr lazım idi. Bu dəstələr dövlət tərəfindən həm xarici, həm də daxili maraqların təmin edilməsində, o cümlədən xalqın özünə qarşı da istifadə edilirdi.

E.ə. II minilliyin əvvəllərində Urmiya gölü ətrafında bir sıra dövlətlər meydana gəldi (17). Lakin bu dövlətlər yenicə formalaşma prosesi keçirdiyindən elə də böyük qüdrətə malik deyildilər. Xüsusən, artıq formalaşıb regionda güclü dövlətə çevrilmiş olan Assuriyanın aramsız silahlı təcavüzünün qarşısını almaq üçün bu kiçik dövlətlərin qüvvəsi lazımi səviyyədə deyildi. Lakin buna baxmayaraq yazılı mənbələrdən adları məlum olan Zamua, Nikdiaranın (Mikdiaranın) "ölkəsi", Allabia "çarlığı", Gilzan dövləti (18) və başqaları müstəqilliklərini qoruyub saxlaya bilmişdilər. Ölkələrin inkişaf etdirilib gücləndirilməsi üçün bu ərazilərdə təsərrüfata xüsusi diqqət yetirilmiş, müdafiə məsələlərinə böyük əhəmiyyət verilmişdi. Bu dövrdə dəmirdən düzəldilmiş silahların sayı artmış, atlardan hərbi işlərdə daha səmərəli istifadə edilməsinə cəhd göstərilmişdi. Xarici təhlükənin qarşısını vaxtında almaq üçün bu dövlətlər arasında müəyyən əlaqələr də yaradılırdı. Bir vadidə yaşayan əhali onların başı üstünü almış və qonşu vadilər üçün də gözlənilə biləcək xarici basqınları bir-birinə yüksəklikdə yandırılmış tonqallar vasitəsilə xəbər verirdilər (19). Bu yolla

təhlükədən vaxtında xəbər tutan əhali müəyyən tədbirləri görürdü. Göclü döşmənə qarşı müqavimət göstərməyin mümkün olmadığını görəndə əhali mal-qaranı və məişət əşyalarını götürüb dağlara, keçilməz yerlərə çəkilir və bununla da müvəqqəti də olsa düşmən hücumlarından nicat tapırdılar. Ancaq bu ösul heç də səmərəli üsul deyildi. Təsərrüfat inkişaf etdikcə adamların mülkiyyəti də genişlənir və sözsüz ki, hər düşmən hücumu zamanı bötön mölkiyyəti asanlıqla bir yerdən başqa yerə aparmaq mümkün olmurdu. Ona görə xırda dövlətlər yaşayış məskənlərinin möhkəmləndirilməsinə də xüsusi fikir verir, müdafiə divarları, iç qalaları olan şəhərlər tikirdilər (20). Xarici təcavüzdən yaxşı qorunmaq üçün möhkəmləndirilmiş iç qalaları olan şəhərlər tikilirdi. Xarici təcavüzdən yaxşı qorunmaq üçün möhkəmləndirilmiş iç qalaları və mürəkkəb sistemli daxili tikintiləri olan və e.ə. 1000-800-cü illərə aid olan belə məskənlərdən biri Həsənli təpədən tapılmışdı (21). Urmiya gölünün cənub hissəsini əhatə edən, Zamua vilayətinə hücumların qarşısını almaq üçün Babit aşırımında müdafiə divarları tikilmişdi (22). E.ə. 881-ci ildə Assur hökmdarı II Aşşurnasirapal Zamua üzərinə hücum edərkən burada zamualıların güclü müqavimətinə rast gəlmişdi. Bəzi mənbələrin verdiyi məlumata görə Dağara vilayətinin tayfa başçısı Nur-Adad bütün Zamuanı və onun qonşu hissələrini öz ətrafında birləşdirərək (23) müdafiə işinə rəhbərlik etmişdi. İstilaçılara qarşı müharibədə Babit aşırımında tikilən müdafiə hasarlarına böyük ümidlər bağlansa da qüvvələr nisbətinin Assuriya tərəfində olması, həmçinn onların qaladağıdan və digər güclü silahlara və böyük hərbi təcrübəyə malik olması zamualıların müqaviməti kəsməsinə gətirib çıxarmışdı. II Aşşurnasirapal Dağara vilayətini, Birutu, Uze və Laqalaqa qalalarını işğal etsə də (24) yerli çarlara toxunmadı və onları taxtlarında saxlamaqla öz vassalına çevirdi (25). Öz vilayətinin xarici işğalçıların vassallığı altında qalması ilə heç cür razılaşa bilməyən Nur-Adad Assur qoşunlarının qonşu vilayətlərə hücumu vaxtı onlara qarşı üsyan qal-

dırdı (26). Heç şübhəsiz ki, bu üsyan zamanı geniş xalq kütlələri, zamualılar Nur-Adad ətrafında yenidən birləşmişdilər. Çünki Nur-Adad kifayət qədər gücə malik olmasaydı qüvvətli Assuriya qoşunlarına qarşı müqavimət hərəkatına başlamazdı. Ancaq bu cəhd də müvəffəqiyyətsizliyə düçar oldu və Assuriya qoşunlarının müqavimətini qırmaq mümkün olmadı.

Bir il sonra, yəni 880-ci ildə II Aşşurnasirpal yenidən Zamuaya yürüş təşkil etdi. Görünür, əvvəlki hücum zamanı Assuriya hökmdarı zamualıların vassallığı qəbul edib itaət edəcəklərinə ümid bağlasa da heç də belə olmamış və Zamualılar itaətdən çıxmışdılar. Yoxsa Zamua üzərinə yeni, böyük bir hücuma ehtiyac qalmazdı. Bu hücum zamanı zamualılara artıq Ameka rəhbərlik edirdi. Lakin, onların gücü hələ də Assuriya qoşunlarına müqavimət göstərmək üçün kifayət etmirdi. Zamualıların müstəqilliklərini qoruyub saxlamaq uğrunda göstərdikləri növbəti cəhd də istənilən nəticəni vermədi və Ameka əsir düşməmək üçün köhnə taktikadan istifadə edərək dağlara çəkildi (27). Assuriya hökmdarı sonrakı illərdə də ardıcıl olaraq Zamuaya yürüşlər etmiş və bu ölkənin topaqlarını öz ərazilərinə qatmışdı.

Urmiya gölü ətrafnda meydana gəlmiş çarlıqlardan təkcə Zamüa deyil, digər çarlıqlar da xarici istilaçıların basqınlarına məruz qalırdılar. E.ə. 827-ci ildə Assuriyada vətəndaş müharibəsinin başlanması və bununla da dövlətin zəifləməsindən istifadə edən bölgənin başqa bir güclü dövləti olan Urartunun qoşunları Urmiya gölü ətrafında yerləşən Gilzan çarlığını işğal edərək onu Urartuya birləşdirdi.

## 3. Mannanın hərbi siyasi tarixi

İki güclü dövlətin - Assuriya və Urartunun mübarizə meydanına çevrilən Urmiya ətrafı vilayətlərdə meydana gələn dövlətlərin müstəqil mövcudluğu üçün əsas çıxış yollarından biri onların birləşməsi idi. E.ə. IX əsrin ikinci yarısından etibarən adı yazılı mənbələrdə xatırlanan Manna çarlığı da belə

bir birləşmənin nəticəsində meydana gəlmişdi. Bu dövlətin adına ilk dəfə e.ə. 843-cü ildə Assuriya hökmdarı III Salmanasara müqavimət göstərən "hökmdarlar" arasında rast gəlinir (28). Qüdrətli ölkə olan Assuriyaya müqavimət göstərən çarlıqlar arasında Mannanın da adı çəkilirsə, onda güman etmək olar ki, e.ə.1X əsrin ortalarında bu dövlət formalaşma prosesini keçirirdi və qısa müddətdən sonra təxminən e.ə. 1X əsrin 20-ci illərində Urmiyayanı bölgənin əksər hissəsini əhatə edirdi (29). Yazılı mənbələrdən məlum olur ki, e.ə. 829-cu ildə Assuriya qoşunları yenidən Mannaya hücum edərək onu viran etmişdilər. Ancaq bu məğlubiyyətə baxmayaraq Manna çarlığı Assuriyaya tabe olmamışdı (30) və istilaçılar Manna əhalisinin iradəsini qıra bilməmişdilər. Buna baxmayaraq Assuriya hökmdarı Mannaya və Urmiyayanı ərazilərə hakim olmaq planlarından əl çəkməmişdilər və bu yolda yerli əhalinin müqavimətindən başqa Urartu dövlətinin güclənməsi və Assuriya hakimlərinin niyyətlərinin həyata keçməsi üçün ciddi maneəyə çevrilirdi. Urartu dövləti eyni zamanda Manna dövlətinin müstəqilliyi üçün böyük təhlükə yaradırdı. Menuanın çarlığı dövründə Urartu qoşunlarının Manna ərazilərinə yürüşləri başladı. Urartulular Manna torpaqları uğrunda təkcə Manna qoşunları ilə deyil, e.ə. 1X əsrin sonlarında həm də Assuriya qoşunları ilə toqquşmuşdular (31). Nüfuz dairəsi uğrunda gedən bu mübarizələrdə Assuriya müəyyən qədər zəifləmişdi və regionda hegemon rolunu Urartu öz üzərinə götürmüşdü. I Argiştinin hökmdarlığı illərində (e.ə. 786-760) urartuluların Urmiyayanı ərazilərə, xüsusilə Mannaya yürüşləri daha da artdı. I Argiştinin adından yazılmış mixi kitabələrinin birində göstərilir ki, belə yürüşlərin birində Urartu qoşunları Mannanı dağıtdı, şəhərləri yandırdı, 3270 adam öldürüb çoxlarını əsir götürdü, 170 atı, 62 dəvəni, 2411 iribuynuzlu heyvanı, 6140 baş xırda buynuzlu heyvanı özləri ilə apardılar (32). E.ə. 784-cü ildən 774-cü ilədək olan müddətdə Mannaya və Urmiyayanı ərazilərə yürüşləri zamanı urartulular tərəfindən 50 minədək

adam öldürülmüş və ya əsir götürülmüş, 100 mindən artıq xırda buynuzlu, 40 mindən artıq iri buynuzlu mal-qara, xeyli sayda at və dəvə aparılmış, neçə-neçə şəhər və yaşayış məntəqəsi viran qoyulmuşdu (33).

Menuanın xələfi I Argiştinin hakimiyyəti dövründə Urartu öz çiçəklənmə dövrünü keçirirdi. Yaxşı silahlanmış Urartu ordusu ön Asiyaya, o cümlədən Manna ərazilərinə ardıcıl uğurlu hərbi yürüşlər edərək bu ərazilərdə Assuriyanın nüfuzunun zəifləməsinə səbəb olmuşdu (34). Bu yürüşlərin nəticəsində möhkəmləndirilmiş şəhərlərdən biri olan Şimerixadiri ələ keçirildi (35). Lakin yadelli işğalçıların bu uğurları da Manna əhalisinin mənəvi əhval-ruhiyyəsini sındıra bilmədi. Onlar düşmənə müqavimət göstərmək üçün hazırlıq aparır və əlverişli şərait gözləyirdilər. Belə bir əlverişli məqam çatan kimi mannalılar Urartu hakimiyyətinə qarşı üsyan qaldıraraq ərazilərini düşməndən təmizləmək üçün mübarizəyə qoşuldular. Hətta bəzi uğurlar da qazandılar. Ərazilərin müəyyən hissəsini Urartu qoşunlarının işğalından qoparmaq mümkün olsa da bu, uzun çəkmədi (36). I Argiştinin qoşunları Manna qoşunlarını məğlub edərək özləri ilə xeyli əsir və mal-qara apardılar (37). I Argiştinin oğlu II Sarduri isə cənubi Azərbaycan ərazilərinə hücumdan sonra öz kitabələrində 21 qalanı, 45 şəhəri və möhkəmləndirilmiş hökmdar şəhəri olan Libluini şəhərini işğal etdiyini bildirirdi (38). Bir il ərzində Mannaya, Cənubi Qafqaza və qərb vilayətlərinə basqınlar nəticəsində Urartu hökmdarları 12735 gənci, 46600 qadını əsir aparmışdılar. Urartu qoşunlarının bir neçə onillikdə davam edən uğurlu hücumlarından sonra Assuriyanın Cənubi Qafqazla, Kiçik Asiya ilə əlaqələri kəsilmiş və bu hal təxminən bir əsrə qədər davam etmişdi (39). Nəticədə Assuriyanın göstərilən regionlarla ticarət və iqtisadi əlaqələri kəsilərək xeyli zəifləmişdi. Bu dövlətin yenidən güclənərək Yaxın Şərqin qüdrətli ölkəsinə çevrilməsi e.ə. 745-ci ildə hakimiyyətə gələn III Tiqlatpalasarın çarlığı dövrünə təsadüf edir. Tiqlatpalasarın ha-

kimiyyətə gəldiyi dövrdə regionda Urartudan başqa Midiya tayfaları da güclənməkdə idi. E.ə. 744-cü ildə Assuriya qoşunları midiyalıların üstünə hücuma keçdilər (40). Görünür, bu höcum gözlənilən nəticəni verməmişdi. Çünki, bir neçə ildən sonra, daha doğrusu e.ə. 737-ci ildə Assuriya qoşunları yenidən midiyalılar üzərinə hücuma keçdilər (41).

E.ə. 743-cü ildə Tiqlatpalasar yeniləşmiş qoşunları ilə Urartu qoşunlarına ciddi zərbə vurdu (42). E.ə. 735-ci ildə Assuriyanın təkrar hücumundan sonra Urartu dövləti yeni bir ciddi zərbə alaraq xeyli zəiflədi. Urartu dövlətinin belə zəifləməsindən, Assuriyanın başının isə digər məsələlərə qarışmasından Manna hakimləri bacarıqla istifadə edərək ölkənin müəyyən qədər dirçəlməsinə və inkişaf etməsinə nail oldular. Ölkəyə xaricdən gözlənilən təhlükənin qarşısının alınması üçün Manna hökmdarı getdikcə güclənməkdə olan Assuriya dövləti ilə də əlaqələr yaratmağa çalışırdı. Belə bir ittifaqın hər şeydən əvvəl Urartu əleyhinə yönəldiyini yaxşı başa düşən Urartu hakimləri güclənməkdə olan Mannanın zəiflədilməsi üçün Mannaya daxil olan vilayətləri mərkəzi hakimiyyətə qarşı itaətsizliyə təhrik etdilər. Urartunun belə təhriklərinin nəticəsində e.ə. 719-cu ildə Mannanın Şaundaxun və Durdukka vilayətləri Manna hakimlərinə qarşı üsyan qaldırdılar. Əgər Assuriyadan kömək gəlməsəydi ola bilsin ki, Manna hökmdarı bu qiyamçılarla bacara bilməyəcəkdi (43). Ancaq Mannaya hökmdarlıq edən İranzunun ölümündən sonra Manna dövlətinin inkişaf meylləri zəiflədi. Onun oğullarının hakimiyyət uğrunda mübarizəsi Mannanı xeyli dərəcədə qüvvədən saldı və yenidən iki dövlətin-Assuriya və Urartu dövlətlərinin nüfuz dairəsi uğrunda mübarizəsinin mərkəzinə çevrildi. Ötən illər ərzində Manna dövlətinin möhkəmlənməsinə Assuriya ittifaqı müəyyən təsir göstərmişdi. Bu ittifaq Assuriya üçün də xeyirli idi. Çünki Assuriya Mannanın Urartunun təsir dairəsi altına düşməsini istəmirdi. Urartu ilə Mannanın yaxınlaşması Assuriyanın özünə təhlükə yarada bilərdi.

Mannanın çiçəklənməsində və güclənməsində xüsusi rolu olan İranzunun ölümündən sonra (təxminən e.ə. 718-ci ildə) hakimiyyətə gələn oğlu Aza da atasının yolunu davam etdirərək Assuriya ilə ittifaqa sadiq qaldı. Lakin Azanın xarici siyasətində yenidən Assuriyaya arxalanması nə Urartu hakimi I Rusanı, nə də Manna daxilində I Rusanın təhrikinə qoşulanları qane edirdi. Buna görə də Mannanın Urartupərəst canişinlərinin iştirakı ilə Aza öldürüldü və onun yerinə qardaşı Ullusunu taxta çıxarıldı. O, qardaşının və atasının siyasətinin əksinə olaraq Urartu ilə müttəfiqliyə üstünlük verdi və öz siyasətini də Urartuya sarı istiqamətləndirdi. Ölkənin daxilində yaranmış mürəkkəb vəziyyətdən Urartu hakimləri istifadə etməyə çalışaraq Urmiya gölünün qərb və şimalındakı vilayətləri tutub Manna ərazilərinin içərilərinə doğru irəlilədilər (44). Öz hökmranlığını möhkəmləndirmək üçün Urartu hakimləri Manna ərazisində hərbi təsərrüfat bazaları yaratdılar (45). Urartunun Manna üzərində möhkəmlənməsinə çalışmasından narahat olan Assuriya çarı II Sarqon e.ə. 714-cü ildə Urmiyadan şərqə olan və Urartunun təhriki ilə Assuriyaya qarşı çıxan vilayətlərin üzərinə hücuma keçdi. Bu hücumun regionda qüvvələr nisbətini müəyyənləşdirmək üçün böyük əhəmiyyətə malik olduğunu başa düşən Urartu hökmdarı I Rusa da ciddi hazırlıq işləri görür və güclü düşməni məğlub etmək üçün hiylə işlətməyə cəhd göstərirdi. O, qərara gəlmişdi ki, şəxsən özü rəhbərlik etdiyi qoşunları ilə Assuriya qoşunlarının arxasına keçsin və qəfil zərbə ilə onları çaş-baş salsın. Lakin kəşfiyyatçıların köməyi ilə bu hiylədən vaxtında xəbər tutan II Sarqon müvafiq manevrlər edərək döşməni qarşıladı və onun bötön cəhdlərini boşa çıxardı. Uauş dağı ətəklərində baş verən bu döyüş Assuriya qoşunlarının tam qələbəsi ilə başa çatdı. Döyüş meydanından qaçan I Rusa bu ağır məğlubiyyətə dözməyərək intihar etdi (46).

Urartunun məğlubiyyətindən, görünür, çətin vəziyyətə düşən Manna hökmdarı Ullusunu yeganə çıxış yolunun Assuriya ilə ittifaqda olduğunu gördü. II Sarqon öz yazılı kitabələ-

rində bu döyüşün nəticələri barədə belə məlumat verirdi: "Mannalı Ullusunu əlçatmaz dağlar arasında mənim gördüyüm işləri eşitdi, quş kimi uçub yanıma gəldi və mənim ayaqlarımı qucaqladı. Onun saysız-hesabsız günahlarından keçdim, etdiyi cinayətlərini unutdum, ona mərhəmət göstərdim və hökmdar taxtında oturtdum. Rusadan və Metattidən aldığım 22 qalanı və iki möhkəmləndirilmiş şəhəri ona bağışladım. Məzlum ölkəsini bərpa etdim. Mən özümün çar təsvirimi hazırladım, üzərində mənim hakimim Aşşurun qələbələri haqqında yazdım, onu gələcək günlər naminə onun ( Ullusununun-red) çar şəhəri olan İzurtuda ucaltdım" (47).

Sarqon daha sonra bildirirdi ki, qəzəbli düşmən pəncələrini mannalılar ölkəsindən uzaqlaşdırdım, onun hökmdarı olan Ullusununun ürəyinə yaxşılıq etdim. Mən Andiananın və Zikertunun insanlarını ölüm köpüyünə bürüdüm (48).

Urartunun ağır məğlubiyyətə uğramasından və Assuriya ilə ittifaq yaradılmasının faydalarından bacarıqla istifadə edən Manna hakimləri mövcud sərhədləri genişləndirərək Zikertu, Andiya, Gizilbunda, Uişdiş, Subi, Sanqibutu əyalətlərini geri qaytardı (49). Görünür ki, ərazilərini genişləndirməklə yanaşı Manna hakimləri dövlətin hərtərəfli inkişaf etməsi üçün də qətiyyətli addımlar atırdılar. Yoxsa, Assuriya ilə ittifaq yaradılandan bir neçə il sonra Manna bu dövlətin özünə də meydan oxuya bilməzdi. Elə bu inkişafın və güclənmənin nəticəsi idi ki, e.ə. 714-cü ildə Ullusunu Assuriyaya iki dəfə vergi vermişdisə, e.ə. 713-cü ildən sonra onun Assuriyaya vergi verməsi barədə yazılı mənbələrdə məlumat yoxdur (50). Hökmdar Ahşerinin dövründə Manna dövləti çiçəklənməkdə davam edirdi. Manna hakimləri artıq Assuriya çarlığının ərazilərinə də hücum etməkdən çəkinmirdilər. Heç şübhəsiz ki, iqtisadi və mədəni inkişafı ilə bərabər Manna dövlətinin qoşunları da inkişaf edərək güclənirdi və güclü qonşu dövlətlərlə vuruşmaq üçün bazaya, təcrübə və döyüş hazırlığına malik idi. Ancaq Mannanın bu çiçəklənməsi çox da uzun sürmədi. Çar Aşşurbanipalın

hakimiyyəti illərində Assuriya yenidən gücləndi və əvvəlki nüfuzunu bərpa etmək üçün xarici siyasətində müəyyən dəyişikliklər etdi. Assuriya qoşunları güclənərək onun tabeliyindən çıxmış Manna üzərinə hücum etdi və e.ə. 660-cı illərdə onu məğlub etdi (51). Döyüşlə bağlı Aşşurbanipalın kitabələrindən birində deyilirdi: "/Beşinci yürüşdə/ mən mannalılar ölkəsinin hökmdarı/ Ahşerinin üzərinə yeridim. Ahşeri mənim yürüşümün irəlilədiyini /eşitdi/ və /öz qoşunlarını/ hiyləgərcəsinə gecə vaxtı göndərdi. O mənim qoşunlarımla vuruşmaq üçün ayağa qalxdı. Mənim döyüşçülərim onunla vuruşdu və onu məğlub etdi. Mən geniş düzənliyin 3 beru uzunluqda sahəsini onların meyidləri ilə doldurdum. Mənə ümid verən hakimlərim bütün Allahlar, Aşşur, Sin, Şamaşın hökmü ilə mən mannalılar ölkəsinə soxuldum, qalibiyyətlə keçdim və yürüşümün davamı olaraq Ayusiaş qalasını, Paşa/.../su, Busutu, Aşdiaş, Urkmiyamun, Uppiş, Sihua, Naziniri məntəqələrin-səkkiz möhkəmləndirilmiş şəhəri, saysız-hesabsız kiçik yaşayış məntəqələrini ələ keçirdim; İzurtunun özünə kimi gedib çıxdım, hamını dağıtdım, uçurdum, od qoydum. Mən bu şəhərlərdən adamları, atları, eşşəkləri, iri və xırda buynuzlu heyvan sürülərini çıxarıb əsir apardım" (52).

Assuriyanın güclü qoşunları qarşısında davam gətirə bilməyəcəyini hiss edən Ahşeri ölkənin paytaxtı İzurtu şəhərini tərk etdi və müdafiə üçün möhkəmləndirilmiş olan Atrana şəhərinə qaçdı. Assuriya qoşunları isə Mannanı diz çökdürmək üçün ölkənin digər möhkəmləndirilmiş şəhərləri olan İzurtu, Urmeyate və Uzbianı da mühasirəyə alıb dağıtdılar. Bu üç şəhərin fəth edilməsi üçün cəmi 15 gün vaxt lazım gəldi. Assuriyalılar mannalıların vaxtilə qoparıb aldıqları Şurdira şəhərini də ələ keçirdilər və onu yenidən Assuriyanın tərkibinə qatdılar (53).

Bu məğlubiyyət Mannanı xeyli zəiflətdi və hakimiyyət başına gələn Ualli yenidən Assuriyanın vassallığını qəbul etməyə məcbur oldu. Bu dövlətin tarix səhnəsindən çıxması isə Midiya tayfalarının güclənməsi ilə bağlıdır. Onların Manna

dövləti üzərinə hücumu Mannanın Midiyaya birləşdirilməsi ilə başa çatdı. Əslində midiyalılar bu hücum ərəfəsində Mannanın çətin vəziyyətdə olduğunu bildiklərindən fürsəti əldən vermədilər və uğur qazandılar. Çünki e.ə. 616-cı ildə Assuriya ilə Babilistan arasında baş verən müharibədə mannalılar müttəfiqləri olan assuriyalıların tərəfində döyüşə qoşulmuşdular. Lakin Babilistan qoşunları bu döyüşdə qalib gələrək Assuriya və Manna qoşunlarının bir hissəsini məhv etmiş, bir hissəsini də hər iki ölkənin sərkərdələri ilə birlikdə əsir götürmüşdü (54). Midiyalılar da mannalıların bu zəifləməsindən istifadə edərək uğurlu bir hücum keçirdilər. Bu döyüşün baş verdiyi tarix müxtəlif mənbələrdə müxtəlif cür göstərilir. Ancaq həmin tarixlərin hamısı e.ə. 616-610-cu illər arasındadır. Manna dövlətinin bösbötön süqutu tarixi isə e.ə. 593-cü ildən sonraya aid edilir (55).

## 4. İqtisadiyyaitın inkişafının hərb işinə təsiri

Güclü düşmənlərlə mübarizədə öz dövlətçiliyini quran Manna dövləti mövcud olduğu iki əsrdən bir qədər artıq müddətdə ardıcıl olaraq təcavüzə məruz qaldı. Onun belə çətin tarixi yol keçməsinin əslində bir sıra obyektiv səbəbləri var idi. Bu obyektiv səbəblərdən ən başlıcası heç hübhəsiz ki, Mannanın çox əlverişli iqlimə və coğrafi şəraitə malik olması idi. Urmiya gölünün ətrafı belə təbii şəraitinə görə ən qədim insan məskənlərindən biri olmuş və dünyanın ilk sinifli dövlətlərindən bir çoxu da məhz bu ərazidə qurulub inkişaf etmişdi. Təsərrüfatın inkişafına imkan verən böyük təbii imkanlara və sərvətlərə malik olması Mannanın da həm iqtisadi, həm də mədəni cəhətdən inkişaf etməsinə səbəb olmuşdu. Burada iqtisadi cəhətdən inkişaf etmiş həyat olmasaydı urartulular bura gəlməzdilər. Çünki iqtisadi və mədəni cəhətdən inkişaf etməyən və əxz edilməli bir şeyi olmayan qumluq səhralara kimsə basqın etməzdi (56). E.ə. VIII əsrdə Urartu hakimləri, eləcə də ondan

qabaq və ondan sonra Mannaya hücum edənlər burada yüzlərlə inkişaf etmiş yaşayış məskənləri ilə rastlaşmışdılar (57). Elə bunun üçündür ki, qısa müddətdə Manna inkişaf edərək möhkəmlənmişdi və çox güman ki, xarici dövlətlərin ardıcıl və güclü təzyiqləri ilə rastlaşmasaydı tarix səhnəsində hələ uzun müddət qala biləcəkdi.

İnkişaf etmiş iqtisadiyyat həm də Mannanın hərb quruculuğunun obyektiv bazasını təşkil edirdi. Yəni, güclü iqtisadiyyata malik olmasaydı Manna dövləti ayrı-ayrı vaxtlarda Urartu və Assuriya kimi qüdrətli dövlətlərə cavab verən və bəzən onları üstələyə bilən qoşun da yarada bilməzdi. Mannalılar mövcudluğu dövründə hərb işinin iqtisadiyyatla bağlılığını hiss etmişdilər. Sözsüz ki, bu dövrdə hərb işinin iqtisadiyyatın inkişaf səviyyəsindən asılılığı məsələsinin məqsədyönlü dərk və tətbiq edildiyindən danışmaq olmaz. Ancaq mannalıların qoşunların saxlanması, müharibə aparılması üçün ərzaq ehtiyatı yaradılması, müdafiə divarlarının tikilməsi, qoşunların maddi-texniki təchizatının yaradılması, qala divarlarının tikilməsi isə bir sıra sənət sahələrinin inkişafını, inkişaf etmiş iqtisadi bazanın olmasını tələb edirdi. Belə bir baza isə öz dövrünün ictimai inkişaf səviyyəsinə uyğun olaraq Mannada mövcud idi. Burada həm yüksək əkinçilik, maldarlıq, həm də yüksək sənətkarlıq var idi.

Əkinçilikdə sabit məhsuldarlığın təmin edilməsi üçün hələ e.ə. I minilliyin başlanğıcında Urmiyayanı vilayətlərdə müvafiq suvarma şəbəkəsi yaradılmışdı (58). Su olmayan yerlərə su kanalı çəkilmişdi. Elə bu məsələnin həlli e.ə. I minilliyin başlanğıcında mannalıların təsərrüfata bağlılığını, onların yüksək tikinti mədəniyyətinə malik olmasını nümayiş etdirirdi.

Əkinçilikdə istifadə olunan əmək alətlərinin təkmilləşdirilməsi və onların səmərəliliyinin artırılması da mannalıların diqqət mərkəzində idi. Məhsuldar əkinçilik alətləri olmasaydı Manna regionda qonşularına nisbətən daha sürətlə inkişaf edə bilməzdi. Dəmir dövrünə keçidlə əlaqədar olaraq ölkənin əkin-

çilik texnikası xüsusilə təkmilləşdirilmişdi (59). Manna dövlətinin ərazisində tapılan maddi mədəniyyət izləri burada torpağın ağac kotanla, dəmir  toxa ilə şumlandığından, taxılın dəmir oraqla biçildiyindən xəbər verirdi (60).

Manna ərazisinə hücumlar edən xarici istilaçılar da bu yerlərdə əkinçiliyin yaxşı inkişaf etdiyini görür və yazılı kitabələrində də bu barədə qeydlər edirdilər. II Sarqonun kitabələrində Mannadakı əkin yerləri və torpaqları, un, şərab, digər ərzaq əşyaları olan anbarlardan söz açılır. Görünür, Mannada ərzaq məsələsi elə bir səviyyədə həll olunubmuş ki, Assuriya çarı II Sarqon Urartu üzərinə hücum edərkən Mannadan ərzaq ehtiyatı alırmış (61).

Deyilənlər onu güman etməyə əsas verir ki, Mannada ərzaq bitkilərinin əkilməsinə və yetişdirilməsinə xüsusi diqqət yetirilirmiş.

Mannada meyvə bağlarının, üzümçülüyün, şərabçılığın inkişafına da xüsusi fikir verilirdi. Burada çoxlu şərab anbarlarının olması, istilaçı qoşunların Manna şərabından gen-bol istifadə etməsi haqqında yazılı məlumatlar və arxeoloji sübutlar bizim dövrümüzə də gəlib çıxmışdır (62).

Əkinçiliklə yanaşı Mannada maldarlıq da inkişaf etmişdi. Ölkənin təbii-coğrafi şəraiti də buna imkan verirdi. Yağıntının olması, suvarma sisteminin yaxşılaşdırılmasına və otlaq sahələrinin genişləndirilməsinə imkan yaradırdı. Ölkənin ərazisində həm oturaq, həm də köçəri maldarlıq mövcud idi. Maldarlığın geniş yayılması qonşu dövlətlərin də nəzərindən qaçmırdı. Manna üzərində yürüşlər təşkil etmiş istilaçıların kitabələrində buradan çoxlu mal-qara aparıldığı da danışılır (63). Mal-qara Manna hökmdarlarının istilaçılara verdiyi bac-xəracın tərkibinə də daxil idi. Elə həmin kitabələrdə olan məlumatlar göstərir ki, Mannada iri və xırda buynuzlu maldarlıq inkişaf etmiş, habelə ölkədə dəvə və öküz də saxlanılırmış. Ölkədə atçılığın inkişafına xüsusi əhəmiyyət verilirdi. Hətta bəzi vilayətlər atçılığın inkişafı üçün ixtisaslaşmışdılar. Bu baxımdan II Sarqonun kita-

bələrində Mannanın Subil vilayətinin adı çəkilir: "Həmin vilayətdə yaşayan adamların bütün Urartuda atlı qoşun üçün at əhliləşdirməkdə tayı-bərabəri yoxdur. Öz geniş ölkəsində öz çar alayı üçün bəslədiyi və hər il vergi kimi aldığı kiçik dayçaları Urartu adamlarının ... Sucu vilayətinə gətirdilər, boy-buxununa baxmayınca, minib səyitməyincə gərdişə gəlməyi, dövrə vurmağı, dönməyi döyüş üçün vacib olan vərdişləri öyrətməyincə bu dayçaları yəhərləmirlər" (64)

Atçılığın inkişafı, onun istər iqtisadiyyatda, istərsə də hərb işində istifadə edilməsi qoşqu texnikasının inkişafına da təsir edirdi və Manna hökmdarlarının II Sarqona qoşqu atları ilə bərabər qoşqu ləvazimatı bəxş etməsi də sözsüz ki, bu sahədə onların qonşu dövlətlərdən geri qalmadığını təsdiqləyir (65). Hərb işində atlar getdikcə daha artıq istifadə edilirdi. Yazılı mənbələr Mannada atlı hərbi dəstələrin mövcud olduğunu söyləməyə əsas verir. At Manna qoşunlarının həyatında elə bir güclü rola malik imiş ki, hətta ölən döyüşçülərin məzarları ilə yanaşı atlar üçün də xüsusi yerlər düzəldilirmiş (66).

Mannada metalişləmə, dulusçuluq, toxuculuq və s. sənət sahələri də inkişaf etmişdi (67). Bunun üçün iqtisadi baza da mövcud idi. Mannada mis, gümüş, qızıl və digər faydalı qazıntılar çıxarılırdı (68). Həmin metalların emal edilməsi üçün mannalılar zəngin texniki bazaya malik idələr. Arxeoloji qazıntılardan məlum olur ki, burada sənətkar emalatxanaları varmış və orada tökmə üsulu ilə tunc dirəkciklər, baltalar, habelə bəzək əşyaları hazırlamaq üçün qəliblərdən istifadə edilirmiş (69). Belə inkişaf etmiş sənətkarlıq hərbi silahların təkmilləşməsinə müsbət təsir göstərirdi ki, bu da Manna döyüşçülərini öz dövrü üçün müasir olan silahlarla silahlandırmağa imkan verirdi (bu barədə aşağıda danışılacaqdır). Hərbi silah və texnikanın inkişafı isə hərb işinin başlıca göstəricisidir. Deməli, sənətkarlığın əkinçilik və maldarlıqla birlikdə üzvi şəkildə inkişaf etdirilməsi Mannada hərb işinin inkişafı üçün də obyektiv bazanı təşkil edirdi. Bu obyektiv bazadan ölkənin

mənafeyi naminə nə dərəcədə uğurla istifadə edilməsi onun subyektiv amillərlə qarşılıqlı əlaqələrinin düzgün qurulmasından da çox asılı idi. Manna dövlətinin tarixi haqqında mövcud olan yazılı mənbələr göstərir ki, bu qarşılıqlı əlaqə heç də həmişə düzgün qurulmurdu. Sözsüz ki, burada mövcud xarici şəraiti də nəzərdən qaçırmaq olmaz. Bununla belə, dövlətin xarici siyasəti ölkənin və xalqın mənafelərinin müdafiəsi istiqamətində qurulduqda, xalqın gücü müdafiə işinə səfərbər edildikdə, ölkə ərazisinin müdafiəsi üçün müvafiq müdafiə-istehkam işləri aparıldıqda, qoşunların möhkəmlənməsi qayğı altına götürüldükdə xarici işğalçıların təcavüzkar planlarının qarşısını almağa da real imkan yaranırdı.

## 5. Mannada hərb işinin təşkilinin xüsusiyyətləri

Mannada hərb işinin yaxşı qurulmasında ölkənin ictimai-siyasi vəziyyətinin də böyük təsiri var idi. İki quruluşun- ibtidai icma quruluşu ilə quldarlıq quruluşunun kəsişməsində meydana gəldiyi üçün Manna dövlətinin formalaşma prosesində nəsil-tayfa quruluşunun izləri özünü göstərirdi. Bu izlər hətta dövlət sistemində də qalmaqda davam edirdi. Hakimiyyət irsən keçən hökmdarlara mənsub olsa da onların səlahiyyətləri müəyyən dövlət orqanları tərəfindən məhdudlaşdırılırdı. Mənbələrdən məlumdur ki, hökmdarın yanında dövlətin idarə edilməsinə təsir göstərmək səlahiyyətinə malik olan nüfuzlu əyanlardan ibarət məsləhət şurası olmuşdur (70). Əslində, belə bir orqanın və ya orqanların varlığı, onların strukturu, vəzifə və səlahiyyətləri barədə kitabələrdə geniş məlumat yoxdur. Bu barədə yazan müəlliflər yazılı kitabələrdən belə bir məlumata əsaslanırlar ki, əgər Manna vilayətlərindən birinin hakimi III Salmanasarın qarşısına yalnız öz qardaşları və oğulları ilə çıxırdısa, Manna padşahı Ullusunu II Sarqonun qarşısına özünün böyükləri, ağsaqqalları, məsləhətçiləri, nəslinin nümayəndələri, canişinləri, ölkəni idarə edən zadəganları ilə çıxırdı (71). Bu söz-

lərə görə Manna dövlətinin bütün varlığı dövründə onun dövlətçilik sistemində irsən keçən çarlığın hakimiyyətini məhdudlaşdırmaq səlahiyyətinə malik orqanın olduğunu iddia etmək yəqin ki, düzgün olmazdı. Belə bir orqan vaxtilə mövcud olmuşdusa da, sonradan onun formal əlamətə çevrilməsi fikri (72) güman ki, həqiqətə daha yaxındır. Əvvəla yazılı kitabədən gətirilən sətirlər Manna dövlətində hökmdarın səlahiyyətlərini məhdudlaşdırmaq hüququ olan orqanın mövcudluğu barədə qəti fikir söyləməyə əsas vermir. Sadalanan nüfuzlu əyanlar hökmdarın səlahiyyətlərini məhdudlaşdıracaq qurumun üzvləri deyil, hakimiyyət piramidasında hökmdardan sonrakı pilləni tutan, ölkənin idarə edilməsində məsuliyyətli vəzifələri olan şəxslər kimi də qəbul edilə bilər. Digər tərəfdən güman etmək olar ki, ibtidai icma quruluşunun yuxarıda qeyd olunan izləri kimi dövlətin formalaşma prosesinin əvvəllərində məşvərət şuraları mövcud idi. Lakin dövlət, mərkəzi hakimiyyət gücləndikcə, məsləhətçi, məşvərətçi orqanlar da güman ki, əvvəlki mövqelərini itirmişlər. Ancaq bu o demək deyil ki, nüfuzlu əyanların, zadəganların dövlətin idarə edilməsinə heç bir təsiri olmamışdır. Unutmaq olmaz ki, Manna quldarlıq dövləti idi və dövlətin başlıca məqsədi də quldarların mənafeyini qorumaq idi.

Manna inzibati ərazi baxımından vilayətlərə bölünmüşdü. Vilayətlərin başında canişinlər dururdu. Vilayətlər əsasən tayfaların sabiq ərazilərinin sərhədləri ilə müəyyənləşirdi (73) və sözsüz ki, canişinlər də həmin tayfaların üzvlərindən təyin edilirdilər. Ölkənin çarları tərəfindən mərkəzləşdirilmiş hakimiyyətin gücləndirilməsinə çalışılsa da vilayətlərin bölgüsündəki bu meyarın gözlənilməsi əslində mərkəzi hakimiyyətin zəiflədilməsi üçün potensial bazanı təşkil edirdi. Vilayətin hakimləri arasında şəxsi hakimiyyətlərini genişləndirmək üçün başqa dövlətlərlə yaxınlıq, mərkəzi hakimiyyətə qarşı çıxmaq niyyətlərini də bəzən gizlətmirdilər. Belə hallara yol verilməməsi üçün Manna hökmdarları ixtiyarlarında olan vilayətlərin canişinlərinin və başçılarının sərbəstlik cəhdlərini sıxışdırır, hüquq-

larını məhdudlaşdırırdı (74). Əslində, güclü qonşu dövlətlərə qarşı güclü mərkəzi hakimiyyət olmadan çıxmaq olmazdı. Dövlətin müstəqilliyinin qorunması onun ictimai-siyasi birliyinin, ölkənin bütün gücünün onun müdafiəsinə yönəldilməsini tələb edirdi. Ancaq mənbələrin verdiyi mədumata görə, Manna hakimləri təkcə ölkənin Urartu tərəfindən tutulmuş torpaqlarının geri qaytarılması ilə deyil, həm də taleyin ağır zərbəsindən öz yurd-yuvalarından dağılmış mannalıların öz vətənlərinə qaytarılması qayğısı ilə də məşğul  olurdular (75). Bu baxımdan ölkənin maddi sərvətlərini yaradan və müdafiəsinin canlı qüvvəsini təşkil edən əhali ilə Manna hökmdarları arasındakı münasibətlərdə diqqəti cəlb edən məqamlar mövcuddur. Dövlətin sərhədinin qorunması, xarici istilaçıların ölkəyə girməsinə yol verilməməsi Mannanın bütün təbəqələrinin üst-üstə düşən yeganə marağı idi. Çünki ölkəyə xarici istilaçıların basqınlarının ağır nəticələri birinci növbədə əhalinin, sənətkarların, orta təbəqələrin çiyinlərinə düşürdü. Manna dövlətinin inkişafı, öz tarixinin ayrı-ayrı vaxtlarında istilaçılara sinə gərməsi, işğal olunmuş ərazilərin geri qaytarılması geniş xalq kütlələrinin iştirakı olmadan mümkün deyildi. Mütəxəssislər də haqlı olaraq qeyd edirlər ki, Manna əhalisinin ictimai-siyasi fəallığı çox yüksək idi. Ölkənin mənafeyinə zidd siyasət yeridən çara qarşı əhalinin üsyan qaldırması xalq kütlələrinin ictimai fəallığını, daxili həmrəyliyini sübut edir və həmin dövrdə bu fəallıq mövcud olan xalqlar arasında görünməmiş hadisə idi (76).

Xalq kütlələrinin müdafiə işində iştirakı dedikdə mannalı əkinçilərin, maldarların, sənətkarların qoşunların maddi-texniki təchizatının təmin edilməsindəki rolu da nəzərə alınmalıdır. Ancaq bu da məlumdur ki, Manna dövlətində xalq kütlələri təkcə xarici istilaçılara qarşı mübarizədə birləşmirdilər. Onlar hakimlərin ölkənin mənafeyinə cavab verməyən siyasətinə qarşı öz etirazlarını da bildirirdilər. Manna hökmdarı İranzunun ölümündən sonra onun oğlanları arasında hakimiyyət uğrunda çəkişmənin başlanması zamanı xalq kütlələrinin hökmdarlığa

bu və ya digər namizədi müdafiə etməsini istisna etmək olmaz. Xalq kütlələrinin dövlət rəhbərliyinin yarıtmaz siyasətinə qarşı narazılığına nümunə olaraq çar Ahşerinin dövründə onun əleyhinə qaldırılmış üsyanı da göstərmək olar. Doğrudur, bu üsyanın gedişinə müəyyən xarici amillər də təsir göstərirdi. Lakin, çox güman ki, bu üsyanın başlanması üçün başlıca sosial baza ölkə daxilində hakimiyyətin yeritdiyi siyasətdən narazılıq idi. Assuriya çarı Aşşurbanipalın yazılı kitabələrinin birində deyilir: "Aşşur və İştar mənim hökmranlığıma hörmət etməyən Ahşerini onun qullarının əlinə verdilər. Onun ölkəsinin adamları ona qarşı üsyan qaldırdalar və onun meyidini küçəyə atdılar". Bu, bir daha onu göstərir ki, Ahşerinin taxtdan salınmasında və öldürülməsinədə xalq kütlələri də iştirak etmişlər. Tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, Manna əhalisinin ictimai-siyasi fəallığı çox yüksək idi. Ölkənin mənafeyinə zidd siyasət yeridən çara qarşı əhalinin üsyan qaldırması xalq kütlələrinin ictimai fəallığını, daxili həmrəyliyini sübut edir və həmin dövrdə mövcud olan xalqlar arasında görunməmiş hadisə idi.

Xalq kütlələrinin dövlətin yeritdiyi siyasətə qarşı müxtəlif vaxtlarda müxtəlif münasibətdə olması göstərir ki, Manna hökmdarları bu amilin ölkənin möhkəmləndirilməsindəki rolunu eyni cür başa düşməmişdilər. Hökmdar İranzunun hakimiyyətinin ilk illərində və onun sələflərinin vaxtında Mannanın çiçəklənməsi və inkişafından danışılırsa, güman etmək olar ki, həmin dövrlərdə geniş xalq kütləri də dinc əməklə məşğul olaraq ölkənin möhkəmləndirilməsinə xidmət etmişlər. Daha doğrusu, çarlar dövlətin daxili siyasətini, quldarların, əyanların, nüfuzlu adamların, qulların, əkinçilərin, sənətkarların mənafeyini, ölkənin xarici siyasətini uzlaşdıraraq ölkənin ahəngdar inkişafına və eyni zamanda hərb işinin səmərəli qurulmasına əlverişli şərait yaratmışdılar. İranzunun oğlu Azanın hakimiyyəti dövründə, onun qardaşı Ullusununun hakimiyyətinin ilk illərində, həmçinin Ahşerinin hakimiyyəti dövründə ölkədəki

ictimai-siyasi sabitliyin pozulması, sui-qəsdin təşkili, bir sözlə ölkənin ümumi qüvvəsinin parçalanması heç şübhəsiz ki, hərb işinə də mənfi təsir göstərirdi.

Manna tarixindən yazan tarixçilər hökmdar İranzunu bu dövlətin çiçəklənməsində və inkişafında böyük rol oynayan hakimlərdən biri olduğunu qeyd edirlər (77). Bu isə onun sözsüz ki, böyük bir siyasətçi və çevik keyfiyyətlərə malik olan dövlət xadimi olduğunu sübut edir. Müharibələr girdabında öz müstəqilliyini qorumağa məcbur olan Mannanın sabit inkişafını təmin etmək bütün hökmdarlardan, o cümlədən İranzudan böyük səriştə, bacarıq tələb edirdi. Görünür, İranzu dövlətin siyasətinin əsas məqsədlərini daha düzgün müəyyənləşdirmiş, onun daxili və xarici siyasətini uzlaşdıraraq praktiki nəticələr də əldə etmişdi. İranzunun ölkənin daxilində hansı siyasəti yeritməsi haqda məlumutlara nisbətən onun xarici siyasəti barəsində daha çox siyasət yazılı kitabələrdə qalmışdır. Bunlardan görünür ki, xarici siyasətin düzgün müəyyənləşdirilməsi, ölkənin ən ağır vəziyyətində hansı dövlətə arxalanmaq barədə düzgün addım atılması Manna dövlətinin tarixində həlledici rol oynamış və dəfələrlə onu məhv olmaq təhlükəsindən xilas etmişdi. E.ə.VIII əsrin 20-ci illərində Urartu dövlətinin istilaçılıq təhlükəsi, Zikertu, Uişdiş, Andia vilayətlərinin Mannadan ayrılması ölkəni çox mürəkkəb vəziyyətə salmışdı (78). Digər tərəfdən Assuriyanın da Mannaya qarşı təcavüz niyyətindən əl çəkməməsi İranzunu çətin bir yol ayrıcında qoymuşdu. Belə bir vəziyyətdə dövlətin mənafeyinin qorunmasının daha etibarlı yolunu İranzu Assuriya ilə ittifaqda gördü və Assuriya hakimləri ilə danışıqlara başladı. Doğrudur, bu ittifaqda Assuriya da öz mənafelərini güdürdü və Manna ərazilərində möhkəmlənərək onun bötön sərvətlərindən istifadə etmək istəyirdi. Manna dövləti Assuriyaya vergi verirdi. Lakin bununla bərabər Assuriya ilə ittifaqa girmək Mannanın daxili və xarici vəziyyətinin sabitləşməsinə, onun müstəqilliyinin qorunmasına kömək edirdi. Amma bu ittifaq Manna dövləti üçün heç də xətərsiz ötüş-

mədi. Mannanı nəzarət altında saxlamağa, onun misilsiz sərvətlərindən bəhrələnməyə cəhd göstərən digər qonşu təcavüzkar dövlət, Urartu Assuriyanın Mannada möhkəmlənməsini heç cürə qəbul etmək istəmirdi və buna görə Assuriyanın Mannadakı nüfuzunu və eləcə də Mannanın daxili sabitliyini zəiflətmək üçün bu dövlətin daxilində təxribatlar aparırdı. Zikertu vilayətinin hakimi Metatti də Assuriyanın Manna ilə ittifaq yaratmasına qarşı Urartu çarı I Rusa ilə birgə fəaliyyət göstərirdi. Bu təxribatların nəticəsində e.ə. 719-cu ildə Şuandul və Durdukka şəhərləri Manna hökmdarına qarşı üsyan qaldırdılar (79). Zikertu hakimi Metatti üsyançılara hərbi kömək göstərirdi. Bu şəhərlərin ardınca Sukka, Bala, Abitikna şəhərləri də Mannanın mərkəzi hakimiyyəti əleyhinə üsyan qaldırdılar. Urartu çarı I Rusanın və onun tərəfdarlarının bu yolla Mannanı Assuriya ilə ittifaqdan ayırmaq və öz vassallığı altına salmaq niyyəti baş tutmadı. Assuriya qoşunlarının hücumu nəticəsində Mannanın hüdudları daxilində vəziyyət nisbətən sakitləşdi. Ancaq İranzunun ölümündən sonra hakimiyyətə gələn oğlu Azanın təcrübəsizliyi yenidən Urartupərəst təxribatlar başlamasına yol açdı. Bu dairələr İranzunun digər oğlu Ullusununu da öz tərəflərinə çəkməyə müvəffəq oldular. Görünür, Mannanın hökmdarı ölkənin müstəqilliyinin qorunması üçün xarici dövlətlərdən Assuriyaya üstünlük verilməsi istiqamətində atasının siyasətindən əl çəkmək fikrində deyildi. Bu isə Urartupərəst dairələri razı salmırdı. Ölkə daxilində başlanan iğtişaşlar nəticəsində Aza öldürüldü və onun yerini Ullusunu tutdu. Assuriya çarı II Sarqonun yazılı kitabələrindən aydın olur ki, bu iğtişaşların başında Zikertu hakimi Metatti, Şaundahul və Durdukka (Zurzukka) şəhərlərinin hakimləri dayanırdı. Mannada yaranmış vəziyyətə qarşı Assuriya hakimləri müşahidəçi mövqe tutmadılar və Urartunun burada möhkəmlənməsinin qarşısını almaq üçün Mannanın üsyan etmiş ərazilərinə qoşun yeritdilər. II Sarqonun yazılı kitabələrində bu hücumun nəticələri barədə belə deyilir: "Öz atasınan taxtına oturan mannalı Ullusunu urar-

tulu Ursaya (Rusa) arxalandı və özünün 22 qalasını təslim etdi. Ürəyimin qəzəbi ilə mən Aşşur allahının saysız-hesabsız qoşunlarını silahlandırdım... Mannalı Ullusunu mənim yürüşümün yaxınlaşdığını görüb öz şəhərindən çıxdı və qorxu içərisində əlçatmaz dağdakı gizli yerdə yerləşdi. Onun hökmdar şəhəri İzurtunu, onun möhtəşəm qalaları İzibiya və Armedi mən fəth etdim və alovda yandırdım. Mən əlçatmaz Uauş dağında urartulu Ursa ilə qanlı döyüş keçirdim və onun hökmdar nəslinin 250 üzvünü ələ keçirdim. Ətrafına divar çəkilən 55 möhkəmləndirilmiş şəhərini, 9 əlçatmaz qalası ilə birlikdə onun 8 vilayətini fəth etdim və oda yaxdım. Mannalı Ullusunuya məxsus 22 qalanı mən onun əlindən aldım və Assuriyanın hödudlarına daxil etdim. Andiyalı Telusinanın vilayətinə qədərki Tuaya ölkəsinin 8 qalasını mən fəth etdim; 4200 sakinini onların sürüləri ilə birlikdə əsir etdim. Zikertulu Mitatti mənim silahımdan bərk qorxdu və öz ölkəsinin adamları ilə birlikdə meşəli dağlara qaçdı" (80).

Daha sonra kitabədən məlum olur ki, II Sarqon Zikertunun paytaxtı Pardan şəhərini, Şuandahul və Durdukka (Zurzukka) şəhərlərini fəth etmişdir. Assuriya qoşunlarının bu qələbələrini görəndən sonra Manna hökmdarı Ullusunu II Sarqonla əlaqə yaratdı və onunla yenidən ittifaqa girmək arzusunda olduğunu bildirdi. II Sarqon Manna hökmdarının təklifini yaxşı qarşıladı və ona heç bir xətər yetirmədən öz taxtında oturtdu (81).

Bundan sonra Ullusunu ilə II Sarqon arasındakı münasibətlər xeyli möhkəmləndi. Görünür, Ullusunu da əvvəllər tutduğu xəttin dövlətin mənafeyinə xidmət etmədiyini anladığı üçün çeviklik göstərərək Assuriya hakimləri ilə ittifaqın bərpa edilməsi istiqamətində addım atmış və Assuriyanı da bu addımların qəti və dönməz olduğuna inandıra bilmişdi. Çünki Ullusunu bir vaxtlar ona düşmən olan Asuriya dövlətini özünün müttəfiqinə çevirmiş və II Sarqonun böyük ehtiram bəslədiyi adamlardan biri olmuşdu (82).

Bir hökmdar kimi Ullusununun müsbət keyfiyyətləri özünü bir də onda göstərirdi ki, o, Assuriya ilə ittifaqa yalnız taxt-tacını saxlamaq xatirinə girmədi. Ullusunu bu ittifaqdan həm də ölkənin gücləndirilməsi və möhkəmləndirilməsi namenə istifadə etdi və qısa müddətdən sonra yenidən gücləndi. Hətta Manna Assuriyanın özünə meydan oxumağa başladı. Ancaq görünür Manna dövlətinin az müddətdə belə güclənməsi Manna hökmdarlarında özlərinə arxayınçılıq, xarici dövlətlərin gücünə isə etinasızlıq yaratdı. Hökmdar Ahşerinin dövründə, təxminən e.ə. 660-cı illərdə bu iki dövlət arasında ittifaq əlaqələrinin pozulduğu və Manna dövlətinin Assuriyaya açıq meydan oxuduğu üçün Assuriya yenidən Mannaya hücum etdi (83). Bu ağır döyüş Mannanın məğlubiyyəti ilə başa çatdı. Manna dövlətinin süqutunu yaxınlaşdıran bu döyüş sözsüz ki, həm də onu qoruya biləcək qoşunları xeyli zəiflətdi. Dövlətin xarici siyasətində ölkənin mənafeyini tapdalayan mövcud ənənə geniş əhali kütlələrinin də ciddi narazılığına səbəb oldu və onlar üsyan qaldıraraq Ahşerini öldürdülər. Bu üsyanın qaldırılmasında şübhəsiz ki, öz məqsədini güdən bəzi qüvvələrin də rolu var idi. Bununla belə, ölkənin xarici siyasətində reallığın düzgün öyrənilib qiymətləndirilməməsi ağır itkilər verilməsinə gətirib çıxardı.

## 6. Mannada hərbi istehkam işinin vəziyyəti

Yuxarıda qeyd edilmişdi ki, ölkənin müdafiə qüdrətinin artırılması, xarici istilaçılara müvəffəqiyyətlə müqavimət göstərilməsi üçün Mannada möhkəmləndirilmiş şəhər və qalaların tikilməsinə xüsusi diqqət verilirdi. Assuriya çarı II Sarqonun Ullusunu ilə döyüşünə həsr edilmiş yazılı kitabəsindən də görünür ki, bu hücum vaxtı Assuriya qoşunlarının Mannada fəth etdikləri təkcə 8 vilayətdə ətrafına divar çəkilmiş 55 möhkəmləndirilmiş şəhəri və 9 əlçatmaz qalanı ələ keçirmişdi (84). Kitabədən görünür ki, digər vilayətlərdə də möhkəmləndirilmiş

şəhər və qalalar çox imiş. Mannalıların şəhər ətrafında belə istehkam-mühəndis işlərinin aparılması güclü təcavüzkar dövlətlərin hücumlarının qarşısını almaq üçün etibarlı vasitələrdən biri idi. Çünki qalın divarları olan şəhəri müdafiə etmək asan idi. Möhkəm divarların düşmən tərəfindən dağıdılması xeyli vaxt tələb edirdi ki, bu vaxt ərzində şəhərin müdafiəçiləri əlavə müdafiə tədbirləri də görə bilərdilər.

Müdafiə məsələlərində mühəndis-istehkam işlərinə xüsusi fikir verilməsi, ölkə ərazisində möhkəm şəhərətrafı divarların və qalaların tikilməsi daha çox hərb sənətinin tarixi inkişafı ilə bağlı idi. Bu ilk növbədə dövrün hərb silahlarının taktiki və texniki xüsusiyyətləri ilə əlaqədar idi. Həmin dövrdə qoşunlar elə silahlardan istifadə edirdilər ki, möhkəmləndirilmiş müdafiə divarları və ya qala divarlarının köməyi ilə hücum edən düşmənlərin qarşısını almaq müəyyən dərəcədə mümkün olurdu. Qala və şəhər divarlarını yarmaq üçün xüsusi divardeşən alətlərdən istifadə olunurdu ki, onlar çox yaxında yerləşdiklərindən bəzən müdafiəçilərin də təxribatlarına məruz qalırdılar. Digər tərəfdən qədim dövrlərdə müharibələr uzun sürmürdü. Onların taleyi bir və ya iki döyüşdə həll olunurdu. Ona görə də belə döyüşlər adətən sərhəd zolağında deyil, təcavüzə məruz qalmış ən böyük möhkəmləndirilmiş şəhərlər ətrafında baş verirdi. Çünki müdafiə olunan ölkə belə şəhərlərin təbii-coğrafi şəraitindən, onun mühəndis-istehkam qurğularından səmərəli istifadə edərək düşmənə maksimum zərbə endirib onu zəiflətməyə çalışırdı.

Mannanın paytaxtı İzurtu da möhkəmləndirilmiş şəhər idi. Ölkə ərazisində yalnız hərbi məqsədlər üçün tikilmiş qalalar da çox idi. Bu qalaların bəziləri coğrafi baxımdan müdafiə üçün əlverişli məntəqələrdə tikilirdi.

Mannanın çoxlu sayda möhkəmləndirilmiş şəhərləri və qalaları burada mühəndis-istehkam tikintisi mədəniyyətinin yüksək olmasından xəbər verir. Yazılı abidələr və arxeoloji qazıntılar göstərir ki, şəhərlərin ətrafında təkcə qala divarları

çəkilmir, əlavə olaraq digər mühəndis-istehkam işləri də aparılırdı. II Sarqon e.ə. 714-cü ildə Mannaya hücum barədə öz yazılı kitabəsində aşağıdakıları göstərirdi:"Tarmakizdə əhəmiyyətli istiehkamlar var. Burada yaradılan sədlər möhkəmdir. Həmin sədlər dərin xəndəklər vasitəsilə dövrəyə alınmışdır. Dövlət qoşunlarının ehtiyat qüvvəsi də burada yerləşir. Eyni zamanda onların atları da burada bəslənir. Ətraf rayonların sakinləri mənim qorxumdan buraya toplaşmışlar. Mən buraya hücum edən zaman əhali buranı tərk etməyə məcbur olub susuz çöllərə qaçaraq öz canlarını xilas etməyə çalışırdı. Mən bu mahalı ələ keçirdim, müdafiə əhəmiyyətli istehkam halına salınmış yaşayış yerləri arasında döyüşə başladım. Həmin qalaların möhkəm divarlarını uçurub yerlə yeksan  etdim" (85).

Assuriya çarının bu qeydlərindən belə bir nəticəyə gəlmək olar ki, Manna şəhərlərini, konkret olaraq Tarmakisin düşmənlərə müqavimətini gücləndirmək üçün onun ətrafında  iki qat və çox qat müdafiə zolaqları düzəldilmişdi. Qalın şəhər divarlarının ətrafında qazılan xəndəklər heç şübhəsiz ki, şəhərin müdafiəsinin daha etibarlı olmasına xidmət edirdi. Bundan başqa, görünür, Tarmakis aid olduğu vilayətin əsas şəhər-qalası imiş. Çünki güclü təcavüz ərəfəsində ətraf kəndlərin sakinləri də öz evlərini tərk edərək buraya sığınmışdılar. Deməli, möhkəmləndirilmiş şəhərlər yalnız şəhər əhalisinin deyil, həm də ətraf yaşayış məntəqələrinin əhalisinin burada müdafiə olunmasını təmin edirmiş. Mal-qaranın, xüsusən həmin dövr üçün strateji hərbi vasitə sayılan atların möhkəmləndirilmiş qalalarda saxlanması da basqınlar zamanı bu qalalara böyük ümidlər bağlandığından xəbər verir.

Həsənlu ətrafında aparılan arxeoloji qazıntılar zamanı da şəhər qalalarının həndəvərində qalın divar izlərinin olduğu müəyyənləşdirilmişdir. Bəzi yerlərdə divarın qalınlığı 60 sm-ə çatırmış (86).

II Sarqonun yazılı kitabələrindən aydın olur ki, Manna ərazisində möhkəmləndirilmiş şəhərlərdən, qalalardan başqa

müşahidə üçün nəzərdə tutulan xüsusi bürclər tikilirmiş. Bu bürclərdən müşahidə aparmaqla düşmənin yaxınlaşmasını, onun təxmini sayını və təchizatını müəyyənləşdirmək mümkün olurmuş: "Dağ zirvələrində bürclər ucaldılmışdı, tonqal yandırılıb ...yandırılmadığına gecə-gündüz göz qoyur və uzaqda olan çoxsaylı düşmən yaxınlaşdıqda xəbər verirlər" (87). Bununla da düşmən hücumunun gözlənilməzliyi və qəfil zərbə ilə təşəbbüsü ələ almaq ümidi müəyyən qədər zəiflədilirdi.

## 7 Manna qoşunlarının maddi-texniki bazası

Mühəndis-istehkam tikililəri ölkənin müdafiəsi işini nə qədər gücləndirsə də hərb sənətinin inkişafının səviyyəsi başlıca olaraq qoşunların hərbi-texniki bazası ilə bağlıdır. Çünki qoşunların işlətdiyi ən sadə taktiki üsullar belə döyüşçülərin istifadə etdiyi silahların imkanına uyğun olaraq tətbiq edilə bilərdi. Güclü dövlətlərin əhatəsində olan Mannanın qoşunları öz üzərinə düşən vəzifələri öz dövrünün müasir silahlarına malik olmadan yerinə yetirə bilməzdi. Manna qoşunlarının silahları, bütünlükdə qoşunların sayı, tərkibi, quruluşu, fəaliyyət prinsipləri barədə kifayət qədər məlumat əldə etmək çətindir. Lakin arxeoloji qazıntılar zamanı tapılmış silah qalıqları, habelə qonşu ölkələrin, xüsusi ilə Urartunun və Assuriyanın qoşunları barədə gəlib çatan məlumatlar müəyyən qənaətə gəlməyə imkan verir. Çünki bu iki dövlətin ardıcıl təcavüzlərinə məruz qalan, bəzi vaxtlar isə onlarla müttəfiqlik əlaqələrində olan Manna dövlətinin hakimləri güclü qoşun yaratmağa çalışarkən heç şübhəsiz ki, onların təcrübəsini mənimsəməyə və onların istifadə etdikləri silah və taktiki üsullardan istifadə etməyə çalışmışdılar. Hərb işinin müəyyən sahələrində Manna dövlətinin digər dövlətlərin hərbi təcrübəsindən istifadə etdiyini Manna tarixindən yazan tarixçilər də inkar etmirlər (88).

Manna qoşunlarının silahları içərisində  həm zərbə, həm də müdafiə silahlarına rast gəlmək olar. Ölkə ərazisində metal

filizlərinin çıxarılması, metallurgiyanın və sənətkarlığın inkişafı burada yaxşı silahların hazırlanması üçün ilkin şəraiti yaratmışdı. Heç şübhəsiz ki, sənətkarlığın bu sahəsi güclü inkişaf etmiş və bəlkə də ixtisaslaşmışdı. Çünki döyüşçülərin istifadə etdikləri bir çox mürəkkəb silahları yüksək təcrübəyə malik olmayan sənətkarlar düzəldə bilməzdilər. Zərbə silahları sırasına ox, nizə, cida, qılınc, xəncər və s. daxil idi. Bu silahlar həm dəmirdən, həm də tuncdan düzəldilirdi. Assuriya və Urartu qoşunlarında istifadə edilən zərbə silahları da əsasən bunlardan ibarət idi (89). Yəni, Manna qoşunlarının zərbə silahları yaxın və qüdrətli qonşularının zərbə silahlarından heç də geri qalmırdı. Əksinə, hətta güman etmək olar ki, Manna qoşunlarında olan "açıq aypara" tipli iri xəncər və qılınclar (90) Manna döyüşçülərinin özünəməxsus silahları olmuşdur. Bu silahlar ola bilsin ki, əlbəyaxa döyüşlərdə zərbənin kəsərliyini artırırmış. Onların qəbzələrinin böyük sənətkarlıqla işlənməsi isə, qeyd edildiyi kimi, bu sahədəki mədəniyyətin yüksək inkişafından xəbər verir.

Assuriya və Urartuda hərb işinə aid olan ədəbiyyatdan aydın olur ki, Mannada olan toppuzlardan da bu ölkələrdə olmamışdır (91). Zərbə üçün nəzərdə tutulan bu silah güman ki, köməkçi silah kimi istifadə edilirmiş. Manna döyüşçülərinin oxları üçün ensiz və yastı ox ucları daha çox səciyyəvi olmuşdur (92). Assuriya qoşunlarında daş atan sapandlardan, divardeşən müxtəlif alətlərdən istifadə edildiyi məlumdur (93). Bu silahları da hərbi keyfiyyətlərinə görə zərbə və hücum silahlarına aid etmək olar. Onlardan Assuriya qoşunlarının başqa dövlətlər üzərinə, o cümlədən Mannaya hücumları zamanı geniş istifadə etməsinə görə həmin silahların qonşu ölkələrin qoşunlarında olmasını da istisna etmək olmaz.

Nizə və toppuzların ağac dəstəklərinin düzəldilməsi üçün Manna sənətkarları bərk odun növündən istifadə edirdilər (94).

Müdafiə məqsədilə mannalılar dəbilqə, qalxan, zireh və digər əsləhədən istifadə edirdilər. Bu müdafiə silahlarından

bəziləri arxeoloji qazıntılar zamanı da tapılmışdır (95). Döyüşçülərin geyimində dəmirə və parçaya bənd etmək üçün deşikləri olan tunc çiyinciklərdən də istifadə olunurdu (96). Belə tunc çiyin-ciklər döyüşçü üçün özünəməxsus zirehli mühafizə idi və onun bədənini düşmənin zərbə silahlarından qoruyurdu. Bu geyim xüsusilə qalaların və şəhərlərin divarlarının mühasirəsinə cəlb edilmiş Assuriya döyüşçülərinin geyimini xatırladır. Bu döyüşçülər uzunsov bürünc lövhəciklər tikilmiş mühafizə libaslarından istifadə edirdilər (97). Bunlardan əlavə heç şübhəsiz ki, Manna döyüşçüləri də urartulularda olduğu kimi dairəvi, qabarıq və bürüncdən düzəldilmiş qalxanlardan (98), assuriyalılarda olduğu kimi dördkünc qalxanlardan istifadə etmişlər. Qalxanlar quldarlıq dövrü döyüşçüsünün təchizatının əsas elementlərindən biri idi.

Aparılan tədqiqatlar göstərir ki, Manna döyüşçüləri iki növ hərbi geyim formasından istifadə etmişlər. Birinci növ geyim forması uzun olmuşdur. Üzərinə kiçik metal lövhəciklər tikilən və ətəyə doğru genələn belə geyim forması parçadan, ya da dəridən hazırlanırdı. Manna döyüşçüsünün geyiminin başqa bir forması ətəyi dizdən qısa olan xirqə idi. Döyüşçülərin kürəyini çiyinə bənd edilən heyvan dərisi örtürdü (99).

## 8. Mannanın qoşun növləri

Assuriya (100) və Urartuda (101) olduğu kimi Mannada da üç qoşun növünün olduğu şübhəsizdir: piyada, atlı və cəng arabalarında vuruşan qüvvələr. Sonuncunu Manna ərazisində tapılmış arxeoloji qazıntı nümunələri sübut edir. Mütəxəssislərin fikrincə, maddi mədəniyyət nümunələrinin üzərində olan şəkillərə görə Mannada biratlı və ikiatlı arabalar mövcud olmuşdur və onlar xarici forması etibarilə Assuriya və Urartu cəng arabalarını xatırladır (102). İkiatlı arabalarda adətən üç adam yerləşirdi. Arabanın içində bir ox atan, nizə ilə silahlanmış bir qalxan gəzdirən və bir də sürücü olurdu. Bundan başqa

arabaların böyrünə ehtiyat oxlarla dolu olan qab bərkidilirdi (103). İkiatlı cəng arabalarının arxasınca bəzən yəhərsiz at da aparılırdı (104). Görünür, bu, döyüş zamanı sıradan çıxmış qoşqu atlarını əvəz etmək üçün imiş.

Cəng arabalarından istifadə edilməsinin həm müsbət, həm də zəif tərəfləri var idi. Meydana çıxdığı ilk dövrlərdə onun tətbiqi səmərəli nəticələr verirdi. O, böyük sürətə malik idi. Heyətinin sayı döyüşçüləri mühafizə edən qalxangəzdirənlərlə artırıldıqda onun döyüş qüdrəti daha da artırdı. Ox və nizə atan döyüşçülərin fəaliyyətində həmahənglik olduğu təqdirdə cəng arabalarının döyüşçüləri düşmənin ilk zərbəsini öz üzərinə götürərək arxadan gələn piyada üçün əlverişli şərait yaradırdılar.

Hərbi cəng arabalarının zəif tərəfi isə onda idi ki, bu qoşun növündən ancaq düzənliklərdə istifadə etmək olardı. Dağlıq, meşə şəraiti, yağmurlu hava cəng arabalarının döyüşə qoşulmasını xeyli çətinləşdirirdi. Eyni zamanda cəng arabaları düşmənin piyadasının əhatəsinə düşdüyü zaman öz çevikliyini və manevrliyini itirirdi. Bu cəhətlər cəng arabalarından istifadə edərkən məkanın və zamanın düzgün seçilməsini tələb edirdi.

Digər qoşun növü atlılar idi. Atçılıq ön Asiyada çoxdan yayılsa da ondan hərb işində istifadə edilməsi e.ə. I minilliyin əvvəllərindən başlayır. Mannada atlı qoşun növünün formalaşması Assuriyada atlı dəstələrinin yaradılması ilə təxminən bir vaxta (105) düşür (e.ə.IX əsr). Assuriya çarlarının Mannadan həmişə qənimət və vergi kimi at aparmaları və bu yerlərin atlarını xüsusi qiymətləndirmələri Mannada atçılığın yüksək inkişafından xəbər verir (106). Assuriya kimi qüdrətli bir dövlət öz atlı qoşunlarını təşkil etmək üçün Mannadan gətirilən atlardan istifadə edirdi. Bundan əlavə atlı qoşun üçün atların Mannada daha yaxşı əhliləşdirilməsi təcrübəsinin Assuriya çarı tərəfindən təqdir edilməsi və Mannada atlı qoşunların formalaşma vaxtının bu prosesin Assuriyada gedən prosesdən geri qalmaması hətta belə bir qənaətə gəlməyə də imkan verir ki,

Mannada atların hərb işinə cəlb edilməsinə daha tez başlanmış və bu, Assuriyada da atların hərbə cəlb edilməsinə, xüsusən atlı qoşunların təşkilinə müsbət təsir göstərmişdi.

Mannanın atlı dəstələri qeyri-nizami atlı dəstələr idi və bu dəstələrin üzvləri heç şübhəsiz ki, həm zərbə silahları, həm də müdafiə silahları ilə silahlanırdılar. Atlı döyüşçülər adətən sağ əlində zərbə silahını tutur, sol əlindəki qalxanla isə mühafizə olunurdular. Atlı qoşunlarının formalaşması cəng arabalarında vuruşan qoşun növünün formalaşmasından sonrakı dövrə təsadüf edir (107). Atçılıq şərq ölkələrində, o cümlədən Mannada çoxdan inkişaf etsə də əvvəllər ondan rabitə yaratmaq, müşahidə aparmaq və s. üçün istifadə edilirdi. Yalnız yəhər icad edildikdən və atlının məharəti artdıqdan sonra atlı qoşun növü formalaşmağa başlamışdı. Hətta bir müddət sonra cəng arabalarını sıxışdıraraq aradan çıxarmışdı.

Manna qoşunlarının əsasını piyada qoşun növü təşkil edirdi. Bu qoşun növü döyüşün əsas ağırlığını öz üzərinə götürürdü. Onun döyüş təchizatını yuxarıda göstərilən silah, geyim və mühafizə əşyaları təşkil edirdi. Piyadalar malik olduqları silah və təchizatın xüsusiyyətlərinə görə iki yerə bölünə bilərdi: ağır və yüngül piyadalar. Ağır piyadalar hərbi ədəbiyyatda bəzən xətti piyada kimi də adlanır (108). Ağı piyadalar adətən çoxluq təşkil edirdi və onlar nizə və qılınc kimi zərbə silahlarına, həm də mühafizə təchizatına malik olurdular. Mühafizə təchizatı döyüşlərdə zireh, dəbilqə və qalxanlar ola bilərdi. Ağır piyada döyüşdə əsas zərbə qüvvəsini təşkil edirdi. Çünki mühafizə təchizatı onları düşməndən daha yaxşı müdafiə olunmağa və malik olduğu ağır zərbə silahı ilə güclü zərbə vurmağa imkan verirdi. Yüngül piyadalar isə ox-kaman, sapand, yüngül nizə və cida ilə silahlanırdılar. Onlara adətən döyüşün ilkin mərhələsinin məsuliyyəti, yəni döyüşü başlamaq vəzifəsi tapşırılırdı və əsasən mühafizə təchizatı olmadan vuruşurdular.

## 9. Manna ordusunun quruluşu, səfərbərlik və idarəetmə xüsusiyyətləri. Hərbi strategiya və taktika məsələləri

Manna qoşunlarının quruluşu, tərkibi, səfərbərlik xüsusiyyətləri, hərb sənəti, taktiki və strateji məsələləri barədə də xeyli az məlumat mövcuddur. Bu barədə yazılı kitabələrdə ötəri fraqment xarakteri daşıyan qeydlərdən, qonşu dövlətlərin tarixi məlumatlarından müəyyən ümumiləşdirmələr aparmaq olar. Yuxarıda Assuriyanın hərb işinin Mannanın hərb işinə təsir göstərməsinin yəqinliyini qeyd etmişdik. Manna qoşunlarının tərkibini, quruluşunu fəaliyyət prinsiplərini nəzərdən keçirərkən bu cəhətə xüsusilə diqqət verilməlidir. Həmin dövrün başqa bir qüdrətli dövləti olan Urartunun hərb işində Assuriyanın hərb təcrübəsindən xüsusilə bəhrələnməsi bu təcrübənin Mannada da geniş tətbiq edildiyinə ehtimal yaradır. Məsələn, belə bir fakta diqqət yetirmək lazımdır ki, e.ə. 616-cı ildə Assuriyanın Babil qoşunları ilə müharibəsində Manna qoşunları da müttəfiq kimi onunla birlikdə vuruşmuşdu. Əgər Manna qoşunları ilə Assuriya qoşunlarının quruluşunda, hərbi vahidlərində, taktiki keyfiyyətlərində, silahlarında, təchizat və təminat prinsiplərində yaxınlıq olmasaydı onların arasında qarşılıqlı əlaqələri yaratmaq da xeyli mürəkkəb olardı.

Manna hökmdarı ölkənin başçısı olmaqla yanaşı, həm də qoşunların rəhbəri idi. Hərbi yürüşlərə hökmdar şəxsən özü rəhbərlik edir, döyüşlərin gedişini idarə edirdi. Buna görə də sözsüz ki, qoşunların sayı hökmdar tərəfindən müəyyənləşdirilirdi. Səfərbərliyin nə vaxt başlaması, qoşunlara nə vaxt nə qədər döyüşçü cəlb edilməsi dövlət başçısının əmrinə müvafiq həyata keçirilirdi. Assuriya çarı II Sarqonun vaxtında Manna dövləti tərəfindən onun qoşunlarının ərzaqla təmiatının təşkil edilməsi, habelə Mannanın qalalarına ərzaq ehtiyatı yığılması, ondan ölkənin, o cümlədən qoşunların saxlanması üçün istifadə

edilməsi (109) göstərir ki, qoşunların təminat və təchizatı ilə məşğul olan xüsusi orqanlar da mövcud olmuşdur. Ölkənin çoxsaylı qoşunlara malik olması da hökmdarın rəhbərliyi altında belə bir orqanın varlığını zəruri edirdi. Mannanın bəzi vilayətlərinin, Mitattinin hakim olduğu Zikertu vilayətinin mərkəzi hakimiyyətə qarşı dəfələrlə üsyan etməsi onu deməyə əsas verir ki, qonşu dövlətlərdə olduğu kimi qoşunların əsasını vilayətlərdə toplanan dəstələr təşkil edirdi. Vilayətlərin canişinləri də həmin dəstələrin komandirləri olurdular. Bu dəstələrin təxmini sayı çox güman ki, yerli əhalinin sayına görə hökmdar tərəfindən müəyyənləşdirilirdi. Həmin dəstələrin əsasını azad əhali təşkil edirdi. Qullar bu dəstələrə daxil edilsə də onun əsasını təşkil edə bilməzdilər. Çünki bu, qoşunların etibarlılığını, yerli hakimlərə, o cümlədən mərkəzi hakimiyyətə sədaqətini zəiflədə bilərdi.

Mannada Assuriya tipli daimi qoşunun və qvardiyanın olduğunu da inkar etmək olmaz. Qvardiya hökmdara ən sədaqətli silahlı dəstə olmaqla onun özünün, ailəsinin, sarayının mühafizəsi ilə məşğul olmalı idi. Vilayətlərdə olan qoşun hissələrindən başqa paytaxtda birbaşa hökmdara tabe olan daimi qoşunun saxlandığı şübhəsizdir. Çünki ölkənin vaxtaşırı basqınlara məruz qalması, təhlükə qarşısında olması daim döyüşə hazır olan belə qoşunun mövcudluğunu tələb edirdi. Bu qoşun müəyyən yaş həddinədək daimi xidmət edən adamlardan da dəstləşdirilə bilərdi. Eyni zamanda burada Assuriyanın təcrübəsi də tətbiq edilə bilərdi. Assuriya çarı III Tiqlatpalasarın dövründə Assuriyanın daimi qoşunu daxilində aparılan islahatlardan sonra onun tərkibi kasıblaşmış, müflisləşmiş əkinçilər hesabına dəstləşdirilir və bötönlökdə dövlət tərəfindən təchiz edilirdi (110). Əvvəllər isə bu qoşun varlı əyanlardan dəstləşdirilirdi.

Qoşunlara ümumi rəhbərlik yuxarıda qeyd edildiyi kimi hökmdarın əlində idi. Heç şübhəsiz ki, hərbi məsələlər üzrə onun məsləhətçisi, köməkçisi, ya da icraçısı var idi. Belə bir

şəxs Urartu dövlətində də mövcud idi (111). Vilayət canişinləri isə vilayətlərdəki qoşunların komandanı olmaqla qoşunlara rəhbərlik piramidasının müəyyən bir mərtəbəsini təşkil edirdilər. Döyüşlərə vilayətlərdən gətirilən qoşunlar vilayət canişinlərinin rəhbərliyi altında cəlb edilirdilər və bu dəstələr özlüyündə müəyyən bir hərbi vahid təşkil edirdilər. Ancaq sözsüz ki, bu böyük hərbi vahidin tərkibində xırda hərbi vahidlər də var idi. Yoxsa, 10 minlərlə, bəzən daha çox, ya daha az adamı özündə birləşdirən belə bir vahidi bir nəfər idarə edə bilməzdi. Məsələn, cəng arabalarında vuruşanlar üçün bir cəng arabası öz heyəti ilə birlikdə bir hərbi vahid idi. Bir neçə cəng arabası isə sözsüz ki, başqa bir hərbi vahid olurdu. Assuriya yazılı kitabələrində orada istifadə edilən hərbi vahidlərdən kisirin (kisru) adı tez-tez çəkilir. Bu vahidə neçə döyüşçünün daxil olması müxtəlif mənbələrdə müxtəlif cür göstərilir. Bəzi mənbələrə görə, bu hərbi vahidin daxilində 50 döyüşçü (112), bəzi mənbələrə görə isə 500-2000 nəfər döyüşçü daxil idi (113). Birinci rəqəm güman ki, həqiqətə daha yaxındır. Çünki Assuriyanın qoşun növləri mütənasib şəkildə bir vahiddə birləşdirilərək döyüşə göndərilirdi. 200 nəfərlik piyada dəstəsinə 10 nəfər atlı və bir cəng arabası verilirdi (114). Ona görə belə dəstələrin təşkili üçün kisruların yarıya bölünməsi, müstəqim rəhbərliyin nəzarəti altından uzaqlaşdırılması məqsədəuyğun olmazdı. Çox güman ki, bir neçə kisru birləşdirilərək bir hərbi vahid yaradılırdı. Bir neçə kisru emeku adlanan hərbi vahidi yaradırmış (115). Ola bilsin ki, 200 nəfərlik piyadanın, 10 nəfərlik atlının və bir cəng arabasının daxil olduğu vahid elə emekunun özüdür. Ehtimal ki, Manna qoşunlarında da belə və ya buna bənzər bölgü saxlanılmışdır.

Mütəxəsisslərin fikrincə, quldarlıq dövründə şərqin bötön qüdrətli dövlətlərində qoşunların döyüşqabağı düzülüşü bir xətdə (eşelonda) olurdu. Düzülüşün ortasında düzbucaq şəklində 50 sıraya yaxın düzülmüş piyada, cinahlarda isə atlılar hərəkət edirdilər. Qarşıda döyüşü başlamalı olan yüngül piyadalar və

cəng arabaları gedirdilər (116). Sonradan bu qoşunların düzülüşündə ikinci xətt (eşelon) yaradılmağa başladı. Ancaq ikinci eşelon birinci eşelonun fəaliyyətini gücləndirmək üçün deyil, birincini yarıb keçə biləcək düşmən dəstələrini gözləyib onlara zərbə endirmək vəzifəsi daşıyırdı (117). Assuriya qoşunlarının təcrübəsinə uyğun olaraq demək olar ki, yüngül piyada ağır piyadadan arxada hərəkət edə bilərdi. Belə halda, yenə onlar döyüşü birinci başlayırdılar. Ağır piyadanın başı üzərindən düşmənə yağdırılan oxlar ona ilk zərbəni vurub sıralarını seyrəldirdi (118). Ardınca da ağır piyada və atlı qoşun növləri hücumu genişləndirirdilər.

Döyüşdən qabaq kəşfiyyat işləri aparılırdı. Müşahidə bürclərinin tikilməsi, tüstü vasitəsilə düşmənin yaxınlaşmasının xəbər verilməsi bu məqsədə xidmət edirdi. Casus kəşfiyyatından istifadə edilməsini də istisna etmək olmaz. Hərb sənəti çox zəif inkişaf etdiyindən döyüşlərin taleyi əsasən qüvvə üstünlüyü ilə həll olunurdu. Qarşı tərəfin qüvvə üstünlüyünün çox böyük olduğu təqdirdə döyüşə girməyə ehtiyac duyulmurdu. Əhalinin, hakimlərin öz yerlərini tərk edib dağlara çəkilməsi də sözsüz ki, düşmənin böyük qüvvə üstünlüyünə malik olması ilə əlaqədar idi. Möhkəmləndirilmiş qalalar da düşmənin üstün qüvvələrinin qarşısını almağa kömək edirdi. Möhkəmləndirilmiş qalalar ətrafında düşmənə güclü zərbə vurmaqla onu zəiflətmək olardı. Buna görə də döyüşün aparılması üsulu da çox vaxt düşmənin qüvvəsinə görə seçilirdi. Döyüş üsullarının seçilməsinə coğrafi və hava şəraiti də öz təsirini göstərirdi. Coğrafi şəraitdən istifadə edərək əlverişli müdafiə döyüşlərinin aparılması daha münasib idi. Müharibənin taleyi də bir və ya bir neçə əsas döyüşdə həll edildiyi üçün belə döyüşlər adətən mövsümün əlverişli və quraqlıq vaxtlarında aparılırdı.

Qoşunların döyüşqabağı sıraya düzülməsi, müxtəlif qoşun növlərinin fəaliyyəti üçün qarşılıqlı əlaqələrin yaradılması həm qoşun sərkərdələrinin, həm də bütünlükdə qoşunların müəyyən vərdişlərə malik olmasını tələb edirdi. Bu isə taktiki

hazırlıq aparılmadan mümkün deyildi Doğrudur, Manna qoşunlarında, bu dövrün digər qoşunlarında olduğu kimi yüksək taktiki hazırlıqdan danışmaq olmaz. Ancaq, sözsüz ki, Manna döyüşçüləri də hücumun və ya müdafiənin uğurla həyata keçirilməsi üçün sadə və təcrübi biliklərə malik idilər. Döyüşçülərin fiziki hazırlığına gəlincə, çox güman ki, Manna qoşunlarında da fərdi fiziki hazırlıq daha üstün yer tuturdu.

Döyüşçülərin idarə edilməsində də təcrübə toplanılırdı. Manna qoşunlarının hərbi əməliyyatlarına çar şəxsən özü rəhbərlik etdiyindən döyüşün idarə edilməsini də özü həyata keçirməli idi. Döyüşlər adətən geniş sahədə aprıldığından çar çox güman ki, bu zaman bütün döyüş sahəsini izləməyə imkan verən nöqtələrdə qərar tuturdu. O, döyüşün gedişində öz sərkərdələrinə lazımi əmrləri ya işarələrlə, ya da yanındakı çaparlar vasitəsilə çatdıra bilərdi.

Manna dövlətinin tarixi göstərir ki, o, güclü dövlətlərlə əhatə olunduğundan istilaçı siyasət yox, əsasən müdafiə siyasəti yeritməyə məcbur olmuşdu. Ardıcıl olaraq ölkə həm Urartu qoşunlarının, həm də Assuriya qoşunlarının təcavüzləri ilə üzbəüz olmuşdu. Belə hallarda ölkə qoşunları strateji müdafiəyə keçirdi. Belə hallarda Manna qoşunları üstün qüvvəyə malik olan düşmənlə açıq döyüşdə üzbəüz gəlməyin mənasız olduğunu bilərək möhkəmləndirilmiş şəhərlərə, qalalara çəkilir və düşmən qüvvələrindən burada müdafiə olunurdular. Bu döyüş üsulu Manna qoşunlarına qala müdafiəsinin vərdişlərini aşılamaqla sözsüz ki, qalaya və ya, möhkəmləndirilmiş şəhərlərə hücum vərdişləri də aşılayırdı. Çünki, Manna dövləti təkcə müdafiə olunmurdu. Onun inkişaf etdiyi və çiçəkləndiyi dövrdə Manna qoşunları Urartu və Assuriya qoşunlarına müvəffəqiyyətlə müqavimət göstərirdi ki, bu da Manna qoşunlarının gücündən xəbər verir.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT


1.Hüseynov M.M. Azərbaycan arxeologiyası. Daş dövrü. Bakı, 1975, s. 80; İsmayılov M. Azərbaycan tarixi. Bakı, 1922, s. 5; Azərbaycan tarixi. Bakı, 1993, s. 9-10

2. Azərbaycan tarixi. Bakı, 1961, s. 15

3. Hüseynov M.M. Adı çəkilən əsəri, s. 122-133; İsmayılov M. Adı çəkilən əsəri, s. 5; Azərbaycan tarixi. Bakı, 1993, s. 11-12; Сумбатзаде А.С. Азербайджанцы этногенез и формирование народа. Баку, 1990, с.12-13

4. Azərbaycan tarixi. Bakı, 1993, s. 12-13

5. Yenə orada

6. Yenə orada

7. Azərbaycan tarixi. Bakı, 1961, s. 19

8. Yenə orada, s. 22

9. Azərbaycan tarixi. Bakı, 1993, s. 23:

10. Военно-энсиклопедический словарь. Москва, 1983, с.151

11. См: Маркс К., Энгельс Ф. Сочинения. Т.21, с.97

12. Дьяконов И.М. История Мидии с древнейших времен до конца IV в. До н.э. М-Л.,1953, с.115

13. Алиев И. История Мидии. с. 153

14. Yenə orada, s. 154

15. Dyakonov İ.M. Adı çəkilən əsəri, s. 123

16. Azərbaycan tarixi. Bakı, 1993, c. 42

17. Dyakonov N.M. Adı çəkilən əsəri, s. 154-155; Əliyev İ.H. Adı çəkilən əsəri, s. 171-175; Sumbatzadə Ə.S. Adı çəkilən əsəri, s. 27; Azərbaycan tarixi. Bakı, 1993, s. 46; Qaşqay S. Manna dövləti. Bakı, 1993, c. 48-49

18. Azərbaycan tarixi. Bakı, 1993, s. 46

19. Dyakonov N.M. Adı çəkilən əsəri, s. 155

20. Azərbaycan tarixi. Bakı, 1963, c. 47

21. Yenə orada
22. Dyakonov N.M. Adı çəkilən əsəri, s. 156; Qaşqay S. Adı çəkilən əsəri, s. 49
23. Dyakonov N.M. Adı çəkilən əsəri, s. 156
24. Qaşqay S. Adı çəkilən əsəri, s. 49
25. Dyakonov N.M. Adı çəkilən əsəri, s. 156
26. Qaşqay S. Adı çəkilən əsəri, s. 49
27. Yenə orada, s. 50
28. Алиев И.Г. История Мидии, Баку, 1960, с.178; Azərbaycan tarixi. Bakı, 1993, s. 49; Qaşqay S. Manna dövləti .., s.59
29. Azərbaycan tarixi. Bakı, 1993, s. 49
30. Qaşqay S. Manna dövləti..., s. 59-60
31. Azərbaycan tarixi. Bakı, 1993, s. 50
32. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989, s. 13
33. Алиев И.Г. История Мидии, …с. 180
34. Авдиев В.И. История древнего Востока. М., 1948, с.408; История древнего Востока. М., 1988, с. 198; Azərbaycan tarixi. Bakı, 1993, s. 51
35. Azərbaycan tarixi. Bakı, 1993, с. 51
36. Qaşqay S. Manna dövləti, ... s. 67
37. Yenə orada
38. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989, s. 14
39. Авдиев В.И. История древнего Востока, ... с.373
40. Qaşqay S. Manna dövləti, ... s. 69
41. Yenə orada
42. История древнего Востока. М., 1988, с. 199
43. Алиев И.Г. История Мидии, …с. 189
44. Azərbaycan Sovet Ensiklopediyası. VI cild, s. 346
45. История древнего Востока. М., 1988, с. 199
46. История древнего Востока. М., 1988, с. 199; Всемирная история. Т.I, М., 1955, с. 522-523
47. Azərbaycan tarixi. Bakı, 1993, s. 53
48. Yenə orada, s. 54

49. Qaşqay S. Manna dövləti, ... s. 71; Меликашвили Г.А. Древневосточные материалы по истории народов Загафгазье. Наири-Урарту. Твилиси, 1954, с.242

50. Дьяконов И.М. История Мидии, ... с.218

51. Melikaşvili Q.A. Drevnevostoçnıe materialı ..., s.303; Azərbaycan tarixi. Bakı, 1993, s. 54

52. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989, s.12

53. Yenə orada

54. Sumbatzadə Ə.S. Adı çəkilən əsəri, s. 31

55. Azərbaycan tarixi. Bakı, 1993, s. 55

56. Мещанинов И.М. До исторический Азербайджан и Урартская культура. Баку, 1926, с.6

57. Yenə orada, s. 14

58. Azərbaycan tarixi. I c., Bakı, 1961, s.46

59. İsmayılov M. Azərbaycan tarixi. Bakı, 1992, s. 20; Qaşqay S. Adı çəkilən əsəri, s. 78

60. Qaşqay S. Adı çəkilən əsəri, s. 78

61. Azərbaycan tarixi. I c., Bakı, 1961, s. 47; Qaşqay S. Adı çəkilən əsəri, s. 79

62. Azərbaycan tarixi. I c., Bakı, 1961, s. 47; İsmayılov M. Azərbaycan tarixi,... s.20; Qaşqay S. Adı çəkilən əsəri, s. 80

63. Qaşqay S. Adı çəkilən əsəri s. 81-83

64. Yenə orada, s. 83

65. Yenə orada, s. 84

66. Yenə orada, s. 85

67. İsmayılov M. Adı çəkilən əsəri, s. 20; Qaşqay S. Adı çəkilən əsəri, s. 91

68. Azərbaycan tarixi. I c., Bakı, 1961, s. 92

69. Qaşqay S. Adı çəkilən əsəri, s. 92

70. Дьяконов И.М. История Мидии, ... с. 175; Azərbaycan tarixi. I c., Bakı, 1961, s. 49; Azərbaycan tarixi. Bakı, 1993, s. 50

71. Azərbaycan tarixi. I c., Bakı, 1961, s. 48-49; Qaşqay S. Adı çəkilən əsəri, s. 60

72. Qaşqay S. Adı çəkilən əsəri, s. 61
73. Дьяконов И.М. История Мидии…, c.175; Azərbaycan tarixi. I c., Bakı, 1961, s. 49
74. Qaşqay S. Adı çəkilən əsəri, s. 61
75. Алиев И.Г. История Мидии, … c.c202
76. Дьяконов И.М. История Мидии, ... c. 174
77.Azərbaycan tarixi. I c., Bakı, 1961, s. 45; İsmayılov M. Adı çəkilən əsəri, s. 19; Azərbaycan tarixi. Bakı, 1993, s. 52; Qaşqay S. Adı çəkilən əsəri, s. 68
78. Azərbaycan tarixi. Bakı, 1993, s. 52
79. Yenə orada
80. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989, s. 10-11
81. Yenə orada, s. 11
82. Azərbaycan tarixi. Bakı, 1993, s. 53
83. Azərbaycan tarixi. Bakı, 1993, s. 54
84. Bax: Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989, s. 10
85. Fazili A. Azərbaycanın qədim və ilk orta əsrlər tarixi İran tarixşünaslığında. Bakı, 1984, s. 60
86. Qaşqay S. Adı çəkilən əsəri, s . 53
87. Yenə orada, s. 55
88. Qaşqay S. Manna dövləti. Bakı, 1993, s. 100
89. Разин Е.А. История военного искусства. Т. I, М., 1955, c.59-60
90. Qaşqay S. Adı çəkilən əsəri, s. 93
91. Yenə orada, s. 93
92. Yenə orada
93. Разин Е.А. История военного искусства..., c. 59
94. Qaşqay S. Adı çəkilən əsəri, s.99
95. Yenə orada, s. 94
96. Yenə orada
97. Разин Е.А. История военного искусства..., c. 59
98. Yenə orada, s. 59
99. Qaşqay S. Adı çəkilən əsəri, s.100

100. Авдиев В.И. История древнего Востока, ... s.380; Разин Е.А. История военного искусства..., с. 60
101. Разин Е.А. История военного искусства..., с. 69
102. Qaşqay S. Adı çəkilən əsəri, s. 84
103. Разин Е.А. История военного искусства..., с. 62
104. Qaşqay S. Adı çəkilən əsəri, s. 84
105. Разин Е.А. История военного искусства..., с. 62
106. Qaşqay S. Adı çəkilən əsəri, s. 83
107. Энгельс Ф. Избранные военные произведения. М., 1957, с.138; История военного искусства. М., 1986, с. 10
108. История военного искусства. М., 1986, с. 9
109. Qaşqay S. Adı çəkilən əsəri, s. 79
110. Разин Е.А. История военного искусства..., с. 62
111. История древнего Востока. М., 1988, s. 201
112. Авдиев В.И. История древнего Востока, ... s.380
113. Разин Е.А. История военного искусства..., с. 60
114. Авдиев В.И. История древнего Востока, ... s.380; Разин Е.А. История военного искусства..., с. 60
115. Разин Е.А. История военного искусства..., с. 60
116. Эвалюция военного искусства. Этапы, тенденции, принсипы. М., 1987, с. 49
117. Yenə orada
118. Разин Е.А. История военного искусства..., с. 62

# III. MİDİYA VƏ ƏHƏMƏNİLƏR HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCANDA HƏRB İŞİ

Məlumdur ki, Midiya dövlətinə daxil olan tayfa və tayfa birləşmələrinin hərb işi bəzi yazılı mənbələrdə sadəcə olaraq midiyalıların hərb işi kimi ifadə olunur. Ona görə də bu yazılı mənbələrə əsasən Midiya dövləti tərkibinə daxil olan tayfaların hərb işi arasındakı fərqi müəyyənləşdirmək xeyli çətinləşir. Ancaq bu çətinliyə baxmayaraq şübhə etmək olmaz ki, Azərbaycan xalqının qədim əcdadlarının hərb işi Midiya dövlətinin, sonra isə Əhəmənilər sülaləsinin hərb işinin aparıcı istiqamətlərindən birini təşkil edirdi. Buna, hər şeydən əvvəl, ictimai-tarixi şəraitin nəticəsi kimi Azərbaycan ərazisindəki tayfaların inkişaf səviyyəsi imkan verirdi. Məlumdur ki, Manna dövlətinin özünün hərb işi sahəsində kifayət qədər zəngin təcrübə və ənənəsi var idi. Manna qoşunlarının Midiya tayfaları tərəfindən məğlub edilməsi heç də bu qoşunların zəifliyi ilə yox, konkret tarixi şəraitdə Manna dövlətinin düşdüyü vəziyyətlə izah olunmalıdır. Midiya dövləti daxilində tayfaların hərb işi sahəsindəki müstəqilliklərinin saxlanması, qoşunların tayfa əlamətlərinə görə təşkil edilməsi və ona rəhbərliyin həmin tayfaların nümayəndələri tərəfindən edilməsi Manna tayfalarına da hərbi ənənələri qoruyub saxlamağa və daha da zənginləşdirməyə imkan verirdi. Lakin qoşunlara və dövlətə rəhbərlik Midiya əyanlarının əlində olduğundan və hərb quruculuğu siyasəti mərkəzləşdirilmiş şəkildə aparıldığından tayfa qoşunları arasında qarşılıqlı əlaqə və təsirlərin də olduğunu istisna etmək olmaz. Məsələn, Midiya hakimi Kiaksarın qoşunlarda keçirdiyi islahatlar təkcə etnik midiyalılara aid deyildi. Midiyaya daxil olan bütön tayfalar, o cümlədən sonradan işğal edilmiş Manna tayfaları da bu yeniliklərə məruz qalmalı idilər. Ona görə də Midiya dövründə Azərbaycan ərazisində hərb quruculuğunun öyrənilməsi

Midiya dövlətinin hərb quruculuğunu, Kiaksarın hərbi islahatlarını öyrənmədən mümkün deyil. Hərbi və hərbi-texniki məsələlər də həmçinin.

Tayfaların nisbi müstəqilliyinin saxlanmasına baxmayaraq bir dövlətin tərkibində olması sözsüz ki, tayfaların bir-birinə yaxınlaşmasına, onların bir-birinə qovuşmasına da təsir edirdi. Heç şübhəsiz ki, yazılı mənbələrdə Midiya tayfalarının hərb işinin sadəcə midiyalıların hər işi kimi təqdim olunması bundan irəli gəlirdi. Məsələn, Atropatın Midiya satrapı (hakimi) olması, onun komandanlığı altında midiyalıların fars-yunan müharibələrində iştirakı deyiləndə sözsüz ki, təkcə etnik midiyalılar nəzərdə tutulmurdu. Atropatın bötön Midiyanın deyil, təkcə Mannanın ərazisini əhatə edən Kiçik Midiyanın satrapı olması və məhz bu ərazidəki midiyalıların (yəni bu ərazidəki tayfaların) hərb işini yüksək səviyyəyə qaldırması da deyilənlərə sübutdur. Atropat kiçik Midiyanın satrapı idisə şübhəsiz ki, onun rəhbərliyi altında olan midiyalılar dedikdə Kiçik Midiyada yerləşən Azərbaycanın qədim tayfalarının qoşun hissələri başa düşülmülidir.

## 1. Azərbaycan Midiya və Əhəməni işğalları dövründə

Midiya haqqında ilk dəfə Assuriya yazılı mənbələrində e.ə. IX əsrin 30-cu illərində xatırlansa (1) da Midiya ərazisində dövlət birliklərinin meydana gəlməsi e.ə. II minilliyin sonu, I minilliyin əvvəllərinə aid edilir (2). Ancaq bu dövlət birlikləri kiçik dövlətlər idilər və buna görə də onlar regionda qüdrətli dövlət sayılan Assuriya qoşunlarının ardıcıl davam edən basqınlarının qarşısını almağa qadir deyildilər. Assuriya qoşunlarının amansız hücumları isə bu dövlətlərin soyulub-talanması, yaşayış məskənlərinin viranə qalması ilə nəticələnirdi. Daimi təhlükəyə çevrilmiş bu basqınların, qarətlərin qarşısını yalnız xırda dövlətlərin qüvvələrinin birləşdirilməsi ilə almaq mümkün olardı.

Midiyalıların özlərinin daxilində belə bir meyl olsa da hələ Midiyanın tərkibinə daxil olmayan və onun qərbində yerləşən qonşu dövlətlərdə isə dağınıqlıq, hərc-mərclik hökm sürürdü (3). Həmin dövlətlər uzaqgörən siyasət yeridə bilmədiklərindən öz səbatsızlıqlarının qurbanı olur, güclü düşmənə qarşı böyük dövlət birliklərinin yaradılmasının əhəmiyyətini başa düşə bilmirdilər. Yaranmış vəziyyət isə Assuriya qoşunlarına güclü müqavimətə rast gəlmədən sonradan Midiyanın tərkibinə daxil olan dövlətlərin içərilərinə doğru irəliləmək imkanı verirdi. İstilaçı qoşunlar burada saysız sərvətlər ələ keçirərək geri qayıdırdılar. Doğrudur, assuriyalılar burada müəyyən müqavimətə rast gəlirdilər və midiyalılar haqqında olan ilk yazılı mənbələrdə də onlar qarşılaşdıqları güclü müqavimətdən danışırdılar. Ancaq bu müqavimət midiyalıları talanlardan xilas edə bilmirdi.

Amansız təcavüzlərə məruz qalmaları Midiya tayfalarını vahid məqsəd ətrafında birləşməyə sövq edirdi və bu birliyin gücünü  tezliklə Assuriya qoşunları da hiss etməyə başladılar. Mənbələrin verdiyi məlumata görə e.ə. 673-cü ildə Assuriya qoşunları ölkənin yeni hakimi Asarxaddonun başçılığı ilə midiyalıların uzaq Patuş-Arri vilayətinə basqın etdilər və oradan çoxlu mal-qara, at ilxıları ilə bərabər Şidir-parna və Eparna şəhərlərinin hakimlərini də əsir götürərək geri qayıtdılar (4). Midiya dövlətinin yaranmasına yol açan Kaştaritinin rəhbərliyi ilə alovlanan üsyanın da tarixçilər e.ə. 673-cü ildə başlandığını (5) bildirirlər (bəzi tarixçilər isə üsyanın e.ə. 672-ci ildə Assuriyanın kimmerlərlə müharibə aprardığı bir vaxtda başladığını güman edirlər (6). Hər halda şübhəsizdir ki, Assuriya asılılığına qarşı barışmazlıq, xarici istilaçılardan yaxa qurtarmaq istəyi Midiya tayfalarının, nəhayət, birləşərək ümumi düşmənə qarşı birgə mübarizə aparmağa sövq edirdi. Assuriya hegemonluğuna qarşı başlanan üsyana yerli hakimlərdən biri olan Kaştariti başçılıq edirdi. O, neçə illərdən bəri midiyalıların çəkdiyi əzablara son qoyulması üçün bir çox tayfaları öz ətrafında birləşdirərək xalqı mübarizəyə səfərbər edə bilmişdi. Mənbələrin ver-

diyi məlumata görə də üsyanın başladığı ərəfədə Midiya vilayətlərində artıq hərbi şərait mörəkkəbləşmişdi (7). Görünür, Kaştariti yaxşı başa düşürdü ki, Assuriyaya qarşı təklikdə vuruşmaq asan olmayacaq və buna görə başlanılan işin uğurla sona yetməsi üçün özünə müttəfiqlər axtarırdı. Kimmerlərin, skiflərin, mannalıların, midiyalıların üsyanını müdafiə edib onlarla ittifaq yaratması (8) assuriyalılara qarşı mübarizənin dönüş nöqtəsi oldu. Midiyanın üç vilayətində (9) başlanan üsyan az müddətdən sonra çox böyük bir ərazini bürüdü.

Mannalıların və digər tayfaların midiyalılarla ittifaqa girməsi Assuriya qoşunları üzərində qüvvə üstünlüyü yaratdı. Müttəfiqlərin kifayət qədər hərbi təcrübəyə malik olmaları da onların hərbi nailiyyətləri üçün yaxşı zəmin yaradırdı. Bunun nəticəsi idi ki, müttəfiqlərin qoşunları tezliklə Assuriyanın sərhədlərinə kimi irəliləyə bildilər. Assuriya qoşunlarının gücsüzlüyü, müttəfiq qoşunların qarşısında duruş gətirə bilməməsi artıq göz qabağında idi. Söhbət sadəcə Assuriya qoşunlarının məğlubiyyətindən yox, bütünlükdə Assuriya qoşunlarının gələcək taleyindən gedirdi. Assuriya hakimi Asarxoddon yaxşı anlayırdı ki, təcili tədbirlər görülməsə Assuriya dövləti öz varlığı ilə birdəfəlik vidalaşmalı olacaqdır. Gücə, qüvvəyə arxalanıb uzun müddət regionda hegemonluq edən Assuriya dövləti indi müttəfiqlərin qoşunlarının hücumlarının qarşısını almağa qadir deyildi. Aparılan əks-hücumlar bir nəticə vermirdi. Assurların Kişessu, Zuba, Uşişi kimi möhkəmləndirilmiş qalalarının təslim olması (10) da böyük təhlükənin yaxınlaşdığından xəbər verirdi. Onun qarşısını almaq üçün Assuriya hakimləri müttəfiqlərlə sülh danışıqları aparmağa cəhd göstərdilər və onların hər birinin yanına o cümlədən mannalıların öz nümayəndələrini yolladılar (11). Skiflərdən başqa digər müttəfiqlər Assuriya ilə sülhə girməyi rədd etdi. Yalnız skiflərlə dil tapmaq, bununla da müttəfiqlər arasına təfriqə salmaq Assuriyanı müvəqqəti də olsa məhv olmaqdan xilas etdi. Assuriya çarı Asarxoddon öz qızını skiflərin başçısına ərə verərək onu öz tərəfinə çəkə bildi (12).

Skiflərin Assuriya tərəfinə keçməsi müttəfiqlərin ümumi gücündə zəiflik yaratsa da Midiya tayfaları qarşılarına qoyduqları əsas vəzifəyə nail olmuşdular. Midiyanın qərb vilayətlərindən Assuriya qoşunları qovulduqdan sonra müstəqil Midiya dövləti yaranmışdı. Assuriya artıq Midiya dövlətinin varlığı ilə hesablaşmaq məcburiyyətində qalmışdı. E.ə.672 və 669-cu illərə aid olan Assuriya yazılı mənbələrində Midiya çarlığının adı Urartu və Manna çarlığı ilə bir sırada çəkilir (13). Ancaq, Midiya hakimləri öz hakimiyyətlərinin təkcə Midiya hüdudlarında qalması ilə kifayətlənmirdilər və yaxın ölkələri də öz təsiri altına almaq üçün planlar qururdular. Heredotun yazdığına görə, midiyalılar öz sərhədlərindən kənarda ilk dəfə farsların üstünə hücum etdilər və tezliklə fars vilayəti midiyalıların hakimiyyəti altına düşdü (14). Bununla da Midiya dövləti tarixinin işğalçılıq mərhələsi başlayır. Midiya az bir zamanda elə bir qüdrətli dövlətə çevrildi ki, hətta artıq Assuriyanın üzərinə hücuma keçməkdən belə çəkinmirdi. Bu hücum e.ə.653-cü ildə baş verdi (15). Assuriyanı bu dəfə də məhv olmaqdan skiflərin müttəfiqliyi qurtardı. Skiflər və Assuriyanın birləşmiş qoşunları Midiya qoşunlarının Assuriyanın içərilərinə doğru irəliləməsinə nəinki imkan vermədi, əksinə bu döyüşlərdə məğlbiyyətə uğrayan Midiya üç onillik ərzində skiflərin hakimiyyəti altında qaldı. Midiya çarı Kaştariti də Assuriya və skiflərlə mübarizədə 22 illik hakimiyyətdən sonra həlak oldu (16).

Heredot onu da qeyd edir ki, skiflərin hakimiyyəti 28 il davam etdi. Manna çarlığının ərazisi də skif çarlığının altına düşdü. Onların hakimiyyəti e.ə.625-ci ilədək davam etdi. Heredotun yazdığına görə Asiyada 28 illik hakimiyyəti dövründə skiflər burada hər şeyi viranə qoymuşdular. Onlar hakimiyyətləri altında olan xalqlardan rəsmi vergilər almaqdan əlavə, özləri də şəhərləri, kəndləri gəzir, əllərinə keçəni tar-mar edirdilər. Heç şübhəsiz ki, Manna çarlığı ərazisində məskunlaşmış tayfalar da belə zülm və istismara məruz qalırdılar. Skif istismarına qarşı Azərbaycanda da narazılıqlar yetişməyə

bilməzdi. Lakin bunun hansı şəkildə ifadə olunması barədə fikir söyləmək çətindir.

Beləliklə, e.ə. 625-ci ildə Midiya tayfaları skif asılılığından azad oldular və Kiaksar Midiyada hakimiyyət başına gəldi (17). Tarixçilərin yazdığına görə, o, daxili məsələlərlə, dövlətin möhkəmləndirilməsi ilə sıx məşğul oldu (18). Müxtəlif tədbirlər və islahatlar nəticəsində vahid, qüdrətli dövlət yaradıldı, ictimai-siyasi sabitlik möhkəmləndirildi, daxili inkişaf üçün şərait təmin edildi.

Kiaksarın apardığı böyük islahatlardan biri qoşunlarda aparılan islahat idi (bu barədə sonra danışılacaqdır). Bu islahatdan sonra Midiya dövlətinin gücü və qüdrəti daha da artmış və qonşu dövlətlər üçün, ilk növbədə isə Assuriya üçün real təhlükəyə çevrilmişdi. Güman etmək olar ki, ötən müddət ərzində Midiya vilayətləri ilə digər vilayətlər arasında əlaqələr yaxşılaşmış və midiyanın daxili və xarici inkişafı üçün əlverişli şərait yaranmışdı. Antik mənbələrə görə "Asiya üzərində hökmranlığın müəssisi olan" (Esxil) Kiaksar ölkənin daxilində möhkəmləndikdən sonra qonşu dövlətlər üzərinə yürüşlərə başladı. O ilk zərbəsini Assuriyaya istiqamətləndirdi.

Midiya ilə bərabər regionda Babilistanın da xeyli güclənməsi Assuriyanın müstəqilliyinə böyük təhlükə yaradırdı. Assuriya bu iki dövlətin müqavimətini qırmaq və öz müstəqilliyini qorumaq üçün Mannanın müttəfiqliyinə bel bağlasa da, özünü süqutdan xilas edə bilmədi. E.ə. 616-cı ildə Babilstanla Assuriya arasında böyük döyüş baş verdi. Bu döyüşdə Manna qoşunları da Assuriyanın müttəfiqi kimi çıxış etdi. Ancaq qüdrətli Babilstan qoşunlarının hücumları Assuriya-Manna qoşunlarının məğlubiyyəti ilə başa çatdı (19). Döyüşün gedişində Assuriya qoşunları ilə bərabər Manna qoşunları da ciddi itkilərə məruz qaldı. Bu isə Manna dövlətinin gücünü xeyli zəiflətdi.

E.ə. VII əsrin sonlarında Manna dövləti də Midiyanın tərkibinə qatılandan sonra o, regionun ən qüdrətli dövlətlərindən birinə çevrildi.

## 2. İqtisadiyyatın inkişaf səviyyəsinin hərb işinə təsiri

Midiya tayfalarının birləşməsi onların xarici qüvvələrə qarşı müqavimətini artırmaqla bərabər, həm də daxili inkişafına, iqtisadiyyatın dirçəlməsinə müəyyən şərait yaradırdı. Midiya tayfalarının qərarlaşdığı təbii-coğrafi şərait isə bu inkişaf üçün obyektiv baza idi. Əslində Midiya tayfaları Assuriya ağalığından qurtarmaq üçün ayağa qalxanda artıq müəyyən inkişaf səviyyəsinə nail olmuşdular. Belə olmasaydı güclü qoşun yaratmaq da olmazdı. Doğrudur, Midiyada "xalq-qoşun" hərbi birləşmələri mövcud idi (20) və bu təşkilati forma qoşunları müəyyən xərclərdən azad edirdi. Bununla bərabər təkcə silahların düzəldilməsi Midiyada metallurgiyanın, sənətkarlığın bir çox sahələrinin yüksək inkişaf səviyyəsini və mədəniyyətini tələb edirdi. Ümumiyyətlə, belə bir fikir tamamilə doğrudur ki, quldarlıq dövründə qoşunlar iqtisadi inkişafda mühüm rol oynayırdı. Xarici əsarətdən qurtarmaq, ölkənin müstəqilliyini qorumaq, müharibə aparmaq zərüri hərbi iqtisadi potensial olmadan mümkün deyildi. Belə bir baza Midiyada mövcud idi. Xüsusən, də Mannanın Midiyaya birləşdirilməsi, inkişaf etmiş kənd təsərrüfatına, sənətkarlığa malik olan dövlətin işğal edilməsi Midiyanın daxili inkişafına güclü təkan verdi (21).

Midiyada maldarlıq yaxşı inkişaf etmişdi. Bu ölkə özünün otlaqları ilə məşhur idi. Hətta antik müəlliflər Midiyada atçılığın yaxşı inkişafı üçün bol yoncalıqların olduğunu qeyd edirdi. Bu keyfiyyətli bitkini Midiya otu adlandırırdılar (22). Əkinçiliyin inkişafı üçün isə Midiyada münbit torpaqlardan əlavə həm də süni suvarma sistemləri mövcud idi (23). Süni kanalların çəkilməsi vasitəsilə midiyalılar çox sahələrə su çıxararaq torpağın məhsuldarlığını daha da artırırdılar. Müharibələrin aparılması üçün ölkənin böyük ərzaq ehtiyatlarının yaradılması lazım gəlirdi. Buna da sözsüz ki, ələ keçirilmiş qarətlərdən əlavə həm də əkinçilik məhsulları ilə nail olmaq mümkün idi.

Sənətkarlığın və ticarətin inkişafı də Midiyanın güclü dövlətə çevrilməsinə kömək edirdi. Burada metallurgiya və sənətkarlığın, onlarla bağlı olan istehsal sahələrinin, habelə silah istehsalının genişləndirilməsi üçün kifayət qədər faydalı qazıntılar çıxarılırdı. Midiyada dəmir, qurğuşun, gümüş, qızıl, qiymətli daş mədənləri, "Midiya yağı" adlandırılan alovlanan maddənin tərkib hissəsini təşkil edən neft mənbələri var idi (24). Heredot göstərirdi: farslar Midiya dövlətini məhv etdikdən sonra da midiyalıların istehsal etdikləri geyimləri geyirdilər (25). Bu da Midiyada toxuculuğun, geyim əşyaları istehsalının yüksək səviyyəsini, onlarla bağlı olan təsərrüfat sahələrinin yüksək inkişaf səviyyəsini nümayiş etdirir.

Midiyanın qədim Şərqin inkişaf etmiş ölkələri arasında mövcud olan ticarət yollarının üzərində yerləşməsi onun ticarət əlaqələrinin və şəhərlərinin inkişafına da kömək edirdi, daxili və xarici iqtisadi-ticarət əlaqələrini gücləndirirdi.

Ancaq, nəzərə alınmalıdır ki, bu dövrün istehsal üsulu natural təsərrüfata əsaslanırdı və bu da iqtisadiyyatın inkişafına müəyyən mənfi təsirlər göstərirdi. Bu, ilk növbədə onunla bağlı idi ki, təsərrüfatlar arasında əlaqələr zəif idi, qul əməyi çox da məhsuldar deyildi, müharibələr zamanı əldə edilmiş qarət və sərvətlər isə çox zaman istehsalın genişlənməsinə deyil, quldarların və əyanların şəxsi sərvətlərinin artırılmasına yönəldilirdi. Midiyanın tərkibinə daxil olan vilayətlər arasında da güclü təsərrüfat əlaqələri, iqtisadi inteqrasiya yox idi. Bu da öz növbəsində həmin vilayətlərin qapalılığını gücləndirir, yerli hakimlərin mərkəzi hakimiyyətdən iqtisadi və siyasi asılılığını zəiflətməklə bütünlükdə mərkəzi hakimiyyətin zəifləməsinə, ona qarşı müxalif qüvvələrin meydana gəlməsinə siyasi baza yaradırdı. Təsərrüfatçılığın müxtəlif sahələrinin inkişafı, müharibələrdən əldə edilən sərvətlərin çoxalması bu və ya digər vilayətin nisbi varlanmasına səbəb olurdu və bu da şübhəsiz ki, mülkiyyət bərabərsizliyi ilə yanaşı ayrı-ayrı tayfaların varlanıb güclənməsinə şərait yaradırdı. Nəticədə də mülkiyyət və sərvə-

tin nisbətinə görə daha çox imkana malik olan tayfalarla digər tayfalar arasında qeyri-əməli münasibətlər meydana çıxırdı. Heredot yazırdı ki, Midiyada bir xalq başqa bir xalq üzərndə ağalıq edirdi. (26) Yəni ölkənin tərkibinə daxil olan vilayətlər, xalqlar arasındakı münasibətləri mərkəzi hakimiyyət deyil, gücə, nüfuza, qüvvəyə əsaslanan vilayətlər tənzimləyirdi. Çox güman ki, bu həm də həmin vilayətlərin öz müstəqilliklərini genişləndirmək meyli ilə bağlı idi. Bu vəziyyət mərkəzi hakimiyyətin kəsərsizliyindən, ölkədə formalaşmış dövlətçilik sisteminin olmamasından doğmaqla ölkə daxilindəki hərc-mərcliyi artırır, dövlətin dayaqlarının zəifləməsinə real şərait yaradırdı. Dövlətin güclü hakimiyyətini hiss etməyən yerli əyanlar isə öz nüfuzlarını daha da artırmağa, mərkəzi hakimiyyətin nəzarətindən uzaqlaşmağa, öz hərbi birləşmələrini yaratmağa çalışırdılar. Buna görə də tarixçilər haqlı olaraq qeyd edirlər ki, Assuriya ilə müqayisədə Midiyada dövlətçilik sistemi daha zəif təşəkkül tapmış və möhkəmlənməmiş hərbi-inzibati birlik olaraq qalmışdır (27). Dövlətin daxilindəki ictimai-siyasi atmosfera təsadüflərdən, xüsusilə dövlətin apardığı müharibələrin uğur və uğrsuzluğundan, qarət və sərvətlərin miqdarından asılı idi. Bir növ müharibələr ölkənin cığırdaşına çevrilirdi və ölkənin daxili ehtiyaclarının ödənməsi də müharibədə əldə edilən qarətlərin hesabına həll edilirdi. İşğalçılıq müharibələri zahirən Midiyanı gücləndirdiyi gümanı yaratsa da əslində həm də onun məhvi üçün obyektiv baza yaradırdı (28).

## 3. Midiya qoşunları

Midiyanın qüdrətli qoşunlarının təşkili Kiaksarın adı ilə bağlıdır. "Öz sələflərindən daha döyüşkən olan" (Herodot) bu şəxs tayfaların hərbi dəstələrinə rəhbərlik edərək onları güclü bir qoşunda birləşdirə bilmişdi. Hərb sahəsində geniş təcrübəyə malik olan Kiaksar tayfa hərbi dəstələrində təşkil olunmuş qoşunla skiflərin midiyalılar üzərində abalığına son qoyaraq hər-

bi uğurlar qazandı. O, dövlət quruculuğunun mühüm sahəsi kimi tezliklə qoşunlarda islahatlar apardı və bu işdə Assuriya hərbi təcrübəsini əsas götürdü (29). Herodotun yazdığına görə, bu islahata qədər Midiya qoşunları qarışıq halda fəaliyyət göstərirdisə Kiaksar öz islahatı ilə onları qoşun növlərinə böldü, hərbi dəstələri döyüşçülərin işlətdiyi silah növlərinə görə qruplaşdırdı. Nizə atanlar bir dəstədə, ox atanlar bir dəstədə, atlılar bir dəstədə birləşib müstəqil surətdə hərəkət etmək əmri adılar (30). Qoşunların düzülüşündə və quruluşunda belə nizamlığın yaranması onun zərbə gücünü həqiqətən də xeyli artırdı və onun təsiri midiyalıların apardığı hərbi əməliyyatların nəticəsində də özünü göstərdi. Kiaksarın qoşunlarda apardığı islahatlar bütünlükdə Midiyanın dövlət həyatında diqqətəlayiq tarixi bir hadisə idi və ona görə də bu məsələ tarixçilərin və midiyaşünasların da ciddi marağına səbəb olmuşdur. Midiya tarixindən yazan az tarixçi tapılar ki, Kiaksarın hərbi islahatlarının əhəmiyyətinə toxunmasın və bu məsələnin Midiya tarixindəki yerinə öz münasibətini bildirməsin. Məsələnin mahiyyəti ondan ibarətdir ki, Kiaksara qədər midiyalılar və onlara tabe olan xalqlar müharibədə tayfa yığma qoşunları şəklində çıxış edirdilər və tayfalar üzrə qruplaşırdılar. Kiaksar isə qoşun strukturunu dəqiq müəyyənləşdirmiş qonşu Assuriyanın təcrübəsinə əsaslanaraq ilk dəfə tayfa əlaqələrinə görə deyil, hərbi və dövlət zərurəti baxımından strateji və taktiki vahidlərə bölünən bir qoşun yaratdı.

### 4. Səfərbərlik məsələləri

Midiya qoşunlarında "xalq-qoşun" formasında səfərbər olunan əhali qoşunların əsas hissəsini təşkil edirdi. Yəni silah gəzdirməyi bacaran hər bir azad icmaçı eyni zamanda həm də potensial döyüşçü idi. Yuxarıda deyildiyi kimi, Midiyada on minlik daimi qoşun var idi (31). Bundan başqa vilayətlərdə də az saylı daimi qoşunun olması güman edilir (32). Çox güman ki, əsasən vilayət canişinlərinin mühafizəsi üçün nəzərdə tutulmuş

belə dəstələr də müharibə vaxtı vilayət canişinlərinin rəhbərliyi altında dövlət başçısının sərəncamlarının icrasına cəlb edilirdilər.

Vilayətlərdə yaradılan hərbi qarnizonun şəxsi heyətinin əsasını isə azad icmaçılar içərisindən yığılan döyüşçülər təşkil edirdi. Yuxarıda göstərildiyi kimi yaşından asılı olmayaraq hər bir azad icmaçı potensial döyüşçü sayılırdı və istənilən vaxt hərbi vəzifələrin icrasına cəlb edilirdi. Bundan başqa hər bir əyan və hakim nəsillərinin üzvləri, yüksək məqamlı şəxslər də (33) "xalq-qoşun" təşkilati formasının potensial üzvü sayılırdı. Onun üçün də qoşuna səfərbərlik işində bir qeyri-sistemliliyin mövcud olduğunu güman etmək olar. Astiaqın Kirin qoşunları üzərinə hücumu ərəfəsində qoşunun toplanması üçün xalqa müraciət edib onları silahlanmağa çağırması da (34) belə bir qeyri-sistemliliyin mövcuduluğundan xəbər verir. Səfərbərlik məsələsində ərazi prinsipinə üstünlük verilirdi. Yəni bir vilayətdən olan döyüşçü elə həmin vilayətdəki qoşun hissəsinə cəlb edilirdi. Hər vilayətin azad icmaçısı öz vilayətinin qarnizonuna cəlb edilir və qarnizon rəisinin rəhbərliyi altında döyüşə yollanırdı. Şübhəsiz ki, hər vilayətdən nə qədər qoşun toplanması dövlət başçısı tərəfindən müəyyənləşirdi. Bu qoşunun necə toplanması isə yerli canişinlərin, tayfa başçılaprının öz ixtiyarına buraxılırdı.

Vilayət canişinləri, tayfa başçıları təkcə vilayətin idarə olunmasında deyil, həm də hərbi işin qurulmasında müəyyən müstəqilliyə malik idilər. Herodot fars çarı Kserksin Yunanstan üzərinə hücumunda iştirak edən tayfa hərbi birləşmələrinin, o cümlədən midiyalıların və bir vaxtlar Midiya dövlətinin tərkibinə daxil olan bir çox tayfaların döyüşqabağı düzülüşü barədə söylədikləri təsdiqləyir ki, hər vilayətin qoşununun özünəməxsus geyim forması, silahı və təchizatı olmuşdur (35). Çox güman ki, Midiya qoşunlarının tərkibində vuruşan tayfa birlişmələrində də vəziyyət belə idi. Burada isə həm geyim və təchizat formasındakı vahidlik, həm də silahlardakı birtiplilik pozulurdu. Eyni zamanda, vahid təchizat sisteminin olmadığı aşkarlanırdı. Göstərilən məsələlər həm də vahid mərkəzləşdirilmiş idarəçiliyin olmadığının təsdiqidir.

"Xalq-qoşun" təşkilati formasında toplanan qoşunlarda vahid təlim-tərbiyə, müntəzəm və əsaslandırılmış döyüş hazırlığı sistemləri də yox idi. Bu qoşunlarda fərdi hazırlıq üstünlük təşkil edirdi. Ancaq uzun-uzadı müharibələr təcrübəsi sözsüz ki, döyüşçülərə fəaliyyət birliyi, taktiki hərəkətlərin icrasının vərdişlərini aşılayırdı. Güman ki, Kiaksarın islahatlarından sonra həm təlim-tərbiyənin, həm də taktiki hazırlığın təkmilləşdirilməsi üçün daha geniş imkanlar yaranmışdı. Bir-birini əvəz edən böyük hərbi uğurlar da bunu təsdiq edirdi.

## 5. Qoşun növləri və idarəetmə orqanları

Tarixçilərin Midiyada iki qoşun növünün-piyada və atlı qoşun növlərinin olması fikri (36) ilə razılaşmaq çətindir və bu məsələ mənbələrdə Midiyada cəng arabalarının olmasının xatırlanmaması ilə əsaslandırırlar. Ola bilsin ki, mənbələrdə Midiyada cəng arabalarının olması xatırlanmayıb. Ancaq məlumdur ki, cəng arabaları hələ xeyli əvvəllər yaranmışdı (37). Öz qoşunlarında Assuriyanın hərb təcrübəsinə əsaslanaraq islahatlar keçirən Kiaksarın cəng arabalarından xəbəri olmaması və ondan istifadə etməməsi məntiqdən bir qədər uzaqdır. Axı, bu dövrdə cəng arabaları hələ güclü və çevik qoşun növü sayılırdı. Doğrudur, tarixçilər midiyalılarda çox-çox sonralar təkərlərinə süngülər bərkidilmiş xüsusi cəng arabalarının olduğunu qeyd edirlər (38). Elə buradan da belə bir nəticəyə gəlmək olar ki, bir neçə süngü bərkidilmiş, yəni müəyyən qədər təchizat fərqinə malik olan, təkmilləşdirilmiş cəng arabaları da midiyalılarda əvvəllər işlədilmiş cəng arabalarının təkmilləşdirilmiş formasıdır. Midiyalılar özləri cəng arabalarından istifadə etməsəydilər, onun yaxşı-pis tərəfini görməsəydilər onu təkmilləşdirmək fikrinə də düşməzdilər. Bu da belə bir qənaətə gəlməyə əsas verir ki, Midiya qoşunlarında üçüncü qoşun növü, cəng arabalarında vuruşan qoşun növü də var idi.

Midiya qoşunlarında idarəetmə strukturları barəsində də müfəssəl məlumatlar yox dərəcəsindədir. Ancaq bu idarəetmə zəncirinin müəyyən həlqələrinin məlum olması onun bütövlükdə təsəvvür edilməsi üçün müəyyən əsaslar verir. Qoşunların ali baş komandanı hökmdar idi. Hökmdarın hərb quruculuğunda və bütünlükdə hərb işində hüdudsuz səlahiyyətləri var idi. Qoşunların ümumi sayını, onun rəhbər şəxslərini, müharibələrin başlanmasını, qoşunların müharibələrdə iştirakını və s. məsələləri çar həll edirdi. O, döyüşlərdə şəxsən iştirak edib onun idarəsinə rəhbərlik edirdi. Döyüş vaxtı adətən hökmdarlar döyüş meydanını yaxşı müşahidə etmək imkanı verən yüksəklikdən vəziyyətə uyğun göstərişlər verirdi. Əvvəllər olduğu kimi bu göstərişlər qoşun hissələrinə ya səs işarələri, ya da çaparlar vasitəsilə çatdırılırdı.

Kuruşun mərkəzi hakimiyyət əleyhinə qaldırdığı üsyanı yatırmaq üçün onun üstünə göndərilən çoxsaylı qoşuna Qarpaqın hərbi rəis təyin edilməsi (39) göstərir ki, Midiyada bötön qoşunlara rəhbərlik edən və idarəetmə strukturunda hökmdardan sonra gələn hərbi vəzifə də mövcud idi. Kuruşun hakimiyyətə gəlməsindən dərhal sonra əvvəlcə Mazaresi, sonra Qarpaqı ölkənin hərbi rəisi təyin etməsi də sübut edir ki, həm yenicə yaranmış Fars dövlətində, həm də onun sələfi olan və hərbi təcrübəsinin yolu ilə getdiyi Midiya dövlətində qoşun rəisi və ya hərbi rəis vəzifəsi mövcud idi ki, bu vəzifəyə təyinat çar tərəfindən aparılırdı. Şübhəsiz ki, hərbi rəisin özünün də idarəetmə aparatı, köməkçiləri olmalı idi. Bu aparatın tərkibi, onun fəaliyyət xüsusiyyətləri barədə fikir söyləmək çətindir. Məsələn, məlum deyil ki, hərbi strukturların rəisləri hərbi rəis tərəfindən təyin edilirdi, yoxsa hökmdar tərəfindən. Hər halda bir fakt məlumdur ki, yerli qarnizonların rəisləri və eyni zamanda vilayətlərin canişinləri olan şəxslər çar tərəfindən təyin edilirdi. Yerli hakimlərin nisbi müstəqilliyə malik olması isə onların rəis olduqları qarnizon daxilində müxtəlif səviyyəli rəhbərlərin seçilməsində və təyinatında sərbəst olduqlarına əsas verir.

Qoşun daxilində qoşun növlərinin özlərinin də rəislərinin olması şübhəsizdir. Qoşunların uzunmüddətli döyüş səfərlərinə çıxması onların təminat məsələləri ilə məşğul olan xüsusi xidmət növünün olmasını tələb edirdi. Səfər zamanı sözsüz ki, hər bir döyüşçü özünə ayrıca ərzaq tapmaqla məşğul ola bilməzdi. Bunu kimlərsə etməli idi. Mövcud olan məlumatlara görə, Fars qoşunları səfərə yollanarkən qoşunların ardınca ərzaq doldurulmuş araba karvanı da gedirdi (40). Deməli, Midiya qoşunlarında da təminat məsələləri ilə məşğul olan xüsusi xidmətlərin olması şübhəsizdir. Bundan başqa, getikcə əhəmiyyət kəsb edən mühəndis-istehkam işləri ilə məşğul olan xüsusi xidmət növünün mövcudluğunu da istisna etmək olmaz. Çünki, bir tərəfdən Midiyanın daxilində möhkəmləndirilmiş şəhərlər, mühafizə divarları tikilirdi (41), digər tərəfdən də Midiya qoşunları hücum etdikləri ölkələrdə şəhər və qala divarlarının dəf edilməsi zərurəti ilə qarşılaşırdılar.

Midiya qoşunlarının da Fars qoşunları kimi hərbi bölgüyə malik olduğunu yəqin etmək olar. Çünki böyük sayda olan qoşunların daha yaxşı və çevik idarə olunması üçün onların hərbi vahidlərə bölünməsi lazım idi. Bəzi mənbələrə görə, Fars qoşunları 10, 100, 1000 nəfərlik hərbi vahidlərə bölünür və hər on nəfərlik vahidə komandir təyin olunurdu (42). Herodotun əsərlərində də tez-tez Fars qoşunlarında yüz, min, on min nəfərlik hərbi vahidlərin olması faktları ilə rastlaşmaq mümkündür (43). Buna uyğun olaraq Midiya qoşunlarında da oxşar hərbi vahidlərin tətbiq edilməsini qəbul etmək mümkündür.

## 6. Qoşunların maddi-texniki bazası

Midiya qoşunlarında ox, orta ölçülü nizə və kiçik qılınclardan istifadə olunurdu. Midiyalıların döyüş geyimi isə zirehli lövhəciklərlə örtülmüş paltardan, xüsusi baş geyimindən, söyüd çubuqlarından hörülmüş qalxandan ibarət idi (44). Herodot midiyalıların silah və təchizatından danışarkən əvvəlcə farsların

silah və təchizatını təsvir edir və sonra göstərir ki, onlar midiyalılardan əxz olunmuşdur (45). Bu silah və təchizat aşağıdakılardan ibarət idi: döyüşçülərin başında yüngül keçə papaq olurdu, əyinlərinə isə qolları dəmir pulcuqlarla örtülmüş ala-bəzək xiton geyinirdilər. Şalvarlar da döyüşçülərin geyim dəstinə daxil idi. İstifadə etdikləri qalxan hörülmüş qalxan idi və onların da altından ox qabı asılırdı. Döyüşçülərin silahları isə gödək nizə, qamış oxları olan böyük kaman və həmçinin sağ tərəfdən asılan xəncərdən ibarət idi.

Midiya qoşunlarının silahlaı öz dövrünün ən müasir silahları olmuş və görünür Midiya qoşunlarının qüdrətini artıran amillərdən biri də onun müasir və keyfiyyətli silahlara malik olması idi. Herodotun yuxarıdakı təsvirindən də görünür ki, Midiya dövlətinin dağılmasından çox-çox sonra Əhəmənilər dövlətinin qoşunlarının əsasını təşkil edən farslar bütünlüklə midiyalıların silahlarından istifadə edirdilər. Bu fakt midiyalıların silahlarının keyfiyyətindən başqa, həm də Midiya vilayətlərində silah istehsalı mədəniyyətinin yüksək səviyyədə olmasından xəbər verir. Midiyalıların silah və hərbi geyimlərinin yüksək kamilliyə malik olmasının nəticəsi idi ki, Fars qoşunlarında döyüşgənliyi ilə tanınan Baktriya döyüşçüləri (46) midiyalıların geyim və təchizatına oxşayan əşyalardan istifadə edir (47), arilər Midiya kamanları (48), kaspilər isə midiyalıların kaman və nizələri ilə silahlanırdılar (49).

## 7. Hərb məharətinin (sənətinin) inkişaf vəziyyəti

Böyük miqyaslı döyüşlərin midiyalılar tərəfindən dəfələrlə uğurla başa çatdırılması midiyalı döyüşçülərin təkcə fərdi fiziki-hərbi hazırlığı deyil, onların müəyyən taktiki vərdişlərə bələd olmasına da dəlalət edir. Çünki iri miqyaslı döyüşdə ayrı-ayrı qoşun növlərinin və qisimlərinin və eləcə də hərbi vahidlərin arasında ən adi qarşılıqlı əlaqələrin yaranması taktiki elementlərin istifadə edilməsinə əsaslana bilərdi. Bunlar isə öz növbə-

sində Midiya qoşunlarında həm taktiki hazırlığın ayrı-ayrı elementlərinin tətbiqinə, həm də hərb sənətinin inkişafına zəmin yaradırdı. Ancaq sözsüz ki, Midiya sərkərdələri də hər hansı bir ölkəyə və ya əraziyə hücum etməzdən qabaq qarşılarına qoyduqları məqsədə çatmaq üçün hansı döyüş növündən istifadə etmək, qoşunları necə düzmək, qruplaşdırmaq, döyüş tapşırıqlarını hərbi hissələrə çatdırmaq, döyüşün uğurlarının təmin edilməsi üçün döyüşqabağı müşavirələri keçirilmək, döyüşün planlaşdırılan konturunu dəqiqləşdirilmək üzərində fikirləşirdilər. Bundan başqa Midiya tayfalarından təşkil olunmuş qoşunlar qəfil hücumun, çevikliyin və manevrliliyin üstünlükləri ilə tanış idilər, düşmənin əsas qüvvələrinə-atlı və cəng arabalarına qarşı səmərəli mübarizə aparmağın vərdişlərini əldə etmişdilər, düşmənlə mübarizə aparmaq üçün daha çox qüvvəyə, daha keyfiyyətli silaha malik olmağın zəruriliyindən xəbərdar idilər və döyüşün sonuna kimi güc və qüvvələrini qoruyub saxlamağa çalışırdılar. Bu məsələlər isə Midiya tayfalarının hərb sənətinin getdikcə daha da inkişaf etməsinə təkan verirdi. Kiaksarın qoşunların döyüşqabağı düzülüşündə nizamlılıq yaratması, atlı qoşun növünə xüsusi fikir verməsi də Midiya tayfalarının qoşunlarında hərb sənətinin inkişafını şərtləndirən amillərdən idi.

Qoşunların rəhbərliyi müharibə başlamazdan əvvəl ona hazırlıq görürdü, düşmən tərəfin hansı qüvvəyə malik olması barədə məlumatlar toplanılırdı və bu məqsədlə kəşfiyyat işləri aparılırdı. Qarşı tərəflə müqayisədə qüvvələr nisbətinin üstünlüyünün təmin edilməsinə diqqət yetirilirdi, güclü düşmən üzərində qələbə çalmaq üçün onun beynəlxalq aləmdə təklənməsi, güclü müttəfiqlərin tapılması üçün müəyyən xarici siyasət yeridilirdi, qoşun növləri arasında fəaliyyət uzlaşmasının yaradılması naminə müvafiq tədbirlər həyata keçirilirdi, qoşunların maddi-texniki bazaları və ehtiyatları yaradılırdı, qoşunların idarə edilməsinə diqqət artırılırdı və idarəetmə strukturu möhkəmləndirilirdi, ayrı-ayrı vaxtlarda xalq kütlələrindən istifadə edilməsi üçün cəhdlər göstərilirdi, döyüşlərin aparılması barədə

müəyyən bir qənaətə gəlinirdi, döyüşün uğurlu aparılması üçün münasib vaxt və məkan seçilirdi, azad və ya işğal olunmuş sahələrdə möhkəmlənmək üçün müdafiə tədbirləri görülürdü, qoşunların silahlarla və müdafiə vasitələri ilə təmin olunması üçün sənətkarlığın inkişafına fikir verilirdi.

Midiya qoşunlarında taktikanın inkişafı isə başlıca olaraq qoşunların sosial tərkibindən, düşmən tərəfin silahlarından və fəaliyyət üsullarından asılı idi. Bu həm qoşunların maddi-texniki bazasının təkmilləşdirilməsini tələb edir, həm də düşmənə üstün gəlməyə imkan verən taktiki üsullardan istifadə edilməsini zəruriləşdirirdi. Atlı qoşunlardan istifadə edilməsi hərəkətin sürətini artırırdı və həmin sürətə uyğun gələn döyüş üsulları axtarılıb tapılırdı. Hansı döyüş üsulunun seçilməsi düşmənin malik olduğu qüvvələr nisbətindən də asılı idi. Döyüşün taleyi isə bir qayda olaraq qoşunların əsas hissəsinin, piyadaların - qılınc və nizə ilə silahlananların əlbəyaxa döyüşündə həll olunurdu. Şərq ölkələrinin çoxunda (50), o cümlədən də Fars dövlətində (51) uzaq məsafəyə atıla bilən silahlardan istifadə edilməsi ilə aparılan döyüş növünün geniş yayılmasından bu döyüş növünün Midiya qoşunları tərəfindən də geniş istifadə edildiyini güman etmək olar. Xüsusən döyüşlərin başlanğıcında bu döyüş növündən çox istifadə olunurdu. Adətən, döyüşü kamanla silahlananlar başlayır və uzaq məsafədən atdıqları çoxsaylı oxlarla düşmənin sıralarını seyrəltməyə, onların arasına təfriqə salmağa çalışırdılar. Onlardan sonra qılınc və gödək nizələrlə silahlanmış döyüşçülər əlbəyaxa döyüşə başlayırdılar. Döyüşün əsas ağırlığı da onların üzərinə düşürdü. Döyüşçülər dəbilqə, qalxan, zirehli geyimlərlə düşmən silahlarından mühafizə olunurdular. Midiyalılar möhkəmləndirilmiş şəhərlərə, qalalara hücum etmələri ilə əlaqədar olaraq sözsüz ki, qala döyüşləri taktikasından da istifadə edirdilər. Belə döyüşlərin aparılması üçün mövcud silahların və piyadaların imkanlarının qarşılıqlı surətdə əlaqələndirilməsi mühasirənin tezliklə yarılmasına imkan verirdi.

## 8. Əhəmənilər hakimiyyəti dövründə hərbi-siyasi vəziyyət

Midiyanın Əhəmənilər sülaləsinin hakimiyyəti altına düşməsi Midiya tayfalarına qarşı zülm və istismarın güclənməsi ilə müşayiət olunurdu. Midiyalı Astiaqın hakimiyyəti dövründə onun çağırışı ilə əhalinin silaha sarılıb üsyan qaldırmış Kuruşa qarşı müqavimət göstərməsi (52) də sübut edirdi ki, Midiya tayfaları yenə əsarət altına düşmək istəmirlər. Bunun nəticəsi idi ki, Midiyanın siyasi mövcudluğuna son qoyulduqdan sonra belə, uzun müddət Əhəmənilərə qarşı xalq üsyanları sönmədi. Belə üsyanlardan biri Qaumatanın başçılığı altında baş verən üsyan idi. Həmin üsyan e.ə. 523-cü ilin yazında başladı. Bir müddətdən sonra Əhəmənilər dövlətinin bütün ərazisi Qaumatanın rəhbərliyi altında olan üsyançıların əlinə keçdi. Dərhal da Qaumata nəzarəti altında olan ərazilərdə böyük islahatlar keçirməyə başladı. Bu islahatlar ilk növbədə fars əyanlarının nüfuzunun, onların dözülməz siyasətinin qarşısının alınmasına yönəldilmişdi. Həmin tədbirlərin həyata keçirilməsində Qaumata geniş xalq kütlələrinin fəal yardımına arxalanırdı. Qaumata xalqı üç illiyə vergilərdən və hərbi xidmət çəkməkdən azad etmişdi.

Əhəmənilər sülaləsinin növbəti çarı elan olunan I Dara Qaumatanın üsyanı ilə mövqelərini itirmiş əyan və əsilzadələrə və həmçinin ona sadiq olan qoşun hissələrinə arxalanaraq xeyli qüvvə toplayıb Qaumataya qarşı silahlı mübarizəyə başladı. Onun qayaüstü yazılarından aydın olur ki, bu mübarizə heç də asan olmamışdır və üsyançılara qarşı 19 döyüş keçirmək məcburiyyətində qalmışdı. E.ə. 522-ci ilin sentyabr ayının 29-da Qaumata sui-qəsd nəticəsində öldürüldükdən sonra üsyançılar arasında fəaliyyət birliyi pozuldu və bu üsyanın məğlubiyyətinə yol açdı.

Qaumatanın üsyanından bir müddət sonra Farvartişin rəhbərliyi altında yeni bir üsyan baş verdi. Midiyanın azad icmaçıları və tayfa hərbi birləşmələri də Farvartişi müdafiə edir-

dilər. Cənubi Azərbaycan ərazisində məskunlaşmış saqartalılar da Əhəmənilər ağalığına qarşı ümumxalq üsyanına qalxdılar. I Dara özünün Behsütun kitabələrində bu üsyan barədə belə yazırdı: "Saqartalı Çissantama mənə qarşı çıxdı. O, xalqa belə deyirdi:" Mən saqarta çarı, Uvahşatra (Kiaksar) nəslindənəm". Bundan sonra mən fars və mada qoşunlarını /saqartalılar üzərinə/ göndərdim, madalı Tahmaspadanı onların rəisi təyin etdim" (53).

Ölkə ərazisində baş verən üsyanlar içərisində Midiyada baş verən üsyan Dara üçün daha qorxulu idi və buna görə də bu üsyanın yatırılması üçün Midiyaya yeridilmiş qoşun hissələrinə Dara özü başçılıq edirdi (54). Əhəmənilər dövründə Cənubi Azərbaycan da Midiya satraplığına daxil idi. Daranın midiyalı üsyançılar üzərinə təşkil etdiyi yürüşə şəxsən rəhbərlik etməsi heç şübhəsiz ki, onun bura çoxsaylı qoşun dəstələri gətirməsindən xəbər verir. Ona görə bu üsyan da yatırıldı və üsyançılara amansız divan tutuldu.

Midiyanı hərəkətə gətirən həmin üsyanların yatırılmasının bir sıra obyektiv səbəbləri var idi. Bunlardan biri üsyançıların hakimiyyət qoşunlarına qarşı dayana biləcək güclü müqavimət qüvvələrinə malik olmaması idi. Xalqla birliyini nümayiş etdirən tayfa hərbi birləşmələri mərkəzi hakimiyyətin daimi və hazırlıqlı qoşun dəstələri ilə müqayisədə çox zəif idilər. Bütün üsyançılarla eyni vaxtda mübarizə aparmağın mümkün olmadığı üçün Dara güclü qoşunu ilə əvvəlcə bir vilayətdə üsyanı yatırır, sonra yenidən güclü hazırlıq görüb başqa bir vilayətin üstünə hücum çəkirdi. Üsyançılar isə təkcə öz vilayətlərində qapanıb qalırdılar, hərbi təşəbbüsü ələ almağa cəhd göstərməyib dövlət qoşunlarının nə vaxt onların üstünə hücum çəkəcəklərini gözləyirdilər. Passiv müdafiə isə üsyançılara məğlubiyyət gətirdi.

Azərbaycan ərazisində yaşayan tayfaların hərbi qüvvələri Əhəmənilərin işğalçılıq yürüşlərində də iştirak edirdilər. Məsələn, e.ə. 480-ci ildə Əhəmənilərin Yunanstan üzərinə həyata keçirdiyi ikinci yürüşdə bir çox tayfalar kimi Azərbaycan cənu-

bunda yerləşən saqartalıların hərbi qüvvələri də iştirak edirdi. Bu yürüşdə iştirak edən atlı qüvvələrindən məlumat verərkən Herodot əvvəlcə farsların adını çəkir, sonra isə saqarta tayfasının atlılarından söhbət açırdı. Saqartalıların piyada qoşunların tərkibində olmaması və yalnız atlılarla bu döyüşdə iştirak etməsi onların yüksək süvarilik məharətinə malik olmasını təsdiq edir. Herodota görə, saqarta atlılarının sayı 8 min idi və onların silahlarını xəncər və kəmənd təşkil edirdi. Döyüşə də saqartalılar bu silahlarla gedirdilər və qarşılarına çıxan düşmən üzərinə kəmənd atıb onu özlərinə tərəf çəkir və öldürürdülər. Görünür, saqartalılar fiziki cəhətdən yaxşı inkişaf etmişdilər ki, onlar düşmən döyüşçüsünü atları ilə birlikdə kəməndə salırdılar. Yəqin ki, saqartalı süvarilər yüksək döyüş məharətinə malik idilər ki, döyüş düzülüşündə onlar fars atlılarının cinahında dayanırdılar.

Əhəmənilərin Yunanstan üzərinə üçüncü yürüşündə də saqarta hərbi qüvvələri iştirak edirdilər. Bu da onu göstərir ki, Azərbaycan əraziləri işğal altında olsa belə burada hərb işi inkişaf etməkdə idi. Yerli tayfaların böyük döyüş məharəti işğalçıların nəzərindən qaçmırdı. Əksinə, hər vasitə ilə ondan istifadə olunmasına cəhd göstərilirdi. Bu isə Azərbaycan dövlətlərinin hərb işi arasında bir bağlılıq yaradırdı.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. Bakı, 1993, s.55; Авдиев В.И. История древнего Востока. М., 1948, с.459

2. Очерки истории СССР. М., 1958, с.215; Алиев И.Г. История Мидии,Баку, 1960, с.166

3. Дьяконов И.М. История Мидии с древнейших времен до конца IV в. До н.э. М-Л.,1953, с.166

4. Авдиев В.И. История древнего Востока. М., 1948, с.452

5. Дьяконов И.М. История Мидии..., s.266; Всемирная история. Т. I, M.,1955, s. 592
6. История древнего Востока. М., 1988, с.258
7.Очерки по древней истории Азербайджана. Баку, 1956, с.129;
8. История древнего Востока. М., 1988, с. 258; Тураев Б.А История древнего Востока. М., 1988, с. Т. II, М., 1936, с. 76; Azərbaycan tarixi. Bakı, 1993, s. 56-57
9. Дьяконов И.М. История Мидии…, с..267
10. Алиев И.Г. История Мидии,Баку, 1960, с.266
11. Azərbaycan tarixi. Bakı, 1993, s.57
12. История древнего Востока. М., 1988, с.258; Тураев Б.А История древнего Востока..., с.77;
13. Дьяконов И.М. История Мидии..., с.274
14. Геродот. I, 102
15. История древнего Востока. М., 1988, с.258
16. Геродот. I, 102
17. Геродот. I, 103
18. Алиев И.Г. История Мидии,Баку, 1960, с.237-238
19. Дьяконов И.М. История Мидии..., s.302
20. Очерки по древней истории Азербайджана. …с.119
21. Azərbaycan tarixi. Bakı, 1993, s.59
22. Fazili A. Azərbaycanın qədim tarixi müasir İran tarixşünaslığında. Bakı, 1979, s.39
23. Azərbaycan tarixi. I c., Bakı, 1961, s.52
24. Yenə orada
25. Геродот. I, 135
26. Геродот. I, 134
27. Дьяконов И.М. История Мидии..., s.336
28. Очерки по древней истории Азербайджана. … с.145
29. Авдиев В.И. История древнего Востока. М., 1948, с.453
30. Геродот. I, 103
31. Дьяконов И.М. История Мидии..., s.332

32. Yenə orada
33. Yenə orada, s. 332, 335
34. Геродот. I, 127
35. Геродот. VII, 61-68
36. Дьяконов И.М. История Мидии..., s.332
37. Энгельс Ф. Избранные военные произведения. М., 1957, с.205
38. Дьяконов И.М. История Мидии..., s.191
39. Геродот. I, 127
40. Энгельс Ф. Избранные военные произведения. М., 1957, с.138
41. Дьяконов И.М. История Мидии..., s.185
42. Энгельс Ф. Избранные военные произведения. М., 1957, с.138 ; 46. Разин Е.А. История военного искусства. Т. I, М., 1955, с.87
43. Геродот. VII, 40, 41, 103
44. Энгельс Ф. Избранные военные произведения. М., 1957, с.138
45. Геродот. VII, 61, 62
46. Разин Е.А. История военного искусства. Т. I, М., 1955, с.85
47. Геродот. VII, 64
48. Геродот. VII, 66
49. Геродот. I, 103
50. История военного искусства. М.,1986, с.11; Эвалюция военного искусства. Этапы, тенденции, принсипы. М., 1987, с. 49
51. Разин Е.А. История военного искусства. …с.85
52. Геродот. I, 103
53. Azərbaycan tarixi. Bakı, 1993, s. 64
54. История древнего Востока. М., 1988, с. 265

# IV. ATROPATENANIN HƏRB TARİXİ

## 1. Atropatenalıların makedoniyalılara qarşı döyüşlərdə iştirakı

Azərbaycan xalqının qədim hərb tarixinin maraqlı bir səhifəsi də Atropatena dövlətinin hərb tarixi ilə bağlıdır. Bu dövlətin meydana gəlməsi isə Əhəmənilər dövlətinin süqutu nəticəsində mümkün olmuşdu. Qədim şərqin qüdrətli dövlətlərindən sayılan Əhəmənilər dövləti böyük bir ərazini əhatə etsə də, əslində siyasi cəhətdən möhkəm olmayan və tərkibinə daxil olan qəbilə və tayfaları ictimai inkişafın müxtəlif mərhələlərində dayanan bir dövlət idi. Bu tayfa və qəbilələr zəif əlaqələri olan, təsadüfi, bu və ya digər istilaçının uğur və məğlubiyyətindən asılı olaraq birləşən və dağılan qrup konqlemeratı idi. Vilayətlər və tayfalar arasında iqtisadi əlaqələrin zəifliyi, güclü mərkəzləşdirilmiş dövlətçiliyin olmaması, hakimiyyətdə olanlarla ictimai təbəqələr arasındakı münasibətlərin zora əsaslanması Əhəmənilər dövləti daxilində qeyri-sabitliyin obyektiv bazası idi və bu qeyri-sabitlik müəyyən mərhələlərlə onun bütün mövcudluğu dövründə təzahür etmişdi. Mərkəzi hakimiyətin gücləndirilməsi üçün I Dara tərəfindən bir sıra islahatlar həyata keçirilsə də bunlar Əhəmənilər dövlətinin inkişafını sabit əsaslar üzərinə qoya bilmədi. E.ə. V əsrdə Yunanstanla aparılan müharibələrdəki məğlubiyyət Əhəmənilər dövlətini nəinki zəiflətdi, hətta Yunanstanın simasında güclü bir rəqib meydana çıxdı və sonrakı əsrdə bu iki dövlət arasında davam edən müharibələr Əhəmənilər dövlətinin məhvi ilə nəticələndi.

Əhəmənilər dövlətinin yeritdiyi despotik siyasət onun tərkibinə daxil olan bütün vilayətlərdə və tayfalarda olduğu kimi Midiyada da ciddi etiraza və narazılığı səbəb olurdu. Qaumatanın və Fravartişin başçılığı altında olan üsyanlar amansız-

casına yatırıldıqdan sonra burada güclü üsyanın baş verməsi barədə növbəti məlumatlar e.ə. V əsrin sonlarına təsadüf edir. Ola bilsin ki, I Daranın ölkə daxilində apardığı islahatlar Midiyada da dövlət nəzarətinin, təzyiq aparatının gücləndirilməsinə səbəb olmuş və buna görə də burada güclü üsyanlar baş vermişdi. Ancaq görünür dözülməz siyasət midiyalıları cana doydurmuş və e.ə. təxminən 411-408-ci illər arasında bir sıra digər vilayətlər kimi Midiyada da üsyan baş vermişdi (1).

Əhəmənilər dövlətində daxili böhranın dərinləşməsi, dövlət dayaqlarının çürüməyə başlaması, mərkəzi hakimiyyətlə tayfalar və vilayətlər arasındakı ziddiyyətlərin güclənməsi qoşunların döyüşgənliyinə də öz təsirini göstərməyə bilməzdi. Çünki Əhəmənilər qoşunlarının əsasını tayfa hərbi birləşmələri təşkil edirdi və hətta qoşunlar hərbi səfərlərə yollananda da qoşun tayfa əlamətlərinə görə düzülürdü (2). Tayfaların mərkəzi hakimiyyətə qarşı olan ümumi narazılığı isə qoşunun, xüsusən tayfa hərbi birləşmələrinin ümumi döyüş əhval-ruhiyyəsinə ciddi təsir göstərə bilərdi.

Makedoniya hakimləri Əhəmənilər dövlətinin daxili və xarici zəifliyini şərtləndirən bu amillərdən məharətlə istifadə edərək öz ərazilərini genişləndirməyə başladılar. Bu iki dövlət arasında Qranik çayı yaxınlığında e.ə. 334-cü ildə baş vermiş döyüş Əhəmənilər dövlətinin xeyli zəiflədiyini bir daha nümayiş etdirdi

Mənbələrdə və ədəbiyyatda Midiya tayfalarının bu döyüşdə iştirakını göstərən faktlar yoxdur. Ancaq məlumdur ki, bu döyüşdə də tayfa hərbi birləşmələri iştirak edirdi (3) və ona görə Midiya tayfalarının da onların arasında olması şöbhəsizdir. Çünki midiya tayfalarının Əhəmənilər dövlətinin əsas zərbə qüvvələrindən birini təşkil edirdi və güclü atlı dəstələrə malik idilər. Bir müddətdən sonra İssa düzənliyində bu iki dövlət arasında baş verən döyüşdə Midiya tayfalarının hərbi qüvvələrinin Əhəmənilər qoşunlarının döyüşqabağı düzülüşünün mərkəzində qərar tutmasından da ehtimal etmək olar ki,

Qranik çayı yaxınlığındakı döyüşdə də Midiya tayfalarının hərbi qüvvələri mərkəzdə hərəkət etmişlər və döyüşün ənənəvi ağırlığı onların üzərinə düşmüşdü.

Mənbələrin verdiyi məlumata görə, bu döyüşdə elə də böyük qüvvələr iştirak etmirdi. Makedoniyalı İsgəndərin 30 min piyadası, 5 min nəfərlik atlı dəstəsi (4) və müxtəlif muzdlulardan ibarət 12 min qopliti (döyüşçüsü) var idi (5). Arrianın yazdıqlarına görə, farslardan bu döyüşdə 20 minlik atlı və piyada dəstələri və 20 minlik muzdlu dəstələri (6) var idi. Farsların maddi və canlı ehtiyatları makedoniyalılara nisbətdə üstünlük təşkil edirdi (7). Lakin hazırlıq səviyyəsinə görə Makedoniya qoşunlarından xeyli geri qalan Fars qoşunları bu üstünlükdən istifadə edə bilmədilər. Hətta döyüş meydanında Fars qoşunlarının çox əlverişli coğrafi şəraitə malik olmaları da onları məğlubiyyətdən xilas edə bilmədi. Döyüşün keçirilməsinə münasibətdə Əhəmənilər dövlətinin yüksək dairələri arasında da fikir yekdilliyi yox idi. Fars qoşunlarının komandanı Memnon İsgəndərin güclü qoşunlarına müqavimət göstərməyin mənasızlığını bildirdisə də, bir sıra Fars satrapları bu fikirlə razı deyildilər və nəyin bahasına olursa-olsun makedoniyalılarla müharibə aparmağın zəruriliyini qeyd edirdilər (8). Ola bilsin ki, Fars qoşunlarının antik ədəbiyyatda da öz əksini tapmış süst fəaliyyəti bu amillə bağlı idi (9). Döyüşün keçirilməsi barədə qəti və aydın fikir olmadığı üçün yəqin ki, aparılan hazırlıq işləri də lazımi səviyyədə deyildi.

Döyüşün ilk səhnələri Fars qoşunlarının güclü müqaviməti ilə başlasa da, makedoniyalılar tezliklə onların iradəsini qırdılar və böyük itki yetirməklə onları geri qaçmağa məcbur etdilər. Plutarxa görə, Fars qoşunları bu döyüşdə 20 min piyada, 2500 atlı itirdilər. Yunanlar isə cəmi 34 döyüşçü itirdi (10). Yunanların itkisi barədə məlumatın şübhə doğurmasına baxmayaraq onlar Kiçik Asiya üzərinə yürüşdə çox mühüm qələbə əldə etmiş və onlar üçün bu istiqamətdə ciddi maneə təşkil edən Əhəmənilər dövlətinə güclü zərbə vurulmuşdu. Bu məğlu-

biyyətin bölgədə Fars dövlətinin nüfuzunu çox aşağı saldığını və bununla da ölkə daxilində qeyri-sabitliyin güclənəcəyini Əhəməni hakimləri də başa düşürdülər və buna görə də makedoniyalılarla yerni döyüşə girmək üçün hazırlıq aparırdılar.

Bu qoşunlarr arasında növbəti döyüş e.ə. 333-cü ildə Pinar çayı yaxınlığındakı İssa düzənliyində baş verdi. Dara bu döyüşə əvvəlki döyüşdə olduğundan daha çox qoşun toplaya bilmişdi. Mənbələrə görə vaxtın darlığı üzündən baktriyalılar, soqdialılar və başqa tayfalar öz qüvvələrin gətirib çıxara bilməmişdilər (11). Midiyalılar isə yenə də qoşunların böyük bir dəstəsini təşkil edirdilər. Antik tarixçi Kursiyə görə Fars qoşunlarının tərkibində 10 min midiyalı atlı və 50 min midiyalı piyada var idi (12). Ancaq bu rəqəmlər şişirdilmiş də ola bilərdi.

Bu rəqəmlərin doğruluğu qəbul edilərsə onda İssa düzənliyindəki döyüşdə midiyalıların böyük bir dəstəsi iştirak edirdi. Bütünlükdə isə Arriana görə, İssa düzənliyindəki döyüşdə Əhəmənilər dövlətinin qoşunlarının sayı 600 minə çatırdı (13). Kursi qeyd edirdi ki, qoşunlara şəxsən rəhbərlik edən Dara öz qüvvələrini belə düzmüşdü: Sağ cinahda Nabarzan öz atlı dəstəsi ilə birlikdə, həmçinin 20 min nəfərlik sapand və oxatanlar dəstəsi düzülmüşdü. 30 minlik muzdlu qoşun dəstəsi də sağ cinaha yerləşdirilmişdi. Sol cinahda 20 min nəfərlik barbar piyadalar, onların ehtiyatında isə döyüşkən tayfaların qüvvələri dayanmışdı. Çar III Dara 3 minlik seçmə atlı dəstə və 40 minlik piyada ilə bu cinahda döyüşməli idi. Onun arxasında isə Hirkaniya və Midiya atlıları düzülmüşdü. Burada bir sıra digər dəstələr də var idi (14). Müəllif mərkəzdə kimin yerləşdiyini göstərmir. Əgər nəzərə alınsa ki, İsgəndər əsas zərbə qüvvəsi olan falanqanı mərkəzdə yerləşdirmişdi (15), demək Fars qoşunlarında da bu istiqamətdə hansısa bir qüvvə var idi. Bəzi mənbələrə görə isə Dara döyüş meydanının mərkəzində qərar tutmuşdu və döyüşə də burada daxil olmuşdu (16). Bu məlumat həqiqətə daha yaxındır. Çünki Daranın döyüşdə iştirak edən

ailə üzvləri də öz qulluqçuları ilə birlikdə döyüş meydanının mərkəzində idilər (17). Deməli, onda güman etmək olar ki, midiyalı atlılar da döyüş meydanının mərkəzi hissəsində döyüşə qatılmışdılar. Ancaq Daranın daha münasib qəbul etdiyi bu döyüş düzülüşü də onu məğlubiyyətdən xilas edə bilmədi.

E.ə. 333-cü ilin payızında baş verən döyüşdə Daranın qoşunu yenidən məğlubiyyətə uğradı. Makedoniya qoşunlarının hücumu elə böyük bir sürət və üstünlüklə baş verdi ki, Dara öz cəng arabasını, çar geyimlərini, silahlarını, anasını, arvadını və qızını döyüş meydanında qoyaraq qaçdı (18). Döyüşün ümumi gedişi, xüsusən Makedoniya qoşunlarının fəaliyyəti barədə antik ədəbiyyatda kifayət qədər məlumata rast gəlinsə də midiyalıların bu döyüşdə necə döyüşmələrini müəyyən etmək çətindir. Onu da söyləmək çətindir ki, bu döyüşdə midiyalılara rəhbərlik edən Atropat idi, yoxsa başqası. Çünki Əhəməni və Makedoniya qoşunları arasında baş verən növbəti döyüşdə midiyalılara artıq Atropat rəhbərlik edirdi. Bu iki döyüş arasında çox qısa vaxt fasiləsi var idi, cəmi iki il. Əgər nəzərə alınsa ki, bu vaxt Atropat artıq Midiya satrapı idi (19), onda güman etmək olar ki, İssa düzənliyində Kursiyə görə sayı 60 minə çatan Midiya qoşunlarına da vilayət satrapı Atropat başçılıq edirdi.

Makedoniyalı İsgəndər Əhəməni qoşunları ilə növbəti döyüşdən də qalib çıxmasına baxmayaraq qaçıb canını qurtarmaq istəyən və bu hərəkəti ilə həm də öz qoşununun son anadək döyüşə bilmək iradəsini qıran Daranı təqib etmək fikrindən əl çəkdi. O öz yürüşlərini cənuba doğru genişləndirdi və bu vaxtlar sülh barəsində Daradan iki məktub aldı (20). İsgəndər Daranın sülh müqaviləsi bağlamaq təklifini rədd etdi və e.ə. 331-ci ilin baharında Misiri tərk edərək Daraya qəti zərbə vurmaq məqsədilə Asiyaya doğru istiqamət götürdü (21). Hələ müəyyən hərbi qüvvələrə malik olan Dara da İsgəndərlə yeni döyüşə hazırlıq görməyə başladı.

O topladığı qüvvə ilə nəinki müqavimət göstərmək, hətta makedoniyalıları Kiçik Asiyadan sıxışdırmaq fikrində idi. An-

caq ölkə daxilində dərinləşməkrə olan böhranlar və tez-tələsik toplanmış qüvvələr bütünlükdə qoşunların döyüşkənliyinə mənfi təsir edirdi. Hər halda buna baxmayaraq, Dara qısa bir müddətdə çox böyük qüvvə toplaya bildi. O, İsgəndərin Misirdən yola düşməsi xəbərini eşidən kimi bütün vilayətlərə qoşun toplamaq və onları Babilstana göndərmək əmri verdi (22).

Antik müəlliflərin məlumatına görə, Dara bir milyon nəfərlik qoşun toplamışdı (23). Kursinin yazdığına görə isə Daranın çağırışı ilə Babilistana o qədər adam toplanmışdı ki, onların necə silahlandırılması məsələsi ortaya çıxmışdı (24). Görünür, adi say üstünlüyü ilə İsgəndərə qalib gəlməyin mümkünlüyünü güman edən Dara hər necə olursa-olsun qoşunların sayını, o cümlədən təlim keçməmiş atlıları qoşunlara paylamaqla atlıların sayını artırmağa çalışırdı. Bundan başqa Dara yeni, təkmilləşdirilmiş cəng arabalarını da döyüşə hazırlayırdı. Bu cəng arabalarının hər iki tərəfdəki təkərlərdən yana doğru iti kəsən uzun süngülər bərkidilmişdi. Belə süngülərdən cəng arabasının həm qarşısına, həm də altında üzüaşağı bərkidilmişdi. Həmin süngülər ondan ötrü nəzərdə tutulmuşdu ki, cəng arabaları makedoniyalı piyadaların sıx sıralarının arasına soxulsa, həm yanlardakı döyüşçüləri, həm də arabanın altına düşüb qalmış döyüşçüləri doğrayıb töksün. Belə cəng arabaları döyüşə ilk dəfə çıxarıldığı üçün Dara və sərkərdələri onların döyüşdəki səmərəliliyinə böyük ümid bağlayırdılar. Hətta Daranın yeni qoşununu görən Makedoniya kəşfiyyatçıları da İsgəndəri bundan xəbərdar edərək onu ehtiyatlanmağa çağırdılar (25).

Görünür, Dara da nəhayət uğur qazanacağına əmin idi və düşmən qüvvələri yaxşı qarşılamaq üçün 1000 nəfərlik seçmə atlıdan ibarət kəşfiyyat qrupunu Makedoniya qoşunlarını qarşılamağa göndərdi. Bir çox tarixçilərin fikrincə, bu kəşfiyyat qrupuna rəhbərlik Atropata tapşırılmışdı (26). Bu məlumatı verən Kursinin Atropatı-Satropat kimi təqdim etməsini tarixçilər orfoqrafik xəta kimi qiymətləndirirlər. Ancaq bu fikrin qətiliyini təsdiq etmək çətindir. Çünki bir tərəfdən Kursi Satropatın

bu döyüşdə öldürüldüyünü xəbər verir (27). Məlumdur ki, Atropat bu döyüşdə öldürülməmişdi, əksinə o sonralar Atropatena dövlətinin yaradıcısı olmuşdu. O biri tərəfdən Kursi göstərir ki, Dara min nəfərlik seçmə atlı ilə atlı qoşun rəisi Satropatı irəli göndərmişdi (28). Bu sözlərdən belə çıxır ki, Satropat atlı qoşunların komandanı idi və Dara da onu öz atlıları ilə kəşfiyyata göndərmişdi. Güman ki, bu fikir doğrudur və Daranın kəşfiyyata göndərdiyi də Atropat yox, tamam başqa bir şəxs olmuşdu. Atropat hər halda böyük bir vilayətin satrapı idi və öz tayfasının qoşunlarından başqa bir neçə tayfanın qoşunlarına da bu döyüşdə rəhbərlik etməli idi. Həm də vilayətin satrapı bir neçə tayfa qoşun dəstəsinin komandanı kimi məsuliyyətli vəzifə daşıyırdı və döyüşün yaxınlaşdığı ərəfədə onun bu qədər qoşundan aralandırılıb kəşfiyyata göndərilməsi heç də inandırıcı deyildir. Bu döyüşdə midiyalıların, kadusilərin, albanların və sakasenlərin tayfa hərbi birləşmələri Atropatın rəhbərliyi altında vuruşmalı idi (29).

Atropatın əvvəlki həyat və fəaliyyəti barədə mənbələrdə məlumata rast gəlinməsə də o, Qavqamel döyüşündə artıq yetkin yaşa malik idi. Çünki bu döyüşdən az bir müddət sonra o öz qızını Makedoniyalı İsgəndərin yaxın sərkərdələrindən birinə ərə vermişdi.

Satrap təyin edilməsi və Qavqamel döyüşündə bir neçə tayfa hərbi birləşməsinin onun komandanlığı altına verilməsi Atropatın kifayət qədər hərbi, o cümlədən komandanlıq təcrübəsinə malik olmasından xəbər verir. Heç şübhəsiz ki, artıq bu döyüşə kimi Atropat bir sıra döyüşlərdə iştirak etmiş və lazımi təcrübə toplaya bilmişdi. Məlumatların qıtlığı üzündən Atropatın hərbi kefiyyətləri, onun komandanı olduğu qoşunun vəziyyəti, maddi-texniki bazası, Midiyada hərb sənətinin inkişaf xüsusiyyətləri barədə bütöv təsəvvür yaratmaq çətindir.

Qoşunların döyüşqabağı düzülüşü Dara tərəfindən müəyyənləşdirilmişdi. Döyüşə ümumi rəhbərliyi də o öz boynuna götürmüşdü. Dara qarşısına qoyduğu ümumi məqsədə nail ol-

maq üçün təkmilləşdirilmiş cəng arabaları da qoşun dəstələri arasında bölünmüşdü. Təkcə Daranın deyil, bütünlükdə Əhəmənilər dövlətinin məhvi və onun yerində yeni dövlət birləşmələrinin meydana gəlməsində xüsusi təsirə malik olan Qavqamel döyüşündə məlumdur ki, midiyalılarla bərabər albanlar da vuruşurdu. Bu döyüşdə həmin tayfalar ittifaqda vuruşurdular. Döyüşqabağı düzülüşdə də Dara onları eyni cinaha salmışdı. Ancaq maraqlısı budur ki, Arrian Qavqamel döyüşündə midiyalıların kadusilər, albanlar və sakasenlərlə birləşdiyini bildirsə də döyyşqabağı düzülüşdə kadusilərin əks cinahda hərəkət etdiyini qeyd edirdi. Arrianın yazdığına görə, Fars qoşunları aşağıdakı şəkildə qruplaşdırılmışdı: sol cinahda dai və araxotlarla birlikdə Baktriya atlıları dayanmışdı. Onların yanında isə piyada və atlıları bir-birinin ardınca düzülmüş farslar durmuşdu. Farsların arxasında susilər və kadusilər dayanmışdı. Sağ cinahda Klesiriya və İkiçay arasından olan əsgərlər və midiyalılar, onların ardınca saklar, sonra topurlar və hirkaniyalılar, sonra albanlar və sakasenlər durmuşdu. Mərkəzdə Dara özü qərar tutmuşdu. Bundan başqa sol cinahın qarşısında skif süvariləri, min nəfərlik baktriyalı və yüzədək təkmilləşdirilmiş süngülü cəng arabaları var idi (30).

Beləliklə, Arrianın yazdıqlarına inanmalı olsaq belə çıxır ki, Atropatın rəhbərliyi altına verilmiş kadusilər döyüşdə Atropatla olmamış və başqalarının tabeçiliyi altında vuruşmuşdular. Yəni Arrianın fikirləri bir digərini təkzib edir. Kursi Ruf isə Qavqamel döyüşündə Fars qoşunlarının düzülüşünü təsvir edərkən midiyalılarla kadusilərin bir cinahda vuruşduğunu qeyd edir. O göstərirdi ki, Fars qoşunlarının cinahında kadusilər, kappadokiyalılar, suriyalılar, midiyalılar və başqaları hərəkət edirdilər (31). Kursi Əhəməni qoşunlarının döyüş düzülüşündə albanların adını çəkmir. Ancaq onlar Atropatın rəhbərliyi altında idilər və ona görə onların da sağ cinahda olması şübhəsizdir.

Bu döyüşdə hər iki tərəf qarşısına qoyduğu məqsədə hücum vasitəsilə çatmağa çalışırdı. Döyüşün ilkin mərhələsində

əsas hadisələr farsların sol cinahında baş verdi. Makedoniya qoşunlarının sayca azlığı onları müəyyən çətin vəziyyətə salsa da İsgəndərin sərkərdəlik məharəti nəticəsində tezliklə bu çətinlik aradan qaldırıldı və Makedoniya qoşunları hərbi təşəbbüsü öz əllərinə aldılar. İsgəndərin əsas zərbə istiqamətini düzgün seçə bilməsi, səmərəli manevrlər edə bilməsi sayca çox olan Fars qoşunlarının üzərində qələbə qazanmağa imkan verdi. Makedoniyalıların sol cinahda uğurlarının genişləndiyini görəndə Dara döyüş meydanını tərk etdi və geriyə üz tutdu. Bu isə onun qoşunlarının da iradəsinin qırılmasına yol açdı. Bununla belə, midiyalıların, albanların və eləcə də onların müttəfiqlərinin vuruşduğu sağ cinahda Makedoniya qoşunları ciddi təzyiqlə rastlaşaraq məhv olmaq təhlükəsi altına düşdülər (32). Əhəmənilərin sağ cinahında yerləşmiş qoşun hissələri Daranın döyüş meydanından qaçmasından hələ xəbərsiz idilər və ona görə də bütün gücləri ilə vuruşurdular. Bu istiqamətdə Makedoniya qoşunlarının cinahının mühasirə olunması qorxusu yaranmışdı. Midiyalıların və albanların bu istiqamətdə konkret fəaliyyəti barədə mənbələrdə heç bir məlumat yoxdur. Ancaq şübhəsizdir ki, sağ cinahda genişləndirilən müvəffəqiyyətdə onların da payı var idi. Lakin döyüşün uğurla başa çatdırılması işində ayrı-ayrı hərbi dəstələrin uğuru düzgün istiqamətləndirilmədi.

Makedoniya qüvvələrinin komandanlarından olan Parmenion Əhəmənilər qoşunlarının sağ cinahında vuruşmaq üçün əlavə kömək göndirilməsi xahişi ilə İsgəndərin yanına çapar göndərmək məcburiyyətində qaldı. Elə bu vaxt bu istiqamətdə döyüşən Fars qoşunları Daranın döyüş meydanından qaçması xəbərini eşidib qələbə əzmini itirdilər. Onların döyüşü zəiflətməsi hətta Makedoniya sərkərdələrini də təəccübə saldı (33).

Dara məğlubiyyətə uğrayıb Midiyaya qaçdı. Onun Midiyaya qaçmasını antik müəlliflər bu ərazilərə İsgəndərin böyük qoşun qüvvələri yeridə bilməyəcəyi ilə izah edirlər (34). Dara hələ də hakimiyyətdən uzaqlaşmaq fikrində olmadığından yenidən İsgəndərə müqavimət göstərmək üçün yollar arayırdı.

Diodor yazır ki, Dara Midiyanın paytaxtı Ekbatana gəldikdən sonra Qavqamel döyüşündən sağ çıxanları yanına topladı, onları silahlandırdı, qonşu tayfalarla, onların rəhbərləri ilə Makedoniya qoşununun əleyhinə yenidən cəbhədə birləşmək məqsədilə danışıqlar apardı (35). Öz məqsədinə müəyyən mənada nail olan Dara hətta 40 minlik bir qoşun da toplaya bildi (36). Güman etmək olar ki, Atropat da hələlik Daranı müdafiə edirdi. Əgər Midiyada Daraya qarşı güclü müxalifət olsaydı o orada bu qədər qoşun toplaya bilməzdi. Mənbələr göstərir ki, Qavqamel döyüşündə Atropatın rəhbərliyi altında döyüşən kadusilər də Daranı müdafiə edirdi və onun makedoniyalılara qarşı müqavimət göstərmək cəhdi uğursuzluqla nəticələndi. İsgəndərin qoşunları Midiyaya daxil olduqdan sonra kadusilər Daranı müdafiə etmədilər (37).

Atropatın Daranı müdafiə etməsi görünür onun İsgəndərlə münasibətlərinin ilk vaxtlar gərgin olması ilə izah edilə bilər. İsgəndər hətta Midiyanı nəzarət altına aldıqdan sonra Atropatı satraplıqdan azad edib Oksidat adlı birisini onun yerinə təyin etdi (38).

Atropat kimi dünyagörüşlü bir şəxsin uzun müddət Daranı müdafiə etməsi və bununla da İsgəndərlə onların arasında gər-gin münasibətlərin formalaşmasını tarixçilər müxtəlif şəkildə izah edirlər. Bir çox qərb tarixçilərinin fikrincə, Əhəmənilər dövlətinin tərkibinə daxil olan satraplıqlar Əhəmənilər zülmü altında qalmaqdan cana gəlsələr də onun yerini tutmaqda olan Makedoniya imperiyasından da ehtiyatlanırdılar. Bu cəhət onları antimakedoniya cəbhəsində birləşməyə sövq edirdi. Həmin tarixçilərin qənaətinə görə, hətta Dara öldürüləndə də məqsəd sadəcə ondan yaxa qurtarmaq yox, Daranı öldürməkdə günahlandırılan Bessin ətrafında yeni, daha güclü antimakedon cəbhəsi yaratmaq idi (39). Ola bilsin ki, Atropat Midiyanın makedoniyalılar tərəfindən işğal ediləcəyi təqdirdə daha pis vəziyyətə düşəcəyini yəqin etmişdi və ona görə də yeni yaranan imperiyaya da bir narahatlıqla yanaşrdı. Antimakedon cəbhə-

sinin perspektivsizliyini gördükdən sonra Atropat İsgəndərlə münasibətlərin sahmana salınmasına çalışdı. İsgəndər isə çox geniş əraziləri əhatə edən dövlətini yaxşı idarə etmək üçün ona tabe olan yerli satrapların hakimiyyətdə saxlanılmasına çalışırdı (40). Ümumiyyətlə, Əhəmənilər dövləti süqut etdikdən sonra İsgəndər burada mövcud olan köhnə dövlətçilik sisteminə ciddi bir dəyişiklik etmədi, satraplıq sistemi saxlanıldı. Midiyanın satrapı Atropatın uzun müddət Daranı müdafiə etməsi şübhəsiz ki, İsgəndərdə onun sədaqətinə şübhə yaratmışdı və ona görə də İsgəndər bu vəzifəyə fars Oksidatı təyin etdi.

İsgəndər satraplıq sistemini saxlasa da satrapların səlahiyyətlərini müəyyən qədər məhdudlaşdırdı. Bununla da onların mərkəzi hakimiyyətdən asılılığını daha da gücləndirdi. Satrapların fəaliyyəti güclü nəzarət altına alındı. Onların azacıq itaətsizliyi, yerli əhaliyə qarşı göstərdikləri istismar İsgəndər tərəfindən amansızlıqla aradan qaldırılırdı. Onun fikrincə, satrapların həddsiz özbaşınalığı yerli əhalini mərkəzi hakimiyyətə qarşı qaldıra bilərdi. Belə hallar bir çox satraplıqlarda, o cümlədən Midiya satraplığında da nəzərə çarpmağa başlamışdı. Bununla bağlı olaraq, İsgəndər həmin satraplıqlarda dəyişikliklər etdi və o cümlədən Midiyada Oksidatın yerinə Atropat təyin edildi.

## 2. Atropatena dövlətinin yaranması. Atropatenada hərb işinin obyektiv əsasları

Atropatın Midiyaya satrap təyin edilməsi sözsüz ki, təsadüfi deyildi. Oksidatın Midiya satrapı olduğu vaxt ərzində yəqin ki, Atropat İsgəndərlə ünsiyyət yarada bilmişdi. O, İsgəndərə sadiqliyini ifadə etməklə bərabər, İsgəndər də onun təcrübəli, qətiyyətli şəxs olduğunun, Midiyada nüfuz qazandığının şahidi olmuşdu və Midiya satrapı Oksidatın onun xəttinin yerində bilmədiyini görəndə yeni satrapın təyinatı ilə bağlı öz nəzərlərini Atropatın üzərində saxlamışdı. Əslində, Atropat hələ Əhəmənilər dövründən böyük nüfuz və təcrübəyə malik idi və

görünür III Dara bu böyük şəxsiyyətin nüfuzunu təsdiq etmək məcburiyyətində qalmışdı.

Məlumdur ki, hələ I Daranın çarlığı dövründə mərkəzi hakimiyyətin möhkəmləndirilməsi üçün ölkə 20 satraplığa bölünmüşdü. Bu satraplıqların başında adətən fars əyanları dururdu və onlar yalnız mülki idarəçiliklə məşğul idilər. Satraplıqların nisbi müstəqilliyinin zəflədilməsi və satrapların mərkəzi hakimiyyətə qarşı çıxmaq imkanlarının qarşısının alınması üçün onlar vilayətin hərbi qarnizonunun rəisi vəzifəsindən azad edilmişdilər. Vilayətlərdəki qoşunlar əvvəlki kimi vilayət hakimlərinə deyil, vilayətin hərbi rəislərinə tabe idilər (41). Ölkə daxilində idarəçilik sistemində bu vəziyyət uzun müddət davam etmişdi. Ancaq Fars-Makedoniya döyüşləri ərəfəsində Əhəmənilər bu idarəçilik sistemində müəyyən istisnaları də nəzərdə tuturdular (42). Bəzi satraplıqlarda, o cümlədən Midiyada satrapların yerli əyanlardan təyin edilməsi, eyni zamanda tayfa hərbi birləşməsinə rəhbərliyin ona tapşırılması Atropatın çox ciddi siyasətçi olmasından, Əhəməni hakimləri ilə prinsipial münasibətlər qura bilməsindən xəbər verirdi.

Atropat müəyyən vaxt keçdikdən sonra Makedoniyalı İsgəndərlə münasibətlərini sahmanlaya bilmişdi. Konkret şəraitdə Atropatın Makedoniya hakimləri ilə qurduğu münasibətlərdə hər vasitə ilə Midiyanı kənar təsirlərdən qorumaq, onun müstəqilliyini genişləndirmək istəyi aydın görünməkdədir. İsgəndərin malik olduğu hərbi qüvvələrin qarşısında Atropat başqa vasitələrə əl atmağın əbəs olduğunu başa düşdüyündən təcrübəli diplomat kimi çox təmkinli siyasət yeridirdi. Tarixi proseslərin gedişi də bu xəttin doğru və dürüst olduğunu sübut edirdi. Tarixçilər doğru olaraq qeyd edirlər ki, məhz Atropatın apardığı siyasətin nəticəsi idi ki, Makedoniya qoşunlarının ayağı Kiçik Midiyaya dəyməmişdi. Hətta İsgəndər öz sərkərdəsi Parmenona Midiyanın keçmiş paytaxtı Ekbatandan Atropatenanın şimalında yerləşən kadusilər üzərinə hücum etmək tapşırığını versə də bu tapşırıq həyata keçirilməmiş qaldı. Tarixçilər bunu Atropatın

Makedoniya qoşunlarının Atropatena torpaqlarından keçməsinə imkan verməməsi gümanları ilə bağlayırlar (43).

Qeyd etmək lazımdır ki, Atropat bütün Midiyanın deyil, yalnız Kiçik Midiyanın satrapı idi. Sonralar Atropatın hakimi olduğu Midiya torpaqları Atropatena Midiyası və ya sadəcə olaraq Atropatena adlandırıldı. Midiya satraplığının iki yerə bölünməsini yəqin ki, Makedoniya hakimləri midiyalıların xarici istilaçılara qarşı qüvvəsini parçalamaq, döyüşgənliyini zəiflətmək məqsədilə etmişdi. O biri tərəfdən cənubi Midiya və ya Böyük Midiya makedoniyalılar üçün strateji əhəmiyyətə malik idi. Çünki, buradan makedoniyalıların mühüm kommunikasiya xətləri keçirdi və buna görə yunanlar mühüm yolların keçdiyi bu əraziləri yerlilərə etibar etmək istəmirdilər (44). Strabon Atropat Midiyası haqqında belə yazırdı: "Midiya iki hissəyə ayrılır. Bir hissəsini Böyük Midiya adlandırırdılar ki, baş şəhəri Midiya dövlətinin paytaxtı olmuş böyük şəhər Ekbatandır (hələ indi də o, parfiyalıların paytaxtıdır, onların hökmdarları isə ən azı yayı burada keçirirlər, çünki Midiya böyük ölkədir, qışda onlar Dəclə üzərində Babilin yaxınlığındakı Selevkiyada qalırlar). İkinci hissə Atropat Midiyasıdır. O öz adını sərkərdə Atropatdan alıb, hansı ki, bu ölkənin Böyük Midiya kimi makedoniyalılara tabe olmasına yol vermədi. Doğrudan da, təntənə ilə çar elan edilən Atropat öz hökmü ilə bu ölkəni müstəqil etdi və indi də varislik onun ailəsində qalır" (45).

Maraqlıdır ki, Strabon Atropatı bir sərkərdə kimi təqdim edir. Bu, Atropatın yüksək hərbi keyfiyyətlərə malik olduğundan xəbər verir. O biri tərəfdən də onun təntənə ilə çar elan edilməsi xalq arasında böyük nüfuza malik olmasına bir sübutdur.

İsgəndər Atropatı satrap təyin edəndən sonra da istilaçılıq yürüşlərini davam etdirirdi. O bir də təxminən beş ildən sonra Midiyaya tərəf döndü. İsgəndirin Midiyadan uzaqlarda olduğu beş il ərzində öz ölkəsinin müstəqilliyini artıran Atropat sözsüz ki, ölkənin daxili inkişafı və güclü qoşunun yaradılması ilə məşğul olmuşdu. Atropatın İsgəndərin əleyhinə üsyan qaldır-

mış Bariaks adlı bir şəxslə vuruşması və onu məğlub etməsi də Atropatın tabeliyində güclü qoşun hissələri olmasına dəlalət edir. Strabon da Atropatenanın güclü qoşuna malik olduğunu, döyüşlərə 10 min atlı və 40 min piyada çıxara bildiyini qeyd edir (46). Doğrudur, bu məlumat Atropatdan sonrakı dövrə aiddir. Ancaq hər halda belə bir qoşunun əsası sözsüz ki, Atropatın vaxtında qoyulmuşdu və Atropat ölkənin güclü qoşunlarının yaranmasını diqqətdən kənarda qoymazdı. Xüsusən, atropatenalıların güclü qonşularla həmsərhəd olması, onların istilaçı yürüşlərindən etibarlı şəkildə qorunmağa imkan verən qoşunun saxlanılmasını zəruri edirdi. Atropatenalıların qonşuları tez-tez onların ölkəsinə təcavüz etməyə çalışırdılar. Lakin atropatenalılar müqavimət göstərərək zəbt edilmiş torpaqlarını geri alırdılar (47). Strabon da bunu öz əsərlərində qeyd edirdi. Həmin qeydlər də təsdiqləyir ki, Atropatena dövləti kifayət qədər güclü qoşuna malik idi. Güclü qoşuna isə yüksək iqtisadi inkişaf səviyyəsinə nail olmadan malik olmaq mümkün deyildi. Bunun üçün Atropatenada obyektiv şərait mövcud idi. Bu ölkədə məhsuldar torpaq sahələri bolluğu, əlverişli təbii iqlim şəraitinin mövcudluğu kənd təsərrüfatının-əkinçiliyin və maldarlığın inkişafı üçün böyük imkanlar yaradırdı. Atropatenadakı torpaqların məhsuldar olması antik müəlliflərin də diqqətini cəlb etmiş və bu barədə onlar öz əsərlərində də söhbət açmışdılar (48). Əslində ermənilərin və parfiyalıların tez-tez Atropatenaya yürüş etməsi, vilayətləri və yaşıyış məskənlərini talan etməsi bu yerlərdə iqtisadiyyatın inkişafından xəbər verir. Kiçik Midiya hələ lap qədimdən öz atları ilə məşhur idi. Nisay düzənliyi bu mədəniyyətin mərkəzi sayılırdı. Makedoniyalıların hücumlarından əvvəl bu yerlərdə 160 minə kimi at bəslənilirdi (49). Həmin atlar təsərrüfatda qoşqu vasitəsi kimi işlədilməkdən əlavə, həm də atlı qoşunların əsasını təşkil edirdi. Bu atlar o qədər məşhur idilər ki, hətta İsgəndər özü də Atropatın müşayəti ilə Nisay düzənliyinə yollanmış və onlara tamaşa etmişdi (50).

Atropatenada yun-parça istehsalının yüksək inkişafı barədə də məlumatlar mövcuddur (51). İqtisadiyyatın bu sahəsinin inkişafı yüksək istehsal texnologiyası ilə bərabər, xırda buynuzlu heyvanların geniş yayılmasını da zəruri edirdi. Midiyanın hələ Əhəmənilər dövlətinin tərkibində olduğu vaxtlardan da məlumdur ki, burada xırda buynuzlu heyvanların geniş yayılması nəticəsində toxuculuq inkişaf edirdi. Hətta fars əyanları da midiya libaslarında gəzirdilər. İsgəndərin və əyanlarının Midiya libasını geyməsi də (52) burada toxuculuğun yaxşı inkişafından xəbər verir. Bütünlükdə, Kiçik Midiyanın inkişaf etmiş kənd təsərrüfatı, sənətkarlığı, habelə zəngin iqtisadi bazası var idi (53). Onun yaxşı iqtisadi bazaya malik olması Böyük Midiyadan asılılığını zəiflədir, müstəqil inkişafına zəmin yaradırdı. Kiçik Midiya öz iqtisadiyyatının inkişafı üçün kənardan xammal gətirilməsinə ehtiyac duymurdu (54), əksinə böyük ticarət yollarının yaxınlığında yerləşməsi, bu ərazilərdə yunan-Makedoniya koloniyalarının yaradılması həm sənətkarlığın, həm də ticarətin inkişafına kömək edirdi. Makedoniyalı İsgəndərin böyük imperiyasının Asiya ilə Avropa arasındakı əlaqələri gücləndirməsi, buraya çoxlu sayda tacirlərin, sənətkarların və hərbçilərin gəlməsi ilə müşayət olunurdu. Bu isə qarşılıqlı mübadilə imkanlarını artırırdı. İqtisadiyyatın inkişafı isə öz növbəsində Atropatena dövlətinin qüdrətinin artmasını, onun güclənməsini şərtləndirirdi.

Atropatena dövlətinin mövcudluğu bütünlükdə Azərbaycan xalqının təşəkkülü prosesinin genişlənməsində böyük əhəmiyyətə malik idi. Bu təşəkkülün əsasını hər şeydən əvvəl daxili inkişaf amilləri-məhsuldar qüvvələrin tərəqqisi, tayfalararası əlaqələrin meydana çıxması təşkil edirdi (55). Bu proses uzun sürən bir proses olsa da tayfaların bir-birinə qovuşması təkcə onların ərazi, iqtisadi və mənəvi birliyi ilə xarakterizə olunmurdu. Xalqın təşəkkül tapması həm də xarici düşmənlərə qarşı müqavimət gücünün artmasına kömək edirdi.

Atropatın qarşısına qoyduğu məqsədlərə çatması, müstəqil bir dövlət yaratmaq arzusu da sözsüz ki, təşəkkül tapmaq ərəfəsində olan xalqın köməyi olmadan mümkün deyildi.

Güclü qoşunların yaradılması hərbi texnologiya sahəsində ciddi istehsal bazasının olmasını tələb edirdi. Buradan belə qənaətə gəlmək olar ki, Kiçik Midiya ərazisində metallurgiya da yüksək inkişaf etmişdi. Silah istehsalı mədəniyyəti də zəngin ənənəyə malik idi. Midiyalılar dövrün ən müasir silahlarını istehsal etməyə nail olmuşdular. Hətta yaxın tayfaların hərbçiləri də Midiya silahlarından istifadə edirdilər. Antik tarixçilər də hələ Əhəmənilər dövründə farsların Midiya silahlarından və döyüş geyimlərindən istifadə etdiklərini öz əsərlərində qeyd edirlər. Yaxşı və müasir silah isə midiyalılarda hərb sənətinin inkişaf xarakterini müəyyənləşdirirdi. Əhəmənilər dövlətinin, demək olar ki, bötön müharibələrində midiyalıların iştirak etməsi və döyüşlərin ən qaynar nöqtələrində yerləşməsi Midiya döyüşçülərinin taktiki hazırlığının dövrünə görə kifayət qədər yüksək olduğuna sübutdur. Bundan başqa hər döyüşdə verilən itkilərin yerini tezliklə doldurulması midiyalıların səfərbərlik ehtiyatlarının böyük potensialından xəbər verir.

## 3. Atropatena qoşunları. Qoşun növləri, onların komplektləşdirilməsi və maddi-texniki bazası

Atropatena haqqında məlumatların qıtlığı Atropatena qoşunları barədə də geniş təsəvvür yaratmağa imkan vermir. Ancaq hər halda müxtəsər xəbərlər Midiyanın yaxın keçmişinin müqayisəli öyrənilməsi Atropatena qoşunlarının və hərb işinin konturlarını təsəvvür etməyə imkan verir. Midiyalıların makedoniyalılarla müharibədə iştirakı barədə antik məlumatlardan görünür ki, Midiyada, o cümlədən Kiçik Midiyada iki qoşun növü mövcud idi: piyada və atlı qoşun növləri. Cəng arabalarında vuruşan qoşun növü artıq tarix səhnəsindən çıxmaqda

idi. Qavqamel döyüşündə III Daranın süngülü cəng arabalarından istifadə etməsi və onun bir səmərə ilə nəticələnməməsi yəqin ki, midiyalıların bu qoşun növü ilə son görüşü idi.

Atropatenalıların əsas silahları uzaq təsirli zərbə silahları-kaman, nizə, mizraq, kiçik ölçülü nizə və yaxın döyüş silahları-qılınc, xəncər və s., habelə mühafizə vasitələrindən ibarət idi. Atlı dəstələrinin istifadə edilməsi taktiki vəzifələrin yerinə yetirilməsini daha da sürətləndirir, çevik hərəkətlər etməyə imkan verirdi.

Atropatena qoşunlarının hansı prinsiplər əsasında komplektləşdirilməsi barəsində qəti fikir yürütmək çətindir. Çox güman ki, qoşunların bir hissəsi daimi qoşunlar idi. Onlar əksəriyyət təşkil edə bilməzdilər. Belə qoşun hissələri Əhəmənilər dövründə də həm mərkəzi hakimiyyətin tabeliyində, həm də vilayət qarnizonlarında var idi. Əsas hissəsi farslar və midiyalılardan ibarət olan Əhəmənilər qoşunlarında (56) atlılar əyanlardan, piyadalar isə əkinçilərdən təşkil edilirdi. Hərbi xidmətdə olanlar natura şəklində xidmət haqqı alırdı. Xidmətdən təqaüdə çıxanlara isə torpaq parçası ayrılırdı (57). Böyük hərbi yürüşlər zamanı tayfalar öz üzvlərindən müəyyən sayda döyüşçülər toplayaraq mərkəzi hakimiyyətin ixtiyarına verirdi. Güman etmək olar ki, Atropatena da belə bir sistemi işlətməkdə idi. Qoşunların bölgüsündə də Əhəmənilər qoşunlarında olduğu kimi 10, 100, 1000, 10000 nəfərlik bölgünün saxlanılmasını istisna etmək olmaz. Çünki, hər halda uzun əsrlər boyu formalaşmış hərbi təcrübəni birdən-birə tərk etmək inandırıcı deyil.

Təəssüf ki, Atropatın bir sərkərdə kimi hərbi keyfiyyətləri barədə də antik mənbələrdən geniş məlumat almaq mümkün deyil. Ancaq onun hərbi sərkərdə kimi təqdim edilməsi, iştirak etdiyi döyüşlərin ən məsul sahələrinin ona tapşırılması Midiya qoşunları kimi zəngin ənənələri olan bir qoşuna məharətlə sərkərdəlik etməsi Atropatın yüksək hərbi keyfiyyətlərə malik olmasını sübut edir. Yeni, müstəqil dövlətin yaradıcısı kimi o, həm dövlət rəhbərliyinə, həm də hərbi sərkərdəyə məxsus olan

ali xüsusiyyətləri özündə birləşdirə bilmişdi. Məhz bu cəhət ona dövlətin daxili və xarici siyasətini ümumdövlət mənafeyi baxımından formalaşdırmağa, zərurət yarandıqda isə bütün xalqı səfərbər edib silahla onu qorumağa qadir idi. Elə bunun nəticəsi idi ki, Atropat Avropaya və Asiyaya meydan oxuyan İsgəndər kimi böyük sərkərdənin qoşunlarının Kiçik Midiyaya girməsinə, onun "makedoniyalılara tabe olmasına yol vermədi" (Strabon). Atropat Kiçik Midiyanın öz hüdudlarında müstəqilliyinin daha da möhkəmlənməsi üçün həm İsgəndərin özü, həm də makedoniyalılarla işgüzar əlaqələr yaratmışdı. Sözsüz ki, İsgəndər də Atropatın simasında güclü dövlət xadimi və səpkərdə ilə rastlaşmışdı. Midiyaya səfəri zamanı İsgəndər Behsütunda olmuş və yuxarıda qeyd edildiyi kimi bir aya qədər Nisay düzənliyində qalmışdı (58). Atropat İsgəndərlə burada da görüşmüşdü. Yəqin ki, bu görüş İsgəndərlə Atropat arasındakı qarşılıqlı əlaqələri daha da möhkəmləndirmiş və İsgəndərin ən yaxın əyanlarından biri olan sərkərdə Perdikanın Atropatın qızı ilə evlənməsinə mane olmamışdı. Bu nikah Atropatla Makedoniya rəhbərliyi arasındakı etibarlı əlaqələrin nümayişi idi. Atropatın bu incə diplomatiyası tək özünün deyil, bütünlükdə hakimi olduğu xalqın gələcək inkişafına və daha da qüdrətlənməsinə müsbət təsir göstərdi. Atropatena dövlətinin çiçəklənməsi və möhkəmlənməsi naminə ölçülüb-biçilmiş xarici siyasətin yeridilməsi, qonşu dövlətlərlə nikah əlaqələrinin yaradılması onun etibarlə müdafiəsinə təminat yaradırdı. Bunu Strabon da qeyd edirdi: "Onun (Atropatın-red.) nəsilləri Suriya çarları, sonralar isə Parfiya /çarları ilə/ nikah əlaqəsinə girdilər" (59). Atropatenanın xarici əlaqələri təkcə adları çəkilən bu dövlətlərlə kifayətlənmirdi. Tarixçilərin fikrincə, Atropatenanın bir sıra digər dövlət və tayfa birləşmələri ilə də sıx əlaqələri var idi (60).

E.ə. 324-cü ilin yayında Midiyada makedoniyalıların imperiyasına qarşı güclü müxalifət hərəkatı başladı. Həmin hərəkata Bariaks adlı bir nəfər rəhbərlik edirdi. Görünür, bu üsyan elə böyük bir miqyas almışdı ki, İskəndər özü Midiyaya gəlmə-

yə məcbur olmuşdu. Ancaq, o gələnə kimi müttəfiqlik əlaqələrinə sadiq qalan Atropat öz qüvvələri ilə Bariaksın üsyanını yatırmışdı. Atropatın bu fəaliyyəti onun İskəndərin yanındakı nüfuzunu daha da artırmışdı. Çox güman ki, İskəndərin ölümündən sonra onun imperiyasının əyanlar arasında bölüşdürülməsi zamanı Kiçik Midiyanın bölgüdən kənarda qalması Perdikka ilə qohumluq əlaqələrindən başqa yunan əyanları arasında olan böyük nüfuz da öz rolunu oynamışdı. Bu bölgü e.ə. 323-cü ildə baş vermişdi. Bu bölgü aparılan müşavirədə Atropat iştirak etməmişdi. Perdikanın ölümündən sonra e.ə. 321-ci ildə yenidən keçirilən bölgüdə də Atropat iştirak etməmişdi. Həmin bölgüdə də Kiçik Midiyanın adı hallanmırdı. Atropatın qohumu Perdikka öldürüləndən dərhal sonra keçirilən bu bölgüdə Kiçik Midiyanın bölgüdən kənarda qalması, Makedoniya sərkərdələrinin hakimiyyəti altına düşməməsi təkcə Perdikka ilə olan qohumluq əlaqələri ilə bağlı deyildi. Əgər belə olsaydı Perdikanın ölümündən sonra İsgəndərin imperiyasına daxil olan Kiçik Midiya kimi inkişaf etmiş bir diyar əldən verilməzdi. Atropat öz nüfuzu və apardığı düzgün siyasət nəticəsində çox mürəkkəb bir tarixi şəraitdə Kiçik Midiyanın tam müstəqilliyini təmin etdi. Strabon burada tamamilə haqlıdır ki, Atropat öz hökmü ilə ölkəni müstəqil etdi (61).

İsgəndər imperiyasında aparılan bölgülər ərəfəsində Atropatın güclü qoşunlara malik olduğunu və makedoniyalıların bu amildən ehtiyatlandığını da istisna etmək olmaz. Midiyadakı Bariaks üsyanının yatırılması da bunu göstərir. Çünki, İskəndərin öz əsas qüvvələri ilə bu üsyanın yatırılmasına hazırlaşması Bariakçın böyük hərbi qüvvəyə malik olduğundan xəbər verir. Ona görə də Atropat böyük qüvvələrə malik olmasaydı Bariaksın üsyanının öhdəsindən gələ bilməzdi. Atropat kimi bir sərkərdənin rəhbərliyi altında olan qoşunlarla üz-üzə gəlmək isə artıq dağılmaqda olan Ellinizm imperiyasının hərbçiləri üçün ağır bir sınaq ola bilərdi. Təxminən bir əsr sonrakı dövrə aid olan məlumatlar da Atropatenanın güclü qoşunlara

malik olmasından xəbər verir. Ancaq təəssüf ki, bu bir əsrlik dövr barədə Atropatena haqqında məlumat qalmamış, Atropatenanın daxili və xarici siyasəti və hərbi vəziyyəti barədə heç bir xəbər çatmamışdır.

Yunan tarixçisi Polibinin Atropatenanın e.ə. III əsrin sonlarına doğru vəziyyəti barədə verdiyi məlumat böyük əhəmiyyətə malikdir. Həmin məlumatdan aydın olur ki, Atropatenanın naməlum qalan tarixi dövrü də müharibəsiz keçməmişdir. Özü də bu müharibələr daha çox Atropatena dövlətinin uğurları ilə başa çatmışdı. Bu müharibələr zamanı Atropatenanın hücumlara məruz qalmasını, yoxsa onun öz ərazilərini genişləndirmək üçün yaxın ölkələr üzərinə yürüşlər etməsini demək çətindir. Amma hər halda Atropatena dövlətinin hərbi fəaliyyəti nəticəsində sərhədləri xeyli genişlənmiş və hətta İberiyanın ərazilərini də əhatə etmişdi.

Polibi Atropatenanın belə genişlənməsinin səbəblərini də qısaca olaraq öz əsərlərində qeyd edirdi. O göstərirdi ki, Atropatenada "əsasən atlarda vuruşan və kifayət qədər müharibə üçün lazım olan hər şeyə malik olan güclü xalq yaşayır" (62). Yəni Atropatenada öz dövlətinin taleyini qorumağa qadir olan xalq və onun güclü qoşunu var idi. Atropatena qoşunlarının uğurları isə həm onun taktiki hazırlığının, həm də təchizat səviyyəsinin qonşu dövlətlərin qoşunlarındakından heç də geri qalmadığını sübut edirdi.

## 4. Xarici istilaçılara qarşı mübarizə

E.ə. III əsrin sonlarına doğru Selevki çarlığının güclənməsi və istilaçı xarici siyasət yürütməsi Atropatenanı öz müstəqilliyini hərbi yolla qorumaq zərurəti qarşısında qoymuşdu. E.ə. 223-cü ildə hakimiyyətə gələn selevki çarı III Antiox Böyük Midiyanı tutduqdan sonra Atropatena dövləti üzərinə hücuma keçdi (63). Böyük Midiyanı ələ keçirəndən sonra selevki çarı Atropatena cəbhəsində də müvəffəqiyyətləri geniş-

ləndirməyə nail oldu və III Antioxla Atropatena çarı Artabazın arasında bağlanılan müqaviləyə əsasən Atropatena Selevki çarlarının hakimiyyətini tanımalı oldu (64).

Ancaq, görünür, Antiox Atropatenanı tamamilə işğal edib onun bir dövlət kimi mövcudluğuna son qoymaq istəyirdi. Selevkilər Atropatenada öz nüfuzlarının müvəqqəti də olsa tanınmasına nail olsalar da onun məhvinə müvəffəq ola bilmədilər (65). Heç şübhəsiz ki, selevkilər atropatenalıların iradəsini qıra bilmədilər. Atropatenalıların mənəvi və hərbi keyfiyyətləri, mübarizlik və döyüşgənlik ruhu istilaçılar tərəfindən bu ölkənin məhvinin qarşısını almışdı.

Selevkilərin Atropatena üzərindəki zahiri ağalığı tarixi baxımdan elə də böyük bir dövrü əhatə etmir. E.ə. II əsrdə Ön Asiya yenidən qüdrətli dövlətlərin mübarizə meydanına çevrildi. Bu ərazilərdə möhkəmlənməyə çalışan Roma qoşunları ilə mübarizədə Selevki çarlığı zəiflədi. Bu vəziyyətdən Atropatena hakimləri də öz mənafeləri naminə istifadə etdilər. E.ə. II əsrin 60-cı illərində Atropatenanın selevkilərdən asılılığına son qoyuldu (66). Ancaq Atropatena regionda gedən dövlətlərarası çarpışmadan kənarda qala bilmədi.

Romalılarla mübarizədə selevkilərin zəifləməsi regionda Parfiya ilə Ermənistanın güclənməsinə səbəb oldu. Yaranmış vəziyyətdən istifadə edərək erməni çarı Atropatenaya daxil olan vilayətlər hesabına öz ərazilərini daha da genişləndirdi (67). Məlumatların kəsadlığı üzündən Atropatenanın bu hərbi uğursuzluğunun, ərazilərinin bir hissəsinin xarici işğalçılar tərəfindən işğal edilməsinin bütöv mənzərəsini yaratmaq mümkün deyil. Hər halda güman etmək olar ki, bu uğursuzluq güclü qoşunu ilə tanınan Atropatenanın qoşunlarının zəifliyi ilə deyil, dövlətin yuxarı eşelonlarında aparılan qeyri-sabit siyasətlə, onların arasında yarana biləcək narazılıqlarla bağlı olmuşdur. Dövlətin xarici siyasətinin dəqiqliklə qurulmaması, müttəfiqlərin düzgün seçilməməsi də Atropatenanın təklənməsinə və zəifləməsinə əsas oldu.

E.ə. II əsrin ortalarında öz ərazilərini genişləndirmək uğrunda mübarizə aparan parfiyalılar Atropatenanı da özlərinə tabe edə bildilər. Heç şübhəsiz ki, parfiyalılar buna ağır döyüşlərdən sonra nail ola bilmişdilər. Selevkilərin ağalığından qurtaran kimi parfiyalıların hakimiyyəti altına düşmələri ilə barışa bilməyən atropatenalılar istilaçıları ölkədən qovmaq üçün Selevki çarı II Diametri Nikatordan kömək istədilər. Selevki çarı parfiyalılara qarşı mübarizədə atropatenalılara kömək göstərməyə söz verdi. Lakin Parfiya qoşunlarına qalib gəlmək mümkün olmadı. Təxminən e.ə. 139-cu ildə baş verən döyüşlərdə selevkilər məğlub oldular və parfiyalıların Atropatenadakı ağalığı daha da gücləndi (68). Atropatena Parfiyanın əyanları tərəfindən idarə edilsə də ölkə daxili müstəqilliyini qoruyub saxlaya bildi.

E.ə. 130-cu illərdə Selevki hakimləri regionda itirməkdə olduqları mövqelərini bərpa etmək üçün parfiyalıların üzərinə hücum etdilər. Bu dəfə selevkilər daha böyük qoşun toplaya bildiklərindən Parfiya qoşunlarını məğlub etdilər. Hətta Parfiya çarı ağır tələblər irəli sürən selevkilərlə danışıqlar aparmağa məcbur oldu. Ancaq, görünür, midiyalılar selevkilərin ağalığının regionda yenidən bərpa edilməsinin daha böyük zülm və istismara səbəb olacağını başa düşdükləri üçün onlara qarşı üsyan qaldırdılar və bu üsyan selevki qarnizonunun məhvi ilə nəticələndi (69). Bundan sonra parfiyalılar Atropatena üzərində öz təsirlərini yenidən bərpa edə bildilər.

E.ə. I əsrin əvvəllərində Ön Asiyada yaranmış tarixi şəraitdən istifadə edən bəzi qonşular bölgədə nisbətən möhkəmlənə bildilər. Ona görə Atropatenanın Sumbaka vilayəti də yad qüvvələr tərəfindən işğal edilmişdi (70).

E.ə. 69-cu ildə Lukullun rəhbərliyi altında Roma qoşunlarının bölgə üzərinə hücümü başladı. Onların bu hücumu gözlənilməz şəkildə baş verdi. Ona görə döyüş ərəfəsində bölgədə həm kifayət qədər qoşun (71), həm də kifayət qədər silah, geyim əşyaları və ərzaq toplanmamışdı (72). Bu ehtiyacların aradan qaldırılmasına yalnız döyüş ərəfəsində başlandı. Plutar-

xın yazdığına görə, qonşuların qoşun toplamaq çağırışına onun müttəfiqləri də səs verdilər və köməyə gələn qoşunlar içərisində atropatenalılardan təşkil edilmiş qüvvələr də var idi (73). Bəzi antik mənbələrdə romalılara qarşı müttəfiq qoşunlarının sayca çox olduğu, bəzi mənbələrdə isə sayca az olduğu göstərilir (74). Ancaq hər halda müharibəyə ciddi hazırlıq görülmədiyi göz qabağında idi. Bu da sözsüz ki, onun gedişinə təsir göstərdi. Həmin döyüşün uğursuzluğa düçar olmasının başlıca səbəbi isə erməni çarının döyüşü idarə edə bilməməsi və çox kobud taktiki səhvlər buraxması ilə bağlı idi. Kəşfiyyat işi yaxşı təşkil edilmədiyi üçün düşmənin nə sayı, nə yerləşdiyi mövqeləri, nə də ki, döyüşdə izlədiyi konkret niyyətləri haqqında məlumat var idi. Buna görə də çox asanlıqla rolmalıların hiylələrinə aldanaraq həm öz hissələrini, həm də müttəfiqlərin qoşun hissələrini gözlənilməz zərbə altına qoydu. Döyüş meydanının əvvəlcədən öyrənilməməsi də döyüşün tez bir zamanda əks nəticələrlə sona çatmasına yol açdı.

Döyüşün uğurla başa vuurulması üçün qoşunların döyüşqabağı düzülüşü aparıldı (75). Sol cinahda Adiabena çarı, sağ cinahda isə Atropatena hökmdarı qoşunlara rəhbərlik edirdi. Atropatena çarının rəhbərlik etdiyi sağ cinahda ağır süvari dəstələri, ardınca piyadalar hərəkət edirdilər (76). Görünür, müttəfiq qoşunlarının ciddi bir döyüş planı olmadığından daha çox ümidlərini təsadüfən yaranacaq uğurlara bağlayırdılar. Romalılır isə ilkin olaraq atlı dəstələrini döyüşə atmaq və bununla da müttəfiq qoşunlarının diqqətini yayındıraraq piyadaların vasitəsilə arxadan onlara güclü zərbə vurmaq istəyirdilər. Bunun üçün onlar coğrafi şəraitdən məharətlə istifadə edə bilmişdilər. Piyada qoşunları təpəliklərin arxası ilə hərəkət edib müttəfiq qoşunlarının arxasına çıxa bilmişdilər. Roma atlıları döyüş meydanında müttəfiq qoşunları ilə qısa müddət döyüşdükdən sonra qəsdən geri çəkilməyə başladılar. Xeyli geri çəkiləndən sonra onları qabaqlamağa çalışan sağ cinahın dəstələri ilə döyüşə girsələr də əsas zərbə Roma qoşunları tərəfindən müt-

təfiq qoşunlarının arxasına vuruldu və elə həmin zərbə də döyüşün taleyini həll etdi (77).

Müttəfiq qoşunları məğlubiyyətə uğrasalar da müqaviməti tamamilə dayandırmadılar. Yenidən qoşun hissələri toplandı və ilk döyüşdə seçilən taktika səmərəsiz olduğundan yeni taktikaya əl atıldı. E.ə. 68-67-ci illərdə romalılırla aparılan növbəti döyüş də iberlərdən, mardlardan və atropatenalılardan ibarət müttəfiq qoşunları (78) üzücü müdafiə taktikasını seçdilər. Əsas qüvvələrin döyüşə girməsi hər vasitə ilə uzadılırdı (79). Roma qoşunları təqiblərə uyaraq əsas bazalardan uzaq düşdü və müttəfiqlərin uğuru üçün yaxşı şərait yarandı. Bu döyüşdə Roma qoşunları ciddi məğlubiyyətə uğradı və vəziyyətin düzəldilməsi üçün Roma sərkərdəsi Lukull Romaya geri çağırıldı.

Mənbələrin verdiyi məlumata görə bu uğurlu döyüşdən qabaq qarşı tərəfin qoşunlarında bəzi dəyişikliklər həyata keçirildi və qüvvələr Roma qoşunları nümunəsində qruplaşdırdı (80). Məlumdur ki, Roma qoşunları dövrünün ən güclü qoşunlarından biri idi və onun hərbi təcrübəsinin Ön Asiya dövlətlərinin qoşunlarına, o cümlədən də Atropatena qoşunlarına təsiri də şübhəsizdir.

Roma qoşunları üzərindəki qələbədən həvəslənən müttəfiq qoşunları Kappadokiya üzərinə də hücum etdilər və növbəti qələbəni qazandılar. Həmin döyüşdə atropatenalılar da yüksək döyüşçü keyfiyyətlərini nümayiş etdirə bildilər (81).

E.ə. 66-cı ildə Roma qoşunları yenidən bölgəyə hücum etdi və qələbə əldə etdi. Müttəfiqlərin bu məğlubiyyətindən sonra Parfiya yenidən regionun ən qüdrətli dövlətinə çevrildi. O vaxtlar Atropatena ilə Parfiya arasındakı münasibətlər normallaşmağa başladı. E.ə. 53-cü ildə Karra şəhəri yaxınlığında Parfiya ilə Roma qoşunları arasında baş verən və Romanın ağır məğlubiyyəti ilə başa çatan döyüşdə atropatenalıların da parfiyalıların müttəfiqi kimi çıxış etməsi güman edilir (82). Atropatenalıların parfiyalılarla ittifaqda romalılara qarşı apardığı böyük döyüşlərdən biri də e.ə. 36-cı ildə olmuşdu. Bu döyüş

romalıların Ön Asiyada itirməkdə olduqları nüfuzlarını geri qaytarmaq üçün parfiyalılara güclü zərbə vurmaq məqsədi daşıyırdı. Qarşıya qoyulan məqsədə çatmaq üçün Roma sərkərdələrəi 100 minədək qoşunla döyüşə hazırlaşmışdılar. Onlardan 60 mini piyada, 10 mini süvari və 30 mini asiyalılardan ibarət köməkçi qoşunlar idi (83). Romalılar artıq yaxşı başa düşürdülər ki, Parfiyanı məğlub etmədən Asiyada öz ağalıqlarını təmin edə bilməyəcəklər. Onun üçün də bu döyüşə müəyyən hazırlıq işləri aparılmışdı. Hər şeydən əvvəl e.ə. 53-cü ildə Karr şəhəri yaxınlığında baş verən döyüşün nəticələri ətraflı öyrənildi. Həmin döyüşdə romalıların cəmi 4 min atlısı var idi (84). Parfiya tərəfində isə atlılar çox idi və onlar Roma legionları ilə müqayisədə həm çevik, həm də güclü zərbə qüvvəsinə malik idilər. Döyüşün gedişində də bu cəhət özünü göstərmişdi. Bundan başqa romalılar üçün böyük təhlükə olan Parfiya oxatanları ilə səmərəli mübarizə aparmaq üçün sapandatanların sayı da artmışdı (85). Romalıların bu döyüşə ağır texnika da cəlb etməsi məlumdur. Görünür, romalılar parfiyalıların və onların müttəfiqi olan atropatenalıların şəhərlərinin möhkəm istehkam divarları ilə əhatə olunduğuna da yaxşı bələd idilər və həmin divarların dəf edilməsi üçün də çox güclü texnikanı döyüşə cəlb etmişdilər. Doğrudur, bu texnikadan istifadə etmək romalılara qismət olmadı. Ancaq belə çoxlu saylı texnikanın cəlb edilməsinə görə güman etmək olar ki, Parfiya və Atropatenada da şəhərlərin mühasirəsinə qarşı mübarizə taktikasının vərdişlərinə yiyələnmişdilər.

Parfiya və Atropatenada da bu döyüşə müəyyən hazırlıq işləri aparılırdı. Atropatenadan bu döyüşə 16 min atlının iştirak etməsi nəzərdə tutulmuşdu (86). Atropatenalıların bu sayda olan atlı dəstəsi də romalılar üçün böyük təhlükə təşkil edilirdi. Çünki romalılar artıq atropatenalı atlıların mahir döyüşçülər olduğunu yaxşı bilirdilər (87).

Plutarxın yazdığına görə, Atropatena atlılarının silah və əsləhələri parfiyalılarınkına oxşayırdı (88). Qeyd olunmalıdır

ki, Parfiya atlıları da istər texniki təchizat baxımından, istərsə də taktiki hazırlıq baxımından çox böyük imkanlara malik idilər. Ona görə də atropatenalıların müttəfiqi olduqları parfiyalıların təcrübəsindən istifadə etmələrini istisna etmək olmaz. Nəzərə almaq lazımdır ki, Plutarx Atropatena süvarilərinin silah və sləhəsini Parfiya süvarilərinin silah və əsləhəsi ilə eyni olduğunu yox, oxşarı olduğunu qeyd edir. Buradan da məntiqi olaraq belə bir nəticəyə gəlmək olar ki, Atropatena atlıları parfiyalıların silah və əsləhəsindən yox, onların oxşarı olan və özləri istehsal etdikləri silah və əsləhədən istifadə edirdilər.

Parfiya atlı qoşunları iki qoşun qisminə bölünürdülər: yüngül və ağır atlılar. Ağır atlı qoşunların əsas zərbə qüvvəsini təşkil edirdilər. Bu qoşun növünün döyüşçüləri dəmir həlqədən ibarət olan zirehli paltar geyinirdilər. Bu zirehli geyim Parfiya atlılarının hərəkət sərbəstliyinə ziyan yetirmədən onları düşmən silahlarından etibarlə şəkildə qoruyurdu. Ağır atlılar da zirehli geyimə bürünürdülər. Atlılar nizə və qılıncla silahlanırdılar. Parfiyalıların oxu Roma qoşunlarının mühafizə qalxanlarını asanlıqla yarıb keçirdi. Döyüşə yollanarkən yüngül atlı qoşunlarını çoxlu sayda ox yüklənmiş dəvə karvanı müşayət edirdi. Döyüşü atətən yüngül atlılar başlayırdı. Onlar düşmənləri ox yağışına tutur, sonra da geri çəkilib ağır atlıları irəli buraxırdılar. Yüngül atlıların ox yağışından sıraları seyrələn düşmən ağır atlılrın zərbəsindən daha böyük itkilərə məruz qalırdılar (89).

Tarixçilər romalıların döyüşə hazırlıq ərəfəsində yol verdiyi ilk səhvlərdən birini onların öz hərəkət marşrutlarını düzgün seçməmələri ilə bağlayırlar ((90). Antoni öz qoşunları ilə Parfiyaya ən qısa yolla deyil, başqa ərazidən keçərək getməyi qərara almışdı. Ola bilsin ki, Antoni bu qərara gəlməklə həm Parfiyaya qarşı daha böyük strateji əhəmiyyət kəsb edən mövqeləri ilkin olaraq ələ keçirməyə, həm də öz müttəfiqləri ilə fəaliyyət planlarını nizamlamağa üstünlük verirdi. Hər halda

döyüşün sonrakı gedişi göstərdi ki, bu məsələdə Antoni qəbul etdiyi qərarın nə ilə nəticələndiyini yaxşı fikirləşməmişdi və bununla da Parfiya-Atropatena ittifaqı ilə mübarizədə uğursuzluğun təməlini qoymuşdu.

Antoni özünə etibarlı müttəfiq də seçə bilməmişdi. Döyüşdə o, erməni qüvvələrinə müəyyən ümid bağlasa da erməni çarı döyüşün ən qızğın vaxtında Antonini tək edərək döyüş meydanından qaçdı (91). Antoni onun bu döyüşdə hansı mənafelər güddüyünü və hansı planlara malik olduğunu özü üçün açıqlaya bilməmişdi. Buna görə də Parfiya üzərinə hücümün marşrutunun Atropatenadan keçməsinin hansı nəticələrə gətirib çıxaracağını da götür-qoy etməmişdi. Plutarx Roma müttəfiqlərinin hakimini ikiüzlü və fırıldaqçı adlandırırdı (92). Çünki o, Atropatena torpaqlarını da tutmaq üçün məkrli planlar hazırlayırdı (93).

Döyüşə hazırlıq ərəfəsində Antoninin yol verdiyi kobud səhvlərdən biri də bu döyüşün başlanması vaxtının düzgün müəyyənləşdirilməməsi idi. Məlumdur ki, qədimdə döyüşlərin çoxu mövsümü xarakter daşıyırdı. Yəni döyüşlər adətən əlverişli hava şəraitində, isti mövsümlərdə aparılırdı. Roma qoşunlarının sərkərdələri də qışı bölgədə keçirib havalar qızanda Parfiyaya hücum etməyi məsləhət görmüşdülər (94). Ancaq Antoni sərkərdələrinin məsləhətini qəbul etmədi və hava şəraitinin pisliyindən asılı olmayaraq Parfiya-Atropatena üzərinə hücum etməyi qərara aldı (95). Bu isə döyüş vaxtı Roma döyüşçülərinin fiziki keyfiyyətlərinə, onların təminat məsələlərinin həll edilməsinə pis təsir göstərdi. Döyüşün sonunda Antoni özü də vaxtın düzgün seçilmədiyini başa düşdü və qışın yaxınlaşması ilə əlaqədar olaraq döyüşün uduzulmasının onun xeyrinə olmadığını anladı (96).

Qoşunların döyüşqabağı səfər tərtibində də Antoni tərəfindən əsaslandırılmamış yayınmalara yol verilmişdi. Yol şəraitinin pisliyi nəzərə alınmadan səfər düzülüşünün müxtəlif hissələri bir-birindən xeyli aralı düşmüşdü. Hissələr arasında

əlaqələr itmiş və hətta qoşun rəhbərliyin nəzarətindən kənarda qalmışdı. Fraaspa şəhərinin üzərinə hücuma keçərkən Roma qoşunlarının mühəndis-istehkam hissələri əsas qüvvələrdən xeyli geridə qalmışdı.

Roma qoşunları Parfiyaya doğru yürüşləri zamanı Atropatena çarlarının "yay paytaxtı" olan Fraasp şəhərini mühasirəyə aldılar. Ola bilsin ki, Fraaspın tutulmasının Antoni üçün müəyyən hərbi əhəmiyyəti ola bilərdi. Ancaq Antoniyə yaxşı məlum idi ki, əsas döyüş Fraaspda yox, Parfiya ərazisində, müttəfiq qoşunlarının əsas qüvvələrinin toplaşdığı ərazidə olacaq. O tezliklə Fraaspı tutub irəliləmək fikrində idi. Bu planın asanlıqla həyata keçəcəyinə Roma sərkərdələri o qədər əmin idilər ki, hətta qaladağıdan maşınların arxada qalmasından da narahat olmamışdılar. Əsas döyüş ərəfəsində Atropatenanın böyük şəhərlərindən birinin işğalı Roma və onun müttəfiqlərinin qoşunlarının əhval-ruhiyyəsinə, həm də maddi həvəsləndirilməsinə müsbət təsir göstərə bilərdi. Ancaq Parfiya qoşunlarının döyüş strategiyasının, xüsusən e.ə. 53-cü ildə Karr yaxınlığındakı əməliyyat strategiyası belə bir qənaətə gəlməyə əsas verir ki, Fraasp yaxınlığında qoşunların üzbəüz dayanmasını Parfiya və Atropatena itifaqı da istəyirdi. Çünki əsas qüvvələrlə rastlaşana qədər müdafiəyə keçmək, düşmən qüvvələrini yorub əzmək, xırda zərbələrlə ona ağır itki yetirmək əvvəlki döyüşdə Parfiyalılara üstünlük gətirmişdi. Parfiya və Atropatena sərkərdələri bu döyüşdə də belə bir strategiyanı əsas tutmuşdular. Heç şübhəsiz ki, Fraaspda müttəfiqlərin əsas qüvvələri yerləşmirdi. Ancaq bu şəhərin möhkəmləndirilməsinə xüsusi hazırlıq aparılmışdı. Divardağıdan maşınların geridə qalması üzündən Roma sərkərdələri divarların ətrafında səngərlər qazdırıb (97) istehkam maşınlarının gəlməsini gözləyirdilər. Roma qoşunlarının bir hissəsinin əsas qüvvələrdən ayrı düşməsi xəbərini eşidən Parfiya çarı IV Fraat atropatenalıların da daxil olduğu 40-45 minlik böyük bir dəstə ilə onların üstünə hücum etdi (98). Müttəfiq qoşunları bu hücumları za-

manı qarşılarına qoyduqları məqsədə çətinlik çəkmədən nail oldular. 10 minlik Roma qoşunları tamamilə məhv edildi, istehkam maşınları dağıdıldı, Pont çarı Polemon əsir düşdü (99).

Arxada qalan hissələrin hücuma məruz qaldığı xəbərini eşidən Antoni onlara dərhal kömək çatdıra bilmədi. Çünki bəzi mənbələrin verdiyi məlumata görə, Fraasp şəhərini mühasirəyə aldıqdan sonra əsas atlı dəstələri öz atlarını otlamaq üçün Fraasp şəhərindən bir günlük məsafədə olan otlaqlara göndərmişdilər (100). Buna görə də Antoninin çevik şəkildə praktiki hərəkət etmək imkanı məhdudlaşmışdı. Hər halda Antoni istehkam hissələrinin mühasirəyə düşdüyü məntəqəyə hərəkət edib orada öldürülmüş əsgərlərdən və sındırılmış istehkam maşınlarından başqa heç nəyə rast gəlmədi.

Fraasp şəhəri möhkəm müdafiə divarlarına malik olmaqla həm də əlverişli coğrafi şəraitə malik idi və ona görə də istehkam maşınları məhv olandan sonra Antoninin qoşunları üçün onu almaq artıq çox çətin idi. Romalılar güman edirdilər ki, şəhərin müdafiəçiləri mühasirəyə davam gətirməyib məğlub olacaqlar. Fraaspın müdafiəçiləri isə romalıların mühasirəni uzatmağa tab gətirməyəcəklərinə ümid edirdilər. Ona görə də müttəfiq qoşunları fəal müdafiə döyüşlərinə keçmişdilər. Onlar müdafiə mövqelərini möhkəmlətməklə döyüşün uzanmasına, düşmən qüvvələrinin əldən düşməsinə çalışır və eyni zamanda kiçik qruplarla düşmən dəstələri üzərinə hücum edib onları məhv edirdilər. Başlıcası isə müttəfiq qoşunları romalıların geriyə hərəkət edə biləcəkləri yolu artıq nəzarət altına götürmüşdülər (101). Bununla da Roma qoşunlarının əsas zərbə qüvvəsinin arxa ilə əlaqələri kəsilmişdi və onların təminat məsələlərində böyük problemlər ortaya çıxmışdı (102), ərzaq çatışmazlığı duyulurdu.

Antoni yaranmış çətinliklərdən çıxış yolu tapmaq üçün qoşunların böyük bir hissəsi ilə yaxın yaşayış məntəqələrinə hücum edib həm qoşun üçün ərzaq, həm də atlar üçün yem tapmaq qərarına gəldi (103). Ola bilsin ki, müttəfiq qoşunları ro-

malıların hərəkətlərini izləyirdilər, onların yerdəyişmələrini nəzarət altında saxlayırdılar. Sözsüz ki, romalıların ərzaq tapmaq üçün getdikləri vaxt müttəfiqlərin atlıları ilə rastlaşmaları da bununla bağlı idi. Doğrudur, Plutarx ancaq müttəfiq qoşunlarının itkilərini xüsusi qabarıqlaşdırır (104). Ancaq heç şübhəsiz artıq əldən düşməkdə olan Roma qoşunları da itkilərə məruz qalmışdı. Ümumiyyətlə, bu döyüş barədə yazan tarixçilərdən bəziləri Plutarxı hadisələrin təsvirində birtərəfli mövqe tutmasında günahlandırırdılar (105). Məsələn, Plutarx romalıların 17 kiçik qələbə qazandığını qeyd edirsə, tarixçilər bunun əksini, yəni romalıların Atropatena ərazisinə daxil olduğu vaxtdan başlayaraq 17 dəfə hücumlara məruz qaldığını güman edirlər (106). Bu güman həqiqətə daha yaxındır. Çünki Roma qoşunları Atropatena ərazisində hərbi təşəbbüsü ələ ala bilməmişdi. Müttəfiq qoşunları düzgün taktika seçərək düşmən qüvvələrinin zəif həlqələrini düzgün tapa bilir, onların qüvvələrini hissə-hissə məhv edirdilər.

Atropatena və Parfiya qoşunlarının aramsız hücumları Roma qoşunlarına böyük itki yetirməklə bərabər, onları mənəvi cəhətdən də sarsıtmışdı. Döyüşçülərin əhval-ruhiyyəsi xeyli zəifləmişdi. Bu hal nizam və intizamın aşağı düşməsinə də öz təsirini göstərirdi. Antoni qoşunların ölgünləşməsinin qarşısını almaq üçün Romada çox qədimdə mövcud olmuş cəza tədbirlərinə əl atdı. O, döyüşçüləri sıraya düzərək hər on nəfərdən birinə qətl fərmanı verdi (107). Beləliklə, Antoni intizamsızlıq göstərmiş hərbi dəstəni cəzalandırmaqla başqa döyüşçülərə dərs vermək üçün cəhd göstərsə də əslində döyüşlərin taleyi artıq həll olunmuşdu və qələbə çalmaq üçün artıq heç bir şans qalmamışdı. Qışın yaxınlaşması təchizat və fəaliyyət məsələlərini xeyli çətinləşdirmişdi. Antoninin döyüş planlarından əl çəkmək və geri dönməkdən başqa bir çarəsi qalmamışdı. Bunun üçün o müttəfiq qoşunları ilə danışıqlara başladı. Parfiya çarı romalıların nümayəndələrini qəbul edib onlara toxunmayacağına söz verməklə Atropatena ərazisini tərk etmələri

razılığına gəldilər. Ancaq Parfiya çarı Roma qoşunlarını məhv etmək niyyətindən əl çəkməmişdi (108). Parfiya çarı Roma qoşunlarının geriyə hərəkəti zamanı onların üzərinə mütəmadi olaraq hücumlar təşkil etməyi, pusqular qurmağı planlaşdırırdı. Görünür Antoni də geri çəkilərkən müttəfiq qoşunlarının onları sakit burxmayacağını hiss etmişdi və buna görə də Atropatenaya gəldiyi yolla deyil, başqa bir yolla geri çəkildi (109). Bir kürd bələdçisinin könüllü olaraq Roma qoşunlarının başqa bir yolla başqa istiqamətlə aparması da (110) romalıları təhlükədən xilas etmədi. 27 gün ərzində çətin, susuz dağ yolları və soyuq hava şəraitində həyata keçirilən geriçəkilmə zamanı müttəfiq qoşunlarının mahir oxatanları (111) və atlıları (112) romalılardan əl çəkmədilər. Araz çayınadək olan yol boyu Roma qoşunları müttəfiqlərin 20-dək basqınlarına məruz qaldı (113). Bu basqınlar Roma qoşunlarını elə bir vəziyyətə saldı ki, hətta Antoni müttəfiq qoşunlarının əlinə keçməmək üçün intihar etmək dərəcəsinə çatmışdı. O öz mühafizəçilərindən birinə tapşırdı ki, Roma qoşunlarının məhv olmaq təhlükəsi reallaşarsa onun da başını kəssinlər ki, düşmən əlinə keçməsin (114).

Antoninin uğursuzluqla başa çatan hərbi yürüşü Atropatena ərazisində 35 minədək Roma döyüşçüsünün məhvi ilə nəticələndi (115). Bu, Roma qoşunlarının Ön Asiyada ikinci böyük məğlubiyyəti idi. Onun belə nəticələrlə başa çatmasında Atropatena döyüşçülərinin, sərkərdələrinin və bütünlükdə xalqın da öz payı var idi. Atropatena döyüşçüləri bu ağır sınaqdan məharətlə çıxdılar və bir daha böyük hərbi təcrübəyə və səriştəyə malik olduqlarını nümayiş etdirdilər.

Roma qoşunlarının və onun müttəfiqlərinin darmadağın edilməsi nəticəsində xeyli qənimət ələ keçirildi. Həmin qənimətlər Parfiya ilə Atropatena arasında bölüşdürüldü. Statianın dəstəsinin məhvi zamanı ələ keçirilmiş Roma bayraqları və əsir götürülmüş Pont çarı Atropatenanın payına düşdü (116). Bəzi tarixçilərin fikrincə, ələ keçirilən qənimət bölüşdürülərkən Atropatena və Parfiya çarları arasında müəyyən mübahisə də düş-

müşdü. Atropatena hökmdarı bu narazılıqların gələcəkdə daha da genişlənərək Parfiyanın onlara qarşı çıxacağı gümanını yaratmışdı. Bu təhlükənin qarşısının alınması üçün Atropatena hökmdarı hətta Parfiyaya qarşı Roma ilə ittifaqa girməyi qərara aldı (117). Əslində isə heç şübhəsiz ki, Atropatena hökmdarı Parfiyanın regionda daha da güclənməsindən və onun gələcəkdə Atropatenanın müstəqilliyinə təhlükə yaradacağından ehtiyat edirdi və ona görə də Roma ilə ittfaqa girməyi qərara almışdı.

Atropatena hökmdarı Artavazdın hərbi ittifaq yaratmaq üçün Antoniyə müraciət etməsi onu çox sevindirdi (118). İki dəfə ağır məğlubiyyətə uğrasalar da Roma sərkərdələri dünya ağalığı iddiasından əl çəkməmişdilər və ona görə də vəziyyətlərinin düzəldilməsi üçün yollar axtarırdılar. Atropatena ilə ittifaq Antonini hər şeydən əvvəl ona görə maraqlandıprırdı ki, Parfiyanın atlı qoşunları ilə mübarizə üçün atropatenalıların mahir atlı dəstələrinin döyüş imkanlarından istifadə edə biləcəkdi (119).

E.ə. 35-ci ildə Antoni ilə Artavazd arasında hərbi ittifaq müqaviləsi bağlandı. Ancaq Romanın daxilində olan qeyri-sabitlik üzündən hakimiyyət dəyişiklikləri, onların Ön Şərq ölkələrinin işğalına birmənalı yanaşmamaları, habelə Atropatena hakimlərinin sabit siyasət yeridə bilməməsi nəticəsində Roma ilə olan hərbi ittifaq Atropatena dövlətinin təhlükəsizliyi üçün etibarlı zəmin olmadı. Doğrudur, ittifaq yarandı, sonra regionda aparılan döyüşlər nəticəsində Atropatena öz ərazilərini müəyyən vaxtlarda genişləndirməyə nail oldu (120). Lakin bu uğurlar sabit ictimai-siyasi və hərbi əsaslara malik deyildi və ona görə də miladın 20-ci illərində Atropatena Parfiyanın Arşakilər sülaləsinin kiçik qolunun hakimiyyəti altına keçdi və Atropatenanın müstəqil dövlət kimi mövcudluğuna son qoyuldu. Ölkənin silahlı qüvvələrinin say və keyfiyyət nisbətinin Parfiya qoşunlarını üstələyə bilməməsi Atropatenanın Arşakilər sülaləsinin hakimiyyəti altına düşməsinə gətirib çıxardı. Bu amil, yəni Atropatenanın qoşunlarının miqdarı dövlətin strategi-

yasına da öz təsirini göstərirdi. Qonşu dövlətlərin, eləcə də Atropatenanın ərazilərinə göz dikən dövlətlərin qüvvələri ilə müqayisədə Atropatenanın qüvvələr üstünlüyünə malik olmaması dövlət mənafelərinin qorunması üçün başqa vasitələrdən də səmərəli istifadə olunmasını tələb edirdi. Doğrudur, Strabon Atropatenanın 40 min piyada, 10 min atlı qoşun toplamağa gücü çatdığını qeyd edirdi (121). Ancaq antik müəllif onu da göstərirdi ki, atropatenalıların güclü qonşuları var idi-qonşu dövlətlər tez-tez onların ölkəsini viran edirdilər. Bu sətirlər bir daha onu sübut edir ki, atropatenalılar güclü qonşularla əhatə olunmuşdu. Ona görə də Atropatenanın hakimləri ölkənin xeyrinə olmayan qüvvələr nisbətini neytrallaşdırmaq üçün səmərəli xarici siyasət yeritməyə, hərbi ittifaqlara girməyə çalışırdılar.

## 5. Hərbi strategiya və taktika

Məlumdur ki, Atropatenanın hökmdarları Atropatenanın qoşunlarının baş komandanı idilər və dövlətin strategiyasının formalaşmasında aparıcı rol onlara məxsus idi. Ölkənin müdafiəsinin əsas məsələləri, qoşunların sayının müəyyənləşdirilməsi, onun komplektləşdirilməsi, müharibəyə hazırlıq, onun aparılması vaxtının və yerinin təyin edilməsi, maddi təminatın hazırlanması, sərkərdələrin təyin edilməsi, qonşu dövlətlərlə, müttəfiqlərlə münasibətlərin müəyyənləşdirilməsi, hərbi danışıqların aparılması hökmdarların səlahiyyətinə aid idi. Hökmdarların döyüşlərdə şəxsən iştirak etmələri döyüşün taktikasının müəyyənləşməsinə ciddi təsir göstərirdi. Vuruşlar zamanı hadisələrin ən mərkəzində dayanan və çox zaman da əlbəyaxa döyüşlərdə iştirak edən çarlar hansı döyüş növünün seçilməsini, döyüşqabağı düzülüşü, hansı qoşun növünün harada, konkret hansı vəzifəni yerinə yetirəcəyini, bu döyüşün gedişində bu və ya digər taktikanın seçilməsi çarın göstərişi ilə ola bilərdi. Yəni əslində taktiki miqyasda idarəetmə məsələlərinə də çox zaman çar özü rəhbərlik edirdi. Çarın yanında hərbi idarəetmə apara-

tının olmasını da istisna etmək olmaz. Qoşunların ümumi komandanı, qoşun növlərinin komandanı, çarın hərbi məsələlər üzrə köməkçisi bu aparata daxil idi.

Təəssüf ki, məlumatların qıtlığı Atropatena çarının hərbi strategiyasının, qoşunların döyüş taktikasının mükəmməl mənzərəsini yaratmağa imkan vermir. Atropatena qoşunlarının iştirak etdiyi döyüşlər barədə yuxarıda verilən məlumatlardan belə bir qənaətə gəlmək olar ki, müharibənin aparıldığı konkret daxili və xarici şəraitdən, obyektiv və subyektiv amillərdən asılı olaraq yeri gəldikcə döyüşün hücum, müdafiə, üzbəüz döyüş kimi növlərindən istifadə olunurdu. Bu, Atropatena qoşunları sərkərdədəlrinin yaranmış hərbi şəraiti çevikliklə qiymətləndirmək və buna uyğun döyüş növünü seçmək qabiliyyətindən irəli gəlirdi. E.ə. 36-cı ildə Parfiya ilə ittifaqda Roma qoşunlarına qarşı müharibədə fəal strateji müdafiənin seçilməsi və onun müvəffəqiyyətlə başa çatdırılması atropatenalıların böyük təcrübə və nəzəri biliklərə malik olduğundan xəbər verir. Doğrudur, həmin müharibə parfiyalılarla ittifaqda aparılırdı. Lakin ayıdındır ki, qarşılıqlı fikir və əməl birliyi olmasaydı düşmünə qalib gəlmək olmazdı. Bu müharibədə dövr üçün xarakterik olmayan hərbi-strateji xətt tutulmuşdu. Əgər indiyə kimi aparılan müharibələrin taleyi əsas qüvvələrin qarşılaşdığı bir və ya bir neçə döyüşdə həll edilirdisə e.ə. 36-cı ildə Atropatena ərazisində romalılara qarşı aparılan müharibədə müttəfiq qoşunları məqsədyönlü şəkildə mümkün qədər əsas döyüşü yubadaraq güclü müdafiəyə keçmiş və xırda kiçik qüvvələrlə düşmən dəstələrinə zərbələr endirirdilər. Buna hazır olmayan düşmən qüvvələri qarşı tərəfin kiçik qrupları tərəfindən aldığı böyük itkidən sonra geri çəkilmək məcburiyyətində qaldı.

İstər bu müharibədə, istərsə də digər döyüşlərdə atropatenalılar atlı dəstələrə böyük əhəmiyyət verirdilər. İstər atların, istərsə də döyüşçülərin fiziki keyfiyyətləri, müasir silahlar atlı dəstələrinə gözlənilmədən, həm də böyük sürətlə manevrlər etmək imkanı verirdi. Xüsusən, xırda qruplarla düşmən üzərinə

yürüşlər təşkil edilməsində atlıların rolu böyük idi. İri miqyaslı dyüşlərdə isə qabaqda yüngül süvarilər, ardınca ağır süvarilər, sonra da piyadalar gedirdi.

Atropatena qoşunlarında müxtəlif qoşun növlərinin qarşılıqlı fəaliyyət vərdişləri, coğrafi şəraitdən məharətlə istifadə etmək bacarığı, qala döyüşləri təcrübəsi də yaxşı ənənəyə malik idi.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. История древнего востока. М., 1988, с.275

2. Дандамаев М.А. Иран при первых Ахеменидах. М., 1963, с.228

3. Дьяконов М.М. Александр и Диадохи / История древного мира. М., 1989, с.289

4.Плутарх. Александр XV. (Избранные жизнеописания. Т. II, М., 1990, с. 361-435).

5. Дьяконов М.М. Александр и Диадохи...

6. Шофман А.С. Восточная политика Александра Македонского. Казан, 1976, с. 45

7. Разин Е.А. История военного искусства. Т.I, М., 1955, с.220

8. Шофман А.С. Восточная политика Александра Македонского..., с.42-43

9. Плутарх. Александр XV I

10. Yenə orada

11. Курций Руф. История Александра Македонского. III, II, 9

12. Yenə orada, III, II, 4

13. Арриан. Поход Александра. II, 8 (8) (См: Арриан. Поход Александра. М-Л, 1962)

14. Курций Руф. История Александра Македонского. III, II, 1-5

15. Курций Руф. ... III, IX, 7

16. Шофман А.С. Восточная политика Александра Македонского..., с.74
17. Курций Руф. ... III, IX, 6
18. Ковалев С.И. История античного общества. М., 1937,с.320
19. Azərbaycan tarixi. Bakı, 1993, c.65
20. Дьяконов М.М. Александр и Диадохи...
21. Шофман А.С. Восточная политика Александра Македонского..., с.87
22. Курций Руф. ... IV, IX, 2
23. Плутарх. Александр XXXI
24. Курций Руф. ... IV, IX, 3
25. Курций Руф. ... IV, IX, 11
26. Курций Руф. ... IV, IX, 7
27. Курций Руф. ... IV, IX, 25
28. Курций Руф. ... IV, IX, 7
29. Арриан. Поход Александра. III, 306
30. Арриан. Поход Александра. III, 11
31. Курций Руф. ... IV, XII, 12
32. Арриан. Поход Александра. III, 14; Плутарх. Александр XXXII
33. Курций Руф. ... IV, XIII, 4
34. Шофман А.С. Восточная политика Александра Македонского..., с.101
35. Yenə orada, s.102
36. Yenə orada
37. Yenə orada, s.115
38. Алиев И. Очерк истории Атропатены. Баку, 1989, с.54
39.Шофман А.С. Восточная политика Александра Македонского..., с.123-124
40. Yenə orada, s.174
41. Всемирная история. Т. II, М., 1955, с.27-30
42. Дандамаев М.А. Мидия и Ахеменидская Персия /

История древнего мира. Т. II, М., 1989, с.129-145
43. Алиев И. Очерк истории Атропатены. Баку, 1989, с.55
44. История древнего мтра. Рассвет древних обществ. М., 1982, с.412
45. Страбон. XI, 13, 1 (Bax: Страбон. География в 17-ти книгах. М., 1964)
46. Страбон. XI, 13, 2
47. Yenə orada
48. Yenə orada, XI, 13, 3
49. Azərbaycan tarixi. Bakı, 1993, s.70
50. Yenə orada
51. Azərbaycan tarixi. I c., Bakı, 1961, s.61
52. Yenə orada, s. 57
53. Дьяконов И.М. История Мидии от древнейщих времен до конца IV века до н.е. М-Л, 1956, с.450-451
54. Yenə orada
55. Azərbaycan tarixi. I c., Bakı, 1961, c.62
56. История древнего востока. М., 1988, с.271
57. Yenə orada
58.Azərbaycan tarixi. Bakı, 1993, s.71
59. Страбон. XI, 13, 1
60. Azərbaycan tarixi. I c., Bakı, 1961, s.59
61. Страбон. XI, 13, 1
62. Алиев И. Очерк истории Атропатены. Баку, 1989, с.70
63. Yenə orada, s.70
64. Yenə orada, s. 69
65. История древнего мира. Рассвет древних обществ. М., 1982, с.389
66. Алиев И. Очерк истории Атропатены..., с.71
67.. История древнего мтра. Рассвет древних обществ. М., 1982, с.390
68. Azərbaycan tarixi. I c., Bakı, 1961, s.64

69. Всемирная история. Т. II, М., 1955, с.431
70. Azərbaycan tarixi. Bakı, 1993, s. 80
71. Разин Е.А. История военного искусства. Т.I, М., 1955, с.362
72. Манандян Я. А. Тигран второй и Рим. Ереван, 1943, с.142
73. Azərbaycan tarixi. Bakı, 1993, s. 81
74. Разин Е.А. История военного искусства. Т.I, М., 1955, с.362
75. Azərbaycan tarixi. Bakı, 1993, s. 81
76. Плутарх. Лукулл. XXVII
77. Разин Е.А. История военного искусства. Т.I, М., 1955, с.363
78. Алиев И. Очерк истории Атропатены..., с.85
79. Разин Е.А. История военного искусства..., с.364
80. Yenə orada
81. Манандян Я. А. Тигран второй и Рим..., с.65
82. Алиев И. Очерк истории Атропатены..., с.88
83. Амфитеатров А.В. Армения и Рим. Петроград, 1896, с. 268
84. Разин Е.А. История военного искусства..., с.400
85. Yenə orada, s.404
86. Плутарх. Антоний. L
87. Fazili A. Azərbaycanın qədim atrixi müasir İran tarixşünaslığında. Bakı, 1970, s. 106
88. Плутарх. Антоний. L
89. Разин Е.А. История военного искусства..., с.396-397
90. Алиев И. Очерк истории Атропатены..., с.92
91. Амфитеатров А.В. Армения и Рим..., с.270
92. Yenə orada, s.268
93. Алиев И. Очерк истории Атропатены..., с.92
94.Fazili A. Göstərilən əsəri, s. 102
95. Амфитеатров А.В. Армения и Рим..., с.268

96. Fazili A. Göstərilən əsəri, s. 105
97. Fazili A. Göstərilən əsəri, s. 103
98. Алиев И. Очерк истории Атропатены..., с.93
99. Плутарх. Антоний. XXXVIII
100. Fazili A. Göstərilən əsəri, s.103
101. Плутарх. Антоний. XXXIX
102. Yenə orada
103. Yenə orada
104. Yenə orada
105. Fazili A. Göstərilən əsəri, s.105
106. Yenə orada
107. Fazili A. Göstərilən əsəri, s. 105; Алиев И. Очерк истории Атропатены..., с.95
108. Алиев И. Очерк истории Атропатены..., с.95-96
109. Yenə orada
110. Амфитеатров А.В. Армения и Рим..., с.272
111. Yenə orada
112. Алиев И. Очерк истории Атропатены..., с.96
113. Yenə orada
114. Амфитеатров А.В. Армения и Рим..., с.273
115. Алиев И. Очерк истории Атропатены..., с.96
116. Yenə orada, s. 97
117. Fazili A. Göstərilən əsəri, s. 105
118. Fazili A. Göstərilən əsəri, s. 106; Алиев И. Очерк истории Атропатены..., с.98
119. Плутарх. Антоний. LII
120. Azərbaycan tarixi. Bakı, 1993, s.86
121. Страбон. XI, 13, 2

# V. ALBANİYANIN HƏRB TARİXİ

## 1. Albanların Roma işğalçılarına qarşı mübarizəsi

Azərbaycan xalqının hərb tarixində Albaniyanın özünəməxsüs yeri vardır. Bu dövlət Azərbaycanın şimal torpaqlarında adban tayfalarının əsasında miladdan xeyli əvvəl formalaşmağa başlamış və malik olduğu təbii-coğrafi şərait və iqtisadi inkişaf baxımından həmişə xarici dövlət və tayfaların basqınlarına məruz qalmışdı. Böyük maddi və canlı itkilər gətirən belə basqınlardan qorunmaq Albaniya dövlətinin təşəkkülünə təkan verməklə bərabər, burada hərb işinin təşkilini də sürətləndirirdi. Maraqlıdır ki, antik tarixdə albanların adı da ilk dəfə döyüşlərdə iştirak etmələri ilə bağlı olaraq çəkilir.

Məlumdur ki, e.ə. 331-ci ildə Əhəmənilər qoşunlarının makedoniyalılarla Qavqamel yaxınlığında baş verən döyüşündə bir çox tayfaların hərbi birləşmələri kimi albanların silahlı dəstələri də vuruşurdu. Özü də bu dəstələr kadusilərlə birlikdə Atropatın rəhbərliyi altında döyüşürdü. Təəssüf ki, antik mənbələrdə bu dəstələrin konkret fəaliyyəti barədə müfəssəl məlumat yoxdur. Ancaq böyük sərkərdə olan Atropatın rəhbərliyi altında midiyalıların da, kadusilərin də mahir döyüşçülər olduğu nəzərə alınarsa, onda albanların öz hərbi-döyüş keyfiyyətləri ilə həmin tayfalardan geri qalmadığı məlum olar. Çünki bu dəstələrin hərbi məharətləri bir-birindən kəskin surətdə fərqlənsəydi, onda döyüş zamanı onlar arasında səmərəli qarşılıqlı əlaqələr yaratmaq olmazdı. Digər tərəfdən, Qavqamel döyüşü Əhəmənilər dövlətinin varlığı üçün böyük əhəmiyyətə malik idi. Ona görə də makedoniyalılara qalib gələrək Əhəmənilər dövlətini süqutdan qurtarmağa çalışan Dara sözsüz ki, bu döyüşə ən bacarıqlı və hazırlıqlı dəstələr çıxarmışdı. Bundan belə bir qənaətə gəlmək olar ki, həmin ilə qədər onlar artıq

ciddi hərbi təcrübəyə malik idilər və bu təcrübəni qazanmağa imkan verən uzun bir tarixi yol keçmişdilər. Adi məntiq də onu sübut edir ki, heç bir hərbi təcrübəyə malik olmayan albanlar birdən-birə Qavqamel kimi böyük bir tarixi döyüşdə o dövrün ən qüdrətli qoşunlarından olan Makedoniya qoşunlarının qarşısına çıxarılmazdı. Ona görə təsadüfi deyil ki, tarixçilər albanların ilk ittifaqlarının meydana gəlməsini e.ə. I minilliyin ikinci yarısına aid edirlər (1). İqtisadi inkişaf, qarşılıqlı əlaqələrin güclənməsi alban tayfalarının yaxınlaşmasına və qovuşmasına kömək edirdi. Bunun nəticəsi idi ki, "qabaqlar hər müxtəlif dilli tayfanın öz hökmdarı" (Strabon – (2) olduğu halda, onlar vahid dövlətdə birləşərək bir çar tərəfindən idarə olunurdular. Albaniyada hərb işinin inkişafı üçün obyektiv baza olan təbəqəli cəmiyyətin və dövlətin mövcudluğunu artıq e.ə. IV əsrdən etibarən reallıq olduğu güman edilir (3). Vahid Albaniya dövlətinin təşəkkülünün isə e.ə. II əsrdə baş verdiyi qəbul edilir (4). Doğrudan da belə bir çarlıq olmasaydı e.ə. I əsrdə dünyaya meydan oxuyan Roma qoşunlarına qarşı mübarizə aparmaq da mümkün olmazdı.

Heç şübhəsiz ki, Roma qoşunları ilə üz-üzə gəlməzdən əvvəl də vahid Albaniya çarlığının qoşunları dövlətin ərazisini və mənafelərini qorumaq üçün regionun güclü dövlətləri ilə mübarizə aparmaq məcburiyyətində qalmışdı. Çünki varlanmaq, mal-dövlətə sahib olmaq ehtirası işğalçıları zəngin Albaniya ərazilərinə çəkib gətirirdi. Bu məqsədlə alban torpaqlarına yürüşlər edən massaget-sarmat tayfalarının, qonşu xalqların hücumlarının (5), Parfiya qoşunlarının (6) təcavüzünün qarşısını almaq səyləri alban tayfalarının daha sıx qovuşmasına kömək etməklə bərabər, hərb işinin inkişafına da zəmin yaradırdı. Ona görə də təsadüfi deyil ki, e.ə. I əsrdə Albaniyada artıq formalaşmış və hətta Roma qoşunları ilə bərabər səviyyədə döyüşməyə qüdrəti çatan qoşun mövcud idi. Alban qoşunlarıın silah və təchizatı da dövrünə görə müasir idi və heç də bölgə dövlətlərinin silah və təchizatından geri qalmırdı. Bu isə alban qoşun-

larının zərbə qüvvəsini xeyli artırırdı və bunun üçün də region-da alban qoşunlarının gücü ilə hesablaşmaq lazım gəlirdi (7).

Alban döyüşçülərinin Roma qoşunları ilə ilk dəfə üzləşməsi e.ə. 69-cu ilə təsadüf edir. Bölgədə yaşayan xalqları və tayfaların hərbi ittifaq yaradıb Kiçik Asiyanı nüfuz dairəsinə bölmək niyyəti Roma hakimlərinin bu regondakı maraqlarına cavab vermirdi və ona görə də bu hərbi ittifaqa qarşı Lukullun komandanlığı altında böyük bir qoşun göndərildi. Lukull əvvəlcə Kizik şəhəri yaxınlığında Pont çarı IV Mitridatın qoşunlarını məğlub edib Pont çarlığını işğal etdi. Çıxılmaz vəziyyətdə qalan IV Mitridat canını təhlükədən qurtarmaq öçön ermənilərin yanına qaçdı. Lukullun onu təhvil vermək tələbinə əməl edilmədikdə Roma sərkərdələri hücum etməyi qərara aldılar (8). Plutarxın yazdığına görə, bu hücum gözlənilmirdi (9) və ona görə  döyöşə hazırlıq da görölməmişdi. Bu höcumun yarada biləcəyi təhlükə nəzərə alındığı üçün idi ki, bölgə xalqları dərhal onun qarşısının alınmasına cəhd göstərdilər (10). Yaxın çarlıqlardan və tayfalardan xeyli sayda qoşun toplandı. Atropatenalılarla bərabər bir-biri ilə ənənəvi müttəfiqlik əlaqələrinə malik olan albanların və iberlərin qoşun dəstələri də Roma qoşunlarına qarşı mübarizə aparmaq üçün səfərbər oldular. Albanların da bu döyüşdə iştirak etməsinə çox güman ki, Roma qoşunlarının gələcəkdə albanlar üçün yarada biləcəyi təhlükənin qarşısının alınması istəyi səbəb olmuşdu. Belə bir təhlükənin qarşısı böyük ittifaqda daha asan alına bilərdi və ona görə də albanlar da başqa çarlıqlar və tayfalarla birlikdə Roma istilaçılarına qarşı mübarizə aparmağa razı olmuşdular.

Plutarx xəbər verir ki, Araz çayı vadilərindən olan azad dəstələrin hərbi qüvvələri də bu böyük ittifaqa qoşulmuşdular (11). Tarixçilərin fikrincə, bu tayfaların hərbi dəstələri də albanlarla birlikdə gəlmişdilər və onların arasında qarşılıqlı əlaqələr mövcud idi (12). Lakin istər alban hərbi dəstələrinin, istərsə də albanların yaxın əlaqələri olduğu güman edilən tayfaların hərbi dəstələrinin döyüşqabağı düzülüşdə hansı tərəfdə

mövqe tutduqları məlum deyildir. Atropatena çarının sağ cinahda komandanlıq etdiyini və midiyalıların da bu cinahda yerləşdiyini nəzərə alaraq güman etmək olar ki, midiyalılarla qədim hərbi əməkdaşlıq ənənələrinə malik olan albanlar da bu cinahda yerləşmişdilər. Ancaq bu, ehtimaldan başqa bir şey deyildir və bu barədə qəti bir fikir söyləmək çətindir.

Məlumdur ki, bu döyüşdə Roma qoşunları qalib gəldi. Lukull döyüş meydanından qaçan bəzi sərkərdələri (13) təqib etməyə başlasa da, bu işi başa çatdırmadı. Bir müddətdən sonra o, Romaya qayıtdı. E.ə. 66-cı ildə ön Şərqdə müharibə aparmaq Pompeyə tapşırıldı. Elə həmin ildə də o, bölgə üzərinə yürüş başladı. Bu yürüş uğurla başladı və tezliklə bölgənin bir sıra əraziləri romalıların nəzarəti altına düşdü (14). Bununla romalılar qarşılarına qoyduqları mühüm vəzifələrdən birini həll etdilər. Onların qarşısında dayanan başqa bir mühüm vəzifə isə Romaya qarşı barışmaz mövqe tutan Pont çarı Mitridatı təqib edib tutmaq və məhv etmək idi. IV Mitridat isə qaçıb Kolxidada gizlənmişdi və burada o, Roma qoşunlarına qarşı yeni qüvvələr toplamağa çalışırdı (15). O, müttəfiqlik əlaqələrində olduğu İberiya və Abaniya çarları ilə (16) dil taparaq onları Roma qoşunları ilə vuruşmağa inandıra bildi. Heç şübhəsiz ki, albanlarla iberləri Roma qoşunlarına qarşı vuruşmağa sövq edən təkcə Pont çarlığı ilə olan müttəfiqlik münasibətləri deyildi. Romalıların böyük saylı qoşunlarla bölgəyə gəlməsi işğalçılıq müharibəsini davam etdirəcəyinə, qonşu dövlətləri də özlərinə tabe edəcəklərinə şübhə yeri qoymurdu. Ərazilərinin bütövlüyünü saxlamaq istəyi isə albanları qəti addım atmağa, ölkəni ehtimal olunan təhlükədən qorumağa sövq edirdi.

Mitridatı tapmaq üçün Pompey Kolxidaya tərəf hərəkətə başladı. Onun yolu Albaniya ərazisindən keçməli idi və ona görə də Albaniya çarından hərəkət üçün razılıq alındı. Albanlar əvvəlcə romalıların hərəkaitinə razılıq verdilər. Çox cüman ki, Roma qoşunları Araz çayı vadisində dayandıqları ərazidən e.ə. 66-cı ilin noyabr ayının axırı, dekabr ayının əvvəlində hərəkətə

başladılar. Çünki onlar dekabr ayının ortalarında albanlarla iberlərin sərhədində hava şəraiti pisləşdiyindən qışı orada keçirmək qərarına gəldilər. Romalılar burada qışladıqları günlərdə alban qoşunları onların üzərinə hücuma keçdilər.

Kür çayının vadisində keçirilən bu döyüş Albaniya tarixində mühüm ictimai, hərbi-siyasi əhəmiyyətə malik idi. Bu döyüş həm də albanların hərbi təcrübəsinin zənginliyini, onların strateji və taktiki baxışlarının cilalandığını nümayiş etdirirdi. Maraqlıdır ki, Strabon albanların müharibə məsələlərnə qayğısızlıqla yanaşdığını qeyd etsə də (17), bu döyüş göstərdi ki, ümumdövlət mənafeləri naminə onlar hərbi təşəbbüsü ələ almaq üçün böyük qətiyyət nümayiş etdirməyə qadirdirlər. Albanlar onlar üçün gələcəkdə reallaşa biləcək (18) təhlükəni əvvəlcədən sovuşdurmaq strategiyasını seçdilər. Heç şübhəsiz ki, bunun üçün onlar daxili qüvvələri səfərbərliyə almış, qoşunların hazırlığına diqqət yetirmiş, zəruri maddi-texniki təchizat təmin edilmiş, düşmənin qüvvələrini müəyyənləşdirmək üçün kəşfiyyat işləri aparılmışdı. Ola bilsin ki, alban qoşunlarının hazırlıq səviyyəsi də çox yüksək olmuşdur. Bu da alban hakimlərinə Roma qoşunları üzərinə hücum etməyə əsas vermişdi. Albanlar hazırladıqları döyüş planının reallaşacağına şübhəsiz ki, əmin idilər. Yoxsa, onlar Roma qoşunları üzərinə hücum etməzdilər. Ancaq məlumdur ki, albanlar bütün səylərinə baxmayaraq həmin döyüşdə məğlub oldular, Pompeylə sülh bağlayıb geri qayıtdılar. Doğrudur, döyüş ərzində albanlar romalılara xeyli itki yetirə bilmişdilər. Lakin bu itki romalıların ümumi döyüş qüdrətinə ciddi təsir göstərə bilmədi və onlar bölgədəki müzəffər yürüşlərini davam etdirdilər.

Şübhə etmək olmaz ki, albanlar romalıların gücünü lazımınca qiymәiləndirməmişdilər. Döyüşün gedişinin təhlili göstərir ki, albanlar maraqlı taktiki üsullardan istifadə etmişdilər və əsas ümidlərini də seçdikləri planı gözlənilməz şəkildə həyata keçirəcəklərinə bağlamışdılar. Roma döyüşçüləri qarşılaşdıqları düşərgədə Saturnalı bayramının qarşılanması ilə məşğul

olduqlarından albanlar hücumun uğurla sona çatacağına ümid bəsləyirdilər (19). Lakin Plutarxın qeydlərindən məlum olur ki, albanlar bu niyyətlərinə hələ döyüşün əvvəlindən nail ola bilmədilər. Qoşunlarının mühafizəsini yaxşı təşkil edən Pompey albanların onlara doğru hərəkətini, Kür çayını keçməsini müşahidə etmiş və onları xeyli yaxına buraxmışdı (20). Görünür, daha böyük təcrübəyə malik olan Roma sərkərdələri albanların onların ərazisindən keçmələrinə razılıq alsalar da ehtiyatı əldən verməmiş və alban hərbi dəstələrinin ölkə daxilindəki yerdəyişmələrini nəzarət altında saxlamışdılar.

Antik müəlliflərin verdiyi məlumata görə, Albaniyanın ərazisində qışlamaq üçün Roma qoşunları üç böyük dəstəyə bölünmüş və bu dəstələrin hər biri ayrıca düşərgədə yerləşmişdilər. Bu düşərgələr bir-birindən müəyyən məsafədə yerləşmişdi. Alban qoşunlarına rəhbərlik edən çar Oroys bu düşərgənin hər birinin üzərinə ayrıca qoşun dəstəsi yeridilməsini planlaşdırırdı. Onun fikrincə, bu yolla Roma qoşunlarının düşərgələri arasındakı əlaqələri kəsmək və onları birləşərək güclü zərbəyə çevrilməsinin qarşısını almaq olardı. Bununla da albanlar romalıları ayrı-ayrılıqda məhv etmək taktikasını seçmişdilər.

Romalıların Kür sahilində yerləşən düşərgələrindən birinə sərkərdə Metell Keler, o birinə Luki Flakk, üçüncüsünə isə Pompey özü rəhbərlik edirdi (21). Qoşunların yerləşdikləri düşərgələr müdafiə üçün yaxşı hazırlanmışdı. Romalılar belə düşərgələri adətən düzbucaqlı şəklində qurub ətrafına müxtəlif istehkam qurğuları çəkirdilər. Buraya girib-çıxmaq üçün qapılar qoyulurdu (22) və sözsüz ki, həmin qapılar da döyüşçülər tərəfindən etibarlı şəkildə qorunurdu.

Plutarxın fikrincə, alban qoşunlarının sayı 40 minə yaxın idi (23). Döyüşə alban çarı Oroys özü rəhbərlik edirdi. Müəyyən edilmiş döyüş taktikasına müvafiq olaraq alban qoşunları da üç böyük dəstəyə bölünmüşdü. Hər dəstə romalıların bir düşərgəsi üzərinə hücum etməli idi. Mənbələrdə Roma qoşunlarının sayı göstərilmir. Şübhəsiz ki, onların sayı albanların

sayından az deyildi. Hətta Roma qoşunlarının istər canlı (24), istərsə də silah və texnika sarıdan (25) albanlardan üstün olduğu güman edilir. Buna görə də romalılar güclü müdafiə quraraq albanların müqavimətini qırmış, sonra da əks-hücuma keçərək onlara öz iradələrini qəbul etdirə bilmişdilər.

Pompey və onun sərkərdələri malik olduqları silah və hərbi texnikadan məharətlə istifadə edərək alban qoşunlarının həmləsini dəf etdilər və tətbiq etdikləri taktiki üsul vasitəsilə onları çıxılmaz vəziyyətə saldılar (26).

Alban qoşunları həm atlılardan, həm də piyadalardan təşkil edilmişdi. Onların dəqiq sayı barədə də qəti bir fikir söyləmək çətindir. Atlıların ümumən alban qoşunlarının dörddə birini təşkil etdiyindən (27) güman etmək olar ki, bu döyüşdə 10 minə qədər alban atlısı var idi. Alban atlıları mahir döyüşçülər kimi tanındığından (28) döyüşün sürətlə aparılması üçün ən başlıca ümid də onlara bağlanıla bilərdi.

Çar Oroysun başçılıq etdiyi dəstə Roma sərkərdəsi Metel Kellerin başçılıq etdiyi düşərgəyə hücum etməli idi. Oroysun bu düşərgəyə hücum etməsində başlıca məqsəd ondan ibarət idi ki, Kellerin düşərgəsində əsirlər saxlanılırdı və Oroys bu əsirləri qurtarmağa çalışırdı (29). O biri düşərgələr isə düşünülmüş plana görə Oroysun dəstələri ilə birlikdə hücuma başlamalı idilər (30).

Oroysun hücum etdiyi istiqamətdə gərgin döyüşlər getdi. Roma sərkərdəsi Keller Oroysun dəstəsinin hücumun davam gətirib onun müqavimətini qıra bildi. Ancaq, bu, Kellerə əlavə kömək gəldikdən sonra mümkün oldu. Döyüşün gedişində Pompeyin Kellerə silahlı kömək göndərməsindən (31) güman etmək olar ki, romalılar bu istiqamətdə albanların ciddi təzyiqi ilə qarşılaşmışdılar. Onlar yalnız əlavə qüvvələrlə bu təzyiqin qarşısını ala bildilər. Bununla da geri çəkilmək məcburiyyətində qalan Oroys nə döyüşdə qarşısına qoyduğu məqsədə, nə də əsirlərin azad edilməsinə nail oldu.

Luki Flakkın rəhbərliyi altında olan Roma qoşunları da döyüşün başlanğıcında albanların güclü zərbəsi altına düşdülər.

Onlara qarşı vuruşan alban döyüşçüləri çevik hərəkətləri və qüvvətli zərbələri ilə romalıları hətta geri çəkilməyə məcbur etdilər. Yaranmış vəziyyətin romalılar üçün ağır nəticələrə gətirib çıxaracağını görən Luki Flakk fənd işlətdi. O, düşərgəni əhatə edən geniş çuxur boyu az qüvvə ilə səmərəli müdafiə zolağı yaratmağın mümkün olmadığını gördüyündən düşərgənin daxilində daha bir müdafiə çuxuru qazdırdı. Sonra romalılar qəsdən geri çəkilərək albanları da öz arxalarınca apara bildilər (32). Onlar daha əlverişli mövqe tutmuş romalıların güclü zərbəsi altına düşərək məğlub oldular.

Pompeyin rəhbərlik etdiyi düşərgənin döyüşçüləri də albanların hücumlarının qarşısını ala bildilər. Tarixçilərin fikrincə, Pompeyin düşərgəsi döyüşə daha gec qoşulmuşdu. Roma sərkərdəsi o biri düşərgələrə hücum xəbərini eşidən kimi dərhal hazırlıq işarəsi verdirdi. O, dəstəsi ilə birlikdə Kellerə kömək etməyə yollandı. Lakin, Kürün sahilində Pompey onun üstünə gələn alban dəstələri ilə rastlaşdı, onların Kürdən keçməsini müşahidə etdi. Sonra döyüşə başlayaraq onları məğlub etdi və sonra o biri dəstələrin köməyinə yollandı.

Albanların hakimi Oroys romalıların müqavimətini qırmağın mümkün olmadığını və döyüşün uğursuzluqla nəticələcəyini görüb Pompeyə sülh təklif etdi. Ola bilsin ki, əsas məqsədi ilk növbədə İberiyaya yürüş olan Pompey əlavə itkilərə yol verməmək üçün Oroysun sülh təklifinə razı oldu və çox güman ki, qışı Kür sahilində keçirdikdən sonra İberiyaya istiqamət götürdü.

Romalılarla sülh bağlansa da döyüşün uğursuzluğu albanların iradəsini qıra bilmədi. Qısa müddət ərzində albanlar yenidən öz qüvvələrini bərpa etdilər, iri miqyaslı döyüş üçün hazırlıq işləri gördülər. Bu onu göstərirdi ki, romalılarla mübarizəni davam etdirmək üçün albanların nəinki döyüşkən əhval-ruhiyyəsi, həm də bu mübarizəni silahlı yolla davam etdirməyə imkan verən maddi-texniki bazası var idi. Hərb işinin düzgün təşkili isə tez bir zamanda həm ölkənin maddi-texniki imkan-

larını, həm də xalqın mənəvi qüvvəsini yadelli işğalçılarla mübarizəyə səfərbər etməyə imkan vermişdi.

Pompey albanlarla sülh müqaviləsi bağladıqdan sonra İberiyaya yola düşdü. O, burada iberlərin də güclü müqaviməti ilə rastlaşdı. Uzun çəkən qanlı vuruşmalardan sonra Pompey İberlərin paytaxtına daxil ola bilsə də onların müqavimətini tam qıra bilmədi. Dağılıb səpələnmiş iberlər mübarizəni davam etdirir, partizan dəstələri təşkil edirdilər (33). Romalılar sonra Kolxidaya doğru üz tutsalar da iberlilərin davam edən mübarizəsi onlara xeyli itki verdi. Belə bir şəraitdə Pompey həm də albanların yenidən romalılara qarşı üsyan qaldırması xəbərini eşitdi. Plutarxın yazdığına görə, Pompey bu xəbəri çox böyük qəzəblə qarşıladı (34). Bir tərəfdən Pont çarı Mitridatın təqibi ilə bağlı çətinliklər, o biri tərəfdən də albanların Roma ağalığını qəbul etməməsi və yenidən üsyan qaldırmaları Pompeyi öz hərəkət planlarını dəyişməyə məcbur etdi. O, Mitridatın təqibindən əl çəkərək qoşunu ilə daha böyük təhlükə kimi qəbul etdiyi albanların üzərinə hücum etməyi qərara aldı.

Pompey Zaqafqaziyaya yürüşü zamanı qoşunlarının bir hissəsini arxada saxlamışdı. Sərkərdə Afraninin başçılığı altında olan həmin dəstə vəziyyətə nəzarət etmək və Romanın bölgədəki ağalığını təmin etmək üçün orada qalmışdı (35). Çox güman ki, albanlarla sülh müqaviləsi bağlayıb İberiyaya doğru hərəkət edən Pompey yollara nəzarət etmək və arxada qalan qoşunlarla əlaqə yaratmaq üçün bir dəstəni də Albaniyada saxlamışdı. Albanların romalılara qarşı üsyanı da bu dəstələrin üzərinə hücumu ilə başlaya bilərdi.

Heç şübhəsiz ki, alban hakimi Oroys ilk döyüşdə romalıların zəif və qüvvətli tərəfləri barədə müəyyən qənaətə gəlmişdi. O, növbəti döyüşün uğurla başa çatmasına inanmasaydı yəqin ki, yenidən Roma qoşunları ilə vuruşmağa cəsarət etməzdi. Ancaq hər halda romalıların böyük döyüş təcrübəsi bu dəfə də onların köməyinə gəldi. Pompeyin hiylə və azdırmaları albanların böyük sayda olan qoşunlarını məğlub etməyə imkan verdi.

Plutarxın yazdığına görə, albanlar bu döyüşə 60 min piyada və 12 min atlı qoşun çıxara bilmişdi (36). Döyüşçülərin bir hissəsinin pis silahlanması və təchiz olunması onu göstərirdi ki, bu döyüşə hazırlaşmaq üçün albanların kifayət qədər vaxtı olmamışdı. Ola bilsin ki, Oroys yalnız qüvvələrin say nisbətində üstünlüyə nail olmağa çalışmışdı. Bunun başqa bir səbəbi də ola bilərdi. Xarici istilaçıların ağalığı altında qalmağa razı olmayan albanlar kütləvi halda qoşunların sıralarına qoşula bilərdilər. Albanların tarixinin sonrakı hadisələri də göstərir ki, xarici işğalçıların təhlükəsi zamanı onlar kütləvi şəkildə mübarizəyə səfərbər ola bilirdilər.

Hadisələrin antik mənbələrdəki təsvirindən aydın olur ki, albanların romalılarla ikinci döyüşü e.ə.65-ci ilin yayında baş vermişdi. Pompeyin rəhbərliyi altında olan qoşunların ümumi sayı barəsində də qəti fikir söyləmək çətindir. Ancaq aydındır ki, onlar bu döyüşə böyük əhəmiyyət verirdilər. Albaniyanın əldən verilməsi romalılar üçün İberiya və Koxida ilə olan əlaqələrin də itirilməsi demək idi.

Döyüşün gedişini üç mərhələyə bölmək olar. Birinci mərhələ romalıların Kür çayını keçməsi ilə bağlıdır. Antik müəlliflərin məlumatına əsasən, albanlar bu döyüşdə fəal hücum taktikası seçiblərmiş. Onlar ölkənin dərinliklərinə çəkilərək romalıları çətin coğrafi şəraitdə tanımadıqları ərazilərlə irəliləməyə məcbur edirdilər. Hətta albanlar tutduqları mövqelərin yaxınlığında Kür çayının asan keçilməsi mümkün olan sahillərinə süni çəpərlər çəkmişdilər (37). Bu süni maneələrin Kürün sol sahilində qurulması güman edilir. Əslində albanlar həmin çəpərləri qurmaqla müəyyən qədər istəklərinə nail olmuşdular. Çünki Kür qırağında tikilən istehkam qurğuları Roma qoşunlarının hərəkətini xeyli çətinləşdirmişdi. Plutarxın yazdığına görə, Pompey süni maneələr olmayan sahələrdən Kürü keçməyə cəhd göstərməklə qoşunları yeni bir təhlükə qarşısında qoymuşdu (38). Görünür, Roma qoşunları Kürü əvvəlcə nəzərdə tutulduğundan xeyli aralıda və özü də çox əlverişsiz yerdə

keçməli olmuşdu. Ona görə də Plutarx qeyd edirdi ki, romalılar susuz yerlərlə uzun və çətin bir yol keçməli olacaqdılar (39).

Kür çayının çox iti axan bir sahəsindən keçmək zərurəti Pompeyi ehtiyat təbirləri görməyə məcbur edirdi. Suyun axarının sürətinin azaldılması məqsədi ilə Pompey öncə atlılara çaydan keçmək əmri verdi. Atlılar suda olduğu vaxt onlardan bir qədər aşağıda piyadalar və təchizat arabaları çayı keçdilər. Pompeyin fikrincə, atlılar əvvəlcə suya girməklə çayın axarının sürətini müəyyən qədər zəiflədə bildilər ki, bu da piyadalara asanlıqla çayı keçmək imkanı verməli idi (40).

Kür çayını keçdikdən sonra romalıların qarşısında yeni bir sınaq dururdu. Onlar tanımadıqları çətin və mürəkkəb coğrafi şəraitlə alban qoşunlarının əsas qüvvələrinin qruplaşdıqları yerə doğru irəliləməli idilər. Romalılar bu məqsədlə yerli sakinlərdən özlərinə bələdçi tapa bilmişdilər (41). Ancaq romalıların döyüşqabağı marşlarının çox çətin şəraitdə keçməsindən güman etmək olar ki, bələdçilər asan marşrutun seçilməsinə o qədər də ciddi səy göstərməmişdilər.

İkinci mərhələ: Alban çarı Oroys şübhəsiz ki, romalılarla əsas döyüşə girməyi qərara almışdı. Ona görə də o, ölkənin dərinliklərinə doğru nə qədər geri çəkilsə də Abant çayının yaxınlığında (42) mövqe tutub Roma qoşunları ilə üzləşməyi qərara aldı. Albanlar meşəliyə yaxın yerdə, sərt coğrafi şəraitdə döyüş üçün əlverişli mövqe seçmişdilər. Antik müəlliflər göstərirlər ki, albanlar artıq coğrafi şəraitdən bacarıqla istifadə etdilər və bu döyüşün gedişində də gözlənilmədən ağaclıqların arasından çıxıb romalılara zərbə endirdilər (43).

Görünür, döyüş meydanının coğrafi şəraitindən romalılır da məharətlə istifadə edə bilmişdilər. Dion Kassinin verdiyi məlumata görə Pompey qoşunların sayını albanlardan gizlətmək üçün hiyləyə əl atdı. O, atlılara əmr etdi ki, döyüş düzülüşünün ön cərgəsində dayansınlar. Piyadalara isə onların arxasında dizi üstə çökməyə əmr verdi və onlara tapşırdı ki, işarə verməyincə yerlərindən tərpənməsinlər. Bununla çalışırdı

ki, albanlar romalıların sayını bilməsinlər və öz qüvvə üstünlüklərinə inansınlar (44). Şübhəsiz ki, açıq döyüş meydanında sayı on minlərlə ölçülən qoşunları belə asanlıqla atlıların arxasında gizlətmək olmazdı. Roma qoşunlarının sayca albanlardan üstünlüyünü qəbul etsək (45) və ya heç olmasa onların sayı albanların sayı qədər olsa 50-60 minlik piyadanı onlardan sayca az olan atlıların arxasında gizlətmək mümkün olmazdı. Ola bilsin ki, Pompey bu fəndi həyata keçirmək üçün əlverişli coğrafi şərait seçib görünən mövqelərə atlıları çıxartmış və piyadaları gizlətmiş, ya da bu fəndi qoşunların yalnız bir hissəsinə tətbiq etmişdi.

Plutarx döyüşə çar Oroysun qardaşı Kosisin başçılıq etdiyini bildirir (46). Dion Kassi isə çar Oroysun da bu döyüşlərdə iştirakından danışır (47). Döyüşün miqyasını, onun alban xalqı üçün tarixi əhəmiyyətini, qarşı tərəfin zərbə qüvvəsini və nüfuzunu nəzərə aldıqda ona Oroysun rəhbərlik etdiyini qəbul etmək mümkündür. Oroysun adının bu döyüşlərlə bağlı çəkilməsi də buna yəqinlik verir. Qoşunların dövlətin başçısı və qoşunların ali baş komandanı kimi Oroysun strateji rəhbərliyi altında cəmləşdiyi şübhəsizdir. Çox güman ki, romalılarla əvvəlki döyüşdə olduğu kimi bu döyüşdə də alban qoşunları dəstələrə bölünmüşdülər və Oroysun qardaşı Kosis də bu dəstələrin birinə rəhbərlik edirdi. Onun döyüşün ən qaynar nöqtəsində qərar tutması, hətta Pompeyin özü ilə əlbəyaxa döyüşə girməsi ola bilsin ki, antik müəlliflərin diqqətini daha tez özünə cəlb etmiş və Kosis döyüşdə qoşunların ümumi rəhbəri kimi qələmə verilmişdi. Tarixçilər qoşunların əsas hissəsinin Oroysun rəhbərliyi ilə geri çəkilməsini, ön xətdə Kosisin dəstəsinin qalmasını və bununla əlaqədar onun komandan kimi təqdim edilməsini güman edirlər (48). Belə olduğu təqdirdə, Oroysun rəhbərlik etdiyi və yaxşı silahlanmış qoşun dəstələrinin döyüşdə iştirakı naməlum qalır və romalıların əsas qüvvələrinin qarşısına Kosisin rəhbərliyi altında zəif silahlandırılmış dəstələrin çıxarılması heç də inandırıcı deyil. Çünki zəif silahlanmış

dəstələrlə Roma qoşunlarının qarşısını almaq mümkün deyildi və belə qüvvələrlə vuruşa-vuruşa Pompeyin yanına qədər gəlib çıxa bilməzdi. Döyüşün təhlili bunun əksini güman etməyə əsas verir. Alban dəstələri romalıların əsas qüvvələri ilə Abant çayı yaxınlığında əsas döyüşə girmişdilər və onların böyük dəstələrindən birinə də Oroysun qardaşı Kosis rəhbərlik edirdi. Oroysun özünün də dəstələrindən birinə rəhbərlik etdiyini istisna etmək olmaz. Kosis rəhbərlik etdiyi dəstə ilə romalılara güclü zərbə endirmiş və hətta ön xətdəki dəstələri yararaq Pompeyin qərar tutduğu mövqelərə qədər yaxınlaşa bilmişdi. Plutarx yazır ki, Kosis əlbəyaxa döyüşə girib Pompeyin üstünə atıldı, ona öz nizəsi ilə zərbə endirdi. Ancaq Pompeyin əynində olan zirehli geyim onu alban sərkərdəsinin zərbəsindən xilas etdi. Antik mənbələrə görə, fürsətdən istifadə edən Pompey ağır cavab zərbəsi ilə Kosisi öldürə bildi (49).

Üçüncü mərhələ: əsas qüvvələrin qarşı-qarşıya gəldiyi döyüşdə albanlar romalılara ağır zərbə endirsələr də, yenidən geri çəkilmək məcburiyyətində qaldılar. Albanların məğlubiyyətinin konkret səbəblərinin nə ilə bağlı olduğunu, mübariz əhval-ruhiyyədə köklənmiş albanların romalılarla döyüşdə geri çəkilmələrinin səbəbləri barədə dəqiq fikir söyləmək çətindir. Antik müəlliflər də bu döyüşün təfərrüatı barədə fikir söyləmirlər. Güman etmək olar ki, bu döyüş üçün müəyyən hazırlıq görən, əlverişli mövqelər seçən albanların məğlubiyyəti romalıların qüvvələr nisbətindəki üstünlüyə və daha böyük döyüş təcrübəsinə malik olması ilə bağlıdır.

Albanlar əsas döyüşdə üstünlüyü əldən verərək geri çəkilmək məcburiyyətində qalsalar da, hələ silahı yerə qoymamışdılar. Onların dəstələri yenidən meşələrə çəkildilər. Buradan həyata keçirdikləri hücumları ilə romalılara xeyli itki verdilər (50). romalılar albanların bu taktikasının qarşısında gücsüz qalaraq bütün meşə zolağını əhatə etdilər və ona od vurdular. Alban qoşunları burada müəyyən qədər itki verdikdən sonra romalılarla yenidən sülh bağladılar. Ancaq bu sülh roma-

lılara albanlar üzərində ağalığı təmin etmədi. Albanların romalılardan asılılığı formal xarakter daşıyırdı (51). Roma qoşunlarının Xəzər dənizinə qədər irəliləyə bilməməsi də sözsüz ki, albanların müqavimətinin tam qırılmaması ilə bağlıdır. Doğrudur, Plutarx Xəzər dənizindən üç günlük məsafədə olan romalıların sona  qədər gedib çıxa bilməməsini başqa səbəblərlə izah edir. Guya bu ərazilərdə olan çoxsaylı zəhərli sürünənlər romalıların hərəkətinə mane olmuşdular (52). Əslində isə sözsüz ki, Pompey müqaviməti qırılmamış albanların torpaqlarının içərilərinə doğru irəliləməyin hansı itkilər bahasına başa gələcəyini görürdü və ona görə də Xəzər dənizinə qədər irəliləmək planından əl çəkmək məcburiyyətində qalmışdı. Bir də ki, albanlar romalıların ağalığını qəbul etmiş olsaydılar onda heç romalıların Xəzər dənizinə doğru irəliləməsində də ehtiyac qalmazdı və onlar alban torpaqlarında istədikləri kimi hərəkət edə bilərdilər. Bu isə onlara müəssər olmamışdı.

Romalılara qarşı mübarizədə albanların iradəsinin qırılmaması əlamətlərindən biri də bu idi ki, həmin mübarizədə qadınlar da iştirak edirdilər. Bu qadınların igidliyi həm romalıları, həm də bu döyüş barədə yazan antik müəllifləri heyrətə gətirmişdi. Plutarx romalılarla döyüşdə qadınların iştirakını, döyüş meydanından onlara məxsus hərbi təchizat tapdığını yazır, ancaq həlak olmuş və yaralanmış qadınlardan hər hansı birini kimsənin görə bilmədiyini də qeyd edirdi (53). Başqa bir antik müəllif Appian isə bu faktı təsdiq etməklə bərabər, əsir alınmış alban döyüşçülərinin içərisində qadınların da olduğunu və onların da döyüş yaraları aldığını qeyd edirdi (54).

Roma hakimləri Kolxidanın liman şəhərindən Xəzəryanı ölkələrə və şəhərlərə gedən ticarət yollarını öz nəzarəti altında saxlamaqda maraqlı idilər (55) və ona görə də bu yerlərdə möhkəmlənmək arzusunda idilər. İberiya və Albaniya əhalisinin qətiyyətli mübarizəsi nəticəsində Pompey həmin ölkələri tam işğal edə bilməsə də bu iki ölkə öz tarixində ilk dəfə olaraq başqa ölkədən asılı vəziyyətə düşdülər və onlar Roma ilə dost-

luq və müttəfiqlik haqqında müqavilə imzaladılar. Albaniyanın Romadan asılılığı nominal xarakter daşısa da onun üzərinə götürdüyü müəyyən öhdəliklər agır bir yük kimi xalqın üzərinə düşürdü və ona görə də albanlar Roma asılılığından qurtarmaq üçün hazırlıq görür və münasib an gözləyirdilər. Xalqın bu istəyi alban çarlarının da istək və praktiki fəaliyyəti ilə üst-üstə düşürdü. Albanların ümumxalq mübarizəsinə səfərbər edilməsi və istiqamətləndirilməsi də sözsüz ki, alban çarlarının rəhbərliyi altında həyata keçirilirdi.

E.ə. I əsrin ikinci yarısında Yuli Sezarın öldürülməsi ilə Roma daxilində vətəndaş müharibəsi başladı. Hakimiyyət və nüfuz üstündə genişlənən daxili çəkişmələr Romanın gücünü xeyli zəiflətdi. Albaniya bundan istifadə edərək Romanın nisbi asılılığından da imtina etdi. Romada isə bu bölgənin nəzarət altından çıxması ilə razılaşa bilmirdilər və ona görə də bu bölgədəki nüfuzunu yenidən bərpa etmək üçün Antoninin sərkərdəsi Kanidi böyük bir qoşunla Qafqaza yürüş etdi. Bu yürüşün e.ə. 36-cı ilin sonu 35-ci ilin əvvəllərində olduğu güman edilir (57). Antik mənbələrdən görünür ki, Kanidi hərbi yürüşlərinə əvvəlcə qonşu ərazilərdən başlamış (58), sonra isə İberiyaya və Albaniyaya doğru hərəkət etmişdi. İber çarı Fernavazın, Albaniya çarı Zoberin yenidən Roma asılılığını qəbul etməsi onu göstərir ki, romalılar itaətdən çıxmış xalqlara qarşı çox böyük hərbi qüvvələr yeritmişdilər. Plutarxın Kanidinin Zaqafqaziya xalqları üzərində qələbə çalması haqqında danışması belə bir qənaətə gəlməyə imkan verir ki, romalılarla iberlər və albanlar arasında qanlı döyüşlər baş vermiş, romalılar qələbə çalmışdılar. Bu da əslində təbiidir. Çünki döyüşgənliyi və mübarizliyi ilə seçilən albanlar Roma asılılığından çıxdıqdan sonra yenidən onu asanlıqla qəbul etməzdilər. Lakin Kanidinin albanlar üzərində olan yürüşləri də romalıların bu torpaqlardakı ağalığını möhkəmləndirə bilmədi. Həm e.ə. I əsrdə, həm eramızın birinci əsrində Zaqafqaziya xalqlarını o cümlədən, albanları əsarət altında saxlamaq yəqin ki, romalıların ən böyük qayğılarından biri idi və onlar bu məsələnin əsaslı həllinə nail ola bilməmişdilər.

E.ə. 20-ci illərdə romalılar bölgəyə yeni bir hərbi yürüş təşkil etdilər. Onlar iberlər və albanlara qarşı da hücuma keçdilər (59). Tarixçilər haqlı olaraq qeyd edirlər ki, romalıların çox böyük qüvvə ilə vaxtaşırı albanların üzərinə hücuma keçməsi onların öz azadlığı uğrunda mübarizədən əl çəkməməsi və imkan düşən kimi yerlərdəki Roma qarnizonları ilə döyüşməsi ilə əlaqədar olmuşdu.

Miladın I əsrinin 60-cı illərində də romalıların Albaniya üzərinə hücuma hazırlaşmaları barədə antik mənbələrdə məlumatlar vardır. Roma imperatoru bu hucumu zamanı Albaniyanın şimalına kimi hərəkət etmək və Kaspi darvazasını (Dərbənd keçidini) ələ keçirmək məqsədi güdürdü. Görünür, Neron Albaniyanın bütün ərazisindən keçib onun şimal sərhədlərinə qədər irəliləməyin heç də asan olmayacağını başa düşürdü və buna görə də çox böyük sayda qoşun toplamışdı. Onun qoşun dəstələrinə romalılardan başqa Almaniyadan və Britaniyadan gətirilmiş seçmə hərbi dəstələr də daxil edilmişdi (60). Neronun Albaniyaya hücuma belə hazırlıq görməsi romalıların bu ölkədəki ağalığının və nüfuzunun tamamilə itməsi, albanların müstəqilliyinin və dövlətçiliyinin müəyyən qədər möhkəmlənməsi ilə bağlı ola bilərdi. Çox güman ki, Roma istilaçılarına qarşı ardıcıl surətdə aparılan mübarizə burada olan Roma hərbi qarnizonlarının ölkədən qovulması və hakimiyyətin tamamilə yerli hakimlərin əlində cəmləşməsi ilə nəticələnmişdi. Antik mənbələrdə olan bəzi kəsad məlumatlar da belə bir qənaətə gəlməyə əsas verir (61). Ona görə də Roma imperatoru sələflərinin bir vaxtlar nisbi asılılığına nail olduqları Albaniyanı itaət altına gətirmək, orada daha da möhkəmlənmək və Kaspi darvazalarına qədər irəliləmək üçün xüsusi hazırlıq işləri aparırdı. Ancaq onun ölümü ilə Albaniyaya hücum etmək niyyəti baş tutmadı.

Tarixi faktlar sübut edir ki, Neronun ölümündən sonra da romalılar Albaniyaya hücum etmək və Xəzər dənizinə qədər irəliləmək planından əl çəkməmişdilər. Arxeoloji axtarışlar zamanı əldə edilən dəlillər göstərir ki, Roma imperatoru Domi-

sianın imperatorluq illərində onun sərkərdələrindən biri olan XII Fulminatanın rəhbərlik etdiyi legion Xəzər dənizinin sahillərinə qədər gəlib çatmışdı (62). XII Fulminatanın hərbi yürüşü barədə, Albaniyaya yürüşü və Xəzər sahillərinə qədər gəlib çıxması barədə geniş məlumatlar olmamasından güman etmək olar ki, romalılar bu dəfə də Albaniya ərazisində möhkəmlənə bilməmişdilər. Romalıların işğalçılıq yürüşləri Zaqafqaziyanın digər xalqları kimi albanların da mübarizliyi, döyüşgənliyi sayəsində bu ərazilərin hüdudlarını aşa bilmirdi. Alman alimi Mommzen haqlı olaraq qeyd edirdi ki, fars və yunan yürüşləri kimi Roma yürüşlərinin qarşısının alınmasında da Qafqazın dünya tarixində böyük rolu vardır (63).

## 2.Albaniyada hərb işinin obyektiv və subyektiv əsasları

Mövcud olduğu bütün tarixi boyu Albaniyanın ərazisi mütəmadi olaraq müharibələr meydanına çevrilmişdi. Cəmiyyətin bütün təbəqələri istər-istəməz bu müharibələrin aparılmasına cəlb edilirdilər. Buna görə labüd olaraq Albaniyada hərb işinin inkişaf etdirilməsi zərurəti ortaya çıxırdı. Xalqın və dövlətin mənafelərinin müdafiəsinə cavab verə biləcək bu məsələnin həlli isə ölkənin böyük potensialı ilə şərtlənə bilərdi.

İlk növbədə Albaniyanın iqtisadi potensialı müharibələrin artan ehtiyacını ödəməyə qabil olmalı idi. Bunun üçün isə çox əlverişli şərait mövcud idi. Əslində elə yadelli işğalçıları bura cəlb edən də Albaniyanın zəngin təbiəti idi.. Burada həm kənd təsərrüfatının, həm sənətkarlığın, həm də ticarətin genişləndirilməsi üçün zəruri olan bütün amillər var idi (64). Bütün bunlar antik mənbələrdə və ərəb tarixçilərinin əsərlərində öz əksini tapmışdır (65). Alban tarixçisi Moisey Kalankatuklu özünün "Albaniya tarixi" əsərində bir neçə cümlə ilə Albaniyanın təbii zənginliklərinin geniş mənzərəsini yaratmışdı: "Uca Böyük və Kiçik Qafqaz dağlarının qoynunda yerləşən Alban

ölkəsi öz saysız-hesabsız təbii sərvətləriylə həddindən artıq gözəl və heyranedici bir məmləkətdir. Böyük Kür çayı sakit-sakit bu ölkənin düz ortasından axır və iri və xırda balıq gətirib sularını Xəzər dənizinə tökür. Çayın sahilləri boyu münbit çöllərində küllü miqdarda taxıl və üzüm, neft və duz, ipək və pambıq və çoxlu zeytun ağacları var. Onun dağlarında qızıl, gümüş, mis və oxra çıxarılır. Vəhşi heyvanlara isə gəldikdə burada şir, bəbir, panter, çöl eşşəyi, çoxlu quşlardan isə qartallar, qırğılar və bunlara bənzər var" (66).

Kənd təsərrüfatının inkişaf etdirilməsi üçün Albaniyada çox münbit torpaq sahələri var idi. Strabonun yazdığına görə, Albaniyanın əkin torpaqları bir tərəfdən çox müxtəlif bostan və meyvə bitkilərinin becərilməsinə imkan verir, bir tərəfdən də öz məhsuldarlığı ilə fərqlənirdi. Antik tarixçilərin məlumatına görə burada bir dəfə əkilən torpaq çox yerdə iki və ya üç dəfə məhsul verir və birinci məhsul hətta səpiləndən 50 dəfə artıq bar verirdi (67). Strabon onu da göstərirdi ki, albanlar torpağı əkəndən qabaq şumlamağı öyrənmişdilər və bunun üçün ağac xışlardan istifadə edirdilər (68). Arxeoloji qazıntılar da sübut edir ki, albanlar şumlama mədəniyyətinə malik idilər və bunun üçün ağac, dəmir və dəmir ucluqlu xışlardan istifadə olunurdu (69). Kürün hər iki sahili boyu münbit torpaqlarda buğda əkilirdi (70). Taxıl albanlardan ötrü ən başlıca strateji məhsul idi və sözsüz ki, M.Kalankatuklu "insan üçün zəruri olan böyük ərzaq sursatı" (71) dedikdə ilk növbədə taxıl ehtiyatlarını nəzərdə tuturdu. Alban kəndlisi özünün və ailəsinin ərzaq ehtiyatını ödəməkdən əlavə müharibələrin aparılması zamanı qoşunlara zəruri olan ərzaq ehtiyatının hazırlanmasını da öz çiyninə götürməli idi. Güclü taxıl ehtiyatı olmadan ölkə ərazisinin müdafiəsi üçün kifayət qədər sayda qoşun saxlamaq da mümkün olmazdı.

Arxeoloji qazıntılar nəticəsində müəyyən edilmişdir ki, Albaniyada bütün dənli bitkilər, o cümlədən arpa da əkilirdi (73). Çoxlu arpa toplanması isə Albaniyada heyvandarlığın, o cümlədən də hərb işində geniş istifadə olunan atların bəslənməsinə kömək edirdi.

Albaniyada maldarlığın, o cümlədən atçılığın inkişaf etdirilməsi üçün böyük otlaq sahələri mövcud idi (74). Buna görə də albanlar maldarlığa daha çox meyl göstərirdilər və onların əsas hissəsinin başlıca məşğuliyyəti heyvandarlıq idi. Antik tarixçi Elian da yazırdı: "Kaspi torpaqlarında çoxlu öküz sürüləri və at ilxıları vardır və... onların sayı-hesabı yoxdur" (75). Albaniyada çoxlu at ilxılarının olmasını və onlardan hərb işində istifadə edilməsini Albaniyada süvari qoşunların sayı barədə antik tarixçilərdən yuxarıda gətirilən faktlar da sübut edir.

Albaniyada qoyunçuluğun, dəvəçiliyin, iri buynuzlu mal-qaranın geniş yayılması da məlumdur (76). Heyvandarlığın bu sahələrinin inkişafı hərb işində istifadə edilən keçələrin, dəridən olan təchizat vasitələrinin hazırlanmasına da zəruri olan xammal verirdi.

Bağ və bostançılıq bitkiləri də Albaniyada geniş yayılmışdı. Strabon Albaniyada üzümçülüyün inkişafından danışırdısa (77), ərəb tarixçiləri və coğrafiyaşünasları isə burada zəfəran, tut ağacı və kətan yetişdirilməsini qeyd edirdilər (78). M.Kalankatuklu Albaniyada pambığın və zeytunun çoxluğundan söhbət açır (79). Əkinçilik bitkilərinin yetişdirilməsi və istehsalı Albaniyada kifayət qədər müasir alətlərlə həyata keçirilirdi (80). Bu alətlər bitkilərinin yetişdirilməsi mədəniyyətini nümayiş etdirməklə bərabər, həm də onların istehsal texnologiyasının yüksək səviyyədə olmasından xəbər verirdi.

Kənd təsərrüfatının inkişafı üçün Albaniyada yaxşı suvarma sistemi var idi. Əkin torpaqlarının suvarılması üçün çoxşaxəli çaylardan, başlıca olaraq Kür, Araz və onun qollarından istifadə olunurdu. Hətta Strabon da qeyd edirdi ki, Albaniyada əkin sahələri Misir və Babilistanda olduğundan daha yaxşı suvarılırdı (81). "Albaniya tarixi"ndə də bu ölkənin əsas çayının Kür çayı olduğu və əsas təsərrüfat zonalarının da bu çayın hər iki sahilində olduğu qeyd edilir (82). Ölkənin ərazisindən keçən çayların suyunun çatmadığı sahələrə suvarma sistemləri çəkilmişdi (83). Qazıntılar nəticəsində Mil, Muğan

düzlərində, Şamxor ətrafında xeyli uzunluqda olan suvarma kanallarının qalıqları tapılmışdır (84). Suvarma kanallarının çox uzun məsafələrə çəkilməsi onu göstərir ki, Albaniyada təsərrüfat təkcə çay sahillərində deyil, çaylardan aralı olan ərazilərdə də kifayət qədər yaxşı inkişaf etmişdi və bunun üçün zəruri şərait yaradılmışdı.

Əkinçiliyin suvarılması üçün kəhrizlər sistemindən də istifadə edilirdi (85). Yerin altı ilə uzaq məsafələrə axıdılan kəhriz sistemindən istifadə edilməsi də albanlarda təsərrüfatın inkişafına böyük diqqət yetirildiyini təsdiqləyir.

Heyvanların, xüsusən uzunyunlu heyvanların bəslənməsi Albaniyada toxuculuğun inkişafına zəmin yaradırdı. Qoyunların və dəvələrin yunları toxuculuq üçün başlıca xammal idi. Onların emalı, rənglənməsi və istehsala verilməsi sahəsində də Albaniyada kifayət qədər təcrübə toplanmışdı (86). Qədim yaşayış məskənlərində tapılmış toxuculuq alətləri və dəzgahları da bunu sübut edir (87). İpək və pambığın istehsalına əsaslanan toxuculuq da albanların əsas məşğuliyyətlərindən biri idi (88). Bu sahələrin xammalı da elə Albaniyanın özündə becərilirdi (89). "Albaniya tarixi"ndə, habelə ərəb coğrafiyaçılarının və tarixçilərinin əsərlərində olan məlumatlar göstərir ki, Albaniya ərazisində baramanın yetişdirilməsi üçün çox geniş tut bağları varmış və burada istehsal edilən ipək parçalar ölkənin daxili bazarlarını təmin etməkdən əlavə, həm də İrana və Xuzistana göndərilirmiş (90). Toxunulan parçaların rənglənməsi üçün albanlar müxtəlif təbii vasitələrdən rəng almağı da öyrənmişdilər (91).

## 3. Alban qoşunlarının silahları

Albaniyada iqtisadiyyatın inkişafına, eləcə də alban qoşunlarının maddi-texniki təchizatının təmin edilməsinə kömək edən əsas sahələrdən biri də metalların emalı və istehsalı idi. Burada həm qara, həm də əlvan metallar emal olunur, onlardan müxtəlif bəzək əşyaları və əmək alətləri düzəldilirdi. M.Kalankatuklu Al-

baniyada həm qızıl və gümüş ehtiyatlarının (92), həm də onlardan düzəldilmiş çoxlu əşyaların olduğunu göstərirdi (93). Arxeoloji qazıntılar zamanı da qədim yaşayış məskənlərindən həm qızıldan, həm də digər metallardan çoxlu bəzək əşyaları tapılmışdı (94). Tapılan bəzək əşyaları alban ustalarının yüksək sənətkarlığından xəbər verir. Bu ustalar tez-tez qəhrəmanlıq mövzularına müraciət edir, sənət əsərləri üzərində alban döyüşçülərinin qəhrəmanlıqlarını təsvir edirdilər. Bəzək əşyalarının bəzilərində mehrab qarşısında dayanmış adam, şirlə vuruşan adam, nizəli və qalxanlı döyüşçülər təsvir olunurdular (95).

Qara metalların emalı və istehsalı Albaniyada metallurgiyanın böyük əhəmiyyətə malik olan sənət sahəsini təşkil edirdi. Çünki ölkədə həm istehsal üçün zəruri olan əmək və istehsal alətləri, həm də qoşunlar üçün zəruri olan silah və təchizat əşyaları əsasən qara metaldan hazırlanırdı. Buna görə də Albaniyada metallurgiyanın bu sahəsinin inkişafına xüsusi diqqət yetirilirdi. Tarixçilər müəyyənləşdirmişlər ki, Albaniyada qara metalların emalı və istehsalı üçün texniki baza mövcud olmuşdur (96). Metalişləmə sahəsində silah istehsalı Albaniyada başlıca yer tuturdu və metallurgiyanın bu sahəsinin sənətkarlığın müstəqil sahəsinə çevrilməsi də güman olunur (97). Alban qoşunlarının istifadə etdiyi bütün silahların Albaniyanın özündə istehsal edildiyi şübhəsizdir. Ölkə ərazisində müharibələrin aramsız olaraq alovlanması, qoşunların sıralarının yeni canlı qüvvə ilə mütəmadi şəkildə möhkəmləndirilməsi və onların lazımi səviyyədə təchiz edilməsi Albaniyada silah istehsalını tənzimləməyi tələb edirdi. Alban döyüşçülərinin silah və təchizatının qonşu dövlətlərin qoşunlarının silah və təchizatından geri qalmaması bu məsələnin uğurla həll edildiyini nümayiş etdirir.

Doğrudur, yuxarıda qeyd edildiyi kimi, Strabon albanların müharibə məsələlərnə qayğısız yanaşdıqlarını vurğulayırdı (98). İlk baxışda bu fikirdən belə bir qənaətə gəlmək olar ki, albanlar müdafiə işlərinə ciddi hazırlıq görmürdülər, bu işə lazımi əhəmiyyət vermirdilər. Ancaq elə həmin fikrin ardınca

Strabonun alban döyüşçülərinin müqayisəsini aparması Albaniyada hərb işinin xeyli inkişaf etdiyinə sübutdur. Albaniya tarixinin izlənməsi göstərir ki, bu xalq təcavüzkar olmamışdır, yaxın qonşuları ilə münasibətləri zorakılıq siyasəti üzərində qurmamışdı. Ola bilsin ki, Strabon da yuxarıdakı fikri ilə bunu nəzərdə tuturmuş. Albanlar təcavüzkar siyasət yeritməkdən uzaq idilər, onlar müharibələrə əsasən müdafiə məqsədilə, üzərində yaşadıqları torpaqları xarici təcavüzkarlardan qorumaq məqsədilə qoşulurdular. Dinc, yaradıcı əmək albanlar üçün xarakterik idi və əmin-amanlıq şəraitində yaşamaq və dolanmaq üçün Albaniyanın hüdudları daxilində alban xalqı üçün zəruri şərait mövcud idi. Onların həyat səviyyəsi, malik olduqları zəngin sərvətləri həmişə xarici istilaçıların diqqətini özünə cəlb edirdi və buna görə də Albaniya mütəmadi olaraq xarici təcavüzə məruz qalırdı. Bu təcavüzlərdən qorunmaq üçün Albaniyada hərb işinə, onun maddi-texniki bazasının yaradılmasına xüsusi diqqət verilirdi.

Strabon albanların yüngül və ağır silahlarla (99), cida, ox-yay, dəmir zireh, uzunsov qalxanlarla silahlandığını, vəhşi heyvan dərisindən dəbilqə qoyduğunu (100) qeyd edir, bu silah və hərbi təchizatın iberlərin silah və hərbi təchizatına oxşar olduğunu bildirirdi. Alban qoşunlarının maddi-texniki bazasının iber qoşunlarının maddi-texniki bazası ilə müqayisə olunması da albanların öz dövrünün ən müasir silahlarını işlətdiyini nümayiş etdirir. Sözsüz ki, alban sənətkarları dövrynyn ən müasir silahlarının istehsal texnologiyasına birdən-birə nail olmamışdılar, bu sahədə uzun və zəngin bir yol keçmişdilər. Tarixi araşdırmalar da bu deyilənləri sübut edir. Təkcə ox ucluqlarını öyrənən alimlərin fikrincə e.ə. III əsrdə ikiqanadlı ox ucluqlarının yerinə həmin formada olan dəmir nizə ucluqları istifadə edilməyə başlayır. Üç qanadlı və digər ox ucluqları da müəyyən bir inkişaf yolu keçmiş və mütəmadi olaraq təkmilləşmişdi (101). Çox güman ki, albanlar iştirak etdiyi döyüşlərdə öz silahlarının, o cümlədən əsas silahlardan biri olan və uzaq məsafəli təsirə malik olan

oxların texniki xüsusiyyətlərini də müşahidə etmiş və bu silahların zərbəsinin daha kəsərli olması üçün onların ucluqlarının müxtəlif şəkillərinin tapılıb hazırlanmasına nail olmuşlar. Albanların ox ucluqlarının öyrənilməsi sahəsində tədqiqatlar aparmış tarixçilər onların tuncdan, dəmirdən və sümükdən hazırlandığını qeyd edir və metaldan olan ox ucluqlarının xarici görünüşünə görə iki qanadlı, üç qanadlı və pazvari dördtilli ox ucluqlarından ibarət olan üç qrupa bölürlər. Sümükdən olan ox ucluqları isə ayrıca bir qrupa daxil edilir (102).

Birinci qrupa daxil olan tunc və dəmirdən hazırlanmış iki qanadlı ox ucluqları bir-birinə oxşayırlar. Bu qrupa daxil olan ox ucluqları üç tipə – enli qanadlı, rombvari kəsikli, ucu trapes formalı qanadları düzkəsikli tunc oxlarına və iki qanadlı yastı, badam şəkilli dəmir ox ucluqlarına ayrılır.

Tədqiqatçıların fikrincə ikinci qrupa daxil olan üçqanadlı, sulcuqlu dəmir ox ucları e.ə. IV əsrin ikinci yarısından şimalda sarmat tayfalarından yayılmağa başlamış və e.ə. II və eramızın II əsrlərində Albaniya ərazisində geniş istifadə edilmişdir. Bu qrupa daxil olan ox ucluqları formalarına görə bir-neçə tipə bölünür. Birinci tipə ox ucluqlarının qanadları sulcuqlu iti bucaq altında, ikinci tip düzbucaqlı, üçüncü tip isə kor bucaq altında kəsişir. Dördüncü tip konusvari şəkildə üç üzlü olmuşdur.

Üçüncü və dördüncü qrupa daxil olan ox ucluqları forma cəhətdən birinci və ikinci qrupa nisbətən elə də forma əlvanlığına malik deyildir. Ancaq hər halda bu qədər zəngin formalara malik olan alban ox ucluqlarının hər biri hərbi-praktiki təfəkkürün məhsulu idi. Maraqlıdır ki, albanlar hətta gildən düzəldilmiş ox ucluqlarından da istifadə etmişlər (103). Ox ucluqlarına ayrılan bu diqqət yuxarıda qeyd edildiyi kimi, onların vasitəsilə yerinə yetirilən taktiki vəzifələrlə bağlı idi. Oxlar uzaq məsafəli təsirə malik idilər və onlardan istifadə edilməsi adətən döyüşün ilkin mərhələsini təşkil edirdi. Döyüşü adətən oxatanlar başlayırdı və onların zərbəsinin həcmi, düşmən qüvvələrinə yetirdiyi təlefat əlbəyaxa döyüşdə təşəbbüsün ələ keçi-

rilməsinə qiymətli zəmin yaradırdı. Ox ucluqlarının müxtəlif formalarının seçilməsi düşmənin canlı qüvvəsinə vurulan yaranın daha ölümcül olması niyyəti ilə bağlı idi. Ox və kaman başqa xarakterli və həcmli döyüşlərdə də istifadə edilə bilərdi və mürəkkəb quruluşa malik olan ox ucluqlarını döyüşçünün bədənindən ciddi tibbi əməliyyat aparmadan çıxarmaq olmazdı.

Tədqiqatçılar albanların ağac oxlardan da istifadə etdiklərini güman edirlər (104). Bununla bərabər, eramızdan qabaq və sonrakı ilk yüzilliklərdə ön Şərqdə skif və hun kamanlarının geniş yaılmasına görə Albaniyada da bu kamanlardan istifadə edildiyi güman olunur (105). Skif kamanları yüngül kamanlar idi və onların qövsü 60-70 sm olurdu. Bu kamanlar uzunluğu təxminən 60 sm olan yüngül oxlar üçün nəzərdə tutulmuşdu. Hun kamanları isə daha mürəkkəb texniki xüsusiyyətlərə malik idi. Onun qövsü 120-160 sm ətrafında idi və ondan şübhəsiz ki, mürəkkəb quruluşa və ağır çəkiyə malik olan oxlar atırdılar. Belə kamanlardan atılan oxların ilkin uçuş sürəti və zərbə gücü də böyük ola bilərdi.

Alban döyüşçülərinin istifadə etdikləri uzaq təsirli silahlardan biri də nizə idi (106). Bu silah həm hücum, həm də müdafiə üçün nəzərdə tutulmuşdu. Nizələr düşmən döyüşçüləri daha yaxın məsafəyə yaxınlaşdıqda onların, habelə onların atlarının sıradan çıxarılması məqsədilə işlədilirdi. Nizələrin böyük zərbə qüvvəsinə malik olması onun sürətlə atılmasını tələb edirdi ki, bu da döyüşçülərin fiziki hazırlığı ilə bir başa bağlı idi. Ona görə ola bilsin ki, nizə atmağa xüsusi hazırlığı olan adamlar cəlb edilirdilər. Albanların qədim yaşayış məskənlərindən tapılmış nizə ucluqlarının əksəriyyəti yarpaq formalı olub hər iki tərəfi kəsici və uca doğru getdikcə itiləşirdi (107). Bu ucluqların uzunluğu 11-40 sm arasında idi (108). Şübhəsiz ki, nizə ucluqlarının uzunluğundakı müxtəliflik ondan istifadənin xüsusiyyəti ilə bağlı idi. Bu nizə ucluqlarına geydirilən ağac saplar da nizənin ölçüsünə görə müxtəlif idi. Tədqiqatçılar atlıların işlətdiyi nizələrin uzunluğunun təxminən 4 metr,

piyadaların işlətdiyi nizələrin isə təxminən ondan iki dəfə kiçik olduğunu güman edirlər (109). Piyadaların işlətdiyi nizələr əsasən uzaq məsafəli təsirə malik idisə, atlıların işlətdiyi nizələr əlbəyaxa döyüş üçün nəzərdə tutulurdu.

Albanların əlbəyaxa döyüş üçün istifadə etdikləri silahlardan biri də qılınc idi (110). Arxeoloji qazıntılar zamanı tapılmış alban qılınclarının əksəriyyətinin hər iki tərəfi itidir (111). Bu, döyüşdə istifadə zamanı qılıncların səmərəliliyini daha da artırırdı. Əsasən düz qılınclardan istifadə edilirdi və onlar müxtəlif uzunluğa malik idilər. Onların uzunluğu təxminən 60-100 sm arasında idi (112). Bu qılıncların belə müxtəlif uzunluğa malik olması onların taktiki xüsusiyyətlərindən başqa həm də onları düzəldən ustaların sənətkarlıq məktəbi ilə bağlı ola bilərdi.

Albanlar əlbəyaxa döyüşlər üçün qılıncdan başqa xəncər və bıçaqdan da istifadə edirdilər (113). Arxeoloji qazıntılar zamanı bir və ikitərəfli xəncərlər tapılmışdır (114). Xəncərlərin alban qoşunlarında istifadə edilməsi daha çox ənənəvi xarakter daşıya bilərdi.

Bunlardan başqa albanlarda parad təchizatının olması da güman edilir (115). M.Kalankatuklunun yazdığına görə alban sərkərdəsi Cavanşir İranla ittifaqda döyüşə girib böyük uğurlar qazandıqda İran şahı onu sərkərdəyə layiq mükafatlandırdı. Ona sərkərdə kəranayları, iki qızıl nizə və qızılla işlənmiş iki qalxan verildi. İran şahı Cavanşirin belinə mirvari işlənmiş qızıl kəmər və qızıl saplı qılınc da bağlamışdı (116). Ancaq nəzərə almaq lazımdır ki, bu silahlar sadəcə olaraq şah hədiyyəsi idi və bununla bağlı bütün alban qoşunlarının, o cümlədən onun sərkərdələrinin xüsusi nümayiş silahları və təchizatının olmasını güman etmək çətindir. Hər halda həmin silahlar dövrün silahlarının xarakterini başa düşməyə kömək edir.

Alban döyüşçüləri silahlardan başqa müdafiə təchizatına da malik idilər. Döyüşçülər bu təchizat vasitələrindən istifadə etməklə özlərini düşmən silahlarının zərbəsindən müəyyən qədər mühafizə edirdilər. Qədim tarixçilərin verdiyi məlumata

görə, albanların mühafizə təchizatına zirehli geyim, dəbilqə və qalxan daxil idi. Alban mənbələrinin məlumatına görə, albanlar qızıl suyuna çəkilmiş qalxanlardan istifadə edirdilər (117). Strabon isə bu qalxanların uzunsov olduğundan xəbər verir (118). Eyni zamanda alban qalxanlarının həm də uzun və düzbucaqlı olduğunu güman edirlər (119). Mingəçevirdən tapılmış dəmir qalxanın qalıqları alban döyüşçülərinin dəmir qalxanlardan istifadə etməsinə yəqinlik gətirməklə bərabər Parfiya qoşunları silahlarının təsiri ilə Albaniyada hörülmə qalxanlardan da istifadə edilməsi qənaətinə gəlmək olar (120). Alban hökmdarı Cavanşirin ona sui-qəsd edən şəxsə qılınc zərbəsi endirərkən qılıncının həmin şəxsin qalxanına pərçimlənməsi (121) də onu göstərir ki, albanlarda təkcə dəmir qalxanlardan istifadə edilmirdi. Çünki qılınc çox güman ki, dəmir qalxana pərçimlənməzdi. Uzunsov, dördkünc qalxanlardan çox güman ki, yalnız piyadalar istifadə edirdi. Süvarilərin belə qalxanlardan isətifadə etməsi onların hərəkət çevikliyini xeyli zəiflədə bilərdi. Döyüşçülər qalxanı adətən sol qolunda tuturdular (122).

Alban döyüşçüləri bədənlərini düşmən zərbəsindən qorumaq üçün zirehli geyim geyinirdilər (123). Arxeoloji qazıntılar zamanı əldə edilmiş zirehli geyim qalıqları onun forması barədə tam təsəvvür yaratmağa imkan verir (124). Bu geyimlər dəmir məftildən düzəldilmiş zirehli geyim təkcə bədəni deyil, həm də çiyinləri etibarlı şəkildə qorumağa imkan verirdi. Çiyni örtən zirehin eni 50 sm, uzunluğu isə 40 sm idi. Zirehi təşkil edən həlqələrin daxili diametri 0,8 sm, xarici diametri isə 1,2 sm idi. Döyüşçünün qolunun mühafizə edilməsi üçün isə uzunsov dəmir lövhəciklərdən istifadə edilirdi. Bundan başqa, qazıntılar zamanı çoxsaylı daş muncuqların, bürünc düyməciklərin tapılması da onlardan zirehli geyim hazırlanması üçün istifadə edildiyinə güman yaradır.

Zirehli geyim həm üstdən, həm də altdan geyilə bilərdi. Belə vaxtda zirehli geyimin üstündən keçə kaftan geyilirdi (125). Bu yolla döyüşçülər özlərini düşmən zərbələrindən eti-

barlı şəkildə mühafizə edirdi. "Albaniya tarixi"nə görə keçədən paltar geymiş döyüşçüyə qılınc və nizə ilə xətər yetirmək olmurdu (126). Ancaq bu sözlərdən məlum olmur ki, döyüşçünün mühafizəsini təkcə keçə təmin edirdi, yoxsa keçənin altından zirehli geyim də geyilirdi.

M.Kalankatuklu Sünik knyazı Basikin döyüşə hazırlanmasını təsvir edərkən onun çar zirehini əyninə geydiyini qeyd edirdi (127). Ola bilsin ki, çarlar, sərkərdələr, qoşun başçıları və s. üçün adi zirehli geyimdən fərqlənən xüsusi zirehli geyim də hazırlanırdı. Belə zirehli geyimlər başqalarından yüngüllüyü və etibarlılığı ilə fərqlənə bilərdilər və döyüşçünün tam sərbəst fəaliyyətinə təminat yaradardılar.

"Albaniya tarixi"ndə knyaz Babikin mühafizə dəbilqəsi də təsvir edilmişdir (128). Dəbilqələr döyüşçünün baş və boyun nahiyyəsini qoruyan mühafizə vasitəsi idi və alban döyüşçüləri də ondan geniş istifadə edirdilər. Onlar forma və düzəldildiyi material etibarilə müxtəlif idilər. Strabon albanların iberlər kimi vəhşi heyvan dərisindən dəbilqə qoyduqlarını göstərir (129). Digər mənbələrdə də albanların dəbilqə qoyması qeyd edilir (130). Ancaq dəbilqənin xüsusiyyətləri barədə heç nə deyilmir. Çox güman ki, vəhşi heyvan dərisindən hazırlanmış dəbilqə adi papaq deyildi. Ola bilsin ki, bu dərilər xüsusi olaraq aşılanırdı və onun mühafizə keyfiyyətlərini artırmaq üçün müəyyən şəklə salınırdı. O biri tərəfdən vəhşi heyvan dərisindən hazırlanan dəbilqəni geyən döyüşçü mühafizə olunmaqla bərabər, həm də özünü vəhşi heyvanlar kimi güclü, qüdrətli göstərməyə çalışırdı.

Albanlar eyni zamanda metal dəbilqədən də istifadə edirdilər. Belə dəbilqələr döyüşçünün baş və boyun nahiyyəsini daha etibarlı şəkildə mühafizə edirdi. Qazıntılar zamanı tapılmış dəbilqələr göstərir ki, onlar mürəkkəb quruluşda olmuşlar və onların hazırlanmasında alban sənətkarları artıq müəyyən təcrübə də əldə etmişdilər. Qazıntılar zamanı tapılmış tunc dəbilqələrdən biri bunu qabarıq şəkildə nümayiş etdirir (131). Bu dəbilqə sənətkarlar tərəfindən iki ayrı-ayrı hissələr şəklində döymə üsulu

ilə düzəldilmiş və sonra bir-birinə bərkidilərək baş geyimi halına salınmışdı. Sənətkarlar döyüşçünün qorunması üçün də dəbilqənin etibarlı olmasını nəzərə almışdılar. Bunun üçün dəbilqənin yanında metal hissə çənəyə doğru uzadılmış və bir növ ona qulaqlı papaq şəkli verilmişdi. Alın hissəsində isə dəbilqənin kənarından xaricə doğru bucaq altında çıxışlar var idi.

Qazıntılar zamanı bürüncdən düzəldilmiş dəbilqə də tapılmışdır (132). Bu dəbilqənin təpəsində yuxarı uzanan bir trubka da vardır ki, onun da lələk taxılması üçün nəzərdə tutulduğu güman edilir.

## 4. Müdafiə divarları və qalaları

Albanlar xarici istilaçılardan qorunmaq üçün təkcə qoşunların kəmiyyət və keyfiyyətinə, onların maddi-texniki bazasının genişlənməsinə deyil, həm də güclü müdafiə-istehkam işlərinin aparılmasına böyük diqqət yetirirdilər. Bunun üçün onlar yaşayış məskənlərinin coğrafi cəhətdən az qüvvə ilə müdafiəsi üçün əlverişli şəraitdə tikmələri ilə bərabər iri yaşayış məskənlərinin ətrafında müdafiə divarları, xəndəklər və başqa süni maneələr çəkirdilər. Arxeoloji qazıntılar da hələ qədim dövrlərdən Albaniya şəhərlərinin ətrafında belə istehkam qurğularının olmasını aşkar etmişdir. Xüsusən, miladın V əsrinə kimi Albaniyanın paytaxtı olmuş Qəbələnin ətrafında tapılmış qala divarlarının qalıqları onların şəhərin müdafiəsi işində oynadığı rolu təsəvvür etməyə imkan verir. Tarixçilər Qəbələnin meydana gəlməsini və onun ətrafında müdafiə divarlarının çəkilməsini e.ə. IV əsrə aid edirlər (133). Qədim albanlar xarici istilaçılardan yaxşı qorunmaq üçün Qəbələnin ətrafında istehkam qurğularının tikilməsindən əlavə şəhərin salınması üçün də çox əlverişli coğrafi şərait seçmişdilər. Qəbələ ticarət yollarına yaxın yerdə tikilməklə bərabər, həm də dağların ətəklərində yerləşməsi onun normal inkişafına şərait yaradırdı. Qəbələ ətrafında axan çayların dağlarda yaratdığı yarğanlar düşmən

qüvvələrinin hərəkətinə böyük çətinliklər yarada bilərdi. Qəbələnin şimal sərhədlərinin ilin çox vaxtı qar və buzlaqlarla örtülü olması buraya həmin istiqamətdən basqınların olacağı ehtimalını xeyli azaldırdı (134). Qəbələnin bütünlüklə əlverişli coğrafi şəraitə malik olması onun müdafiəsini xeyli asanlaşdırırdı. Bu mahalın ərazisində on keçid var idi. Onlardan altısı şimal tərəfdə, dördü isə cənub tərəfdə idi (135). Ona görə də mahalı bütün sərhəd boyu deyil, əsasən bu keçidlərdə qorumaq lazım gəlirdi. Başqa yerlərdən düşmənin keçib gəlməsi ehtimalı çox az idi. Nəticədə də müdafiə qüvvələrinin yayılmasının qarşısı alınır və onlar əsas nöqtələrdə cəmləşdirilirdi. Belə keçidlər xarici istilaçılara qarşı güclü müdafiə təşkil edib sonra əks-hücuma keçmək üçün əlverişli idi.

Arxeoloji tədqiqatlar nəticəsində müəyyənləşdirilmişdir ki, Qəbələnin qədim hissəsi Qaraçay və Qocalançayın arasındakı təpəlikdə yerləşirdi. Qəbələ qalası 25 hektar sahəni tuturdu. Ona giriş güclü müdafiə qurğuları və süni xəndəklərlə möhkəmləndirilmişdi (136). Müdafiə divarlarının uzunluğunun 1 km-ə qədər olduğu güman edilir. Bu divarlar öz ölçülərinə görə çox möhtəşəm olmuşdu və onlar şəhərin müdafiəsini təmin edirdilər. Ayrı-ayrı hissələrdə divarların hündürlüyü 6 metr, bünövrədə eni isə 15 metrə çatırdı (137).

Qəbələ ətrafında bir sıra digər müdafiə qalaları da tikilmişdi (138) ki, onlar da yerli əhalinin düşmən hücumlarından qorunmasında böyük əhəmiyyətə malik idilər.

Albaniyanın istehkam qurğuları içərisində şimal tərəfdən Xəzər dənizinin qərb sahili boyunca Xəzərlə Qafqaz sıra dağları arasında qaldırılmış istehkam divarlarının böyük əhəmiyyəti var idi. Albaniyanın bu hissəsi onun ərazilərinə hücum edə bilmək üçün şimal tayfalarının istifadə edə biləcəyi ən asan və münasib keçid idi. Şimal tayfalarının yürüşlərinin qarşısını almaq üçün Qafqaz dağları ilə Xəzər dənizinin arasındakı ensiz keçidlər həm də möhkəm müdafiə divarlarının tikintisi üçün əlverişli sahələr idi və bu sahələrdən müdafiə məqsədilə

istehkamlar tikilməsinə və möhkəmləndirilməsinə albanlardan başqa onun ərazilərini sonradan işğal etmiş sasanilər, sonra isə ərəblər də ciddi əhəmiyyət verirdilər (139).

Xəzər dənizi boyu keçiddən şimal tayfalarının amansız hücumlarının qarşısını almaq üçün burada bir neçə müdafiə divarı tikilmişdi. Hazırda Xəzər dənizi ilə Qafqaz dağları arasında tikilmiş bu müdafiə divarlarından beşi məlumdur. Abşeron yarımadasının şimalında Beşbarmaq müdafiə divarları, ondan 23 kilometr şimalda tikilmiş olan Hil-Hil çay və ya Şabran müdafiə divarları, Samur çayının şimalında, Torpaqqala yaxınlığındakı müdafiə divarı, Dərbənd divarları və nəhayət Dərbəndin şimalında qalıqları tapılmış olan müdafiə divarları (140).

Beşbarmaq müdafiə divarları öz təyinatı üzrə əhəmiyyətli rola malik olduğundan orta əsrlər ərəb tarixçilərinin və coğrafiyaçılarının da diqqətini özünə cəlb etmiş və bu maraq onların əsərlərində də öz əksini tapmışdır. Həmin yazılı mənbələrdən məlum olur ki, Beşbarmaq müdafiə divarı miladın V əsrinin birinci yarısında sasani hökmdarları tərəfindən tikdirilmişdi (141). Heç şübhəsiz ki, istər bu və ya bu zonada mövcud olan digər müdafiə istehkamlarının tikintisində yerli əhali böyük zəhmət çəkmişdi.

Sasani hökmdarı Qubad tərəfindən Beşbarmaq müdafiə divarlarından 23 km şimalda Hil-Hil çayı boyunca başqa bir müdafiə divarlarının əsası qoyulmuşdu. Tədqiqatçıların fikrincə, bu müdafiə istehkamlarının uzunluğu 30 km olmuşdur. Həmin divarların özülünü qaya parçaları təşkil etmiş, divar özü isə 42 sm x 42 sm x 12 sm ölçülərində olan çiy kərpicdən tikilmişdi. Divarın qalınlığı 8 metrə, ayrı-ayrı yerlərdə isə hündürlüyü 5-6 metrə çatırdı (142).

Samur çayının şimalında 80 verst uzunluğunda olan müdafiə divarlarının da Qubadın şahlığı dövründə tikildiyi güman edilir (143).

Albaniya ərazisində tikilmiş ən möhtəşəm və böyük müdafiə divarlarından biri Dərbənd şəhəri ətrafındadır. Bu şəhər

ölkənin şimalında Xəzər dənizi ilə Qafqaz dağları arasındakı ən dar keçidlərin birində tikilmiş və mühüm ticarət yollarının üzərində salındığı üçün özü də böyük sürətlə inkişaf tapmışdı. Dərbəndin inkişafına diqqət yetirilməsi həm də onun strateji əhəmiyyətli bir nöqtədə yerləşməsindən irəli gəlirdi. Şimal tayfaları Albaniya ərazisinin içərilərinə soxulmaq üçün bu keçiddən keçməli idilər. Ona görə də bu keçidin etibarlı şəkildə qorunması alban şəhərlərini, eləcə də sasanilər imperiyasını yadelli hücumlardan qoruya bilərdi.

Dərbənd müdafiə divarlarının əsasının qoyulması və tikilməsi sasani hökmdarı Qubadın və onun oğlu Xosrov Ənuşirəvanın hakimiyəti illərinə aid edilir (144). Bəzi mənbələrdə isə bu divarların əsasının qoyulması II Yezdəgirdin hakimiyyəti illərinə aid edilir (145). Divarların tikintisinin əsas ağırlığı albanların üzərinə düşmüşdü. M.Kalankatuklunun yazdığına görə, bu möhtəşəm tikintini başa çatdırmaq üçün sasani şahları Albaniyanın bütün memarlarını, tikinti vasitələrini və əşyalarını, işçi qüvvəsini səfərbərliyə alaraq ölkəni taqətdən salmışdılar (146). Çünki bu tikintinin həcmi çox böyük idi və onun icrası ölkənin bütün qüvvələrini səfərbərliyə almadan mümkün deyildi. Divarların üzərində mövcud olan yazılı kitabələrdən aydın olur ki, bu tikinti miladın 567-ci ilində başa çatmışdı (147).

Müdafiə divarlarının tikintisində əsasən yerli materiallardan istifadə edilirdi. Onun hörgüsündə daş bloklar işlədilirdi. Bu daş bloklar əsasən divarın üz tərəfində hörülürdü (148). Həmin daş blokların ölçüləri 100 sm x 70sm x 35 sm olmuşdu (149). Onlar çox böyük ağırlığa malik olduqlarından güman etmək olar ki, Dərbənd divarlarının tikintisində xüsusi texnikadan istifadə olunmuşdur. Divarın memarları bu istehkamların düşmən zərbəsinə tab gətirməsi üçün möhkəmliyinə xüsusi fikir verirdilər. Ərəb coğrafiyaçılarının yazdığına görə divarın möhkəmliyini artırmaq üçün onun hörgüsünə işlənən daş bloklar ortadan deşilir və onlar dəmir barmaqlıqlarla bir-birinə birləşdirilir, sonra da daşların deşiklərinə əridilmiş qurğuşun tökə-

rək onları bərkidilirdi (150). Məlumdur ki, divarların qalınlığı da böyükdür. Bu ölçü 2-4 metr arasındadır (151). Divarın üz tərəfinə daş bloklar qoyulduqdan sonra onların arasındakı məsafənin hörülməsində adi daşlardan istifadə edilmişdi (152). Divarın hündürlüyü 18-20 metr (153), hətta ayrı-ayrı yerlərdə 20-25 metrə çatırdı (154). Dərbənd müdafiə divarlarının ümumi uzunluğu isə tədqiqatçıların fikrincə 40 kilometrə çatırdı (155).

Memarlar Dərbənd müdafiə divarlarının etibarlığını incəliyinə qədər hesablaya bilmişdilər. Divarın həm yuxarıdı dağla birləşən, həm də dənizə sarı uzanan hissəsi elə tikilmişdi ki, ölkəyə hücum etmək istəyən yadellilər nə yuxarıdan, nə də aşağıdan Albaniya ərazisinə soxula bilsinlər. Bunun üçün onlar divar qapılarından keçməli idilər. Bu isə elə də asan deyildi.

Dərbəndən şimalda izləri qalmış başqa bir müdafiə divarı da düşmən hücumlarının qarşısını almaqda müəyyən əhəmiyyətə malik idi və onun da sasanilər dövründə tikilməsi güman edilir (156).

M.Kalankatuklunun yazdıqlarından aydın olur ki, Xəzər dənizində baş verən güclü tufanlar Dərbənd divarlarından da yüksək qalxaraq onun bir hissəsini dağıda bilmişdi. Bundan istifadə edən Xəzər tayfaları 628 ildə Çola şəhərinə daxil olub ona güclü dağıntılar yetirmişdilər (157). M.Kalankatuklu xəzərlərin alban torpaqlarına çox böyük dəhşətlər gətirdiklərini yazırdı (158).

Xəzərlər bu yürüşləri zamanı Bərdəyə kimi gəlib çıxmışdılar və M.Kalankatuklunun Bərdəni qala şəhəri adlandırmasından (159) güman etmək olar ki, bu şəhərin ətrafında da müdafiə istehkamları var idi.

Ümumiyyətlə, tarixçilərin fikrincə miladın III-IV əsrlərində Dərbənddən Dəryal çölünədək Albaniya ərazisində 360 qala olmuşdur ki, onlar da az qüvvə ilə düşmən hücumlarından müdafiə olunmağa kömək edirdi (160).

## 5. Albaniya qoşunları

Albaniya ərazisində istehkam tikililərinin sayının çox olmasına baxmayaraq alban çarları yaxşı başa düşürdülər ki, istehkam tikililəri müdafiə qayğılarını nə qədər asanlaşdırsa da dövlətin və xalqın mənafelərinin qorunması üçün başlıca olaraq güclü və hazırlıqlı qoşunlar lazımdır. Antik müəlliflərin, qədim tarixçilərin və coğrafiyaçıların müvafiq qeydlərindən görmək olar ki, Albaniya kifayət qədər güclü qoşunlara malik idi. Mütəmadi olaraq Roma, Parfiya, Sasanilər, şimal tayfaları və digər qoşunların hücumlarından müdafiə olunmaq alban silahlılarının da döyüş təcrübəsini yuxarı qaldırmışdı.

Alban qoşunları iki növə bölünürdü: piyada və atlı qoşunları. Bu qoşun növləri də öz növbəsində qoşun qisimlərinə bölünürdü. Atlı qoşun növü yüngül və ağır süvari qoşun qismindən ibarət idi. Yüngül süvarilər yüngül və uzaq təsirli silahlarla silahlanırdılar. Süvarilərin əsasını isə ağır süvarilər təşkil edirdilər. Ağır süvarilər zireh geyirdilər, uzun nizələrlə silahlanırdılar və bundan əlavə atlara da xüsusi zirehli libas geyindirirdilər (161).

Piyada qoşun növü də bir neçə qoşun qisminə bölünürdü. Strabon cida və ox-yayla silahlanmış qoşun qisimlərinin mövcudluğunu təsdiq edir (162). İlk orta əsr mənbələri isə albanların piyada qoşunlarında ox-kamanla silahlananlardan başqa qalxan gəzdirən qoşun qisminin olduğunu qeyd edirlər (163). Çox güman ki, qalxan gəzdirənlər hər hansı zərbə silahı ilə təchiz olunmuşdular. Əgər nəzərə alsaq ki, alban qoşunlarının strukturu, silah və təchizatı iberlərinkindən az fərqlənirdi (164) onda bu qoşunların struktur və silahlarını öyrənməklə alban qoşunlarının struktur və silahları barədə də bəzi qənaətlərə gəlmək olar. Qonşu ölkələrin qoşunları da piyada və atlılardan ibarət idi. Bu qoşunlarda yüngül piyadalar ox atanlardan və cida atanlardan təşkil edilmişdi. Onlar böyük qalxan da gəzdi-

rirdilər. Ağır qoşun qismi isə zirehli libas geyinmiş nizə atanlardan ibarət idi (165). İberlərdə həmçinin qılınclarla silahlanmış qoşun qismi də mövcud idi (166). Digər ölkələrdə atlı qoşun nizə və əyri qılınclarla silahlanmış qoşun qismindən, başdan ayağa zireh libasa bürünmüş xüsusi dəstədən və oxatanlar dəstəsindən ibarət idi. Piyadalar müharibə vaxtı yığılırdı. Romalılarla apardıqları müharibə zamanı bölgə xalqları öz piyadalarında islahatlar aparıb onların yenidən Roma qoşunlarının strukturuna yaxın strukturda qurmuşdular (167). Məlumdur ki, romalılara qarşı mübarizədə atropatenalılar, o cümlədən albanlar da iştirak edirdilər. Bu mübarizədən qalib çıxmaq üçün albanların qonşuları öz qoşunlarını yenidən qruplaşdırdılar. Bu yenidənqurmanın alban qoşunlarını əhatə edib-etmədiyini söyləmək çətindir. Onların apardığı təcili islahatlar nəticəsində isə "piyadalar atlandırıldı, sapand atanlar mahir atıcıya çevrildi, toppuzlular qılınc və nizə ilə silahlandılar, silahsızlar qalxan və dəmir zirehə büründülər" (168).

Bu müqayisənin verdiyi qənaətdən və albanların qədim yaşayış məskənlərindən tapılmış qılıncların çoxluğundan belə qənaətə gəlmək olar ki, albanlarda qılıncla silahlanmış qoşun qismi də mövcud idi. Sapand atanların, toppuz gəzdirənlərin ayrıca qoşun qismi kimi mövcudluğu barədə qəti fikir söyləmək çətindir. Güman etmək olar ki, qılınc, nizə, ox-yay kimi silahlarla müqayisədə toppuz elə bir aktuallıq kəsb edə bilməzdi və o yaxşı halda döyüşçünün köməkçi silahı ola bilərdi.

Deyilənlərdən əlavə qonşu xalqların qoşunlarında istehkam dəstələri və xüsusi hərbi maşınlar var idi (169). Onlar qoşunların təminat dəstələrinə daxil idi. Heç şübhəsiz ki, alban qoşunlarında da hərbi işin ayrı-ayrı sahələrinin, o cümlədən ərzaq ehtiyatının təminatı ilə məşğul olan xüsusi dəstələr mövcud idi.

Albanlarda qoşunların bir hissəsini (170) daimi qoşunlar təşkil edirdi. Bunun M.Kalankatuklunun "Albanniya tarixi"ndə olan bir sıra məlumatlar da sübut edir. Məsələn, alban çarı

taxtına çıxanda onun sağ-solunda silahlı əsgərlər dayanırdılar (171). Onun həmçinin "şəxsi qarovulçuları", "silahlı gözətçiləri" də var idi (172). Onlar sayca heç də az deyildilər və dövlətin ali baş komandanını hərəkət zamanı müşayət edirdilər (173). Bütün bu dəstələr Albaniyadakı daimi qoşunların tərkibinə daxil olmalı idilər. Bu dəstələr xalqdan yığılan verginin hesabına saxlanıla bilərdi.

Alban qoşunlarında daimi qoşun dəstələri kəmiyyətcə azlıq təşkil edirdi və qoşunların əsas hissəsi ölkənin müharibə təhlükəsi ərəfəsində olduğu vaxtlar yığılırdı. Yəni Albaniyada daimi qoşun sistemindən başqa, digər bir sistem də mövcud idi ki, onun üçün çevik səfərbərlik və komplektləşdirmə formalarından istifadə edilirdi. Bu da əsasən yığma xalq qoşun forması idi.

Alban qoşunlarının əsasını yığma qoşunlar təşkil etsələr də onların idarə edilməsində müəyyən bir məqsədyönlülük və nizamlılıq da var idi. Daha doğrusu, alban qoşunlarına rəhbərlik etmək üçün idarəetmə strukturu formalaşmışdı. Ölkənin başı üzərini kəsdirən təhlükə ərəfəsində qoşunların tez bir zamanda cəmləşdirilməsi və onların hərbi tapşırıqları müvəffəqiyyətlə yerinə yetirə bilməsi sübut edir ki, alban qoşunlarının idarəetmə strukturları kifayət qədər işlək keyfiyyətlərə malik idi. Mövcud olan məlumatlarla bu idarəetmə strukturlarının müfəssəl mənzərəsini yaratmaq mümkün olmasa da hər halda bəzi təsəvvürləri əldə etmək mümkündür. Qoşunların ali baş komandanı çar idi (176). Onun yanında isə hərbi idarəetmə aparatı mövcud idi. Hərbi yürüşlərə də əsasən çar özü başçılıq edirdi. Çardan sonra bütün qoşunlara rəhbərlik edən və çara tabe olan komandan da var idi. Bu komandan Albaniyanın sipəhsaları adlanırdı (177). "Albaniya tarixi"ndə göstərilir ki, vəzirlərdən biri sərkərdə Mirherik idi (178). Çox güman ki, qoşunların ümumi komandanı həm də çarın vəzirlərindən biri sayılırdı. Sipəhsalar birbaşa çarın göstərişləri əsasında və onların rəhbərliyi altında fəaliyyət göstərirdilər. Ancaq onların müstəqil surətdə hərbi yürüşlərə başçılıq etdiyi hallar da olurdu

(179). Belə hallarda onlar çar tərəfindən müəyyənləşdirilmiş hərbi tapşırıqların yerinə yetirilməsi ilə məşğul olurdular və sonra ona tapşırığın icrası barədə məlumat verirdilər. Çox güman ki, qoşun növlərinə qoşun rəisləri rəhbərlik edirdilər. Qoşun rəislərinin seçilməsində və təyinatında da əsas səlahiyyət yəqin ki, çara, ali baş komandana məxsus idi. Ola bilsin ki, istər qoşun rəislərinin, istərsə də sərkərdələrin təyin edilməsində sipəhsaların fikir və təklifləri də nəzərə alınırdı. Mənbələr bildirirdilər ki, bölgənin bəzi xalqlarının qoşun rəisləri qılınc və xəncərlə silahlanır və dəbilqə qoyurdular (180). Alban qoşunlarında da bunun oxşarının olduğunu güman etmək olar.

Alban sərkərdələri nizə ilə silahlanıb əyinlərinə zirehli mühafizə libası geyinirdilər. Sərkərdələrin yanında truba çalanlar gedir və döyüş bayrağı aparılırdı (181). Mənbələrin yazdığına görə, alban qoşunları alay (qond (182) və dəstələrə bölünürdü (183). Bu hərbi vahidlərdən hansının daha çox şəxsi heyətə malik olmasını qəti şəkildə müəyyənləşdirmək çətindir. Dəstənin döyüş bayrağına, alayın isə truba çalanlara malik olmasından (184) güman etmək olar ki, dəstə daha böyük hərbi vahid olmuşdur. Çünki tarixən də alay təxminən min nəfərdən ibarət olmuşdur. M.Kalankatuklu "Albaniya tarixi"ndə min nəfərlik və on min nəfərlik hərbi strukturları xatırlamasından (185) güman etmək olar ki, min nəfərlik vahidlər alay, on min nəfərlik vahid isə dəstə olmuşdur.

Albanların qoşunlarının miqdarı barədə müxtəlif rəqəmlər mövcuddur. Bu qoşunlarının miqdarının yüksək həddi çox güman ki, ölkənin başının üstünü alan təhlükənin, ya da qoşunların qarşısına qoyulan hərbi vəzifənin miqyası ilə müəyyənləşə bilərdi. "Albaniya tarixi"ndə bir yerdə alban qoşunlarının sayının 30 min olduğu göstərilir (187). Plutarx isə albanların Pompeylə birinci döyüşündə alban qoşunlarının sayının 40 min (188), ikinci döyüşündə isə 60 min piyada və 12 min süvari qoşuna malik olduğunu qeyd edir (189). Albanların romalılarla ikinci döyüşə Strabonun 60 min piyada və 20 min süvari çıxar-

mışdılar (190). Strabon həmin məlumatın ardınca onu da qeyd edir ki, köçərilər yadellilrə qarşı mübarizədə albanlara və iberiyalılara kömək edirdi. Pompeylə birinci və ikinci döyüşün arasında çox az vaxt olmasına baxmayaraq albanların belə tezliklə öz itkilərini bərpa etməsindən və birinci döyüşlə müqayisədə təxminən iki dəfə artıq qoşun toplaya bilməsindən güman etmək olar ki, albanlara bu döyüşdə də şimal tayfaları kömək etmişdilər və onların hesabına qoşunların sayı artmışdı.

## 6. Hərbi strategiyanın əsas istiqamətləri

Xalqın, dövlətin mənafelərini qorumağa qadir olacaq alban ordusunun möhkəmləndirilməsi, onun yaxşı silahlandırılması, maddi-texniki ehtiyaclarının ödənməsi və ölkənin iqtisadi, mənəvi, siyasi potensialının bu məqsədlər üçün səfərbər edilməsi alban hakimlərinin diqqət mərkəzində dayanan başlıca hərbi strateji məsələ idi. Bununla bərabər xalqın və dövlətin mənafelərinin lazımınca qorunması, vaxtaşırı ölkənin başı üzərini alan müharibə təhlükəsinin qarşısının alınması vacibliyi bir sıra digər hərbi strateji məsələlərin də düzgün qoyuluşunu və həllini tələb edirdi. Məsələn, müxtəlif vaxtlarda Roma, Bizans, Sasani, şimal köçəri tayfalarının, ərəb xilafətinin güclü qoşunları ilə mübarizədə alban xalqının və dövlətinin varlığını, taleyini qorumaq üçün güclü dövlətlərlə hərbi ittifaqlar yaratmaq lazım gəlirdi. Alban çarları bu istiqamətdə çevik siyasət yürütməyə cəhd göstərir və çox halda öz istəklərinə də nail olurdular.

Alban çarlarının əksəriyyəti güclü dövlətlərlə hərbi ittifaqı sadəcə öz hakimiyyətlərini, taxt-tacını qorumaq üçün deyil, ölkənin mənafelərinin qorunması üçün yaradırdılar.

"Alban tarixi"nin ilk səhifələrində M.Kalankatuklu albanların bütün dağlı qəbilələri ilə, gürcülərin bir qismi ilə hərbi ittifaq yarada bilməsindən, bunun nəticəsində də nəhəng qoşun toplayaraq düşmən üzərinə yeriməsindən və hərbi uğur qazanmasından söhbət açır (192).

Arşakilər sülaləsinin hakimiyyəti illərində Albaniyanın müttəfiqlik əlaqələri daha da gücləndi. Ölkənin varlığını qorumaq, onu tamamilə məhv olmaqdan xilas etmək üçün albanlar bu və ya digər ölkənin asılılığını qəbul edir, ona vergilər verməklə Albaniyanın dövlətçiliyini qoruyurdular. Bu zaman Albaniyada hakimliyi də sülalənin nümayəndələri həyata keçirirdilər.

Miladın IV əsrin ortalarından etibarən alban hakimləri regionun getdikcə daha da güclənməkdə olan sasanilər dövləti ilə yaxınlıgı və müttəfiqlik əlaqələri genişləndi. Alban hakimlərindən olan Urnayr sasanilərlə bağladığı ittifaqı nigah əlaqələri ilə də möhkəmləndirmişdi. O, sasani çarı II Şapurun bacısına evlənmişdi. Müttəfiqlik münasibətlərinə sadiq qalaraq Urnayr bir neçə döyüşdə öz qoşunları ilə bərabər Şapurla birlikdə vuruşmuşdu. Mənbələrin verdiyi məlumata görə, 359-cu ildə Amida yaxınlığında romalılarla sasanilər arasında baş verən döyüşdə alban hökmdarı Urnayr I Şapuru müşayiət edirmiş (193). Bu yürüş zamanı Urnayr Şapurun sağ tərəfində hərəkət edirmiş ki, bu da ona göstərilən hörmət və ehtiramdan irəli gəlirdi (194). 369-371-ci illərdə alban hakimi Urnayr öz qoşunları ilə birlikdə Şapurun tərəfində döyüşlərdə iştirak etmişdi (195).

Ancaq sasanilərin albanlara qarşı yeritdiyi siyasət dözülməz olduqda onlar sasanilərlə əvvəllər mövcud olan müttəfiqlik münasibətlərinin davam etdirilməsini qeyri-mümkün saydılar və iberlərlə birlikdə milli-azadlıq hərəkatına qalxdılar. 450-451-ci illərdə başlanan bu hərəkatın qazandığı uğurların başlıca səbəbi də bu xalqların ittifaqda mübarizə aparması olmuşdu. Bu hərəkatın hazırlıq ərəfəsində və gedişində müttəfiqlər Bizansla da ittifaq yaratmağa, bu qüdrətli ölkənin hərbi köməyinə arxalanmağa cəhd göstərdilər (196). Xalq hərəkatının iştirakçılarının sasani zülmünə qarşı mübarizədə hun tayfaları ilə müqavilə bağlamağa nail olması da məlumdur (197). Həmin əlaqələrin yaradılması üçün alban çarları nəslindən olan Vardan hunların başçılarının yanına göndərilmişdi. Sasani zülmünə qarşı birgə mübarizə aparan müttəfiq qoşunları Dərbəndə

qədər irəlilədikdən sonra "onlar Dərbəndi qoruyan həmin Vardan ölkəsinə səfir göndərdilər və ona hunlarla danışıq aparmaq və sarsılmaz ittifaq müqaviləsi bağlamaq haqda tapşırıq verildi. Bütün baş verən hadisələr barəsində xəbərlər eşidən hunlar hər şeyi öz gözləri ilə görmək üçün oraya nümayəndə göndərdilər və görəndən sonra səmalardan endirilmiş qanunlara əsasən and içdilər, xaçpərəstlərin möhkəm ittifaq haqda andlarını qəbul etdilər. Beləliklə, bütün arzularına nail oldular" (198).

Arşaki hökmdarı II Vaçenin rəhbərliyi ilə sasanilərə qarşı aparılan mübarizədə albanlar şimal xalqları ilə hərbi ittifaq yaratdılar. Albaniya çarı Dərbənd keçidini açıb maskutları dəvət etdi. II Vaçe on bir dağlı çarı ilə ittifaq bağlayaraq sasani qoşunları üzərinə hücum etdi və onlara xeyli tələfat yetirdi (199).

Alban hökmdarı və sərkərdəsi Cavanşir də ölkənin müstəqilliyinin qorunması işində hərbi müttəfiqlərin tapılmasına xüsusi diqqət yetirirdi. O, hələ atasının hakimiyyəti illərində komandanı olduğu qoşunlarla sasani şahları ilə ittifaqda ərəb qoşunlarına qarşı vuruşurdu (200). Sasanilərin zəifləməsindən istifadə edərək ölkənin tam müstəqilliyinə nail olmaq üçün o, gürcülərlə ittifaq bağlamışdı və bu mübarizədə onların gücündən istifadə edirdi (201). Cavanşirin hərbi-diplomatik tədbirləri xüsusilə Bizans və ərəb xilafəti ilə münasibətdə daha qabarıq və səmərəli nəticələr verirdi. Bu iki dövlətin gücündən və nüfuzundan müxtəlif vaxtlarda bacarıqla istifadə edən Cavanşir ölkəsinin müstəqilliyini qorumaqla bərabər özü də bir təcrübəli dövlət xadimi kimi ölkənin daxilində və xaricində hörmət və ehtiram qazanmışdı və hətta onun nüfuzundan ölkədən kənarda mövcud olan bəzi nifaqların aradan qaldırılmasında istifadə edilirdi (202). Regionda yaranmış hərbi şəraiti düzgün qiymətləndirməyi bacaran Cavanşir ərəb xilafətinin güclü bir dövlət kimi regionda meydan oxumağa başladığı ilk vaxtlar Bizans hökmdarı ilə ittifaq bağlamışdı (203) və hadisənin sonrakı gedişi də göstərdi ki, konkret tarixi şəraitdə Cavanşir düzgün addım atmışdı. Cavanşir Bizans imperatoru ilə münasibətlər

yaratmaq üçün ona məktub göndərmiş və ondan albanları himayə altına almağı xahiş etmişdi. Bizans imperatoru Konstantin Avqust Cavanşirin bu təklifini böyük razılıqla qarşılamaqla və ona qiymətli hədiyyələr göndərməklə bərabər, həm də alban əyanlarına müxtəlif rütbələr vermək barədə fərman qəbul etdi (204). Onun Cavanşirə göndərdiyi məktubda deyilirdi: "Sənə, hökmdar Cavanşirə, Girdıman sahibinə və Albaniya knyazına, apoipata və proton patrikə və şərqin hökmdarına xilaskar xaçın ilahi qüvvəsindən mərhəmət və bərəkət, bizim imperator şəxsimizdən isə salam və məhəbbətimiz. Sənin Allaha məhəbbət və itaətlə dolu təbrik məktubunu aldıq və biz şadıq ki, sən və sənin Şərq məmləkətin bizə tabe olmağa razı oldunuz. Buna görə də biz və bizim oğullarımız əbədi olaraq sizə, sənə və sənin nəsildən-nəslə gələn oğullarına sevgi, səmimiyyət və sarsılmaz məhəbbətlə münasibət bəsləyirik" (205).

Bizansla hərbi ittifaqın yaradılması bütünlükdə albanların mənafeyinə cavab verdiyi üçün Cavanşirin də ürəyindən olmuşdu. O, Bizans imperatorundan məktub alandan sonra "xəlvətə çəkilərək bütün gecəni yatmayıb öz ölkəsinin səadəti haqqında fikirləşirdi" ( 206)

Bizansla ittifaq Albaniyanın mövqelərinin güclənməsinə, daxili sabitliyin möhkəmlənməsinə xeyli kömək etmişdi. Çünki bundan sonra " o öz ölkəsini İberiya sərhədlərindən Dərbəndə və Araz çayına qədər olan torpaqları hakimi-mütləq kimi idarə edirdi" (207).

Bizansla hərbi ittifaqda olarkən Albaniya iki dəfə hunların təcavüzünə məruz qaldı. Cavanşir Hun çarı ilə də dil taparaq sülh yaratmağa və onunla ittifaq qurmağa nail oldu. Cavanşirlə hun hökmdarı arasındakı qarşılıqlı münasibətlər elə güclənmişdi ki, hətta Cavanşirin ölümünü hunlar saray sui-qəsdi kimi qiymətləndirib onun qisasını almaq üçün Albaniyaya qoşun yeritmişdilər (208).

Güclənməkdə olan ərəb xilafəti ilə mübarizədə Bizansın getdikcə zəifləməsi Cavanşiri də yeni, daha güclü müttəfiqlər

axtarıb tapmağa sövq edirdi. Əslində, bu vaxtlar regionda ərəb xilafəti daha böyük gücə və nüfuza malik idi və istər-istəməz Albaniya üçün başlıca təhlükə də ərəb xilafəti tərəfindən yarana bilərdi. Buna görə də Cavanşir ərəb xilafəti ilə əlaqələri gücləndirmək üçün tədbirlər görməyə başladı. "Bizans imperatorunun cənub çarı /xəlifəsi/ tərəfindən şəhərlərini alov atəşi kimi udub həzm etməsi və onun saysız-hasabsız xalqlarını qılıncdan keçirməsi nəticəsində zəifləyib əldən düşməsini ...şərqin ulu knyazı Cavanşir öz ölkəsinin taleyi barəsində təşvişli fikirlərə qərq olmuşdu. O qorxurdu ki, cənub orduları onun ölkəsinə soxularaq onu talan edəcəklər. O öz köməyinə saysız Türküstan qüvvələrini də səfərbərliyə ala bilərdi, lakin fikirləşirdi, cənub çarının əsarətinə tabe olmaq daha məqsədəuyğundur" (209).

M.Kalankatuklunun "böyük və geniş istedad, siyasi müdriklik, hökmranlıq qabiliyyəti, insan səxavəti verilmiş" şəxs kimi xarakterizə etdiyi (210) xəlifə I Müaviyə Albaniya ilə ittifaq bağlamağa böyük əhəmiyyət verirdi. Çünki bu ittifaqla Bizansın regiondakı nüfuzu zəifləyər, çox strateji mövqelərə malik olan Albaniya ilə özünə müttəfiq tapar və həmçinin Albaniyanın vasitəsilə albanların mütəfiqi olan hun qoşunlarından da ərəb xilafəti xeyrinə istifadə etmək olardı. Bunun üçün ərəb xilafəti də Cavanşirlə münasibətlərin shamanlanması üçün yollar axtarırdı. Xəlifə öz nümayəndələrini göndərib Cavanşiri yanına dəvət etdi, onunla ittifaq bağladı, Cavanşirlə və alban xalqı ilə möhkəm dost olacağına and içdi (211).

İkinci görüşləri zamanı da Cavanşir ərəb xəlifəsi tərəfindən belə hörmət və ehtiramla qarşılandı. Bu dəfəki səfəri zamanı Cavanşir 50 nəfərlik böyük bir nümayəndə heyəti ilə Dəməşqə yollandı (212). Xəlifə ilə apardığı sülh danışıqları zamanı M.Kalankatuklunun yazdığına görə, Cavanşir öz ağıl və fərasətini bir daha nümayiş etdirdi. "Albaniya tarixi"ndən məlum olur ki, bu görüşləri zamanı Cavanşir xilafətlə Bizans arasındakı münasibətlərin normallaşmasına da müsbət təsir göstərdi və Bizansın nümayəndələri onun bu işini minnətdarlıqla qarşıladılar (213).

Alban xalqının və dövlətinin mənafelərini əks etdirən hərbi strateji məsələlərin həllində dövlətin rəhbərləri ilə bərabər cəmiyyətdə yüksək mövqe tutan din xadimləri də böyük əməli işlər görmüşdülər. Camaat arasında olan nüfuzundan istifadə edən yüksək mənsəbli din xadimləri şərait tələb edəndə xalqı səfərbər edir, onun mübarizəsinə, hərbi-siyasi ittifaqların yaradılması işinə rəhbərlik edirdilər.

Miladın 450-451-ci illərində Sasani hökmranlığına qarşı Cənubi Qafqazda birləşmiş üsyanın gedişində albanların mübarizəsinə ölkənin katalikosu və qoşun başçısı başçılıq edirdilər (214). Bununla bağlı sözsüz ki, üsyanın gedişində alban silahlılarının iştirakı ilə aparılacaq döyüşlərin müəyyənləşdirilməsində, bu mübarizəyə silahlı qüvvələrin səfərbər edilməsində, onların təmin və təchiz edilməsində ölkə katalikosunun təşkilati fəaliyyəti mühüm əhəmiyyətə malik olmuşdu.

628-ci ildə xəzərlərin Albaniyaya və Cənubi Qafqaza yürüşləri zamanı Albaniyanı viran olmaqdan ölkə katalikosu Viro xilas etdi. Xəzərlərin xaqanı Cebu Xaqan Tiflisi talan etdikdən sonra o öz qoşunlarını oğlu Şadın sərkərdəliyi altında Albaniya üzərinə göndərdi və qoşunlara belə bir tapşırıq verdi: "Əgər onların ölkəsinin hakim və əyanları mənim oğlumu qarşılayıb öz torpaqlarını onların tabeliyinə versələr, şəhərləri, qalaları və bazaları mənim qoşunlarıma təslim edərlərsə siz də imkan verin onlar yaşayıb mənə qulluq etsinlər. Yox, əgər onlar belə etməsələr onda qoy sizin gözləriniz on beş yaşından yuxarı kişi nəslinə rəhm etməsin, oğlanları isə qadınlarla bərabər mənə və özünüzə qul və kəniz saxlayın" (215).

Bu xəbər Albaniyanı idarə edən Fars mərzbanı Sema Vişnaspa çatanda o, qorxudan ölkəni tərk edib İrana qaçdı. Ölkənin məsuliyyəti patriarx Vironun üzərinə düşdü. Viro Albaniyanı həm xəzərlərin talanlarından, həm də sasani şahının gələcək təcavüzlərindən qorumaq üçün ehtiyatlı hərəkət etməyə çalışdı. O, Şadın elçilərini qəbul etməklə eyni zamanda asılılığını qəbul etmiş olduğu sasani şahına da məktub göndərdi ki,

Şadla danışığa getmək məcburiyyəti onun tərəfindən düzgün qiymətləndirilsin və bu məcburi addım üçün gələcəkdə Albaniyanı sasani şahlarının dağıntısından mühafizə etsin. Sasani şahından cavab gələnə qədər Viro xəzərlərin elçilərinə qiymətli hədiyyələr verib onlardan bir müddət gözləməyi xahiş etdi və bəhanə üçün bildirdi ki, mən ölkənin bütün əyanlarını və bütün vilayətlərinin valilərini çağırıb onlarla birlikdə sizin çarınıza məktub yazacağam (216).

Patriarx Viro tərəfindən xəzərlərə veriləsi cavab gecikdiyindən xəzərlər Albaniyaya hücum etdilər. Albaniyanın "elə bir guşəsi, elə bir qarışı qalmadı ki, onu duman bürüməsin. Bütün kənd və şəhərlərdə, bütün ev və yollarda hamı bir ağızdan "vay, vay" qışqırırdı. Barbarların nəriltisi kəsilmirdi və ölkədə elə bir yer yox idi ki, orada qəzəbli düşmənin ölüm saçan səsi gəlməsin" (217).

Albanlar bu hücumdan qorxaraq dağlara, meşələrə qaçdılar. Caraberd qalası yaxınlığında patriarx Viroya Şadın yeni bir tələbi çatdırıldı. O tələb edirdi ki, xəzərlərin dediklərinə əməl olunsun.

Viro ölkənin taleyi ilə bağlı məsələdə daha müdrik qərar qəbul edilməsi üçün ölkənin adlı-sanlı adamlarını, şah nəslindən olan zadəganları, vilayət valilərini, kəndxudaları, keşişləri və məmurları Caraberd qalasına (218) toplayıb məsləhətləşdi və ölkəni xəzər qoşunlarının gətirdiyi faciələrdən xilas etmək üçün onlarla ittifaq bağlamağa razılıq aldı.

Patriarx Viro çoxlu hədiyyələrlə Şadın yanına yollandı və onun şərtlərini qəbul etməyə hazır olduğunu bildirdi. İkitərəfli danışıqlar zamanı Viro Şaddan xəzərlər tərəfindən əsir və girov götürülmüş albanların azad edilməsini xahiş etdi. Şad Vironun xahişinə müsbət cavab verib əsirlərin azad edilməsi barədə göstəriş verdi. Beləliklə də katalikos Vironun tədbirli hərəkətləri nəticəsində alban əsirləri və girovları azad edilməklə bərabər ölkədə də sabitlik bərqərar oldu.

Hökmdar və sərkərdə Cavanşirin ölümündən sonra hunlarla danışıqlar aparmaq və ölkəni növbəti dağıntılardan qurtarmaq üçün onların yanına böyük katalikos Yeliazar göndərilmişdi (219). Katalikos hunların sərkərdələri ilə danışıqlar apararaq onları qarşılıqlı əlaqələrin bərqərar edilməsinin məqsədəuyğunluğuna inandıra bildi (220). Katalikos Yeliazar da hunları əmin edə bildi ki, Cavanşirin ölümü saray çevrilişi deyil və bu hadisədən alban xalqı özü də böyük bir sarsıntı keçirməkdədir.

Bir müddətdən sonra Albaniya knyazı Varaz-Tiridat hunlarla olan ittifaqı daha da möhkəmləndirmək üçün onların ölkəsinə nümayəndələr göndərməyi qərara aldı və ona rəhbərlik Böyük Kolmanin vilayətinin yepiskopu İsrailə tapşırıldı (221). Yepiskop İsrail də dövlətin və xalqın mənafeləri naminə ona tapşırılmış vəzifənin öhdəsindən kifayət qədər müvəffəqiyyətlə gələrək hunlarla olan ittifaq münasibətlərini daha da möhkəmləndirdi.

İstər hərbi ittifaqların bağlanmasında, istərsə də ölkənin və xalqın həyati mənafelərinə cavab verən bütün hərbi-strateji məsələlərin həyata keçirilməsində alban hakimləri də xüsusi rola malik idilər. Dövlətdə tutduqları yeri və mövqeləri ilə bağlı olaraq qoşunların təşkil edilməsi, onların təchizi və möhkəmləndirilməsi üçün ölkənin bütün imkanlarının səfərbər edilməsində, xarici siyasətin düzgün qurulmasında, xalqın gücünün ölkənin müdafitəsinə və qoşunların möhkəmləndirilməsinə istiqamətləndirilməsində alban hakimlərinin üzərinə böyük məsuliyyət düşürdü. Dövlət və hərbi rəhbərliy özündə birləşdirən alban hakimlərinin təşkilatçılıq qabiliyyəti, hərbi intuisiyaları və şəxsi keyfiyyətləri, dövlətçilik və hərbi təcrübələri alban xalqının mütəmadi olaraq başı üzərini alan hərbi təcavüzlərin dəf edilməsində böyük əhəmiyyətə malik idi.

### 7. Alban sərkərdələrinin hərbi keyfiyyətləri

Mənbələrdə alban hakimləri həm də cəsur sərkərdələr kimi xarakterizə olunurlar. Hərbi yürüşlərə əsasən özləri başçılıq edən alban hakimləri öz döyüş keyfiyyətləri ilə qoşunları da mübarizəyə ruhlandırır, şəxsi qəhrəmanlıq nümunələri göstərirdilər. Hələ Roma işğalçılarına qarşı mübarizədə alban hakimləri Oroys və Zober haqqında olan kiçik məlumatlardan onların təkcə dövlət rəhbəri və qoşunların ali baş komandanı kimi müdafiənin təşkilindəki xidmətləri deyil, sərkərdə kimi qoşunların ayrı-ayrı dəstələrinə başçılıq etmələri və düşmənlə əlbəyaxa döyüşə girməkdən çəkinməmələri bu şəxslərin hansı xarakterik xüsusiyyətlərə malik olmasından xəbər verir. Roma qoşunlarının uzun müddət Albaniya üzərində möhkəmlənə bilməməsində və bunun başlıca səbəbi kimi xalqın müdafiə fəallığının genişlənməsində heç şübhəsiz ki, alban hakimlərinin də böyük xidmətləri var idi.

Alban hakimlərinin sərkərdəlik bacarığı və qabiliyyəti barədə M.Kalankatuklunun "Albaniya tarixi" kitabında da maraqlı məlumatlar vardır. Albanların tarixi haqqında əvəzsiz mənbə olan bu kitabda haqqında danışılan alban hakimlərinin demək olar ki, hamısı işgüzar, müdrik, səriştəli, təcrübəli, güclü və qüdrətli hökmdarlar kimi xarakterizə olunurlar. Alban xalqının xarici istilaçılara qarşı inamla mübarizə aparması onların əldə etdikləri daxili və xarici uğurlar başlıca olaraq alban çarlarının adı ilə bağlanılır.

Arşakilər sülaləsinin ilk hakimi I Vaçaqanın "cəsur Vaçaqan" kimi təqdim olunması (222) onun cəsurluğundan, mübarizliyindən xəbər verir. Hökmdar Urnayr da "Albaniya tarixi"ndə "cəsarətli insan" kimi təqdim olunur (223). M.Kalankatuklunun yazdıqlarından məlum olur ki, Urnayr "çoxlu döyüşlərdə parlaq şöhrətlər qazanıb ermənilər arasında da qələbə bayrağını sancmışdı" (224). Bu qısa qeydlərdən belə bir qəna-

ətə gəlmək olar ki, hökmdar Urnayr xarici istilaçılarla apardağı mübarizədə təkcə strateji rəhbərlik deyil, həm də taktiki rəhbərliyi özündə birləşdirirdi. Daha doğrusu, Urnayr onun dövründə aparılan müharibələrə ölkəni, qoşunu səfərbər etməklə bərabər, döyüşlərə də özü rəhbərlik edirdi.

Alban hakimlərinin dövlət siyasətində, o cümlədən onun tərkib hissəsi olan hərbi siyasətdə uğur qazanmasının əsas səbəblərindən biri onların xalqa dayaqlanması, xalqın gücünü düzgün istiqamətləndirə bilmələri ilə bağlı olmuşdu. Ümumxalq mənafelərinin müdafiə edilməsində, ölkə ərazilərinin bütövlüyünün və dövlətçiliyin qorunmasında xalqın arzu və istəklərinin hakimlərin iradəsi və fəaliyyət istiqamətləri ilə üst-üstə düşməsi real qüvvəyə çevrilərək ölkənin qorunmasında xüsusi həmiyyət kəsb edirdi. Alban hakimi II Vaçe sasanilərin ağalığından xilas olub müstəqilliyə nail olmaq üçün üsyan qaldıranda da ancaq xalqa arxalanırdı, onun böyük gücünü səfərbər edib istiqamətləndirməyə çalışırdı. II Vaçenin qaldırdığı üsyan hərbi qiyam, ümumxalq mənafelərinə xidmət etdiyi üçün xalq kütlələri də son ana kimi Vaçeni tərk etmədilər. Ölkənin böyük bir hissəsi dağılsa da, qoşun zəifləyib gücdən düşsə də sasanilər albanların öhdəsindən gələ bilmədilər (225). Maraqlısı budur ki, II Vaçe də ən çətin vəziyyətlərdə belə xalqın mənafelərinə xəyanət etmirdi, "mənim üçün... işgəncəli ölüm dönüklükdən daha yaxşıdır" (226) - deyirdi və sasanilərin xarici müttəfiqlərinin köməyi ilə albanların üsyanını yatırmağa müvəffəq olduqda belə o öz xalqını tərk etmədi və çətin mübarizədə ona arxa və qüvvə mənbəyi olan alban xalqı ilə birlikdə yaşamağı qərara aldı. M.Kalankatuklu II Vaçeni bu mübarizədə xalqın iradəsini əks etdirdiyini və öz şəxsi mənafeləri naminə xalqına üzüdönüklük göstərmədiyinə görə onu "müqəddəs hakim" adlandırır və yazırdı: "...Vaçe öz mülkü naminə yox, öz dini uğrunda döyüşürdü" (227). Sözsüz ki, Vaçenin öz dini uğrunda vuruşmasını geniş mənada başa düşmək lazımdır. Ən azı ona görə ki, Albaniyada xristian dinini bərqərar etmək üçün

ilk növbədə ölkənin müstəqilliyinə nail olmaq lazım gəlirdi. Bu isə həm dinin yayılmasına və möhkəmlənməsinə, həm də daxili sabitliyin yayılmasına əlverişli şərait yaradırdı.

Alban hökmdarlarının xarakterik cəhətlərindən biri də bu idi ki, onlar alban xalqının güclü və qüdrətli olması üçün onun daxili quruculuq işlərinə də ciddi diqqət yetirirdilər. Mənbələrdə alban hakimlərinin, xüsusən də Vaçaqanın və Cavanşirin bu istiqamətdəki fəaliyyəti barədə maraqlı faktlar mövcuddur. 30 illik fasilədən sonra Albaniyada dövlət quruluşunun bərpa edilməsinə nail olan III Mömün Vaçaqan səxavətli və sülhsevər bir insan idi (228). O, ölkədə yaranmış dinc şəraitdən istifadə edərək dövlətin güclənməsi üçün əhəmiyyətli işlər görürdü. Vaçaqan daxili quruculuqla məşğul olub sasani hakimlərinin alban əyanlarının əlindən aldığı torpaq sahələrini geri qaytarır və iqtisadiyyatın inkişafının qayğısına qalırdı. III Vaçaqan alban gənclərinin elmi-mənəvi səviyyəsinin yüksəldilməsini də yaddan çıxarmırdı. Bu məqsədlə onun göstərişinə uyğun olaraq yeni məktəblər açılır, uşaqları bü məktəbə cəlb edir, yoxsul balalarının iaşəsi üçün şəxsi vəsaitindən pul ayırırdı və onların təhsildəki uğurlarını gördükdə "xəzinə tapmış insandan daha çox onlarla fəxr edirdi" (229).

Cəmiyyətin müxtəlif təbəqələri arasında meydana gələn münaqişələri aradan qaldırmaq  qanunçuluğu möhkəmlətmək baxımından Vaçaqanın qanunvericilik fərmanları da böyük maraq doğurur. Onun qəbul etdiyi fərmanları çarın vəziri kimi ölkə sərkərdəsinin imzalaması həmin fərmanların hərb işinin nizamlanmasında əhəmiyyətli olduğundan xəbər verir.

Cavanşir də bacarıqlı və cəsur bir hökmdar kimi bütün qüvvəsini gücünə arxalandığı xalqınan əmin-amanlığının təmin edilməsinə, ölkənin çiçəklənməsinə və qüdrətinin artmasına sərf edirdi (230). O yaxşı anlayırdı ki, ölkənin etibarlı müdafiəsi üçün ən böyük qüvvə xalqdır və buna görə də Cavanşir özü də ölkənin əhalisini həmişə düşmənlərə qarşı mübarizəyə hazır olmağa çağırırdı. Ən zəruri məqamlarda da Cavanşir

ümumxalq məclisi toplayırdı, bu və ya digər vacib məsələyə dair xalqın münasibətini öyrənirdi. Cavanşirə ərəb xilafəti tərəfindən Atropatenanın hakimliyi təkli olunanda da "dünyanın dörd tərəfinə hakim olub özünü hakimi-mütləqə çevirmək istəmədi. O bu əlavə şöhrətdən imtina edib öz təbii səxavətinə görə daha çox abadlıq və tikinti işlərlə məşğul olmağı və öz ölkəsinin qayğısına qalmağı daha üstün tutdu" ("Alban tarixi"). Yəni Cavanşirin təcavüzkarlıq keyfiyyətləri olmadığı kimi, fəaliyyətinin məqsədini də nəhayətsiz hakimiyyətə və səlahiyyətlərə malik olmaq təşkil etmirdi. Ölkənin çarı və ali baş komandanı kimi Cavanşirin bütün fəaliyyətinin əsasını ölkənin müstəqilliyinin, Albaniya dövlətçiliyinin, alban xalqının əmin-amanlığının, xoş güzəranının qorunub saxlanması təşkil edirdi və bunun üçün o, ərəb xilafəti tərəfindən təklif olunan Atropatena hakimliyi əvəzinə, öz ölkəsinə təyin olunmuş vergilərin azaldılmasını xahiş etdi (231).

Cavanşirin siyasi, mənəvi keyfiyyətlərini fiziki keyfiyyətləri tamamlayırdı. O öz gücü, qüvvəti, döyüşgənliyi ilə ad çıxarmış, dövrünün ən görkəmli sərkərdələrindən birinə çevrilmişdi. Cavanşir öz fiziki gücünü, hərbi təcrübəsini işə salaraq ən çətin vəziyyətlərdən belə çıxış yolu tapmağı bacarırdı, sayca çox olan düşmənin üzərinə yeriməkdən çəkinmirdi. Buna görə də Cavanşir təkcə öz ölkəsində deyil, onun hüdudlarından xeyli uzaqlarda şöhrət tapmışdı və ən qüdrətli dövlətlərin rəhbərləri onunla ittifaqda olmağa böyük əhəmiyyət verirdi. Bizans imperatoru Konstans onun görüşünə gələn Cavanşiri qarşılamağa şəxsən özü çıxmışdı, böyük ehtiram göstərərək onunla səmimi qarşılıqlı münasibətdə olmuşdu (232). M.Kalankatuklu yazır ki, ikinci görüşləri zamanı Cavanşir Konstansın sarayına imperator kimi daxil oldu və ona bütün əyanlardan yuxarıda yer verildi (233).

Cavanşir ərəb xəlifəsi tərəfindən də belə böyük hörmət və ehtiramla qarşılandı. M.Kalankatuklu yazırdı ki, xəlifə Cavanşirin qeyri-adi müdrikliyini görəndə bu görüş daha dərin məzmun kəsb etdi, çünki xəlifəyə müxtəlif xalqların hakim və

üləması tabe idi, amma bunlardan heç biri ona Cavanşir kimi ağıllı məsləhət verə bilmirdi. Buna görə xəlifə Cavanşirə və onunla gələn qonaqlara qiymətli hədiyyələr bağışladı (234).

M.Kalankatuklu öz əsərində Cavanşiri "şöhrət qazanmış, sevimli, qəddi-qamətli sərkərdə", "öz zəkası ilə hamını hökmranlığına tabe etmiş və xoşbəxtlikdən bütün yer üzünün səadəti ilə yüklənmiş" insan, "öz rəşadəti və qabiliyyəti ilə başqalarından üstün" olan adam kimi xarakterizə edir (235) və buna görə də Cavanşirə edilən sui-qəsdi də ümumxalq faciəsi kimi qələmə verirdi (236).

## 8. Alban qoşunlarında tətbiq olunan taktikanın ümumi məsələləri

Mənbələrdə mövcud olan məlumatlardan aydın olur ki, alban qoşunlarının hərbi taktikası da kifayət qədər inkişaf etmişdi və döyüşlərin yeni meyarları formalaşmağa başlamışdı. Miladdan əvvəlki və sonrakı ilk yüzilliklərdə albanların hərbi taktikasında ənənəvi döyüş üsullarının təkmilləşməsi, daha çevik taktiki üsullara əl atılması müşahidə olunurdu. Əgər əvvəllər ümumi qüvvələr nisbətinin üstünlüyünə və döyüşün taleyinin həll edilməsi üçün tərəflərin əsas qüvvələrinin cəbhə boyu qarşı-qarşıya gəlməsinə daha çox diqqət yetirilirdisə, albanlarda bu taktiki üsullar artıq öz aktuallığını itirirdi. Antik mənbələrdə albanların daha müfəssəl məlumata malik olan ilk döyüşlərindən biri Roma qoşunlarına qarşı mübarizəsidir. Bu döyüşün təsvirindən də görmək mümkündür ki, albanlar bir neçə taktiki vahidə bölünərək düşmən qüvvələrinin üzərinə yeriyib onun qüvvələrini hissə-hissə məhv etməyə cəhd göstərmişdilər (237). Albanlar hücum zamanı sürətə, gözlənilməzliyə, qəfil zərbə ilə düşməni çaş-baş salmağa xüsusi əhəmiyyət verirdilər.

Pompeylə ikinci döyüş zamanı isə albanlar əks-hücum taktikası seçmişdilər. Onlar döyüş meydanının dərinliklərində coğrafi cəhətdən əlverişli mövqelər tutub düşməni yormağa

çalışır, onun hərəkət xətti boyu süni maneələr yaradır, ona itkilər yetirirdi. Görünür, böyük hərb təcrübəsinə malik olan Pompey albanların əks-hücum hazırladığını duya bilmişdi və buna görə də döyüşü həmin taktikaya cavab verə biləcək şəklə salmağa çalışmışdı.

"Albaniya tarixi"nin məlumatlarına əsasən albanların cinah döyüşünə bələd olduqları (238), bu istiqamətdə müəyyən təcrübə əldə etdikləri qənaətinə gəlmək olar. Albanlar vaxtında və çevik surətdə manevr etmək vərdişlərinə malik idilər.

Alban sərkərdələri düşmən üzərinə hücum etmək üçün xüsusi hazırlıq görürdülər. Onlar döyüşün güman edildiyi məntəqəyə gələrək düşmənin yaxınlığında düşərgə salırdılar (239). Qoşunların qruplaşdırılması, taktiki vəzifələrin müəyynləşdirilməsi və hissələrin döyüşqabağı mövqelər tutması bu düşərgədən başlayırdı. Alban sərkərdələri döyüşün bu mərhələsinə xüsusi fikir verirdilər və düşmən qüvvələrinin çoxluğuna, azlığına baxmayaraq öz hissələrinin düzgün yerləşdirilməsini (240) yəqin ki, döyüşün uğuru üçün zəruri zəmin sayırdılar.

Çox hallarda albanlar az qüvvə ilə çoxsaylı düşmən qüvvələri ilə qarşılaşmağa məcbur olurdular. Yüksək taktiki hazırlığa malik olan alban qoşunları qüvvələr nisbətindəki üstünlüyün düşmən tərəfində olduğu təqdirdə belə onlarla döyüşə girməkdən çəkinmirdilər. "Albaniya tarixi"nə görə, azsaylı albanlar çoxsaylı düşmənlə mübarizə aparmağı xoşlayırdılar (241). Buradan belə qənaətə gəlmək olar ki, albanlar bu cür döyüşlərdə xeyli təcrübə əldə etmişdidər. M.Kalankatuklu sübut kimi Cavanşirin Şakaşen vilayətində azsaylı qüvvələrlə sasani qoşunlarına qarşı vuruşmasından və uğur qazanmasından söhbət açır. Burada baş verən iki döyüşdə Cavanşir və döyüşçüləri xeyli sayda iranlını, o cümlədən onların bir neçə minbaşısını öldürdülər (242). Azsaylı qüvvə ilə çoxsaylı düşmənə üstün gəlməsi isə bir sıra taktiki məsələlərin uğurla həll edilməsindən irəli gələ bilərdi. Belə döyüşlərin uğuru hər şeydən əvvəl onunla şərtlənirdi ki, albanlar istənilən vaxt, istənilən istiqamətdə

qüvvə və zərbə üstünlüyünü yarada bilirdilər, əsas və başlıca zərbənin haradan vurulmasının məqsədəuyğunluğunu dəqiqliklə müəyyənləşdirirdilər. Bu məqsədlə alban sərkərdələri sürət və zərbənin gözlənilməzliyinə xüsusi fikir verirdilər (243). Sürət və manevrlərə nail olmaq üçün isə alban yorğa atlarının fiziki keyfiyyətləri alban döyüşçülərinə kömək edirdi.

Alban döyüşçüləri düzənlik sahələrdə olduğu kimi dağ şəraitində də məharətlə döyüşməyi bacarırdılar (244). Hələ Roma qoşunlarına qarşı mübarizədən məlumdur ki, albanlar çətin dağ şəraiti ilə düşməni ölkənin dərinliklərinə çəkir, özləri isə həmin coğrafi şəraitdən daha səmərəli istifadə etməyə çalışırdılar.

Alban döyüşçüləri qala döyüşləri aparmaq təcrübəsinə də bələd idilər. M.Kalankatuklunun yazdığına görə, ərəb qoşunları Mədain şəhərini 6 ay mühasirədə saxlasalar da sasani qoşunlarının mühasirəsini yara bilməmişdilər. Yalnız Cavanşirin sərkərdəliyi altında olan alban qoşunları münasib vaxt və məqam seçib qəfil zərbələrlə mühasirəni yarmış və az qüvvə ilə onları geri çəkilməyə məcbur etmişdi (245).

Mədain ətrafındakı döyüşlərdən sonra ərəb qoşunları çox böyük qüvvə ilə Cavanşiri və onun dəstəsini təqib etməyə başladı. Ancaq Cavanşirin düşünülmüş və əsaslandırılmış taktikası, çevikliyi və manevretmə qabiliyyəti nəticəsində ərəb qoşunları nəinki onu tuta bildi, əksinə itkilər verərək geri çəkildi.

Alban döyüşçüləri düşmənin əsas qüvvələri ilə üzbəüz gəlməkdən də çəkinmirdilər və yüksək hazırlığa malik olduqları üçün belə döyüşlərin çoxunda onların sıralarına vəlvələ salaraq hərbi təşəbbüsü ələ keçirməyə çalışırdılar (246).

Deyilənlər onu da söyləməyə əsas verir ki, kəşfiyyatın aparılması, idarəetmənin təşkili, istehkam işləri, arxa təminatı da alban qoşunlarında yüksək səviyyədə olmuşdu. Əks-təqdirdə hərbi uğurların əldə edilməsi xeyli çətinləşərdi.

## 9. Arşakilər sülaləsinin hakimiyyəti illərində albanların xarici istilaçılara qarşı mübarizəsi

Albaniyanın strateji-coğrafi şəraiti və təbii sərvətləri daim xarici istilaçıların diqqətini cəlb edirdi. Miladın III əsrindən etibarən Albaniyaya şimal tayfalarının basqınları gücləndi. Onların hər yürüşü ilə alban şəhərləri dağıdılır, əhali talan edilir, ölkənin var-yoxu şimala daşınırdı. Mənbələrinin verdiyi məlumatlara görə, miladın III əsrində müxtəlif şimal tayfaları dəfələrlə Dərbənd keçidindən adlayaraq Cənubi Qafqaza hücum etmiş və bu əraziləri talan etmişdilər. Bu tayfalara qarşı təşkil olunan döyüşlərin əksəriyyəti Albaniya torpağında baş verirdi (247).

Mənbələrin verdiyi məlumata görə, 338-ci ildə Albaniya yenidən müharibələr meydanına çevrildi (251). Bu dəfə şimal tayfaları birləşərək özlərinin çoxsaylı və güclü qoşunları ilə Albaniyaya hücum etdilər. Çor keçidindən keçən şimal tayfaları Albaniya ərazisində hərbi uğurlar qazandılar və təxminən dörd il ərzində Albaniya ərazisində qaldılar. Görünür, şimal tayfaları Albaniya qoşunlarının müqavimətini qıraraq burada möhkəmlənə bilmişdilər. Çünki onlar Albaniya ərazisindən digər ərazilərə də hərbi yürüşlər həyata keçirirdilər. Ancaq Albaniyanın təbii sərvətlərinə göz dikən, onun strateji mövqelərini nəzarət altında saxlamağa çalışan Sasani hakimləri Albaniya ərazisinin şimal tayfaları tərəfindən ələ keçirilməsinə razı deyildilər. Buna görə də Şapur şimal tayfalarının üzərinə böyük bir qoşun göndərdi. M.Kalankatuklu yazır: "Bundan sonra şahın sarayına xəbər çatdı ki, saysız-hesabsız xəzər qoşunları Çola keçidini aşaraq bizim ölkəyə daxil olub. Şapur Asuristan, Xorasan və Xarəzmdən çox miqdarlı qoşun, Atropatenanın vilayətlərindən çoxlu cəsur iranlıları, ...gürcülərdən, albanlardan və Qafqaz dağlarından on iki dildə danışan vəhşi qəbilələrdən misilsiz sayda ordular toplayaraq /xəzərlərin/ üstünə hücum etdi" (252).

Sasani hakimləri Albaniyada öz nüfuzlarını möhkəmlətmək üçün müxtəlif yollara əl atırdılar. Əvvəlcə onların Albaniya ilə əlaqələri ittifaq münasibətlərində əks olunmuşdu. Sonradan bu ittifaq münasibətlərini daha da möhkəmləndirmək üçün alban və sasani çar ailələri arasında nikah əlaqələri yaradılmışdı. Arşaki sülaləsindən olan Albaniya çarı Urnayr Sasani çarı II Şapurun bacısı ilə evlənmişdi.

Yəni, sasanilər hər vasitə ilə Cənubi Qafqazdakı nüfuzunu qoruyub saxlamağa çalışırdılar. Bu bölgə uğrunda onların romalılarla baş verən döyüşlərdən birində Roma qoşunları məğlubiyyətə uğradı və 390-cı ildə bağlanmış sülh müqaviləsinə əsasən Albaniya sasanilərin hakimiyyəti altına keçdi (258). Albaniyanın onlardan asılılığı mütləq deyildi. Albaniyada yerli hakimlərin hakimiyyəti saxlanmışdı. Bununla belə Albaniyada müxtəlif vergilər toplanıb sasanilərin xəzinəsinə göndərilir və albanlar sasanilərin apardığı müharibələrə, böyük tikinti işlərinə, xüsusən də ağır zəhmət tələb edən böyük müdafiə divarlarının tikintisinə cəlb edilirdilər.

Sasanilərin Zaqafqaziya xalqlarına, o cümlədən albanlara qarşı zülmü getdikcə güclənirdi və V əsrin birinci yarısında bu zülm dözülməz hal aldı. Bizansla Atilla arasında olan döyüşlərin genişlənməsindən və Zaqafqaziya xalqlarının siyasi zəifliyindən istifadə edən Sasani çarı II Yezdəgird Albaniyaya qarşı təzyiqləri daha da gücləndirdi (259) və onların asılılığını daha da genişləndirmək üçün Zərdüştlüyün Albaniyada dövlət dininə çevrilməsi üçün qəti tədbirlər həyata keçirməyə cəhd göstərdi. Bu barədə o, Albaniyaya xüsusi fərmanlar da göndərdi. Sasanilər məqsədlərinə nail olmaq üçün müxtəlif vasitələrlə albanların iradəsini qırmağa çalışırdılar. Onlar zərdüştlüyü qəbul edənlərin bütün vergilərdən azad olunacağına və əksinə, bu işə müqavimət göstərənlərin ölümə məhkum ediləcəyinə, arvad-uşaqlarının isə sürgünə göndəriləcəyinə vəd verirdilər (260). Bundan sonra Məzdəki məzhəbini yaymaq üçün Cənubi Qafqaza 700 məzdəki kahini göndərilmişdi ki, onlardan da 300 nəfəri Albaniyada fəaliyyət göstərməli idi (261).

Bu təhlükənin qarşısını birgə almaq üçün albanlar sasanilərə qarşı mübarizəni davam etdirdilər. Bunun üçün albanlar bölgədə məskunlaşmış xaqlarla da razılığa gəldilər (262).

Yaxınlaşan təhlükənin qarşısını almaq üçün Bizans imperatoru Feodosiyə müraciət edildi. İmperator Feodosi Cənubi Qafqaz xalqlarına kömək göstərməyə söz verdi. Tezliklə, ölümündən sonra onun yerinə taxta çıxan Markian kömək göstərməkdən imtina etdi və onda Cənubi Qafqaz xalqları özləri sasanilərə qarşı mübarizəyə qalxdılar. Albaniyada toplanmış qüvvələr sasanilərə qarşı ağır şəraitdə mübarizə aparmalı idilər. Çünki bir tərəfdən Paytakaranda Sasani qoşunalrı  var idi, digər tərəfdən isə Hun yürüşündən qayıdan 10 min nəfərlik Sasani qoşunu Çolada dayanmışdı (263) və sözsüz ki, onlar istənilən vaxt Albaniyada qalxmış üsyanın yatırılmasına cəlb oluna bilərdilər.

Sasanilərə qarşı cəbhə tutan üsyançı qoşunlar üç dəstəyə bölündülər. Üsyançı qoşunların bir dəstəsi Atropatena sərhədində dayanıb bu istiqamətdən hücum edə biləcək Sasani qoşunlarının qarşısını almalı idilər. Bir dəstə Albaniyaya İran mərzbanı Mehrsebuxtun rəhbərliyi ilə Çoladan gələ biləcək sasani qoşunlarının qarşısını almalı idi. Qoşunların bu dəstəsi gürcü qoşunları ilə birləşməli idi. Qoşunların bir dəstəsi isə əlverişli mövqe tutmaqla döyüşə hazır vəziyyətdə dayanmalı idi (264). Ancaq bu dəstədə olan ermənilər üsyançılara xəyanət etdilər və onlar Çoladakı sasani qoşunlarının rəhbəri Mehrsebuxta xəbər göndərdilər ki, üsyançı qoşunların bir hissəsi onun üstünə hücuma keçmək üçün hazırlıq görür. Bundan başqa ona çatdırdılar ki, qoşunlar üç dəstəyə bölündüyü üçün onun üstünə hazırlaşan dəstənin elə də böyük gücü yoxdur və məsləhət gördülər ki, sasani qoşunları daha tez tərpənsinlər və üsyançıları qabaqlasınlar (265).

Mehrsebuxt bu xəbəri eşidən kimi Çoladan hərəkət etdi və Kür çayını keçərək Xalxal şəhəri yaxınlığında üsyançı qoşunlarla qarşılaşdı (266). Onların döyüşü 450-ci ildə baş verdi. Sasani qoşunları bu döyüşdə say üstünlüyünə malik idi.

Buna görə də cəbhə xətti boyu döyüşün sasanilərin xeyrinə qurtara biləcəyini hiss edən üsyançılar maraqlı taktiki üsullara əl atdılar. Onlar sasanilər üzərinə cinahlardan hücum etdilər. Ola bilsin ki, üsyançılar cinahdan zərbə endirməmişdən qabaq yayındırıcı manevrlər etmişlər. Sasani qoşunlarının əvvəlcə sağ cinahı güclü zərbəyə məruz qaldı. Burada üsyançılar hərbi təşəbbüsü ələ aldıqdan sonra sasanilərin sol cinahına güclü zərbə endirdilər (267) və bu zərbə sasani qoşunlarının məğlub olmasına gətirib çıxardı. M.Kalankatuklunun yazdığına görə məğlubiyyətin qaçılmaz olduğunu görən sasani qoşunları qaçmağa üz tütdu. Onların bir hissəsi isə Lubans çayını keçərkən suda boğulub öldü (268).

Sasani qoşunları ilə ilk döyüşdə uğur qazanan üsyançılar Albaniya ərazisində sasanilərin əlində olan qala və şəhərlərə hücum etdilər. Qısa vaxt ərzində bir çox qalalar və şəhərlər sasani qoşunlarından təmizləndilər. Sasanilərin zülmündən və əsarətindən baş götürüb ev-eşiyindən qaçmış və Qafqaz dağlarında gizlənmiş albanlar üsyançıların uğurlarını eşidib geri qayıtdılar və onların arasından silah tutmağı bacaranlar üsyançıların sıralarına qoşuldular (269).

Albaniyanın daxilində hərbi uğurları genişləndirən üsyançılar Dərbənd keçidinə doğru hərəkət etdilər. Bu keçid sasani qoşunlarının nəzarəti altında idi və orada müəyyən sayda qoşun hissəsi də saxlanmışdı. Keçidin strateji əhəmiyyətə malik olması üsyançıları həmin istiqamətdə hərəkət etməyə sövq etmişdi. Bu keçidə nəzarəti ələ keçirdikdən sonra üsyançılar sasani qoşunlarına qarşı mübarizəni genişləndirmək üçün şimal tayfaları ilə ittifaq da yarada bilərdilər.

Üsyançılar Dərbənd keçidini tutaraq orada olan sasani qoşunlarının hamısını məhv etdilər. Bu mühüm nöqtədə nəzarət ələ keçirildikdən sonra oranın komandanı vəzifəsinə alban hakim nəslindən olan Vahan təyin edildi (270).

Bir müddətdən sonra Vahan üsyançıların nümayəndəsi kimi danışıqlar aparmaq və ittifaq bağlamaq üçün hunlar öl-

kəsinə göndərildi. Görünür Vahanın ittifaq bağlamaq təklifini eşidən hunlar üsyançıların gücünə şübhə ilə yanaşırdılar. Vahanın dediklərinə, üsyançıların əldə etdikləri uğurların doğruluğuna yəqinlik hasil etmək üçün hunlar Albaniyaya nümayəndələr göndərdilər. Vahanın dediklərinin yalan olmadığını, sasani qoşunlarına qarşı uğurlu döyüşlərin aparıldığını gördükdən sonra hunlar üsyançılarla ittifaq bağladılar və onlara kömək göstərməyə söz verdilər (271).

Üsyanın geniş vüsət almasından qorxuya düşən II Yezdəgird qəti tədbirlərə əl atdı. O, vəziri Mehrnersexin rəhbərliyi altında çox böyük qoşun dəstəsini üsyançıların üzərinə göndərdi (272). Bununla yanaşı, sasani nümayəndələri üsyançılar arasında danışıqlar apararaq onların müəyyən hissəsini vədlər və hədiyyələrlə tutduqları yoldan döndərə bildilər. Üsyançılara qoşulanların bir hissəsi öz mülklərinə, iş-güclərinə qayıtdılar. Hətta Albaniyada və Gürcüstanda olan üsyançılar arasında müəyyən ixtilaf yaradıldı (273). Sözsüz ki, bu cəhətlər üsyançıların ümumi gücünə də təsir göstərdi. Bununla belə, 451-ci il iyulun 2-də Artaz vilayətindəki Avaray düzündə (indiki Maku ilə Xoy vilayətləri arasında-red.) üsyançılarla sasani qoşunları arasında böyüş döyüş oldu (274). Sasani hakimlərinin bu döyüşə ciddi hazırlıq görmələrindən yəqin etmək olar ki, onlar üsyançıların silahlı qüvvələrinə nisbətən say üstünlüyünə malik idilər. Onların silahları və təchizatı da mükəmməl idi. Bu isə döyüşün taleyinin həll edilməsində mühüm amil oldu. Ancaq üsyançılar sayca az, silah və sursat baxımından daha zəif olsalar da döyüşə böyük ruh yüksəkliyi ilə başladılar.

Üsyançıların bu döyüşdə də cinah taktikasına əl atmalarından (275) güman etmək olar ki, onların arasında təcrübəli sərkərdələr olub. Çoxsaylı düşmənə daha çox itkilər vermək üçün üsyançılar onların zəif nöqtələrini müəyyənləşdirərək ilk əsas zərbəni də həmin nöqtəyə istiqamətləndirdilər. Bunun nəticəsində sasani qoşunlarının sağ cinahı geri çəkilməyə məcbur oldu. Şah qvardiyasının seçilmiş dəstələri belə üsyançıların təz-

yiqinin qarşısını ala bilmədilər. Vəziyyətin arzuolunmaz istiqamətdə inkişaf etdiyini görən sasani sərkərdələri döyüşə yeni qüvvələr və döyüş filləri cəlb etdilər (276). Yaxşı təchiz olunmuş yeni qüvvələrin döyüşə cəlb olunması və ola bilsin ki, döyüş filləri ilə mübarizə üçün lazımi təcrübəyə malik olmamaları üsyançılar arasında böyük itkilərə gətirib çıxardı. Mənbələrdə bu döyüş haqqında belə bir məlumat vardır: "Qəzəblə dolu olan hər iki tərəf hazır olduqdan sonra böyük qızğınlıqla və təsəvvürəgəlməz qeyzlə bir-birinin üstünə atıldılar. Hər iki tərəfdən qopan səslər qaralmış buludlarda səslənən göy gurultusu dalğalarını xatırladırdı. Dəhşətli hay-küydən dağ mağaraları titrəyirdi. Saysız-hesabsız dəbilqələrdən və silahlardan gözlərə batan qamaşdırıcı şüalar saçılırdı... Döyüş uzun çəkdi, axşam çağı idi, qaranlığın düşməsinə az qalırdı. Çoxlarına ölüm üz verdi... Sağ qalanlar isə dağlara çəkilərək qalın meşələrdə möhkəmlənir, düşmənlərlə rastlaşdıqda döyüşü davam etdirirdilər" (277).

Buradan aydın olur ki, üsyançılar geri çəkilmək məcburiyyətində qalsalar da hələ uzun müddət dağlarda, meşələrdə möhkəmlənərək partizan müharibəsi aparır, sasani qoşunlarına itkilər yetirirdilər. Onlarda zülmə, istismara qarşı mübarizə əzmi zəifləməmişdi. Buna görə də sasani qoşunları üsyançıların müqavimətini qırsalar da onların iradəsini qıra bilmədilər və bir neçə ildən sonra albanlar təklikdə sasani ağalığıına qarşı üsyan qaldırdılar.

451-ci ildə geniş vüsət almış üsyan yatırıldıqdan sonra sasanilər Cənubi Qafqaz xalqlarını, o cümlədən alban xalqını cəzalandırmaq üçün çoxlu cəza dəstələri göndərdilər. Xalqın vəziyyəti daha da pisləşdi. Vəziyyətin və yaşayışın daha da ağırlaşması, sasanilərin zülmünün hədsiz dərəcədə artması albanların sasani ağalığına qarşı narazılığını son həddə çatdırdı və Yezdəgirdin ölümündən dərhal sonra bu narazılıq sasanilər əleyhinə üsyana çevrildi.

Üsyanın başlanması üçün əlverişli məqam sasani çarı Yezdəgirdin ölümündən sonra yarandı. Çünki onun iki oğlunun

hakimiyyət uğrunda mübarizəsi (278), daxili didişmələr Sasani dövlətini də gücdən salmışdı. Belə bir əlverişli məqamın yetişməsindən istifadə edən Albaniya hakimi II Vaçe üsyan qaldırıb sasani hökmranlığını tanımaqdan imtina etdi. Sasanilərin daxilində gedən çəkişmələr Firuzun hakimiyyətə gəlməsinə qədər davam etdi. Yalnız onun hakimiyyəti illərində albanların sasanilərə qarşı başladığı üsyanın yatırılması barədə əməli tədbirlərə əl atıldı. Bu da ölkə daxilində müəyyən sabitliyin əldə edilməsindən sonra mümkün oldu. Ona görə 457-ci ildə başlanan üsyan 459-cu ildə daha böyük vüsət aldı. Alban hakim Vaçe sasanilərə tabe olmaqdan imtina etdi və onu müdafiə edən qoşun hissələri ilə şimala doğru hərəkət edib Dərbənd keçidini tutdular. Keçidi tutmaqla Vaçe sasanilərin köməyinə gələ biləcək hunların hücum təhlükəsini aradan qaldırdı. Bundan sonra Vaçe sasani qoşunlarının müqavimətini qırmaq və Albaniyada müstəqil dövlətçiliyin daha da möhkəmlənməsini təmin etmək üçün şimal tayfaları ilə danışıqlar apardı. O, on bir dağlı çarı ilə ittifaq bağladı, maskutların qoşunlarını dəvət etdi. Bu müttəfiqlərin köməyi ilə II Vaçenin qoşunları iki il ərzində sasani qoşunlarına qarşı uğurla müqavimət göstərdi və onlara böyük tələfat yetirdi (279).

Sasani çarı Firuz albanların silahlı üsyanını silah gücünə yatırmağın çox mürəkkəb olduğunu başa düşüb bir neçə dəfə onlara müraciət etdi, onları sasanilərin hakimiyyətinə tabe olmağa çağırdı. II Vaçe isə bu müraciətlərə rədd cavabı verdi, tutduğu yoldan dönməyəcəyini bildirdi. "Biləndə ki, Vaçeni nə güclə, nə də ki, inandırma yolu ilə öz tərəflərinə çəkə bilməyəcəklər, iranlılar Haylanturk ölkəsinə çoxlu bəxşişlər göndərib Alan darvazasını açıb hunların böyük ordusunu dəvət etdilər və bu ordu Alban hakimi ilə bir il müharibə etdi. Vaçenin ordusu zəiflədi, gücdən düşdü və dağıldı da. Lakin iranlılar onun öhdəsindən gələ bilmədilər. Əksinə, Vaçe də öz tərəfindən onlara təsirli zərbələr endirdi. ..Müharibə uzandı, ölkənin böyük hissəsi dağıldı, amma Vaçeni heç kəs tərk etmədi" (280).

"Albaniya tarixi"ndən götürülən bu sitatdan aydın olur ki, sasani hakimləri Albaniyada genişlənən xalq hərəkatının qarşısında aciz qalmışdılar. Onlar hətta Alan keçidindən hunların böyük bir qoşun dəstəsini Albaniya ərazisinə çağırsalar da albanlar sasanilərin və hunların birləşmiş qoşunlarına qarşı mərdliklə vuruşaraq bir il müddətində hərbi təşəbbüsü əllərində saxlaya bildilər. Ancaq uzun sürən müharibədən sonra ölkənin dağılması, qoşunların gücdən düşməsi, görünür, sasani-hun qoşunlarına, nəhayət, üstünlüyü ələ almaq imkanı vermişdi. Çünki Vaçenin silahı yerə qoyması və hakimiyyətdən imtina etməsi yalnız bununla bağlı ola bilərdi.

463-cü ildə albanların sasani ağalığına qarşı qaldırdığı üsyan yatırıldı. Sasanilərin Albaniya üzərində ağalığı bərpa olundu. Burada möhkəmlənmək üçün sasanilər albanların dövlət quruluşunu ləğv etdilər və təxminən 30 il ərzində ölkəni sasani mərzbanları idarə etdilər. Onların Albaniyadakı hökmranlığı dövründə xalqın vəziyyəti daha da ağırlaşdı, üsyançılara qarşı cəza tədbirləri gücləndi, xristian dininin ləğv edilməsi üçün əməli tədbirlər, təqib və təzyiqlər gücləndi (281).

481-ci ildə sasani ağalığına qarşı üsyanlar dalğası yenidən Cənubi Qafqazı bürüdü. İlkin olaraq iberlər sasanilərə tabe olmaqdan imtina etdilər. Onların ardınca isə albanlar sasanilərə qarşı üsyanlar qaldırdılar. Albaniyada bu üsyan, xüsusilə, geniş vüsət aldı (282). Alban xalqı yenidən öz müstəqilliyini bərpa etmək üçün ayağa qalxdı. Bu üsyanın 484-cü ilə kimi, yəni üç il ərzində davam etməsi onun qarşı tərəflərin kəskin mübarizəsi şəraitində getməsindən xəbər verir. Uzun sürən mübarizə albanların əzmini qıra bilmədi və onlar birləşərək sasani ağalığına qarşı vahid cəbhə təşkil etdilər. 484-cü ildə sasanilərin məğlubiyyətə uğraması isə, görünür, sasaniləri çox zəiflətmişdi. Bu məglubiyyət sasanilər üçün çox ağır uğursuzluq idi. Firuzun ölümündən sonra çar taxtına çıxan Valarş üsyançılara qarşı müqavimət göstərməyi dayandırdı və onların bir çox şərtlərini qəbul etməklə Nvarsaq sülh müqaviləsi imzalandı (283). Müqavi-

lənin şərtinə görə, Cənubi Qafqaz xalqları, o cümlədən Albaniya itirilmiş dövlətçiliyini yenidən bərpa etdi, ölkə müstəqil siyasət yeritmək hüququ qazandı və sasani qoşunlarına atlı dəstələri verilməsinə son qoyuldu (284).

487-ci ildə Albaniyada arşakilər sülaləsinin son nümayəndəsi III Mömün Vaçaqan hakimiyyət başına gəldi. O, çar taxtına əyləşən kimi ölkənin bütün vilayətlərinə fərman göndərib Albaniyada sasanilərin qısa müddətli hakimiyyətinə son qoyulduğunu elan etdi, quruculuq işlərinə başladı (285). Məktəblər açdırdı, ölkənin daxili həyatını nizamlayan fərmanlar qəbul edildi (286). Onun sələflərinə nəsib olmayan var-dövlətə, xəzinəyə sahib olması (287) isə Albaniyanın təsərrüfatının inkişaf etməsinin məntiqi nəticəsi idi. Mənbələrdə Mömün Vaçaqanın hərbi quruculuğu barədə məlumat olmasa da güman etmək olar ki, o, qoşunların möhkəmlənməsinə də fikir verirdi və bir vaxtlar sasani qoşunlarında xidmətə göndərilən atlı dəstələr indi artıq alban qoşunlarında xidmət edirdilər.

Ancaq albanların dinc həyatı uzun sürmədi. VI əsrin ilk illərində şimal hun-sabir xaqanlarının böyük qoşunları Cənubi Qafqaza hücum etdilər. Hun-sabir tayfaları 503-cü il noyabr ayının sonlarında Dərbənd keçidini qoruyan sasani qarnizonunu əzərək Albaniya ərazilərinin içərilərinə doğru irəlilədilər (288). Hücumun gözlənilməzliyi, ən başlıcası isə sasani çarlarının başlarının yenidən istilaçılıq müharibələrinə qarışması Dərbənd keçidində və eləcə də Albaniya ərazisində onun kiçik qarnizonlar saxlamasına səbəb olmuşdu. Buna görə də güclü müqavimətə rast gəlməyən hun-sabir qoşunları tez bir zamanda Albaniyanın içərilərinə doğru irəlilədilər. Albaniyanın ərazisindəki dağ keçidlərinin şimal tayfaları tərəfindən tutulması isə sasaniləri təmin etmirdi və buna görə sasani çarı Qubad şimal tayfalarının Albaniyaya girməsini eşidən kimi dərhal hazırlıq görmək barədə əmr verdi və sərkərdə Şapurun başçılığı ilə 12 minlik atlı qoşunlarına bölgəyə yollanmaq tapşırığı verildi. Bu dəstənin yalnız atlılardan təşkil edilməsi təsadüfi deyildi. Çox

güman ki, Qubad şimallılarla mübarizəni çox tez başlayıb tezliklə də başa çatdırmaq istəyirdi. Albaniya ərazisinə atlı qoşunlarını piyadalara nisbətən daha tez atmaq olardı. Digər tərəfdən isə atlılar sasani qoşunlarının daha güclü zərbə qüvvəsini təşkil edirdilər.

Şapurun rəhbərliyi altında olan süvari qoşunları çox güman ki, Albaniya ərazisində şimal tayfalarının qoşunları ilə qanlı döyüşlər aparmalı olmuşdular. Çünki nə qədər çalışsalar da sasani qoşunları şimallıları Albaniya ərazisindən sıxışdırıb çıxara bilmədilər (290). Albaniya əraziləri sasanilər üçün strateji əhəmiyyətə malik olduğundan sasani çarı öz qoşunlarının əsas hissəsini Bizans cəbhəsindən çəkərək Albaniyaya gətirdi və burada şimal qoşunları ilə müharibə yeni bir vüsət aldı. Albaniyaya və alban xalqına yeni böyük dağıntılar gətirən bu müharibə 508-ciilədək davam etdi (291). Sasani qoşunları nəhayət ki, üstün gələrək onları Albaniyadan çəkilməyə məcbur etdilər. Qafqaz dağlarında olan Dərbənd və Dəryal keçidlərinə nəzarət yenidən sasanilərin əlinə keçdi. Sasani hakimləri Albaniya ərazisində gedən bu müharibəni qələbə ilə başa vurduqdan sonra 510-cu ildə arşakilər sülaləsinin hakimiyyətinə də son qoyuldu.

VI əsrin ortalarında, 552-ci ildə Albaniya yenidən şimal tayfalarının böyük hücumuna məruz qaldı (292). Alban katalikosu Çoladakı iqamətgahı nisbətən təhlükəsiz yer olan Partava (Bərdəyə-red.) köçürdü (293). Sasani taxt-tacına çıxan I Xosrov Ənuşirəvan (531-579) Xəzər qoşunlarına qarşı böyük qüvvə göndərdi. Döyüşlərdə Xəzər qoşunları məğlub edildi. Ərəb salnaməçilərinin yazdığına görə, Xosrov şimal tayfalarına güclü zərbə vurmaqla bərabər, onlardan 10 min nəfəri əsir götürdü və onlar Albaniya ərazilərində yerləşdirildi (294).

Cənubi Qafqazda möhkəmlənmək uğrunda mübarizə aparan Bizansla sasanilər arasında sülh müqaviləsi imzalandıqdan sonra Albaniyanın şimal sərhədlərini köçəri tayfaların hücumlarından qorumaq üçün daha əlverişli şərait yarandı.

## 10. Mehranilər sülaləsinin hakimiyyəti illərində xarici istilaçılara qarşı mübarizə

Albaniyanın müstəqil dövlət kimi mövcudluğunun sonuncu dövrü Mehranilər sülaləsinin hakimiyyəti illərinə təsadüf edir. Bu sülalənin əsasını Girdman vilayətinin nüfuzlu nəsillərindən biri olan Mehranilər nəsli qoymuşdu. "Albaniya tarixi"nin müəllifinin verdiyi məlumata görə, bu nəslin böyüyü olan Mehran sasani çarı Xosrovun qohumu idi. Sasani çarlığının bir çox əyanları kimi Mehran da Xosrov Pərvizin atası Hörmüzdə qarşı təşkil edilmiş sui-qəsddə iştirak etmişdi. Xosrov Pərviz hakimiyyət başına gəldikdən sonra təqiblərdən qorxan Mehran canını qurtarmaq üçün Albaniyaya qaçdı. O özü ilə bərabər 30 min ailəni də apardı. Mehranın bu qədər sayda ailəni özü ilə aparmasından belə bir qənaətə gəlmək olar ki, o, tədbirli və nüfuzlu bir şəxs idi və çox güman ki, onun belə tədbirlli şəxs olması Xosrov Pərviz sarayının əyanlarını da təşvişə salmışdı. Onlar Xosrov Pərvizə məsləhət gördülər ki, Mehranın şəxsində düşmən qazanmaq sasani sarayı üçün xeyirli olmazdı. Bu məsləhətə qulaq asan Xosrov Pərviz Mehranın arxsınca ona məktub göndərdi və bildirdi ki, onunla olan münasibətlərin kəsilməsini istəmir. Ona görə də ürəyi istədiyi yerdə məskən salaraq əmin-amanlıq içərisində yaşaya bilər. Xosrovun məktubu Mehrana Girdman vilayətində çatdı və məktubu oxuyandan sonra elə Girdman vilayətində də məskən salmağı qərara aldı (295).

M.Kalankatuklunun yazdığına görə, Mehran Mehravan şəhərini abad etdi. Bir müddət sonra isə o bütün Girdman vilayətinin hakimi oldu. Onun nəslinin davamı olan Armayelin, Vardın, Vardanın vaxtında Mehranilər nəsli daha böyük nüfuz qazanaraq hətta bir sıra Qafqaz qəbilələrini də özlərinə tabe edə bildilər (296). 630-cu ildən isə Mehranilər bütün Albaniyanın tam hüquqlu hakimlərinə çevrildilər (297).

Arşakilər sülaləsinin süqutundan Mehranilərin Albaniya taxtına çıxmasına qədər olan dövrdə də Albaniya ardı-arası kəsilməyən müharibələr meydanına çevrilmişdi. Xüsusən, ön Asiyada möhkəmlənmək uğrunda Bizansla sasanilər arasında gedən döyüşlərin böyük bir hissəsi Albaniya torpaqlarında cərəyan edirdi. 571-591-ci illər arasında 20 il müddətində davam edən Sasani-Bizans müharibələri alban xalqına böyük dağıntılar gətirdi.

586-cı ildə Bizans qoşunları Albaniyaya soxularaq burada sabirlərlə qarşılaşdılar. Təhlükəyə məruz qalmamaq üçün Bizans qoşunları sabirləri və albanları Kürün o tayına, Roma imperiyasının nəzarəti altında olan ərazilərə köçürdülər (298). Sözsüz ki, bu cür təqib olunan albanlar təkcə nəzarət altında saxlanmırdılar, həm də zülm və istismarla qarşılaşırdılar.

603-628-ci illər arasında yenidən vüsət alan Sasani-Bizans müharibələri zamanı alban xalqı daha bir müsibətlə üzləşdi (299). Bu müharibə əvvəlcə sasanilərin üstünlüyü şəraitində keçdi. Sasani hakimlərinin başlarının bu müharibələrə qarışmasından istifadə edərək alban katalikosu Vironun rəhbərliyi altında albanlar da sasanilər əleyhinə üsyana qalxdılar. Ancaq albanların bu üsyanı uğur qazanmadı. Sasani çarı II Xosrov Albaniyanın nəzarət altından çıxmasının qarşısını almaq üçün ora böyük qoşun dəstələri göndərdi və üsyançılara qarşı geniş cəza tədbirlərinin həyata keçirilməsinə başladı. Katalikos Viro isə bu cəza tədbirlərindən canını qurtararaq Mədainə qaçdı və yalnız II Xosrovun arvadı, xristian Şirinin köməyi nəticəsində Xosrovun qəzəbindən xilas olaraq uzun müddət Mədaində dustaq qaldı (300).

VII əsrin 20-ci illərindən etibarən Sasani-Bizans müharibələrində Bizansın hərbi təşəbbüsü ələ alması dövrü başlanır. II Xosrovun bir sıra yeni əraziləri işğal edərək Bizansa meydan oxuması imperator İraklini qəzəbləndirdi və o, qətiyyətli tədbirlərə əl atdı, çoxlu qoşun toplayaraq hərbi əmədiyyatlar aparmaq üçün yola düşdü. M.Kalankatuklunun yazdığına görə, İrak-

linin əsas məqsədi sasani sərhədinə yaxınlaşmaq və Araz çayını keçərək qəfildən Xosrovun əsas qüvvələri üzərinə hücum etmək idi (301). Bizans qoşunlarının yaxınlaşdığını eşidən Xosrov Suriyaya qaçdı və ölkəsinə döğru irəliləməkdə olan Bizans qoşunlarına qarşı müqavimət göstərməyi sərkərdələrinin öhdəsinə buraxdı. Lakin onlar İraklinin qoşunlarına qarşı ciddi bir müqavimət göstərə bilmədilər. Bizans qoşunları Atropatena ərazisində sasani qoşunlarını məğlubiyyətə uğradaraq ölkənin paytaxtı Qandzaka şəhərinə kimi irəlilədilər. Atropatenanı tutduqdan sonra Bizans imperatoru İrakli qışı Albaniya və Gürcüstan ərazilərində keçirmək qərarına gəldi və ona qarşı başlana biləcək narazılıqların qarşısını əvvəldən almaq üçün İrakli bu ölkənin əyanlarına məktub yazaraq tabe olmağa, qışda Bizans qoşunlarının ərzaq ehtiyacını ödəməyə çağırdı. Əks-təqdirdə İrakli bu xalqların yaşadıqları əraziləri viran qoyacağını bildirdi (302).

Sasani çarı isə Bizans imperatorunun bu tələbinə əməl etməmək barədə göstəriş verdi. Onun göstərişi ilə Albaniyanın hakmləri və əyanları Bərdə şəhərini tərk edib müxtəlif yerlərdə özlərinə sığınacaq tapdılar (303). Xosrov Albaniyanın əyanlarını Bizans qoşunlarına tabe olmamağa çağırmaqla bərabər, onların qovuşması üçün də hərbi hazırlıq görməyə başladı. Saysız-hesabsız Bizans qoşunları isə Albaniyanın içərilərinə doğru hərəkəti davam etdirirdilər. Onlar Kalankatuk kəndinin yaxınlığında düşərgə saldılar və bura çatana qədər Bizansa tabe olmaq istəməyən alban yaşayış məntəqələrini, əkin sahələrini və bağlarını xarabaya çevirdilər. Sonra Bizans qoşunları yerlərini dəyişərək Tərtər çayının sahilində Divtakan kəndinin yaxınlığında düşərgə saldılar (304).

Bizans imperatoru Albaniyadan keçərək Gürcüstana doğru hərəkət etmək istəyirdi. Bu dövlətin qoşunlarına güclü hərbi zərbə vurmaq üçün hazırlıq görən sasani çarı Xosrov bizanslıların bu hərəkəti zamanı onlara hücum üçün əlverişli şərait yarandığından Şəhripalakan adlı sərkərdəsinin rəhbərliyi altında böyük qoşun dəstələri təşkil etdi. Bu qoşunlar münasib

olan ərazidə döyüşqabağı mövqe tutdular. Həmin döyüş bizanslıların məğlubiyyəti ilə nəticələnsə də sasani qoşunlarına yeni qüvvələrin gətirilməsi belə bir qənaətə gəlməyə imkan verir ki, hərbi əməliyyat Bizans qoşunlarının uğurları ilə başlamış, ancaq sasanilərə əlavə köməyin gətirilməsi onların qələbəsinə yol açmışdı (305).

Bizans imperatoru məğlubiyyətə uğradıqdan sonra yenidən Cənubi Qafqaza soxulmaq üçün özünə müttəfiq axtarırdı və onu xəzərlərin simasında tapdı. Bizansın təhrikilə saysız-hesabsız xəzər qoşunları 626-cı ildə Albaniyaya soxulub onu talan etməyə başladılar. Onların Albaniyaya soxulması və burada ölkəni talan etməsi barədə xəbər II Xosrova çatan kimi o öz elçilərini xəzərlərin başçılarının yanına göndərdi. Sasani çarı xəzərləri Albaniyaya soxulduğu üçün hədələyir və onları qərbə doğru göndərdiyi qoşunlarını geri çağıracağı və onların vasitəsilə xəzərlərə ağır zərbə vuracağı ilə qorxudurdu. II Xosrovun hədələyici xəbərlərindən müəyyən qədər ehtiyatlanan xəzərlər Albaniyadakı talanlarına son qoydular və Dərbənd keçidindən keçərək öz vətənlərinə qayıtdılar (306).

Geri çəkilsələr də xəzərlər qərara aldılar ki, növbəti ildə bir də Albaniya ərazisinə basqın etsinlər və öz sərvətlərini daha da artırsınlar.

628-ci ildə xəzərlər yenidən Albaniyaya basqın etdilər. Saysız-hesabsız Xəzər qoşunlarının bu yürüşünə Cebu xaqan və onun oğlu rəhbərlik edirdi. Şimaldan gələn qoşunlar ilk zərbəni Çola şəhərinin sakinlərinə və burada yerləşən sasani qoşunlarına vurdular. Sel kimi axan ox yağışının qarşısını almaqda Çola müdafiəçiləri aciz idilər. Xəzər qoşunları şəhərə daxil olaraq qarşılarına çıxanları amansızlıqla qırdılar. Çola şəhəri tutulduqdan sonra şimaldan gələn qoşunlar Albaniyanın içərilərinə doğru irəliləməyə başladılar (307).

Alban xalqı yenidən qədərsiz dağıntılara və talanlara məruz qaldı. Xüsusən, Albaniyanı idarə edən sasani əyanları tərəfindən qətiyyətli tədbirlərin həyata keçirilməməsi köçərilərin

hücumlarının dağıntılarını daha da artırdı: "Bu dəhşətli və qəmli xəbər albanlar ölkəsinə çatanda böyük paytaxt və qala olan Bərdə ölkəmizin möhkəmləndirilməsi haqqında qərar çıxardılar. Qərar Xosrov şahın bu ölkədəki valiliyinə və knyazlığına təyin etdiyi Qayşaq adlı şəxs tərəfindən verilmişdi. O, yaxınlaşan böyük təhlükədən çıxış yolu axtarmaq üçün şəhərin iç qalasına qorxudan sığınan qoşunlarla məsləhətləşmək istədi. Amma danışmaq üçün onun ağzını açmaq istəyən anda onu elə bir dəhşət bürüdü ki, dizləri bir birinə dəyib elə əsdi ki, o, tək bir sözü də ağzından çıxara bilmədi. Orada yığılan camaat onu belə qorxuda görərək hay-küy qaldırıb çığırdı: " Bəs niyə sən bizi indiyə kimi burada saxladın? Bizim özümüzü, arvad-uşaqlarımızı bu qan içənlərin əlinə vermək üçünmü?" (308)

Sasani mərzbanı Qayşaq Albaniyada təhlükə artan kimi öz ailəsini də götürüb ölkədən qaçdı və bir daha Albaniyaya qayıtmadı. Xəzərlərin yaxınlaşmasından çox gec xəbər tutan Bərdə əhalisi isə Uti dağlarına tərəf qaçdılar. Ancaq şəhərin bütün əhalisi qaçmaq, dağlarda sığınmaq üçün macal tapmadı. Köçərilər onların bir hissəsini məhv etdilər, bir hissəsini də əsir götürdülər (309)

Şimal tayfaları Bərdə şəhərindən Tiflisə doğru hərəkət edib onu mühasirəyə aldılar. Bizans imperatoru İrakli də Tiflis ətrafında onlarla birləşdi (310). İrakliknin məsləhəti ilə şimal tayfaları Tiflisin mühasirəsindən əl çəkərək öz vətənlərinə qayıtdılar (311).

628-ci ildə II Xosrov qətlə yetirildi və sasani taxt-tacına onun oğlu II Qubad yiyələndi. Qubad Bizans imperatoru İrakli ilə sülh bağladı və Xosrovun tutduğu əraziləri ona qaytardı. II Qubad Xosrov tərəfindən həbs edilmiş bir sıra adamlara, o cümlədən alban katalikosu Viroya da azadlıq verdi (312). Albaniyada böyük hörmət və nüfuza malik olan Viro geri qayıdan kimi yenidən öz xalqının qayğıları ilə yaxından məşğul oldu, Albaniyanın müstəqilliyinin bərpası üçün öz mübarizəsinə başladı. Viro hətta Xəzər qoşunlarının Albaniyaya növbəti basqını

zamanı (629-cu ildə) onlarla danışıqlar aparmaq məsuliyyətini öz üzərinə götürdü.

Xəzərlərin xaqanı Cebu xaqan oğlu Şadla birlikdə yenidən Cənubi Qafqaza basqın edərək Tiflisə doğru üz tutdular. Bu dəfə onlar iki ay mühasirədən sonra Tiflis şəhərini tutdular. Xəzərlər Tiflisi talayaraq çox böyük həcmdə var-dövlət ələ keçirdilər. Bundan sonra xəzərlərin xaqanı qoşunlarını oğlu Şadın rəhbərliyi altında Albaniyaya göndərdi. Xaqan oğluna belə bir göstəriş verdi ki, əgər albanların hakim və əyanları sizi qarşılayıb öz torpaqlarını sizin tabeliyinizə versələr, şəhərləri, qalaları, bazarları sizə təslim etsələr onda onlara imkan verin yaşayıb mənə qulluq etsinlər. Yox, əgər belə etməzlərsə onda heç kimə və heç nəyə rəhminiz gəlməsin (313).

Xəzər xaqanının oğlu Şad atasının bu tələbini sasanilərin Albaniyadakı mərzbanı Sema Vişnaspa və yenicə həbsdən qayıtmış Albaniya katalikosu Viroya çatdırdı. Albaniyanın və eləcə də albanların təhlükəsizliyinin təmin edilməsinə laqeydcəsinə yanaşan sasani mərzbanı Sema Vişnasp təhlükənin yaxınlaşdığını görüb çoxlu var-dövlətlə vətəninə qaçdı. Yaranmış vəziyyətdə alban xalqına rəhbərlik etmək məsuliyyəti Vironun çiyninə düşdü. O isə sasani çarının xəbəri olmadan xəzərlərlə danışıqlar aparmağa narahatçılıq keçirirdi. Ehtiyatlanırdı ki, xəzərlərlə danışıqlar aparılması sasani hakimləri tərəfindən onların asılılığından çıxmaq cəhdi kimi qiymətləndirilər və bu, xeyli zəifləmiş olan Albaniya üçün ağır nəticələrə gətirib çıxara bilər.

Viro xəzərlərlə danışıqlara getsə də onu yubatmaq və beləliklə, bu danışıqlar barədə sasani çarının da münasibətini bilmək istəyirdi. Xəzərlər danışıqların yubanmasından şübhələnib hücuma keçsələr də sonradan albanlarla müqavilə bağladılar və albanlar xəzərlərin tələblərini qəbul etməyə məcbur oldular. Ancaq xəzərlərin dağıdıcı basqınları Albaniyanın təsərrüfatını bərbad vəziyyətə saldı. Aclıq və yoxsulluq hər tərəfi bürüdü.

Çox keçmədi ki, xəzər xaqanlığının daxilində başlanan çaxnaşmalar onların zəifləməsinə səbəb oldu. VII əsrin 30-cu

illərinin əvvəllərində bu çaxnaşmaların nəticəsində xəzərlərin Albaniyadakı ağalığına son qoyuldu. Onların Albaniyadan çəkilib getməsi və digər tərəfdən də uzun sürən müharibələrdən sonra Sasanilər dövlətinin və Bizansın zəifləməsi Albaniyanın siyasi müstəqilliyinin bərpasına əlverişli şərait yaratdı. II Xosrovun hakimiyyəti illərində yaranmış bu şəraitdən Albaniya knyazı titulunu almış Girdman hakimi Varaz-Qriqor bacarıqla istifadə etdi və onun şəxsində Mehranilər sülaləsinin ilk nümayəndəsi 630-cu ildə Albaniyada hakimiyyət başına gəldi (314).

Albaniyada Mehranilər sülaləsinin hakimiyyət başına gəlməsinin elə ilk illəri Yaxın Şərqdə ərəb xilafətinin güclənməsinə təsadüf edir. On iki qəbilənin ittifaqından (315) formalaşan bu xilafət az bir vaxtda böyük qüdrətə sahib oldu və öz sərhədlərini genişləndirmək üçün yaxın ölkələr üzərinə hücumlara başladı. Həmin yürüşləri uğurla başa çatdırmaq və sərhədlərini genişləndirmək üçün ərəb xilafətinin çox böyük sayda qoşunları da var idi (316). Bu qoşunların vasitəsilə ərəb sərkərdələri 632-ci ildə sasani sərhədinə yaxınlaşdılar (317).

Xilafət qoşunlarının sasani imperiyasının varlığına böyük təhlükə yaratdığını görən çar Yezdəgird ölkənin sərhədlərini qorumaq üçün xeyli qoşun topladı. Bu qoşunun tərkibinə sasanilərin müxtəlif vilayətlərinin sərkərdələrinin, hakimlərinin topladığı silahlı dəstələr daxil idi. Albaniyada yenicə hakimiyyətə gəlmiş knyaz Varaz-Qriqor da sasani qoşunlarının tərkibində xilafətə qarşı vuruşmaq üçün öz qoşun hissələrini göndərdi. Onlara rəhbərlik isə knyazın ikinci oğlu Cavanşirə tapşırıldı. Çünki bu vaxt Cavanşir özünü artıq igid və görkəmli bir sərkərdə kimi tanıtmış, cəsurluğu və döyüşgənliyi ilə diqqəti cəlb edə bilmişdi.

Alban qoşunlarının sasani qoşunları tərkibində xilafətə qarşı vuruşması 637-ci ildə Ktesifon yaxınlığındakı döyüşdə baş vermişdi (318). Bu döyüşdən əvvəl Sasani paytaxtında keçirilən ümumhərbi keçidə Cavanşir Sünik knyazı Qriqordan daha tez gəlib çıxmışdı. M.Kalankatuklu yazır ki, Sasani sipəh-

saları olan Rüstəm Cavanşiri doğma oğlu kimi qarşıladı. Sipəhsalar çoxlu atlı ilə Mədaninə gəlib Cavanşiri Yezdəgird şaha təqdim etdi. Şah isə Cavanşirlə görüşdən çox məmnun olub Cavanşirə Albaniyanın sərkərdəsi rütbəsi verdi (319).

637-ci il mayın sonu-iyunun əvvəllərində (320) baş verən döyüşə III Yezdəgird sərkərdə Rüstəmin komandanlığı altında 80 minlik qoşun göndərmişdi. Sasanilərin asılılığı altında olan ölkələrdən, o cümlədən Cavanşirin rəhbərliyi altında Albaniyadan gəlmiş qoşun hissələri də Rüstəmin tabeçiliyi altına verilmişdi. Ancaq bu döyüş sasanilər üçün uğursuzluqla başa çatdı (321). Bu döyüşdə Cavanşirin qoşunlarının harada yerləşdiyi və konkret olaraq hansı vəzifəni yerinə yetirdiyini söyləmək çətindir. M.Kalankatuklunun yazdıqlarından güman etmək olar ki, Cavanşirin rəhbərliyi altında çox böyük sayda qoşun dəstəsi var idi və bu qoşun dəstəsi müstəqil şəkildə ona həvalə olunmuş taktiki vəzifənin icrası ilə məşğul idi. "Albaniya tarixi"ndə bu döyüşdə Cavanşirin fəaliyyəti ilə bağlı aşağıdakı qeydləri oxumaq mümkündür: "Cavanşir Dəclə çayını keçərək Beh Kubad dairəsinə gəldi və o öz çoxsaylı qoşununa güvənərək qürurla hesab etdi ki, bütün qoşunları ayaqlayacaq. O öz düşərgəsini Ölü suların sahilində düşmənlə üzbəüz saldırdı. Ərəblər irəliləyəndə Albaniya sərkərdəsi onları qarşılayıb hücumlarını müvəffəqiyyətlə dəf edirdi. Elə birinci döyüşdə o, düşmənlərin bir neçəsini öldürüb daha da ürəkləndi" (322).

M.Kalankatuklunun yazdığına görə, bir neçə gündən sonra ərəblərlə sasani qoşunları arasında yeni bir döyüş baş verdi. Bu döyüşdə də sasani qoşunlarının tərkibində alban hərbi dəstələri vuruşurdu. Sasani qoşunlarında 30 min atlı və 20 min piyada var idi. Ərəblərdə də piyadaların sayı 20 min idi. Atlıların sayının isə M.Kalankatuklu tərəfindən çox olması qeyd edilir. Say çoxluğu da ərəblərə imkan verdi ki, döyüşün gedişində təşəbbüsü öz əllərinə alsınlar (323). Doğrudur, bu döyüşdə də ərəblər qalib gəlmişdi. Ancaq Cavanşir öz dəstəsi ilə bərabər ərəblərə qarşı mərdliklə vuruşdu. Alban döyüşçüləri qarşı

tərəfin say üstünlüyünə baxmayaraq döyüşə əzmlə başlamış və ərəb qoşunlarına xeyli itki vermişdi. Cavanşir isə bu döyüşdə sərkərdəlik keyfiyyətlərindən başqa, cəsur və hazırlıqlı döyüşçü kimi fərdi hərbi keyfiyyətlərini də qabarıq şəkildə nümayiş etdirə bilmişdi. Heç şübhəsiz ki, sasani qoşunlarının uduzmasına baxmayaraq Cavanşirin Sasani şahı tərəfindən böyük hörmət və ehtiramla qarşılanmasına səbəb də bu igidliyi və yüksək sərkərdəlik keyfiyyətləri olmuşdu. M.Kalankatuklu yazırdı: "Albaniya sərkərdəsi Cavanşir öz igid döyüşçüləri ilə onların (ərəblərin) səfləri içərisinə soxulub düşmənlərdən ikisini yerə sərdi, özü üç ağır yara aldı, atı isə dörd yerdən yaralandı. Düşmən onu quduz bir kinlə Fərat çayınadək təqib etdi. O isə həmlələri dəf edərək çayı üzüb keçdi. Onun üst-başı qan içində idi, silahı da palçıq içində idi. O bütün İran ordusunun ot kimi biçilib qırılmasını gördükdə tələsik şah sarayına yola düşdü. Burada onu çox səmimi qarşıladılar. Şaha Cavanşirin şücaətindən və aldıqları ağır yaralarından danışanda şah onu dəbdəbə ilə qəbul edib əmr etdi ki, ona şah sarayında yer ayırıb yanına həkimlərini göndərsinlər" (324).

Yaraları sağaldıqdan sonra sasani şahı bu döyüşün nəticələrinə görə Cavanşiri yüksək mükafatlandırdı. Ona sərkərdə kərənayları, iki qızıl nizə, iki ədəd qızılla süslənmiş qalxan bağışladı. Şah onun belinə mirvari ilə işlənmiş qızıl kəmər və qızıl saplı qılınc bağladı, qollarına qolbağılar saldırdı, başına isə qaş-daşlı tac qoydurdu (325).

Bir müddətdən sonra Yezdəgirdin şahlığının 8-ci ilində, yəni 640-cı ildə ərəb qoşunları sasanilər üzərinə ikinci dəfə güclü hücuma keçdilər. Yenidən qüvvə üstünlüyünə malik olan ərəblər sasanilərin paytaxtı olan Mədain şəhərini mühasirəyə aldılar. Sasani şahı Yezdəgird də Mədaində ərəblərin mühasirəsində qaldı. Şəhərin mühasirəsi 6 ay davam etdi. Əgər Cavanşirin komandanlıq etdiyi üç min nəfərlik qoşun dəstəsinin göstərdiyi igidlik olmasaydı yəqin ki, şəhərin mühasirəsini yarmaq heç mümkün olmazdı. Görünür, əlverişli məqamda

düşmən üzərinə hücum çəkən Cavanşir öz qoşun dəstəsi ilə çox böyük sayda olan ərəb qoşunlarının mühasirəsini yarmış və onları geri çəkilməyə məcbur etmişdi. Cavanşirin qoşunlarının təzyiqi nəticəsində xilafət qoşunları Dəclə çayına kimi çəkilmiş və 6 ay irəli hərəkət edə bilməmişdilər. 6 aylıq müqavimətdən sonra qüvvələrinin zəiflədiyini hiss edən Cavanşir geri çəkilmiş və sasani çarını da Dastakerdə qədər müşayət etmişdi (326).

Sasanilərin müqavimətini nəyin bahasına olursa-olsun qırmağa çalışan xilafət rəhbərləri böyük bir qoşun toplayaraq yenidən onların üzərinə hücuma keçdilər. Həmin hücum 642-ci ildə baş verdi. Çoxsaylı ərəb qoşunlarının qarşısının alınmasının qeyri-mümkünlüyünü görən Cavanşir, eləcə də Sasani şahı Yezdəgird Beklala çəkildilər. Ancaq xilafət qoşunları Cavanşirin qoşunlarını təqib etməkdə davam edirdi. Alban qoşunları mütəmadi olaraq onu təqib etməkdən əl çəkməyən ərəb qoşunlarına zərbələr vurur, onlara itkilər yetirirdilər (327).

Nəhavənd yaxınlığında xilafət qoşunları ilə sasani qoşunları arasında daha bir döyüş baş verdi. Çox güman ki, sasani şahının hələ xeyli qüvvəsi var idi və hərbi uğura ümidini itirməmişdi. Sasani qoşunları bu döyüşə müəyyən hazırlıq da görə bilmişdilər və onlar döyüş mövqelərində əvvəldən yerləşdirilmişdi. Lakin sasanilərin növbəti cəhdi də bir nəticə vermədi. Nəhavənd yaxınlığındakı döyüşdə sasani qoşunları daha bir ağır məğlubiyyətə düçar oldular (328). Şah Yezdəgird qaçıb Dəclə çayının kənarındakı qalada gizləndi. Cavanşir isə əvvəlcə Atropatenaya, oradan isə öz vətəninə qayıtdı. O, yeddi il ərəblərə qarşı aparılan müharibələrdə iştirak etdi və on bir dəfə ağır yara aldı (329).

Cavanşir vətəninə qayıtdıqdan sonra atası Varaz-Qriqor Albanyanın idarə işlərini ona tapşırdı. O, həm də ölkənin sipəhsaları olaraq qalmaqda idi. Cavanşir sasanilər dövlətinin tamamilə zəiflədiyini və məhvinin labüdlüyünü görərək ona tabe olmaqdan imtina etdi. Bu hal sasanilər tərəfindən onlara qarşı üsyan kimi qiymətləndirildi. Sasanilərin ərəblər tərəfindən

məğlub edilmiş qoşunları geri çəkilərək şimal rayonlarında möhkəmlənmək istəyirdilər. Onlar Cavanşirin sasanilərə tabe olmaqdan imtina etməsi xəbərini eşitcək Albaniya ərazisinə soxuldular. Cavanşir bu vaxt atası ilə birlikdə Bərdəni tərk edərək şimal rayonlarına tərəf getmişdi. Sasani qoşunlarının Bərdəyə yaxınlaşması xəbərini eşidəndə Cavanşir dərhal onlara müqavimət göstərmək üçün çevik dəstələr təşkil etdi. Çox güman ki, bu çevik dəstələr yalnız atlılardan ibarət idi. Çünki yalnız atlılar qısa müddət ərzində şimaldan cənuba gələ bilərdilər. Özü də bu dəstələr sasani qoşunlarının üzərinə qəfil şəkildə hücum etdilər. Ola bilsin ki, bu gözlənilməzlik də albanların üstün gəlməsi üçün əsas amillərdən biri olmuşdu. Sasani döyüşçülərinin böyük bir hissəsi məhv edildi, bir hissəsi isə əsir götürüldü. Sasanilərin Deyləm adlı sərkərdəsi isə Cavanşirlə əlbəyaxa döyüşdə öldü. Alban qoşunları at, qatır və digər qənimətlər ələ keçirərək geri döndülər. Ancaq sasani qoşunlarının əsas hissələri Cavanşirin dəstələrini təqib etməyə başladı. Cavanşir sasani qoşunları ilə yeni bir döyüşə girişdi. Bu döyüş dağlıq şəraitində baş vermişdi. Sasani qoşunları yenə məğlub oldular. Ancaq elə bu vaxt Cavanşirə xəbər çatdı ki, sasani qoşunlarının başqa bir hissəsi Bərdə şəhərini tutmuş və onun anası ilə qardaşını əsir götürmüşlər (330).

Cavanşirin sasani qoşunları ilə növbəti döyüşü Kambisena vilayətində oldu. Anasının və qardaşının əsir götürülməsi, sasani qoşunlarının müqavimətdən əl çəkməməsi Cavanşirin mübarizlik ruhunu daha da artırdı. O, yadelli qoşunları məğlubiyyətə uğratmaq, ölkə ərazisini təmizləmək üçün hər bir döyüşə səylə hazırlaşırdı. Kambisena vilayətində planlaşdırılan döyüşə də Cavanşir ciddi hazırlıq görmüşdü. M. Kalankatuklu yazır ki, Cavanşir iranlıların qüvvələrinə laqeydlik göstərməyərək bu döyüşə çox ciddi hazırlıq gördü və qoşunların döyüşqabağı düzülüşünə ciddi diqqət yetirdi (331). Yəqin elə döyüşə belə ciddi surətdə hazırlıq görməsinin nəticəsi idi ki, alban qoşunları bu dəfə də qələbə qazandılar. Döyüşün gedişində Ca-

vanşir başından yara aldı. Ancaq görünür bu yara elə də ciddi deyildi. Çünki Cavanşir yenidən döyüşə qayıtdı və sasani qoşunları darmadağın edilənədək onlarla vuruşdu.

Cavanşir sonra Gürcüstan torpaqlarına keçdi. Gürcü knyazı Adarnarseh Cavanşirin Gürcüstana gəldiyini eşidən kimi onun dayandığı yerə yollandı. Apraılan danışıqlar zamanı sülh müqaviləsi bağlanması qərara alındı. Bu sülh müqaviləsinə görə gürcü qoşunları Albaniya ərazilərinin sasani qoşunlarından təmizlənməsində Cavanşirə kömək etməli idi (332).

Tezliklə Cavanşir onunla müttəfiq olan gürcü qoşunlarını da götürüb Albaniyaya gəldi. Müttəfiq qoşunlarının sasani qoşunları ilə döyüşləri Uti vilayətində baş verdi. M. Kalankatuklunun qeydlərindən belə güman etmək olar ki, Uti vilayətində bu qoşunlar arasında bir neçə döyüş baş verdi. Bu döyüşlər də Cavanşirin qələbəsi ilə başa çatdı (333).

Cavanşir Bərdə şəhərini də sasani qoşunlarından təmizləyərək anasını və qardaşlarını əsirlikdən xilas etdi. Dalbadal məğlubiyyətə uğrayan sasani sərkərdələri Albaniyadan geri çəkilməyə məcbur olsalar da burada öz nüfuzlarını yenidən bərpa etmək niyyətindən hələ əl çəkməmişdilər. Bunun üçün onlar Atropatena ərazisinə soxuldular, alban qoşunlarına güclü zərbələr endirərək bu ölkəni özlərinə tabe etməyə çalışdılar. Ardıarası kəsilməyən təcavüzkar hücumların qarşısını almaq üçün Cavanşir düzgün taktika seçdi. Sayca sasani qoşunlarının sayına bərabər olacaq qoşunun Albaniyada artıq toplamağın mümkün olmadığı üçün Cavanşir öz azsaylı qoşun dəstələrinin uğurlu fəaliyyəti üçün daha səmərəli yollar axtarıb tapırdı. Heç şübhəsiz ki, Cavanşir düşmənin zəif nöqtələrini müəyyənləşdirir və ora qəfil zərbələr vururdu. "Albaniya tarixi"nin müəllifi Cavanşirin bu döyüşləri barədə belə yazırdı: "Atropatenadan onun ölkəsinə tez-tez çoxsaylı iranlı dəstələr soxuldu. Lakin Cavanşir onlardan qorxmadı. Çünki o, azsaylı düşmən dəstələrindən daha çox böyük qoşun dəstələri ilə döyüşməyi xoşlayırdı. Belə ki, o, Şakaşen vilayətində iki döyüşdə əlində qılınc

çoxlu iranlı dəstələrini qırıb məhv etdi və bunların içində döyüşçüləri ilə birlikdə bir neçə minbaşı öldürdü" (334).

Növbəti uğursuzluqdan sonra sasanilər Cavanşirin nikah əlaqələri yaratdığı Sünik knyazının vasitəsilə danışıqlar aparılmasına cəhd göstərdilər. Xeyli itki verən və zəifləyən sasanilər görünür sülh müqaviləsi bağlamaqla yeni qüvvələr toplamaq, Albaniya üzərinə yeni yürüşlər etmək üçün hazırlıq görmək istəyirdilər. "İran sərkərdəsinə gəldikdə o, Cavanşırın əlindən öz dəhşətli məğlubiyyətini və qoşunlarının məhv olmasını gördükdə üzünü sülhə və məhəbbətə çevirməli oldu. O, Cavanşirə Sünikin böyük knyazı vasitəsilə məktubla müraciət edərək and içdi ki, onunla ittifaq bağlayacaq" (335).

Sasanilərlə sülh müqaviləsi bağlanması əslində Albaniyanın da mənafelərinə cavab verirdi. Çünki uzunsürən müharibələrdən sonra albanlar nəhayət ki, ölkənin dirçəldilməsi, onun müstəqil inkişafı üçün zəruri vaxt əldə edə bildilər. Cavanşir güman edirdi ki, sasanilərlə sülh müqaviləsinin bağlanması Albaniyanın tam müstəqilliyinin əldə edilməsi və möhkəmləndirilməsi yolunda ilkin və zəruri addımdır (336).

Cavanşir sasanilərlə bağlanın sülh müqaviləsinə müvəqqəti dinclik yaradılması və ya müharibələrə son qoyulması tədbiri kimi baxırdı. O bu müqavilə vasitəsi ilə Albaniyanın sasanilərin ağalığı altından çıxmasına, ölkənin tam dövlət müstəqilliyinin rəsmiləşdirilməsinə çalışırdı. Sasanilər isə Albaniyadakı nüfuzlarını heç bir vəchlə itirmək istəmirdilər və müqavilə bağlamaqla Albaniyanın möstəqilləşməsinin qarşısını almaq istəyirdilər. Sülh müqaviləsinə qarşı belə müxtəlif münasibət tezliklə onun pozulması ilə nəticələndi. Sasani qoşunlarının baş sərkərdəsi Cavanşirin atasını yanına çağırtdıraraq əsir götürdü və ona sasanilərin şərtlərini qəbul etdirməyə çalışdı. Onu razı sala bilmədikdə Sasani sərkərdəsi Albaniyanın vilayətlərinə öz valilərini təyin etdi və onların hakimiyyətini möhkəmlətmək üçün yerlərə sasani qoşunlarının dəstələrini göndərdi (337).

Alban qoşunları ilə sasani qoşunlarının arasında silahlı mübarizənin yeni bir mərhələsi başladı. Bu dəfə alban qoşunlarına Cavanşir öz qardaşı ilə birlikdə rəhbərlik edirdi. Onlar sasani qoşunlarının yenidən Albaniyanın içərilərinə doğru irəliləməsini və atalarının əsir götürülməsini eşidən kimi dərhal hazırlığa başladılar. Cavanşir və qardaşı atlı qoşun dəstələri ilə Bərdə şəhərinə gəldilər. Yaxşı silahlanmış alban dəstələri sasani qoşunlarına ağır zərbə vuraraq onları məğlubiyyətə uğratdılar. Bu döyüşlər albanların sasani qoşunları ilə sonuncu döyüşləri idi. Tezliklə ərəblərlə müharibədə sasani qoşunları darmadağın edildi və sasani şahlığına son qoyuldu. M. Kalankatuklunun yazdığına görə, sasani şahlığının tamamilə məhv edilməsi Yezdəgirdin şahlığının 20-ci ilində həcərlərin (ərəblərin) bütün dünyada məşhur olan müharibələrinin 31-ci və Cavanşirin hakimiyyətinin 15-ci ilində baş verdi (338).

Ancaq sasani imperiyası süqut etdikdən sonra da Albaniyanın müstəqil varlığı və inkişafı üçün sabit zəmin yaranmadı. Çünki sasanilər imperiyası dağılandan sonra Albaniya daha güclü bir təhlükə qarşısında dayandı. Bu da öz hüdudlarını genişləndirməyə çalışan ərəb xilafəti idi. 642-43-cü illərdə artıq ərəb qoşunlarının Cənubi Qafqaz ərazilərinə, o cümlədən Albaniya ərazilərinə hücumları başladı (339). 642-ci ildə ərəb qoşunları Naxçıvana hücum etdilər (340), 643-cü ildə isə onlar Xəzər dənizi boyu şimala doğru irəlilədilər. Ərəb sərkərdələri İranı, Atropatenanı tutduqdan sonra burada hakimiyyətlərini əsaslı surətdə bərqərar etmək üçün ilk növbədə şimal tayfalarının qarşısına etibarlı sədd çəkmək istəyirdilər. Bunun üçün də Dərbənd keçidinin tutulmasına və burada möhkəmlənməyə xilafət böyük əhəmiyyət verirdi. Azərbaycanın cənub hissəsinin işğalı başa çatan kimi xilafət qoşunlarının Dərbəndə doğru istiqamət götürməsi bununla bağlı idi. Sözsüz ki, ərəb qoşunları Dərbənd qalasına qədər Albaniya ərazisindən keçməli idilər. Onların Albaniyanın bütün ərazilərini hələlik işğal etməyi qarşılarına məqsəd qoymayaraq Xəzər sahili boyu, nisbətən dar

zolağı əllərinə keçirib Dərbəndə doğru irəliləyirdilər. Dərbənd kimi strateji əhəmiyyətli məntəqənin vaxt itirilmədən tutulması üçün xilafətin böyük sərkərdələri Suraka ibn-Əmr, Huzeyfa ibn Asid-əl-Qəffari, Həbib ibn Məsləmə, Əbdülrəhman ibn Rəbiə əl Bəhili və onun qardaşı Səlman, Bukeyr ibn Abdullah ora göndərilən qoşun hissələrinə başçılıq edirdilər. Xilafət qoşunlarına ümumi rəhbərlik Suraka ibn Əmrə tapşırılmışdı. Dərbənd ətrafında ərəblərin döyüşqabağı düzülüşünün mərkəzində Əbdülrəhman ibn Rəbiənin qoşunları mövqe tutmuşdu. Əsas qüvvələrin sağ cinahında Hüzeyfanın, sol cinahında isə Bukeyranın qoşunları hərəkət etməli idi. Səlmanın komandanlığı altında olan dəstələr isə qoşunların ikinci eşelonunu təşkil edirdilər (341).

Ərəb qoşunlarının şimala yürüşü zamanı Dərbəndin müdafiəsinə sasanilərin şimal sərhədlərinin mərzbanı Şəhribərəz başçılıq edirdi. Çox saylı və güclü ərəb qoşunlarına qarşı müqavimət göstərməyin mənasız olduğunu hiss edən Şəhribərəz ərəb qoşunlarının avanqard dəstələrinin sərkərdələri ilə danışıqlar apardı və heç bir müqavimət göstərmədən Dərbəndi ərəblərə təslim etdi (342)

Dərbən keçidi tutulduqdan sonra ərəb sərkərdələri öz qoşunlarını Cənubi Qafqazın içərilərinə doğru istiqamətləndirdilər. Qoşunların bir hissəsi Muğana, bir hissəsi Tiflisə, bir hissəsi Alan ölkəsinə, digər bir hissəsi də Albaniyaya doğru istiqamət götürdülər. Ancaq Muğana göndərilən qoşunlardan başqa, digər istiqamətlərə göndərilən qoşun dəstələrinin heç biri uğur qazana bilmədi (343). Bununla da ərəb qoşunlarının Azərbaycana hücumlarının birinci mərhələsi başa çatdı. Həmin hücumlar zamanı xilafət qoşunları tarixi Azərbaycanın cənub ərazilərini tuta bilsə də şimalda, Albaniya ərazisində yalnız xəzəryanı zolağı və Dərbənd keçidini tuta bilmişdilər. Bununla belə, Cənubi Qafqazı, o cümlədən Albaniya ərazilərini ələ keçirmək xilafətin diqqətindən qaçmamışdı. 644-645-ci illərdə ərəb qoşunlarının Albaniya ərazilərinə yeni hücumları başladı

(344). Albaniya torpaqlarının işğal edilməsində sərkərdə Səlman ibn-Rəbiənin komandanlığı altında olan ərəb qoşunları daha böyük fəaliyyət göstərirdilər. 6 min döyüşçüdən ibarət olan bu qoşun dəstəsi Albaniyanın Sünik vilayətinin ərazisində ərəblərin əsas qoşun hissələrindən ayrılıb Beyləqan istiqamətinə üz tutdu (345). Ərəb tarixçisi Bəlazurinin yazdığına görə, Səlman ibn-Rəbiyyənin komandanlığı altında olan ərəb qoşunlarının Albaniyaya doğru istiqamət götürməsi xəlifə Osmanın əmri ilə baş vermişdi (346). Görünür, Beyləqanın əhalisi ərəb qoşunlarının müqavimətinin qırılmasının qeyri-mümkünlüyünü başa düşdülər. Buna görə də onlar silahlı müqavimət göstərmədən xilafət qoşunlarına təslim oldular. Xilafətin sərkərdəsi Səlman ibn Rəbiyyə əl Bəhili ilə beyləqanlılar arasında sülh müqaviləsi bağlandı. Həmin müqaviləyə görə Beyləqan əhalisi torpaq və can vergisi verməyi, Səlman ibn Rəbiyyə isə onların həyatının, mülkiyyətinin və şəhərinin müdafiəsini boynuna götürdü (347). Sonra Səlman öz qoşunları ilə Bərdəyə yaxınlaşdı. Şəhərin ətrafındakı Tərtər çayının yaxınlığında düşərgə saldı. Bərdə əhalisi müqavimətsiz ərəblərə təslim olmadı. Səlman bir müddət Bərdəni mühasirədə saxladı. Bərdəni və onun ətrafında olan kəndləri zəiflətmək üçün ərəb qoşunları yaxınlıqdakı yaşayış məntəqələrinə basqınlar edir, qarət və talanla məşğul olurdular (348).

Ərəblərin talançı basqınları, böyük qüvvəyə malik olması onlara qarşı uzun müddət müqavimət göstərməyin mümkün olmayacağını şərtləndirirdi. Elə buna görə də bir müddət davam edən mühasirədən sonra Bərdə sakinləri şəhər darvazalarını ərəblərin üzünə açdılar və onların tələbləri ilə razılaşdılar.

Səlman ibn Rəbiyyə bir müddət Bərdədə qaldıqdan sonra digər əraziləri tutmaq üçün şəhəri tərk etdi. Onun başçılıq etdiyi qoşunlar bir çox yaşayış məntəqələrini, o cümlədən qədim şəhər hesab olunan Şəmkiri də tutdular (349). Ərəb tarixçisi əl-Bəlazurinin yazdığına görə, Şəmkir şəhəri ərəblər tərəfindən tutulduqdan sonra da çiçəklənən şəhər kimi qalmaqda idi. Çox

güman ki, çoxsaylı ərəb qoşunları burada da güclü müqavimətə rast gəlmədən şəhəri ələ keçirmişdilər və ona görə də Şəmkirdə heç bir dağıntı olmamışdı.

Xilafət qoşunları Albaniya ərazilərini işğal altına almaqda davam edirdi. Səlman ibn Rəbiyyə Kürün Arazla qovuşan hissəsində sağ sahilə adlayıb həmin tərəfdəki ərazilərin işğalına başladı. O, "Qəbələni tutdu, Şəkkan və Kəmibəran hakimləri ilə vergi ödəmək şərti ilə sülh bağladı. Onunla Xayzan əhalisi və Bab /Dərbənd/ şəhərinin sakinləri belə şərtlərlə sülh bağladılar" (350).

Bəlazurinin qeydlərindən o da məlum olur ki, alban şəhərlərinin əhalisi ərəb qoşunları ilə sülhü məcburiyyət üzündən bağlamışdılar. Bu müqavilələri pozmaq imkanı ələ düşən kimi albanlar ondan istifadə etmişdilər. Ərəblər şəhərləri tərk edən kimi şirvanlılar və dərbəndlilər şəhər qalalarını onların üzünə bağlamışdılar (351). 652-653-cü illərdə Səlmanın qoşunları yenidən Dərbəndə daxil oldu və şəhəri tutmaqla bərabər dərbəndliləri ərəblərə qarşı üsyan qaldırmağa sövq edən xəzərlərə ağır zərbə vurmaq üçün şimala doğru irəlilədilər. Ancaq ərəblər özləri xəzərlər tərəfindən güclü zərbə aldılar. Sərkərdə Səlman ibn Rəbiyyə də bu döyüşdələrdə öldürüldü (352).

Xilafət qoşunlarının Albaniya ərazilərinin işğalına münasibətdə bu yerlərin hakim dairələrinin tutduqları mövqe birmənalı deyildi. Yüksək mövqeli əyanlar, o cümlədən də Cavanşirin atası Varaz-Qriqor qüdrətli ərəb xilafətinə qarşı müqavimət göstərməyin mənasız olduğunu qeyd edərək onlara təslim olmağı lazım bilirdilər. Cavanşir və onun tərəfdarları isə əks mövqedə dayanırdılar. Xalq kütlələrinin böyük əksəriyyəti də ərəb istilasına qarşı fəal mövqe göstərirdilər. Ona görə də ərəblər Albaniyanın ərazisini uzun müddət tam nəzarət altına ala bilmədilər.

Xəlifə Əlinin hakimiyəti dövründə (656-661) xilafətin hakim dairələr arasında hakimiyyət uğrunda mübarizə gücləndi. Xilafətdə gedən bu daxili çəkişmələrdən istifadə edərək

Cənubi Qafqaz xalqları ərəblərin asılılığını tanımaqdan imtina etdilər. Doğrudur, sonradan bir çox əyanlar ərəblərə qarşı lazımi səviyyədə müqavimət göstərməyə qadir olmadıqlarını bildikləri üçün yenidən ərəb asılılığını qəbul etdilər. Cavanşir isə xilafətə qarşı barışmaz mövqe tutmuşdu və ərəb istilasından qorunmaq üçün Bizans dövləti ilə ittifaq bağlamağa təşəbbüs göstərdi (353). O, Bizans imperatoruna məktub yazdı, ondan Albaniyanı öz təbəəliyinə qəbul edilməsini xahiş etdi. Bizans imperatoru Cavanşirin məktubunu böyük sevinclə qarşıladı və ona yazdığı cavab məktubu ilə birlikdə çoxlu hədiyyələr də göndərdi. M.Kalankatuklunun yazdığına görə, bu vaxtlar Cavanşir Albaniyanın bütün ərazisini öz nəzarəti altına almışdı. " O öz ölkəsini və bir vaxtlar İberiya sərhədlərindən Dərbəndə və Araz çayına qədər olan torpaqları hakimi-mütləq kimi idarə edirdi" (354)

660-cı ildə Bizans imperatoru Konstantın hakimiyyətinin on doqquzuncu ilində Cavanşir onunla iki dəfə görüşdü (355).

662-ci ildə xəzərlər şimaldan Albaniya ərazisinə basqın etdilər. Onlar Dərbəndə çatmamışdın qabaq Bələncər yaxınlığında xilafət qoşunlarını məğlubiyyətə uğradaraq özlərinə yol açdılar. Lakin xəzərlər Albaniya ərazisində öz uğurlarını genişləndirə bilmədilər. Cavanşirin rəhbərliyi altında olan qoşun hissələri Xəzər qoşunlarını qarşıladılar və onların müqavimətini qıraraq geri dönməyə məcbur etdilər. Döyüşlərin gedişində Cavanşirin atı büdrəyərək onu yerə yıxdı. Ancaq yüngül xəsarət alan Cavanşir son ana kimi döyüşdü və qələbənin əldə edilməsində öz xidmətlərini göstərdi (356).

664-65-ci illərdə hunların Albaniyaya hücumu təkrar olundu. Hunların bu hücumu əvvəlki hücuma nisbətən daha uğurla başladı və onlar ölkənin içərilərinə doğru xeyli irəlilədilər. Görünür, Cavanşir şimallıların yenidən Albaniyaya hücum etməyə cəsarət edəcəklərini gözləmirdi. Elə ona görə də ölkəyə qəfil soxulan hunlar hətta Kürü də keçərək cənuba doğru hərəkət etdilər (357).

Albaniyanı şimaldan cənub sərhədlərinədək qarət edən hun hakimi çoxlu var-dövlət ələ keçirdikdən sonra Cavanşirlə görüşmək istədiyini bildirdi. Bunun üçün o öz qardaşlarını Cavanşirin yanına göndərdi. Alban knyazı hun xaqanı ilə görüşməyə razı oldu və onların bu görüşü Kür çayının sahilində baş verdi. Danışıqlar nəticəsində sülh müqaviləsi imzalandı və hər iki sərkərdə qarşılıqlı narazılıqlara son qoymaq qərarına gəldilər. Hun xaqanı ilə Cavanşir arasında olan münasibətlər nikah əlaqəsi ilə daha da möhkəmləndi. Alban knyazı Hun xaqanının qızına evləndi. Cavanşir hun xaqanı ilə münasibətləri sahmana saldıqdan sonra hunların basqın zamanı Albaniya ərazilərindən yığdığı 120 min baş qoyunu, 8 min at və öküzü, habelə 1200 əsiri xilas etdi (358).

Cavanşirin bu tədbirli hərəkətlərini müfəssəl təsvir edən M. Kalankatuklu sonra yazırdı: "Bütün bunlar Cavanşirin hakimiyyətinin iyirmi səkkizinci ilində baş verib. Bu onun otuz illik hökmdarlıq dövründə olub və bütün bu illər ərzində o, gənc yaşlarından yetkinləşməsinə qədər hakim sipəhsalar kimi bir çox hallarda ləyaqətlə qəhrəmanlıq göstərib, hakimiyyət illərinin dörddə üçünü əvvəlcə İranda, sonra da hunlar darvazası ətrafında keçirib, bu rəşadəti onu bütün dünyaya tanıdıb və haqqında olan xəbərlər uzaqlarda-şərqdən qərbə və şimaldan cənuba qədər, arilər və qeyri-arilər arasında geniş yayılmışdır" (359).

Müharibələrin qarşısının alınması üçün Cavanşir hunlarla münasibətləri yaxşılaşdırdığı vaxtlarda Bizansla olan əlaqə və münasibətlərə də yenidən baxılması zərurəti ortaya çıxdı. Çünki bir vaxtlar arxalanmaq üçün güclü müttəfiq olan Bizans dövləti xilafətlə mübarizədə xeyli zəifləmişdi. Onun əlində olan ərazilər ərəblərin işğalı altına düşmüşdü. Daha güclü olan ərəb xilafətinin Albaniyaya soxulacağı və onun müstəqilliyinin məhv ediləcəyi təhlükəsi Cavanşiri ərəblərin özü ilə də yeni münasibətlər yaratmağa sövq edirdi. "Bizans imperatorunun cənub çarı (xəlifəsi) tərəfindən şəhərlərinin alov atəşi kimi udub həzm etməsi və onun saysız-hesabsız xalqlarını qılıncdan keçirməsi

nəticəsində zəifləyib əldən düşməsini görən Şərqin ulu knyazı Cavanşir öz ölkəsinin taleyi barəsində təşvişli fikirlərə qərq olmuşdu. O qorxurdu ki, cənub orduları onun ölkəsinə soxularaq onu talan edəcəkdir. O öz köməyinə saysız Türküstan qüvvələrini də səfərbərliyə ala bilərdi, lakin fikirləşdi ki, Cənub çarının əsarətinə tabe olmaq daha da məqsədəuyğundur" (360).

Yaranmış vəziyyətdə Cavanşir şimal tayfalarının köməyinə ümid edə bilsə də, ölkənin daha etibarlı şəkildə qorunması üçün ərəb xilafəti ilə ittifaqa girməyi üstün saydı. Bunun üçün o, 667-ci ildə xəlifə Müaviyyə ilə görüşmək üçün Dəməşqə yola düşdü. Cavanşir xilafət sarayında çox böyük ehtiramla qarşılandı və xəlifə Müaviyyə ilə danışıqlarında xilafətdən asılılığını qəbul edərək Albaniyaya qarşı hərbi əməliyyatların keçirilməməsinə təminat aldı. Cavanşir qiymətli hədiyyələrlə geri qayıtdı. Xilafətlə bağlanılan müqavilədən sonra albanlar həqiqətən neçə illər müharibə alovlarından xilas oldular. Üç il sonra, yəni 670-ci ildə xəlifə Müaviyə özü Cavanşiri yanına çağırdı. Onlar arasında olan bu görüş də böyük ehtiram, hörmət və izzətlə başa çatdı. Cavanşir xilafətlə müqavilə balamaqla ölkəsinin təhlükəsizliyini təmin etdi. Xəlifə özü də Cavanşirlə belə münasibətlərin qurulmasına razı idi və ikinci görüşləri zamanı xəlifə Cavanşirə heç bir qonağa göstərmədiyi ehtiramı göstərdi. Ona hətta Sünik və Atropatenanın hakimliyini də təklif etdi. Ancaq məlumdur ki, Cavanşir Sünik və Atropatenanın hakimliyindənsə öz xalqının vergilərinin azaldılmasına daha üstünlük verdi və buna müvəffəq oldu (361).

680-681-ci illərdə sui-qəsd nəticəsində öldürülən Cavanşirin yerinə qardaşı oğlu Varaz-Tiridat taxta çıxdı. O da ağıllı və uzaqgörən siyasəti ilə Cavanşirin yolunu davam etdirməyə çalışırdı. M. Kalankatuklunun yazdığına görə Cavanşirin ölümündən sonra hakimiyyət uğrunda daxili çəkişmələr mövcud olsa da Varaz Tiridat "öz mehriban davranışı ilə onları sakitləşdirib qəlblərinə hakim oldu. Öz hövsələsi və mülayimliyi ilə o, ölkənin sərhədləri daxilində özünə tabe etdi və tezliklə şanlı

paytaxtını-Bərdəni ələ keçirdi" (362). Buradan belə bir qənaətə gəlmək olar ki, Varaz Tiridatla müxalifətdə olan qüvvələr ölkənin ayrı-ayrı rayonlarında, o cümlədən Bərdə üzərində nəzarəti əllərinə keçiribmişlər. Ölkənin bütövlüyünü, təhlükəsizliyini təmin etmək istiqamətində Varaz Tiridat öz siyasəti ilə bu qüvvələrlə dil tapmış və tezliklə ölkənin daxili sabitliyinə nail olmuşdu. Cavanşirin ölümündən az sonra Albaniya hun qoşunlarının yeni hücumuna məruz qaldı (363).

Hakimiyyət uğrunda mübarizədə Cavanşirin onun yaxınları tərəfindən öldürüldüyünü güman edən hun hakimləri onun qisasını almaq üçün Uti vilayətinə qədər gəlib çıxdılar, burada yaşayanları talan edib çoxlarını əsir aldılar. Varaz Tiridat Cavanşirin ölümündə alban knyazlarının əli olmadığını və bununla da ölkənin viran edilməsinin qarşısını almaq üçün Albaniyanın böyük katalikosu Yeliazarı hun knyazının yanına göndərdi. Onunla danışıqlar zamanı katlikos hun knyazını Cavanşirin qətlinin səbəbləri ilə tanış etdi və onunla ittifaq münasibətlərinin qüvvədə qalmasına nail oldu (364).

Varaz Tiridat ərəb xəlifələri ilə də münasibətləri sahmana sala bildi. Xəlifə onu yüksək rütbələrə layiq gördü, ona Şərq diyarının canişini, bütün Albaniyanın və Uti vilayətinin hökmdarı titulunu verdi (365). Ancaq ərəblərin yığdıqları vergilər xalqın güzəranını xeyli çətinləşdirmişdi. Bir tərəfdən də hunlar müttəfiqlik əlaqələrini pozaraq vaxtaşırı Albaniya torpaqlarına basqınlar edirdilər. Varaz Tiridat heç olmasa bu iki tərəfli zülmün birindən xilas olmaq üçün əyanlar və katalikos Yeliazarla məsləhətləşmədən sonra Böyük Kolmani vilayətinin yepiskopu İsraili hunlar ölkəsinə elçi göndərməyi qərara aldı. Yepiskop İsrail hunlarla aparılan danışıqlarda qarşıya qoyulan məqsədə nail oldu və hətta hun knyazı Alp İlituer başda olmaqla hunların böyük bir hissəsi xristianlığı qəbul etdi. Hunlar Varaz Tiridata məktub yazaraq İsrailin keşiş kimi onların yanında qalmasına icazə verilməsini xahiş etdilər. Bu xahiş hunlarla Albaniya arasında münasibətlərin yaxınlaşmasına ümid yaratsa da Albaniya yeni hun hücumlarından nicat tapmadı (366).

685-ci ildə Albaniya şimallı tayfaların hücumlarına məruz qaldı (367). Elə həmin ildə xilafətdə hakimiyyət başına gəlmiş xəlifə Əbd-ül-Məlik yenidən güclənməkdə olan Bizans imperatoru ilə müqavilə bağladı. Həmin müqavilənin şərtlərinə əsasən xilafətlə Bizans imperatorluğu İberiyaya və Albaniyaya birgə sahib oldular (368). Bu isə həmin xalqların ikitərəfli əsarət altına düşməsinə səbəb oldu.

689-690-cı illərdə Bizans imperatoru II Yustian Cənubi Qafqaz üzərinə böyük hücum təşkil etdi. Bu hücumlara imperatorun özü rəhbərlik edirdi. O, Albaniya və İberiyaya eyni vaxtda hücum etmək üçün qoşunlarını üç dəstəyə böldü. Bizanslılar Cənubi Qafqazda öz mövqelərini möhkəmlətdikdən sonra Albaniya üç ölkəyə - ərəblərə, xəzərlərə və Bizansa vergi verirdi. Bu vəziyyətdən çıxmaq üçün Albaniya knyazı Bizansa vergi verilməsinə son qoymaq qərarına gəldi. Həmin məsələni həll etmək üçün Varaz Tiridat üç oğlu ilə birlikdə Konstantinopola yola düşdü. Ancaq Bizans knyazı III Tiberi Varaz Tiridatın Bizansdan uzaqlaşmağa çalışmasını və xilafətlə yaxınlaşmasını eşitdiyi üçün onu həbsxanaya saldırdı (369). O, həbsdən bir də 704-cü ildə azad olundu və geri qayıtdıqdan sonra yalnız ərəblərə vergi verdi (370). Albaniyanın Bizans ağalığından imtina etməsi və ərəblərin ağalığını qəbul etməsi Bizans imperatorunu qəzəbləndirdi və o, Varaz Tiridatın girov götürdüyü oğullarını 12 il həbsxanada saxladı (371). Albaniya Bizansın ağalığını tanımaqdan imtina etsə də artıq öz müstəqilliyini də itirməkdə idi. Varaz Tiridatın ərəb təbəəliyini qəbul edib yalnız ona vergi verməyə başladıqdan xilafət qoşunları Albaniyaya gəldilər və Varaz Tiridat Konstantinopolda olduğu vaxt Albaniyanı idarə edən Şeronu tutub Suriyaya apardılar. Albaniya bununla da dövlət müstəqilliyini itirdi və bütünlüklə ərəb canişinlərinin hakimiyyəti altına düşdü.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT


1.Azərbaycan tarixi. Bakı, 1993, s. 94

2. Страбон. XI, 4 (Вах: Страбон. География в 17-ти книгах. М., 1964).

3. Azərbaycan tarixi. Bakı, 1993, s. 100

4. İsmayılov M. Azərbaycan tarixi. Bakı, 1992, s. 38

5. Azərbaycan tarixi. Bakı, 1993, s. 100

6. Алиев К. Античная Кавказская Албания. Баку, 1992, с. 33

7. Амфитеатров А.В. Армения и Рим. Петроград, 1896, с. 155

8. История древного мира. Т. II, М., 1982, с. 299

9. Плутарх. Лукулл, XXV (Вах: Плутарх. Избранные жизнеописания. Т. I, II. М., 1990

10. Плутарх. Лукулл, XXVI

11. Плутарх. Лукулл, XXV

12. İsmayılıv M. Azərbaycan tarixi. Bakı, 1992, s. 39

13. История древного мира. Т. II, М., 1982, с. 299

14. Плутарх. Лукулл, XXXIII

15. Очерки истории СССР. Первобытно-общинный строй и древнейшие государства на территории СССР. М., 1956, с. 463

16. Yenə orada

17. Страбон. XI, 4, 4

18. Azərbaycan tarixi. I c., Bakı, 1961, s. 79

19. Плутарх. Лукулл, XXXIV

20. Yenə orada

21. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании IV в. до н.э - VII в. н.э. М.Л., 1959, с. 94-95

22. Алиев К. Античная Кавказская Албания..., с.175

23. Плутарх. Помпей, XXXIV

24. Azərbaycan tarixi. I c., Bakı, 1961, s. 79
25. Всемирная история. Т. II, м., 1955, с.417
26. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании..., с. 99
27. Алиев К. Античная Кавказская Албания..., с.174
28. Страбон. XI, 4, 4-5
29. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании..., с. 94
30. Yenə orada
31. Алиев К. Античная Кавказская Албания..., с.175
32. Тревер К.В. Очерки по истории..., 95; Алиев К. Античная Кавказская Албания..., с.175
33. Очерки истории СССР...., с.464
34. Плутарх. Помпей, XXXV
35. Плутарх. Помпей, XXXIV
36. Плутарх. Помпей, XXXV
37. Плутарх. Помпей, XXXV
38.Плутарх. Помпей, XXXV
39. Плутарх. Помпей, XXXV
40. Тревер К.В. Очерки по истории..., 97
41. Azərbaycan tarixi. I c., Bakı, 1961, s. 79
42. Плутарх. Помпей, XXXV
43. Тревер К.В. Очерки по истории..., с. 99
44. Yenə orada, s.100
45. Тревер К.В. Очерки по истории..., с. 99
46. Плутарх. Помпей, XXXV
47. Тревер К.В. Очерки по истории..., с. 99
48. Yenə orada, s. 99
49. Плутарх. Помпей, XXXV
50. Həsənov Y. Qədim Roma tarixi. Bakı, 1975, s. 257
51. Машкин Н.А. История древнего Рима. М., 1956, с. 273; Тревер К.В. Очерки по истории..., 108
52. Плутарх. Помпей, XXXV
53. Yenə orada

54. Azərbaycan tarixi. I c., Bakı, 1961, s. 80; İsmayılov M. Azərbaycan tarixi. Bakı, 1992, s. 40

55. Очерки истории СССР...., с.464

57. Алиев К. Античная Кавказская Албания..., с.178

58. Плутарх. Антоний, XXXIV

59. Тревер К.В. Очерки по истории..., с. 111

60. Azərbaycan tarixi. I c., Bakı, 1961, s. 81

61. Тревер К.В. Очерки по истории..., с. 116

62. Алиев К. Античная Кавказская Албания..., с.180

63. Момзен Т. История Рима. Т. III, М., 1941, с. 109

64. Страбон. XI, 4

65. Мамедов Т. Кавказская Албания. Баку, 1993, с. 45

66. Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı, 1993, s.16-17

67. Страбон. XI, 4, 3

68. Yenə orada

69. Казиев С. Новые археологические находки в Мингечауре в 1949г. //Известия Академии Наук Азерайджанской ССР, 1949, N-9, с.97; Алиев К. Античная Кавказская Албания..., с.89; Bünyatov T. Azərbaycanda əkinçiliyin inkişaf tarixindən. Bakı, 1964, s. 10-13

70. Kalankatuklu M. Albaniya tarixi..., s.16-17

71. Yenə orada, s. 29

73. Казиев С. Новые археологические находки...; Мамедов Т. Кавказская Албания..., с.47

74. Страбон. XI, 4, 3

75. Azərbaycan tarixi. I c., Bakı, 1961, s. 66

76. Azərbaycan tarixi. Bakı, 1993, s.96

77. Страбон. XI, 4, 3

78. Məmmədova F. Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası. Bakı, 1993, s. 146

79. Kalankatuklu M. Albaniya tarixi..., s.16-17

80. Тревер К.В. Очерки по истории..., с. 79; Bünyatov T. Azərbaycanda əkinçiliyin..., s. 29-30; Мамедов Т. Кавказская Албания..., с.49

81. Страбон. XI, 4, 3
82. Kalankatuklu M. Albaniya tarixi..., s.16-17
83. Тревер К.В. Очерки по истории..., с. 69-70; Bünyatov T. Azərbaycanda əkinçiliyin..., s. 19-23;
84. Тревер К.В. Очерки по истории..., с. 70; Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s.145
85. Тревер К.В. Очерки по истории..., с. 71; Алиев К. Античная Кавказская Албания..., с.90
86. Алиев К. Античная Кавказская Албания..., с.104
87. Алиев К. Античная Кавказская Албания..., с.105; Мамедов Т. Кавказская Албания..., с.105
88. Халилов Дж. Материальная культура Кавказской Албании (IV до н.э – III в. н.э.). Авторитет диссертации на соискание звания доктора истирических наук. Баку, 1974, с. 43
89. Kalankatuklu M. Albaniya tarixi..., s.16-17
90. Мамедов Т. Кавказская Албания..., с.56; Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s.148-149
91. Халилов Дж. Материальная культура Кавказской..., с.43
92. Kalankatuklu M. Albaniya tarixi..., s.16-17
93. Kalankatuklu M. Albaniya tarixi..., s.107
94. Казиев С. Археологические раскопки в Мингечауре / Материальная культура Азербайджана. Т. I, Баку, 1949, с.33-36; Мамедов Т. Кавказская Албания..., с.56;
95. Azərbaycan tarixi. I c., Bakı, 1961, s. 67
96. Ахмедов Г.М. Средневековой город Бейлаган. Авторитет диссертации на соискание звания доктора истирических наук. Баку, 1972, с. 9; Azərbaycan tarixi. Bakı, 1993, s.97
97.Azərbaycan tarixi.Bakı, 1993, s. 97
98. Страбон. XI, 4, 4
99. Страбон. XI, 4, 4
100. Страбон. XI, 4, 5

101. Алиев К. Античная Кавказская Албания..., с.169
102. Əliyev Ə. Qədim Albaniyada ox ucları. Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası. N-3, 1975
103. Тревер К.В. Очерки по истории..., с. 91;
104. Алиев К. Античная Кавказская Албания..., с.170
105. Yenə orada
106. Тревер К.В. Очерки по истории..., с. 148; Мамедов Т. Албания и Атропатена по древнеармянским источникам. Баку, 1977, с.34; Мамедов Т. Кавказская Албания..., с.56; Kalankatuklu M. Albaniya tarixi..., s.27
107. Osmanov F.A. Qafqaz Albaniyasının maddi mədəniyyəti. Bakı, 1992, s. 70
108. Алиев К. Античная Кавказская Албания..., с.169
109. Yenə orada
110. Kalankatuklu M. Albaniya tarixi..., s.30, 45
111. Тревер К.В. Очерки по истории..., с. 148; Алиев К. Античная Кавказская Албания..., с.171
112. Алиев К. Античная Кавказская Албания..., с.171
113. Тревер К.В. Очерки по истории..., с. 148; Мамедов Т. Албания и Атропатена по..., с.34
114. Алиев К. Античная Кавказская Албания..., с.171
115. Мамедов Т. Кавказская Албания..., с.98
116. Kalankatuklu M. Albaniya tarixi..., s.118
117. Тревер К.В. Очерки по истории..., с. 287; Мамедов Т. Кавказская Албания..., с.98
118. Страбон. XI, 4, 5
119. Алиев К. Античная Кавказская Албания..., с.172
120. Yenə orada
121. Kalankatuklu M. Albaniya tarixi..., s.146
122. Тревер К.В. Очерки по истории..., с. 287
123. Kalankatuklu M. Albaniya tarixi..., s.146; Мамедов Т. Кавказская Албания..., с.98
124.Bax: Алиев К. Античная Кавказская Албания..., с.172

125. Тревер К.В. Очерки по истории..., с. 288
126. Kalankatuklu M. Albaniya tarixi..., s.27
127. Тревер К.В. Очерки по истории..., с. 287
128. Yenə orada
129. Страбон. XI, 4, 5
130. Мамедов Т. Кавказская Албания..., с.98
131. Bax: Osmanov F.A. Qafqaz Albaniyasının maddi mədəniyyəti. Bakı, 1992, s. 70
132. Bax: Алиев К. Античная Кавказская Албания..., с.172
133. İsmayılov M. Azərbaycan tarixi. Bakı, 1992, s.34; Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s.153
134. Qədirov F. Azərbaycanın şimal müdafiə istehkamları. Bakı, 1984, s.9
135. Yenə orada, s. 14
136. Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s.153
137. Azərbaycan tarixi. Bakı, 1993, s. 99
138. Bax: Qədirov F. Azərbaycanın şimal müdafiə istehkamları. Bakı, 1984
139. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989, s. 43
140. Тревер К.В. Очерки по истории..., с. 268
141. Мамедов Т. Кавказская Албания..., с.168
142.Yenə orada, s. 168-169
143. Yenə orada, s. 169
144. Fazili A. Azərbaycanın qədim və ilk orta əsrlər tarixi İran tarixşünaslığında. Bakı, 1984, s. 72; Bünyadov Z. Göstərilən əsəri, s. 42-43; Мамедов Т. Кавказская Албания..., с.171
145. Мамедов Т. Кавказская Албания..., с.171
146. Kalankatuklu M. Albaniya tarixi..., s.92
147. Kalankatuklu M. Albaniya tarixi..., s.172
148. Кудрявцев А. Древний Дербент. М., 1982, с.109
149. Тревер К.В. Очерки по истории..., с. 288
150. Мамедов Т. Кавказская Албания..., с.171

151. Мамедов Т. Кавказская Албания..., с.172; Тревер К.В. Очерки по истории..., с. 279

152. Кудрявцев А. Древний Дербент. М., 1982, с.109

153. Мамедов Т. Кавказская Албания..., с.172; Тревер К.В. Очерки по истории..., с. 279

154. Кудрявцев А. Древний Дербент. М., 1982, с.109

155. Тревер К.В. Очерки по истории..., с. 284

156. Мамедов Т. Кавказская Албания..., с.171

157. Kalankatuklu M. Albaniya tarixi..., s.92

158. Kalankatuklu M. Albaniya tarixi..., s.92

159. Kalankatuklu M. Albaniya tarixi..., s.92

160. Вопросы истории Кавказской Албании. Баку, 1962, с. 35-36

161. Страбон. XI, 4, 5

162. Yenə orada

163. Мамедов Т. Кавказская Албания..., с.98

164. Тревер К.В. Очерки по истории..., с. 287

165. Очерки истории СССР.., с.430

166. Yenə orada, s. 472

167. Yenə orada, s. 453

168. Манандян Я.А. Тигран Второй и Рим..., с. 69

169. Очерки истории СССР.., с.453

170. Очерки истории СССР.., с.453

171. Kalankatuklu M. Albaniya tarixi..., s.127

172. Kalankatuklu M. Albaniya tarixi..., s.145

173. Yenə orada

174. Очерки истории СССР.., с.453

175. Плутарх. Лукулл, XXVI; Амфитеатров А.В. Армения и Рим. Петроград, 1896, с.67

176. Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s.158; Azərbaycan tarixi. Bakı, 1993, s. 107

177. Kalankatuklu M. Albaniya tarixi..., s.121, 126

178.. Kalankatuklu M. Albaniya tarixi..., s.75

179. Kalankatuklu M. Albaniya tarixi..., s.119, 120

180. Мамедов Т. Кавказская Албания..., с.98
181. Yenə orada
182. Тревер К.В. Очерки по истории..., с. 288; Мамедов Т. Кавказская Албания..., с.98
183. Мамедов Т. Кавказская Албания..., с.98
184. Yenə orada
185. Kalankatuklu M. Albaniya tarixi..., s.91
186. Тревер К.В. Очерки по истории..., с. 288
187. Kalankatuklu M. Albaniya tarixi..., s.27
188. Плутарх. Лукулл, XXIV
189. Плутарх. Лукулл, XXV
190. Страбон. XI, 4, 5
191.Плутарх. Лукулл, XXVI;
192. Kalankatuklu M. Albaniya tarixi..., s.20
193. Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s.178-179
194. Мамедов Т. Кавказская Албания..., с. 147
195. Yenə orada, s. 147
196. Тревер К.В. Очерки по истории..., с. 207
197. Мамедов Т. Кавказская Албания..., с. 149; Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s.182
198. Kalankatuklu M. Albaniya tarixi..., s.40
199. Kalankatuklu M. Albaniya tarixi..., s.41
200. Kalankatuklu M. Albaniya tarixi..., s.118
201. Мамедов Т. Кавказская Албания..., с. 148
202. Kalankatuklu M. Albaniya tarixi..., s.128
203. Тревер К.В. Очерки по истории..., с. 246
204. Kalankatuklu M. Albaniya tarixi..., s.126
205. Kalankatuklu M. Albaniya tarixi..., s.126
206. Kalankatuklu M. Albaniya tarixi..., s.126
207. Yenə orada, s.127
208. Yenə orada, s.151
209. Yenə orada, s.134
210. Yenə orada, s.134
211. Yenə orada, s.134

212. Yenə orada, s.136
213. Yenə orada, s.136
214. Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s.178-179
215. Kalankatuklu M. Albaniya tarixi..., s.104
216. Yenə orada, s.105
217. Yenə orada, s.105
218. Yenə orada, s.105-109
219. Yenə orada, s.105-109
220. Yenə orada, s.151
221. Yenə orada, s. 154
222. Yenə orada, s. 26
223. Yenə orada, s. 26
224. Yenə orada, s. 26
225. Yenə orada, s. 41
226. Yenə orada, s. 41
227. Yenə orada, s. 42
228. Yenə orada, s. 51
229. Yenə orada, s. 53
230. Yenə orada, s. 127
231. Yenə orada, s. 137
232. Yenə orada, s. 129
233. Yenə orada, s. 128
234. Yenə orada, s. 135
235. Yenə orada, s. 145
236. Yenə orada, s. 147-150
237. Плутарх. Помпей, XXXIV
238. Kalankatuklu M. Albaniya tarixi..., s. 39
239. Yenə orada, s. 117
240. Yenə orada, s. 120
241. Yenə orada
242. Yenə orada
243. Yenə orada
244. Yenə orada, s. 29

245. Yenə orada, s. 119
246. Yenə orada
247. Мамедов Т. Кавказская Албания..., с. 148
248. Kalankatuklu M. Albaniya tarixi..., s. 27
249. Тревер К.В. Очерки по истории..., с.189; Мамедов Т. Кавказская Албания..., с. 145; Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s.171
250. Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s.171; Мамедов Т. Кавказская Албания..., с. 145-146
251. Мамедов Т. Кавказская Албания..., с. 147
252. Kalankatuklu M. Albaniya tarixi..., s. 29
253. Yenə orada, s. 27
254. Yenə orada, s. 26
255. Тревер К.В. Очерки по истории..., с.199; Мамедов Т. Кавказская Албания..., с. 147
256.Kalankatuklu M. Albaniya tarixi..., s. 28
257. Тревер К.В. Очерки по истории..., с.199; Мамедов Т. Кавказская Албания..., с. 147-149
258. Azərbaycan tarixi. I c., Bakı, 1961, s. 96
259. Azərbaycan tarixi. Bakı, 1993, s. 114
260. Kalankatuklu M. Albaniya tarixi..., s. 38
261. Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s.181
262. Kalankatuklu M. Albaniya tarixi..., s. 38
263. Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s.181
264. Kalankatuklu M. Albaniya tarixi..., s. 39; Тревер К.В. Очерки по истории..., с.207
265. Kalankatuklu M. Albaniya tarixi..., s. 39
266. Yenə orada
267. Yenə orada
268. Yenə orada
269. Yenə orada, s.40
270. Kalankatuklu M. Albaniya tarixi..., s. 40
271. Kalankatuklu M. Albaniya tarixi..., s. 40; Джафаров Ю. Гунны и Азербайджан. Баку, 1993, с. 59

272. Azərbaycan tarixi. I c., Bakı, 1961, s. 100; Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s.182
273. Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s.182
274. Yenə orada, s.182
275. Azərbaycan tarixi. I c., Bakı, 1961, s. 100
276. Yenə orada
277. Yenə orada
278. Kalankatuklu M. Albaniya tarixi..., s. 41
279. Kalankatuklu M. Albaniya tarixi..., s. 41; Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s.183
280. Kalankatuklu M. Albaniya tarixi..., s. 41
281. Kalankatuklu M. Albaniya tarixi..., s. 48
282. Тревер К.В. Очерки по истории..., с.218-219
283. Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s.184
284. Тревер К.В. Очерки по истории..., с. 219
285. Kalankatuklu M. Albaniya tarixi..., s. 51
286. Yenə orada, s.53, 78
287. Yenə orada, s. 68
288. Джафаров Ю. Гунны и Азербайджан..., с. 66
289. Yenə orada, s. 67
290. Yenə orada
291. Yenə orada
292. Джафаров Ю. Гунны и Азербайджан..., с.85; Мамедов Т. Кавказская Албания..., с. 151
293. Мамедов Т. Кавказская Албания..., с. 151
294. Вах: Джафаров Ю. Гунны и Азербайджан..., с.85
295. Kalankatuklu M. Albaniya tarixi..., s. 101
296. Yenə orada
297. Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s.187
298. Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s.188; Azərbaycan tarixi. Bakı, 1993, s.118
299. Мамедов Т. Кавказская Албания..., с. 152
300. Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s.188; Azərbaycan tarixi. Bakı, 1993, s.118

301. Kalankatuklu M. Albaniya tarixi..., s. 89
302. Yenə orada, s. 90
303. Yenə orada
304. Yenə orada
305. Мамедов Т. Кавказская Албания..., с. 153
306. Kalankatuklu M. Albaniya tarixi..., s. 91
307. Kalankatuklu M. Albaniya tarixi..., s. 91; Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s.191
308. Kalankatuklu M. Albaniya tarixi..., s. 92
309. Yenə orada
310. Kalankatuklu M. Albaniya tarixi..., s. 93; Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s. 192
311. Мамедов Т. Кавказская Албания..., с. 155
312. Kalankatuklu M. Albaniya tarixi..., s. 102; Тревер К.В. Очерки по истории..., с. 241
313. Kalankatuklu M. Albaniya tarixi..., s. 105
314. Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s. 194; Azərbaycan tarixi. Bakı, 1993, s.120
315. Kalankatuklu M. Albaniya tarixi..., s. 117
316. Yenə orada, s. 118
317. Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s. 195. Başqa tədqiqatlarda isə ərəb qoşunlarının Sasani imperiyasının sərhədlərini adlamasının 633-cü ildə olduğu qeyd edilir. Bax: Vəlixanlı N. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993, s. 18
318. Kalankatuklu M. Albaniya tarixi..., s. 117; Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s. 196; Vəlixanlı N. Ərəb xilafəti və Azərbaycan..., s. 18
319. Kalankatuklu M. Albaniya tarixi..., s. 117
320. Беляев Е.А. Арабы, ислам и арабский халифат в раннее средневековье. М., 1965, с. 138
321. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989, s. 72
322. Kalankatuklu M. Albaniya tarixi..., s. 117
323. Yenə orada

324. Yenə orada, s.118

325. Yenə orada

326. Kalankatuklu M. Albaniya tarixi..., s. 119; Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə..., s.73; Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s. 196

327. Kalankatuklu M. Albaniya tarixi..., s. 119

328. Kalankatuklu M. Albaniya tarixi..., s. 119; Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s. 196

329. Kalankatuklu M. Albaniya tarixi..., s. 119; Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s. 196

330. Kalankatuklu M. Albaniya tarixi..., s. 120; Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s. 197; Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə..., s.73

331. Kalankatuklu M. Albaniya tarixi..., s. 120

332. Yenə orada

333. Yenə orada

334. Yenə orada

335. Yenə orada, s.121

336.Yenə orada

337. Yenə orada

338. Yenə orada

339. Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s. 197; Мамедов Т. Кавказская Албания..., с. 158; Vəlixanlı N. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993, s. 24

340. Мамедов Т. Кавказская Албания..., с. 158

341. Bünyadov Z. Göstərilən əsəri, s.81; Vəlixanlı N. Göstərilən əsəri, s.24

342. Vəlixanlı N. Göstərilən əsəri, s. 24

343. Yenə orada, s. 25

344. Bünyadov Z. Göstərilən əsəri, s. 80; Vəlixanlı N. Göstərilən əsəsri, s. 26

345. Vəlixanlı N. Göstərilən əsəri, s. 28

346. Əl-Bəlazuri. Kitab Fütuh əl-Buldən, s.68 / Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989, s.67-71

347. Əl-Bəlazuri, s. 68
348. Əl-Bəlazuri, s. 68-69
349. Yenə orada, s. 69
350. Yenə orada
351. Yenə orada
352. Vəlixanlı N. Göstərilən əsəri, s. 28-29
353. Тревер К.В. Очерки по истории..., с. 246; Azərbaycan tarixi. I c., Bakı, 1961, s. 121
354. Kalankatuklu M. Albaniya tarixi..., s. 127
355. Kalankatuklu M. Albaniya tarixi..., s. 128; Məmmədova F. Azərbaycanın siyasi tarixi..., s. 198
356. Kalankatuklu M. Albaniya tarixi..., s. 130; Vəlixanlı N. Göstərilən əsəri, s. 39
357. Kalankatuklu M. Albaniya tarixi..., s. 132
358. Kalankatuklu M. Albaniya tarixi..., s. 132; Мамедов Т. Кавказская Албания..., с. 161
359. Kalankatuklu M. Albaniya tarixi..., s. 133
360. Yenə orada, s. 134
361. Kalankatuklu M. Albaniya tarixi..., s. 137; Məmmədova F. Göstərilən əsəri, s.199
362. Kalankatuklu M. Albaniya tarixi..., s. 151
363. Yenə orada
364. Yenə orada
365. Yenə orada, s.152
366. Məmmədova F. Göstərilən əsəri, s. 201
367. Bünyadov Z. Göstərilən əsəri, s. 102; Məmmədova F. Göstərilən əsəri, s.202
368. Bünyadov Z. Göstərilən əsəri, s. 103; Məmmədova F. Göstərilən əsəri, s.202
369. Bünyadov Z. Göstərilən əsəri, s. 104; Məmmədova F. Göstərilən əsəri, s.202
370. Kalankatuklu M. Albaniya tarixi..., s. 186
371. Yenə orada

# VI. XÜRRƏMİLƏR HƏRƏKATINDA HƏRB İŞİNİN TƏŞKİLİ

## 1. Ərəb işğalçılarına qarşı Azərbaycanda xalq üsyanları və Xürrəmilər hərəkatının meydana gəlməsi

IX əsrin bininci yarısında Babəkin rəhbərliyi altında ərəb xilafətinə qarşı geniş vüsət alan xalq hərəkatı Azərbaycan hərb tarixinin keyfiyyətcə yeni bir səhifəsini təşkil edir. Kütləviliyi, əhatə dairəsi, hərəkətverici və istiqamətləndirici qüvvələri, təchiz və təkmil mənbələri, qarşısında dayanan məqsəd və vəzifəsi, xarakteri və s. cəhətləri ilə dövlət səviyyəsində aparılan hərb işindən fərqli olan bu hərəkat maraqlı hərbi strateji və taktiki xüsusiyyətləri ilə xarakterizə olunur ki, onların tətbiqi və istifadəsi Azərbaycanın hərbi və qəhrəmanlıq tarixinin yeni bir istiqamətnin də inkişafına təkan verdi. Nəticədə getdikcə genişlənən və dolğunlaşan xalq hərəkatı 400 min kvadrat kilometrədək olan ərazini dövrön ən güclü dövlətlərindən olan ərəb xilafətinin nəzarətindən azad etdi və xilafəti az qala dağılmaq təhlükəsi qarşısında qoydu.

Babəkin rəhbərliyi altında alovlanan xalq hərəkatı xilafət hakimiyyətinə qarşı möqavimət hərəkatı kimi meydana gəlmişdi. Yeni möharibə dağntılarına və işğala qarşı genişlənən xalq hərəkatı son nəticədə çox böyük əraziləri bürüdü. Ümumxalq qəzəbinin, qətiyyətinin nümayişi kimi ortaya çıxan Babək üsyanının uzunömürlülüyünü və uğurunu şərtləndirən ən başlıca amil geniş xalq kütlələrinin vahid məqsəd ətrafında birləşməsi idi. Babək üsyanı təkcə ərəblərin Azərbaycana gəldiyi gündən milli-azadlıq ideyalarının reallaşma zirvəsi deyildi, həm də neçə onilliklər ərzində vaxtaşırı baş verən xalq üsyanlarının hərbi-tarixi təcrübə və ənənələrinin davamı, onun yeni

bir mərhələsi idi. Həmin üsyanlar Babəkin rəhbərliyi altında baş verən üsyan kimi uzunmüddətli və daha nizamlı üsyan olmasalar da onlar ərəb hakimlərini və qoşunlarını daim gərginlikdə saxlayır və öz vüsətləri ilə xilafətin sütunlarını lərzəyə gətirirdi. Ərəb qoşunlarına küllü itkilər yetirən, hərbi-taktiki xüsusiyyətləri ilə maraq doğuran belə ösyanlar VIII əsrin ortaları və ikinci yarısı üçün daha xarakterikdir. Çünki bu dövrdə bölgədə aparılan müharibələrin dağıntıları xalq arasında çox geniş narazılıqlara rəvac vermişdi. Əlavə olaraq ərəb hakimləri tərəfindən tətbiq edilən vergilər kənd təsərrüfatı məhsullarının təxminən yarısını əkinçilərin əlindən alınmasına gətirib çıxarırdı. Məhsulun qalan hissəsi isə yerli feodalların vergilərinə və ailənin azuqəsinə kifayət etmirdi. Ərəb tarixçisi İbn Xəldunun verdiyi məlumata görə, xilafət əmirlərinin Şimali Azərbaycandan topladıqları pul vergisi 15 milyon dirhəmə çatırdı. Pul vergisindən əlavə Azərbaycan əhalisi hər il ərəblərə 20 xalça, 580 funt Rakim balığı, 10 min funt sürmahi şor balığı, 10 min turşuya qoyulmuş balıq, 20 qatır, 30 qızıl quş verirdi. Cənubi Azərbaycanın illik vergisini isə 9 milyon dirhəm pul, 1000 nəfər qul, 12 min pud bal, 10 qızıl quş və 20 kaftan təşkil edirdi. Ərəblərə verilən vergilər bununla bitmirdi. Əlavə olaraq vergi toplayanlar da özbaşınalıq edir, vergiləri normasından artıq toplamaqla özləri üçün sərvət yığırdılar.

Münbit torpaqların böyük hissəsinin gəlmə feodallarının əlinə keçməsi də Azərbaycan kəndlilərinin vəziyyətini ağırlaşdırırdı. Çıxılmaz vəziyyətdə qalan kəndlilərin çoxu öz yerlərini tərk edib başqa yerlərə getsələr də öz yaşayışlarını yüngülləşdirə bilmirdilər. Xalqın geniş kütlələrini əhatə edən belə narazılıqlar ərəblərə qarşı silahlı üsyanların başlanması üçün obyektiv zəmin yaradırdı.

Kütləviliyi və əhatə dairəsi ilə seçilən xalq üsyanlarından biri 748-ci ildə Beyləqanda başladı və tez bir zamanda qonşu vilayətləri, o cümlədən Ərdəbili də əhatə etdi. Ərəb hakimlərinin siyasətindən narazı olan bir çox yerli əyanlar da üsyançı-

lara qoşuldular və xilafət əleyhinə başlanan üsyanda yaxından iştirak etdilər.

748-ci ildə başlanan bu üsyanın xilafətə qarşı mübarizə tarixində əhəmiyyətli yer tutması ilə bərabər burada diqqəti özünə cəlb edən bir məsələ də var idi. O da üsyanın hərbi tərəfi idi. Bu üsyan silahlı üsyan idi. Onun uğuru, bir neçə vilayətə yayılması üsyanın silahlı şəkildə həyata keçirilməsi, vilayətlərdəki xilafətə məxsus qoşun dəstələrinin məğlub edilməsi ilə bağlı idi. Bir neçə vilayətdə ərəb qarnizonlarının məhv edilməsi, habelə üsyançıların çoxsaylı ərəb qoşunları ilə üzbəüz döyüşə çıxması onu deməyə əsas verir ki, üsyançıların xeyli silahı var idi. Sözsüz ki, üsyançıların hamısının dövrün müasir silahları ilə silahlandığını iddia etmək olmaz. Ancaq şübhə etmək olmaz ki, üsyanın başlanması ərəfəsində onun rəhbərləri hazırlıq işləri aparmış, üsyançıların müxtəlif xarakterli silahlarla silahlanması qeydinə qalmış, habelə hərəkət planını müəyyənləşdirmiş, üsyanın müəyyən nizamlılığına, onun idarə edilməsinə cəhd göstərmiş, ərəb qoşunlarının hücumu zamanı bəzi hərbi-müdafiə tədbirlərinə əl atmışdılar. Bütün bunlar üsyançılardan, xüsusən onun rəhbərlərindən müəyyən hərbi səriştə tələb edirdi. Yoxsa, bir neçə vilayəti əhatə edən çoxsaylı üsyanı idarə etmək və bəzi uğurlar əldə etmək mümkün olmazdı.

Beyləqanda olan ərəb valisi Asim ibn Yəzid üsyanın kütləviləşməsindən qorxuya düşərək onun qarşısının alınması üçün müəyyən tədbir və hiylələrə əl atdı. O, Beyləqanda qiyama başçılıq edən Aban ibn Məymun və Qüteybə ibn Sadakanı yanına çağırtdırıb onları həbs etdirdi. Lakin bu tədbir üsyanın zəifləməsinə heç bir təsir göstərmədi. Əksinə, üsyançılar bu xəbəri eşidən kimi Beyləqan şəhərini mühasirəyə aldılar. Nərdivanlardan istifadə edərək möhkəm qala divarlarını aşan üsyançılar tezliklə şəhərə daxil oldular. Şəhərdəki ərəb qarnizonunun müqaviməti qırıldıqdan sonra üsyançılar əsir götürülmüş yoldaşlarını azad etdilər. Beyləqan valisi Asim ibn Yəzid isə üsyançıların uğurlu hücumlarından qorxuya düşərək Bərdəyə

qaçdı. Mənbələrin verdiyi məlumata görə, üsyançıların bu qələbəsindən xəbər tutan çoxlu adam onların sıralarına qoşularaq böyük bir qoşun təşkil etdilər. Üsyan rəhbərləri üsyançıların sayının artdığını görüb Asim ibn Yəzidi təqib etmək və onun qoşununu məhv etmək qərarına gəldilər. Onlar Bərdəyə doğru istiqamət götürdülər. Asim ibn Yəzid burada olan ərəb qoşunlarını Tərtər çayı boyunca yerləşdirərək üsyançıların qarşısını saxlamağa cəhd göstərsə də bir nəticəyə nail ola bilmədi. Onun qoşunuları məğlub edildiyi kimi, özü də döyüşün gedişində öldürüldü.

Xilafətdə hakimiyyətdə olan Əməvilər sülaləsi Azərbaycanda genişlənən bu xalq üsyanını yatıra bilmədi. 750-ci ildə hakimiyyyətə gələn Abbasilər sülaləsinin nümayəndələri üsyanın xilafət üçün təhlükəli olduğunu başa düşdüklərindən sonra onun yatırılması üçün qətiyyətli tədbirlərə əl atdılar. Mənbələrə görə, Azərbaycana yeni təyin edilmiş hakim Məhəmməd ibn Sul üsyançılara qarşı 100 minlik qoşun yeritdi və güclü müqavimətə baxmayaraq onları məğlub etdi. Üsyançılarla Məhəmməd ibn Sulun başçılığı altında olan xilafət qoşunları arasında bir yox, bir neçə döyüş baş verdi.

Bu üsyanın yatırılması ilə heç də Azərbaycanda ərəb xilafətinə qarşı çıxışlara son qoyulmadı. 752-ci ildə Şəmkirdə yeni xalq üsyana qalxdı. Narazı olan xalq kütlələri Şəmkirdə yerləşən ərəb qarnizonunu məhv etdilər. Həmin üsyanın yatırılması üçün də xilafət əmirləri böyük qüvvə tətbiq edərək Şəmkirdə vəziyyəti nəzarət altına ala bildilər.

Ərəb əmirləri tərəfindən üsyanların yatırılması yerli əhaliyə qarşı cəza tədbirləri ilə müşayiət olunurdu. Hakimiyyəti möhkəmləndirmək üçün ərəblər daha sərt tədbirlərə əl atırdılar ki, bu da ümumi narazılığı daha da artırırdı. Ona görə də VIII əsrin sonuncu rübündə Azərbaycan ərazisini yenidən üsyanlar dalğası bürüdü. Ayrı-ayrı yerlərdə əhali elliklə ayağa qalxır, ərəb hakimlərini, vergi yığanları öldürür, onlara tabe olmaqdan imtina edirdilər. Tədqiqatçıların yazdığına görə, VIII əsrin son

12 ilində Cənubi Qafqazda 15 ərəb hakimi dəyişdirilsə də üsyanlar dalğasını yatırmaq mümkün olmadı. Çünki ərəb hakimlərinin yeritdikləri siyasət yerli xalqları müdafiə tədbirləri görməyə məcbur edirdi.

VIII əsrin 90-cı illərində Azərbaycanda ərəblərə qarşı üsyanlar daha geniş vüsət aldı. Aranda, Şirvanda, Bərdədə, Dərbənddə, Beyləqanda, Ərdəbildə kütləvi iğtişaşlar baş verdi. Bu üsyanların ən böyüklərindən biri 794-cü ildə Beyləqanda alovlanmış üsyan idi. Ağır həyat şəraitindən cana doymuş olan əhalinin Bərdədə ərəb vergi yığanlarını öldürməsi üsyanın başlanmasına bir işarə oldu. Bu üsyanlar barədə yazan ərəb tarixçiləri həmin üsyanların gedişi, əhatə dairəsi barədə elə bir müfəssəl məlumat vermirlər. Bununla belə, Azərbaycanı başdan-başa bürüyən bu üsyanların birinin digərini əvəz etməsi belə bir qənaətə gəlməyə əsas verir ki, onlar eyni zamanda silahlı xalq hərəkatının ənənələrini özlərində yaşadırdılar.

794-cü ildə Beyləqanda genişlənən üsyanın gedişi göstərdi ki, onun aparılmasına hərbi baxımdan da ciddi yanaşılmışdı. Çoxsaylı və hazırlıqlı ərəb qoşunlarının bir neçə dəfə üsyançılar tərəfindən məğlub edilməsi də onların həm təchizat, həm də taktiki fəaliyyət baxımından kifayət qədər kamilləşməsindən xəbər verir.

Bu üsyan elə bir miqyas almışdı ki, onun yatırılması ilə xilafət rəhbərləri şəxsən məşğul olurdular. Xəlifə Mərvan əvvəlcə sərkərdə İshaq ibn Müslümü böyük bir qoşunla Azərbaycana göndərdi. Üsyançılar xilafət qoşunları gəlib çıxana kimi döyüşə hazırlıq gördülər və onlarla üzbəüz döyüşə girdilər. Bu döyüşdə nə qədər silahlı üsyançının iştirak etdiyini demək çətindir. Xəlifənin göndərdiyi qoşun isə 5 min nəfər idi və yaxşı da silahlanmışdı. Ancaq görünür xilafət qoşunlarının nə hazırlıq, nə də təchizat səviyyəsi üsyançıları qorxutmamışdı. Çünki Varsan qəsəbəsi yaxınlığında baş verən döyüşdə üsyançılar xilafət qoşunlarına qalib gələrək sərkərdə İshaq ibn Müslümü də öldürdülər. Çox güman ki, təkcə say üstünlüyü

yox, taktiki fəaliyyətin təkmilləşməsi, üsyançıların daha nizamlı hərəkətləri qələbə üçün zəmin yaratmışdı. Üsyançıların üzbəüz döyüşə girməsi də xalq hərəkatı üçün uğur gətirən taktiki yeniliklərdən idi.

Bu döyüşdən sonra üsyançılar daha iki dəfə xilafət qoşunlarını məğlub etdilər. Onlar hətta Naxçıvana qədər irəliləyib oranı da ələ keçirdilər. Dəbil yaşayış məntəqəsini dörd ay mühasirədə saxladılar. Üsyançılar Dəbili tuta bilməsələr də onu mühasirədə saxlamaları silahlı üsyanların aparılması təcrübəsinin xeyli artdığından xəbər verir.

Üsyan genişlənib xilafət üçün elə təhlükəli xarakter aldı ki, bir müddət sonra xəlifə Harun ər Rəşid Azərbaycana hər biri on min nəfərdən ibarət olan üç qoşun dəstəsi göndərdi. Bu qoşunlar Azərbaycana gəldikdən sonra üsyanı yatırmaq mümkün oldu.

Ağır həyat şəraitinə qarşı Azərbaycanda vaxtaşırı xalq üsyanları qalxsa da onların arasında bir dağınıqlıq var idi. Bu dağınıqlığın aradan qaldırılması, xilafətə qarşı üsyan və çıxışların vahid ideya altında birləşridilməsi baxımından Xürrəmilər hərəkatının yayılmasının tarixi əhəmiyyəti var idi. Xilafətə qarşı etiraz hərəkatı kimi yaranan xürrəmiliyin meydana gəlməsi mənbələrə görə, 778-779-cu illərə aid eilirsə də onun Azərbaycanda yayılması VIII əsrin sonları, IX əsrin əvvəllərində başlamışdı. Xürrəmilər islamı və onun bütün ehkamlarını rədd edirdilər. Onların fikrincə, ruh əbədidir və bir bədəndən digərinə keçə bilər. Xürrəmilər şər və xeyir qüvvələrin mübarizəsində xeyrin nəhayət ki, qalib gələcəyinə və ədalətli cəmiyyətin qurulacağına inanırdılar. Onlar torpaq üzərində mülkiyətçiliyi, insanların istismarını qəbul etmirdilər, torpağın icmaların istifadəsinə verilməsinin zəruriliyini təbliğ edirdilər.

Xürrəmilik xilafətə qarşı yönəldilmiş hərəkat olduğundan ideya əsaslarının xarakterindən asılı olmayaraq tezliklə ətrafında çoxsaylı kütlələri birləşdirdi və xilafətə qarşı kütləvi mübarizənin ideoloji bayrağına çevrildi.

Xürrəmilik hərəkatının Azərbaycanda yayılması Cavidanın adı ilə bağlıdır. Babəkin rəhbərliyi altında isə bu hərəkat güclənərək öz zirvəsinə çatdı. Bu hərəkat xarakteri etibarilə xalq hərəkatı idi və onun sıralarında həm kəndlilər, həm sənətkarlar, həm də əyanlar var idi.

IX əsrin əvvəllərində Cavidanın rəhbərliyi altında Azərbaycanda yayılan xürrəmilik hərəkatı hələ kifayət qədər fəaliyyət birliyinə və bütövlüyünə malik deyildi. Hərəkatın sıralarında birləşənlərin sayı az olmaqla bərabər, onların mübarizəsində də qətiyyət yox idi. Xürrəmilərin özünün daxilində, xüsusən onun rəhbərləri olan Cavidanla Əbu İmran arasında fikir birliyi mövcud deyildi və bu fikir ayrılığı sonradan onların hər ikisinin ölümü ilə nəticələndi.

Cavidan Bəzz qalasında yerləşərək oranı hərəkatın mərkəzinə çevirdi. Onun rəhbərliyi altında xilafətə qarşı xürrəmilərin Azərbaycanda ilk silahlı üsyanı 808-ci ildə baş verdi. Xəlifə Harun ər-Rəşid sərkərdə Abdulla ibn Malikin rəhbərliyi altında onlara qarşı 10 min nəfərlik qoşun dəstəsi göndərdi. Xilafət qoşunları xürrəmilərə ciddi zərbə vurdular. Çoxlu xürrəmi qırıldı və əsir götürüldü. Bu üsyanın yatırılmasından sonra Cavidanın rəhbərliyi altında hər hansı ciddi bir üsyanın baş verməsi barədə mənbələrdə məlumat yoxdur. Ola bilsin ki, Cavidan öldürülən günə kimi xürrəmilər yalnız xırda çıxışlarda iştirak etmişdilər ki, onlar da tarixçilərin diqqətini cəlb etməmişdi.

Xürrəmilər əsasən yaxın ərazilərdə yerləşən ərəb feudallarının malikanələrinə hücum edir, onların topladıqları var-yoxu əllərindən alırdılar. Bu partizan yürüşləri adətən isti günlərdə həyata keçirilirdi. Çünki qışda Bəzz qalası və onun ətrafı qalın qara büründüyündən xürrəmilərin hərəkətləri də məhdudlaşırdı. Onlar qışda yay yürüşləri zamanı ərəb feodallarından ələ keçirdikləri ərzaq ehtiyatı ilə dolanırdılar.

Cavidanın Babəklə rastlaşması və onun xürrəmilər hərəkatına qoşulması barədə ərəb mənbələrində maraqlı məlumatlar var. Qış aylarının birində Cavidan 2500-ə yaxın qoyunu Zən-

can şəhərində satıb geri qayıdarkən Babəkin yaşadığı Bilalabad kəndində güclü qara düşür. Axşamın yaxınlaşdığını görüb Cavidan kəndxudadan gecələmək üçün yer tapılmasını xahiş edir. Kəndxuda isə Babəkin anasının evini nişan verir. Babək ailəsi ilə kasıb həyat keçirdiyindən anası qonaq üçün yemək təşkil edə bilmir. Ancaq ocaq qalayıb qonağı qızdırmağa gücü çatır. Cavidan Babəkə pul verib onu çörək və atlara yem almağa göndərir. Ünsiyyətləri zamanı Cavidan Babəkin fərasətli oğlan olduğunu görür. Səhəri gün yola düşərkən anasından Babəkin də onlarla getməsinə icazə istəyir və əvəzində ona hər ay 50 dirhəm pul göndərəcəyinə söz verir. Beləliklə də Babək Xürrəmilər hərəkatına qoşulur.

Mənbələrə görə, Babəkin atası Abdulla yağsatan imiş, kənd-kənd gəzərək xırda alverlə məşğul olurmuş. O, Meymad rustakının Bilalabad kəndində olarkən Babəkin anası ilə evlənir. Babək uşaq yaşlarından atadan yetim qalır və kasıb anası ilə birlikdə ağır güzəran keçirməyə məcbur olur, özlərini dolandırmaq üçün Babək varlı əyanlar üçün çobanlıq edir, gənclik yaşlarına dolarkən isə Təbriz sənətkarlarının yanında işləyir. Ərəb tarixçilərinin yazdığına görə, hələ çobanlıq etdiyi illərdə anası Babəki axtarmağa gedir. Yorulub yatmış oğlunun başının tüklərinin dibində qan damcılarının olduğunu görür və əmin olur ki, Babəkin gələcəkdə şanlı bir həyatı olacaqdır. Bu hadisənin təsviri rəvayət xarakteri daşısa da Babək xürrəmilərin rəhbəri kimi elə bir nüfuza çatmışdı ki, görünür ərəb tarixçiləri onun qeyri-adi təşkilatçılıq və sərkərdəlik keyfiyyətlərini əfsanəvi səbəblərlə bağlamağa cəhd göstərirdilər.

816-cı ildə Əbu İmranla döyüşdə aldığı yaradan Cavidan vəfat etdi və onun yerini Babək tutdu. Cavan olmasına baxmayaraq onun bu hərəkata rəhbərlik etməsi Azərbaycanda xürrəmiliyin kütləviləşməsinə, bütövləşməsinə və cilalanmasına şərait yaratdı. Hərəkat məzmun baxımından daha da dolğunlaşdı və sonralar möhkəmlənərək bütün xilafəti lərzəyə gətirdi.

Babək hərəkatın rəhbəri seçiləndən sonra özünün müsəlman adı olan Həsən adından imtina etdi. Onun xürrəmilik ideyalarına bağlılığı həmkarları üçün də nümunəyə çevrildi. Hərəkatın sonlarına yaxın isə Babək əqidəsinə hətta oğlunu qurban verməkdən də çəkinmədi.

Xürrəmilər hərəkatına qoşulanda Babəkin 18 yaşı var idi. O bütün həyatını bu hərəkata bağlayaraq düz 21 il onun rəhbəri oldu. Həmin müddət ərzində xürrəmilik hərəkatı uzun inkişaf yolu keçmiş, xalqın tarixinin ayrılmaz parçasına çevrilmişdi. Xürrəmilik hərəkatının Azərbaycanın ictimai-siyasi və hərb tarixində belə əhəmiyyət kəsb etməsi əsasən Babəkin xidmətləri ilə bağlıdır. Onu da qeyd etmək lazımdır ki, Babək bu hərəkata rəhbər seçilərkən Xürrəmilik Azərbaycan xalqının ictimai-siyasi həyatında elə də güclü bir təsirə malik deyildi. Cavidanın rəhbərliyi altında xilafətə qarşı 808-ci ildə baş verən üsyan yatırıldıqdan sonra bu hərəkatda elə bir fəallıq hiss edilmirdi. Xürrəmilərə rəhbərlik etmək üstündə Cavidanlı Əbu İmran arasında uzun müddət davam edən və son nəticədə hər ikisinin ölümü ilə nəticələnən mübarizə xürrəmilərin arasında ideoloji ab-havaya təsirsiz ötüşmədi. Bu çəkişmələr bir sıra xürrəminin hərəkatın sıralarından getməsinə səbəb oldu. O da məlumdur ki, Babək xürrəmilərin rəhbəri seçiləndə bu hərəkatın üzvlərinin sayı elə də çox deyildi. Ona görə də Babək xilafətə qarşı mübarizədə hərbi tədbirlərin planlaşdırılmasında tərəfdarlarının sayının azlığını nəzərə alırdı. Qısa müddət ərzində Babək tərəfdarlarının ideya və əqidə birliyinə nail olmuş, onların qəlbində azadlıq çırağı yandıra bilmişdi.

Babək Xürrəmilik hərəkatını canlandırmaq, ərəb xilafətinə qarşı mübarizəni genişləndirmək üçün silahlı üsyana başladı. Güman ki, belə bir hərəkata başlamaq üçün müəyyən hazırlıq işləri aparılmış, az qüvvə ilə uğur qazanmaq üçün fəaliyyət planları götür-qoy edilmişdi. Babək öz ixtiyarında olan silahları xürrəmilərə paylayaraq onları yaxın kəndlərə göndərdi və həmin kəndlərdə olan xilafət dəstələrinə qarşı üsyan qal-

dırmaq üçün işarə gözləmələrini tapşırdı. Münasib an və şərait yetişən vaxt xürrəmilər Bəzz ətrafındakı kəndlərdə üsyan qaldırılar. Bir müddətdən sonra Babək Bəzzdən bir qədər uzaqda olan kəndlərə hücum etmək qərarına gəldi və öz tərəfdarlarını silahlandıraraq həmin kəndlərə göndərdi. Babəkin bu hücumu da uğurla nəticələndi və nəzərdə tutulan kəndlərdə ərəb qarnizonları məhv edildi. Xürrəmilər özlərinin ilk çıxışlarını elə planlaşdırmışdılar ki, ərəb tarixçilərinin fikrincə bu çıxışlar çox böyük sürətlə həyata keçirilmişdi.

Babək qarşısına Azərbaycan torpaqlarını xilafətin nəzarətindən çıxarmaq məqsədi qoymuşdu. İlk çıxışların uğurla nəticələnməsi onun tezliklə bu məqsədə nail olmasına yol açırdı. Ərəb qarnizonlarına zərbə vurulmasını, yaşayış məntəqələrinin onların nəzarətindən çıxarılmasını görən yerli əhali xürrəmilərin mübarizəsini yaxından müdafiə edir və onun sıralarına qoşulurdu. Bu isə Babəkin qoşunlarnın zərbə qüvvəsini daha da artırırdı. Az müddətdən sonra artıq xürrəmilər xilafət qoşunları üçün təhlükə yaradan güclü hərbi qüvvəyə çevrilmişdi.

Tədqiqatçıların fikrincə, Babəkin rəhbərliyi altında xalq üsyanlarının genişlənməsinə xilafət daxilində mövcud olan qeyri-sabitlik də əlverişli şərait yaradırdı. Xilafətdə hakimliyi ələ keçirmək üçün davam edən daxili çəkişmələr ərəb əmirlərinin diqqətini Babək üsyanının genişlənməsindən yayındırırdı. Ola bilsin ki, ərəb xəlifələri öz hakimiyyətlərini möhkəmləndirdikdən sonra xürrəmilərin rəhbərliyi ilə genişlənən xalq üsyanlarını daha tez yatıra biləcəklərinə ianırdılar. Lakin, ərəb xəlifələri xilafət daxilində nisbi sabitliyə nail olduqdan sonra da Babək üsyanlarının qarşısını ala bilmədilər. Əksinə, Babəklə döyüşlər zamanı xilafət özünün altı qoşunlarını, yüzlərlə ən yaxşı sərkərdələrini itirmişdi.

Babəkin rəhbərliyi ilə ilk vaxtlar aparılan döyüşlərin əksəriyyəti barədə mənbələrdə ətraflı məlumat yoxdur. Ona görə də dövrünə görə yüksək hərbi hazırlığa malik olan ərəb qoşunlarına qarşı aparılan döyüşlərdə hansı taktiki elementlər-

dən və necə istifadə edilməsi barədə geniş danışmaq mümkün deyil. Ancaq, şübhəsiz ki, Babək müxtəlif coğrafi şəraitlərdə, müxtəlif döyüş növlərini uğurla əlaqələndirə bilirdi, onları qələbə ilə sona çatdırmağı bacarırdı.

Mənbələrin verdiyi məlumata görə, xilafət qoşunları ilə xürrəmilərin ilk ciddi döyüşü 819-cu ildə baş verdi. Xürrəmilərin hərəkatının getdikcə genişləndiyini görən xəlifə ərəb sərkərdəsi Yəhya ibn Məazın komandanlığı altında Babəkə qarşı böyük bir qoşun göndərdi. Onların arasında gedən döyüşün təfərrüatı tam məlum olmasa da tarixçilərin yazdığına görə, heç bir tərəf qələbə qazana bilmədi. Babək ilk ciddi döyüşdə qələbə qazanmasa da məğlub da olmamışdı. Elə bu faktın özü göstərir ki, güclü və hazırlıqlı xilafət qoşunlarına qarşı xürrəmi qüvvələri ciddi müqavimət göstərmiş və onları geri çəkilməyə məcbur etmişdi. Sözsüz ki, bu döyüşün nəticələri Babək üçün təcrübə mənbəyi olmuş və həmin təcrübə gələcək döyüşlərin daha uğurla təşkilinə kömək etmişdi.

Xəlifə 820-ci ildə Yəhya ibn Məazın yerinə İsa ibn Məhəmməd adlı birisini Azərbaycana hakim və eyni zamanda qoşun komandanı təyin etdi və ona tapşırıq verdi ki, Babəkin rəhbərliyi altında genişlənən silahlı hərəkata son qoysun. İsa ibn Məhəmmədlə Babək arasında döyüşün 821-ci ildə baş verməsindən güman etmək olar ki, ərəb qoşunlarının yeni komandanı təxminən bir ilə kimi bu döyüşə hazırlaşmışdı. Bu döyüşdə ərəb qoşunları yenə də xürrəmilərin müqavimətini qıra bilmədilər. Bu döyüşdə yeni komandan İsa ibn Məhəmməd canını salamat nürtarmaq üçün döyüş meydanından qaçmağa məcbur oldu.

Uğursuzluqların qarşısını almaq üçün xəlifə müxtəlif tədbirlərə əl atdı. 823-cü ildə Sədəqə ibn Əzdi adlı birisi Azərbaycanın hakimi, eyni zamanda buradakı qoşunların komandanı təyin edildi və ona tezliklə Babəklə döyüşə girmək tapşırığı verildi. Ancaq bu döyüşdə də Babək qalib gəldi və döyüşün nəticəsi xürrəmilərin artan hərbi qüdrətini bir daha nümayiş etdirdi.

Hərəkatın genişlənməsi, Babəkin qüvvələrinin sayının artması ona imkan verirdi ki, ərəblərə qarşı daha geniş cəbhədə fəaliyyət göstərsin. Xilafətin çoxsaylı qoşunları ilə döyüşməkdən əlavə Babək Azərbaycanın şimalında yerləşən ərəb qarnizonları ilə də vuruşub onları qovmağa çalışırdı.

827-ci ildə Babək Qarabağ və Beyləqanda ərəb torpaq sahiblərini qılıncdan keçirərək azad olunmuş torpaqları yoxsul kəndlilərə payladı. Həmin ərazilər ərəb əyanlarılarının nəzarətindən təmizləndi.

Babəkin rəhbərliyi altında genişlənən xalq hərəkatının ərəb işğalçıları üzərindəki hərbi uğurları ildən-ilə artmaqda idi. Xilafətin başçıları isə onları qorxuya salan bu hərəkatın qarşısını almaq üçün daha qətiyyətli yollar arayırdılar.

## 2. Xürrəmilər hərəkatında hərb işinin təşkili məsələləri

Məlumdur ki, Azərbaycan ərəb yürüşləri dövründə iqtisadi baxımdan kifayət qədər inkişaf etmişdi. Buna hər şeydən əvvəl ölkənin təbii-coğrafi şəraiti imkan verirdi. Ölkənin mövcud olan iqtisadi imkanları xürrəmilər hərəkatının, o cümlədən onun hərbi qüvvələrinin iqtisadi ehtiyaclarını ödəməyə imkan verirdi.

Xürrəmilər hərəkatı xalq hərəkatı olduğundan, güman ki, onun sıralarına qoşulan hər bir sağlam kişi eyni zamanda potensial döyüşçü idi. Heç şübhəsiz ki, onlara xüsusi maaş verilmirdi. Əsas maddi tələbatlar ərzaq və təchizat ehtiyacları ilə bağlı olmalı idi. Xürrəmilər yerli əhalidən vergi almırdı. Onların ərzaq ehtiyacları ərəb feodallarından, ərəb qoşunlarından müsadirə olunan ərzaq ehtiyatları hesabına, bir də azad olunmuş torpaqlarda aparılan əkinçilik hesabına ödənirdi. Asılılığın ləğv edilməsi istər əkinçiliyin, istərsə də sənətkarlığın inkişafına əlverişli zəmin yaradırdı. Azad işləmək imkanı əldə etmiş xalq kütlələri xürrəmilərin hərbi qüvvələrinin ərzaq tələbatının

ödənilməisnə kömək edirdi və döyüşçülər ərzaq sarıdan heç bir korluq çəkmirdilər. Hətta mənbələrdə göstərilir ki, Babək bəzi vaxtlar ərəb qoşunlarının ərzaqla təmin edilməsinin təşəbbüskarı olmuşdu. Bu tədbir əslində düşmən tərəfə maddi kömək göstərməkdən daha çox onun arasında kəşfiyyat aparılmasına xidmət etsə də belə vasitə seçilməsi Babəkin qüvvələrinin ərzaq sarıdan ehtiyac keçirmədiyini göstərirdi. Əksinə, ərəb mənbələri xürrəmilərin daim yeyib-içdiyini, musiqi ilə əylənib şənləndiklərini təsvir edirlər. Qış aylarında Bəzz qalasına gediş-gəliş çətinləşdiyi üçün xürrəmilər hələ havalar isti ikən qış ehtiyatlarını gen-bol toplayırdılar.

Bəzi tədqiqatçılar xürrəmilərin hərbi qüvvələrinin əsas təchizat mənbəyini ərəb qoşunlarından ələ keçirilən qənimət silah və təchizat təşkil etdiyini bildirirdilər. Ola bilsin ki, ərəb qoşunlarından ələ keçirilən silah və sursat xürrəmilərin hərbi qüvvələrinin təchizi üçün istifadə edilsin. Ancaq qənimət hesabına çoxsaylı hərbi qüvvələri daim təchiz etmək mümkün deyildi. Digər tərəfdən xürrəmilərin hərbi qüvvələrinin əsasən ərəb qoşunlarının silah ehtiyatları hesabına təchiz edilməsini qəbul etmək Babəkin silahdaşlarının texniki təchizat baxımından ərəblərdən asılı vəziyyətdə olmasını qəbul etmək kimi və Azərbaycanda sənətkarlığın bu sahəsinin inkişaf etməməsi kimi nəzərə çarpa bilərdi.

Xürrəmi döyüşçülərinin istifadə etdikləri əsas silah növləri ox-kaman, nizə, qılınc, döyüş baltaları, toppuzlar idi. Müdafiə təchizatından isə dəbilqə və zirehli geyimdən istifadə olunurdu. Zirehli geyim xüsusi aşılanmış dəridən hazırlanır və üzərinə dəmir zolaqlar çəkilirdi.

Xürrəmilərin hərbi qüvvələrində divardağıdan maşınların olması da güman edilir. Onların qoşunları iki növə bölünürdü: atlı və piyada qoşun növü. Bəzi mənbələr Babəkin tərəfdarlarının sayının 300 minə çatdığını göstərirlər. Amma bu say real görünmür.

Mənbələrin birində qeyd edilir ki, Ərdəbildən Bərzəndə pul aparan ərəb karvanının üzərinə hücum zamanı Babək 50 minlik qoşuna rəhbərlik edirdi. Bu rəqəm güman ki, reallığa daha yaxındır. Çünki Babəkin şəxsən özünün rəhbərlik etdiyi bu döyüşə qoşunların hamısı cəlb edilə bilərdi. Bəzz qalasında ehtiyat bir qüvvə saxlanmasına elə bir ehtiyac yox idi və əgər saxlanmış olsa da bu çox az ola bilərdi. Ona görə ki, Bəzz qalası təhlükəsiz bir yerdə yerləşirdi və ona başqa bir yerdən hücum təhlükəsi yox idi. Bunun üçün də qoşunların hamısı sözsüz ki, məsul döyş zamanı Babəkin rəhbərliyi altında idi. Bu isə xürrəmilərin ümumi qüvvələrinin 50-60 min ətrafnda olduğunu güman etməyə əsas verir. Lakin səfərbərlik ehtiyatının kifayət qədər olduğundan güman etmək olar ki, zərurət yarananda daha çox sayda qoşun toplamaq imkanları da var idi.

Atlı qoşunların sayı isə mənbələrdə konkret olaraq 20 min göstərilir. Atlılardan istifadə olunsa da hərbi qüvvələrin əsasəni piyadalar təşkil edirdi. Görünür, atlılardan daha çox düzənlik ərazilərdə aparılan döyüşlərdə istifadə olunurdu. Dağlıq ərazilərdə, xüsusən də gecə vaxtı aparılan döyüşlərdə atlılardan istifadə etmək xeyli çətin ola bilərdi. Atlılar hər biri 200-500 nəfər arasında olan hərbi vahidlərə bölünürdü ki, onlara da kurdus deyilirdi.

Qoşunların strukturu 10, 100, 1000,10000 nəfərlik vahidlərə bölünür və onların hər birinə rəhbərlər təyin olunurdu. Böyük hərbi vahidlər qırmızı rəngli döyüş bayrağına malik idilər. Bayraqların qaldırılması döyüşə başlanması üçün işarə idi və bütün böyük vahidlər döyüşə mütləq öz bayraqları ilə getməli idilər. Xürrəmilərin əsas döyüş bayrağı isə Babəkin yanında saxlanılırdı və çox güman ki, əsas döyüş bayrağı Babəkin şəxsən özünün iştirak etdiyi döyüşlərə aparılırdı. Döyüşlərin idarə edilməsində xürrəmilər şeypurlardan, nağaralardan və çaparlardan istifadə edirdilər. Döyüş zamanı sərkərdə öz tapşırıqlarını tabeçiliyində olanlara səs və çaparlar vasitəsilə də çatdıra bilərdi.

Xürrəmilərin hərbi qüvvələrinin döyüş hazırlığının əsas forması fərdi hazırlıq idi. Qoşunlar arasında döyüş hazırlığının qaldırılması üçün xüsusi bir sistem yox idi. Xalq hərəkatının xarakteri ilə bağlı olaraq əlinə silah götürməmiş əkinçi və sənətkar hərbi qüvvələrin sıralarına cəlb edilərək döyüşə göndərilə bilərdi. Xürrəmi döyüşçüləri döyüş vərdişlərini birbaşa meydanlarda qazanırdılar. Bunu ərəb mənbələri də qeyd edirdilər. Xüsusən, Babəkin başçılığı ilə xürrəmilərin ilk döyüşlərindən sonra ərəb tarixçilərinin fikrincə, nizamsız və intizamsız kəndlilər böyük döyüş vərdişləri əldə etmişdilər. Bununla bərabər, xürrəmilər sözsüz ki, fərdi surətdə də qılınc işlətməyin, ox atmağın vərdişlərinə yiyələnirdilər.

Qış mövsümlərində, döyüşlərin aparılması mümkün olmayan vaxtlarda döyüşçülərin çoxu, o cümlədən sərkərdələr evlərinə yollanırdılr.

Bir sıra taktiki fəndləri xürrəmilərin qoşunları böyük məharətlə tətbiq edirdilər və bu məharətləri ilə ərəb qoşunlarını çıxılmaz vəziyyətə salırdılar. Onlar ustalıqla pusqu qurur, manevrlər edir, düşmənin ən zəif nöqtələrini müəyyənləşdirir və sonra böyük sürətlə gözlənilmədən həmin nöqtələrə zərbə vururdular. Kəşfiyyat işi elə qurulmuşdu ki, ərəb qoşunlarının demək olar ki, bütün yerdəyişmələri xürrəmilərin nəzarəti altında idi. Bunlar isə xürrəmilərin uğuruna zəmin yaradırdı.

Xürrəmilər hərəkatının xarakterik xüsusiyyətlərindən və ona uğur gətirən başlıca amillərdən biri bu hərəkatın taktikasının Babək tərəfindən müəyyənləşdirilməsi idi. O, döyüşlərin nə vaxt və harada aparılmasını, hansı döyüş növündən istifadə edilməsini, döyüşə nə qədər qüvvə cəlb edilməsini müəyyənləşdirir, real imkanları, kəşfiyyat məlumatlarını qarşısına qoyduğu məqsədlərlə əlaqələndirirdi.

Xürrəmilərin hərbi qüvvələrinin taktiki fəaliyyətinə də Babək şəxsən özü rəhbərlik edirdi. Babək ya döyüşlərdə özü iştirak edirdi, ya da sərkərdələr Babəkin müəyyənləşdirdiyi taktiki vəzifələri icra edirdilər. Ərəb mənbələrinin verdiyi məlu-

mata görə, Babək özü şəxsən iştirak etmədiyi döyüşün gedişini müşahidə etmək üçün hündür bir yer seçirdi. Bura kürsü qoydurub onun üzərində əyləşirdi və döyüşün aparılması üçün lazımi tapşırıqları verirdi.

Babək həm də Xürrəmilər hərəkatının hərbi qüvvələrinin rəhbəri idi. Hərbi qüvvələrə çevik rəhbərlik etmək üçün onun xüsusi bir aparatı var idi. Babək qoşunları baş sərkərdənin vasitəsilə idarə edirdi. Mənbələrdə Müaviyyənin və Azinin xürrəmilərin baş sərkərdəsi olması barədə məlumatlar vardır. Ərəb tarixçiləri hətta xürrəmilərin hərbi qüvvələrində baş sərkərdənin müavininin olması barədə də məlumatlar verilir. Adları çəkilən vəzifəli şəxslərdən başqa qoşun sərkərdələri də hərbi qüvvələri idarəetmə aparatına daxil idilər.

Babəkin hərbi taktikasında dağlıq ərazidə döyüşlər aparılması daha böyük üstünlük təşkil edirdi. Qoşunun bir hissəsi düşmənin əsas qüvvələrini özünə cəlb edir, bir hissəsi pusquda dayanır, bir hissəsi manevr edir və bununla da düşmənə üzbəüz zərbə vurulmasından başqa, cinahlardan və arxadan zərbə vurulması üçün səmərəli tədbirlər həyata keçirilirdi.

Xürrəmilər gecənin qaranlığında uğurlu hərbi yürüşlər keçirmək üçün də xeyli səriştə və vərdişlər əldə etmişdilər. Babək döyüş zamanı piyadalarla atlıların qarşılıqlı əlaqələrini də ustalıqla nizamlayır və onların səylərini daha böyük uğurlar qazanılmasına istiqamətləndirirdi.

Bölmələrin marşı, onların döyüş meydanında yerləşdirilməsi də məharətlə həyata keçirilirdi. Xürrəmilərin dəstələri döyüş mövqelərində elə maskalanırdılar ki, düşmən kəşfiyyatı günlərlə onların izlərini tapa bilmirdilər. Bu isə xürrəmilərdə mühəndis-istehkam hazırlığının yüksək səviyyədə olmasını təsdiqləyirdi. Onlar Bəzz qalasını alınmaz istehkama çevirmişdilər. Onun müdafiə divarlarını dəf etmək çox çətin bir məsələ idi.

Babəkin özünün fərdi döyüş hazırlığı da yüksək idi. Bu keyfiyyəti ilə o, digər döyüşçüləri də gərgin döyüşlərə səfərbər

edə bilirdi. Babəkin yenilməz iradəsi onun qətl edilməsi zamanı da özünü göstərdi.

Tarixi mənbələrdə xürrəmilər arasında Müaviyə, Azin, Tərxan, Abdulla kimi istedadlı sərkərdələrin adı çəkilir. Ərəb qoşunların qarşı aparılan döyüşlərdə bu qoşun rəhbərləri fəal iştirak edirdilər.

## 3. Xürrəmi qoşunlarının apardığı döyüşlərdə hərb məharətinin (sənətinin) inkişafı

Babəkin rəbərliyi altında 21 il davam edən Xürrəmilər hərəkatının ikinci yarısında aparılan döyüşlər miqyasına və nəticələrinə görə daha uğurlu döyüşlər idilər. Çünki onlar taktiki baxımdan daha yaxşı düşünülmüşdü və daha çevik hərəkətlərlə müşayiət olunurdu. Doğrudur, bu dövrdə aparılan döyüşlərin bəziləri heç də uğurla nəticələnmirdi. Lakin onlaraın da nəticəsi istər-istəməz Babək qoşunlarının döyüş təcrübəsinin artmasına müsbət təsir göstərirdi.

Babək və onun qoşunlarının döyüş təcrübəsinin artması xəlifə Məmun öçön ciddi təşviş və narahatçılıq mənbəyi idi. Bu təşvişi aradan qaldırmaq üçün onun Babək üzərinə göndərdiyi qoşunlar bir-birinin ardınca məğlbiyyətə düçar olurdular və bunun nəticəsi idi ki, Məmun həyatının sonuna qədər də Xürrəmilər hərəkatını yatızdıra bilmədi.

827-ci ildə xəlifə Məmun Azərbaycanın yeni hakimi və qoşunların komandanı vəzifəsinə təcrübəli sərkərdə Məhəmməd ibn Hümeydi təyin etdi. O, Mosulda xilafətə qarşı baş vermiş üsyanı yatırdığı üçün şöhrət tapmışdı. Ona görə xəlifə onu böyük ümidlərlə Azərbaycana göndərdi. Xəlifə əmr verdi ki, Ərəbistandan, Cənubi Azərbaycandan, Cəbal vilayətindən, Modar və Rabiə ərəb tayfalarından silah tutmağı bacaranlar Hümeydin qoşununa gəlsinlər. Bundan başqa Oman, Bəhreyn, Fars, Əhvaz və başqa yerlərdən könüllülərin toplanması nəzərdə tutulmuşdu. Məhəmməd ibn Hümeyd xəlifənin tapşırığını yerinə yetirərək Babəklə döyüşə çox ciddi hazırlaşdı. Onun

çoxsaylı qoşun toplaması və qüvvələr nisbətində say üstünlüyünə malik olması Babəki müvafiq və səmərəli taktika seçməyə sövq etdi. O, əvvəlcə müdafiədə möhkəmləndi və sonradan əks-hücuma keçdi. Yerli şəraitdən məharətlə istifadə etməsi ona çətinlik çəkmədən böyük qələbə qazanmağa imkan verdi.

Məhəmməd ibn Hümeyd ilə Babəkin döyüşü Həştadsər adlanan dərədə baş verdi. Ərəb sərkərdəsi öz qoşunlarını iki eşelona böldü. Birinci eşelonu da Hümeyd üç dəstəyə ayırdı. Mərkəzdə hərəkət edən dəstəyə Məhəmməd ibn Yusif, sol cinahda hərəkət edən dəstəyə Abbas ibn Əbdül Cabbar rəhbərlik edirdi. Sağ cinahdakı qüvvələrə isə Sədi ibn Əsləmə rəhbərlik edirdi. Hümeyd isə ikinci eşelonda qalıb döyüşə ümumi rəhbərliyi öz üzərinə götürmüşdü.

Babək də öz qüvvələrini üç dəstəyə böldü. İki dəstə döyüş başlamazdan əvvəl yaxınlıqdakı dağlarda pusqu düzəldərək ərəb qoşunlarının cinahlarında yerləşdilər. Həmin dəstələr özlərini ərəblərə nişan vermədən Babəkin xüsusi işarəsi olanadək gözləməli idilər. Xürrəmilərin əsas qüvvələrinə isə Babək özü rəhbərlik edirdi.

Mənbələrin verdiyi məlumata görə, ibn Hümeyd Həştadsərə çatan kimi yolları qoruyan xürrəmi bölmələrini məğlub edərək onların yerinə öz gözətçilərini təyin etdi. O, Həştadsərə yaxın bir yerdə düşərgə salıb ətrafına xəndək qazdırdı. Babəkin əsas qüvvələri ilə döyüşmək üçün Həştadsər vadisinə daxil olub-olmamağın məqsədəuyğunluğu barədə öz sərkərdələri ilə məsləhətləşəndən sonra ibn Hümeyd irəli getməyi qərara aldı.

829-cu ilin iyun ayında baş verən bu döyüşdə ərəblərin ilk zərbələrini Babəkin rəhbərliyi altında olan dəstəsi öz üzərinə götürdü. Kiçik müqavimətdən sonra Babək qoşunu ilə geri çəkilməyə başladı. Onun geri çəkilməsində əsas məqsəd ərəb qoşunlarını aldadaraq dərənin içərilərinə doğru aparmaq və sonra da pusquda dayanan qüvvələrin vasitəsilə onları mühasirəyə almaq idi. Say üstünlüyünə malik olan ərəblər xürrəmilərin geri çəkilməsindən şübhələnmirdilər və onları izləməyə başladılar. Münasib an yetişən kimi Babək pusquda dayanan

qüvvələrə arxadan zərbə vurmaq işarəsi verdi. Onların hücuma qoşulması əslində Həştadsər döyüşünün də taleyini həll etdi. Xürrəmilərin arxadan hücum edəcəklərini gözləməyən ərəblər qəfil zərbədən özlərini itirdilər, məğlub olduqlarını görüb qaçıb dağılmağa üz qoydular. Ərəblər xeyli itki verdilər. Mənbələrə görə, ərəblər bu döyüşdə 30 min döyüşçü itirdilər. Xilafətin adlı-sanlı sərkərdələrindən olan Məhəmməd ibn Hümeyd də bu döyüşdə öldürüldü. Onun ölümündən sonra ərəblərə Hümeydin qohumu olan Mehdi ibn Əsrəm  başçılıq etdi. Lakin döyüşün gedişində artıq dönüş yaratmaq mümkün olmadı.

Həştadsər vadisindəki qələbə xürrəmilərin özü üçün də böyük əhəmiyyətə malik idi. Həmin döyüşlə xilafətin qüvvələrinə güclü bir zərbə vuruldu. Onların zəifləməsindən istifadə edən Babək öz hərbi uğurlarını genişləndirməyə cəhd göstərdi. 830-cu ildə xəlifə tərəfindən yeni komandan təyin edilən İbrahim ibn əl-Leysin rəhbərliyi altında döyüşə göndərilən başqa bir qoşun da Babək tərəfindən məhv edildi. Elə həmin ildə xürrəmilərin hərbi qüvvələri Həmədan şəhərini ərəb qoşunlarından təmizlədilər və bununla da xilafətin şərq torpaqları ilə olan əlaqələrinə son qoyuldu. Bu isə xilafəti daha çətin vəziyyətə saldı. Böyük təbii sərvətlərə malik olan Azərbaycanı itirməklə bərabər, Həmədanın tutulması xilafət üçün eyni zamanda şərq torpaqlarından toplanan vergilərdən məhrum olmaq demək idi. Əlavə olaraq Babəkin güclənməsi, onun xilafətə güclü zərbələr vurması yaxın vilayətlərdə də xilafətə qarşı narazılıq və üsyanların qalxmasına səbəb olurdu.

Xilafətin Babəkin üstünə göndərmək üçün artıq yararlı qüvvələri yox idi. Bizansa və türk tayfalarına qarşı sərhəddə dayanan qoşunların Azərbaycana göndərilməsi və sərhədlərin boşaldılması isə çox təhlükəli idi. Xilafətin torpaqlarına göz dikən və onun ənənəvi düşməni olan Bizans və türk tayfaları belə fürsəti əldən verməyərək dərhal xilafətə qarşı müharibəyə başlaya bilərdilər.

Yenidən qoşun toplamaq və Babəklə döyüşə hazırlaşmaq üçün xəlifə iranlı sərkərdə Abdulla ibn Tahiri Azərbaycanın və

Cəbalın hakimi olmaqla qoşunların komandanı təyin etdi. O öz vəzifəsinin icrasına başlamamaış Xorasanda hakim olan qardaşı vəfat etdi və Azərbaycanla Cəbalın hakimi olmaqdan və Babəklə qarşılaşmaqdansa Xorasana, qardaşının yerinə getməyə üstünlük verdi.

Bundan sonra xəlifə Məmun ölənə qədər Babəklə müharibənin aparılması üçün ciddi bir tədbir həyata keçirilmədi.

830-832-ci ildə Bizansın qoşunları xilafətlə müharibəyə başladı. Bu müharibə də xilafət üçün böyük təhlükə törədirdi. Ona görə də bütün qoşunlar Bizansla döyüşə göndərildi və Babəklə müharibə sonraya saxlanıldı. Həmin vaxtlar Babəkin qoşun hissələri öz fəaliyyətlərini davam etdirdilər və bir sıra kiçik qalalar güclü müqavimət göstərmədən Babəkə təslim oldular. Bu qalaların və istehkamların çoxu Babək tərəfindən dağıdıldı.

833-cü ildə xəlifə Məmun öldü və qardaşı Mötəsim xilafətin rəhbəri oldu. O, Bizansla müharibəni dayandırıb sülh bağladı və bir çox əraziləri geri qaytara bildi. Bu müharibəni dayandırmaqla Mötəsim xilafət üçün başqa bir təhlükə olan Babəkin rəhbərliyi altında davam edən Xürrəmilər hərəkatına son qoymaq üçün hazırlaşmağa vaxt əldə etdi.

Mötəsim köhnə qoşunla Babəkə qarşı müharibə aparmağın mümkün olmadığını başa düşdü. O, xilafət qoşunlarını yenidən qurdu, onun tərkibində türk atlı dəstələrinin təşkilinə xüsusi diqqət yetirdi, xilafətin bütün imkanlarını Babəklə mübarizəyə səfərbər etdi.

Mənbələrin verdiyi məlumata görə, 833-cü ildə Cəbal, Həmədan, İsfahan, Masabzan və ətraf vilayətlərin əhalisi xürrəmi ideyalarını qəbul etdi. Onlar xilafət qüvvələri ilə mübarizə aparmaq üçün qoşun topladılar və həmin qoşun Həmədan yaxınlığında düşərgə saldı.

Digər üsyan etmiş vilayətlərdən də Babəkin ətrafına xeyli qoşun toplandı. Bütün bu qoşunlar Həmədan ətrafına yığıldı. Burada xürrəmilərin böyük qoşun qruplaşması yarandı.

Xəlifə Mötəsim də yeni yaratdığı qoşunlarını Həmədan ətrafında toplaşan xürrəmi qoşunları üzərinə göndərdi. Ərəb qoşunlarının 40 min nəfər olması güman edilir və ona İshaq ibn İbrahim rəhbərlik edirdi.

Tarixi mənbələrə görə, xürrəmi qoşunları qüvvələr nisbətində say üstünlüyünə malik idi. Ola bilsin ki, bir tərəfdən say üstünlüyü, digər tərəfdən də əvvəlki döyüşlərin nəticələri xürrəmilərdə yenə də qələbəyə arxayınçılıq yaratmışdı. Eyni zamanda xürrəmilər əvvəlki döyüş taktikalarından fərqli olaraq bu dəfə ərəb qoşunları ilə düzənlik ərazidə vuruşmalı oldular. Çox güman ki, Babək yeni taktikanın bütün məqamlarını təfərrüatı ilə nəzərə almamışdı və müəyyən ehtiyatsızlığa yol vermişdi. Məsələn, ərəblərin Mestopotamiya istiqamətindən irəliləməsinin qarşısını almaq üçün xürrəmilər həmin tərəfdə qüvvələr saxlanılmasının vacibliyini lazımınca qiymətləndirməmişdilər. Buna görə də ərəb qoşunları heç bir ciddi maneəyə rast gəlmədən xürrəmilərin düşərgəsinə yaxınlaşdılar. Hətta onların xürrəmilərin üzərinə gözlənilmədən və qəflətən hücum etməsini də istisna etmək olmaz. Çünki 833-cü ildə Həmədan ətrafında baş verən döyüş ərəblərin tam qələbəsi ilə başa çatdı. Mənbələr burada saysız-hesabsız xürrəmi döyüşçülərinin məhv edilməsini təsdiq edir. Ona görə də belə qənaətə gəlmək olar ki, döyüş ərəfəsində xürrəmilər sərvaxtlığı itirmiş və kəşfiyyatın da lazımi səviyyədə işləyə bilməməsi üzündən hazırlıqlı ərəb qoşunlarından xəbər tuta bilməmişdi.

Xürrəmilərin bu uğursuzluğunun başqa bir səbəbi də ola bilərdi. Həmədan ətrafında qısa vaxt ərzində toplaşmış çoxsaylı və müxtəlif vilayətlərdən gəlmiş qoşun birləşmələri arasında qarşılıqlı əlaqələrin nizama salınmaması döyüş vaxtı qarışıqlığın yaranması ilə nəticələnə bilərdi. Hazırlıq səviyyəsi müxtəlif olan bu qoşun birləşmələri arasında düzgün qarşılıqlı əlaqələrin yaradılması üçün xeyli vaxt tələb olunurdu. Çox güman ki, ərəb sərkərdələri xürrəmi qoşunları arasında bu əlaqələrin tənzimlənməməsindən də məharətlə istifadə etmişdilər.

Həmədan yaxınlığındakı məğlubiyyət xürrəmi döyüşçülərinə ağır təsir göstərdi. Böyük məğlubiyyətdən sonra onların əhval-ruhiyyəsi xeyli aşağı düşdü. Onlarda döyüşgən əhval-ruhiyyəni bərpa etmək, müxtəlif məntəqələrə dağılan döyüşçüləri yenidən Bəzz qalasında toplamaq Babəkdən xeyli zəhmət tələb etdi. Xilafət qoşunları ilə mübarizəyə hazır olmaq üçün Babək dağılan hissələri bir yerə topladı və bununla bərabər o, xilafətə qarşı müttəfiqlik əlaqələrini gücləndirməyə çalışdı. Məlumdur ki, xürrəmilərlə ittifaqa girmiş Bizans bir neçə dəfə xilafət qoşunları üzərinə hücuma keçsə də həmin hücumlar xilafətlə xürrəmilər cəbhəsində vəziyətin xürrəmilərin xeyrinə dəyişməsinə təsir göstərmədi.

Xəlifə Mötəsim də xürrəmilər üzərində qəti qələbə çalmaq üçün ciddi hazırlıq aparırdı. Sələflərinə nisbətən Mötəsim daha əhatəli duyuma malik idi və o, cəbhədə yaranan vəziyyəti daha reallıqla qiymətləndirə bilirdi. O başa düşürdü ki, Babək üzərində qələbə əldə etmək üçün bütün xilafəti səfərbər etmək lazımdır. Babəkin qoşunlarının hərbi təcrübəsini, yerləşdikləri coğrafi şəraiti nəzərə alaraq Mötəsim vaxtaşırı deyil, ardıcıl olaraq əməliyyatlar aparılmasına üstünlük verirdi. Onun fikrincə, belə olardısa Babəkin mütəmadi döyüşlərdən sonra özünə gəlməyə, itkilərini bərpa etməyə vaxtı qalmayacaqdı. Ona görə də uzun müddətli döyüşləri aparmaq üçün Mötəsim Babək üzərinə göndəriləcək qoşunları yenidən möhkəmləndirməyə, ən yaxşı sərkərdələri bu qoşunlara cəlb etməyə başladı. Qoşunların təchizatını yaxşılaşdırmaq üçün xəlifə küllü miqdarda vəsaitin xərclənməsindən çəkinmirdi.

Babəkin üstünə göndərilən qoşunlara strateji rəhbərliyi də Mötəsim özü edirdi. O, qoşunların bütün hərəkətlərini izləyirdi, sərkərdələrin fəaliyyətini nəzarət altında saxlayırdı. Qoşunlarla çevik əlaqələr saxlamaq, xilafət mərkəzindən qoşunların düşərgə saldığı məntəqəyədək gediş-gilişi asanlaşdırmaq üçün Mötəsim Ərdəbillə Zəncan arasında strateji əhəmiyyət daşıyan yolları və qalaları yenidən qurdurdu. Bunun üçün

həmin bölgəyə Əbu Səidin rəhbərliyi altında xüsusi bir dəstə göndərdi. Həmin dəstə Babəkin dağıtdığı bütün istehkamları bərpa etdikdən sonra orada ərəb qarnizonları yerləşməli və qoşunların xilafət mərkəzi ilə əlaqələrinin təhlükəsizliyini təmin etməli idi. Bundan başqa xəlifə göstəriş verdi ki, xilafətin mərkəzinə gedən yol boyu hər fərsəxdən bir atlı dayansın və onlar təcili xəbərləri bir-birinə ötürməklə tez bir zamanda xəlifəyə çatdıra bilsinlər. Sonradan həmin atlılar xilafətin mərkəzinə həftələr ərzində çatdırılan xəbərləri cəmi 4 günə çatdıra bilirdilər. Bu isə o dövr üçün böyük sürət idi. Məhz belə çeviklik nəticəsində xəlifə ərəb qoşunlarının döyüş fəaliyyətinə çevik şəkildə rəhbərlik edirdi.

Babəkin qoşunları da bu dövr ərzində fəaliyyətsiz dayanmamışdılar. Babək və onun sərkərdələri Ərdəbil-Zəncan yolundakı istehkamların bərpa edildiyini və bunun gələcək böyük əməliyyatlar üçün başlanğıc olduğunu yaxşı başa düşürdülər. Ona görə xürrəmilər də müəyyən hazırlıq işləri görməklə bərabər, vaxtaşırı ərəb qoşunları üzərinə hücumlar təşkil edirdilər. Xürrəmi sərkərdəsi Müaviyyənin rəhbərliyi altında həyata keçirilən bu hücumlardan biri haqqında ərəb sərkərdəsi Əbu Səid də xəbər tutdu və o növbəti hücumdan sonra Müaviyyənin dəstəsini izləməyə başladı. Münasib fürsət yaranan kimi Əbu Səid xürrəmilərin üzərinə hücum etdi. Görünür Əbu Səid bu döyüşə yaxşı hazırlaşıbmış və onun qəfil hücumu xürrəmiləri çaş-baş saldı. Çünki Əbu Səidlə Müaviyyənin qarşılaşması ərəblərin qələbəsi ilə başa çatdı. Mənbələrin verdiyi məlumata görə, Əbu Səid Müaviyəyə əsir düşmüş ərəb döyüşçülərini xilas etməklə bərabər xürrəmilərdən 500 nəfər əsir götürdö, 300 nəfərini isə öldürdü.

Həm Həmdan yaxınlığındakı məğlubiyyət, həm də sonradan Müaviyyənin dəstəsinin darmadağın edilməsi xürrəmilər hərəkatına qoşulmuş feodal əyanların onlardan uzaqlaşmasına səbəb oldu. Onlar öz mövqelərini qoruyub saxlamaq üçün Babəkə qarşı qəti hücuma keçən xilafətlə yaxınlaşmağı üstün tut-

dular. Çünki bir tərəfdən Mötəsimin qətiyyətli fəaliyyəti, bir tərəfdən də xürrəmilərin hərbi uğursuzluqları yalnız öz şəxsi mənafeləri naminə Babək hərəkatına qoşulmuş olan feodalları xürəmilərdən uzaqlaşmağa və xilafətlə yaxınlaşmağa sövq etdi. Belə feodallardan biri olan Təbriz və Şahi qalasının başçısının Babəkə qarşı əks-mövqeyə keçməsi xürrəmi qüvvələrinə daha bir ciddi zərbə vurdu. Qala başçısı Məhəmməd ibn Bais Babəkin sərkərdəsi olan İsmanın qızı ilə evlənmişdi. O, Babəklə ittifaqda olduğundan bu tərəflərə yolu düşən xürrəmi dəstələri həmişə onun yanında gecələyirdi. Bir dəfə də sərkərdə İsma öz dəstəsi ilə müttəfiqləri və qohumu Məhəmməd ibn əl-Baisin yanında gecələməli olmuşdu. Məhəmməd ibn əl-Bais İsmanı və sərkərdələrini ayrıca, döyüşçülərini isə başqa bir otaqda yerləşdirdi. Babəkdən uzaqlaşmasını xəlifəyə sübut etmək üçün o, xürrəmiləri çoxlu yedirdib sərxoş etdi və əvvəlcə İsma ilə olan sərkərdələri qətlə yetirdi. Sonra isə İsmanı məcbur etdi ki, dəstənin üzvlərini bir-bir yanına çağırsın. Bu yolla içəriyə girən hər bir xürrəmi öldürüldü. Xeyli sonra digər xürrəmilər sui-qəsddən xəbər tutdular və qaçaraq canlarını qurtardılar. İsma isə əsir götürülüb xəlifənin yanına göndərildi. Xürrəmilər hərəkatının fəal üzvlərindən biri kimi İsmanın Babəkin qüvvələri haqqında söylədikləri xilafət qoşunlarının fəaliyyətinin daha səmərəli qurulmasına kömək etdi.

837-ci ildə Afşin Azərbaycan hakimi təyin edildi. Babəkin üzərinə hücuma keçmək ona tapşırıldı. Afşin Azərbaycana 836-cı ildə gəldi. Ərdəbilə və Bərzəndə kimi Afşin xürrəmi qüvvələrinin heç bir müqaviməti ilə rastlaşmadı, Bərzənddə özünə düşərgə salıb döyüşlər üçün hazırlığa başladı. Onun göstərişi ilə ərəb qoşunları üç məntəqədə yerləşdirildi və qəfil hücumlardan qorunmaq üçün hər üç məntəqədəki düşərgənin ətrafına xəndəklər qazıldı.

Babək isə bir neçə hərbi uğursuzluqdan sonra fəaliyyət taktikasını dəyişdi. O, düzənlik sahələrdə gücləndirilmiş ərəb qoşunlarına qarşı əsaslandırılmamış hərbi fəallığın nümayiş

etdirilməsinin böyük itkilərə gətirib çıxardığını gördüyü üçün öz əvvəlki taktikasına üstünlük verdi. Babək əsas qüvvələri Bəzzdə yerləşdirib yerli şəraitin üstünlüklərindən istifadə etməklə döyüş aparmağı məqsədəuyğun saydı. Bəzz dağlarında dərin müdafiə və sonra da əks-hücum taktikası tətbiq edilməklə az qüvvə ilə daha çox düşməni məhv etmək mümkün idi. Buna görə də Babək bütün hərəkətlərini ölçüb-biçməyə, xürrəmi qoşunlarını yersiz itkilərdən qorumağa çalışdı.

Afşin öz qoşunları ilə Bərzənddə 7 aya kimi gözləməli oldu. Bu müddət ərzində nə Babək onun üstünə hücum etdi, nə də özü əlverişli mövqelərdə qərar tutmuş xürrəmilərin üstünə hücuma keçməyə cəsarət etdi. Doğrudur, bəzi mənbələr bunu Afşinin Babəkə rəğbət bəsləməsi ilə əlaqələndirirlər. Məsələnin bu tərəfinə toxunmadan qeyd edilməlidir ki, Afşinin xürrəmilərə qarşı fəal hərbi əməliyyatlar aparmaması daha çox hərbi nöqteyi nəzərlərlə izah olunmalıdır. Afşin sözsüz ki, Bəzz üzərinə hücuma keçəcəyi təqdirdə məğlub olmayacağına əmin deyildi. Buna görə də o, çox güman ki, say və təchizat üstünlüyünə malik olan ərəb qoşunlarının xürrəmilərlə düzənlik sahədə qarşılaşmasını daha məqsədəuyğun sayırdı. Bu məqsədinə çatmaq üçün Afşin hiyləyə əl atdı. Casuslar ona ərəb sərkərdəsi Buğanın xilafət mərkəzindən Ərdəbilə gətirdiyi pul karvanının hücuma məruz qalacağını bildirdilər. Afşin çaparlar vasitəsilə Buğa ilə əlaqə saxladı və Babəki aldatmaq üçün pul gətirən karvanı yarı yolda dəyişdirərək başqa bir karvanla əvəz etdi. Babəkin isə bundan xəbəri yox idi. O öz qüvvələri ilə karvan üstünə hücum çəkdikdə Afşin də öz qüvvələri ilə xürrəmilərə arxadan zərbə vurdu. Mənbələrin yazdığına görə, Babək bu döyüşdə min nəfərə kimi adam itirdi. Özü isə Mukana çəkilmək məcburiyyətində qaldı.

Bəzzə qayıdandan sonra Babək ola bilsin ki, sonuncu döyüşün nəticələrini bir də götür-qoy elədi və sonradan o, bir də böyük qüvvələrlə Bəzzdən kənarda, açıq sahədə ərəb qoşunları ilə döyüşə girmədi. Yalnız bir neçə dəfə kiçik dəstələri partizan

reydlərinə göndərdi və həmin dəstələr ərəb qoşunlarına gətirilən ərzaqları ələ keçirdilər.

Afşin isə Bərzənddə qoşunlarını möhkəmləndirməklə, itkilərinin əvəzini bərpa etməklə məşğul idi. 836-cı ilin qışının sonlarında o, Babəklə döyüşə girməyi qərara aldı. Afşin ixtiyarında olan 15 min nəfərlik ərəb qoşunlarını iki yerə böldü. 10 minlik dəstəyə özü, 5 minlik dəstəyə isə Buğa rəhbərlik edirdi. Xürrəmilərə satqınlıq edib xilafətin tərəfinə keçmiş feodal Məhəmməd ibn Bais də Buğanın dəstəsində idi və dağ keçidlərində Bəzzə doğru irəliləmək üçün Buğaya bələdçilik edirdi.

Afşin hər iki dəstə üçün döyüş qabağı mövqelər müəyyənləşdirdi. Qoşunlar düşərgədən hərəkət edib həmin mövqeyə gəlməli və oradan da Bəzz qalası üzərinə hücuma keçməli idi.

Ancaq Buğa Afşinin tapşırıqlarını dəqiqliklə yerinə yetirə bilmədi. Əvvəlcə o, döyüşqabağı mövqeni Afşinin müəyyənləşdirdiyi yerdə deyil, tamam başqa bir yerdə tutdu. Digər tərəfdən də Buğa ona tapşırılan qədər ərzaq ehtiyatı götürməmişdi. Ona görə də tezliklə qoşunun ərzaq ehtiyatı qurtardı. Buğa Həştadsərin arxasından hərəkət edib Bəzz kəndinə çatdı və burada bir gün qaldı. Ərzaq qurtardığı üçün dəstəsindən 100 nəfər ayırıb ərzaq axtarmağa göndərdi. Babək bundan xəbər tutdu. O həm yemtoplayanların, həm də Buğanın dəstəsinin üzərinə hücuma keçdi, xeyli adam öldürdü, bir çoxunu isə əsir götürdü. Afşin bu hadisədən bərk qəzəbləndi və geri çəkilmək məcburiyyətində qalan Buğaya tapşırdı ki, yenidən Babək üzərinə hücuma hazırlaşsın, əmr verilən gün ona tapşırılacaq vəzifənin icrasına yola düşsün.

Bir neçə gün sonra Afşin qoşununa Bəzz qalasına doğru hərəkət əmri verdi. Hərəkət marşrutları elə seçilmişdi ki, Afşinlə Buğa təhlükəli hadisə baş verərdisə bir-birlərindən xəbər tuta bilərdilər. Ərəb qoşunlarının hərəkətə başlaması ilə dağlarda havalar xeyli pisləşdi. Çətin hava şəraitində qoşunlar çox pis hərəkət edirdilər. Onlar 5 gün dağ yollarında qaldılar və bu günlər ərzində ərəblər Babəkin üzərinə hücum etməkdən

daha çox soyuqdan canlarını qorumaq qeydinə qaldılar. Hətta döyüşçülərlə Afşin arasında belə bir şəraitdə döyüşə girməyin mümkün olmaması barədə mübahisə də düşdü.

Babək isə nəinki soyuqlardan qorxmurdu, əksinə, ərəblərin bütün hərəkətini izləyir və hücuma keçmək üçün münasib məqam gözləyirdi. Ərəblərin hərəkətə başlamasının 5-ci günü gecə ikən Babək Afşinin dəstəsi üzərinə hücuma keçmək barədə əmr verdi. Çox güman ki, Babək hücuma keçməzdən əvvəl ərəblərin sayını, imkanlarını, yerləşdikləri mövqeləri mükəmməl surətdə nəzərdən keçirərək sürətli hücum planı hazırlamışdı. Bunun nəticəsi idi ki, cəmi iki min nəfərlik dəstə ilə o, Afşinin 10 minlik dəstəsini məğlub etdi. Ərəb döyüşçülərinin çoxu isə qaçmağa üz qoydu. Xürrəmilər onları səhər açılanadək təqib etdilər və hava işıqlananda geri qayıtmağı qərara aldılar.

Afşinin qüvvələrini məğlub etdikdən sonra Babək diqqətini Buğanın dəstəsi üzərinə yönəltdi və daha bir qalibiyyətli döyüş üçün hazırlıq görməyə başladı. Buğa isə Afşinin məğlubiyyətindən xəbər tutub geri qayıtmağı qərara aldı. Çünki o başa düşürdü ki, Afşinin daha böyük dəstəsini məğlub edən Babək növbəti zərbəni onun dəstəsinə vuracaqdır.

Buğa gəldiyi yolla geri qayıtdı. Babəkin kəşfiyyatçıları bu dəstənin bütün hərəkətlərini nəzarət altında saxlayırdı. Ərəblər hava qaralanda nisbətən təhlükəsiz yer tapıb orada gecələməyi qərara aldılar. Babəkin hücumlarından qorunmaq üçün onlar mühafizəni də xeyli gücləndirdilər. Lakin belə müdafiə tədbirlərinin görülməsi də Buğanı qoruya bilmədi. Babək qəflətən hücuma keçmək üçün xeyli gözlədi və səhərə yaxın, yorulmuş olan ərəb mühafizəçilərini yuxu aparanda 3 minlik dəstə ilə onların üzərinü hücuma keçdi. Ərəblər arasında çaxnaşma yarandı, onların çoxu qırıldı, çoxu isə qaçmaq istəyəndə uçurumlara düşdü. Buğa özü də çox çətinliklə canını ölümdən qurtardı və qarşısına çıxan sahibsiz ata minərək oradan uzaqlaşdı.

Bir çox tarixçilərin yazdığına görə, elə həmin ildə Babəklə ərəb qoşunları arasında yeni bir döyüş baş verdi. Döyüşün təsvirindən belə başa düşmək olar ki, o, payızda, havaların soyuduğu vaxtlarda olub. Bu dəfə də ərəb qoşunları iki dəstəyə bölünmüşdülər. Onların birinə yenə də Buğa, digərinə isə Afşin rəhbərlik edirdi. Qoşunlar hərəkət edib Bəzz qalasının 6 milliyində qərar tutdular. Buğanın dəstəsi daha da irəli hərəkət edib Bəzz qalasının divarlarına yaxınlaşdı, qala mühafizəçiləri ilə döyüşə girdi. Görünür, bu döyüşdə Buğa yenə də böyük itki vermişdi. Çünki o, döyüşdən çıxıb əvvəlki mövqeyinə geri çəkiləndə Afşindən əlavə kömək istədi. Afşin ona əlavə qüvvə göndərməklə döyüşü davam etdirmək əmri verdi. Ancaq elə həmin günlərdə Bəzz qalası ətrafında hava xeyli pisləşdi və şiddətli yağış yağmağa başladı. Bu yağış o qədər şiddətli idi ki, hətta Afşin öz mövqelərindən geri çəkilməli oldu. Kəşfiyyatçıların vasitəsilə bundan xəbər tutan Babək Afşin üzərinə hücum edib onu Bəzz ətrafından qaçmağa məcbur etdi.

Afşinin qaçması xəbəri Buğaya çatanda o da geri çəkilməyi qərara aldı. Buğa geri hərəkət edərkən başqa marşrut seçdi. Çünki gəldiyi marşrut dar dərələrdən keçirdi ki, bu da xürrəmi qoşunlarının hücumu üçün təhlükə yaradırdı. Yağış isə yağmaqda davam edirdi. Hava qaralanda Buğa dağlarda düşərgə salmalı oldu. Yorğun döyüşçülər yuxuya gedən kimi Babəkin qoşunları hücum çəkib onların çoxunu qırdı.

Xilafətin rəhbərləri Babək üzərinə yeni hücumlar təşkil etmək üçün qışın çıxmasını gözlədilər. Döyüş fəaliyəti üçün havalar münasib olmasa da Afşin öz kəşfiyyatçıları vasitəsilə xürrəmilərin hərəkətlərini nəzarət altında saxlamağa çalışırdı. Qış aylarının birində o, Babəkin tanınmış sərkərdələrindən olan Tərxanın qaladan çıxıb qışı keçirmək üçün öz kəndlərinə getməsi xəbərini aldı. Bu xəbəri eşidən kimi Afşin Tərxanı tutub öldürmək əmri verdi. Tərxan tək olduğu üçün üstünə gələn qüvvəyə müqavimət göstərə bilmədi və ərəblər tərəfindən öldürüldü. Tərxanın öldürülməsi Babəkə çox pis təsir etdi. Çünki Tərxan xürrəmi qoşunlarının ən bacarıqlı rəhbərlərindən biri idi.

Qış çıxan kimi xəlifə Mötəsim Cəfər ibn Dinar əl Xəyyat adlı sərkərdənin rəhbərliyi altında Afşinə 10 min nəfərlik əlavə qüvvə göndərdi. Belə bir köməyin gəlməsi Afşinin Babək üzərində qüvvə üstünlüyünü yaradaraq xürrəmilərin vəziyyətini xeyli mürəkkəbləşdirdi. Bir neçə gündən sonra isə xəlifə xilafət aşxanasının müdiri İtah vasitəsilə Afşinə 30 min dirhəm pul və düşərgələrin təhlükəsizliyini təmin etmək üçün 10 xalvar dəmir tikan göndərdi. O, Afşinə yazdığı məktubunda bildirirdi: "Müharibəni davam etdir. Elə güman etmə ki, mən və mənim qoşunlarım Babəkdən əl çəkmişik. Nə qədər ki, o sağdır ondan əl götürməyəcəyik. Sənin vəzifən yalnız bu olmalıdır. İtah vasitəsilə 10 xalvar dəmir tikan göndərdim. Qoşun bir yerə düşəndə gecə hücumundan arxayın olmaq üçün xəndək qazdırmaq əvəzinə bu tikanları düşərgənin ətrafına səpdir".

Xəyyat ləqəbli Cəfər ibn Dinarın və aşxana müdiri İtahın Afşinin yanına köməyə gəlməsini Babək istehza ilə qarşılayıb deyirdi: "Gör iş hara çatıb ki, Mötəsim öz dərzisini və aşbazını mənim meydanıma göndərmişdir. Görünür ki, daha başqa adamları qalmamışdır".

Bununla bərabər, Babək vəziyyətin belə mürəkkəbləşdiyini, bu qədər ərəb qoşunlarına müqavimət göstərməyin çox çətin olacağını yaxşı başa düşürdü. Ona görə də o, Bizans imperatoruna məktub yazıb onu xilafət üzərinə hücuma keçməyə və beləliklə də Babəkin üstünə göndərilmiş qoşunların bir hissəsinin yayındırılmasına nail olmaq istəyirdi. Babəklə müttəfiqlik əlaqəsinə malik olan Bizans imperatoru xilafət üzərinə hücuma keçsə də ərəb qoşunlarının əks-hücuma keçəcəyini eşitcək geri çəkilmək məcburiyyətində qaldı. Babəkin Bizansa bağladığı ümidlər özünü doğrultmadı. Çoxsaylı və hazırlıqlı xilafət qoşunları ilə o yenə də təkbətək qaldı.

## 4. Son döyüşlər. Babəkin qətli

Kifayət qədər hazırlıq gördükdən sonra 837-ci ilin yazında ərəb qoşunları yenidən Babək üzərinə yürüşə başladılar. Qoşunlar iki böyük dəstəyə bölünmüşdülər. Bu dəfə onların birini Afşin, o birinə isə Əbu Səid başçılıq edirdi. Afşin öz dəstəsi ilə Kəlanrud adlanan yerə gəlib orada döyüşqabağı mövqe tutdu. Sonra o, Əbu Səidə xəbər göndərib onu Kəlanruda çağırdı. Əmrə əsasən Əbu Səid Kəlanruda gəlib Afşindən 5 mil aralı mövqe tutdu. Onlar 5 gün bu mövqedə dayanmalı oldular.

Ərəb qoşunlarının böyük qüvvələrlə Bəzz üzərinə hücuma hazırlaşmalarından xəbər tutan Babək də döyüş üçün hazırlıq tədbirləri görməyə başladı və nədənsə o bu döyüşü Bəzz qalasından xeyli aralıda keçirməyi qərara aldı. Lakin sınanmış taktikadan kənara çıxmaq Babəkə yenə uğursuzluq gətirdi. Görünür Babək son döyüşlərdə olduğu kimi ərəb qoşunlarının dəstələrini ayrı-ayrılıqda məhv etmək istəyirdi və bu məqsədlə də əvvəlcə Afşinin dəstəsinə doğru istiqamət götürdü. Yəqin ki, xürrəmilər bu hücuman uğurla başa çatacağına əmin idilər. Çünki ərəblər üzərinə göndərilən 10 minlik xürrəmi qüvvəsinə rəhbərlik edən Azin və onun bir neçə sərkərdəsi ailə üzvlərini də özləri ilə götürmüşdülər. Babək onlara ailə üzvlərini aparmağı məsləhət görməsə də Azin ərəblərdən qorxmadığını bildirərək fikrindən dönmədi. Babəkin öz fikrində kifayət qədər qətiyyət göstərməməsi də ola bilsin ki, onun qələbəyə əminliyindən irəli gəlirdi. Əslində isə Azinin ailəsini də özü ilə döyüşə aparması bu döyüşdəki uğursuzluğa yol açan məqamlardan biri oldu.

Xürrəmilər ərəblər üzərinə hücumun gözlənilməzliyinə də nail ola bilmədilər. Ərəb kəşfiyyatçıları onların yerdəyişmələri, Azinin öz ailəsini harada yerləşdirməsi barədə Afşinə dəqiq məlumat çatdırdılar. Afşin Əbu Səidin iki komandirini: Zəfər ibn əl-Əla və əl Hüseyn ibn Xalidi 2 min nəfərlik bir

dəstə ilə Azinin ailəsini tutub gətirməyə göndərdi. Onlar çətinlik çəkmədən Azinin ailəsinin yanındakı kiçik qüvvəni məğlub edərək bütün ailə üzvlərini əsir götürdülər. Azin ailəsinin əsir götürüldüyü xəbərini eşidəndə bütün qüvvəsini onların azad olmasına istiqamətləndirdi. Afşin bunun qarşısını almaq üçün əvvəlcə Müzəffərin, sonra Əbu Səidin, sonra da Buxaraxudatın rəhbərliyi altında dəstələri Azinlə döyüşə göndərdi. Onlar gəlib çatana kimi Azin öz ailəsindən bir neçə nəfəri azad etməyə müvəffəq olsa da heç də hamını xilas edə bilməmişdi. Güclü və çoxsaylı ərəb qoşunlarının qarşısını saxlaya bilməyən Azin geri çəkilməyə məcbur oldu.

Afşin isə təşəbbüsü əldən verməmək üçün hücumu davam etdirdi. Bəzz qalasına doğru hərəkət zamanı Afşin Babəkin qoşun dəstələri ilə rastlaşdı. Ancaq o özünü itirmədi və döyüşün düzgün təşkilinə müvəffəq olması nəticəsində xürəmiləri yenə də geri çəkilməyə məcbur etdi. Xürrəmi qüvvələri Bəzz qalasına toplaşdılar. Afşin qoşunları ilə Bəzz qalasının yaxınlığında mövqe tutdu. Uzun və çətin yol ərəb qoşunlarını yormaqla bərabər, onların ərzağı da sona çatmaq üzrə idi. Ancaq bununla belə Afşin qəti hücumdan geri çəkilmək fikrində deyildi. Həmin günlərdə ərəb qoşunlarının ağır vəziyyətə düşməsi barədə xəbərdar olduğunu Afşinə çatdırmaq üçün Babək ona xeyli miqdarda ərzaq göndərdi. Afşin bunun kəşfiyyat məqsədi daşıdığına və onun düşərgəsinə gələn xürrəmilərin ərəblərin qüvvələri haqqında məlumat toplamağa çalışdığına şübhə etmədi. Afşin ərzaq gətirənlərə rəhbərlik etdiyi qüvvənin 30 min nəfər olduğunu bildirib onların vasitəsilə Babəki təslim olmağa çağırdı. Səhərisi gün Afşinin qüvvələri irəliyə doğru hərəkətə başladılar. Ərəb qoşunları Bəzz qalasının bir milliyində dayandı. Afşinin göstərişi ilə düşərgə üçün təhlükəsiz yer seçildi. Xüsusi istehkam dəstələri düşərgənin ətrafında qalın hasarlar çəkdilər, hasarların arxasından isə dərin müdafiə xəndəkləri qazıldı.

Ərəb qoşunlarının son bir neçə hərbi uğuru, onların qüvvə üstünlüyünə malik olması Babəkin iradəsini qıra bilmədi. O,

ərəblərin fəallığının qarşısını almağa qadir olduğuna inanır və xürrəmilərə də belə bir inamı aşılayırdı. Onun qüvvələri öz çevikliyini və döyüşgənliyini kifayət qədər saxlaya bilmişdi və ərəblərin böyük qüvvə ilə hücuma hazırlaşması xürrəmiləri heç də qorxutmurdu. Əksinə, yaxşı bələd olduqları döyüş meydanında hər vasitə ilə düşmənlərin rahatlığını pozurdular. Axşamlar hava qaralandan sonra xürrəmi dəstələri ərəblərin düşərgəsi ətrafında tikilmiş divarların yaxınlığına gəlir, lakin istehkam qurğularını keçə bilməyərək geri qayıdırdılar. Xürrəmilərin bu fəallığı Afşini də narahat etməyə bilməzdi. Lakin o döyüşə girməkdən çəkinirdi, xürrəmilərin gecə yürüşlərinin onlara böyük itkilər verə biləcəyindən ehtiyat edirdi. Onun ləngliyi, qoşuna rahatlıq verməyən xürrəmilərlə döyüşə girməməsi ərəb döyüşçülərinin narazılığına səbəb oldu. Buna baxmayaraq Afşin təhlükəsizlik tədbirlərinə də çox ciddi şəkildə yanaşdı. O yaxşı başa düşürdü ki, azacıq ehtiyatsızlıq qəti hücum ərəfəsində çoxsaylı itkilərlə nəticələnə bilər. Ancaq xürrəmilərin gecə yürüşlərinin qarşısının alınması zərurəti lazımi tədbirlərin görülməsini tələb edirdi. Bunun üçün Afşin piyada və atlılardan ibarət 4 dəstə düzəldib onlara müəyyənləşdirilmiş yerlərdə gizlənməyi tapşırdı. Xürrəmilər həmişəki kimi ərəblərin düşərgəsinə yaxınlaşanda Afşinin əmri ilə pusquda dayanan 4 dəstə arxadan xürrəmilərin yolunu kəsdilər. Düşərgədən isə əlavə iki dəstə xürrəmilərin üzərinə hücuma keçdi. Xürrəmilər mühasirəyə düşdüklərini görüb dağlara səpələndilər və ayrı-ayrılıqda öz düşərgələrinə qayıtdılar. Onlar bir nəfər də olsa itki vermədilər. Ancaq bu onların ərəb düşərgəsinə tərəf son yürüşləri oldu.

Afşin qarşıda çətin döyüş olacağını hiss edərək hətta dağlarda çətin şəraitdə də öz qoşunları ilə təlim-hazırlıq işlərini davam etdirirdi. Vaxtaşırı həyəcan siqnalı verdirərək qoşunu qaldırır və bu yolla qəfil hücuma qarşı onların hazırlığını yoxlayırdı. O, həyəcan işarəsini çox vaxt gecələr verdirərdi və bununla da qoşunların gecə vərdişlərinin təkmilləşməsinə çalışardı.

Qoşunların ərzaqla təminatını müəyyən qədər yaxşılaşdırdıqdan sonra Afşin yenidən Bəzzə doğru hərəkətə başladı. Bu hərəkəti zamanı Afşin təhlükəsizlik tədbirlərinə çox ehtiyatla yanaşırdı. Bu məqsədlə o, təcrübəli sərkərdə Buxaraxudatın rəhbərliyi altında min nəfər atlı və 600 nəfər piyada dəstəni ətrafdakı hakim yüksəkliklərdə yerləşdirdi. Ərəb qoşunlarının düşərgə saldığı yerdən uzanan dərə birbaşa Bəzz qalasına aparırdı. Buxaraxudat da öz dəstəsi ilə həmin dərənin təhlükəsizliyini qorumalı, xürrəmi qüvvələrinin qəfil hucumlarının qarşısını almalı idi. Bundan əlavə Afşin Əbu Səidin, Cəfər əl Xəyyatın və Əhməd ibn Xəlilin rəhbərliyi altında olan qoşun dəstələrinə ehtiyat tədbirlərinə ciddi əməl etməyi tapşırdı.

Afşinin hazırlıq işləri başa çatanda və onun qoşunları Bəzz qalasına yaxınlaşanda Babək də ciddi planlara əl atdı. Bəzz qalasının divarları ətrafında ərəblərə müqavimət göstərilməsinin böyük itkilərə gətirib çıxara biləcəyini hiss edən Babək də fənd işlətməyi qərar aldı. O öz sərkərdəsi Azinin rəhbərliyi altında xürrəmi dəstələrini yaxın hündürlüklərin birində gizli mövqe tutmağa göndərdi. Babəkin fikrincə, döyüş başlanacağı təqdirdə ərəblərlə əsas zərbəni pusquda dayanan qüvvələr vurmalı idilər. Ona görə də Babək Bəzz qalasında çox az adam saxlayaraq qüvvələrin əsas hissəsini pusquya göndərdi.

Babəkin öz qüvvələrinin çoxunu pusquya göndərməsini və qalada çox az adam saxlamasını kəşfiyyat vasitəsilə Afşin də öyrəndi. Buna görə də o, Bəzz qalası üzərinə hücuma keçmədi. Çünki pusquda dayanan qüvvələr onları mühasirəyə ala bilərdilər. Başlanacaq döyüşün taleyinin Babəkin pusquda dayanan qüvvələri tərəfindən həll edilə biləcəyini anladığından Afşin əsas diqqəti məhz həmin qüvvələrin yerinin müəyyənləşdirilməsinə yönəltdi. Ərəb sərkərdələri gündüzlər xürrəmilərin pusqusunun yerini axtarmaqla məşğül olur, axşamlar isə öz əvvəlki mövqelərinə qayıdırdılar. Geriyə hərəkət zamanı da ərəblər təhlükəsizlik tədbirlərinə ciddi əməl edirdilər. Bu hərəkət zamanı hər bir dəstənin sırada öz yeri müəyyənləşdirilmiş-

di. Geriyə qayıdarkən qüvvələrin sonunda Cəfər əl Xəyyatın dəstəsi hərəkət edirdi.

Bir dəfə ərəb qoşunları bu qayda ilə geri qayıdanda Cəfər əl Xəyyatın dəstəsinin döyüşçüləri arxada səpələnərək bir-birindən aralı düşdülər. Babəkin pusquda dayanan adamlarından 10 atlı çıxıb arxada qalan ərəblərin üstünə hücum etdilər. Cəfər əl Xəyyat Afşinin icazəsi olmadan xürrəmilərin üstünə atılıb onları Bəzz qalasına doğru izləməyə başladı. Xürrəmilərlə böyük döyüşün başlandığını güman edən bir çox ərəb döyüşçüləri o biri dəstələrdən icazəsiz gəlib Cəfərin dəstəsinə qoşuldular. Bəzz qalasının divarı yaxınlığında onları Babəkin rəhbərliyi altında olan xürrəmi dəstələri qarşıladılar və burada döyüş başladı. Cəfər əl Xəyyat itki verdikdən sonra Afşinə xəbər göndərdi və ondan əlavə olaraq 500 nəfərlik köməyin göndərilməsini xahiş etdi. Afşin isə xürrəmilərin taktikasını nəzərə alaraq 500 nəfərin göndəriləcəyi təqdirdə belə Babəkə qalib gəlməyin mümkün olmayacağını başa düşdüyündən döyüşün saxlanılmasını məqsədəuyğun bildi. Doğrudur, o, Cəfər əl Xəyyata kömək göndərdi. Bununla belə, ona geri çəkilmək əmri verdi və xürrəmilərlə döyüşə girməyi ümumi əməliyyat planının pozulması kimi qiymətləndirdi. Ancaq döyüşün bir nəticəsi Afşini razı saldı. Çünki bu döyüşün başlaması ilə Babəkin pusquda olan qüvvələrinin yerini müəyyənləşdirmək mümkün oldu. Cəfər əl Xəyyat məğlubiyyətə düçar olub çoxlu itki versə də Afşin xürrəmilərin pusqusunun yerini öyrəndiyinə və bunun gələcək döyüşün səmərəli təşkilinə kömək edəcəyinə çox sevindi.

Xürrəmilərin uğuru və ərəblərin geri çəkilmək məcburiyyətində qalması, xüsusən də Afşinin qətiyyətsizliyi ərəb döyüşçüləri içərisində narazılığı artırdı. Babəklə döyüşə cəlb edilmiş günəmuzd döyüşçülərin çoxu Afşini tərk edib getdilər. Xürrəmilər üzərinə həlledici hücumun ləngidilməsinin təkcə döyüşçülər deyil, sərkərdələr arasında da narazılığının artdığını görən Afşin bir neçə gündən sonra döyüşə başlayacağını bildirib ona hazırlıq işarəsi verdi. Onun tapşırığı ilə döyüşçülərə pul və ərzaq paylandı, lazımi ehtiyatlar qatırlara yükləndi.

Döyüşün başlanması ərəfəsində Afşin Bəzz qalasının darvazaları yaxınlığındakı hündürlüklərin birində özü üçün müşahidə məntəqəsi yaratdı və buradan öz dəstələrinin hərəkətini izlədi. O, Buxaraxudatın dəstəsinə pusquda dayanmaq və xürrəmilərin arxadan onlara zərbə vurmaq təhlükəsinin qarşısını almaq tapşırığı verildi.

Afşin əvvəlcə döyüşə Əbu Dulafın və Cəfər əl Xəyyatın dəstələrini göndərdi. Əbu Dulafın dəstəsində döyüşgənliyi ilə fərqlənən fədailər toplandığı üçün onlara Afşin böyük ümid bağlayırdı. Afşin Əbu Dulafa Bəzz qalası ətrafında özləri seçdikləri əlverişlə mövqelərdə qərar tutmağı tapşırdı. Cəfərə də Afşin belə bir tapşırıq verdi və özü ilə istədiyi qədər qüvvə aparsın. Cəfərin dəstəsinin sayı çox olduğundan o, əlavə qüvvə götürmədən Bəzz qalasının darvazalarına doğru hərəkətə başladı. Əbu Səidin və Əhməd ibn Xəlilin dəstələri isə ehtiyat qüvvə kimi Afşinin yanında dayandılar.

Cəfərin dəstəsi Bəzzin darvazalarının mühafizəsində dayanan xürrəmi döyüşçüləri ilə döyüşə girdilər. Ola bilsin ki, darvazadan bayırda dayanan xürrəmilərin qüvvəsi elə də böyük deyildi. Ərəblər onların müqavimətini qıranda qalanın içərisindəki qüvvələrdən bir dəstə çıxaraq ərəblərin üstünə atıldı. Xürrəmi döyüşçüləri böyük məharət göstərərək ərəblərin təşəbbüsü əllərinə almasına imkan vermədilər. Nərdivanlarla qala divarlarına dırmaşmaq istəyən Əbu Dulafın könüllü fədailəri də xürrəmilərin güclü müqaviməti ilə rastlaşdılar. Onlar divarların üstündəki ərəb döyüşçülərinin başına daş yağdırırdılar. Bunun üçün də könüllü fədailərin böyük bir hissəsi tezliklə sıradan çıxdı. Cəfərin dəstəsi də böyük cəhd göstərməsinə baxmayaraq xürrəmilərin iradəsini qıra bilmədilər.

Təbərinin yazdığına görə, Afşin bu döyüşdə də Babəkə üstün gəlmyin çətin olacağını görəndə öz döyüşçülərini yaxşı vuruşmaq üçün pul və qiymətli hədiyyələrlə həvəsləndirməyə çalışdı. O döyüşçülərindən birinin vasitəsilə Cəfər əl Xəyyata və Əbu Dulafa xeyli pul göndərdi ki, döyüşçülərə paylasın, onları Babək üzərinə qəti döyüşə girməyə ruhlandırsın.

Bütün bunlara baxmayaraq xürrəmilər əlverişli məqam seçərək qaladan çıxdılar və ərəblərə güclü zərbə endirdilər. Cəfərin dəstəsi xeyli itki verib geri çəkildi. Əbu Dulafın könüllü fədailəri də xeyli itki verdilər. Hətta onların iki bayrağı da xürrəmilərin əlinə keçdi. Babəkin qüvvələri ərəblərin irəliyə çıxmış hər iki dəstəsinə güclü zərbə vuraraq onları Bəzz qalasından xeyli uzaqlaşdırdı. Cəfər vəziyyətin mürəkkəbləşdiyini və üstünlüyün xürrəmilərin əlinə keçdiyini görüb öz döyüşçülərini ürəkləndirməyə cəhd göstərdi. Verdiyi əmrdən sonra dəstəsindən yalnız 100 nəfər qalxanları qabağa verərək irəli getməyə razı olsalar da onlar da heç nəyə nail ola bilmədilər. Ərəb döyüşçüləri xürrəmilərə qalib gəlməyin qeyri-mümkün olduğunu anladıqlarından artıq irəli hərəkət etməyi lüzumsuz sayırdılar. Afşinin göstərişi ilə ön mövqelərdə iki ədəd daşatan mancanaq quraşdırıldı. Ancaq onlar da ərəblərin vəziyyətində müsbət dəyişiklik yaratmadı. Onda Afşin Əbu Dulafın köməyinə bir dəstə piyada göndərdi. Onlar könüllü fədailərlə yanaşı mövqe tutdular. Afşin, eyni zamanda, Cəfər əl Xəyyata da kömək təklif etdi. Cəfər bu köməyin gəlməsinin heç bir nəticə verməyəcəyini bildirəndə Afşin bütün qüvvələri geri çağırmaq məcburiyyətində qaldı. Çünki o da artıq yaxşı başa düşürdü ki, döyüşdə üstün gəlmək mümkün olmayacaqdır.

Afşin Bəzz qalasından xeyli aralandı və əvvəlki mövqelərinə qayıtı. Bu döyüşün uğursuzluğu da ərəb döyüşçülərinin əhval-ruhiyyəsinə ciddi təsir göstərdi və könüllü fədailərin çoxu döyüş meydanını tərk edərək dağılmağa başladılar.

Babəkin seçdiyi düzgün taktika, onun döyüşü təşkil edə bilmək qabiliyyəti, xürrəmi döyüşçülərinin hədsiz şücaəti ərəb qoşunları üzərində növbəti qələbə ilə başa çatdı. Bu qələbə xürrəmiləri sevindirsə də ərəblər Babəkə qarşı mübarizədən əl çəkmədilər. İki həftə istirahət edəndən sonra Afşin bir də Babəkin üzərinə hücuma hazırlaşmaq əmri verdi.

Afşin adi say üstünlüyü ilə Babəkə qarşı mübarizə aparmağın çətin olduğunu başa düşdüyündən xürrəmilərin taktika-

sından istifadə etməyə çalışdı. O, hərəkət marşrutlarının təhlükəsizliyinin təmin edilməsi, qəfil və arxadan zərbələr vurulması üçün pusquların təşkil edilməsinə üstünlük verdi.

Babək Afşinin yenidən geri qayıdacağını hiss edirdi. Ona görə də onun çox saylı qoşunlarının müqavimətinin qırılması üçün yenidən aldadıcı taktikaya əl atmağı qərara aldı və böyük bir qüvvəni pusquda yerləşdirdi.

Bu qüvvə Azinin rəhbərliyi altında olan 7 minlik bir dəstə idi. Azin isə bu qüvvəni 3 dəstəyə bölərək 3 yerdə pusquda yerləşdirdi. Mənbələrdə yazılanlardan belə bir qənaətə gəlmək olar ki, son döyüş ərəfəsində Babəkin 7 mindən bir qədər artıq qüvvəsi qalmışdı. Çünki əsas döyüş Azin tərəfindən aparılırdı. Babək isə yalnız bu döyüşü müşahidə edirdi və Azinin dəstəsinin vəziyyəti pisləşəndə məğlubiyyətin mütləq olduğunu görüb döyüşə son verdi. Əgər Babəkin yanında böyük bir qüvvə olsaydı yəqin ki, o da döyüşə girməkdən çəkinməzdi. Babəkin əlavə qüvvələrinin olmadığını bir də ondan yəqin etmək olar ki, o əvvəlki döyüşlərdə də oxşar taktikadan istifadə etmişdi və əsas qüvvələri pusquya göndərərək qalada çox az qüvvə saxlamışdı.

Bəzi tədqiqatçılar son döyüşdə Babəkin əsas qüvvələri Bəzz qalasından çıxarıb pusquda yerləşdirməsini onun məğlubiyyətinin başlıca səbəblərindən biri sayırlar. Ancaq bu fikrin mütləqliyini qəbul etmək çox çətindir. Çünki çoxsaylı ərəb qoşunları ilə müqayisədə xürrəmilərin çoz az qüvvəsi var idi və onları qalada saxlamaqla tam mühasirə olunmağa imkan vermək elə əvvəlcədən məğlubiyyətlə razılaşmaq demək olardı. Qalada yerləşmək xürrəmilərin çevikliyini, manevrliliyini, gözlənilməz zərbə endirmək imkanını xeyli məhdudlaşdırar, yaxşı halda onları müdafiədə dayanmağa məcbur edərdi. Ərəblər isə sözsüz ki, güclü texniki vasitələrə malik olduqları halda qüvvələri tükənməkdə olan xürrəmilərin mühasirəsindən əl çəkməzdilər. Xürrəmilərin hansı qüvvəyə və vəziyyətə malik olmaları barədə isə Afşin sözsüz ki, casusları vasitəsilə müfəssəl məlumata malik idi.

Sonuncu döyüş ərəb qoşunlarının böyük itkisi bahasına başa gəldi. Ancaq onlar böyük qüvvə üstünlüyünə malik idilər. Azinin rəhbərliyi altında olan xürrəmilər mərdliklə vuruşsalar da onları dörd tərəfdən mühasirəyə alan ərəblərin arasından çıxmaq mümkün olmadı.

Mənbələrin məlumatlarından belə qənaətə gəlmək olar ki, döyüşdən qabaq Azinin harada pusqu qurması Afşinə məlum idi. Çünki Afşin əvvəlcə 2 min nəfərlik bir dəstəni gizlicə Azinin pusqu qurduğu dağın arxasında pusqu qurmağa, sonra isə Bəşir adlı sərkərdənin rəhbərliyi altında fərqanəlilərdən ibarət başqa bir dəstəni həmin dağın ətəyində pusqu qurmağa göndərdi.

Afşin döyüşə çoxlu sayda neftatan maşınlar və məşəllər gətirdi. O qoşunu dörd sərkərdəsinin rəhbərliyi altında Azinin pusqu qurduğu hündürlüyü mühasirə almağa göndərdi. Vəziyyətin mürəkkəbləşdiyini gördükdə Azin hərbi təşəbbüsü ələ almağa cəhd göstərdi. Onun pusquda dayanan bölmələrindən biri fərqanəlilərdən ibarət olan xilafət qüvvələrinin üstünə hücum etdi. Eyni zamanda pusquya göndərdiyi 2 minlik dəstə arxadan Azinə zərbə vurmaq işarəsi aldı. Lakin Afşinin böyük ümid bağladığı sərkərdə Cəfər, Azin və onun dəstəsinin güclü hücumuna tab gətirə bilmədi. Cəfərin döyüşçülərinin çoxu qırıldı və qalanları isə geri çəkildi. Cəfərin dəstəsi geri çəkiləndən sonra Afşin Əbu Səidin dəstəsinin bir hissəsini irəliyə göndərdi. Ancaq bu dəstə də Azinin mətanətlə vuruşan döyüşçüləri ilə müqayisədə ciddi bir uğur qazana bilmədi. Ərəb tarixçisi Təbərinin yazdığına görə, Əbu Səidin dəstəsinin irəliləməsinə üstü örtülmüş quyular da mane olurdu. Atlar həmin quyulara düşür və irəli hərəkət edə bilmirdilər. Bundan başqa Azin dayandığı hündürlüyün yuxarısından içərisində daş doldurulmuş arabaları ərəblərin üstünə yuvarladırdı. Xilafət qoşunları çoxlu itki versə də onların yerini başqaları tuturdu. Xürrəmi döyüşçüləri nə qədər igidlik və məharət göstərsələr də çoxsaylı ərəb qoşunlarının mühasirəsindən çıxmaq mümkün olmadı.

Babək bu döyüşü Bəzz qalasından izləyirdi. Son anlarda qəhrəmanlıqla vuruşan xürrəmilərin həyatını xilas etmək üçün

Babək təslim olmaq və beləliklə də döyüşü dayandırmaq qərarına gəldi. Babək döyüşü dayandırmadan da qaçıb gizlənə bilərdi. Lakin o, həmməsləkləri qarşısında son borcunu yerinə yetirdi və təslim olmasını bildirməsi ilə onları ölümdən xilas etdi.

Babək Bəzz qalasından çıxıb ərəb qoşunlarına yaxınlaşdı və təslim olmaq barədə Afşinə xəbər göndərdi. Afşinlə görüşündə o, xəlifədən "aman" istədi. Afşin bu təkliflə razılaşdı və Babəkin "aman" istəməsi barədə xəlifəyə məktub göndərdi. Əvəzində Afşin Babəkdən girov istədi. Babək bildirdi ki, oğlu Azinin dəstəsində vuruşur. O, döyüşü dayandırıb oğlunu girov götürə bilər. Afşin belə də etdi. Döyüşü saxlatdırıb Babəkin oğlunu girov götürdü.

Qeyd etmək lazımdır ki, döyüşlərin gedişində Azin də həlak oldu. Babək Bəzz qalasına qayıdan kimi buradakı kiçik dəstəsi ilə qaladan çıxıb gizləndi. Ərəb qoşunları Bəzzə daxil olub oranı dağıtdılar.

Afşin xəlifəyə göndərdiyi məktubuna müsbət cavab aldı. Məktuba əsasən Afşindən Babəki tutub xəlifənin hüzuruna aparmaq tələb olundu. Bu məktubu Babəkə çatdırmağı Afşin Babəkin oğluna tapşırmaq istədi. Ancaq Babəkin oğlu xəlifəyə təslim olmaq təklifi ilə atasının hüzuruna getməyə cəsarət etmədi. O yaxşı bilirdi ki, atası xəlifənin qarşısında boyun əyməyəcəkdir. Bununla belə o, Babəkin yanına göndərilən elçi ilə atasına təslim olmaq barəsində məktub yazdı. Babək o məktubu oxuyub qəzəbləndi və oğluna belə bir xəbər göndərdi: " Sən mənim oğlum deyilsən. Çünki bircə gün rəhbər kimi yaşamaq qırx il zillətdə qul olmaqdan yaxşıdır".

Babək bir müddət dağlarda, meşələrdə gizlənsə də alban feodalı Səhl ibn Sumbatın xəyanətkarlığı nəticəsində ərəblərin əlinə keçdi. Afşin böyük qoşun dəstəsinin əhatəsində onu xilafətin mərkəzi olan Səmərraya gətirdi. Mötəsim xilafəti dami qorxu altında saxlayan bu sərkərdənin tutulmasına çox sevinib onun edam edilməsi barədə bütün ölkəyə car çəkdirdi. Xəlifə Babəkin fəaliyyətindən o qədər narahatlıq keçirmişdi ki, Səmərraya gətirilən kimi dərhal onun öldürülməsi barədə fər-

man verdi. Babək şaqqalandıqdan sonra onun başı Xorasana göndərildi, bədəni isə Səmərrada ağacdan asıldı. Ərəb tarixçilərindən biri Babəkin edam edilməsi zamanı göstərdiyi dəyanəti və mənəvi mətanəti barədə aşağıdakıları yazırdı: "Mətanət və mənəvi qüvvəyə dair qəribə hekayələr arasında aşağıdakılar vardır: Babək əl Xürrəmini Mötəsimin yanına gətirəndə onun qardaşı [tərəfdarı] əl Məzyar ona dedi:" Ey Babək, sən heç kəsin görə bilmədiyi bir iş görmüsən. İndi də heç kəsin dözə bilmədiyinə sən dözməlisən". Babək ona dedi: "Sən mənim dözümümü görərsən". Elə ki, onu Mötəsimin yanına gətirdilər, Mötəsim əmr etdi ki, Babəkin əllərini və ayaqlarını onun gözü qabağında kəssinlər...[Cəllad] da Babəklə məşğul oldu. Əvvəlcə onun sağ [əlini] kəsdi, qan axanda Babək üzünü elə boyadı ki, üzündə zərrə qədər təmiz yer qalmadı. Mötəsim dedi:" Ondan soruşun, nə səbəbə belə etdi". Babəkdən soruşdular, o da belə cavab verdi: "Xəlifəyə deyin-sən əmr etdin məni şaqqalasınlar. Mənim edamım üçün sən vicdanınla cavab verəcəksən. Lakin buna şübhə ola bilməz ki, məndən axan qanı dayandırmağa sənin hökmün çatmaz və nə qədər ki, başım kəsilməmişdir, bu qan axacaqdır. Mən qorxuram ki, bütün qanım axıb qurtarsın və üzümün rəngi qaçıb solğunlaşsın, adamlar da belə düşünsün ki, guya mən elə əvvəldən ölümdən qorxmuşammış. Məhz buna görə də mən belə etdim, yoxsa qanımın axdığı üçün etmədim. Mən üzümü qana boyadım ki, üzümün rəngi qaçmış kimi görünməsin".

Babək həyatının son anlarında da belə bir iradə nümayiş etdirdi və onun qətli ilə xürrəmilər hərəkatına da son qoyuldu.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

1.İzzəddin ibn əl-Əsir. Əl-Kamil fn-t-tarix. Bakı, 1998

2. Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbərinin "Tarix ər-rəsul və-l-müluk" əsərindən/Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989, s. 272-300

3. Məhəmməd ibn İshaq ibn Nədimin "Kitab əl Fihrist" əsərindən/ Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989, s. 301-303

4. Əbu Hənifə Dinəvərinin "Əxbar ət-Tival" əsərindən / Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989, s. 308-309

5. Kalankatuklu M. Albaniya tarixi. Qoş M. Alban salnaməsi. Bakı, 1993

6. Azərbaycan tarixi. I c., Bakı, 1961

7. Azərbaycan tarixi. II c., Bakı, 1998

8. Azərbaycan tarixi. Bakı, 1993

9. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989

10. Vəlixanlı N. Ərəb xilafəti və Azərbaycan. Bakı , 1993

11. Вершигора П.П. Военные творчество народных масс. М., 1961

12. Nəfisi S. Babək. Bakı, 1990

13. Nəcmi N. Qəhrəmanan-e nakam-e İran. Tehran, 1369

14. İbrahimov Z. Azərbaycan xalqının ərəb işğalçılarına qarşı mübarizəsi. Bakı, 1941

15. İbrahinov. Z. Babək. Bakı, 1944

16. Lənkəranlı Z. Babək. Bakı, 1043

17. Ямролский З.И. Восстание Баюека. Баку, 1944

18. Юнусов А.С. История военного дела в Азербайджане в IX – начале XII вв. (Автореферат диссертации на соискание кандидата исторических наук. Баку, 1986

19. Юнусов А.С. История военного дела в Азербайджане в IX – начале XII вв. (Диссертации на соискание кандидата исторических наук. Баку, 1986. Научный архив института Истории АН, инв. 8289)

# VII. "KİTABİ-DƏDƏ QORQUD" DASTANINDA HƏRBİ MƏSƏLƏLƏR

## 1. Dədə Qorqud dastanlarının əhatə etdiyi dövr

Azərbaycan şifahi xalq ədəbiyyatının klassik və dəyərli nümunələrindən biri olan "Kitabi-Dədə Qorqud" dastanları Azərbaycan xalqının zəngin keçmişini, dövlətçilik tarixini, kökləri çox-çox qədimlərə dayaqlanan ictimai həyat şəraitini və məişətini, siyasi-coğrafi mühitini, onun təfəkkür qaynaqlarını özündə əks etdirən qiymətli ədəbi əsər olmaqla bərabər, həm də Azərbaycanda hərb işinin tarixinin araşdırılması üçün əhəmiyyət kəsb edən maraqlı bir mənbədir. Bu əsərdə Azərbaycanında hərb işinin səviyyəsini və xarakterik xüsusiyyətlərini açıb göstərən kifayət qədər məlumatlar vardır və onların öyrənilməsi həmin dövr üçün Azərbaycanda hərbi işin inkişafı haqqında mövcud olan biliklərin daha da tamamlanmasına imkan verir. Başlıcası isə bu əsər hərb işinin əhəmiyyəti və onun ictimai-siyasi həyatdakı yeri ilə bağlı xalq təfəkkürünü ortaya qoyan milli bir abidədir.

Oğuz türklərinin tarixini, dövlətçiliyini, Azərbaycanın tarixi coğrafiyasını özündə əks etdirən ədəbi-bədii əsər kimi xarakterizə olunan (1) bu dastan elm aləminə XIX əsrin əvvəllərində məlum olmuşdur. İlk dəfə 1815-ci ildə alman alimi Dits tərəfindən haqqında məlumat verilən bu dastanın hazırda iki nüsxəsi mövcuddur. Bu nüsxələrdən biri və daha kamili Drezdendə, digəri isə Vatikanda aşkarlanmışdır. "Kitabi-Dədə Qorqud" dastanının Drezden nüsxəsi bir müqəddimə və 12 boydan ibarətdir. Dastanın Vatikan nüsxəsi isə Drezden nüsxəsində olan müqəddimə və 6 boydan ibarətdir (2). Bu nüsxələrin hər iksi köçürülmə nüsxələrdir və dastanın ilkin nüsxəsi hələlik elm aləminə məlum deyildir.

Mütəxəssislər şübhə etmirlər ki, mövcud olan nüsxələrin hər ikisi ilk nüsxənin qələmə alınmasından çox-çox sonralar köçürülmüşdür (3). Konkret olaraq isə son köçürülmə tarixi kimi Ağqoyunlu və Osmanlı dövləti dönəmi, yəni XV srin ikinci yarısı göstərilir (4). Qorqudşünaslıqda belə bir fikir hakimdir ki, dastanın sonralar üzü köçürülən nüsxələrinə müəyyən əlavələr edilmişdir və ona görə də mövcud olan nüsxələrdə ilkin nüsxə ilə müqayisədə fərqli olan məqamlar öz əksini tapmışdır. Mütəxəssislərin gəldiyi elmi qənaət bundan ibarətdir ki, "Kitabi-Dədə Qorqud" dastanında XV əsrlə səsləşən tarixi məqamlar, habelə islam etiqadı və şəriəti ilə bağlı mövcud olan məqamlar dastana sonradan artırılmışdır. Əslində, dastanın məzmunu, bütün boylarda təsvir olunan məişət həyatı, dastan qəhrəmanlarının məşğuliyyəti, inancları, onların baş verən hadisələrə münasibəti də bunu deməyə əsas verir. Bu məsələnin aydınlaşdırılması dastanda öz əksini tapmış hərbi işinin xarakterinin açılması üçün də elmi-tarixi əhəmiyyət kəsb edir.

Məsələn, bəzi mütəxəssislər "Kitabi-Dədə Qorqud" dastanlarında baş verən hadisələrin X-XII əsrlərdə Azərbaycanda baş verən hadisələrlə səsləşdiyini (2, 5), bəzi mütəxəssislər isə bu dastanda XII və XIII əsrə aid hadisələrin yer aldığını bildirirlər (5, 64). Hətta, yuxarıda qeyd edildiyi kimi, dastanda XV əsrə aid hadisələrin də öz əksini tapdığı bildirilir. Kitabda islam dininə aid olan məqamlar da şübhəsiz ki, sonrakı dövrlərdə əlavə olunmuşdur. Dastanın müqəddiməsində Məhəmməd peyğəmbərdən başqa, ilk islam xəlifələri olan Əbu Bəkrin, Osmanın, Əlinin, imam Əlinin övladları Həsən və Hüseynin, onların Kərbəla düzündə Yezid qoşunları tərəfindən şəhid olmaları haqqında məlumatlar vardır (6, 16). Bu məlumatlar islam dininin Azərbaycanda kifayət qədər oturuşmasından və islam tarixi haqqında məlumatların Azərbaycanda rəvac tapmasından sonra yazılı ədəbiyyata çıxarıla bilərdi. Ona görə mütəxəssislər tərəfindən onların da dastana sonradan artırıldığı bildirilir.

Bununla belə o da qeyd edilməlidir ki, islam dini ilə bağlı hərbi məzmun kəsb edən məqamlar heç də kənardan yox, Azərbaycan xalqının həyatından alınmışdı. Bu məqamlar Azərbaycanın orta əsrlər hərb tarixində kifayət qədər təsdiqlənmiş normalar idi. Məsələn, dastanın bir yerində deyilir: "Qazanın bəyləri həp yetdi, üzərinə yığnaq oldu, arı sudan abdəst aldılar, iki rükət namaz qıldılar, adı görklü Məhəmmədə salavat gətirdilər, bitəklif kafirə at saldılar, qılıc urdular" ( 6, 85). Azərbaycanın orta əsr sərkərdələrinin, şahlarının döyüşə başlamazdan əvvəl, eləcə də döyüşü uğurla başa vurandan sonra nazam qılmaları, yaradandan kömək istəmələri və ona şükür etmələri haqqında mənbələrdə çoxlu sayda faktlar vardır. O cümlədən dini dövlət işlərindən kifayət qədər uzaqlaşdırmağa müvəffəq olmuş Nadir şah Əfşar da çətin döyüşlər qabağı, döyüşlərin gedişində və ondan sonra namaz qılar və qələbənin əldə edilməsi üçün yaradanın köməyini diləyərdi (10, 719-724).

Dədə Qorqud dastanlarının bəzi qəhrəmanları da namaz qılıb sonra çətin döyüşlərə atılardılar. Lakin onların apardıqları döyüşlər məzhəb döyüşləri deyildi və onlar bu döyüşlərə də islam bayrağı altında deyil, öz bayraqları altında gedirdilər.

Bütünlükdə isə, dastanın əsas məzmunu oğuzların daha əvvəlki dövrlərə aid olan həyatını və yaşayışını təsvir edir. Bu ədəbi əsərdə hərb işinin ümumi mənzərəsi də bu qənaəti bölüşməyə əsas verir. Çünki Dədə Qorqud dastanlarında mövcud olan hərbi təcrübə Azərbaycanın X-XV əsr hərb tarixindən əvvələ aid olan mənzərəni əks etdirir. Yəni, dastandakılarla müqayisədə X-XV əsrə aid olan silahlar daha təkmil silahlar idi, qoşunların təşkilində, komplektləşdirilməsində, maddi-texniki təchizat səviyyəsində, onların idarə edilməsinin səmərəliliyində, mühəndis-istehkam işlərinin vəziyyətində, döyüşlərin taktikasında daha inkişaf etmiş bir səviyyə mövcud idi. Sözsüz ki, ədəbi-bədii bir əsər kimi, dastanda hərbi-tarixi gerçəkliyin olduğu kimi təsviri mümkün deyildi. Bununla belə, dastanla tanışlıq Azərbaycan arealında məskunlaşmış oğuz türklərinin

hərbi təcrübəsi haqqında ümumi bir təsəvvür yaradır və bu təsəvvür də belə bir qənaəti ortaya qoyur ki, dastanda oğuz türklərinə şamil olunan hərbi təcrübə X-XV əsrlərdən daha əvvəlki dövrləri özündə əks etdirir. VII-X əsrlərin yazılı mənbəsi olan Mousey Kalankatuklunun "Albaniya tarixi" əsəri (7) ilə və ya Azərbaycanın X-XV əsrlər hərb tarixi ilə bağlı aparılan tədqiatlarla (8) tanışlıq da onu deməyə əsas verir ki, Dədə Qorqud dastanlarının hərbi iş tarixi oğuz türklərinin daha qədim hərb tarixidir və dastan da daha qədim olan bu tarixin öyrənilməsi üçün ciddi təhlilə ehtiyacı olan bir yazılı abidədir.

Lakin bu fərqlilik heç də Azərbaycanın X-XV əsrlər hərb tarixi ilə Dədə Qorqud dastanlarında hərb işinin aid olduğu real tarix arasında bir sərhəd qoyulması demək deyildir. Əksinə, X-XV əsrlərin hərb tarixi Dədə Qorqud dastanlarının təmsil etdiyi dövrdəki hərb işinin sonrakı inkişaf mərhələsi kimi qəbul edilməlidir. Bu iki dövrün hərb təcrübəsinin qarşılıqlı şəkildə təhlili və öyrənilməsi bu prosesin müxtəlif dövrləri və mərhələləri arasındakı qırılmaz əlaqəninin müəyyənləşdirilməsi baxımından da əhəmiyyətlidir.

## 2. Sərhəd xəttinin mühafizəsi məsələləri

Dədə-Qorqud dastanlarında hərb işi oğuzların həyatının tərkib hissəsidir və ona görədir ki, bu dastan Azərbaycan xalqının qəhrəmanlıq dastanı kimi tanınır. Bu dastanda hərb işinin inkişaf səviyyəsi oğuzların ictimai həyatının inkişaf səviyyəsi ilə uyğunluq təşkil edir. Bu təbiidir. Çünki hərb işinin inkişaf səviyyəsi mənsub olduğu cəmiyyətin ictimai-mənəvi və iqtisadi inkişaf səviyyəsi ilə müəyyənləşir (9, s.173). Ona görə də dastanın qəhrəmanı olan oğuzların həyatında tayfa-qəbilə məişət tərzi və yaşayış ənənələri güclü olduğu üçün onların hərb işində də tayfa-qəbilə mənsubiyyətindən irəli gələn ənənəçilik güclü olaraq qalmaqdadır. Bu ənənəçilik oğuzun hərb işinin məz-

munun və oğuzların dövlətinin hərbi strategiyasının müəyyənləşdirilməsinə də öz təsirini göstərirdi.

Qalın oğuz adlanan oğuz məmləkətinin hərbi strategiyası bu məmləkətin daxili və xarici hərbi təhlükəsizliyinin təmin edilməsi vəzifələri ilə şərtlənirdi. Dastanda oğuzların yerləşdiyi məmləkətin sərhədləri kifayət qədər aydın şəkildə müəyyənləşdirilmişdir. Bu məmləkətin ərazisinin mərkəzində Azərbaycan Respublikası və ona qonşu olan ərazilər dayanır. Dastanda təsvir olunan oğuz ölkəsi Qalın oğuz xanlığı adlanır və bu xanlıq İç oğuz və Daş (Dış) oğuz adlanan iki inzibati əraziyə bölünmüşdü. İç oğuz adlanan inzibati ərazinin Kür-Araz ovalığını, Azərbaycanın aran ərazilərini əhatə etdiyi ehtimal edilir. Daş oğuz inzibati bölgüsünə isə Azərbaycanın bu aran bölgəsinin ətrafında olan ərazilər daxil edilir. Konkret olaraq Gürcüstan sərhədi boyu ərazilər, Göyçə gölü ətrafı ərazilər, şimalda Samur çayı və Dərbənd bölgəsi ərazilər, Araz çayının şimal və cənubunda olan ərazilər və Anadolunun Van vilayəti. Bu ölkənin mərkəzi Azərbaycanın aran bölgəsində - Mil düzündə yerləşirdi. Xanlar xanı Bayandır xanın və Qazan xanın rezidensiyası da burada yerləşirdi (12; 13, 8).

İç oğuzla Daş oğuz isə 24 sancaqdan (vilayətdən) təşkil olunmuşdu. Xanlar xanı Bayandır xan dastan boylarının birində 24 sancaq bəyinin onun yanına toplaşmasını əmr edir (6, 110). Güman edilir ki, bu sancaqlar tayfalar üzrə təşkil edilmişdi və hər sancaqda bir tayfa yaşayırdı. Bunun məntiqi nəticəsi kimi İç oğuzla Daş oğuzun da 24 oğuz tayfasından təşkil olunduğu ehtimal edilir (14, 19).

Dastanda göstərilir ki, oğuzların vətəninin şimal sərhədi Dərbənddən keçir. Sərhəd xəttinin Dərbənddən keçməsi heç şübhəsiz ki, onun az qüvvələrlə xarici düşmənlərdən daha səmərəli şəkildə müdafiə olunmasına imkan verirdi. Çünki Dərbənd ərazisində sərt və hündür dağlarla Xəzər dənizi arasında çox kiçik bir fasilə var idi və ona görə də burada əlverilşli müdafiə mövqeləri yaratmaqla düşmənlərin qarşısını səmərəli

şəkildə almaq mümkün idi. Dastanda Dərbənd üzərindən oğuzlar üzərinə hər hansı hücumun və hərbi təhlükənin olması barəsində məlumat yoxdur. Bu da belə bir ehtimala əsas veriri ki, ölkənin şimal sərhədi etibarlı şəkildə qorunurdu.

O da məlumdur ki, oğuzların şimal sərhədində dastanın məşhur qəhrəmanlarından olan Qaracuq Çobanla onun iki qardaşı qərar tutmuşdular. Onlar kifayət qədər mübariz və döyüşgən insanlar idilər və dastandakı təsvirlər onların şimal sərhədlərinin müdafiəçisi olmaları haqda təsəvvür yaradır. Dəmir qapı Dərbəndin müdafiəsində eyni zamanda oğuz bəylərindən olan Dəli Dondar da var idi. Dastanın boylarından birində Dəli Dondar belə təsvir olunur: "Dəmir qapı Dərbənddəki dəmir qapıyı qapıb alan, altmış tutam ala göndərinin ucunda ər böyüdən, Qazan kimi pəhləvanı bir savaşda üç kərə atından yıxan, Qıyan Səlcuq oğlu Dəli Dovdar" (6, 84).

Deməli, Dərbəndin müdafiəsi cəsurluğuna görə dastanın əsas qəhrəmanlarından olan İç və Daş oğuzun bəylərbəyi Salur Qazandan heç də geri qalmayan Dəli Dondara tapşırılmışdı. Ona görə də belə bir qənaətə gəlmək olar ki, oğuzların şimal sərhədinin etibarlı şəkildə müdafiə olunması yalnız bölgənin əlverişli coğrafi şəraiti ilə yox, həm də bölgəyə döyüşgən və mübariz qüvvələrin yerləşdirilməsi ilə bağlı idi.

Oğuz məmləkəti şimal-qərbdən Gürcüstanla həmsərhəd idi. Dastanda Gürcüstan "Doqquztümən Gürcüstan" kimi xatırlanır və bu ölkənin əhalisinin xristian olduğu bildirilir. Gürcüstanla sərhəd xəttinin konturları haqqında olan məlumatlar Qafqaz Albaniyasının Gürcüstanla sərhəd xəttinə oxşarlığını təsdir edir. Oğuzların Gürcüstanla sərhəd xətti ölkənin şimal sərhəd xəttinə nisbətən kifayət qədər gərgin olan bir sahə idi və oğuzların apardığı döyüşlərin bir çoxu da məhz bu bölgəyə təsadüf edir. Dastanın ilk boylarından birində Gürcüstan sərhədinin təhlükəsiz olmadığı və bu məsələnin diqqət mərkəzində saxlanmasının zəruriliyi qeyd edilir. Məsələn, uzunmüddətli ova yollanmaq istəyən Qazan xanın diqqətinə çatdırılırdı

ki, sası dinli Gürcüstan ağzında (sərhədində) oturursan, ordun (yurdun) üstünə kimi qorsan? (6, 31). Oğuz bəyləri bildirirdilər ki, yurddan uzaqlaşanda onun təhlükəsizliyinin təmin edilməsi etibarlı qüvvələrə tapşırılmalıdır.

Dastanın "Bəkil oğlu Əmran" boyundan belə məlum olur ki, Gürcüstan müəyyən vaxtlarda oğuzlara xərac verməli olmuşdu. Həmin xərac ildə bir dəfə xanlar xanı Bayandır xanın hüzuruna təqdim olunur və Bayandır xan da bu xəracı oğuz bəyləri arasında bölüşdürürdü. Amma Gürcüstan müəyyən vaxtdan sonra oğuzlara tələb olunan qədər xərac vermədi. Başqa sözlə, Gürcüstan oğuzların bütün tələblərini qəbul etməkdən imtina etdi. Bu isə Bayandır xanın qəzəbinə səbəb oldu. Cəmi bir at, bir qılınc və bir çomaqdan ibarət olan sonuncu xərac Dədə Qorqudun məsləhəti ilə elə bir bəyə hədiyyə edildi ki, həmin bəy Gürcüstan sərhədinin müdafiəsini öz üzərinə götürməyə razı olsun.

"Xan Bayandır... sağına-soluna baxdı, kimsə razı olmadı. Bəkil deyirlərdi bir yigit vardı, ona baxdı, aydır:

-Sən nə dersən?

Bəkil razı oldu. Qalxdı, yer öpdü. Dədəm Qorqud himmət qılıncını belinə bağladı, çomağı umuzuna buraxdı, yayı qarusuna keçirdi, Şahbaz ayğırını çəkdirdi, bütün mindi, xəsmini, qövmini, ayırdı, evini çözdü. Oğuzdan köç elədi. Bərdəyə, Gəncəyə varıb vətən tutdu. Doqquz tümən Gürcüstan ağzına (sərhədinə) varıb qondu, qaravulluq elədi, yad kafər gəlsə başın Oğuza armağan göndərdi" (6, 125).

Bəkil Gürcüstan sərhədini elə etibarlı şəkildə qorudu ki, xanlar xanı Bayandur xan bu xidmətinin qarşılığında onu yanına çağırdı, ona at, qaftan və xərclik verdi. Sonra da onun üçün üç günlük qonaqlıq təşkil etdi (6, 126).

Dastanın boylarından birində Başıaçıq Tatyan qalası ilə Aqsaqa qalalarının adları çəkilir (6, 74) ki, bu qalalar da Gürcüstan sərhədində idi. Oğuzların Gürcüstanla sərhəd xəttinin haradan keçməsini daha da dəqiqləşdirməyə imkan verən bu

qalalar kafir qalaları, yəni Gürcüstana məxsus qalalar kimi təqdim olunurlar.

Qalın oğuz xanlarının və bəylərinin Gürcüstandan doğa biləcək hərbi təhdiddən ehtiyatlanmalarının əsası var idi. Çünki bir tərəfdən onlar sərhəd xətti boyunca adları çəkilən qalaları tikmişdilər. Bu qalalar onlara etibarlı müdafiə üçün təminat verirdi. Digər tərəfdən də gürcülər oğuzlarla sərhədə xeyli say-da qoşun toplamışdılar. Bunun nəticəsi kimi, dastan boylarının birində gürcülər Qazan xanın üzərinə "on altı min qara donlu kafir" çıxara bildilər. Dastanda kafirlər adlandırılan gürcü qo-şunları belə təsvir olunur: "On altı min ip üzəngili, gecə börklü, azğın dinli, quzğun dilli kafir" (6, 74).

Məhz buna görə də, Gürcüstan sərhədinin etibarlı şəkildə qorunması oğuz rəhbərlərinin qarşısında dayanan başlıca vəzi-fələrdən biri idi. Bu məsələ xanlar xanı Bayandır xanın rəh-bərliyi altında toplanmış oğuz bəylərinin toplantısında müza-kirə olunanda yuxarıda qeyd edildiyi kimi, Bayandır xanın sa-ğında və solunda dayanan bəylər belə bir məsuliyyətli vəzifəni öz üzərinə götürməkdən imtina etdilər. Güman etmək olar ki, oğuz bəylərinin xanlar xanı Bayandır xanın tapşırığının icrasını öz üzərinə götürməmələri onların ixtiyarında olan hərbi qüv-vənin yetərli olmaması ilə bağlı idi.

Ölkənin cənub-qərb sərhəd xətti isə Anadolu ərazilərinə qədər uzanırdı. Dastanda bildirilir ki, oğuz türkləri hələ Os-manlı türklərinin bu bölgəyə gəlməsindən əvvəl Trabzon, Di-yarbəkir, Düzmürd və Anadolu təkurları ilə vuruşurdular (11).

Dastanın boylarından birində Qara Dərvəndlə Evnik qa-lasının adları çəkilir. Burada malları qarət olunan tacirlər bil-dirirlər ki, adları çəkilən qalalarda olan kafirlər onların yük-lərini talayaraq Gürcüstana aparmışlar. Amma əslində bu qalalar Gürcüstana aid olmayan, indiki Türkiyə ərazisində yer-ləşmiş qalalar idi. Mütəxəssislər fikrincə, bu qalalar Gürcüstan sərhədinə çox yaxın olduğu üçün və tacirləri talayan silahlıların da Gürcüstana gedə bilməsi ehtimalı olduğu üçün bu ölkənin adı çəkilir (15).

İstənilən halda, oğuzlarını sərhədinin bu sahəsi də ciddi təhlükəsizlik tədbirlərinin görülməsini tələb edən sahələrdən biri idi. Çünki burada da böyük kafir qüvvələri toplaşmışdılar. Yalnız tacirlərin üzərinə Evnik qalasından 500 nəfərlik silahlı dəstə hücum etmişdi (6, 46). Qalada toplaşmış qüvvələrin sayı isə bundan da çox ola bilərdi.

Oğuzların cənub-qərb sərhədi istiqamətində Parasarın Bayburd hasarının, Hamid və Mardin qalalarının da adı çəkilir. Dastandakı təsvirlərdən belə bir qənaətə gəlmək olar ki, Parasarın Bayburd hasarı da güclü şəkildə qorunan və çoxlu sayda "kafər" qüvvələrinin toplandığı bir qaladır. Bölgəyə gəlmiş Beyrəyin və onun yanındakı 39 igidin əsir götürülməsi üçün hasardan 700 nəfərlik silahlı bir dəstə göndərildi. Bu dəstə də çətinlik çəkmədən 40 nəfərlik bir oğuz dəstəsini əsir ala bildi. (6, 56).

Bayburd hasarı həm də "kafər"lərin tanınmış sərkərdələri tərəfindən qorunurdu. Dastanda Bayburd hasarında məskən salmış Şöklü Məliyin, Qara Təkur məliyin, Qara Aslan məliyin adları çəkilir. Əsir düşmüş oğuz igidlərinin əsirlikdən qurtarılması üçün Bayburd hasarına hücum zamanı çoxlu sayda "kafər"in, o cümlədən onların yeddi bəyinin öldürüldüyü bildirilir (6,70). Çox güman ki, bu bəylərin hər biri qoşun başçısı idi və ona görə də onların öldürülməsi xüsusi olaraq qabardılırdı. Yəni, oğuz sərhədinin Bayburd hasarı sahəsi də ciddi təhlükəsizlik tədbirlərinin görülməsini tələb edən bir sahə idi. Əks təqdirdə, bu istiqamətdən sərhəd xəttinin tez-tez pozulması mümkün ola bilərdi.

Dastanda oğuzların cənub sərhədi istiqamətində yerləşən Trabzonun da adı çəkilir. Bildirilir ki, bu məntəqə oğuz sərhədindən yeddi günlük bir məsafədə yerləşirdi və bölgəni idarə edən təkur məliyinin iqamətgahı da bu məntəqədə yerləşirdi. Dastandakı təsvirlərdən hasil olunan qənaət belədir ki, Trabzon istiqaməti oğuz sərhədinin daha sakit olan bir istiqamətidir. Baxmayaraq ki, bu bölgədə yaşayan təkurların da güclü silahlı

dəstələri mövcud idi. Məsələn, dastanın bir yerində bildirilir ki, oğuz igidlərini izləmək üçün Trabzonun təkur məliyi onların ardınca 600 nəfərlik silahlı dəstə göndərdi (6, 104). Sözsüz ki, Trabzon məliyinin qüvvələri tək bundan ibarət deyildi.

Dastanda oğuzların sərhədinin cənub istiqamətində yerləşən Düzmürd qalasının da adı çəkilir. Bu qala Qara dəniz sahilində, sərhəd xəttindən xeyli məsafədə yerləşirdi. Burada da təkurlar yaşayırdı. Dastanda oğuz igidləri bu qalada yerləşən təkur silahlıları ilə qarşılaşdırılır. Bayandır xanın vəziri Qazılıq Qoca Düzmürd qalasında əsir olanda Əman adlı bir oğuz bəyi altı dəfə bu qala üzərinə hücum edir. Amma qalanı ala bilmir. Ona görə Əman hətta bu qalanı alınmaz sayırdı. Düzmürd qalası belə möhkəm bir qala olduğu üçün Bayandır xan oğuzun bütün sancaqlarından toplanmış bir dəstəni ora göndərməyi qərara alır və belə də edir (6, 111). Başqa sözlə, Düzmürd qalası da oğuzlarını düşmənlərinin sərəncamında olan güclü bir qala idi və bu istiqamətdən də oğuzlara hərbi təhlükə mövcud idi.

### 3. Hərb işinin təşkili məsələləri

Dastanda oğuz elinə hərbi təhlükə törədən qüvvələr əsasən xristian dininə mənsub olan "kafir"lər, onların rəhbərləri olan məliklər və təkurlardır. Lakin oğuzlara hərbi təhlükə mənbəyi yalnız xristianlar deyildirlər. Yəni, düşmənçilik yalnız məzhəb mənsubiyyətinə görə deyildi. Mütəxəssislərin fikrincə, dastanın tanınmış simalarından olan Dirsə xan da xristian dininə mənsubdur (6). Buna baxmayaraq, o, oğuzun tanınıb-seçilən xanlarından biridir. Onun xristian olması oğuzlar arasında heç bir etirazla qarşılanmır.

Oğuzlar üçün hərbi təhlükə həm də daxildə, elə oğuz bəylərinin özləri tərəfindən də mövcud idi. Məsələn, Dirsə xanın oğlu Buğac boyunda Dirsə xan oğlu buğaca bəylik verib taxta çıxaranda, ətrafdakılar Buğaca qarşı sui-qəsd təşkil edərək onun məqamını ələ keçirmək iddiasına düşürlər və bu məq-

sədlə öz planlarının icrasına başlayırlar (6, 25). Dastanın boylarının birində isə Daş oğuz bəylərinin İç oğuza asilik etməsi təsvir olunur. Mənsəb və nüfuz üstündə başlanan bu asilik son nəticədə insan qırğınlarına yol açır.

Daş oğuzun İç oğuza asilik etməsi əslində, Qalın oğuzun xarici düşmənlərinin hərbi təhlükəsindən daha ciddi bir təhlükəni təşkil edirdi. Xarici düşmənlər bir qayda olaraq oğuz bəylərinin diqqətsizliyindən və ehtiyatı əldən verməsindən istifadə edərək yurdların, oğuz xanlarının və bəylərinin var-dövlətinin talanması və əldə etdiklərini sərhəd xaricinə çıxarmaqla kifayətlənirdilərsə, Daş oğuz bəyləri Qazan xana asi düşməklə hərbi separatizm yoluna qədəm qoyurlar. Onların bu hərbi separatizmi isə Qalın oğuzun iki yerə parçalanması təhlükəsini yaratdı. Daş oğuzun tanınmış bəylərindən olan Aruz, Əman və Alp Rüstəm, Dölək Uran bu separatizmə rəhbərlik edirdilər. Dastandakı təsvirdən belə məlum olur ki, Daş oğuzun bütün bəyləri də bu separatizmi dəstəklədilər. Onlar toplaşaraq Aruza bildirdilər ki, "sənin dostuna dost, düşməninə düşməniz" (6, 155). Bununla da, ölkə iki yerə parçalandı. İç oğuza asi çıxmış bəylər Qazan xanın oğlu Beyrəyə də sui-qəsd təşkil etdilər. Qazan xan bu xəbərləri eşidəndə "dəsmalın əlinə alıb ökür-ökür ağladı, divanda zarlıq qıldı. Həp onda olan bəylər ağlaşdılar. Qazan vardı, odasına girdi. Yeddi gün divana çıxmadı... Bəylər yığıldı, divana gəldi" (6, 157).

İç və Daş oğuzun bəylərbəyi Qazan xan bu separatizmin qarşısını almaq və ölkəni parçalanmaqdan qurtarmaq üçün sonradan ciddi tədbirlərə əl atdı, İç oğuzun bütün bəylərini topladı, onlarla məsləhətləşmə apardı, sonra da cəbbəxana yüklətməyi və bütün oğuz bəylərinə atlanmağı əmr etdi. Yəni, Qazan xan bu separatizmin qarşısını hərbi yolla almağı qərarlaşdırdı və ona görə də müharibəyə başlamaq qərarına gəldi. Baxmayaraq ki, Daş oğuz separatizminin rəhbəri Aruz, Qazan xanın xanımının qardaşı, oğlu Beyrəyin dayısı idi, bunumla belə ölkənin parçalanmasının qarşısının alınması üçün Qazan xan ona qarşı

barışmaz münasibət nümayiş etdirdi. Nəticədə "cəmi bəylər mindi. Qazanın qonur atını çəkdilər, mindi. Boru çalındı, kus uruldu, gecə-gündüz demədilər, yortma oldu. Aruza və cəmi Daş Oğuz bəylərinə xəbər oldu, - işdə Qazan gəldi ,- dedilər" (6, 158).

Daş oğuz bəyləri Qazan xanın bu müharibə qərarından heç də çəkinmədilər və onlar da öz qərarlarında qətiyyətli olduğunu bəyan etdilər. Onların da "hər biri qırım gözətdi. Alaylar bağlandı, qoşunlar düzüldü, borular çalındı, davullar döyüldü" (6, 158).

Daş oğuz bəyləri hətta Qazan xana qarşı döyüşün aparılması üçün bir plan qurdular, onlardan kimin İç oğuzun hansı bəyi üzərinə hücum edəcəyi müəyyənləşdirildi. Lakin Aruzun Qazan xanla təkbətək döyüşdə həyatını itirməsindən sonra Daş oğuzun digər bəyləri separatizmdən əl çəkməyə məcbur oldular və yenidən Qazan xana tabe olduqlarını bildirdilər.

Oğuz xanlarına və bəylərinə qarşı cəbhə tutan düşmən qüvvələr kifayət qədər güclü düşmənlər idilər. Doğrudur, Qazax xan və digər oğuz bəyləri dastanda təsvir olunan döyüşlərdə son nəhayətdə öz düşmənlərinə üstün gəlirlər. Bununla belə, həmin düşmənlərlə mübarizə oğuz bəylərindən hər zaman hərbə hazır olmağı tələb edirdi. Dastanda düşmən tərəfin bir çox sərkərdələrinin adları çəkilmişdir: Şöklü Məlik, Qara Təkur Məlik, Buğacıq Məlik, Ağ Məlik, Qıpçaq Məlik, Asun olğlu Dirək və başqaları (15). Bu sərkərdələrin hər birinin ixtiyarında kifayət qədər qüvvə var idi. Hər halda onlar müəyyən qüvvəyə arxalanmasaydılar oğuz torpaqlarına hücum etməzdilər. Məsələn, Qazan xanın yurdunun talan edilməsi üçün Şöklü Məlik 7 min nəfərlik silahlı dəstə çıxarmışdı. Dastanda bu səhnə belə təsvir olunur: "Kafirin casusu sasusladı. Vardı kafirlər urğunu Şöklü Məliyə xəbər verdi. Yeddi min qaftanının ardı yırtıclı, yarımından qara saçlı, sası dinli, din düşməni alaca atlı, qara kafir mindi, yılğadı, dün bucağında Qazan xanın ordusuna (yurduna – red.) gəldi" (6,32).

Qazan xanın Dərbənddə olan qoyun sürüsünü ələ keçirmək üçün isə Şöklü Məlik ora 600 nəfərlik bir dəstə göndərdi. Bir sözlə, oğuz bəylərinə qarşı duran qüvvələr kifayət qədər güclü qüvvələr idilər və onların yarada biləcəyi hərbi təhlükənin qarşısını da güclü hərbi qüvvələrə malik olmaqla almaq olardı. Ona görə də, ölkənin daxili və xarici təhlükəsizliyinin təmin edilməsi üçün güclü silahlı qüvvələrin mövcudluğu ölkənin hərbi strategiyasının əsasını təşkil edirdi.

Ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsinə rəhbərlik oğuzların dövlət rəhbərliyi tərəfindən həyata keçirilirdi. Dastanda dövlətin mərkəzi idarəetmə aparatı barəsində müfəssəl məlumat olmasa da, ayrı-ayrı boylardan müəyyən təsəvvürlər əldə etmək mümkündür. Qalın oğuzun ali dövlət rəhbəri xanlar xanı Bayandır xan idi. O, ən ali vəzifəyə malik olan şəxsdir. Yuxarıda deyildiyi kimi, Qazılıq Qoca adlı birisi Bayandır xanın vəziri idi. Bu da onu göstərir ki, Bayandır xanın idarəetmə aparatı var idi. Bu aparatın üzvlərindən yalnız vəzirin adları çəkilsə də, həmin aparatın yalnız Qazılıq Qocadan ibarət olmadığını ehtimal etmək olar. Bayandır xanın divanının dastanda xatırlanması da onun mərkəzi idarəetmə aparatının mövcudluğunun təsdiqi ola bilər.

İstər Bayandır xanın, istərsə Qazan xanın idarəçilik məsələləri ilə bağlı məşvərət şuraları da mövcuddur. Bu məşvərət şurası dastanda daha çox hərbi məsələlərlə bağlı xatırlandığı üçün hərbi qərarların qəbul edilməsində onların rolu inkar edilməməlidir. Məsələn, yuxarıda qeyd edildiyi kimi, Bayandır xanın sağda, solda oturan bəylərə müraciət etməsi və hətta onların qərarı ilə razılaşması məşvərət şurasının hərbi məsələlərdə də müəyyən rola malik olduğunu göstərir. Bu məşvərət şurasının əsasını dastana görə, vilayət bəyləri təşkil edirdilər. Ölkənin həyatı üçün vacib məsələlərdə Bayandır xan vilayət (sancaq) bəylərini toplayardı və onlarla məsləhətləşmələr aparar və sonra qərar qəbul edərdi.

Mütəxəssislərin fikrincə, dastanda adları xatırlanan Qocalar da hərbi məşvərət şurasının üzvləridir. İnsan adlarına qoşulmuş olan "Qoca" sözü dastanda həmin insanlarının yaşlarının çox olması mənasında işlənməmişdir. Həmin titul sahiblərinin çoxu da yaşlı deyil, orta yaşlarındadır. Bu söz dastan qəhrəmanlarına verilmiş titildur. Bu titul sahibləri dastanda kifayət qədər nüfuz və mövqe sahibidirlər. Buna görə "Qoca" titulunun seçilmiş adamlara verilməsi və onlarla hərbi məsələlərdə məsləhətləşmələr aparılması bu şəxslərin hərbi məşvərət şurasının üzvləri olması qənaətinə gətirmişdir. Dastanda aşağıdakı "Qoca"ların adlarına rast gəlmək mümkündür: Aruz Qoca, Duxa Qoca, Qəflət Qoca, Bunlu Qoca, Yapaqlı Qoca, Uşun Qoca, Qanlu Qoca, Qonur Qoca, İlək Qoca, Qazalıq Qoca ( 14, 18).

Məlum olduğu kimi, Qazalıq Qoca hətta Bayandır xanın vəziri kimi yüksək bir vəzifəyə də yüksələ bilmişdi. Dastanda "Qoca" titulu almış adamların doqquzluğa bölünməsi haqqında məlumat vardır. Amma bu bölgünün nə məna daşıması dastanda lazımınca açıqlanmamışdır.

Dastanda inaqların və xas bəylərin də adları çəkilir. Məsələn, Qazan xanın ətrafı haqqında dastanda belə məlumat vardır: "Sağda oturan sağ bəylər! Solda oturan sol bəylər" Eşikdəki inaqlar! Dibdə oturan xas bəylər!" ( 6, 65).

Qazan xanın məşvərət bəylərinin bölgüsünün belə aparılması, yəqin ki, təsadüfi feyildi. Çox güman ki, daha böyük nüfuz və hörmət sahibi olan bəylər Qazan xanın sağ tərəfində, sonra gələn bəylər isə onun sol tərəfində oturar və ya toplaşardılar. Oğuz elinin bəylərinin hansı nüfuz və hörmətə sahib olması isə onların döyüşlərdə göstərdikləri igidliklərlə bağlı idi. Dastanın bir yerində də bildirilir ki, Uşun Qocanın oğlu Əgrək Qazan divanında olan bəylərə hörmət qoymayaraq keçib onlardan öndə otururardı. Bu isə Qazan xanın divanında olanların xoşuna gəlməzdi. Çünki Qazan xanın divanında oturan bəylərin "hər biri oturduğu yeri qılıncı ilə, ətməyi ilə" almışdılar (6,134).

Yuxarıdakı bölgüyə əsasən, güman etmək olar ki, inaqlar və xas bəylər məşvərətçi bəylərin sonrakı səviyyələrini təşkil etmişlər.

Məşvərət edilən bəylərin əksəriyyəti ya sancaq bəyləri, ya da igidlikdə ad çıxarmış bəylər idi. Ciddi bir döyüşə başlamazdan əvvəl qoşun başçıları olan bu bəylərin fikir yekdilliyinə nail olmaq hərbi baxımdan da xüsusi əhəmiyyət kəsb edirdi. Amma dastanda məşvərətlərə yer verilsə də, son nəticədə əsas söz sahibləri Bayandır xan və Qazan xan idilər. Onların qərarları digərləri tərəfindən də qəbul edilər və yerinə yetirilərdi. Ona görə də dastanda deyilirdi ki, "Padşahlar tanrının kölgəsidir. Padşahına asi olanın işi rast (düz-red.) gəlməz" (6, 127).

Dastanda oğuz bəylərinin bir sıra mühüm məsələlərlə yanaşı, hərbi məsələlər üzrə də Dədə Qorqudla məsləhətləşmələri yer almışdır. Dədə Qorqud dastanda el müdrikliyinin simvoludur və ona görə onunla məsləhətləşmələrin aparılması hərbi məsələlərdə də elin sözünə və fikrinə hörmətlə yanaşılmasının göstəricisi ola bilər.

Oğuz elinin Bayandır xan və Qazan xan tərəfindən müəyyənləşdirilən hərbi siyasətində müdafiə xarakteri daha güclüdür. Aparılan döyüşlərin də çoxu daxili döyüşlərdir və onlar daha çox oğuz elinin qorunmasına, oğuz ərazilərinin müdafiəsinə xidmət edir. Doğrudur, dastanda oğuz bəyləri Trabzona və Qara Dəniz sahilində yerləşən Düzmürd qalasına da gedib çıxırlar. Amma onların bu səfərləri işğalçılıq xarakteri daşımır. Dastanda təsvir edilən döyüşlər bir qayda olaraq o zaman baş verir ki, oğuzun düşmənləri oğuz elinə basqın edirlər və oğuzlar da onlara cavab vermək məcburiyyətində qalırlar. "Kitabi-Dədə Qorqud" dastanlarının yazılı şəklə gətirildiyi dövrdə yeni ərazilər, yeni sərvət mənbələri üçün işğalçılıq müharibələri adi hal sayılsa da, oğuzlarda belə bir hal müşahidə olunmur və onlar öz sərhədləri daxilində yaşamağa və bu sərhədləri qorumağa daha çox üstünlük verirlər.

Dastanda oğuz yurdunun ikinci vəzifəli şəxsi kimi Salur Qazanın adı çəkilir. O, bəylərbəyi kimi təqdim olunur və onun da öz divanı vardır (6, 134). Qazan xan vəzifəcə Bayandur xandan aşağıdadır. Lakin onların arasında funksional əlaqələrin necə tənzimlənməsi barəsində dastanda yetərincə məlumat yoxdur. Mütəxəssislərin fikrincə, Bayandur xan qanunverici hakimiyyəti təmsil edirdi. Dövlət həyatı üçün mühüm qərarları məhz o verirdi. Müxtəlif məsələlər üçün hökmlər və qərarlar da onun tərəfindən verilirdi. Qazan xan isə icraedici hakimiyyətin rəhbəri kimi təqdim edilir. Yəni, ən yüksək səviyyədə verilən qərarların icrasının məsuliyyəti Qazan xan üzərində idi. Bura ölkə həyatının ən müxtəlif məsələləri kimi, qoşun məsələsi də daxil idi (12). Qoşunların hazırlanması, onların vəzifələrinin müəyyənləşdirilməsi, döyüşlərin aparılmasına nə qədər qüvvənin cəlb edilməsi səlahiyyətləri Qazan xanın əlində idi. O həm də oğuz qoşunlarının baş komandanıdır.

Qazan xan İç oğuzun və Daş oğuzun bəylərbəyidir, yüksək mənsəb sahibidir. Amma o hər şeydən əvvəl igid bir döyüşçüdür və sahibi olduğu mənsəbləri də malik olduğu igidliklərinə görə nail olmuşdur. Dastanda vəsf olunanda da onun bu igidliyinə mütləq işarə olunur. Dastanın bir yerində o belə vəsf olunur: "Bir gün Ulaş oğlu, Tulu  quşun yavrusu, bizə miskin umudu, ümmət soyunun aslanı, Qaracuğun qaplanı, qonur atın əyası, xan Uruzun ağası, Bayandır xanın göygüsü, qalın Oğuzun dövləti, qalmış yigit arxası" (6, 31). Dastanın başqa bir yerində isə Qazan xanın vəsfi belədir: " Qalmış yigit arxası! Bizə miskin umudu! Bayandır xanın göyküsü! Tulu quşun yavrusu! Türküstanın dirəyi! Ümmət soyunun aslanı! Qaraçuğun qaplanı! Qonur atın ayası" (6, 65).

Dastanda Qazanın döyüşlərdə sonsuz igidliklər göstərməsi barəsində geniş təsvirlər mövcuddur. O, əslində, oğuz elinin mübarizlik, igidlik və dönməzlik simvoludur. Ona görə də oğuz eli özünə rəhbər kimi onu seçmişdir. Bu keyfiyyətlərinə görə, Qazan xan həm də oğuz qoşunlarına rəhbərlik edir.

## 4. Oğuz qoşunlarının təşkili, sayı, silahları

Qoşun oğuzların həyatının çox mühüm elementlərindən biridir. Çünki məhz qoşunla oğuzların varlığını, onların yurdlarını qoruyub saxlamaq olardı. Qoşunların təşkili oğuz elinin rəhbərlərinin qarşısında dayanan mühüm hərbi-siyasi vəzifələrdən biri idi.

Dastanda müfəssəl təsvirlər olmasa da, mövcud məlumatlar oğuz elinin qoşunlarının təşkili prinsipləri, komplektləşdirilməsi, idarə edilməsi, onların döyüş hazırlığı, təchizi haqqında müəyyən təsəvvürlər əldə etməyə imkan verir. Oğuz qoşunları tayfa qoşunları formasında təşkil edilmiş qoşunlardır. Qoşunların bu təşkilati forması Azərbaycan türkləri üçün uzun zaman xarakterik olmuş bir formadır və bu forma Türkmənçay müqaviləsinin imzalanmasına qədər çox geniş tətbiq olunmuşdu. Hətta Azərbaycan Rusiyanın tərkibinə qatıldıqdan sonra Naxçıvanın Kəngərlilər tayfası arasında tayfa mənsubiyyətinə görə qoşun dəstələri yaradılması təcrübəsi mövcud olmuşdur.

Tayfa qoşun təşkilati formasının mahiyyəti ondan ibarət idi ki, tayfanın üzvlərindən qoşun hissəsi təşkil edilir, tayfa üzvlərindən biri, əksər hallarda isə tayfanın başçısı bu qoşun dəstəsinin rəhbəri seçilirdi. Bu qoşun dəstəsinin silaha, ata, geyimə, ərzağa olan ehtiyacları da bir qayda olaraq tayfanın özü tərəfindən təmin edilirdi.

"Kitabi-Dədə Qorqud" dastanında da mövcud olan qoşunlar tayfa ittifaqı üzrə formalaşmış qoşunlardır. Ona görə bu qoşunların ümumi strukturunu da müəyyənləşdirmək mümkündür. 24 sancaqdan (vilayətdən) ibarət olan oğuz elinin ən azı 24 qoşun dəstəsi mövcud idi. Amma məlumdur ki, Qazan xanın özünün də birbaşa rəhbərlik etdiyi qoşun dəstəsi var idi. Ona görə də oğuz qoşunlarının bütünlükdə 25 dəstədən ibarət olması ehtimalı real qəbul olunmalıdır.

Dastanın bir yerində Dədə Qorqud hünəri ilə seçilən Buğaya "çiyni quşlu cübbə don" verilməsini tövsiyə edir:

Çiyni quşlu cübbə don vergil bu oğlana
Geyər olsun – hünərlidi (6, 23).

Hünərinə görə oğuzlara verilən və ya oğuzların geydiyi cübbə donun çiynindəki "ağ quş" oğuz ərənlərinə şücaətinə və ya mövqeyinə görə fərqləndirən əlamət ola bilər.

Bu dəstələrin hər birində nə qədər silahlının olması isə onun mənsub olduğu tayfanın üzvlərinin sayından asılı ola bilərdi. Oğuzlar üçün həddi-buluğa çatmış hər bir oğuzun ata malik olması, at çapması, qılınc tutması ənənəvi bir hal sayılırdı. At belində olmaq, qılınc tutmaq hər bir oğuz üçün əslində nüfuz məsələsi idi. Ona görə də hər bir oğuz, uşaqlar, qocalar və qadınlar istisna olmaqla döyüşçü olmaqla tayfa qoşununun üzvü idi. Dastanda hətta oğuz qadınlarının da igidlikdə, at çapmaqda, ox atıb qılınc tutmaqda oğuz ərənlərindən geri qalmadığı haqda faktlar mövcuddur.

Yuxarıda qeyd edildiyi kimi, Qazan xan oğuz qoşunlarının baş komandanıdır. Qoşunların idarəçiliyi, onlardan istifadə Qazan xanın vasitəsilə həyata keçirilir. Qazan xanın qərarları sancaq bəylərinin, yəni sancaq qoşun dəstələrinin rəhbərləri tərəfindən qoşunlara çatdırılırdı. Bunun ən işlək mexanizmlərindən biri o idi ki, Qazan xan zərurət yarananda sancaq bəylərini yanına toplayar, onlarla məşvərət aparar və sonra da qərarını onlara çatdırardı.

Bu idarəçilik forması heç də vilayətlərdə zərurət yarandığı halda Qazan xanın izni olmadan döyüş keçirilməsini istisna etmirdi. Xüsusən, düşmən qüvvələrinin hücumu zamanı vilayətlərdəki qoşun dəstələri bu hücumun qarşısını almağa çalışır, vilayət dəstələrinin gücü yetərli olmadıqda isə Qazan xana xəbər göndərilərdi. Məsələn, dastandakı Bəkil oğlu Əmranın boyunda Bəkil güclü düşmən qüvvələrinin hücumu

barəsində məlumat alandan sonra vilayətin müdafiəsi üçün Qazan xandan kömək alınmasını zəruri sayırdı.

"Kitabi-Dədə Qorqud" dastanlarında tayfa-qoşun formasının daha sadə təşkilati formasını görmək mümkündür. Bu məqam da dastanda hərbi təfəkkürün və hərbi təcrübənin daha qədim zamanlardan qaynaqlandığının nümayişidir. Qoşunların sabit struktur bölgüsünü dastanda görmək mümkün deyildir. Doğrudur, dastanda oğuz igidlərini özündə birləşdirən 40, iki bölük ( hər bölük 20 nəfər olmaqla), 60, 300, 366, 600, alay, ləşgər, doxsan tümən bölgülərinə rast gəlmək mümkündür. Lakin bu bölgülər daha çox cari vəziyyətlə, cari vəzifələrlə əlaqəli olan bölgülərdir. Məsələn, alay anlayışı ilə bağlı dastanın bir yerində belə deyilir: "Bu məhəldə Oğuz ərənləri alay-alay gəldi. Guppur-guppur davullar, nəqarələr çalındı. Qazan gördü kim, ləşgər önüncə, bir ağ-boz atlı, ağ ələmli bəkdəmir donlu, Oğuzun önüncə gəldi, çadırın tikdirdi, alay bağladı, durdu. Onun ardınca Qaragünə gəldi, alay bağladı durdu" (6, 150).

Mətnin məzmunundan görünür ki, "alay" ifadəsi dastanda formalaşmış və qəbul edilmiş bir strukturun (alayın və ya minliyin) mənasında deyil. Bu söz daha çox toplu mənasını ifadə edir.

Göstərilən bölgülərin oğuz qoşunlarında daimi və sabit bölgülər olmasını şübhəsiz şəkildə təsdiqləyən məlumatlarla dastanda rastlaşmaq çətindir. Oğuz qoşunlarının toplandığı halda onların alay və ya ləşgər miqdarında olması qəbul ediləndir. Lakin struktur bölgüsü və idarəetmə modeli kimi qoşunlarda alay sisteminin və ya ləşgər sisteminin tətbiq olunması aydın faktlarla təsdiq olunmur. Baxmayaraq ki, X-XV əsrlərdə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərdə bu stuktur bölgüsünün ciddi təcrübəsi mövcuddur. Məsələn, Albaniya qoşunlarında aşağıdakı hərbi vəzifələr var idi – sparapet, dranik salar, minbaşı, yüzbaşı, tərxan. Bu vəzifəli şəxslərin hər biri müvafiq qoşun strukturlarının rəhbərləri idilər. Sparapet – qoşun rəhbəri mənasını verirdi və qoşunlara rəhbərlik edirdi.

Dranik salar – saray qvardiyasının rəhbəri idi. Minbaşı tərkibi min nəfərdən ibarət olan qoşun dəstəsinin rəhbəri idi. Yüzbaşı min nəfərlik dəstənin tərkibinə daxil olan yüzlük rəhbəri idi. Tərxan isə kəşfiyyat dəstəsinin rəhbəri idi (16, s. 100). Bu vəzifələrə uyğun olaraq Albaniya qoşunlarında çox aydın bir struktur bölgüsü də var idi. Albaniya qoşunları 1000 nəfərlik dəstələrə, onların hər biri də yüz nəfərlik dəstələrə və onlar da öz növbəsində on nəfərlik dəstələrə bölünmüşdülər (17, s. 80). Döyüşçülər bu struktur bölgüsündə birləşirdilər və həmin strukturların rəhbərləri də tabeliyində olan döyüşçülər üzərində müəyyən hüquq, səlahiyyət və məsuliyyətə malik idilər. Qeyd etmək lazımdır ki, hələ ərəb qoşunlarının Qafqaza hücumundan əvvəl Albaniya qoşunları belə idarəetmə strukturuna malik idi.

Dədə Qorqud dastanlarının qəhrəmanları olan oğuzlarda belə bir təcrübənin olmaması əslində təbii görünə bilər. Çünki bir daha qeyd edilməlidir ki, dastanda oğuzların həyatının daha qədim dövrlərinin təcrübəsinə, o cümlədən də hərb işinin daha qədim təcrübəsinin izlərinə rast gəlmək mümkündür.

Oğuz qoşunlarının ümumi sayı və ya at belində olan silahlıların ümumi sayı haqqında dastanda konkret rəqəm yoxdur. Yuxarıda qeyd olunanlardan göründüyü kimi, dastanda 10 min -100 min arasında olan düşmən qoşunundan söhbət açılır. Əgər oğuzlar bu qədər sayda olan düşmən qarşısında əyilmirlərsə, onların da qoşunlarının ümumi sayının bu qədər və bu rəqəmlərə yaxın olduğunu ehtimal etmək olar. Bu məsələyə geniş anlamda yanaşdıqda isə oğuzların qoşunları onların at minib qılınc vurmaq imkanında olan ərənlərinin sayı qədərdir. Onların sayı isə ümumilikdə oğuz sakinlərinin ümumi sayından asılı idi.

Dastanın bir yerində Qazan xan əsirlikdə olan oğlunun azad edilməsi üçün "doxsan tümən gənc oğuz ardımca gəlsin" – deyir (6, 80). Bu rəqəm real konkretliyin ifadəsi olmasa da, zərurət yarananda oğuz qoşunlarının çox böyük sayda toplana biləcəyi ehtimalının göstəricisidir.

Oğuz qoşunlarının döyüş bayrağı mövcud idi. Dastanda döyüş bayrağı həm "ələm", həm də "sancaq" kimi təqdim olunmuşdur. Düşmən tərəfə aid olan bayraq isə həm sancaq, həm də tuğ kimi təsvir olunur (6, 44). Buradakı məlumatlardan aydın olur ki, vilayət qoşunlarının hər birinin öz döyüş bayrağı vardı. Ona görə idi ki, vilayət bəyləri (qoşun başçıları) sancaq bəyləri kimi də çağırılırdılar. Sancağın olması həm vilayətdə toplanan qoşunlara bir hüquqi status verirdi, həm də sancağın olması mənəvi elementləri özündə birləşdirirdi. Çünki bir tərəfdən vilayət bəyləri sancaq bəyliyinə layiq olmalarını əməldə göstərməli idilər, digər tərəfdən isə sancaq mənsub olduğu qoşunların, o cümlədən də oğuz ərənlərinin döyüşkənlik simvolu idi. Onun qorunması, onun arzu edilən məntəqəyə sancılması hər bir oğuz igidinin şərəf vəzifəsi idi.

Oğuz sancaqları ağ rəngdə idilər: "Qazan gördü ki, ləşkər önüncə, bir ağ-boz atlı, ağ ələmli, bəkdəmir donlu, Oğuzun önüncə gəldi" (6, 150). Amma bu bayraqların üzərindəki müxtəlif elementlərə görə bir-birindən fərqlənməsi təbii görünə bilər. Heç şübhəsiz ki, hər bir vilayətin döyüş bayrağı üzərindəki müəyyən rəsmlərə görə bir birindən fərqlənirdi.

Dastanın bir yerində "ağır sancaq"dan söhbət açılır: "Ağır sancaq götürəndə müsəlmanlar arxası olsun" (6, 49). Dastanda bu ifadənin açıqlaması barəsində əlavə məlumat yoxdur. Çox güman ki, burada söhbət sancağın ağırlığından yox, sancağın təmsil etdiyi qoşunun ağırlığından, böyüklüyündən gedir. Çünki böyük sayda qoşuna rəhbərlik etmək oğuz igidlərindən xüsusi məsuliyyət də tələb edirdi.

Bununla belə, oğuz qoşunlarında da müəyyən idarəetmə elementlərinə, müəyyən hərbi vəzifələrin mövcudluğuna rast gəlmək mümkündür. Məsələn, dastanda "əmir-axur" vəzifəsi vardır və Qaraca Çobanın göstərdiyi şücaətə görə Qazan xan onu bu vəzifəyə təyin edir. Bəzi mütəxəssislər bu vəzifənin təsərrüfat rəhbəri anlamında olduğunu güman etsələr də (14, 20), şərq hərbi təcrübəsində əmiraxur – minik və qoşun hey-

vanlarına, nəqliyyat vasitələrinə məsul olan bir vəzifə idi (16, 162). Qaraca Çobanın da məhz belə bir vəzifəyə təyin edildiyi daha inandırıcıdır. Çünki, atlar, ilxılar oğuzların həyatında xüsusi bir əhəmiyyət kəsb edirdi. Ona görə də bu vəzifə oğuz həyatı üçün, oğuz qoşunları üçün xüsusi əhəmiyyət kəsb edən vəzifə ola bilərdi. Bunun təsdiqini elə dastanda da tapmaq olar. "Baybura bəyin oğlu atlandı, ava çıxdı. Av avlarkən babasının tovlası üzərinə gəldi. Əmiraxur başı qarşıladı.." (6, 46). Buradan da göründüyü kimi əmiraxur, o cümlədən amiraxur başı atlara məsuliyyət daşıyan bir vəzifəli şəxsdir.

Dastanda gözçü vəzifəsi haqqında məlumat vardır: "Gözçü gözlədi, gördü kim, at Bəkilin[dir], Bəkil üzərində deyil " (6, 130). Burada "gözçü"nü gözətçi, müşahidəçi, kəşfiyyatçı anlamında qəbul etmək olar.

Dastanda "çavuş" sözü də işlədilmişdir:
Can! Nə heybətli qocasan
Qapıçılar səni görmədi
Çavuşlar səni duymadı (6, 88).

Çavuş vəzifəsi burada hansısa sayda döyüşçünün rəhbəri mənasına daha yaxındır. Eyni zamanda burada işlədilmiş qapıçı sözü də keşikçi, mühafizəçi mənasında hərbi məzmuna malik istilahdır.

Dastanda "naib" sözü də işlənmişdir. Dastanın qəhrəmanlarından olan Beyrək ona birləşmiş silahlı yoldaşlarına müraciətində deyir: "Bu gün mən geydim, yarın naibim geysin" (6, 55). Daha sonra: "Naib qılıncını siyirdi əlinə aldı. ... Naib paralandı, şəhid oldu" (6, 56). Naib adətən köməkçi, müavin mənasında işlədilir. Beyrəyin 40 nəfərlik dəstəsindən bir nəfəri naib adlandırması bu vəzifə sahibinin oğuzlar arasında məhz köməkçi, yardımçı mənasında olması ehtimalını yaradır.

Dastanda "çəribaşı" sözündən də istifadə olunmuşdur. Bu söz "qoşun başçısı" mənasını verir. "Alp Uruz çadırların açdır-

dı, cəbbəxanasın yüklətdi. Qaragünə çəribaşı oldu" (6, 148). Burada da görünür ki, Qaragünə daimi olaraq yox, cari vəzifənin icrası üçün qoşun başçısı təyin olunur.

Zəruri döyüş keyfiyyətlərinə malik olmaq üçün oğuzlar ən müxtəlif silahlardan istifadə edirdilər. Təyinatına görə qruplaşdırılarsa, oğuzlar həm hücum silahlarından, həm də müdafiə silahlarından istifadə edirdilər. Hücum silahlarına qılıncı, oxu, süngünü, cidanı, gürzü, müdafiə silahlarına isə dəbilqəni (tuğulğa), zirehli geyimi, qalxanı, cövşəni və digərlərini aid etmək olar:

Qara polad üz qılınc çalmayınca qırım dönməz (6, 15)

Qara polad üz qılınclar çalındı, yelmağı düşdü (6, 43)

Ağca sazlar içində, sarı gönlər görübən
Daylar basan, ön damarın dəlibən qanın soran
Qara polad üz qılıncdan qayıtmayan
Ağca tozlu qatı yaydan dirsənməyən
Ağ yeləkli ötgün oxdan qayıqmayan (6, 101)

Qılınc və sünü, çomaq və sair cəng alətin geydirib donatdılar (6, 150)

Əyni bək dəmir donum geyərdim
Qara polad üz qılıncım belimə bağlardım
Alın-başa kont işığım urardım
Qarğıdalı altmış tutam sünümü əlimə alardım (6, 156)

Dirsə xan Qorqud sinirli qatı yayın əlinə aldı. Üzəngiyə qalxıb qatı çəkdi, uz atdı, oğlanı iki dalısının arasında urub çaxdı, yıxdı. Ox toxundu, alca qanı şorlandı (6, 25).

Üç yeləkli qayın oxlar atıldı, dəmrəni düşdü (6, 43)

Bir ağ tozlu qatı yay aldılar, bir dəxi altı pərli gürz aldılar, yol yarağın gördülər (6, 46)

Böylə degəc Beyrək yayı aldı, çəkdi, qəbzəsindən yay iki para oldu (6, 64)

Ala urun sur cidamı saxlardım,
Bu gün üçün , günü gəldi (6, 75)

Əyni bək dəmir donum saxlardım
Bu gün üçün, günü gəldi (6, 75)

Qara dilli qayım oxlar atıldı
Ala uran sür cidalar susaldı o gün (6, 77)

Əlindəki sür cidanı (mənə vergil yigit)
Yanındakı göy poladını mənə vergil, yigit (6, 84)
İçin qara donlu, göy dəmirli (6, 106)

O kafərin altmış arşın qaməti var idi. Altmış batman gürz sallardı. Qatı möhkəm yay çəkərdi (6, 109).

Qarğı cida oynadanlar ildirəmədi. Qayın oxu atanlar kar qılmadı. ...Təkə buynuzundan qatı yaylı (6, 118)

Əynimdəki dəmir donum çiynim qısar
Qara polad üz qılıncım qanın doğrar
Qarğıdalı sünüm nə bəyənməzsən
Köksün dəlib göyə pırlar
Ağca tozlu qatı yayım zarı-zarı inlər
Sadaqda oxum kişin dələr (6, 131)

Qalxan yapındılar
Gürzlərin umuzlarına urdular (6, 149)

Oğuz igidləri döyüşə çıxarkən ciddi şəkildə silahlanardılar, müdafiə libaslarını geyinərdilər. Dastanda Qaraca Çobanın dili ilə Qazan xanın geyinib silahlanması aşağıdakı kimi təsvir olunmuşdur:

Qonur atın vergil mana
Altmış tutam göndərini vergil mana
Ap-alaca qalxanını vergil mana
Qara polad üz qılıncın vergil mana
Sadağında səksən oxun vergil mana
Ağtozluca qatı yayın vergil mana... ( 6, 37).

Burada əslində, oğuz ərənlərinin necə silahlanmasının mənzərəsi yaranmışdır. Dəmir zirehli geyimin əlavə edilməsi ilə bu mənzərə daha da tamamlanmış olardı. Doğrudur, oğuzlar nizədən, cidadan, çomaqdan, gürzdən də silah vasitəsi kimi istifadə edirdilər. Lakin bu nəzm parçasındakı təsviri oğuzların ənənəvi silahlanması kimi qələmə vermək mümkündür.

Dastanın başqa bir yerində oğuz igidlərinin döyüş geyimi və silahları daha mükəmməl şəkildə təsvir edilmişdir. Məsələn, oğlunun təsvirinə görə, dastanın qəhrəmanlarından olan Bəkilin silahları və geyimi aşağıdakı kimi idi:

Altındakı al ayğırı mana vergil
Qan dərlədi çapdırayım sənin üçün
Əyin bək dəmir donun mana vergil
Yeni yaxa döydürəyim sənin üçün
Qara polad üz qılıncın mana vergil
Qafillicə başlar kəsim sənin üçün
Qarğıdallı süngünü mana vergil
Köksündən ər sancayım sənin üçün
Ağ yeləkli ötgün oxun mana vergil
Əldən-ələ keçirəyim sənin üçün

Yəni, oğuz igidinin atı vardı, qılıncı, zirehli geyimi, qarğıdan düzəldilmiş süngüsü, oxu-kamanı var idi və döyüş aparılması üçün bunlarla təchiz edilməli idi.

Oğuzlar bütün həyatları boyu silaha bağlı insanlar idilər. Dastanda da oğuzların silaha belə bağlılığı həmişə hiss olunur və oğuzların istifadəsində olan silahlar az qala müqəddəsləşdirilir. Bunu silahlarla bağlı işlədilən ifadələrdə də görmək mümkündür. Məsələn, "qara polad üz qılınc", "altun cida", "sinirli qatı yay", "ağ tozluca qatı yay", "ap-alaca qalxan", "üç yeləkli qayın ox", "altı pərli gürz", "ala uran sur cida", "dəmir don", "qont işıq" (dəbilqə), "qarğı dilli qayım oxlar", "ağ yeləkli ötgün ox", "dəmrənli ox", "qayın ox", "yaxşı qaftan", "bəkdəmir donlu" və s.

Silahların oğuzların həyatında böyük əhəmiyyət kəsb etməsinin nəticəsi idi ki, Dədə Qorqud da bir neçə dastan boyunun sonundakı nəsihət və öyüdlərində bu silahların həmişə kəsərli olmasını arzulayırdı: "Çaparkən ağ-boz atın büdrəməsin! Çalışanda qara polad üz qılıncın kütləməsin" (6,30).

Dastandakı təsvirlərdən görünür ki, qılınc oğuzların əsas silahlarından biridir. Onun "qara polad üz" adlandırılması sözsüz ki, həm möhkəm dəmirdən hazırlanmasına və həm də kəsərli olmasına bir işarədir. Bu silah oğuzların əsas hücum silahlarından birini təşkil edirdi. Qılınc oğuzlar üçün də yaxın döyüşün əsas silahı idi. Ondan səmərəli şəkildə istifadə edilməsi sözsüz ki, həm fiziki güc, həm də məharət tələb edirdi.

Dastanın bir yerində bəzi silahların ölkə xaricindən gətirilməsinə işarə edilir: "... gecə-gündüz yürüyüb İstanbula gəldilər, dan-danışıq ilə yaxşı armağanlar aldılar, Bayburanın oğlu üçün bir dəniz qulunu boz ayğır aldılar. Bir ağ tozlu qatı yay aldılar, bir dəxi altı pərli gürz aldılar " (6, 46).

Təsvirdən aydın şəkildə görünür ki, tacirlər bu silahları çoxlu miqdarda deyil, yalnız bir nəfərlik hədiyyə üçün almışdılar. Bu məqamın özü də bir daha belə bir qənaəti təsdiq

edir ki, kənardan silah gətirilməsi ilə bərabər, oğuzlarda soyuq silahların və müdafiə geyimlərinin istehsalı mənimsənilmişdi. Nəzərə alınsa ki, oğuz igidlərinin tələbini ödəyən "qara üz polad qılınc", dəmir don, cövşən, at yarağı, atlar üçün dizlik, qarucuq kimi silahların mürəkkəb istehsalı mənimsənilmişdi, onda demək olar ki, oğuzlarda soyuq silah istehsalının yüksək mədəniyyəti mövcud idi.

Oğuz qoşunlarının silahla təmin edilməsi maraq doğuran məsələlərdən biridir. Dastanda istər xanlar xanı Bayandır xan tərəfindən, istərsə də Qazan xan tərəfindən oğuz igidlərinə at və silah verilməsi haqqında məlumat vardır. Dastan qəhrəmanlarından olan Bəkilə Bayandır xan tərəfindən yaxşı at, yaxşı qaftan bağışlanması haqqında yuxarıda xatırlanmışdı. Dastanın başqa bir yerində Qazan xan tərəfindən oğuz ərənlərinə qala, cübbə və çuxa verildiyi bildirilir (6, 86). Amma bunlar belə bir qənaəti vermir ki, oğuz qoşunları bütünlüklə Bayandır xanın və Qazan xanın rəhbərlik etdiyi mərkəzi hakimiyyət tərəfindən silahlandırılırdı. Bayandır xanla Qazan xanın bu məsələdəki iradəsi əhəmiyyətli hal olsa da, oğuz qoşunlarının silahlandırılmasının əsas mənbəyi yəqin ki, şəxsi təşəbbüskarlığa əsaslanırdı. Çünki Bayandır xanla Qazan xanın tövlə-tövlə şahbaz atları, qatar-qatar dəvələri onların şəxsi ilxıları idi və dastanda da bu məqam öz təsdiqini tapmışdır. Silah və at oğuzların həyatının təmin edilməsinin əsas elementləri idi, at və silah olmadan oğuzlar öz ənənəvi həyatlarına da malik ola bilməzdilər. Ona görə də at və silahın əldə edilməsi oğuzlar üçün başlıca məsələlərdən biri idi və bunu da onlar müəyyən yollarla həll edirdilər. Bu məsələdə oğuzlar üçün ən işlək yollardan biri ehtiyac duyulan silahın satın alınması idi və bunun təsdiqi dastanda da vardır:

Ayğır verib aldığım, (ağ) tozlu qatı yayım
Buğa verib aldığım, boğma kirişim (6, 65).

Oğuz qoşunlarının gücü yalnız silahla deyil, həm də atlarla bağlı idi. At oğuzların həyatının çox mühüm elementi, onların həyat tərzi idi. Əgər ifadəli şəkildə bildirilərsə, oğuz at belində doğulur, at belində də həyat sürürdü. Oğuz həyatını atsız təsəvvür etmək mümkün deyil. At həm də oğuzların hərbi işinin əsasını təşkil edirdi. Ondan həm minik, həm nəqliyyat vasitəsi kimi istifadə edilirdi. Döyüşlərdə çevikliyin, sürətin, gözlənilməzliyin təmin edilməsi atla bağlı idi. At oğuzların əsas qoşun növünün tərkib hissəsi, onların döyüş taktikasının əsasını müəyyənləşdirən vasitə idi. Məhz buna görədir ki, at oğuzların mühüm sərvətlərindən biri sayılırdı.

"KİtabiDədə Qorqud" dastanlarında atlar ən xoş və səmimi ifadələrlə xatırlanmaqdadır. Onun vəsfinə dastanda xeyli yer ayrılmışdır. Dastanın hələ müqəddəməsində atın adı çəkilir və oğuz üçün onun nə qədər yaxın olduğu xatırlanır: "Ər ağırın, ər yünüsün at bilir". Dastanın əksər boylarının sonundakı Dədə Qorqud öyüdlərində də atdan söhbət açılır: "Çapanda ağ-boz atın büdrəməsin" (6, 30). Dədə Qorqud eyni zamanda dastan qəhrəmanlarından olan Buğanı vəsf edərkən hünərli olduğu üçün ona at verilməsini tövsiyə edir:

Boyun uzun bədöy at vergil (bu oğlana)
Minər olsun hünərlidir (6, 22).

Dastanın əsas qəhrəmanlarından olan Qazan xan vəsf olunarkən onun yadda qalan keyfiyyətlərindən biri kimi, atlara bağlılığı bəyan edilir: " qonur atın əyası".

Dastanda atların oğuz həyatındakı roluna işarə edən aşağıdakı cümlələrlə rastlaşmaq mümkündür:

Qonur atın mindi, mahmız edib, yola girdi (6, 35);

Qaraqoç atları kişnəşdirən; Alaca atı kafirdən sapa yurdum (6, 35);

Tovla-tovla şahbaz atlarım gətirib durursan
Sənə binnət olsun
Qatar-qatar gətirib durursan
Sənə yüklət olsun (6, 41)

Boz ayğırlı Beyrək çapar yetdi (6, 42)
Ağ-boz atının yeləyisi üzərində qar durduran (6, 42)

Dədəm Qorqudun altındakı toğlu başlı Duru ayğır yoruldu. Dədə Qorqud keçi başlı Keçər ayğıra sıçradı mindi (6, 53)

Ayağı uzun şahbaz ata minən arğış (6, 58)

Bütünlükdə, at dastanda aşağıdakı ifadələrlə xatırlanır: Yelisi qara qazlaq at, bədöy at, boz at, şahbaz at, qara ayğır, qonur at, al ayğır. Bu ifadələr heç şübhəsiz ki, atların xarakterini müəyyənləşdirən ifadələrdir və bu ifadələr aid olduqları atların xüsusiyyətlərindən xəbər verirdi.

Xanlar xanı Bayandır xanın və Qazan xanın sərvətindən söz açılarkən onların tövlə-tövlə atlara malik olduğu bildirilir. Yuxarıdakı nümunələrdən göründüyü kimi, Bayandır xan da igidliyi ilə seçilən oğuz ərənlərinə qiymətli hədiyə kimi at bağışlayırdı.

Dastanın qəhrəmanlarından olan Beyrək isə atı özünün qardaşı adlandırırdı. Ata verilən bu qiymət də əslində onun oğuz həyatındakı yerini göstərirdi. Beyrək öz atını aşağıdakı kimi vəsf edirdi:

Açıq-açıq meydana bənzər sənin alıncığın
İki şəbçırağa bənzər sənin gözciyəzin
Əbrişəmə bənzər sənin yəlinciyin
İki qoşa qardaşa bənzər sənin qulaqcığın
Əri muradına yetirər sənin arxacığın
At deməzəm sana, qardaş derəm

Qardaşımdan yey
Başıma iş gəldi, yoldaş derəm
Yoldaşımdan yey - dedi

At başını yuxarı tutdu, bir qulağın qaldırdı. Beyrək qarşı gəldi. Beyrək at köksün qucaqladı. İki gözün öpdü, sıçradı, mindi (6, 60).

Göründüyü kimi, Beyrək atı hətta qardaşından və yoldaşından da üstün sayırdı. Yalnız Beyrək üçün deyil, bütün oğuzlar və o cümlədən də bütün oğuz döyüşçüləri üçün at belə bir dəyər kəsb edirdi.

Atlılar oğuzlarda əsas qoşun növünü təşkil edirdi. Doğrudur, dastanda piyadalar da xatırlanır. Lakin onların oğuzların hərb işində fəal iştirakı dastanda görünmür. Sözsüz ki, piyadaların oğuz qoşunlarında mövcudluğunu istisna etmək olmaz. Ancaq atlı qüvvələr oğuz qoşunlarının əsasını təşkil edirdi. Bu məqam hərb işi üçün maraq kəsb edən bir məqamdır. Çünki ən qədim zamanlardan başlayaraq, hərb sənətinin inkişaf səviyyəsindən asılı olmayaraq dünya xalqlarının hərb tarixində piyadalar əsas qoşun növü kimi qalmaqdadır. Dədə Qorqud dastanlarının qəhrəmanı olan oğuzlarda isə atlı qüvvələr əsas qoşun növüdür. Bu cəhət sözsüz ki, oğuzların yaşayış tərzi, həyatı və atın oğuz həyatındakı rolu ilə bağlı idi. Ona görə at həm də oğuzlarda hərb işinin inkişafına təsir göstərən bir qüvvə idi. Bu baxımdan atlar oğuzların hərbi taktikasının müəyyənləşdirilməsində də əsas elementlərdən biri idi.

Dastanda təsvir olunan döyüş səhnələri də atlar üzərində qurulubdur. Bu səhnələrdən biri aşağıdakı kimidir:

"Qaraqoçun oynatdı, Uruz kafirin sağına at təpdi. Sağlı, sollu kafiri xub dağıtdı. Sanasan kim, dar yolda dolu düşdü. Ya qara qazın işinə şahin girdi. Kafirin ucunu basdı, dağıtdı. Ağzun dinli kafir bunaldı, ova girdi. Qovulan kimsələr Uruzun bədöy atını oxladılar. (Oğlan at çilobərin yığmadı. Gözlərin qan bürüdü). At yıxıldı. Kafirlər Uruzun üstünə (çoğudu)" (6,77).

Bu səhnə Ururzun əsir götürülməsi səhnəsidir. Bu təsvirin ardınca bildirilir ki, Uruz atdan yıxılanda onun yanındakı qırx igid də atdan endi, savaşaraq Uruzu xilas etməyə çalışdılar. Dastanda bildirilir ki, "yayanın ümudu olmaz". Yəni piyadaya ümid yoxdur. Başqa sözlə ona işarə edilirdi ki, oğuz at üzərində güclüdür, oğuz atdan düşsə ona ümid olmaz.

Atların iştirakı ilə dastanda təsvir olunan döyüş səhnələrindən biri isə aşağıdakı kimidir: "Haman at saldı, yel kimi yetdi, yeləm kimi yapışdı (ol) kafirin çiyninə bir qılıc urdu. Geyimini, gecimini doğradı, altı barmaq dərinliyi zəxm irişdirdi. Qara qanı şorladı. Qara saqrı soğmanı dolu qan oldu. Qara başı bunaldı, bünlü oldu. Haman döndü, qələyə qaçdı. Yeynək ardından yetdi. Hasar qapısına girmişkən qara polad üz qılıncıyla ənsəsinə elə çaldı ki, başı top kimi yerə düşdü. Ondan yeynək atın döndərdi, ləşgərə gəldi" (6, 113).

Oğuzların hərb işində oğuzla at bir vəhdət təşkil edir. Döyüş zamanı at oğuz üçün yalnız bir minik vasitəsi deyil. O həm də oğuzun həyatını başa düşən, ətrafında baş verənləri hiss edən və bununla oğuzun həyatına təsir edə bilən bir canlıdır. Dastanda oğuz-at vəhdətini təsvir edən səhnələr də mövcuddur. Dastanın boylarından birində Səgrək adlı oğuz Əlincə qalasında əsir olan qardaşını xilas etməyə yollanır. Bir neçə günlük yoldan sonra yorulan Səgrəyi yuxu tutur. Bundan xəbər tutan düşmən onun əsir götürülməsi üçün 60 nəfər atlı göndərir: "Altmış yaraqlı adam seçdilər, vardılar. Nagahdan altmış dəmir donlu kafir oğlanın üzərinə gəldilər. Geyim qıcıltısından, at çığırmasından, məgər yigit ayğır binərdi. Xanım, at qulağı saq olur, çəkübəni oğlanı oyardı. Oğlan gördü kim, bir alay atlı gəlir. Sıçradı, adı körklü Məhəmmədə salavat gətirdi, atına mindi, qara donlu kafirə qılıc urdu, basdı, qələyə qoydu. Yenə yuxusun yenəməyib yerinə varıb, yatdı, uyudu. Yenə atının çilbərin biləyinə keçirdi. ...Bu kərə yüz kafir oğlanın üzərinə gəldilər. Ayğır yenə oğlanı oyardı" (6, 139).

Oğuz qoşunlarının gücünü müəyyənləşdirən başlıca qüvvə isə heç şübhəsiz ki, oğuzların özləri idi. Yaxşı silahın və yaxşı atın döyüş keyfiyyətləri məharətlə istifadə olunanda üzə çıxa bilərdi və oğuz ərənləri də bu sahədə xüsusi məharətə və təcrübəyə malik idilər. Əslində, həyat tərzi də onlardan bunu tələb edirdi. "Kitab-Dədə Qorqud" dastanlarının çoxlu sayda qəhrəmanları vardır və onların demək olar ki, hamısı igidlikləri və ərənlikləri ilə ad çıxarmış qəhrəmanlardır. Bu keyfiyyətlərə malik olmayan oğuzlar adətən qınaq obyekti olurdular və ona görə də oğuz qəhrəmanlarının hər biri də öz övladlarını bu qınaqdan qorumağa, övladlarını döyüşçü kimi yetişdirməyə çalışırdılar. Bu baxımdan Qazan xanın oğlu Uruzla söhbətlərindən biri xarakterikdir. Qazan xan dastan boylarından birində nisgilli şəkildə bildirirdi ki, onun sağındakılar və solundakılar qılınc çalaraq, qan tökərək ad-san qazandıqları halda oğlu Uruz bu təcrübədən uzaqdırlar. Dastanda "baş kəsmək", " qan tökmək" deyəndə oğuz ərənləri düşmənlərin başının kəsilməsini, qanının tökülməsini nəzərdə tuturdular. Oğuz ərənləri çalışırdılar ki, övladlarını və oğuz gənclərini gənc yaşlarından savaşlara qatsınlar, düşmənlərə qarşı mübarizə aparmağın təcrübəsini onlara öyrətsinlər. Qazan xan ehtiyat edirdi ki, oğlu Uruz qılınc çalıb savaş təcrübəsinə malik olmasa gələcəkdə onun taxt-tacına da sahib ola bilməz. Yəni, Qazan xan oğlunun taxt-taca çıxmağa haqqı olacaq döyüş keyfiyyətlərinə malik olmasını arzulayırdı:

Bəri gəlgil, qulunum oğul
Sağ ələ baxdığımda qardaşım Qaragünəyi gördüm
Baş kəsibdir, qan tökübdür, çuldi alıbdır, ad qazanıbdır
Solum ələ baxdığımda dayım Aruzu gördüm
Baş kəsibdir, qan tökübdür, çuldi alıbdır, ad qazanıbdır
Qarşım ələ baxdığımda səni gördüm
On altı yaş yaşladın
Bir gün ola düşəm, öləm, sən qalasan
Yay çəkmədin, ox atmadın, baş kəsmədin, qan tökmədin

(6, 73).

Başqa bir müraciətində isə Qazan xan oğluna belə deyirdi:
-Oğul, oğul, ay oğul

Yağıya girib baş kəsmədin
Adam öldürüb, qan tökmədin
Ala gözlü qırx yigidin boyuna alğıl
Köksü gözəl qaba dağlar başına çığğıl
Mənim savaşdığım, mənim döyüşdüyüm
Mənim çəkişdiyim, mənim qılınc (çalıb baş kəsdiyim)
Görgül, öyrəngil (6, 76).

Qazan xanın oğluna qarşı irəli sürdüyü bu öyüd-nəsihəti, əslində oğuz cəmiyyətinin bütün gənclərinə irəli sürdüyü öyüd-nəsihət kimi qəbul edilməlidir. Əks təqdirdə, oğuzların mövcudluğu təhlükə altına alına bilərdi. Ona görə idi ki, oğuzlarda saysız-hesabsız qəhrəmanlar və igidlər yetişirdi. Dastanın boylarından birində onlardan bir neçəsinin təsviri verilmişdir:

"Bu məhəldə qalın oğuz bəyləri yetdi, xanım, görəlim kimlər yetdi.

Qaradərə ağzında qadır verən, qara buğa dərisindən beşiyinin yapığı olan, acığı tutanda qara daşı kül eləyən, bığın əsnəsində yeddi yerdə düyən, ərənlər əvrəni Qazan bəyin qardaşı Qaragünə çapar yetdi:

-Çal qılıncın, qardaş Qazan, yetdim, - dedi.

Bunun ardınca görəlim, kimlər yetdi: Dəmir Qapu Dərvənddəki dəmir qapıyı təpib alan, altmış tutam ala köndərinin ucunda ər böyüdən (Qazan kimi pəhləvanı üç kəz atından yıxan) Qıyan Səlcük oğlu Dəli Domrul çapar yetdi:

- Çal qılıncım ağam Qazan, yetdim, - dedi.

Bunun ardınca xanım kimlər yetdi? Hamidlən Mardin qələsini təpib yıxan, dəmir yaylı Qıpçaq Məliyə qan qusduran, gəlibən Qazanın qızını ərliyə alan, Oğuzun ağ saqqallı qocaları görəndə ol yigidi təhsinləyən al məxmuru şalvarlı, atı bəhri qotazlı Qaragünə oğlu Qara Budaq çapar yetdi:

-Çal qılıncın, ağam Qazan, yetdim – dedi.

... Bunun ardınca, görəlim, kimlər yetişdi? Kafirləri it ardına buraxıb xorluyan, eldən çıxıb Ayğırgözlü suyundan at üzdürən, əlli yeddi qələnin kilidini alan, Ağ Məlik Çeşmə qızına nikah edən, Sufu Sandal Məliyə qan qusduran, qırx cübbə bürünüb otuz yeddi qələ bəyinin məhbub qızlarını çalıb bir-bir qoynun qucan, üzündən, dodağından öpən, Elin Qoca oğlu Alp Ərən çapar yetdi.

-Çal qılıncın, ağam Qazan, yetdim – dedi.

Sayılmaqla Oğuz bəyləri tükənsə olmaz" (6, 42-43).

"Kitabi-Dədə Qorqud" dastanında qeyd edildiyi kimi, Oğuzda igid bəylər az deyildi və onlar da oğuz qoşunlarının əsasını, onun ilhamverici qüvvəsini təşkil edirdi. Amma oğuz qoşunlarının mənəvi güc mənbəyi bütün oğuz eli idi və onun təmsilçisi kimi dastanda Qaraca Çoban çıxış edir. At və oğuz bəylərinin malik olduğu silahlara malik olmayan Qaraca Çoban öz fiziki gücü və mübarizliyi ilə düşmənə qarşı qətiyyətli mövqe tutan sadə bir oğuzdur və elinin-obasının müdafiəsi üçün həyatından belə keçməyə hazır olan bir oğuz ərənidir. 600 nəfərlik düşmən dəstəsi onun üzərinə hücum edəndə Qaraca Çoban bir an olsa belə, qətiyyətindən dönmür, öldürülməyəcəyi və düşmən tərəfindən ona bəylik veriləcəyi vəd ediləndə də elinə-obasına sədaqətindən üz çevirmir. Əksinə, cəsarətli cavabı ilə düşmənə meydan oxuyur:

(Hərzə-hərzə) söyləmə, mərə itim kafir
İtimlə bir yalaqda yuyundum içən azğın kafir
Altındakı alaca atın nə öyərsən?
Ala başlı keçimcə gəlməz mənə
Başındakı tuğulğanı nə öyərsən, mərə kafir
Başımdakı (keçə) börkümcə gəlməz mana
Altmış tutam göndərini nə öyərsən, mərə kafir?
Qızılcıq dəyənəyimcə gəlməz mana

Qılıncını nə öyərsən, mərə kafir?
Əyri başlı çovkanımca gəlməz mana
(Belindəki doxsan oxun nə öyərsən, mərə kafir?)
Ala qollu sapanımca gəlməz mana
İrağından, yaxınından bəri gəlgil
Yigitlərin zərbini görgül, ondan ötgil! – dedi

Bu cavabdan sonra Şöklü Məliyin 600 nəfərlik dəstəsi ilə Qaraca Çoban arasında döyüş başlayır. Yalnız fiziki keyfiyyətlərinə görə deyil, həm də gördüyü hazırlıq və tutduğu döyüş mövqeyi hesabına Qaraca Çoban bu döyüşdə basılmır. Hətta iki qardaşı onun yanında şəhid olsa belə, Qaraca Çoban döyüşü davam etdirir.

Dastandan məlumdur ki, Qaraca Çobanın Şöklü Məliyin silahlı dəstəsinə qarşı istifadə etdiyi əsas silah onun sapandı idi. Sapand Azərbaycan ərazisində işlənən ən qədim silahlardan biridir. Ondan istifadə edilməsi hələ qılıncın, oxun-kamanın istifadəsindən də əvvəlki dövrlərə gedib çıxırdı. Sapand müəyyən ölçüdə olan daşları sürətlə hədəfə doğru atmaq üçün işlədilirdi. Elmi ədəbiyyatda sapand aşağıdakı kimi təsvir olunur. Sapand adətən dəri qayışdan (və ya möhkəm ipdən) düzəldilərdi və onun ortasına daş qoyulması üçün xüsusi "səbət" birləşdirilərdi. Sapand qayışının bir ucu halqavarı şəklə Salınaraq döyüşçünün biləyinə keçirilərdi. "Səbətə" daş qoyulduqdan sonra sapandın sərbəst ucu döyüşçünün ovcunda sıxılardı. Bundan sonra döyüşçü sapandı hədəf istiqamətində fırlatmağa başlardı. Müəyyən sürət əldə edildikdən sonra sapandın sərbəst ucu buraxılır və "səbətdəki" daş hədəfə doğru uçurdu (16, 4).

Qaraca Çoban da sapanddan belə istifadə edirdi. Amma onun sapandı dastanda obrazlı şəkildə təsvir olunmuşdur. Bildirilir ki, sapandın qolları üç keçi tükündən, sapandın ayası (səbəti) isə üçyaşar dana dərisindən hazırlanmışdı. O, sapanddan 12 batman ağırlığında daş ata bilirdi və onun atdığı daş yerə düşəndə toz kimi sovrulardı. Daşın düşdüyü yerdə isə üç

ilə kimi ot göyərməzdi. Şöklü Məliyin atlılarına Qaraca Çoban əvvəlcə ətrafına topladığı daşları yağdırdı. Daş qurtardıqda isə Qaraca Çoban əlinə keçən qoyun-quzunu atlılara tərəf atdı və onun üstünə gəlmiş düşmən dəstəsini geri çəkilməyə məcbur etdi. Bundan sonra isə o, Qazan xanla birlikdə Şöklü Məliyin düşərgəsinə üz tutdu.

Dastandan məlumdur ki, Qazan xan öz ailəsini Şöklü Məliyin əsirliyindən qurtarmağa gedərkən Qaraca Çobanın onunla yollanmasına razı olmur. Qazan xanın fikrincə, "əgər Çobanla varacaq olursam, Qalın Oğuz bəyləri mənim başıma qaxınc qaxarlar. Çoban belə olmasa Qazan alamazdı deyərlər" (6, 37).

Buradan belə bir qənaətə gəlmək olar ki, oğuz qoşunlarına döyüşçülərin toplanması üçün xüsusi bir seçim aparılırdı. Oğuz qoşunları cəmiyyətin elit təbəqəsi sayılırdı və bu qoşunlara cəmiyyətin seçilən zümrəsindən, hərbi-fiziki keyfiyyətləri ilə bəylik adını doğrultmağa layiq olanlardan qəbul edilirdi.

Aşağı təbəqənin nümayəndəsi olsa da, Qaraca Çoban eləobaya bağlılığı, yurdsevərliyi, düşmənə nifrəti, mübarizliyi ilə seçilən dastan qəhrəmanıdır. Ümumən, oğuz bəylərinin və döyüşçülərinin kamil mənəvi keyfiyyətlərə malik olması dastanın bütün boylarında izlənilən məsələ olmaqla oğuz qoşunlarının da güc mənbəyindən biridir. Dədə Qorqudun bütün nəsihətlərində oğuz bəylərinin mübarizliyi, igidliyi vəsf olunur, oğuzlar üçün ənənəvi olan mənəvi normalara əməl edilməsi tövsiyə olunur. Hələ dastanın müqəddiməsində deyilirdi ki, qılınca müxənnət münasibət bəslənməməlidir, qarı düşmən heç vaxt dost kimi qəbul edilməməlidir, namərd igid ata minməməlidir. Burada oğuz ərənlərinin diqqətinə çatdırılır ki, dövranı dəyişmək üçün qara polad üz qılınca sahib olmaq lazımdır. Ona görə də oğuz bəyləri həmişə arzulayırlar ki, oğullarının "at səyirdişin, qılınc çalışın, ox atışın görəyim, sevinəyim, güvənəyim, qıvanayım" (6, 24). Dədə Qorqud da öz öyüdlərində bildirirdi ki, "ata adını yürütməyən xoyrad oğul, ata belindən enincə enməsə yey" (6, 15).

El-obaya, yurda, ailəyə bağlılıq, onların müdafiəsi və qorunması üçün hünər göstərmək, qətiyyət nümayiş etdirmək oğuz döyüşçülərinin ən başlıca mənəvi keyfiyyətidir. Oğuzların qoşun bağlaması, döyüşlərə qatılması, igidliklər nümayiş etdirməsi də məhz bu məqsədlər üçündür. Bu yolda həyatını itirənlər dastanda böyük hörmətlə "şəhid" adlandırılırlar. Dastanda bir neçə yerdə "şəhid" sözünə rast gəlmək mümkündür.

Oğuzlar üçün ənənəvi sayılan mənəvi keyfiyyətlərə sədaqətli qalacaqlarını nümayiş etdirmək üçün oğuz ərənlərinin öz andları vardır. Məsələn, "Qılıncıma doğranayın! Oxuma sancılayın! Yer kimi kərtiləyin! Torpaq kimi sovrulayın!" (6, 59). Və ya " "Yer kimi kərtiləyin! Torpaq kimi savrılayın! Qılıncıma doğranayın! Oxuma sancılayın! Oğlum doğmasın! Doğsa da on günə varmasın!" (6, 102).

Sadalanan mənəvi keyfiyyətlərə malik olmayan oğuzlar dastanda "namərd" və "müxənnət" adlandırılırlar. Oğuz bəyləri (döyüşçüləri) arasında el işinə, yurd maraqlarına xəyanət isə dastanda çox ciddi qınaq obyektidir. Məhz bunun üçündür ki, dastanın son boyunda Qalın Oğuza xəyanət edən, onu parçalayan Aruz haqlı cəzasına çatdırılır və başı kəsilir.

Hiylə və fitnə yolu ilə oğuz döyüşçülərini çətin vəziyyətə salmaq dastanda "övrət işi" kimi qiymətləndirilir. Belə bir vəziyyətlə rastlaşan Beyrək onu hiylə ilə aldadan Aruza belə deyirdi:

Mən bu işi duysam sana böylə gələrmiydim?
Aldayıban ər tutmaq övrət işidir
Övrətindənmi öyrəndin sən bu işi qavat?

Dastan qəhrəmanı Beyrək eyni zamanda oğuz döyüşçülərinin bir-biri ilə necə qarşılaşmalı olduqlarını da xatırladırdı:

Mən bu işi edəcəyin bilsəydim
Qaraqoçda qazılıq atımı minərmim

Əyin bək dəmir donum geyərdim
Qara polad üz qılıncım belimə bağlardım
Alın başa kont işığım urardım
Qarğıdalı altmış tutam sünümü əlimə alardım
Ala gözlü bəyləri yanıma salardım (6, 156).

## 5. Oğuz qoşunlarının taktikası

"Kitabi-Dədə Qorqud" dastanlarında oğuz qoşunlarının döyüşlərdə tətbiq etdiyi bir sıra taktiki elementlər haqqında da müəyyən təsəvvürlər əldə etmək mümkündür və bu təsəvvürlər oğuzlarda hərb işinin səviyyəsinin müəyyənləşdirilməsi baxımından maraq kəsb edir. Oğuzlar şübhə etmirdilər ki, elin-obanın etibarlı müdafiəsi üçün hər zaman döyüşə hazır olmaq lazımdır və ona görə də oğuzların döyüş hazırlığına xüsusi fikir verilirdi. At çapmaq, qılınc tutmaq, ox atmaq, ova çıxmaq və s. kimi tədbirlər oğuzların döyüş hazırlığının əsas elementləri idi. Bu tədbirlər oğuzlar arasında vaxtaşırı icra edilərdi və bununla da oğuz ərənləri həm yeni döyüş vərdişləri əldə edir, həm də əvvəlki döyüş vərdişlərini daha da təkmilləşdirirdilər. Hələ dastanın müqəddiməsində deyilirdi ki, "çala bilən yigidə oxla qılıncdan bir çomaq yey" (6,15). Yəni, fiziki güc və məharət oğuz igidlərinin döyüş hazırlığı üçün böyük əhəmiyyət kəsb edirdi.

Amma oğuz igidləri yalnız fiziki güc və məharətlə kifayətlənmirdilər. Ağır günə hazır olmaq üçün onlar atlarını yetişdirirdilər, silahlarını əldə edirdilər, döyüş təchizatından istifadənin məharətinə yiyələnirdilər, qoşun dəstələrini formalaşdırırdılar. Məsələn, dastan qəhrəmanlarından biri olan Uruz oğuz qoşunlarının komandanı olan Qazan xana döyüşə hər zaman hazır olmasını belə bəyan edirdi:

Bəri gəlgil, ağam Qazan
Qalxıbanı yerimdən

Bədöy atım saxlardım
Bu gün üçün, günü gəldi
Ağ meydanda səyirdəyin sənin üçün
Ala uran sur cidamı saxlardım
Bu gün üçün, günü gəldi
Qaba qarın, gen kökusdə oynadayım sənin üçün
Qara polad üz qılıncım saxlardım
Bu gün üçün, günü gəldi
Sası dinli kafir başın kəsdirəyim sənin üçün
Əyni bək dəmir donum saxlardım
Bu gün üçün, günü gəldi
Yey yaxalar dökdürəyim sənin üçün
Başımda qont işıqlar saxlardım
Bu gün üçün, günü gəldi
Qaba çomaq altında yoğradayım sənin üçün
Qırx yigidim saxlardım
Bu gün üçün, günü gəldi
Kafir başın kəsdirəyim sənin üçün
Yaxa tutub kafirlə oğraşayım sənin üçün
Ağız dildən bir qaç kəlmə xəbər mana
Qara başım qurban olsun, ağam sana

Bu nəzm parçasının sonuncu sətri də oğuz bəylərinin el-oba maraqları üçün hətta canından keçməyə hazır olduqlarını nümayiş etdirir.

Oğuz qoşunlarının döyüş taktikasına bir sıra obyektiv əsaslar təsir göstərirdi. Bu əsaslardan biri heç şübhəsiz ki, oğuzların atları və silahları idi. At çeviklik və sürət demək idi. Ona görə də, oğuz qoşunlarının taktikasında sürət və çeviklik mühüm cəhətlərdən biri idi. Atların vasitəsilə həm uzaq məsafələrə daha qısa müddətdə çatmaq mümkün idi, həm düşmənə qəfil zərbə vurmaq mümkün idi, həm də gözlənilməz vəziyyətdən sürətlə uzaqlaşmaq mümkün idi. Dastanlarda atlardan fərdi şəkildə istifadə olunur, onların hər hansı döyüş

arabasına qoşulması faktı dastanda yoxdur. Oğuzlar özləri də etiraf edirdilər ki, at olmasa onlar öz hünərlərini göstərə bilməzlər: "At işləməsə ər öyünməz. Hünər atındır" (6, 126).

Dastan qəhrəmanlarından olan Bəkilin oğlu atasının qisasını almaq üçün döyüşə yollanmaq istəyəndə atasından ilk növbədə onun atını istəyir:

Altındakı al ayğırı mana vergil
Qan dərlədi çapdırayım sənin üçün (6, 129).

Çünki atsız düşmən qarşısında hünər göstərmək elə də asan deyildi. Yuxarıda qeyd edildiyi kimi, Dədə Qorqud da hünərliləri vəsf edərkən ilk növbədə ona at verilməsini istəyirdi. Dastanda oğuzun düşmənləri də at belindədirlər. Onlar da oğuz elinə gözlənilməz hücum etmək və məqsədlərinə çatmaq üçün ata arxalanırdılar. Atın döyüş taktikasının müəyyənləşdirilməsindəki rolu nəzərə alındığı üçün idi ki, oğuzlar tövlə-tövlə at bəsləyirdilər.

Oğuzların döyüş taktikasına təsir edən digər bir obyektiv əsas onların silahları idi. Oğuzların həm hücum silahları, həm də müdafiə silahları var idi. Hücum silahları da yaxın və uzaq döyüş üçün nəzərdə tutulmuşdu. Məsələn, ox-kaman, nizə, cida uzaq döyüşlər üçün nəzərdə tutulmuşdu. Yəni, bu silahlarla uzaq məsafədə olan düşməni hədəf almaq mümkün idi. Gürz və qılınc isə yaxın döyüşlər üçün nəzərdə tutulmuşdu. Bir qayda olaraq döyüşlər oxlarla, nizələrlə və cidalarla başlayardı. Əlbəttə uzaq məsafəni vura biləcək digər silahların işlədilməsi də istisna deyildi. Uzaq məsafədən ilk zərbə vurulduqdan sonra əlbəyaxa döyüşlər başlayar və bu zaman qılınc, gürz, çomaq və digər silahlar işə düşərdi. Dədə Qorqud dastanında bunun əksi olan mənzərə ilə də rastlaşmaq mümkündür. Məsələn, dastan qəhrəmanlarından olan Bəkilin oğlunun Bəkilin düşmənləri ilə döyüş səhnəsi buna nümunə ola bilər:

"(Kafir) altı pərli gürzünü ələ aldı, oğlanın üzərinə sürdü. Oğlan qalxanını gürzə qarşı tutdu. Yuxarısından aşağı kafir oğlana qatı urdu. Qalxanını avatdı. Tuğulğasını yoğradı. Qapaqların sıyırdı. Oğlanı alımadı.

Gürzlə döyüşdülər. Qara polad üz qılıncilə dartışdılar. Sərpə-sərpə meydanda qılınclaşdılar. Çəkiləri doğrandı, qılıncları uvandı, bir-birini alımadı(lar). Qarğıdalı sünülər ilə qırışdılar, meydanda buğa kimi susaşdılar, köksləri dəlindi, sünüləri sındı, bir-birini alımadılar. At üstündən ikisi qırvaşdılar, dartışdılar" (6, 132).

Bu təsvir oğuzların döyüş taktikasına aid olan bir maraqlı elementi də ortaya qoyur. Bu da qoşun və ya dəstə başçılarının təkbətək döyüşüdür. Həmin döyüşdə hansı dəstə və ya qoşun başçısının üstün gəlməsi ilə döyüşün taleyi də həll olunardı. Bu təcrübə qədim dünyanın hərb tarixinə xas olan bir elementdir. Dədə Qorqud dastanlarının əsas qəhrəmanlarından bir olan Qazan xanın da düşmən üzərinə tək getməsi faktı məlumdur. Dastanın "Qazılıq Qoca oğlu Yeynəyin boyu"nda da bir neçə təkbətək döyüş təsvir edilmişdir. Ona görə də oğuz igidlərinin fiziki formalaşmasına və zəruri döyüş vərdişləri əldə etməsinə xüsusi diqqət yetirilirdi. Oğuzlar böyük döyüşə başlamazdan əvvəl onun uğurlu keçməsi üçün Allaha dua edirdilər. Yuxarıda qeyd edildiyi kimi, bir qayda olaraq iki rükət namaz qılınır və sonra da düşmən üzərinə yürüş olurdur (6, 104). Dastanda oğuzların döyüşün ortasında da dua etmələri və yaradandan kömək istəmələri haqqında məlumat vardır. Məsələn, dastan qəhrəmanlarından olan Bəkilin oğlu düşmənlə vuruşarkən çətin vəziyyətlə qarşılaşanda yaradana üz tutdu: "At üzərindən ikisi qıvraşdılar, dartışdılar, kafirin gücü ziyadə, oğlan zəbun oldu. Allah taalaya yalvarıb söyləmiş, görəlim necə söyləmiş. Aydır:

Ucalardan ucasan Uca tanrı!
Kimsə bilməz necəsən
Körklü tanrı!

Sən adəmə tac urdun
Şeytana lənət qıldın
Bir suçdan ötrü dərgahdan sürdün.
İbrahimi tutdurdun,
Xam gönə çulğatdın
Götürüb oda atdırdın,
Odu bustan qıldın.
Birliyinə sığındım, əsiz allah!
Xocam, mənə mədəd!" (6,132).

Böyük döyüşə başlamazdan əvvəl həm də nağaralar vurular, borular çalınardı və bununla oğuz ərənləri döyüşə səfərbər edilərdi: "Gumbur-gumbur nağaralar döyüldü, burması altun borular çalışdı" (6, 43). "Cəmi bəylər mindi. Qazanın qonur atın çəkdilər, mindi. Boru çalındı, kus uruldu, gecə-gündüz demədilər, yortma oldu " (6, 158).

Döyüşü uğurla başa çatdırdıqdan sonra da oğuzlar musiqi çaldırar və əldə edilən qələbəni qeyd edərdilər: "Qoca eşidib şad oldu. Gumbur-gumbur davullar çalındı. Altun, tuc borular ağrıldı. Ol gün ala bargah otaqlar tikildi. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırıldı" (6, 141). Bu isə o demək idi ki, oğuz qoşunlarında xüsusi musiqiçilər dəstəsi var idi və bu dəstə də döyüşlər zamanı oğuz dəstələrini müşayiət edirdilər.

Oğuzlar hər bir döyüşçünün fərdi hazırlığına və döyüş keyfiyyətlərinə böyük qiymət versələr də, döyüşlərin uğurla başa çatdırılması üçün bunu heç də hər zaman yetərli saymırdılar. Ona görə də bildirilirdi ki, "yalnız yigit alp olmaz" (6, 131) və qoşun dəstələrinin formalaşdırılmasına və döyüşlərdə bu dəstələrdən məharətlə istifadə edilməsinə böyük qiymət verirdilər. Onun üçün də dastan qəhrəmanları hər zaman ətrafındakı döyüşçülərlə fəxr edərdilər: "Yanımdakı yigitlərim savaş dilər" (6, 131), "oğlanı donatdılar. Atasıyla, anasıyla gəldi, görüşdü, əllərin öpdü, üç yüz yigit yanına buraxdı, meydana vardı" (6, 131).

Döyüşə girməzdən əvvəl müəyyən taktika seçilirdi, hücum planlaşdırılırdı. Bu zaman həm üzbəüz, əlbəyaxa, həm də cinah döyüşlərinin  tətbiqi nəzərdən keçirilir və bu döyüşlərin aparılması üçün qüvvə və vəsaitlər müəyyənləşdirilirdi. Dastanda təsvir olunan böyük döyüşlərdə oğuzların həm sağ cinahdan, həm sol cinahdan, həm də mərkəzdən sürətlə və uğurla hücuma keçmələri barəsində məlumatlar vardır. Dastanda böyük itkilərlə, böyük gərginliklə müşayiət olunan döyüşlərdən biri aşağıdakı kimi təsvir olunmuşdur:

"Ol gün bir qiyamət savaş oldu, meydan dolu baş oldu. Başlar kəsildi top kimi. Şahbaz-şahbaz atlar yüyürdü, nalı düşdü, ala-ala köndərlər susaldı. Qara polad üz qılınclar çalındı, yelmağı düşdü. Üç yeləkli qayın oxlar atıldı, dəmrəni düşdü. Qiyamətin bir günü ol gün oldu. Bəy nökərindən, nökər bəyindən ayrıldı. Daş Oğuz bəyləri ilə Dəli Dondar sağdan təpdi, çilasın yigitlər ilə Qaragünə oğlu Dəli Budaq soldan təpdi. İç Oğuz bəyləri ilə Qazan tüpə (mərkəzə - red.) təpdi, Şöklü Məliyə həvalə oldu. Şöklü Məliyi böyürdübəni atdan yerə saldı, qafillicə qara başın alıb kəsdi. Qaxışdıban alaca qanını yer üzünə tökdü. Sağ tərəfdə Qara Təkur Məliyə (Qıyan) Səlcük oğlu Dəli Dondar qarşı gəldi. Sağ yanını qılıcladı, yerə saldı. Sol tərəfdə Buğacıq Məliyə Qaragünə oğlu Dəli Budaq qarşı gəldi. Altı pərli gürz ilə təpəsinə qatı tuta urdu. Dünya aləm gözünə qaranqu oldu, at boynun qucaqladı, yerə düşdü. Qazan bəyin qardaşı kafirin tuğu ilə sancağını qılıcladı, yerə saldı" (6, 44).

Dastan boylarının başqa birində də oxşar taktikanın tətbiq olunduğu bir döytüş səhnəsi təsvir olunmuşdur. "Daş Oğuz bəyləri ilə Dondar sağa təpdi. Cilasın yigitlərlə Qarabudaq sola təpdi. Qazan kəndi düpə təpdi, təkur ilə Şöklü Məliyə həvalə oldu. Böyürdübəni atdan yerə saldı. Alca qanın yer üzərinə tökdü. Sağ tərəfdə Qaratikan Məliyə Dondar qarşı gəldi, qılıcladı yerə saldı. Sol tərəfdə Buğacıq Məliyə Qarabudaq qarşu gəldi, sancıbanı yerə saldı, tərpənmədən başın kəsdi. Boyu uzun Burla xatun qara tuğan kafirin qılıcladı" (6, 86)

Bu təsvirlər onu göstərir ki, döyüş taktikası şəraitə və düşmən qüvvələrinin düzülüşünə uyğun olaraq seçilirdi. Yəni, oğuz dəstələrinin cinahlara göndərilməsi və ya mərkəzə çıxarılması heç də təsadüfi deyildi. Konkret olaraq yuxarıdakı təsvirlərin hər ikisində göstərilir ki, döyüş meydanının sağ və sol cinahlarında qarşı tərəfin tanınmış sərkərdəsinin rəhbərliyi altında böyük dəstələr var idi və onların hücumunun qarşısının alınması üçün də uyğun taktika seçildi. Qazan xanın döyüş meydanının mərkəzində hücuma keçməsi isə düşmənin əsas qüvvələrinin onların hakiminin rəhbərliyi altında mərkəzdə cəmləşməsi ilə bağlı idi. Bununla Qazan xan döyüşün əsas məsuliyyətini də öz üzərinə götürürdü.

İkinci təsvirdən göründüyü kimi, döyüşün başa çatmasını göstərən əlamətlərdən biri qarşı tərəfin hakiminin (eyni zamanda qoşun komandanının) və qarşı tərəfin döyüş bayrağının ələ keçirilməsi idi. Bu təsvirdə həm də boyu uzun Burla xatunun da döyüşə qatıldığı və onun da oğuz ərənləri ilə birlikdə ağır döyüşdə iştirak etdiyi görünür. Burla xatun dastanda yeganə xanım deyil ki, oğuz ərənləri ilə birlikdə ağır döyüşlərə qatılırdı. Dastanın Selcan Xatun adlı başqa bir qəhrəmanı da igidlikdə oğuz ərənlərindən geri qalmırdı: "Selcan Xatun bunu böylə gördü, içinə od düşdü. Bir bölük qaza şahin girmiş kimi, kafirə at saldı. Bir ucundan qırıb kafiri ol biri ucuna çıxdı" (6, 105).

Oğuz yurdunun ağır günündə yalnız oğuz ərənləri deyil, oğuz xanımları da at minib qılınc tutur və döyüşməkdə də ərənlərdən geri qalmırdılar. Bunun üçün onlar lazımi döyüş keyfiyyətlərinə də malik idilər. Heç şübhəsiz ki, bu keyfiyyətlərin əldə edilməsi üçün oğuz xanımları gənc yaşlarından at çapmağı, qılınc tutmağı öyrənirdilər və ya bu vərdişlər onlara öyrədilirdi.

Oğuz ərənləri düşmənə qarşı son dərəcə qətiyyətli mübarizə aparsalar da, yenilənlərə və aman istəyənlərə qarşı mərhəmət göstərilərdi: "Qaçanını Qazan bəy qovmadı, aman de-

yəni öldürmədi" (6, 44). "Burada Selcan Xatun at saldı, qırımın basdı. Qaçanı qovmadı, aman deyəni öldürmədi" (6, 105).

Mərhəmətlilik oğuz döyüşçülərinin mənəvi keyfiyyətlərindən biri idi. Yəni, oğuzlar yalnız adam qırmaq üçün döyüşmürdülər. Onlar öz haqq işləri naminə qılınc tuturdular və onların bu haqq işini qəbul edən düşmənlərə qarşı da insanepərvərlik nümayiş etdirirdilər.

Döyüşlərin uğurla başa çatdırılmasından sonra oğuzlar əldə etdikləri qələbəni böyük təntənə ilə qeyd edərdilər. Bu zaman əvvəlcə, döyüşdə xüsusi igidlik göstərənlər mükafatlandırılar, onlara "şalvar, cübbə, çuxa " verilər, müəyyən ərazilər bağışlanardı. Ardınca yeddi gün, yeddi gecə şənliklər keçirilərdi. Sonda isə Dədə Qorqud oğuz xalqına öz öyüdlərini çatdırar, onları mübarizliyə, yurda bağlılığa, elin-obanın müdafiəsinə hər zaman hazır olmağa çağırardı.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

1.Hacıyev T. "Dədə Qorqud kitabı" ilk yazılı yaddaşımızdır, s. 6/ Ktabi-Dədə Qorqud, Bakı, Öndər nəştiyyatı, 2004, s. 4-16

2. Araslı H. "Kitabi-Dədə Qorqud" haqqında, s.5/ Kitabi-Dədə Qorqud, Bakı, Gənclik, 1977, s.5-13

3.Xəlilli X. "Dədə Qorqud" oğuznamələrində mifoloji təfəkkürün qapalı tsiklinin dağılması prosesi və mexaniki islam əlavəsi" / "Dədə Qorqud" elmi-ədəbi toplu. N- 4(49), Bakı, 2013, s. 44-59

4. Əzimli D. "Kitabi-Dədə Qorqud" dastanları və tariximiz, s.46/ "Folklor və tariximiz" mövzusunda respublika elmi konfransının materialları. 19-20 noyabr 2012-ci il. Bakı, Elm və təhsil nəşriyyatı, s.46-55

5. Ələkbərli Ə. "Dədə Qorqud kitabı" dastanında gizlənən tarix, s.64/"Folklor və tariximiz" mövzusunda respublika elmi

konfransının materialları. 19-20 noyabr 2012-ci il. Bakı, Elm və təhsil nəşriyyatı, s.64-70

6. Kitabi-Dədə Qorqud. Tərtib edən H.Araslı. Bakı, Gənclik nəşriyyatı, 1977, 184 s.

7. Kalankatuklu M."Albaniya tarixi". Bakı, Elm, 1993, 272 s.

8. Azərbaycanın hərb işi tarixi. I cild, IX və X fəsillər. Bakı, Hərbi nəşriyyat, 2006, s.132-217

9. Война и Армия. Москва, Воениздат, 1977, 415 с.

10. Mərvi M.K. "Aləm Ara-ye Naderi". C.II, Tehran, 1384,

11. Cəmşid Ş. Kitabi-Dədə Qorqud dastanlarına müqəddimə, s.5-6/ Kitabi-Dədə Qorqud dastanları. Bakı, Nurlan, 2005, 193 s.

12. Hacıyev İ. "Kitabi-Dədə Qorqud tariximizin aynasıdır.
http://www.serqqapisi.az/index.php/humanitar/m-d-niyy-t/7949-kitabi-daedae-gorgud-tarikhimizin-aynas-d-r

13. Агаев Ю., Ахмедов С. Военное искусство тюрков в огузском эпосе "Китаби Деде Горгуд". Баку, "ОД" ММС, 2014, 140 с.

14. Cəfərova F. "Dədə Qorqud Kitabı"nda titul və epitetlərin semantikası / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XXXIV buraxılış. Bakı, 2010, s. 17-30

15. Quliyev T. Erməni mifini dağıdan ana kitabımız.
http://realmedia.az/kitabi-d%C9%99d%C9%99-qorqudda-erm%C9%99nil%C9%99r-hardadir/

16. Azərbaycanın hərb işi tarixi. C.I, Bakı, 2006, Hərbi nəşriyyat, 520 s.

17. Мамедов С. История войн и военного искусства Азербайджана. Баку, Нафта-Пресс, 1997

# VIII. QƏDİM RUS QOŞUNLARININ AZƏRBAYCAN ÜZƏRİNƏ HƏRBİ YÜRÜŞLƏRİ

## 1. Azəbaycana yürüşlər dövründə Qədim Rus dövlətinin və onun qoşunlarının vəziyyəti

Eramızın IX əsrinin 80-ci illərində Kiyev və Novqorod knyazlıqlarının birləşdirilməsi ilə Qədim (Kiyev) Rus dövlətinin yaranması bölgə slavyanlarının siyasi, iqtisadi və hərbi inkişafında yeni bir mərhələnin başlanğıcını qoydu. Mərkəzləşdirilmiş dövlətin yaradılmasından sonra hərbi baxımdan da kifayət qədər möhkəmlənmiş ruslar qonşu xalqlar və bölgələrlə, o cümlədən də Xəzərboyu ərazilərlə bağlı daha fəal siyasət izləməyə başladılar. Çünki belə bir siyasət böyük sərvətlər əldə etmək, eləcə də yeni ticarət marşrutları mənimsəmək baxımından xüsusi əhəmiyyət kəsb edirdi. Bu siyasətin nəticəsi kimi elə mərkzələşdirilmiş Rus dövlətinin yaradılmasından çox az sonra, yəni X əsrin əvvəllərində onların Xəzərboyu ərazilərə və Azərbaycana ilk böyük yürüşləri baş verdi. İstər bu yürüşün ciddi şəkildə hazırlanması, istərsə də yürüş marşrutunun seçilməsi onu göstərirdi ki, qədim slavyanlar həm Xəzərboyu ərazilər, həm də Azərbaycan haqqında, bu bölgənin vəziyyəti haqqında əvvəldən ətraflı məlumata malik idilər. Mövcud olan faktlar da onu göstərir ki, qədim ruslar hələ daha qədimlərdən Xəzərboyu ərazilərlə əyani şəkildə maraqlanmağa başlamışdılar. Məhz bunun nəticəsi idi ki, slavyanlarla uslar fars və ərəbdilli tarixçilərin əsərlərində hələ eramızın VI-VII əsrlərinə aid məlumatlarda xatırlanırlar (1). XI əsr tarixçi-salnaməçisi Əs-Səalibinin məlumatına görə, sasani hökmdarları tərəfindən Dərbənd divarlarının tikilməsinin bir səbəbi də rusların Cənubi Qafqaza yürüşlərinin qarşısının alınması istəyi idi. Onun qeydlərinə görə, xəzərlər və türklərlə bərabər, ruslar da sasanilərin

nəzarəti altında olan ərazilərə dağıdıcı yürüşlər edirdilər və ona görə də, sasani hökmdarı Xosrov I Ənuşiravan bu divarların tikilməsinə göstəriş verdi (2).

Bu məlumatın doğruluğu qəbul edilərsə, onda aydın olur ki, rus dəstələri hələ mərkəzləşdirilmiş Rus dövlətinin təşkilindən xeyli əvvəl Azərbaycan ərazilərinə yürüşlər edirdilər.

Mütəxəssislərin fikrincə, VI-VII əsr ruslarının adlarının Dərbənd və ondan cənubdakı ərazilərlə bağlanması heç də həmin dövrdə şərqi slavyanlar arasında bölgə ilə bağlı ciddi niyyətlərin formalaşması demək deyildi. Güman edilir ki, həmin məlumatlar qədim rusların Şimalı Qafqazda və ona yaxın ərazilərdə məskunlaşmış xəzərlərlə, bulqarlarla, türklərlə, alanlarla əlaqədə olmasının və onlarla birlikdə cənub yürüşlərində iştirak etmələrinin göstəricisidir.

VI-VII əsrlərdən etibarən qədim rusların Azərbaycan əraziləri ilə tanışlığı barəsində digər şərq mənbələrində də maraqlı məlumatlarla rastlaşmaq mümkündür. Məlumdur ki, VII əsrin ortalarında Azərbaycan ərəb istilası altına düşdü və xilafət qoşunları Dərbəndə qədər irəlilədilər. Baxmayaraq ki, ərəblər işğal etdikləri ərazilərinin hakimlərinə xərac müəyyənləşdirirdilər və onlar da vaxtaşırı həmin xəracı verməli idilər. Amma ərəblər Dərbənd hakiminə heç bir xərac müəyyənləşdirmədilər və əvəzində onlar Dərbənd hakiminə tapşırdılar ki, xilafətin şimal sərhədini şimaldan hücum edə biləcək qüvvələrin talançı yürüşlərindən müdafiə etsinlər. Elm aləmində daha çox "Tarixi Təbəri" kimi tanınan və və Əbu Cabbar Məhəmməd ibn Cərir ət-Təbəri tərəfindən yazılan çoxcildlik "Tarix ər-rəsul vəl mülk" çoxcildlik əsərindəki məlumata görə, xəlifə Ömər, Əbdürəhman Rəbiyəni ərəb qoşunlarının komandanı təyin etməklə Dərbənd yaxınlığında məskunlaşmış türklərin üzərinə hücum etməyi tapşırmışdı. Daha sonra isə Təbəri bildirirdi ki, xəzərlər və alanlar türklərlə birlikdə yaşayırdı və rus torpaqları da orada yerləşirdi (3). Sonradan Təbərinin "Tarix"ini fars dilində müxtəsər formaya salan Məhəmməd Baləminin qeydlərinə görə,

Dərbənd hakimi şimaldan hücum edə biləcək xəzərlər və alanlarla yanaşı iki dəfə rusların da adını çəkmişdir (4). Ərəblər də şimal sərhədlərini məhz xəzərlərdən, alan və ruslardan qorumaq üçün Dərbənd hakimini hər cürə vergi və xəracdan azad etmişdilər. Bu da bir daha rusların hələ VI-VII əsrlərdən başlayaraq Azərbaycan əraziləri əyani tanış olmalarını nümayiş etdirir.

Heç şübhəsiz ki, Dərbəndə və Dərbəndən cənuba çıxa bilən ruslar bu yerlərin zəngin sərvətlərə malik olmasını görür və bu barədə məlumatları məskunlaşdıqları ərazilərə də çatdırırdılar. Bu isə öz növbəsində şimal tayfaları arasında bölgə haqqında müəyyən təsəvvürlar yaradırdı.

Görülən müdafiə tədbirlərinə baxmayaraq, xəzərlər Azərbaycan ərazisinə talançı yürüşlərini heç də dayandırmadılar. VIII əsrdə onlar həm Dərbənd keçidindən, həm də Dəryal keçidindən keçməklə Azərbaycan üzərinə bir neçə talançı yürüş həyata keçirdilər. Bu yürüşlər haqqında M.Kalankatuklunun "Albaniya tarixi" əsərində də müəyyən məlumatlar və təsvirlərlə rastlaşmaq mümkündür. Həmin hücumlarla bağlı VIII əsrin əvvəllərində baş vermiş bəzi hadisələr "Albaniya tarixi"ndə aşağıdakı kimi təsvir edilmişdir: "Xəzərlərin xaqanı 80 min qoşunu ilə hücum edib Albaniyanı zəbt etdi. ...Üç il sonra Məsləmə ibn Abdülmalik gəlib Dərbəndi talan etdi və sonra da Xəzərlərin torpaqlarına hücuma keçdi. Lakin o, yardım almadığı üçün silahlanmış ordusunu və hətta kənizlərini orada qoyub qayıtdı. Onun arxasını öz ordusu ilə cəsur və fəal knyaz, mahir ox atan, Albaniyanın knyazı arranşah Vaçaqan qoruyurdu. Xəzərlər onu təqib etdilər, lakin məğlub olub qaçdılar. Məsləmə, beləliklə, xilas olub İberiyaya yola düşdü" (5).

Məsləmənin rəhbərliyi altında olan ərəb qoşunlarının xəzərlər üzərinə 730-731-ci illərdə olan hücumu haqqında ərəb və farsdilli mənbələrdə də müəyyən məlumatlar mövcuddur. Həmin məlumatlarda ərəb qoşunlarının şimala doğru irəliləməsi və hansı məntəqələri ələ keçirməsi haqqında müəyyən təsəvvür

əldə etmək mümkündür. Mövzu ilə bağlı maraq kəsb edən məlumatlar ondan ibarətdir ki, bu yürüşlər zamanı ərəb qoşunları slavyanlarla da qarşılaşmalı və onlarla döyüşə girməli olmuşdular. Bu məlumatların birinə görə, ərəb qoşunları Slavyan çayına yetişdilər və 20 min slavyanı əsir götürdülər (6).

Ərəb qoşunlarının yalnız xəzərlərlə deyil, slavyanlarla vuruşması və onlardan çoxlu sayda adamın əsir alınması da Azərbaycan ərazilərinə hücum edən rusların cəzalandırılması kimi qəbul edilə bilər. Çünki rusların cənubla bağlı olan maraqları vaxt ötdükcə daha da genişlənməkdə idi.

Ərəb tarixçisi Əbülhəsən əl Məsudinin məlumatına görə, Xəzər xaqanlığının paytaxtının bir hissəsində slavyanlarla ruslar yaşayırdılar. Onlar eyni zamanda Xəzər xaqanının qoşunlarını və onun xidmətçilərini təşkil edirdilər (7). Buradan belə bir qənaətə gəlmək olar ki, Azərbaycan üzərinə hücum edən rusların bir hissəsi xəzər qoşunlarının tərkibində olan ruslar idi. Lakin bu məlumat, Xəzər xaqanlığının şimal-qərbində məskunlaşmış rusların və slavyanların Xəzərboyu ərazilərə marağını istisna etmir. Ərəb sərkərdəsi Məsləmənin Slavyan çayına (mütəxəssislərin nəzərincə burada Volqa çayı nəzərdə tutulur-red.) qədər irəliləməsi də bundan xəbər verir.

Xüsusilə, Xəzər boyunca böyük ticarət yollarının keçməsi rus tacirlərinin də bölgəyə olan marağını artırmaqda idi. Xəzər dənizindən keçməklə Şərqi Avropanı ən qısa yolla şərq ölkələrinin zəngin bazarları ilə birləşdirmək mümkün idi. Məhz bu iqtisadi maraqlar Xəzər dənizi və Xəzər boyu ərazilərlə olan əlaqələri günü-gündən daha da aktuallaşdırmaqda idi. Ərəb tarixçisi ibn Xordadbehin məlumatlarına görə, ruslar IX əsrin əvvəllərinə qədər artıq Xəzər boyu ərazilərin çoxu ilə ticarət əlaqələrinə malik idi (8). Heç şübhəsiz ki, bu əlaqələr birdənbirə qurulmamışdı və bunun üçün müəyyən bir dövr lazım idi. İbn Xordadbehin məlumatına görə, ruslar eyni zamanda Xəzər dənizindən ticarət marşrutu kimi istifadə edirdilər. Slavyan torpaqlarından cənuba uzanan ticarət marşrutu Don çayından

və Volqanın aşağı axarından keçməklə Xəzər dənizinə çıxırdı. Dəniz vasitəsilə rus tacirləri Xəzərin cənubundakı Curcan (Qurqan) şəhərinə çıxır və oradan da dəvələrlə Bağdada yollanırdılar (9). Bu məlumat həm də ondan xəbər verir ki, X əsrə qədər ruslar gəmiçilik sahəsində çox böyük təcrübə əldə etmişdilər və onlar gəmilərlə belə böyük səfərlərə çıxa bilirdilər. Eləcə də Xəzər dənizi ilə uzun səfər zamanı rus gəmilərinin Azərbaycanın Xəzər boyu məntəqələrindən dayanacaq kimi istifadə etmələrini də istisna etmək olmaz. Sözsüz ki, belə dayanacaqlarda rusların Azərbaycan və Azərbaycan şəhərləri haqqında məlumatları da genişlənirdi. Ehtimal etmək olar ki, bu dayanacaqlarda yerli əhali ilə olan təmaslar rusların Bərdə şəhəri haqqında olan məlumatlarını daha da təkmilləşdirmiş və sonradan ruslar Bərdəyə yürüş etmək kimi gözlənilməz bir səfərə qərar vermişdilər.

Amma rusların birbaşa Xəzər dənizinə və Xəzər boyu ərazilərə çıxışı yox idi. Xəzər dənizinin şimal hissəsi, Volqa çayının aşağı axarları Xəzər xaqanlığının ərazilərinə daxil idi. Bütünlükdə, Avropanın Orta Asiya, Yaxın Şərq və Xəzər boyu ərazilərlə birləşdirən ticarət yolları Xəzər xaqanlığının nəzarəti altında idi. Vaxtilə böyük Türk xaqanlığının tərkibində olmuş Xəzər xaqanlığının cənub sərhədi Dərbənd divarlarına, cənub-qərb sərhədi Krıma və Kerç boğazına, şimalda Don və Dnepr arası çöllərə, şərqdə isə Asiya çöllərinə qədər uzanırdı. Onun qoşunlarının əsasını da türk-qulamlar təşkil edirdi (10).

Xəzər xaqanlığının əsas gəlirlərini də, nəzarət altında saxladıqları ətraf xalqlardan alınan vergilər və ticarət nəqliyyatından alınan vergilər təşkil edirdi. Ona görə də ruslar da şərqə doğru öz ticarətlərini genişləndirmək üçün Xəzər xaqanlığı ilə zəruri münasibətlərin qurulmasına çalışmalı idilər. Volqa-Xəzər marşrutu üzrə ticarətin gələcək inkişafı da məhz bu əlaqələrin qurulmasından asılı idi. Amma yaranmış konkret tarixi şəraitdə yalnız ruslar Xəzər xaqanlığı ilə normal münasibətlərin qurulmasında maraqlı deyildi. Eyni zamanda Xəzər xaqan-

lığının da öz mövcudluğunu qorunub saxlaması üçün real hərbi qüvvəyə ehtiyacı var idi və ona görə onlar da ruslarla daha ciddi münasibətlərin qurulmasında maraqlı idilər. Çünki Xəzər boyu ərazilərin daxil olduğu ərəb xilafəti ilə, istərsə də ərəb xilafətinin parçalanmasından sonra Azərbaycan ərazisində yeni yaranmış dövlətlərlə mübarizə aparmaq xəzərlər üçün çətinləşməkdə idi. Digər tərəfdən xəzərlər ruslardan fərqli olaraq hərbi və ya nəqliyyat donanmasına malik deyildirlər. Yeni şəraitdə Xəzər boyu ərazilərdə güclü mövqeyə malik olmaq üçün bu məsələ kifayət qədər ciddi əhəmiyyət kəsb edirdi.

Rusların isə gəmiçilikdə artıq kifayət qədər böyük təcrübəsi var idi. Məlumdur ki, hələ VI-VIII əsrlərdə, yəni qədim Kiyev Rus dövlətinin yaranmasından xeyli əvvəl ruslar gəmi nəqliyyatının geniş şəbəkəsini yaratmışdılar. Onlar bu gəmilərdən həm ticarət, həm də hərbi məqsədlərlə istifadə etməklə Qara dənizdə, Mərmərə, Egey və Aralıq dənizlərində gəmiçilik təcrübəsinə malik idilər (11). Ona görə ehtimal edilir ki, rusların bu təcrübəsi xəzərləri maraqlandıra bilərdi və rus hərbi gəmilərinin maneəsiz Xəzər dənizinə çıxmasının bir səbəbi də xəzərlərin rusların artmaqda olan hərbi gücündən öz maraqları naminə istifadə etmək niyyəti ola bilərdi (12).

Çünki xəzərlərə də məlum idi ki, hələ mərkəzləşdirilmiş Kiyev Rus dövlətinin formalaşdırılmasından əvvəl ruslar arasında hərb işi, o cümlədən də hərbi-dənizçilik təcrübəsi kifayət qədər geniş inkişaf etmişdi. Xüsusilə, normanların qədim ruslarda dənizçiliyin və gəmiçiliyin inkişafında iştirakı bu sahədə mövcud təcrübəni yeni bir səviyyəyə qaldırmışdı. Normanlar o dövrün təcrübəli hərbçiləri sayılırdılar. Onlar ən yaxşı silahlarla silahlanmışdılar, gəmiçilik və dənizçilik sahəsindəki təcrübələri də Avropada qabaqcıl təcrübə idi. Bu isə qədin rusların, sonra isə onların birləşdiyi mərkəzləşdirilmiş Rus dövlətinin hərbi-dənizçilik baxımından inkişafına müsbət təsir göstərdi (13).

Qədin Rus dövlətinin qərar tutduğu coğrafi məkan da ruslar arasında gəmiçiliyin inkişafına təkan verirdi. Slavyanların yaşadıqları coğrafi məkanda Dnepr, Don və s. kimi böyük çaylar var idi. Bölgədə ticarətin və iqtisadi əlaqələrin inkişafı bu çayların imkanlarından geniş istifadə olunmasını tələb edirdi. Gəmiçiliyin inkişafı isə adları çəkilən çaylar boyu məskunlaşmış slavyan tayfaları arasında əlaqələrin daha da genişlənməsinə və onların birləşməsinə yol açırdı. Slavyanların Baltik dənizinə, Azov və Qara dənizlərə yaxın çıxışları da gəmiçiliyin inkişafı üçün yaxşı zəmin idi (14).

Məlumdur ki, şərqi slavyanlar hələ VII əsrdə Bizans və İtaliyaya bir neçə dəniz səfərləri həyata keçirmiş, 626-cı ildə Konstantinoplun mühasirəsində iştirak etmiş, 676-cı ildə Bizans hərbi gəmiləri ilə döyüşmüşdülər (15). Bu da onu deməyə əsas verir ki, hələ mərkəzləşdirilmiş dövlətin yaradılmasından əvvəl uzun dəniz səfərlərinə çıxmaq işində rusların böyük təcrübəsi var idi. Mövcud olan faktlara görə, rusların Xəzər dənizinə ilk hərb yürüşü də Kiyev Rus dövlətinin yaradılmasından əvvəl baş vermişdi (16).

Rusların və slavyanların istifadəsində olan gəmilər hətta digər ölkələrdə də kifayət qədər qiymətləndirilirdilər. Məsələn, 765-ci ildə Bizans imperatoru V Konstantin bolqarlara qarşı 2 min gəmi ilə hücum edəndə özü "rus gəmisinə" minmişdi. Yəni, böyük dəniz donanmasına malik olan Bizans imperatoru "rus gəmisinə" minməyə üstünlük vermişdi (17).

Qədim ruslar malik olduqları gəmilərlə Qara dənizə etdikləri səfərlər zamanı yalnız dənizçiliyin təcrübəsini zənginləşdirmirdilər, onlar həm də dəniz piratçılığının təcrübəsinə yiyələnirdilər. Məsələn, yunan mənbələrinə görə, ruslar 842-ci ildə Qara dənizin cənubundakı Propontida vilayətinə yürüş edərək bu vilayəti tamamilə talan etmişdilər. 860-cı ilin yayında isə ruslar gəmilərlə Konstantinopolun ətəklərinə çıxaraq bu şəhərin talan edilməsinə başladılar. Ruslar bu şəhərin talanmasına girişdikləri günlərdə Bizans qoşunları ərəb qoşunlarına

qarşı müharibəyə cəlb edilmişdi. Ona görə də müdafiəsiz qalan şəhər ruslar tərəfindən amansızlıqla talandı. Bu talanların qarşısını almaq üçün Bizans imperatoru III Mixayil hərbi səfərdən geri qayıdaraq ruslarla saziş bağladı və onları geri qayıtmağa razı sala bildi. Amma ruslar talan etdiklərini heç də geri qaytarmadılar və böyük sərvətlə geriyə üz tutdular (18).

Qeyd etmək lazımdır ki, qədim rusların Azərbaycan üzərinə yürüşləri də hərbi qənimət əldə edilməsi üçün həyata keçirilirdi və bu yürüşlərin necə həyata keçirilməsi üçün onlarda artıq böyük təcrübə toplanmışdı.

Hələ mərkəzləşdirilmiş Rus dövlətinin təşkilindən əvvəl qədim ruslar gəmiqayırma sahəsində də ciddi təcrübə əldə etmişdilər. Sıx meşələrin mövcudluğu, dəmir alətlərindən daha yaxşı istifadənin mənimsənilməsi uzun dəniz səfərlərinə çıxa biləcək gəmilərin hazırlanmasına imkan verirdi. Qədim rusların hazırladıqları gəmilər "skediya", "lodya" və "korabl" adlanırdı (19). Onların da arasında lodya (ladya) daha çox işlənilirdi. Qədim ruslar gəmilərin hazırlanmasında ilk vaxtlar tək bir ağacın ortasının yonulması təcrübəsindən istifadə edirdilər. Bunun üçün onlar böyük palıd və ya cökə və ya gəmiçilik üçün münasib olan ağacın qalın oduncaq hissəsini kəsir, onu ortadan uzununa ikiyə bölür və sonra da daxilini ovmaqla onlardan gəmi düzəldirdilər. Belə gəmilərin ilk nümunələri "monoksilion" adlanırdılar. Sonralar bu gəmilər "lodya" adı ilə məşhur oldular. Lodya gəmiləri IX-X əsrlərdə də rus gəmiçiliyinin əsasını təşkil edirdi və rusların Azərbaycan üzərinə hərbi yürüşünün də bu gəmilərdə həyata keçirmələri şübhə doğurmamalıdır. Mənbələrin verdiyi məlumatlara görə, qədim Rus dövlətinin formalaşdığı dövrlərdə rus meşələrində lodya düzəldilməsi üçün çox münasib olan böyük diametrli ağaclarla rastlaşmaq mümkün idi. Bu gəmilərin ən sadə variantlarının içərisinə 8 baş at və o qədər də adam yerləşdirmək mümkün imiş. Başqa mənbələrin məlumatına görə isə, Bizans üzərinə hücum zamanı rus lodyalarına 40-60 nəfər adam yerləşdirmək mümkün idi (20).

Nəqliyyat imkanlarının artırılması üçün sonradan lodyalar daha da təkmilləşdirildilər. Onun yük götürmə qabiliyyətinin artırılması üçün gəminin kənar bortlarına əlavə taxta lövhələr vuruldu və bortların hündürlüyü artırıldı. Bu gəmilərə yelkən mexanizmlərinin quraşdırılması və onların yükdaşıma qabiliyyətinin daha da artırılması da gəmiqayırmanın sonrakı inkişaf mərhələsinə aiddir. Gəmilər kürəklər və yelkən vasitəsilə hərəkətə gətirilirdi. Heç şübhəsiz ki, Azərbaycan üzərinə yürüşlərdə də ruslar yelkənlər və uzaq gəmiçiliyə təminat verəcək digər alətlər quraşdırılmış lodyalardan istifadə etmişdilər.

Bəzi mütəxəssislərin fikrincə isə, qədim ruslar Azərbaycan üzərinə yürüşdə "şneker" tipli gəmilərdə gələ bilərdilər. Bu gəmilər də yelkən və kürəklər vasitəsilə hərəkətə gətirilirdi. Belə gəmilərin uzunluğunun 20-24 metrə, eninin 4,2-5,1 metrə çatdığı bildirilirdi. Güman edilirdi ki, bu tipli gəmilər öz göyərtəsində 100 nəfərə qədər döyüşçü daşıya bilərdi (20a)

Göstərilən dövrdə Rus dövlətinin hərbi-dəniz qüvvələri ayrıca bir qoşun növü kimi hələ formalaşmamışdı. Bu dövrün dəniz yürüşlərində rusların istifadəsində olan gəmilər daha çox nəqliyyat vasitəsi rolunu oynayırdı. Gəmilər özləri isə dəniz döyüşlərinin aparılmasına hazır olmadığı kimi, dəniz döyüşlərini aparmaq təcrübəsində olan hərbi kontingent də formalaşmamışdı. Gəmilər knyazların rəhbərliyi altında olan piyada qüvvələrinin daşınmasına xidmət edirdi. Səfər edilən məntəqədə döyüşü də quruya çıxmış bu dəstələr aparırdılar. Bu sahədə ruslar hələlik ənənəvi rəqibləri olan bizanslılardan geri qalırdılar. Məsələn, 941-ci ildə Knyaz İqor tərəfindən Bizans üzərinə təşkil edilən hərbi yürüşdə rus gəmiləri çox böyük itkilərlə üzləşdilər. Çünki Bizans gəmiləri dənizdə döyüş üçün uyğunlaşdırılmışdılar. Onlar "yunan odu" deyilən yanar əşyaların düşmən gəmilərinə atılması təcrübəsinə yiyələnmişdilər. Gəmilərin qarşı hissəsində quraşdırılmış trubkalar vasitəsilə bu yanar əşyalar düşmən gəmisinə atılır və bununla barıtın kəşf edilməsindən əvvəl bu üsulla qarşı tərəfin gəmiləri məhv edilirdilər (21). Başqa sözlə,

bu gəmilər dəniz döyüşünə hazırlanmışdılar. Rus gəmiləri isə belə bir döyüşü aparmaq qabiliyyətinə malik deyildi.

Rus qoşunlarının Bərdə üzərinə hücumu haqqında olan məlumatlardan da görmək mümkündür ki, rus gəmiləri piyadaların daşınmasına xidmət edirdi. Gəmilərdə isə yaxşı halda ayrıca avar çəkənlər ola bilərdi. Doğrudur, Bərdə üzərinə yürüş zamanı Kür çayının şəhərə yaxın bir nöqtəsində lövbər salmış gəmiləri qoruyan ayrıca bir dəstənin də olduğu bildirilir. Amma bu dəstənin də hərbi dəniz qüvvələri ilə bir bağlılığı yox idi.

Mövcud məlumatlar da onu göstərir ki, Qədim Rus dövlətinin hərbi qüvvələrinin əsasını piyadalar təşkil edirdilər. Bu qüvvələr kifayət qədər təşkilatlanmış və döyüşkən qüvvələr idi. Qədim Rus dövləti dövrünün digər dövlətləri kimi, hərbə dayaqlanan dövlət idi. Mərkəzləşdirilmiş Rus dövlətinin meydana gəlməsi də hərbi mübarizənin məntiqi nəticəsi idi. Onun da mövcudluğu, ətraf təhdidlərdən qorunması üçün güclü hərbi qüvvələrə ehtiyac var idi. Ona görə də hərbi qüvvələr Rus dövlətinin həyatında mühüm rol oynayırdı və onun formalaşdırılmasına böyük diqqət yetirilirdi.

Mövzu ilə bağlı maraqlı məlumatları özündə əks etdirən fars və ərəb dilli mənbələrin çoxunda ruslar igid, cəsur, hərbə bağlı insanlar kimi təsvir edilmişlər. Məsələn, ibn Fədlan bildirirdi ki, ruslar kimi mükəmməl bədənə malik insanlarla qarşılaşmamışdır. Onun yazdığına görə, hər bir rusun baltası, qılıncı və bıçağı vardır və onlar bu silahlardan heç vaxt ayrılmırlar (22).

İbn Rusta adlı ərəb tarixçisi isə yazırdı ki, onlar igid və cəsurdurlar, əgər başqa bir xalqın üzərinə hücum etsələr, onları məhv etməsələr əl çəkmirlər. Onun sözlərinə görə, ruslar uca boyludurlar, hücum zamanı qorxmurlar. Ancaq onlar at üzərində hünər göstərə bilmirlər və onlar bütün yürüşlərini gəmilərlə həyata keçirirlər ( 23).

Qədim rusların Bərdə üzərinə yürüşü haqqında daha geniş yazmış İbn Miskaveyhin əsərində də rusların hərbi keyfiyyətləri haqqında maraqlı məlumat mövcuddur. O da bildirirdi

ki, ruslar böyük bədən quruluşuna malikdirlər, döyüşə girəndə geri qaçmırlar, silah daşımaq onların adətidir. İbn Miskaveyh rusların silahları haqqında da müəyyən məlumatları ortaya qoyur. O da təsdiq edirdi ki, ruslar həm silah gəzdirirdilər, həm də tikinti alətlərinə malik olurdular. Qədim rusların silahları İbn Miskaveyhin fikrincə, aşağıdakılardan ibarət idi - qılınc, nizə, xəncərə oxşayan silah, çomaq və nizə. Məişət əşyalarından isə onlar özləri ilə balta, çəkic və mişar gəzdirərdilər. Müəllif eyni zamanda onu da bildirirdi ki, ruslar daha çox piyada döyüşməyə üstünlük verirlər. Bu mənada o, gəmilərlə yürüşə çıxanların piyada kimi üstünlüklərinə də işarə edirdi: "Bu xalq əzəmətlidir, bədən quruluşları böyükdür, igidlikləri çoxdur, onlar qaçmaq bilmirlər, onlar öldürməsə və ya öldürülməsə heç biri geri qaçmırlar. Onların adətinə görə hər kəs silah daşımalıdır. Onlar öz üzərinə sənətkar alətlərinin çoxunu asırlar, o cümlədən, balta, mişar, çəkic və onlara oxşar olan şeylər. Onlar nizə və şitlərlə döyüşürlər, bellərinə qılınc bağlayırlar, üzərinə çomaq və xəncərə oxşayan silah asırlar. Və onlar piyada döyüşürlər, xüsusi ilə (gəmidə) gələnlər" ( 24).

Bu məlumatlar da göstərir ki, hərb işi ruslar arasında mərkəzləşdirilmiş dövlətin yaranmasından hələ xeyli əvvəl təşəkkül tapmağa başlamışdı. Bölgədə mövcud olan rus-slavyan knyazlıqlarının hər birinin özünün silahlı dəstələri var idi və bu dəstələr hətta xarici hərbi yürüşlərdə də iştirak edirdilər. Mərkəzləşdirilmiş Rus dövlətinin yaradılması, çoxlu sayda tayfaların bir bayraq altına gətirilməsi, yeni dövlət daxilində vergi sisteminin təşəkkülü, iqtisadi fəallığın artması isə rus-slavyan knyazlarına imkan verdi ki, hərbi qüvvələrin sıraları artırılsın və onlar daimi döyüş hazırlığı vəziyyətində saxlanılsın. Mövcud məlumatlara əsasən, ruslar arasında hərbi dəstələr ilkin olaraq tayfa əlaməti üzrə təşkil edilirdi (25). Belə hərbi dəstələrlə köçəri tayfaların qədim slavyanlar üzərinə talançı yürüşlərinin qarşısını da almaq mümkün olardı. Sonradan isə hərbi dəstələr slavyan knyazlarının maraqları çərçivəsində digər vəzifələrin icrasına da cəlb edilməyə başlandı.

Mərkəzləşdirilmiş Rus dövlətinin təşkili dövründə qədim ruslar arasında qoşunların təşkilinin və idarəçiliyinin müəyyən bir təcrübəsi formalaşmışdı. Rus dövlətinin qoşunları drujinalardan və "voy"lardan (voin - sözündəndir) ibarət idi. Drujinalar atlılardan, "voy"lar isə piyadalardan təşkil olunurdu. "Voy"lar qoşunların əsasını və böyük hissəsini təşkil edirdi. Drujinalar isə böyük və kiçik drujinalardan ibarət idi. Böyük drujinalar knyaz "muj"larından və ya boyarlardan təşkil olunurdu və onlar da dəstələrə bölünürdü. Boyarlar sülh dövründə knyaz yanında hərbi şuranı təşkil edirdilər və onlar qoşunların idarəçiliyində öz məsləhətləri ilə iştirak edirdilər. Qoşunların baş komandanı dövlətin böyük knyazı idi. Kiçik drujina isə knyazın mühafizə dəstəsi idi. Mövcud məlumatlardan belə bir qənaətə gəlmək olar ki, kiçik drujinalar daimi qoşun dəstələri idi və onların silahı, təchizatı, atları, geyimləri knyaz tərəfindən təmin edilirdi (26).

Uzaq hərbi yürüşlərin həyata keçirilməsi üçün ruslar müttəfiq və muzdlu qoşunları da cəlb edirdilər. Belə yürüşlərdə peçeneqlərin və poloveslərin dəstələrinin iştirakı daha tez-tez baş verirdi. Rus qoşunlarının Azərbaycan üzərinə hərbi yürüşlərində də muzdlu dəstələrin iştirakı ehtimal oluna bilər.

Qoşunların böyük hissəsini təşkil edən "voy"lar min nəfərlik dəstələrə, onlar yüz nəfərlik dəstələrə, onlar isə on nəfərlik dəstələrə bölünürdülər. Bu dəstələrin də hər birinin öz rəhbəri var idi. Bir çox hallarda minliklər ərazi prinsipi üzrə təşkil edilirdi. Yəni, verilmiş göstəriş əsasında şəhərlərdən və yaşayış məntəqələrindən min nəfərlik dəstə toplanırdı. İlk vaxtlar bu dəstənin rəhbəri dəstə daxilində aparılan məşvərətlərdən sonra seçilirdi. Sonralar isə minliklərin rəhbərinin seçilməsi böyük knyazların səlahiyyətinə aid edildi. Yüzlüklərin və onluqların rəhbərləri isə bu dəstələrin daxilində seçilirdi (27).

Rus qoşunları qılınc, nizə, bıçaq, balta, ox, gürz, toppuz, qalxan, zirehli geyim kimi silah və təchizatdan istifadə edirdilər (28). Bu silahlar qoşunların döyüş taktikasını müəyyənləşdirən əsas elementlər idi. Məlumdur ki, ilkin formalaşma

dövründə qoşunların əsasını piyadalar təşkil edirdilər. Hətta atlar da ilk vaxtlarda qədim rus döyüşçüləri üçün daha çox nəqliyyat vasitəsi idilər. Atlar vasitəsilə onlar döyüş meydanına yetişəndən sonra piyada olaraq döyüşə girişirdilər (29).

Döyüşləri adətən ox atanlar başlayardı. Qədim rus döyüşçüləri uzaq məsafədən düşmənə ilk zərbəni vurduqdan sonra nizəçilər dəstəsi ön xəttə çıxarılardı. Onların zərbəsindən sonra isə döyüş qılıncla və digər əlbəyaxa döyüş silahları ilə davam etdirilərdi. Qədim Rusda zirehli mühafizə geyimlərinin istehsalı də mənimsənilmişdi. Rus döyüşçüləri dəbilqədən, taxtadan düzəldilmiş və üzərinə dəri çəkilmiş qalxandan və zirehli mühafizə geyimlərindən istifadə edirdilər.

Azərbaycan ərazisinə hərbi yürüşdə iştirak edən rus döyüşçüləri sözsüz ki, yalnız piyadalar idi. Şübhə yoxdur ki, bu yürüşdə onlar qədim Rus qoşunlarının əsas silahları olan ox, nizə, qılınc, balta, gürz, qalxan, dəbilqə, zirehli geyim, toppuz və digər silahlarla silahlanmışdılar. Bu silahlar onlara həm döyüşü yüksək səviyyədə aparmaq imkanı verirdi, həm də həmin silahları uzaq məsafələrə daşımaq asan olurdu.

## 2. Qədim Rus qoşunlarının yürüşləri dövründə Azərbaycan ərazisində hərbi-siyasi şərait

Qədim Rus qoşunlarının yürüşləri dövründə Azərbaycan ərazisində kifayət qədər qeyri-sabit hərbi-siyasi şərait mövcud idi. Bu da ərəb xilafətinin zəifləməsi və bunun nəticəsi kimi, əyalətlərdə, o cümlədən Azərbaycan ərazisində müstəqilləşmə meylinin güclənməsi idi. Əyalətlərə təyin edilmiş hakimlər xilafətin zəifləməsindən istifadə edərək ondan qopmağa çalışır və bunun üçün hətta xilafət mərkəzi ilə hərbi müxalifətə getməkdən də çəkinmirdilər.

Heç şübhəsiz ki, bu müstəqilləşmə prosesi nizamsız şəkildə baş vermirdi. Ərəb xilafəti kimi bir dövlətə qarşı çıxmaq üçün yerli hakimlər ilk növbədə güclü hərbi qüvvəyə arxala-

nırdılar. Belə qüvvələrin toplanması və saxlanması üçün isə böyük maliyyə ehtiyatları tələb olunurdu. Ona görə xilafətin əyalət hakimlərinin, o cümlədən Azərbaycana təyin edilmiş hakimlərin mərkəzə qarşı itaətsizliyi özünü ilk növbədə yerlərdə toplanan vergilərin mərkəzə göndərilməsinin dayandırılmasında, sonra da ətraf ərazilərə hərbi yürüşlərin təşkil edilməsində göstərirdi (30).

Müstəqilləşmənin mühüm elementlərindən biri güclü hərbi qüvvələrin mövcudluğu idi. Çünki yalnız güclü hərbi qüvvələrlə xilafət qoşunlarını məğlub etmək və bununla da xilafətə asılılığı qırmaq mümkün olardı. Ona görə də, ərəb xilafətindən müstəqilləşmə əyalətlərdə, o cümlədən də Azərbaycan ərazisində hərbi-siyasi fəallıqla müşayiət olunurdu. Nəticədə IX-X əsrlərdə meydana gəlmiş bir neçə müstəqil dövləti hərbi-feodal dövləti kimi də xarakterizə etmək olar. Siyasi, iqtisadi və digər məqamlara toxunmadan həmin dövlətlərin mövcudluğu daha çox hərbi gücdən asılı idi. Nə qədər ki, bu dövlətlər zəruri hərbi gücə malik idilər, o qədər də onlar öz mövcudluğunu qoruyub saxlamaq imkanlarını özlərində saxlayırdılar.

Ərəb xilafətinin zəifləməsi və müstəqilləşmə meyllərinin güclənməsi nəticəsində Azərbaycan ərazisində yaranmış dövlətlərdən biri Şirvanşahlar dövləti idi. Bu dövlətin müstəqilləşməsi Məzyədilər sülaləsindən olan ərəb hakimlərinin adı ilə bağlıdır. Həmin nəslin bir neçə nümayəndəsi Azərbaycan ərazisində ərəb xilafətinin təmsilçisi olmuşdular. Malik olduqları imkanlardan istifadə etməklə Azərbaycanda hakim olan Məzyədi nümayəndələri VIII əsrin ikinci yarısında Aran və Şirvanda böyük torpaq sahələri ələ keçirmişdilər (31).

Məzyədilər nəslinin ilk nümayəndələrindən olan Yəzid ibn Məzyəd dünyasını dəyişdikdən sonra onun oğlu Əsəd Şirvana canişin təyin edildi. Sonra onun qardaşı Xalid xilafət tərəfindən Azərbaycan və Ərməniyyənin hakimi təyin edildi. Şirvanın müstəqil dövlət kimi formalaşması isə onun oğlu Heysəm ibn Xalidin adı ilə bağlıdır. 861-ci ildə xəlifə Mütəvəkkilin dünyasını

dəyişməsi xilafət daxilində qarışıqlıqlara səbəb oldu və mərkəzləşdirilmiş dövlət öz gücünü kifayət qədər itirdi. Bundan istifadə edən Heysəm ibn Xalid 861-ci ildə Şirvanın müstəqilliyini elan etməklə özünə Şirvanşah titulu qəbul etdi (32).

İlk vaxtlar Şivanşahlar dövlətinin sərhədini cənubda Kür çayı, şimalda Samur çayı və Dərbənd şəhəri, qərbdə Göyçay və Şəki, şərqdə Xəzər dənizin təşkil edirdi. Amma bu sərhəd xətti sabit deyildi. Müxtəlif vaxtlarda Şirvanşahlar dövlətinin sərhədi genişlənir, bəzi vaxtlarda isə bu sərhəd kiçilirdi. Bəzi vaxtlarda Şəki, Beyləqan və Bərdə də Şirvanşahların tabeçiliyində olmuşdu. Əvvəlcə Şirvan şəhəri, X əsrin əvvəllərindən başlayaraq isə Yəzidiyyə (Şamaxı) şəhəri Şirvanşahlar dövlətinin paytaxtı olmuşdu (33).

Müxtəlif vaxtlarda Dərbənd Şirvanşahların tərkibinə daxil olmuş, müəyyən vaxtlarda isə Dərbənd əmirliyi müstəqil olaraq Şirvanşahların sərhədindən kənarda qalmışdı. 861-ci ildə xəlifənin ölümündən sonra yaranan qarışıqlıqlar zamanı Dərbənd hakimi Haşim ibn Suraqa əl-Sulami də Dərbəndin müstəqilliyini elan etmişdi. Amma sonradan Şirvanşah hakimləri Dərbəndi öz sərhədləri daxilinə sala bilmişdilər (34)

Şirvanşahlar dövlətinin sərhədlərinin sabitliyinin qorunması ilk növbədə dövlətin hərbi gücü ilə bağlı idi. Ona görə də, Məzyədilər bu məsələyə xüsusi diqqət yetirirdilər. Dövlətin hərbi qüdrətinin zəruri səviyyədə saxlanması üçün Məzyədilər Şirvan ərazisinə çoxlu sayda ərəb köçürmüşdülər. Yaxşı silahlanmış olan bu ərəblər Məzyədilərin tapşırıqlarını icra edirdilər və bunun əvəzində onlara böyük torpaq sahələri ayrılırdı (35).

IX əsrin sonu X əsrin əvvəllərində Şirvanşahlar güclənməkdə olan Sacilər dövlətindən vassal asılılığını və sacilərə vergi verilməsini qəbul etdi.

Qədim Rus qoşunlarının X əsrin əvvəllərində Dərbəndə və Xəzər boyu ərazilərə yürüşü zamanı Şirvanda Əli ibn Xeysam hakim idi və ruslara qarşı müqavimət də onun rəhbərliyi altında təşkil olunmuşdu.

X əsrin əvvəllərində Azərbaycan ərazisində meydana gələn hərbi-feodal dövlətlərindən biri də Sacilər dövləti idi. Bu dövlətin meydana gəlməsi də ərəb xilafətinin zəifləməsindən istifadə edən yerli hakimlərin müstəqilləşmə meylinin nəticəsi idi. Sacilər dövlətinin təşəkkülü Azərbaycana hakim təyin edilmiş Sacilər nəslinin adı ilə bağlıdır. Sacilər nəslinin nümayəndələri xilafətin tanınmış sərkərdələrindən idilər və onlara çox zaman daha məsuliyyətli hərbi vəzifələr tapşırılardı. Bu nəslin nümayəndələrindən biri olan Məhəmməd ibn Əbu Sac 889-cu ildə xəlifə tərəfindən Azərbaycana hakim təyin edildi. Amma Azərbaycana gələndən sonra Məhəmməd ibn Əbu Sacda müstəqilləşmə və xilafətdən qopma meylləri yaranmağa başladı. Bu məsələdə Məhəmməd ibn Əbu Sac xilafətin müəyyən təzyiqləri ilə qarşılaşsa da öz niyyətindən əl çəkmədi və hətta ətraf əraziləri də öz hakimiyyəti altına gətirməyə başladı. Lakin onun hakimiyyəti uzun sürmədi. 901-ci ildə dünyasını dəyişdikdə onu bir müddət oğlu Divdad əvəz etdi. Sacilər dövlətinin müstəqil dövlət olaraq formalaşması isə Məhəmməd ibn Əbu Sacın qardaşı Yusif ibn Əbu Sacın adı ilə bağlıdır. Qardaşı oğlunun hakimiyyəti ilə barışmayan Yusif ibn Əbu Sac onun üzərinə qoşun çəkdi və onu hakimiyyətdən kənarlaşdırdı. Yusif ibn Əbu Sacın hakimiyyəti dövründə Sacilər dövlətinin sərhədi qərbdə Ani və Dvin şəhərlərinə, şərqdə Xəzər dənizinə, cənubda Zəncana, şimalda isə Dərbəndə qədər uzanırdı (36). Müstəqillik elan edildikdən sonra dövlətin paytaxtı Ərdəbil şəhərinə keçirildi.

Yuxarıda qeyd edildiyi kimi, Sacilər dövləti hətta Şirvanşahlar dövlətini də vassal asılılığına sala bilmişdi. Buna görə də, Sacilərin şimal sərhədi Dərbəndə qədər uzanırdı. Əslində, Sacilər dövründə Azərbaycan torpaqları demək olar ki, bütünlüklə vahid dövlət tərkibinə salınmışdı.

Lakin konkret tarixi şəraitdə bu hərbi uğuru qoruyub saxlamaq elə də asan deyildi. Bunun üçün Sacilərə inkişaf etmiş dövlət strukturları, güclü iqtisadiyyat və güclü qoşun lazım idi.

Müxtəlif istiqamətlərdən Azərbaycan ərazilərinə yönəlmiş hərbi təhdidlərin qarşısını yalnız güclü qoşunlarla almaq mümkün idi.

İlk növbədə xilafət rəhbərliyi Sacilər dövlətinin əhatə etdiyi böyük bir ərazinin nəzarət altından çıxması ilə barışmadı. 918-ci ildə xəlifə Müqtədirin əmri ilə Xaqan əl-Muflihin rəhbərliyi altında Azərbaycana qarşı 20 minlik qoşun dəstəsi göndərildi. Bu qoşun dəstəsi Yusif ibn Əbu Saca ciddi zərbə vurmaqla Azərbaycan ərazisində xilafət hakimiyyətini bərqərar etməli idi. Amma Yusif 7 min nəfərlik qoşun dəstəsi ilə xilafət qoşunlarını məğlub etdi, xilafət qoşunlarının bir neçə sərkərdəsi əsir götürüldü. Az saylı qoşun dəstəsi ilə böyük sayda olan xilafət qoşunlarının məğlub edilməsi heç şübhəsiz ki, Sacilərin qoşunlarının yüksək döyüş hazırlığından xəbər verirdi. Yusif döyüşdə uğurlu taktika işlətməklə üstünlüyü ələ ala bildi. Amma xilafət rəhbərliyi bu vəziyyətlə razılaşmadı. Bir il sonra, yəni 919-cu ildə Yusifin üstünə yeni bir qoşun dəstəsi göndərildi. Bu dəfə qoşun dəstəsinə Munis adlı xilafət sərkərdəsi rəhbərlik edirdi. Təcrübəli bir sərkərdə kimi Munisə bu döyüşdə böyük ümidlər bağlanılırdı. Lakin bu ümid də doğrulmadı. Yusif ibn Əbu Sacın rəhbərliyi altında olan qoşun dəstəsi bu dəfə də xilafət qoşunlarına güclü zərbə vurdu və Sacilərin müstəqilliyini qoruya bildi (37).

Belə bir vəziyyət sözsüz ki, xilafət rəhbərliyini razı salmırdı və xilafətin parçalanmasının qarşısının alınması üçün yeni bir cəhd göstərildi. Məğlubiyyətə uğramış olan sərkərdə Munis daha böyük qoşun dəstəsi toplayaraq bir neçə aydan sonra yenidən Yusifin üstünə qoşun çəkdi və son dərəcə gərgin keçən bu döyüşdə Saci qoşunlarını üstələməyə müvəffəq oldu. Yusif ibn Əbu Sac ərəb qoşunların əsir düşdü və təxminən üç il ərəb əsirliyində qaldı.

Əldə edilmiş qələbə heç də Azərbaycan üzərində xilafətin tam hakimiyyətini bərpa etmədi. Burada baş verən qarışıqlıqların qarşısının alınması və Azərbaycanda vəziyyətin sabit-

ləşdirilməsi üçün Yusif ibn Əbu Sacın əsirlikdən azad edilməsi və Azərbaycana göndərilməsi qərar alındı. Xilafət tərəfindən belə bir qərar 922-ci ildə qəbul edildi. Xəlifə Müqtədir bununla bağlı şəxsən özü Yusifi qəbul etdi, onun şərəfinə ziyafət verdi və onu müxtəlif hədiyyələrlə mükafatlandırdı. Bu təyinatdan sonra Yusif yenidən Azərbaycana qayıtdı (38).

Amma xilafət daxilində cərəyan edən proseslər Yusifdə müstəqilləşmə meylini heç də zəiflətmədi. Digər tərəfdən xilafət rəhbərliyində də Yusif tərəfindən Azərbaycanda xilafət hakimiyyətinin etibarlı şəkildə bərqərar ediləcəyinə ciddi bir inam yox idi. Ona görə, bir müddətdən sonra Yusif müvəqqəti olaraq Azərbaycandan uzaqlaşdırıldı və o, ikiçay arası bölgədə xilafət hakimiyyətinə qarşı üsyan qaldırmış qüvvələrə qarşı göndərildi. Yusifin rəhbərlik etdiyi qoşun dəstəsi 927-ci ilin sonlarında Kufə yaxınlığında qiyamçı qüvvələrlə döyüşdə məğlub oldu. Yusif özü isə yaralanaraq əsir götürüldü və öldürüldü.

Yusifin ölümündən sonra Sacilər dövləti də zəifləməyə başladı. Ondan sonra dövlətə rəhbərlik edənlər Sacilərin əvvəlki qüdrətini özünə qaytara bilmədilər və 942-ci ildə bu dövlət süqut etdi.

Həmin il Gilan vilayətində məskunlaşmış Saları tayfasının üzvlərindən olan Mərzban ibn Məhəmmədin rəhbərliyi altında olan qoşun dəstəsi sonuncu Saci hakimi olan Deysəmin rəhbərliyi altında olan qoşun dəstəsini məğlub etdi. Bu qoşun dəstələri Təbriz yaxınlığında üzbəüz gəldilər. Saci qoşunları əvvəlcə bu şəhərdə mühasirəyə alındılar. Sonradan Saci hakimi Deysəm gizlicə Ərdəbilə yollanaraq orada müdafiə olunmaq istədi. Mərzban bundan xəbər tutub qoşun dəstəsi ilə Ərdəbilə yollandı. Burada uzunmüddətli mühasirə Ərdəbil sakinlərini də Sacilərdən narazı hala saldı və bu da əslində, mühasirənin taleyini həll etdi (39).

Bununla, Sacilərin hakimiyyətinə son qoyuldu və Azərbaycan Salarilərin hakimiyyəti altına düşdü. Bu dövlətin ilk hakimi olan Mərzban mənbələrdə tədbirli və cəsur bir hakim

kimi xatırlanır. Onun hakimiyyəti illərində Azərbaycanın ərazisi ilə bərabər, müəyyən ətraf ərazilər də bu dövlətin tərkibinə qatıldı. Şirvanşahlar dövləti yenidən vergi verməyə məcbur edildi və ona görə də Salarilərin şimal sərhədi Dərbəndə çatdı. Bu dövlətin də paytaxtı Ərdəbil şəhəri idi.

Rus qoşunlarının Bərdə üzərinə dağıdıcı yürüşü də Salarilərin hakimiyyətinin ilk illərinə təsadüf edir. Amma bu hakimiyyət də uzun müddət mövcud ola bilmədi. 981-ci ildə Salarilər dövləti Rəvvadilər dövləti ilə əvəz olundu. Həmin dövlətin qurucusu Salari dövlətinin vilayət hakimlərindən biri olan Əbülheyca Rəvvadi idi. Yaranmış tarixi şəraitdən istifadə etməklə o, Salari hakimlərinə qarşı üsyan qaldırdı və hakimiyyəti ələ keçirdi.

Hakimiyyət uğrunda daxildə aparılan müharibələr, müxtəlif hakimlər arasında aparılan müharibələr dövrün xarakterik hərbi-siyasi xüsusiyyətlərindən biri idi. Bu müharibələr yalnız dövlətlərin daxili gücünü deyil, həm də onların xarici təhdidlərə qarşı müqavimətini zəiflədirdi. Ona görə Azərbaycanın IX-X əsr feodal dövlətlərində hərb işinə xüsusi diqqət yetirilirdi.

Azərbaycanın feodal dövlətlərinin yaranması və dağılması xilafətin dağılmaqda olduğu bir mühitdə baş verirdi. Onun üçün idi ki, bu dövlətlərin siyasi həyatında olduğu kimi, hərb işində də xilafətin təsiri duyulmaqda idi. Doğrudur, feodal hakimləri öz qoşunlarını daha da gücləndirməyə və təkmilləşdirməyə çalışırdılar. Ancaq bu proses mövcud təcrübə çərçivəsində baş verə bilərdi ki, burada da xilafətin hərb işinin təsiri güclü olaraq qalmaqda idi. Qoşunların idarəetmə sistemində, təchizatında, döyüş taktikasında xilafət təcrübəsini istisna etmək mümkün deyildi.

Dövlət hakimi qoşunların baş komandanı idi. Qoşunların təşkili, onların idarəçiliyi, istifadəsi hakimlərin iradəsi əsasında baş verirdi. Piyada və atlı qoşunlar əsas qoşun növlərini təşkil edirdilər. Atlı qoşunlardan istifadə sahəsində Azərbaycanın feodal dövlətlərində Qədim Rus dövlətinə nisbətən daha zəngin

təcrübə mövcud idi. Qoşunların sürəti, çevikliyi atlı dəstələrlə bağlı idi və döyüş taktikasının formalaşmasında da atlı dəstələrə xüsusi yer ayrılırdı.

Qoşunların təşkilində vilayət və tayfa prinsipi hələ də qalmaqda idi. Yəni, mərkəzdə formalaşdıırlan qoşun dəstələrindən əlavə, vilayətlərdə də vilayət hakimlərinin rəhbərliyi altında qoşun dəstələri formalaşdırılırdı və bu qoşun dəstələri dövlət rəhbərinin göstərişi əsasında müxtəlif vəzifələrin icrasına cəlb edilirdilər. Vilayət qoşunları həm də vilayətlərdə sabitliyin qorunmasına məsuliyyət daşıyırdılar. Qoşunların formalaşmasında tayfa prinsipinin mövcudluğu da mənbələrdə təsdiq olunur. Ərəb dilli mənbələrdə, Azərbaycanın feodal dövlətlərində kürd, deyləmi tayfa dəstələrinin mövcudluğundan xəbər verilir (40).

Amma qoşunların formalaşdırılmasında daha təkmil üsullardan da istifadə olunurdu. Bu üsullardan biri "qulam" dəstələrinin yaradılması idi. Qulam dəstələri daimi silahlı dəstələr idi və etibarlı dəstələrdən sayılırdılar. Qulamlar həyatını bütünlüklə hərb işinə bağlamaq istəyən azad insanlar içərisindən seçilir, təchiz edilir və xüsusi proqram üzrə hazırlaşdırılırdılar. Qulamlardan adətən atlı dəstələr təşkil edilirdilər və bu dəstələr hakimlərin tapşırıqlarını yerinə yetirirdilər. Qulam dəstələri hakimlərə etibarlılığı ilə seçilirdilər (41).

Qulam dəstələri bir çox hallarda kənar tayfaların üzvlərindən seçilirdilər ki, onların yerli əhali ilə xüsusi bir əlaqəsi olmasın. Məsələn, məlumdur ki, Azərbaycanın feodal dövlətlərində deyləmilərdən, varyaqlardan, oğuz-səlcuqlardan, qıpçaqlardan təşkil edilmiş qulam dəstələri var idi. Bu dövlətlərdə türk-qulamlara müəyyən üstünlük verilərdi. Çünki türklər həm döyüşkənliyi ilə, həm də tapşırılan vəzifəyə sədaqəti ilə seçilərdilər (42).

Azərbaycan ərazisində hətta rus-slavyanlardan ibarət qulam dəstəsinin mövcudluğu haqqında məlumat vardır. Bu dəstə X əsrin sonlarına doğru Dərbənddə təşkil edilmişdi. Dər-

bənd hakimi Məymun ibn Əhməd özünün daha yaxşı mühafizəsini təşkil etmək üçün ruslardan ibarət qulam dəstəsi yaratmışdı. Onlar muzdlu döyüşçülər idilər və Dərbənd hakimindən maliyyə ödəncləri alırdılar (43).

Bundan başqa, feodal dövlətlərinin qoşunlarının təşkili üçün suluklardan (44) və muzdlu dəstələrdən (45) də istifadə edilirdi. Suluklar yerli hakimlərin və imkanlı adamların yanında təşkil olunmuş silahlı dəstələr idi. Bu hakimlər vəzifədən kənarlaşdırıldıqdan və ya müflis olduqdan sonra nəzarətsiz qalmış sulukların hərbi təcrübəsindən müəyyən hallarda istifadə olunurdu. Muzdlu dəstələr deyiləndə isə, kənar tayfalardan, o cümlədən Dağıstan tayfalarından təşkil olunmuş dəstələr nəzərdə tutulurdu.

Mənbələrdə feodal dövlətləri hakimlərinin qoşunlarında könüllü dəstələrin olması haqqında da məlumatlar vardır. Məsələn, rusların Bərdəyə hücumu zamanı bu şəhərin müdafiəsində 5 min nəfərlik könüllü dəstəsi də iştirak edirdi (46). Hətta bu dəstə şəhərin müdafiəsində olan deyləmilərin, kürdlərin və sulukların dəstəsindən təxminən on dəfə çox idi. Çox güman ki, könüllü dəstələr bu və ya digər təhlükəli hallarda müvəqqəti olaraq toplanmış qüvvələr idi. Bu dəstələr yəqin ki, fərdi ehtiyatlar hesabına təchiz edilirdi. Mövcud təhlükənin aradan qaldırılmasından sonra çox güman ki, bu dəstələr də buraxılırdı.

Qoşunların böyük hissəsini atlı dəstələr təşkil edirdi. Yuxarıda qeyd edildiyi ki, döyüşdə böyük sürətə, gözlənilməzliyə, çevikliyə nail olunması üçün atlı dəstələrə üstünlük verilirdi. Ehtimal edilir ki, atlı dəstələr ağır atlı dəstələrdən və yüngül atlı dəstələrdən təşkil olunmuşdular. Bu bölgü atlıların silahlandığı silahların xarakterindən asılı idi (47). Ağır atlıların tərkibində əsasən əyanlar, feodal ailələrinin üzvləri birləşirdilər və onlar daha təkmil hücum və müdafiə silahlarına və təchizatına malik olurdular. Xüsusilə, həm atlı, həm də atlar dəmir mühafizə geyimləri ilə təchiz edilirdilər. Bu cəhət onların çe-

vikliyinə təsir göstərsə də, döyüş qabiliyyətini xeyli artırırdı. Mövcud məlumatlara görə, feodal dövlətlərində yüngül atlıların sayı ağır atlıların sayından daha çox idi və ağır atlı dəstələri döyüşə gedərkən bir qayda olaraq yüngül atlı dəstələri tərəfindən müşayiət edilirdi.

Atlı dəstələrin atlarla təmin edilməsi üçün hakimlərin böyük at ilxıları var idi. Məsələn, mənbələrə görə, Şirvanşahın 4 min başlıq at ilxısı var idi. Çox güman ki, şahın malik olduğu bu ilxının atları ilə qvardiya və daimi dəstələr təmin edilirdilər. Çünki vilayətlərdə toplanan qoşun dəstələrinin təchizinə vilayət hakimləri məsuliyyət daşıyırdılar (48).

Piyadalar da Azərbaycanın feodal dövlətlərinin əsas qoşun növlərindən biri idi. Onlar da malik olduğu silahlara görə ağır və yüngül piyadalara bölünürdülər. Dəmir zirehli geyimlə mühafizə olunan piyadalar ağır piyadalar adlanırdılar. Onlar bir qayda olaraq qılınc, nizə, qalxan və digər silahlarla silahlanırdılar. Yüngül piyadalar isə dəri geyimlərlə mühafizə olunurdular (49).

Mənbələrdə Şirvanşahlar dövlətinin hərbi-dəniz qüvvələrinin olmasından da söhbət açılır. Elə Xəzər boyu ərazilərə yürüş edən rus qoşunlarına həm də Şirvanşahlar dövlətinin gəmiləri vasitəsilə müqavimət göstərildiyi bildirilir. Məlumatlara görə, rus gəmiləri ilə döyüşlər zamanı Şirvanşah özü də gəmilərin birində idi və öz gəmilərinin döyüşünə rəhbərlik edirdi (50).

Amma hərbi-dəniz qüvvələri hələ kifayət qədər formalaşmamışdı. Gəmilərdən daha çox nəqliyyat vasitəsi kimi istifadə olunurdu. Çünki ayrıca hərbi-dəniz döyüşlərinin aparılması üçün xüsusi dəstələrin mövcudluğu haqqında mənbələrdə və tarixi ədəbiyyatda məlumatlara rast gəlmək mümkün deyildir.

Azərbaycan feodal dövlətlərinin qoşunlarının mükəmməl idarəetmə strukturları mövcud idi. Yuxarıda deyildiyi kimi, dövlət hakimi qoşunların baş komandanı idi. Müharibələr və hərbi

yürüşlər zamanı qoşunlara o rəhbərlik edirdi. Müəyyən hallarda onu hərbi yürüşlər zaman vəliəhd əvəz edə bilərdi (51).

Feodal dövlətlərinin hakiminin yanında hərbi məsələlər üzrə idarəetmə orqan olan "divan-əl ceyş"in olması da ehtimal edilir. Mövcud məlumatlara görə, bu orqan feodal hakiminin nəzarəti altında olan işçi orqan idi və qoşunların toplanması, onların dislokasiyası, qoşun üzvlərinin maaşlarının və ya maaş əvəzi ödəmələrin təmin edilməsi işləri ilə məşğul idi (52). Bu orqan daimi işləyən bir aparat (qərargah) idi və onun mövcudluğu qoşunların təşkilini və idarə edilməsini daha da təkmilləşdirirdi.

Azərbaycanın feodal dövlətlərində bütün qoşunlara birbaşa rəhbərlik edən "sipəhsalar" (və ya əmir-sipəhsalar) adlı vəzifəli şəxs də mövcud idi (53). Bu vəzifənin sahibləri həm təşkilatçılığı, həm igidliyi, həm də nüfuzu ilə seçilən şəxslər idilər və qoşunların fəaliyyətinə rəhbərlik edirdilər.

Qoşunların strukturu minlik sistemi üzərində qurulmuşdu. Min nəfərlik qoşun dəstəsinin başçısı "kaid" (minbaşı) adlanırdı və bu dəstə yüz nəfərlik dəstələrə bölünürdü. Yüz nəfərlik dəstənin başçısına "naqib" deyilirdi (yüzbaşı). Yüz nəfərlik dəstə də on nəfərlik dəstələrə bölünürdü. Onların da rəhbərləri "arif" adlanırdı (54).

XI əsrin ikinci yarısından etibarən səlcuq qoşunlarının Azərbaycana hücumundan sonra Azərbaycanda türk dilli hərbi terminlər rəvac tapdı və yuxarıda sadalanan terminlər də tezliklə türk ifadələri ilə əvəzləndi.

Feodal dövlətlərində mövcud olan xüsusi hərbi dəstələrin özlərinin ayrıca rəhbərləri olmasını istisna etmək olmaz. O cümlədən, qala mühafizə dəstələrinin, sərhəd mühafizə dəstələrinin, istehkam dəstələrinin, neft dolu atəş qabları atanların (neftəndazların) və digərlərinin özlərinin rəhbərlərinin mövcudluğu şübhə doğurmaya bilməz.

IX-X əsrlərdə Azərbaycanda mövcud olan şəhərlərin demək olar ki, hamısı qala-şəhərlər idilər. Ümumiyyətlə, qala-şə-

hərlər orta əsrlər Azərbaycanında şəhərsalma mədəniyyətinin tərkib hissəsi idi. Bu üsulla tikilmiş şəhərlər qalın divarlarla əhatələnirdi və bununla şəhər əhalisi qəfil yadelli hücumlardan mühafizə olunurdu. Eləcə də düşmən dəstələrin güclü hücumları zamanı qala divarları arxasında etibarlı şəkildə müdafiə döyüşləri aparmaq mümkün idi. Dərbənd, Bakı, Gəncə, Şəmkir, Beyləqan, o cümlədən də rusların hücumuna məruz qalan Bərdə bu dövr Azərbaycanın güclü mühafizə olunan qala-şəhərləri idilər.

Düşmənlə mübarizə zamanı Azərbaycanın feodal dövlətlərinin qoşunları şəraitə uyğun gələn və uğuru təmin edən döyüş taktikası tətbiq edirdilər. Amma sözsüz ki, bu taktika qoşunların sayından, onların malik olduğu silahdan, qarşıya qoyulan vəzifədən, o cümlədən qarşı tərəfin imkanlarından asılı idi. Döyüşlərin qala-şəhərlər ətrafında aparılması öz taktikası ilə seçilirdi. Bütünlükdə isə, qoşunlarda müəyyən bir təcrübə formalaşmaqda idi. Məsələn, Saci qoşunları döyüşə qoşularkən ön xətdə piyadalar düzülürdü. Onlardan sonra isə atlılar döyüş mövqeyi tuturdular. Tarixi ədəbiyyatda bildirilir ki, döyüşün həlledici anında atlılar qarşıya keçib düşmən tərəfə qəfil və güclü zərbə endirirdi. Şirvan qoşunlarının düzülüşündə isə fərqli taktika tətbiq edilirdi. Qoşunların əsas hissəsinin qarşısında ön dəstə yerləşdirilirdi. Qoşunların əsas hissəsi isə mərkəzi hissədən, sağ və sol cinahlardan təşkil olunurdu. Tarixi ədəbiyyatda olan məlumata görə, salari qoşunlarında da döyüş düzülüşünün birinci xəttini piyadalar təşkil edirdilər. Bu piyadalar başlıca olaraq ağır piyadalardan ibarət olurdu. Onların arxasında isə oxatanlar və sapandçılar yerləşirdilər. Onlardan arxada isə atlı dəstələri düzülürdülər (55).

Belə döyüş düzülüşü çox illik təcrübəyə əsaslanırdı. Bir qayda olaraq döyüş oxatanlar tərəfindən başlanır və uzaq məsafədən düşmən tərəfə itkilər yetirilirdi. Sonra nizələr və cidalar vasitəsilə düşmənə zərbə vurulurdu. Bu məqamda sapandlardan, daş atan mancanaqlardan və uzaq məsafəni vura biləcək

digər silahlardan istifadə edilməsi də mümkün idi. İlk zərbədən sıraları seyrələn və itkilərlə qarşılaşan düşmən sonradan böyük sürətlə hərəkət edən atlı dəstələrinin hücumuna məruz qalırdı. Onların hücumu piyadaların döyüşə qoşulması ilə davam etdirilirdi.

Bir daha qeyd edilməlidir ki, hansı döyüş düzülüşünün, hansı döyüş taktikasının seçilməsi döyüşün açıq meydanda və ya qala-şəhər ətrafında aparılmasından xeyli dərəcədə asılı idi.

Feodal qoşunlarının döyüş taktikasına təsir edən mühüm elementlərdən biri sözsüz ki, onların malik olduğu silahlar idi. Bu qoşunlarda dövrün işlək silahlarının hamısının tətbiqi təcrübəsi var idi. Həmin silahların Azərbaycan ərazisində istehsalı təcrübəsi də mənimsənilmişdi. Azərbaycan həm silahların istehsalı, həm də at yetişdirilməsi mərkəzlərindən biri idi. Şirvanşahlar qoşunlarının ixtiyarında olan gəmilər də Azərbaycan ərazisində istehsal edilirdi. Bir sözlə, rus qoşunlarının Azərbaycan üzərinə yürüşü dövründə Azərbaycan ərazisində hərb işinin səviyyəsi Qədim Rus dövlətində olan səviyyədən heç də geri qalmırdı.

## 3. Qədim Rus qoşunlarının Azərbaycan üzərinə hərbi yürüşləri

IX əsrin sonlarından başlayaraq qədim rusların Xəzəryanı ərazilərə yürüşləri və səfərləri davamlı xarakter almağa başladı. Ehtimal edilir ki, bu səfərlərin belə davamlı xarakter alması rusların şərqlə ticarət əlaqələrin gücləndirmək istəyindən doğurdu. Bu səfərlər rus tacirlərinə imkan verirdi ki, şərqin böyük ticarət mərkəzləri ilə sıx əlaqələr yaransın. Xəzər dənizinə çıxış üçün əsas marşrut olan Volqa çayının başlanğıcının Baltik dənizi hövzəsinə qədər uzanması imkan verirdi ki, yalnız slavyanlar deyil Baltik dənizi hövzəsində yaşayan əhali də Xəzəryanı ərazilərlə ticarət əlaqələri qura bilsin. Moskva ətrafında və ondan şimal bölgələrdə qədim ərəb pullarının tapılması belə

ticarət əlaqələrinin qurulmasından xəbər verirdi. Rus tacirləri başlıca olaraq şimalda yaşayan bir çox heyvanların qiymətli dərilərini şərq bazarlarına çıxarırdılar. 885-ci ildə öz əsərini bitirmiş olan tarixçi İbn Xordadbeh yazırdı ki, slavyanlar "slavyan çayı" ilə (Volqa çayı) ilə Xəzərlərin paytaxtına gəlir, orada vergi verdikdən sonra Xəzər dənizinə çıxırdılar (56). Onların üz tutduqları əsas Xəzəryanı şəhərlər isə Xəzərin cənub vilayətləri olan Təbəristan və Mazandaran vilayətlərinin şəhərləri idi. Rus tacirləri bir qayda olaraq Xəzərin cənubunda yerləşən Curcan şəhərində lövbər salır, buradan isə öz yüklərini dəvələr vasitəsilə Bağdada yola salırdılar (57).

Görünür, bu səfərlər zamanı qədim ruslar Xəzər yanı şəhərlərin və vilayətlərin zəngin ərazilər olması ilə tanış oldular və sonradan onların Xəzər dənizin ilə həyata keçirilən səfərləri hərbi yürüşlərə çevrildi. Bu yürüşlər zamanı qədim ruslar Xəzəryanı məntəqələrə hücumlar edir və onları soyub-talayırdılar. Bu yolla onlar öz sərvətlərinin artırılmasına çalışırdılar.

Qədim rusların Xəzəryanı ərazilərə ilk talançı yürüşləri IX əsrin 60-80-ci illərində baş verdi. Bu barədə fars və ərəbdilli mənbələrdə müəyyən məlumatlar mövcuddur. XIII əsr tarixçisi İbn İsfəndiyar "Tarixi Təbəristan" əsərində rusların 864-cü ildə Xəzərin cənubuna talançı yürüş etdiyi haqda söhbət açır. Təəssüf ki, həmin məlumatlar əhatəli deyil və ona görə də bu yürüşlərin necə, hansı şəraitdə həyata keçməsi, yürüş edən rusların sayı, silahları barədə ətraflı təsəvvür əldə etmək mümkün deyil. Bildirilir ki, bu yürüşlər Təbəristanda Əlida əl-Həsən ibn Zeydin hakimliyi dövrünə təsadüf edirdi. Ruslar Astrabad körfəzində böyük liman mərkəzi olan Əbaskun adasına basqın etdilər və çox güman ki, bu şəhərə ziyan da yetirdilər. Mənbədə olan məlumata görə, Təbəristan əmiri dərhal bu basqının qarşısını almaq üçün ciddi tədbirlər gördü və bütün rusları qırdı(58).

Məlumatların kifayət qədər azlığı rusların Xəzərin cənubuna yürüşü haqqında fikir müxtəlifliyinin ortaya çıxmasına səbəb olmuşdur. Bəzi tədqiqatçılar həmin yürüşün Əlida əl-

Həsən ibn Zeydin Təbəristanda 864-884-cü illərdəki əmirliyi dövründə baş verdiyini iddia edirlərsə, bəziləri də 864 və 884-cü illərdə iki yürüşün baş verdiyini ehtimal edirlər. Onların fikrincə, həmin illərdə həyata keçirilən bu yürüşlər sadəcə talançı yürüşlər deyildilər və onların məqsədi bölgədə rus ticarət maraqlarına yaradılmış təhlükənin aradan qaldırılması ilə bağlı ola bilərdi. Bu fikrə əsas kimi, bildirilir ki, 867-ci ildə Təbəristan xilafətdən qopduqdan sonra bu vilayətin qoşunları bölgənin böyük ticarət şəhərləri olan Qurqan, Rey və Qəzvin şəhərlərini ələ keçirdilər. Mənbələrin verdiyi məlumatlara görə, həmin şəhərlər rus tacirlərinin dayaq mərkəzləri idi və ehtimal edilir ki, IX əsrin sonundakı yürüşlər də bu şəhərlərdə rus ticarət maraqlarının qorunması üçün baş verə bilərdi (59).

İbn İsfəndiyarın "Tarixi Təbəristan" əsərində qədim rusların Xəzəryanı ərazilərə növbəti yürüşünün 909-910-cu illərdə baş verməsi haqqında məlumat vardır. Bu məlumat da geniş deyil. Bununla belə, müəllifin yazdıqlarından rusların Xəzəryanı ərazilərə yürüşlərinin artıq davamlı hal alması haqqında müəyyən təsəvvürlər əldə etmək mümkündür. Eyni zamanda əgər əvvəlki yürüşlərin müəyyən ticarət maraqları ilə bağlı həyata keçirilməsi haqqında fikirlər irəli sürülürsə, 909-cu ildə baş verən yürüşün talançı yürüş olması artıq şübhə doğurmur. Mənbədən əldə edilən məlumatlara görə, bu yürüş payızda baş verdi. Ruslar 16 gəmidə yürüşə çıxmışdılar. Rusların sonrakı yürüşləri ilə müqayisədə 909-cu ildə baş verən yürüşdə daha az saylı dəstə iştirak edirdi. Özü də məlum olur ki, bu yürüş ruslar qarşılarına konkret məqsəd qoyublarmış – Əbaskun adasını talamaq. Ona görə də, onlar birbaşa Əbaskuna doğru hərəkət etdilər, bu adanı taladılar və sonra da sahilə çıxdılar. Mənbədə olan məlumata görə, Sari vilayətinin hakimi Əhməd bin əl-Qasım tezliklə Samani dövlətindən yardım alıb gecə ikən Muğan düzü ətrafında rusların üzərinə hücum etdi və onları məğlub etdi (60).

Bu məlumatdan belə bir qənaətə gəlmək olar ki, ruslar Əbaskun adasına talançı yürüşü həyata keçirəndən və çoxlu

sərvət ələ keçirəndən sonra dərhal geri qayıtmadılar və sahilə çıxaraq bir müddət orada qaldılar. Çünki Sari hakimi Əhməd bin əl-Qasımın Xəzərin şərqində formalaşmış Samani dövləti ilə əlaqə yaratması və bu dövlətdən hərbi yardım alması üçün müəyyən vaxt tələb olunurdu. Digər tərəfdən rusların Muğan çölü yaxınlığında məğlub edilməsi xəbəri rusların hətta Xəzər sahillərindən uzaqlaşması barədə müəyyən ehtimallar yaradır. Diqqəti cəlb edə biləcək məqamlardan biri isə odur ki, ruslar sonradan Bərdə üzərinə yürüşdən sonra da dərhal geri qayıtmadılar və bir müddət orada qalmağı qərarlaşdırdılar. Rusların talançı yürüşlərinin belə təxirlə başa çatdırılmasının səbəbləri barəsində dövrün mənbələrində aydın bir fikir mövcud deyil.

İbn İsfəndiyar xəbər verir ki, sonrakı il ruslar yenidən Xəzərin cənubuna talançı yürüş etdilər. Ruslar "böyük sayda gəldilər, Sarini və Xəzərin Pəncək vilayətini yandırdılar, adamları əsir götürdülər və tələsik dənizə uzaqlaşdılar. Deyləmənin Çeşmruduna çatanda onların bir hissəsi sahilə çıxdı, bir hissəsi isə dənizdə qaldı. Gillər gecə dənizin sahilinə gəldilər, gəmiləri yandırdılar və sahildə olanları öldürdülər. Dənizdə olanlar isə qaçdılar" (61).

Görünür, ruslar əvvəlki ilin yürüşünü ciddi şəkildə götür-qoy etmiş və ona görə hamılıqla sahilə çıxmağı lazım bilməmişdilər. Lakin bu qərar onları heç də ağır zərbədən xilas edə bilmədi. Yerli əhali rusların üzərinə hücum etdi, əvvəlcə onların sahildə lövbər salmış gəmilərini yandırdılar, sonra da geri qaçmaq imkanları məhdudlaşmış rusların özlərinin məhv etdilər. Gəmilərdə qalmış ruslar geri qayıtmaq qərarını versələr də, tezliklə onlar da ciddi müqavimətlə rastlaşdılar. "Şirvanşah bundan xəbər tutanda dənizdə pusqu düzəltməyi əmr etdi və son nəhayətdə onlardan heç biri sağ qalmadı və beləliklə rusların tez-tez bu ölkəyə gəlmələri dayandırıldı" (62).

Mövcud məlumatlara görə, şirvanşah Əli ibn Heysəm şəxsən bu döyüşdə iştirak edirdi və o, gəmilərdən birində qərar tutmuşdu (63). Rusların yürüşlərinin şirvanşahı belə narahat

etməsindən bu qənaətə gəlmək olar ki, Şirvanşahların bəzi Xəzəryanı əraziləri də ruslardan ziyan görmüşdü və ona görə də şirvanşah ruslara qarşı belə qətiyyətli tədbirə əl atmışdı. Digər tərəfdən məlum olur ki, şirvanşahın bu dövrdə rus donanmasına qarşı çıxa biləcək donanması var idi və bu sahədə müəyyən təcrübə əldə edilmişdi. Çünki belə təcrübə olmadan dənizdə pusqu qurmaq və dəniz döyüşü təşkil etmək mümkün olmazdı.

Rusların dənizdə Şirvanşah qüvvələri tərəfindən ağır zərbə almasından sonra Xəzəryanı ərazilərə yürüşləri İbn İsfəndiyarın qeydlərinin əksinə olaraq heç də dayanmadı. Görünür, bölgənin zəngin sərvətləri rusları yenidən risqli yürüşlər etməyə sövq etdi.

### a) rusların 913-cü ildə Xəzəryanı ərazilərə hərbi yürüşü

913-cü ildə qədim rusların Xəzəryanı ərazilərə növbəti yürüşü baş verdi. Bu yürüş haqqında IX-X əsr tarixçisi Əbu Həsən Əl-Məsudinin "Müruc əz-zəhab və məadin əl-cəvahir" əsərlərində daha geniş məlumat vardır. Əl-Məsudi bu yürüşün dəqiq tarixini öz əsərində göstərməmişdir. Onun verdiyi məlumatlara əsasən tarixçilər və tədqiqatçılar bu yürüşün 913(914)-cü ildə baş verməsini ehtimal edirlər.

913-cü ildə baş verən yürüş həm haqqında nisbətən daha geniş məlumat verilmiş yürüşlərdən biridir, həm də X əsrdə rusların Xəzəryanı ərazilərə həyata keçirdiyi böyük yürüşdən biridir. Bu yürüşün həyata keçirilməsi ilə bağlı bir sıra məqamlar vardır ki, hazırda da onlar tədqiqatçılar arasında maraq doğurmaqdadır. Ərəb tarixçilərinin və səyyahlarının əsərlərində bu yürüşlər haqqında verilən məlumatlar mükəmməl olmadığı üçün bu yürüşlərin səbəbləri, icrası və hətta tarixi haqqında da müəyyən fikir müxtəlifliyi özünü göstərməkdədir.

Qeyd edilməlidir ki, 864-cü ildə rusların Xəzərin cənubuna yürüşündə və 941- Bərdəyə hücumunda olduğu kimi,

913-cü ildə baş verən yürüş də Qara dəniz vasitəsilə Bizans üzərinə planlaşdırılan yürüşdən sonra baş verirdi. Xəzəryanı ərazilərə baş verən yürüşlərin Bizans üzərinə olan yürüşlərin ardınca baş verməsi bir çox tədqiqatçıları bu yürüşlərin arasında bir əlaqənin olması qənaətinə gətirməkdədir. Məlumdur ki, 911-ci ildə Bizans üzərinə hücumdan sonra Bizans dövləti ilə ruslar arasında müqavilə imzalandı. Güman edilir ki, müqavilə ilə birlikdə yunanlarla ruslar arasında hansısa gizli sövdələşmələr əldə edilə bilərdi ki, bununla ruslar Xəzər dənizi hövzəsində Bizansın düşmənlərinin zəiflədilməsini öz üzərinə götürsünlər. Bizansın Xəzər hövzəsindəki düşməni isə ərəb xilafəti idi. Ehtimallara görə, rusların Xəzəryanı ərazilərə qoşun çıxarması xilafətin bölgədəki mövqelərinin zəifləməsinə yol aça bilərdi. Bizans üzərinə yürüşdə iştirak edən rus dəstələrinin sonradan Xəzəryanı ərazilərə göndərilməsi bu qəbil ehtimallara əsas verir. İddia olunur ki, həmin dəstələr mərkəzləşdirilmiş rus dövləti tərəfindən Xəzər dənizinə göndərilmişdi və bununla Kiyev Rus dövləti Xəzər dənizində baş verənləri idarə edirdi (64).

Rusların Xəzəryanı ərazilərə yürüşünün mərkəzdən yox, Qədim Rusun ticarət və iqtisadi mərkəzlərindən olan Çerniqovdan, Azovətrafı bölgədən istiqamətləndirilə biləcəyini və bu yürüşlərin də rusların iqtisadi maraqlarının qorunması üçün həyata keçirildiyini iddia edənlər də vardır. İqtisadi maraqlar deyiləndə daha çox rusların ticarət maraqları nəzərdə tutulur. Amma bu fikrin təsdiqi kimi ciddi sübutlar ortaya qoyulmur. İstənilən halda nəzərə alınmalıdır ki, qədim rusların Xəzəryanı ərazilərə əksər yürüşləri Bizans üzəinə yürüşlərdən sonra baş vermişdir.

Rusların Bizans üzərinə yürüşlərindən fərqli olaraq Xəzəryanı ərazilərə yürüş üçün kifayət qədər mürəkkəb bir marşrut seçmək məcburiyyətində qalmışdılar. Çünki Kiyevdən su yolu ilə birbaşa Qara dənizə çıxmaq və Bizans üzərinə hücum etmək imkanları olduğu halda, Xəzər dənizinə su yolu ilə birbaşa çıxış yox idi. Digər tərəfdən qədim ruslarla Xəzər dənizi

arasında başqa bir dövlət yerləşirdi. Ruslar bu dövlətin ərazisindən keçərək Xəzər dənizinə çıxa bilərdilər. Yəni, Xəzəryanı ərazilərə yürüşləri həyata keçirmək üçün rusların elə maraqları var idi ki, onlar mövcud obyektiv maneələrin aradan qaldırılması çətinliklərini öz üzərinə götürməkdən çəkinmirdilər.

Xəzər dənizinə çıxmaq üçün rusların donanması Kiyevdən Dnepr çayı ilə Qara dənizə gəlməli, sonra Azov dənizinə keçməli, Azov dənizindən Don çayına çıxmalı və Don çayı ilə üzü yuxarı hərəkət etməli idi. Donanma Don çayının Volqa çayına ən yaxın məsafəsində dayanmalı və burada silahlılar piyada olaraq gəmiləri Volqa çayına daşımalı idilər. Bildirilir ki, Don çayı ilə Volqa çayı arasındakı ən qısa quru məsafə təxminən 100 kilometrdir. Gəmilərin Volqa çayına çıxarılması üçün bu məsafəni adlamaqdan başqa bir seçim yox idi (65). Çox güman ki, gəmilərin quru yolla uzaq məsafəyə daşımaq üçün rusların xüsusi avadanlıqları mövcud idi və onlar vasitəsilə qarşıya qoyulan vəzifəyə də asanlıqla nail olmaq mümkün idi.

Belə bir uzun marşrutla səfərə başlayan ruslar Volqa çayının aşağı ətəklərində, Xəzər dənizinin girişində digər ciddi bir maneə ilə rastlaşmalı olurdular. Bu da Xəzər dənizinə çıxmaq üçün Xəzər xaqanlığının icazəsinin alınması ilə bağlı idi. Əl-Məsudinin verdiyi məlumata görə, 913-cü ilin yürüşündə ruslar 500 ədəd gəmi ilə hərəkət edirdilər və bu gəmilərin hər birində də 100 nəfər rus var idi. Bu məlumatın doğruluğu qəbul edilərsə, deməli bu yürüşdə 50 min rus iştirak edirdi. Bu qədər sayda yad dövlətə məxsus olan qoşuna Xəzər xaqanlığının ərazisindən keçməklə Xəzər dənizinə çıxmağa icazə verilməsi Xəzər xaqanlığının özü üçün hərbi təhlükə yarada bilərdi. Xəzər xaqanlığı isə rusların xaqanlığın ərazisindən keçməklə Xəzər dənizinə çıxmasına icazə verirdi. Sözsüz ki, bu icazənin arxasında xəzərlərin müəyyən maraqları dayanırdı. Bəzi tədqiqatçılara görə, bu maraqlar xəzərlərin bölgədə öz hərbi-siyasi mövqeyini möhkəmləndirmək istəyi ilə bağlı idi. Çünki zəifləməkdə olan Xəzər xaqanlığı rusların Xəzəryanı ərazilərə yürüş-

ləri dövründə həm şərqdən, həm də cənubdan müsəlman dövlətlərinin daha güclü təzyiqləri ilə qarşılaşmalı olurdu. İddia olunur ki, bu təzyiqlərin qarşısını almaq və Xəzəryanı ərazilərdə itirilməkdə olan mövqeləri yenidən möhkəmləndirmək üçün xəzərlərə ruslar kimi bir müttəfiq lazım idi. Ən azı xəzərlərin gəmiləri olmadığı bir vaxtda rus gəmiləri vasitəsilə Xəzəryanı əraziləri nəzarət altında saxlamaq olardı (66).

Əl-Məsudi bu məsələni bir tərəfdən xəzərlərlə rusların (slavyanların) arasında sıx əlaqələrin olması ilə izah edir, digər tərəfdən də xəzərlərin iqtisadi maraqları ilə. Müəllif əsərində rusların xəzərlərlə yaxşı münasibətlər yaratdığını və hətta onların bir yerdə sıx şəkildə yaşadıqlarını bildirirdi: "Xəzər çarının ölkəsində olan bütpərəstlərə gəlincə onların bəzi tayfaları slavyanlar və ruslardır. Onlar bu şəhərin iki yarısından birində yaşayırlar" (67).

Yəni, Xəzərlərin paytaxtının çayla ikiyə bölünən hissələrindən birində slavyanlarla ruslar məskunlaşmışdılar. Əl-Məsudi onu da əlavə edir ki, slavyanlar və ruslar Xəzər çarının qoşunlarını və xidmətçilərini təşkil edirdilər. Müəllif onların sayını dəqiqləşdirməsə də, hər halda güman etmək olar ki, Xəzər qoşunlarında xidmət edən ruslar sayca heç də az deyildilər. Əl-Məsudiyə görə, xaqanlıq üzrə məhkəmə işlərinə baxan 7 hakimdən ikisi xristian idi və onlardan da biri məxsusi olaraq slavyanların və rusların işləri ilə məşğul idi. Yəni, ruslarla xəzərlər bu dərəcədə kompakt şəkildə yaşayırdılar və qarşılıqlı münasibətdə idilər. Bu isə xəzərlərlə ruslar arasında qarşılıqlı etimada dayanaqlanacaq bir münasibətin olması qənaətinə gəlməyə əsas ola bilər. Ona görə də, xəzərlər ruslar tərəfdən hər hansı bir təhdid hiss etmədən onların qoşunlarının Xəzər dənizinə çıxmasına mane olmurdular. Amma bu zaman xəzərlərin iqtisadi maraqları da nəzərdən qaçırılmırdı. Bunu Əl-Məsudi də təsdiq edirdi. O öz əsərində xəzərlərin rusları Xəzər dənizinə buraxmasının səbəbini aşağıdakı kimi təsvir edirdi: "Rusları dağınıq tayfalara bölünən çoxlu xalqlar təşkil edirdi. Onların

arasında Ludana adlanan tayfa vardır. Bu tayfa daha böyük tayfadır. Onlar yüklərlə Andalus, Rum, Konstantiniya və Xəzərə səfərlər edirlər. Hicri ilə 300-cü ildən (miladi ilə 912-913 – red.) sonra belə oldu ki, hər birində 100 nəfər olan 500-ə yaxın gəmi Naytasın Xəzər çayı ilə birləşən qoluna daxil oldular. Bura isə Xəzər çarı tərəfindən çoxlu adam qoyulmuşdur ki, onlar Xəzər dənizinin Naytas dənizi ilə birləşdiyi zolaq tərəfdən dənizlə və həm də quru yolla gələnləri dayandırırlar. Bu onun üçün edilir ki, türk köçəriləri olan quzlar bu diyara gəlirlər və burada qışlayırlar. Xəzər çayını Naytasın qolu ilə birləşdirən su tez-tez donur və quzlar da atları ilə onun üstündən hərəkət edirlər və Xəzər ölkəsinə keçirlər. Çünki burada su çoxdur və çox donduğu üçün onların altında sınmır. Bəzi vaxtlar Xəzər çarı ora qoyduğu adamlar zəif olduğu üçün özü onların qarşısına çıxır ki, donmuş su üzərindən quzların keçməsinə mane olsun və onları ölkədən çıxarsın. Yaya gəlincə isə, türklərin onu (çayı-red.) adlamaq üçün yolu olmur. Rus gəmiləri çay qolunun mənsəbinə qoyulmuş xəzərlilərin yanına gələndən sonra Xəzər çarının ölkəsinə keçə bilmək və Xəzər dənizinə daxil ola bilmək üçün onun yanına adam göndərdilər. Bu dəniz həm də Qurqan, Təbəristan və digər fars ölkələrinin dənizidir. Xatırlatdığımız kimi, belə bir şərtlə ki, onlar bu dəniz ətrafında yaşayan xalqlardan talan etdiklərinin yarısını ona verəcəklər. Ona görə onlar çay qoluna daxil oldular, bu çayın mənsəbinə çatdılar və Xəzər çayına çatana kimi bu su zolağı ilə qalxmağa başladılar və onunla İtil şəhərinə daxil oldular. Onu adlayıb çayın mənsəbinə, Xəzər dənizinə tökülən hissəsinə çatdılar" (68).

Əl-Məsudinin yazdıqlarından aydın görünür ki, Xəzərlər rusların taladıqları var-dövlətin yarısına sahib olmaq şərti ilə onları Xəzər dənizinə buraxırdılar. Hətta onlar rusları quzların (oğuzların) təhlükəsindən qorumaq üçün də müəyyən tədbirlər həyata keçirirdilər. Ona görə Xəzər çarı Naytası (Azov dənizinin olması ehtimal edilir) Xəzər dənizi ilə birləşdirən çay ətra-

fına öz adamlarını yerləşdirmişdi ki, buradan keçənləri, o cümlədən də rusları quzların hücumundan mühafizə etsinlər. Yəni, rusların və digərlərin Xəzər ərazisindən keçməsi xəzərlər üçün elə bir maraq kəsb edirdi ki, onlar bu adamların təhlükəsizliyini də təmin edirdilər. Bu maraq heç şübhəsiz ki, iqtisadi maraq idi və Xəzər xaqanının da bu yolla asan varlanmaq imkanı var idi. Ruslar da Xəzər dənizinə bir şərtlə çıxmaq icazəsi alırdılar ki, onlar talan etdiklərinin tən yarısını Xəzər xaqanına versinlər. Bütünlükdə isə xəzərlər rusları Xəzər dənizinə buraxmaqla həm iqtisadi maraqları izləyirdilər, həm də hərbi-siyasi maraqları. Bir tərəfdən rusların Xəzər dənizinə çıxması xəzərlərin gəlir mənbəyi idi və ona görə də bu məsələyə rəğbətlə yanaşırdılar. Digər tərəfdən rusların Xəzərə donanma çıxarması, Xəzəryanı ərazilərə, eləcə də Şirvanşahların ərazisinə hücum etməsi həm dənizdə Şirvanşah donanmasının zəiflədilməsi demək idi, həm də Şirvanşahlar dövlətinin özünün zəiflədilməsi demək idi. Bu da hərbi-siyasi baxımdan xəzərlərin maraqlarına cavab verirdi. Ona görə də xəzərlər rusların Xəzəryanı ərazilərə hərbi yürüşlər etməsinə mane olmurdular. Onu da istisna etmək olmaz ki, bu yürüşlərdə xəzərlər özləri də iştirak edirdilər.

Əl-Məsudinin əsərindən götürülmüş yuxarıdakı parçada Xəzər dənizinin Naytas (Azov) dənizi ilə su əlaqəsinə malik olmasından söhbət gedir. Məlumdur ki, bu fakt doğru deyil. Müəllif görünür bu məsələ ilə bağlı lazımi məlumatlara malik olmamışdır. Eyni zamanda yuxarıdakı parçada Xəzəryanı ərazilərə hərbi yürüşə çıxan rusların sayı məsələsi maraq doğuran məsələdir. Burada da müəllif tərəfindən yoxlanılmamış məlumata yol verilməsi mümkündür. Əl-Məsudinin rusların yürüşləri haqqında söylədikləri başqalarından eşitdiyi məlumatlardır. Bunu müəllif özü də əsərində etiraf edirdi. Əl-Məsudi hətta rusların yürüşünün dəqiq tarixini də göstərməmişdir. Çünki bu barədə onun əlində dəqiq məlumat yox idi. Ona görə qoşunların sayı məsələsində dəqiqləşdirilməmiş rəqəmin işlədilməsi mümkündür. Əslində, bu rəqəmin Əl-Məsudi tərəfindən dəqiq-

ləşdirilməsi də mümkün deyildi. Bu rəqəmlə bağlı hətta indiyə kimi, elm aləminə ikinci bir mənbə məlum deyil ki, Əl-Məsudi də ona istinad edə biləydi. Bu rəqəmdə səxavətliliyə yol verilməsi ona görə şübhə altına alına bilər ki, 50 min nəfərlik qoşunun dəniz yolu ilə uzun səfərə çıxarılması o dövr üçün son dərəcə mürəkkəb bir iş ola bilərdi.

Amma bəzi mütəxəssislər Əl-Məsudinin bu məlumatının doğruluğuna şübhə etmirlər və bildirirlər rusların 50 minlik bir dəstə ilə Xəzəryanı ərazilərə hücum etməsi həqiqətə yaxındır. Bu fikrin əsaslandırılması üçün qədim rusların hərb tarixinə müraciət edilir. Məsələn, bildirilir ki, elə həmin dövrdə ruslar 80 minlik dəniz qoşunu ilə Konstantinopol üzərinə hücum etmişdilər. Gəmidə hərəkət edən bu qüvvələr hələ piyada qüvvələr tərəfindən də müşayiət olunurdu. Yəni, qədim rusların qoşunlarının sayı 80 mindən də çox idi. Əl-Məsudinin məlumatı əsasında mütəxəssislərin apardığı təhlilə görə, bu yürüş zamanı rusların verdiyi itkilərin ümumi sayı da onların qoşunlarının 50 min olmasına şübhə yeri qoymur. Ehtimal edilir ki, 913-cü ildə Xəzəryanı ərazilərə yürüş edən ruslar geri qayıdarkən burtas və bulqarlarla döyüşdə 35 min nəfər itirmişdi. Bundan başqa ruslar Xəzəryanı ərazilərdə apardıqları döyüşlərdə 15 min nəfər itirə bilərdilər. Mütəxəssislərin fikrincə, Əl-Məsudi gəmilərin sayında səhvə yol vermişdir. Çünki o dövrün gəmilərində 100 nəfərin daşınması mümkün hesab edilmir. Güman edilir ki, rusların istifadəsində olan gəmilərin sayı 500 deyil, daha çox ola bilərdi. Bildirilir ki, rusların böyük sayda gəmi ilə yürüşü çıxmaq təcrübələri var idi. Məsələn, Bizans üzərinə hərbi yürüşə ruslar 2 min gəmi ilə getmişdilər. 941-ci ildə isə ruslar 10 min ədəd gəmi ilə Qara dənizə daxil olmuşdular (69).

Əl-Məsudi sonra rusların Xəzər dənizi ilə yürüşünü və Xəzəryanı ərazilərə hücumlarını təsvir edərkən bildirir ki, onlar böyük dəstə halında dənizə səpələndilər, Cil və Deyləmə, Təbəristan şəhərlərinə, Qorqan sahillərində olan Əbaskun adasına, neft ölkəsinə və Azərbaycan istiqamətinə hücum etdilər. Mü-

əllif Azərbaycan deyəndə, Arazdan cənubda olan ərazilərə işarə edir və bildirir ki, Xəzər dənizindən Ərdəbilə kimi üç günlük yoldur. Bu məlumata görə, ruslar çox geniş hücum və talançılıq planlarına malik idilər. Xəzərin cənub sahilində Əbaskun adasını talan etdikdən sonra rus qoşunları sahilə çıxdılar, Təbəristanın şəhərlərini, Cil və Deyləmi talan etdilər. Bütünlükdə, Xəzərin cənubunda olan bütün şəhərlər və yaşayış məntəqələri rus talanlarına məruz qaldı. Müəllifin məlumatından belə bir qənaət hasil olur ki, bu talanlarla kifayətlənməyən ruslar quru ilə qərbə, Ərdəbilə doğru da hərəkət etdilər və qarşılarına çıxan yaşayış məntəqələrini soyub-taladılar, sakinlərini isə qılıncdan keçirdilər: "Çayın girişindən İtil şəhərinə qədər olan hissəsi böyük və çox suludur. Rus gəmiləri bu dənizə yayıldılar, onların dəstələri Cilə, Deyləmə, Təbəristanın şəhərlərinə, Qurqan sahillərində yerləşən Əbaskuna, neft ölkəsinə, Azərbaycan istiqamətinə yürüşlər etdilər. Belə ki, Azərbaycan ölkəsindəki Ərdəbil vilayətindən bu dənizə qədər məsafə üç günə yaxın yoldur. Və ruslar qan tökdülər, qadınları və uşaqları əsir götürdülər, əmlakı talan etdilər, atlıları ətrafa buraxdılar (hücum üçün) və yandırdılar" (70).

Göründüyü kimi, ruslar talan məqsədə Ərdəbil istiqamətində də hərəkət etmişdilər. Bu zaman onların hara qədər irəliləməsini söyləmək çətindir. Müəllif bu barədə məlumat vermir. Tarixi ədəbiyyatda da bu məqam diqqəti çəkməmişdir. Uzaq məsafəyə yürüş üçün isə ruslar atlardan istifadə etmək məcburiyyətində qalmışdılar. Müəllif də atlardan söhbət açanda buna işarə edir. Onlar bu atları sözsüz ki, Xəzəryanı ərazilərdə əldə etmişdilər. Çünki ruslar gəmilərdə özləri ilə at gətirməmişdilər. Ruslar kimsəyə mərhəmət göstərmir, qarşılarına çıxanların hamısını ya məhv edir, ya da əsir edirdi. Ona görə Xəzəryanı ərazilərin əhalisi çox böyük işgəncələrlə qarşılaşdılar. Ruslar tərəfindən həyata keçirilən talanların və qırğınların miqyası həm də ona görə böyük oldu ki, yerli əhali dəniz tərəfdən heç zaman təhlükə ilə qarşılaşmamışdılar. Onlar əv-

vəllər dənizdə yalnız balıqçı və ticarət gəmilərinin üzməsinin şahidi olmuşdular. Rusların dənizdən talançı yürüş etməsi onları çaş-baş salmışdı: "Bu dənizin ətrafında məskunlaşan xalqlar dəhşət içərisində inildəyirdilər. Çünki ən qədim zamanlardan düşmənin onlara belə zərbə vurması baş verməmişdi. Bura yalnız ticarət və balıqçı gəmiləri gəlirdilər. Ruslar Cil ilə, Deyləm ilə və İbn əbu Sacın hərb sərkərdəsi ilə döyüşdülər və Şirvan vilayətində Bakı adı ilə tanınan neft sahilinə çatdılar. Sahilyanı ölkələrdən qayıdarkən ruslar Neftə yaxın, ondan bir neçə mil məsafədə olan adaya döndülər. Şirvanın çarı o zaman Əli ibn Qeytəm (Əli ibn Heysəm – red.) idi".

Bu cümlələr rusların nə üçün Ərdəbilə qədər irəliləyə bilməməsinin açıqlaması ola bilər. Göstərilir ki, ruslar İbn əbu Sacın sərkərdəsi ilə də döyüşə girdilər. Çox güman ki, bu dövrdə möhkəmlənməkdə olan Sacilər dövlətinin hakimi Yusif ibn Əbu Sac rusların Sacilər dövlətinin paytaxtı Ərdəbil istiqamətində irəliləməsini eşidib onlara qarşı qoşun dəstəsi göndərmişdi. Yusif ibn Əbu Sacın sərkərdələrindən birinin rəhbərliyi altında olan Saci qoşun dəstəsi çox güman ki, bu döyüşdə üstünlük əldə etmiş və rusları geri dönməyə məcbur etmişdi.

Xəzrin cənubundakı ərazilərdə talanları başa çatdırandan sonra ruslar şimala doğru hərəkətə başladılar və Bakı yaxınlıqlarına qədər gəldilər. Burada onlar Bakı yaxınlığındakı adalardan birində lövbər saldılar. Abbasqulu ağa Bakıxanov "Gülüstani-İrəm" əsərində bu barədə yazarkən rusların lövbər saldığı adaya işarə edərək bildirirdi ki, orada rusların izləri hələ də qalmaqdadır (71). Amma müəllif bu adanın hansı ada olmasını göstərməmişdir.

Əl-Məsudinin məlumatından belə bir qənaətə gəlmək mümkündür ki, ruslar lövbər saldıqları adadan kənara çıxmadılar. Amma onların bu adada olması yerli əhalini təşviş içərisinə saldı və ona görə silahlanaraq rusların üzərinə hücum çəkdilər. Çox güman ki, sahil yanı ərazilərdə yaşayan əhali rusların onları üzərinə hücum edəcəklərindən ehtiyatlanırdılar

və bu talançı dəstənin onların yaxınlığında məskunlaşmasından heç də razı deyildilər: "Əhali silahlandı, gəmilərə və ticarət gəmilərinə minərək bu adalara hərəkət etdilər. Lakin ruslar onlara qarşı çıxdılar və minlərlə müsəlman öldürüldü və suya qərq edildi. Çox aylar ruslar belə vəziyyətdə bu dənizdə qaldılar. Oradakı xalqlardan heç biri bu dənizdə onlara yaxınlaşmaq imkanına malik deyildilər, onların hamısı (ruslar –red.) isə möhkəmlənmişdilər və onlardan qorunurdular. Çünki dəniz boyu çoxlu xalq yaşayır" (72).

Əl-Məsudi Bakı ətrafı əhalinin böyük sayda rusların üzərinə hücum etməsindən və onların rusların müqavimətini qıra bilməməsindən danışır. Əgər bu döyüşdə minlərlə müsəlman öldürülmüşdüsə, deməli hücum edən müsəlmanların sayı çox olmalı idi. Müəllif əhalinin silahlanmasından söhbət açır, amma qoşunların bu hücumda iştirak etməsindən məlumat vermir. Yuxarıdakı cümlələrdən o da aydın olmur ki, ruslara qarşı bu hücumlar şirvanşah Əli ibn Heysəmin rəhbərliyi altında həyata keçirilirdi, yoxsa bu, əhali tərəfindən başlanan bir hərəkat idi. Rusların müqavimətinin qırılmaması yerli əhalinin onlardan daha zəif silahlanması və ona görə də bu hücumun məhz yerli əhali tərəfindən təşkil edilməsi təsəvvürünü verir. Müəllif eyni zamanda rusların "çox aylar" Bakı yaxınlığındakı adada qalmasını qeyd edirdi. Rusların Bakı yaxınlığında uzun müddət ləngimələri isə havaların soyuması, Volqa, Don çaylarında və bu çaylara keçidlərdə suyun donması ilə əlaqədar ola bilərdi. Ona görə mümkün idi ki, ruslar Bakı yaxınlığında havaların qızmasını və vətənlərinə qayıda bilmələri üçün bütün su yollarının açılmasını gözləməli olmuşdular.

Amma geri qayıdarkən onlar çox ciddi təhlükə ilə qarşılaşmalı oldular. Xəzər xaqanlığının müsəlman əhalisi rusların onların ərazisindən keçərək Xəzər boyunca yaşayan müsəlman xalqlara hücum etməsindən, onları çapıb-talamasından çox narazı idi. Ona görə də onlar yürüşdən geri qayıdan ruslardan intiqam almaq qərarına gəldilər. Bununla bağlı, müsəlman xə-

zərlər Xəzər xaqanına müraciət etdilər, xaqandan ruslar üzərinə hücum icazəsi istədilər. Əl-Məsudinin yazdıqlarından belə bir qənaət əldə etmək olar ki, Xəzər xaqanı ruslara hücum edilməsi ilə razı deyildi. Hər halda ruslar öz yürüşlərini onun icazəsi ilə həyata keçirmişdilər. Amma xaqan müsəlmanların tələbləri qarşısında güzəştə getməyə məcbur oldu və ruslar üzərinə hücuma etiraz edə bilmədi. O yalnız gizlində ruslara xəbər çatdırdı ki, onların üzərinə hücum gözlənilir.

Əl-Məsudinin yazdıqlarından o da məlum olur ki, Xəzər xaqanı ilə bu xaqanlıqda yaşayan müsəlman əhali Xəzər boyunca yaşayan müsəlman digər əhaliyə fərqli münasibət bəsləyirdilər. Məsələn, Xəzər xaqanlığının müsəlman əhalisi Xəzər dənizi boyunca yaşayan müsəlman əhaliyə öz müsəlman qardaşları kimi baxırdılar. Xəzər xaqanı isə bu əhaliyə sərvətlənmək mənbəyi kimi baxırdı. Əl-Məsudinin yazdığına görə, Xəzər xaqanının gəmiləri olsaydı o özü Xəzəryanı müsəlman əhaliyə hücum edərdi. Yəni, rusların köməyi olmadan bu əhalini soyub-talamaqla varlanardı: "Bu talanlardan və bu həyatın onları bezikdirməsindən sonra onlar Xəzər çayının mənsəbinə yollandılar..., Xəzər çarının yanına adam göndərdilər, razılaşmaya uyğun olaraq ona pul və qənimət çatdırdılar. Xəzər çarının isə gəmiləri yoxdur və onun adamları ona öyrəşməmişlər. Əks təqdirdə müsəlmanlar onun tərəfdən böyük təhlükədə olardılar. Larsiya və Xəzər ölkəsinin digər müsəlmanları bu işdən xəbər tutdular və Xəzər çarına dedilər: "Bizə icazə ver (intiqam alaq), çünki bu adamlar bizim qardaş-müsəlmanların ölkəsinə hücum etmiş, onların qanını axıtmış, onların qadınlarını və uşaqlarını əsir etmişlər". Onlara mane ola bilməyən çar rusların yanına adam göndərdi və onları məlumatlandırdı ki, müsəlmanlar onlarla vuruşmaq istəyir. Müsəlmanlar isə toplandılar və İtilin su girişində onları axtarmağa yollandılar. Onlar bir-birini görəndə ruslar öz gəmilərindən çıxdılar. Müsəlmanlar 15 minə yaxın idilər, atları və silahları ilə. İtildə yaşayan xristianların da çoxu onlarla idi. Onlar arasında savaş üç

gün davam etdi. Allah ruslara qarşı olan müsəlmanlara kömək etdi, qılınc onları qırıb-çatdı, kimisi öldürüldü, kimisi isə suda boğuldu. Onlardan 5000 nəfər nicat tapdılar və gəmilərdə Burtas ölkəsinə sərhəd olan ölkəyə yollandılar. Orada onlar gəmilərini tərk etdilər və quruya çıxdılar. Amma onlardan kimsə Burtasın əhalisi tərəfindən öldürüldü, kimisi isə Burqar ölkəsində müsəlmanların əlinə düşdü və bunlar da onları öldürdülər. Müsəlmanlar tərəfindən Xəzər çayı kənarında öldürülənlərin sayı 30000-ə yaxın idi. O ildən sonra ruslar bizim təsvir etdiyimizi bir də təkrar etmədilər" (73).

Əl-Məsudinin təsvirinə görə, 913-cü ildə Xəzəryanı ərazilərə hücum etmiş ruslardan bir nəfər də sağ qalmadı. Onların böyük hissəsi Xəzər xaqanlığında məhv edildi, qalanları isə Xəzər xaqanlığından şimalda yaşayan müsəlman tayfalar tərəfindən qətlə yetirildilər. Müəllif güman edirdi ki, bu böyük itkilərdən sonra ruslar bir də öz yürüşlərini təkrar etməzlər.

### b) Qədim rusların 943-cü ildə Bərdə üzərinə hücumu

943-cü ildə qədim ruslar Azərbaycan ərazisinə yenidən hücum etdilər. Mövcud olan məlumatlar onu deməyə əsas verir ki, ruslar bu yürüşü əvvəlki yürüşlərə nisbətən daha mükəmməl şəkildə hazırlanmışdı və qarşıya qoyulan məqsədə çatmaq üçün daha mürəkkəb marşrut seçilmişdi. Onlar Xəzər dənizi ilə Kür çayının mənsəbinə qədər gəlmiş, sonra Kür çayı ilə üzü yuxarı üzmüş və Bərdə yaxınlığında quruya çıxaraq bu şəhər üzərinə hücum etmişdilər. Kür çayının Bərdə şəhərinə yaxın olan nöqtəsi bu şəhərdən təxminən 20 kilometrlik məsafədədir. Ruslar öz yürüşlərini elə planlaşdırmışdılar ki, bu məsafəni adlamaqla gözlənilmədən Bərdə qalası üzərinə hücum etsinlər və məqsədlərinə nail olsunlar. Şübhə etmək olmaz ki, son dərəcə uzun və mürəkkəb bir marşrutu tələb edən bu yürüşün uğurla tamamlanacağına ruslar əmin idilər və onlarda bu əminliyi təmin

edəcək lazımi məlumatlar mövcud idi. Əks təqdirdə, ruslar belə mürəkkəb və mənimsənilməmiş bir marşrut seçməzdilər.

Kür çayından X əsrin ortalarında hərbi yürüş üçün istifadə edilməsi bu istiqamətdə həyata keçirilən ilk təcrübə idi. Qeyd edilməlidir ki, sonralar, o cümlədən də XX əsrin əvvəllərində Kür çayından hərbi yürüş məqsədilə istifadəsinə cəhd göstərilsə də, hələlik bu çayda nəticəsi etibarilə rusların yürüşü qədər mükəmməl hazırlanan başqa bir hərbi yürüş təcrübəsi mövcud deyil.

Ehtimal ki, bu yürüş ruslar tərəfindən ciddi şəkildə hazırlanmışdı, yürüşə başlamazdan əvvəl onlar həm Bərdə haqqında, həm Kür çayının gəmiçilik üçün imkanları haqqında lazımi məlumatlara malik idilər. Yuxarıda qeyd edildiyi kimi, hələ IX əsrdən başlayaraq ruslarda Azərbaycan əraziləri, bu ərazilərin sərvətləri haqqında məlumatlar var idi. Bu məlumatlar ruslara həm rus tacirləri tərəfindən çatdırılırdı, həm də ruslarla yaxşı münasibətlərdə olan xəzərlər tərəfindən çatdırıla bilərdi (74). Çünki xəzərlər vaxtaşırı Albaniya ərazisinə hərbi yürüşlər edir və burada çoxlu qənimətlər əldə edirdilər və çox güman ki, bu yürüşlərin səs-sorağı ruslara da çatırdı.

Bu baxımdan onların hərbi yürüşün son məqsədi kimi Bərdəni seçmələri də təsadüfi deyildi. Bu şəhər yalnız bölgənin deyil, bütünlükdə şərqin böyük və zəngin şəhərlərindən birinə çevrilməkdə idi. Alban və sasani mənbələrində Partav kimi xatırlanan Bərdə şəhəri IX-X əsrlərdə İsfahan və Reydən sonra Yaxın Şərqin ən böyük şəhəri idi. Bölgədə isə Bərdə şəhəri Dərbənd və Tiflis şəhərlərindən də böyük və zəngin idi. Cənubdan şimala və qərbdən şimala uzanan ticarət yollarının bu şəhərdən keçməsi onun mövqeyini daha da əhəmiyyətli edirdi. Bu ticarət yolları Bərdəni Dərbəndlə, Tiflislə, Beyləqan və sonra da Ərdəbil ilə birləşdirirdi. Dövrün məlumatlarına görə, şəhər eni-uzunu təxminən 6 kilometr olmaqla kifayət qədər böyük bir əraziyə malik idi və inkişaf etmiş şəhərlərindən biri idi (75).

Dövrün fars və ərəbdilli mənbələrində mövcud olan məlumatlar da Bərdənin inkişaf etmiş zəngin şəhərlərdən biri olduğu bildirilirdi. Məsələn, "Hüdud-əl-Aləm" adlı mənbədə deyilirdi ki, "Bərdə böyük və zəngin şəhərdir. O, Arranın paytaxtı və bu əyalətin şahının daimi iqamətgahıdır. Orada, onun ətrafında meyvə və taxılla zəngin olan geniş, çiçəklənən əkinlər var. Orada tut ağacları çoxdur " (76).

İbn-Hövqəl adlı müəllif isə yazırdı ki, "Bərdə şəhərinə gəldikdə, bura Ümmül-Randır (Arranın anası) və bu yerlərin ən yaxşısıdır... Bura parlaq vəziyyətdə və çox yaxşı haldadır. Bu isə onun saf havasından, məhsuldarlığından, əkinlərin, meyvə ağaclarının və çayların çoxluğundan irəli gəlir. Rey və İsfahandan sonra İraqla Təbəristan arasında Bərdə tək böyük və məhsuldar, tutduğu mövqe və xəzinəyə verdiyi gəlirə görə yaxşı yer yoxdur" (77).

Paytaxt şəhəri olması, ölkənin siyasi və inzibati mərkəzinin burada yerləşməsi də Bərdənin inkişafını və çiçəklənməsini şərtləndirən amillərdən biri idi. Bu şəhərin bazarı bölgənin böyük bazarlarından biri idi və bura müxtəlif yerlərdən ən müxtəlif mallar gətirilirdi. Şəhərin özündə də ipək və digər parçalar istehsalı olunurdu və bazara çıxarılırdı. Bundan başqa bura Ərdəbildən, Beyləqandan, Bərzənddən və digər şəhərlərdən yun parçalar gətirilirdi. Şəhər bazarında yerli tacirlərdən başqa, xilafətin müxtəlif şəhərlərinin tacirləri ilə, rus, xəzər, bulqar və s. tacirlərlə rastlaşmaq mümkün idi (78).

X əsr tarixçisi Məqdəsi isə Bərdə şəhərini belə təsvir edirdi: "Bərdə böyük şəhərdir, dördbucaqlıdır. O düzən ərazidə yerləşmişdir. Onun qalası və genişliyi var. Onun bazarları bir yerə cəmlənib. Bazarın arxasında came məscidi vardır. O (Bərdə-red.) bu vilayətin Bağdaddır. Evləri möhtəşəmdir. Onlar bişmiş kərpicdən və gipsdəndir. O, gözəldir, yaxşıdır, meyvələrlə boldur. Came məscidinin sütunlarının bir hissəsi gipsdən, bişmiş kərpicdən, bir hissəsi də ağacdandır. Şəhərin çayı vardır. Bu çay onu təmizləyir. Kür çayı ondan iki fərsəx məsafədədir. Onun kanalları şəhərə yaxındır. O, (Bərdə-red.) gözəldir" (79).

Bərdə şəhərinin əzəməti haqqında Moisey Kalankatuklunun "Albaniya tarixi" əsərində də maraqlı məlumat mövcuddur. Müəllif əsərinin əvvəllərində Alban ölkəsi və onun paytaxtı haqqında belə yazırdı: "Uca Böyük və Kiçik Qafqaz dağlarının qoynunda yerləşən Alban ölkəsi öz saysız-hesabsız təbii sərvətləriylə həddindən artıq gözəl və heyranedici bir məmləkətdir. ... Ölkənin paytaxtı əzəmətli Bərdə şəhəridir" (80).

Məlum olduğu kimi, Azərbaycanın böyük şairi Nizami Gəncəvi də "İsgəndərnamə" poemasında Bərdənin bu əzəmətini sonsuz bir ilhamla təsvir etmişdir (81). Bütün bu məlumatlar Bərdə şəhərinin həm əzəmətini və həm də zənginliyini nümayiş etdirir və ona görə də rusların bu şəhər üzərinə hərbi yürüşü təsadüfi hesab edilməməlidir. Çünki bu şəhərdə ruslar marağında olduqları çoxlu sərvətlər ələ keçirə bilərdilər.

Əvvəlki bəzi yürüşləri kimi, ruslar 943-cü ildə olan səfərlərini Qara dənizə olan səfərlərindən sonra həyata keçirirdilər. Rusların Qara dənizə olan həmin yürüşü 941-ci ildə baş vermişdi. Verilən məlumata görə, bu yürüş zamanı rus knyazı İqor 1000 ədəd gəmi ilə Qara dənizə daxil olaraq Konstantinopol üzərinə hücum çəkdi. Baxmayaraq ki, Bizans donanmasının bir hissəsi xilafət qoşunları ilə müharibəyə cəlb edilmişdi, bununla belə, Konstantinopol ətrafında rus donanmasına güclü zərbə vuruldu. Xüsusilə, "yunan odu" ruslara xeyli itki yetirdi. Tamamilə məhv olmaqdan xilas olmaq üçün salamat qalmış rus donanması Kiçik Asiya Vifiniya və Paflaqoniya limanlarına sığındılar. Həmin ilin sentyabr ayında ruslar yunan gəmilərindən yan keçərək geri qayıtmağa cəhd göstərsələr də, Bizans gəmiləri onları haqladı və onlara yenidən çox güclü bir zərbə vurdu. Bu zərbədən rus gəmilərinin az bir hissəsi nicat tapa bildi (82).

Bir sıra rus tədqiqatçıları "Kembric sənədi" kimi tanınan bir sənədə istinad etməklə rusların Bərdə üzərinə yürüşünü Bizans üzərinə uğursuz yürüşlə əlaqələndirirlər. Bildirilir ki, bu sənəd X əsr xəzər yəhudiləri tərəfindən yazılmış bir sənəddir və orada təsvir edilən hadisələr rusların Bərdə üzərinə yürü-

şünün səbəbini başa düşməyə imkan verir. Həmin sənəddə deyilir ki, guya Bizansa satılmış olan rus sərkərdəsi (onun rus knyazı olduğu da güman edilir) Bizansın düşməni olan xəzərlər üzərinə hücum edir və Xəzər xaqanlığının Samkers şəhərini tutur. Bu şəhərin ələ keçirilməsi Qara dənizə aparan Kerç boğazını nəzarət altında saxlamağa imkan verirdi. Amma Xəzər xaqanlığının sərkərdəsi Pesax ruslar üzərinə hücum edərək Samkers şəhərini azad etməklə rus sərkərdəsinə də güclü zərbə vurdu. İddia olunur ki, sonra xəzərlər rus sərkərdəsini məcbur etdi ki, xəzərlərə qarşı məkrli planlar qurmuş Bizans üzərinə hücum etsin. Ruslar məcbur olun Bizans üzərinə hücum edirlər və dörd ay davam edən döyüşlərdə çox ciddi məğlubiyyətə uğradılar. Məlumata görə, bu ağır məğlubiyyətdən sonra vətənə necə qayıdacağını bilməyən rus sərkərdəsi üzünü Xəzər dənizinə tərəf tutdu. Sənəddə o da bildirilir ki, bu yürüşdə rus sərkərdəsi və onun dəstəsi tamamilə məhv oldu (83).

Bu versiyanı əsas götürən müəlliflərdən biri isə yazırdı ki, rus sərkərdəsi və onun dəstəsi həm Qara dənizdə uğradığı məğlubiyyətə və həm də rus dövlətinə xəyanətinə görə geri qayıtmağa ehtiyat edirdi. Buna görə də xəzərlər tərəfindən Bərdə üzərinə yürüş təklif olunanda onlar bu təklifi qəbul etdilər. Müəllifin fikrincə, Bərdə şəhəri yenicə Mərzban ibn Məhəmmədin və deyləmilərin hakimiyyəti altına düşmüşdü və deyləmilər bu şəhərdə hələ kifayət qədər möhkəmlənə bilməmişdilər. Ona görə də bu şəhərə yürüş etmək qərarı verildi (84).

Tədqiqatçılar arasında rusların Bərdə üzərinə hücumunun səbəbləri haqqında buna oxşar başqa versiyalar da vardır. Bu versiyalardan biri belədir ki, rusların Bərdə üzərinə yürüşü onların Bizans üzərinə 944-cü ildə baş verən yürüşündən sonra həyata keçirilmişdir. Ruslar bu yürüşə peçeneqləri və normanları da cəlb etmiş və onlara böyük qənimətlər vəd etmişdilər. Məlumdur ki, bu yürüş zamanı ruslarla Bizans dövləti arasında razılaşma imzalandı və ruslar sülh yolu ilə bu yürüşdən geri qayıtdılar. Bu yürüş sülhlə başa çatdığı üçün gözlənilən müharibə

qənimətləri əldə edilmədi və bu vəziyyət peçeneqləri və normanları razı salmadı. Bildirilir ki, ruslar normanların narazılığını aradan qaldırmaq üçün onların Bolqarıstan üzərinə hücuma etiraz etmədilər. Peçeneqlərə gəldikdə isə, irəli sürülən versiyadan belə bir qənaətə gəlmək olur ki, onların da razı salınması üçün ruslar Bərdə üzərinə talançı yürüş etdilər (85).

Bu versiyaların rədd edilməsinə ehtiyac olmasa da, onların birmənalı şəkildə doğruluğunu qəbul etmək də düzgün olmazdı. Əvvəla, rusların Azərbaycan ərazilərinə hərbi yürüşlər təcrübəsi var idi və 943-cü ildə yeni bir yürüş icra etmək heç də birdən-birə ortaya çıxmamışdı. Digər tərəfdən isə Bərdə yürüşü kimi mürəkkəb bir yürüş haqqında birdən-birə qərar çıxarmaq mümkün olmazdı. Çünki bunun üçün ciddi hazırlıq aparılmasına, Kür çayının gəmiçilik üçün yararlılığına, Bərdə üzərinə yürüş üçün münasib marşrut seçilməsinə ciddi ehtiyac var idi və bu məsələlər düşünülmədən qəbul oluna bilməzdi.

Rusların 943-cü ildə Bərdə üzərinə hücumu haqqında ayrı-ayrı müxtəsər məlumatlara ərəb və fars dilli mənbələrdə, Moisey Kalankatuklunun "Albaniya tarixi" əsərində və N.Gəncəvinin "İsgəndərnamə" poemasında rast gəlmək mümkündür. Amma bu yürüş haqqında mövcud olan daha təkmil məlumat XI əsr tarixçisi İbn Miskaveyhə məxsusdur. Doğrudur, bu əsərdə də rusların Bərdə üzərinə yürüşü, onların keçdiyi marşrut, Azərbaycan ərazisində qarşılaşdıqları bütünlüklə öz əksini tapmayıb. Bununla belə, bu müəllifin "Təcarüb-ül ümam" əsəri hələlik rusların Bərdə yürüşü haqqında daha geniş məlumata malik əsər kimi tanınmaqdadır. Rusların Bərdə üzərinə hərbi yürüşləri haqqında İzzəddin ibn əl-Əsirin "Əl-Kamil fi-t-tarix" əsərində də maraqlı məlumatlar mövcuddur. Bu məlumatlar rusların 943 (944)-cü ildə Bərdə üzərinə yürüşünün müəyyən mənzərəsini yaratmağa imkan verir.

İbn Miskaveyhin əsərinin Bərdə yürüşü ilə bağlı olan hissəsinin əvvəlində ruslar və Kür çayı haqqında qısa məlumat vardır. Onun ilk cümlələrindən məlum olur ki, ruslar Xəzər

dənizi ilə üzüb Kür çayına çıxdılar: "Onlar ölkələri ilə yanaşı olan dənizlə getdilər, onu Kür adı ilə tanınan böyük çaya qədər keçdilər" (86). Bu cümlələr onu göstərir ki, ruslar Xəzərdə gəmi ilə hərəkət edirdilər. İbn əl-Əsirin əsərində isə rusların dənizlə hərəkəti barədə olan fikirdə bir dolaşıqlıq vardır. O yazırdı: " Üç yüz otuz ikinci ildə (04.09.943-23.08.944) rusların böyük tayfası dənizlə gəlib Azərbaycan sahilinə çıxdı. Dənizdə gəmilərə yüklənərək böyük Kür çayı ilə qalxıb Bərdə şəhərinə qədər gəldilər" (87).

Şübhə etmək olmaz ki, ruslar öz vətənlərindən Bərdəyə qədər gəmilərdə hərəkət etmiş və bunun üçün yuxarıda qeyd edildiyi kimi, Kiyevdən başlayaraq Qara və Azov dənizlərindən, Don və Volqa çaylarından keçən marşrut seçmişdilər.

Rusların Kür çayı ilə üzü yuxarı hərəkət etmələrindən ehtimal etmək olar ki, onların bu yürüşünə qədər Kür çayında ən azı ticarət və nəqliyyat gəmiçiliyi mövcud idi. Çünki Bərdə bölgənin ən böyük ticarət mərkəzi olduğu üçün bu şəhərə yüklərin daşınmasında gəmilərdən istifadə olunmasını da istisna etmək olmaz. Bu təcrübə də ruslara əsas vermişdi ki, çətinlik çəkmədən Kür çayından gəmilərlə hərəkət üçün istifadə etsinlər. Bu gəmilərin Kür çayı ilə necə hərəkət etməsi barəsində İbn Miskaveyhin əsərində məlumat yoxdur. Müəllif bildirir ki, "onlar Kürə çatanda qarşılarına Mərzbanın nümayəndəsi və Bərdənin idarəçiliyi üzrə onun müavini çıxdı". İbn əl-Əsirə görə isə yuxarıdakı cümlələrdən göründüyü kimi, ruslar Kür çayı ilə Bərdə şəhərinə qədər gəldilər. Məlumdur ki, Bərdə ilə Kür çayı arasında ən yaxın məsafə 20 kilometrə yaxındır. Deməli, ruslar Kür çayının münasib bir yerində lövbər salmaqla Bərdəyə qədər olan məsafəni piyada getməli idilər. X əsrə aid olan "Hüdud əl-aləm" əsərində Bərdə hadisələri ötəri olaraq xatırlanır və bildirilir ki, bu şəhərə yürüşdə iştirak edən rusların gəmiləri Mübarəki adlanan kənddə düşərgə saldılar (88).

Bu məlumat onu deməyə əsas verir ki, ruslar Kür çayının Bərdəyə yaxın olan və gəmilərin lövbər salması üçün daha

münasib sayılan Mübarəki adlı kənddə və ya məntəqədə düşərgə saldılar, gəmiləri və onları mühafizə edən dəstəni orada saxladılar və əsas dəstə isə piyada yolla Bərdəyə doğru hərəkət etdilər. Bu hərəkət zamanı rusların yerli əhali ilə qarşılaşması haqqında da mənbələrdə məlumat yoxdur.

Ruslar Bərdə yaxınlığında Mərzbanın nümayəndəsinin rəhbərliyi altında 300 nəfərlik deyləmi dəstəsi, 300 nəfərlik kürd və suluklar dəstəsi və 5 min nəfərlik könüllü dəstəsi ilə qarşılaşdılar. Göstərilən bütün cəhdlərə baxmayaraq, rusların hücumunun qarşısını almaq mümkün olmadı. Bu döyüş təxminən bir saat davam etdi. Rusların zərbəsinə davam gətirə bilməyən kürdlər, suluklar və könüllü dəstələr geri çəkilmək və döyüş meydanının tərk etmək məcburiyyətində qaldılar. Yalnız deyləmi dəstəsi müqaviməti davam etdirdi. Amma onlar da rusların qarşısını saxlaya bilmədilər. Piyada deyləmilər hamısı bu döyüşdə öldürüldü. Atlı deyləmilərdən isə bir hissəsi qaçıb canını qurtara bildi.

Rusların Bərdə ətrafında Məzbanın nümayəndəsi və onun müavini tərəfindən qarşılandığını bildirən İbn Miskaveyh daha sonra yazırdı: "Onların (Məzbanın nümayəndəsinin və onun müavininin-red.) yanında 300 nəfər deyləmi və təxminən o qədər sayda da avara və kürd var idi. Sadə camaat qorxudan qaçıb dağıldı. Onda onlarla birlikdə könüllülərdən təxminən 5000 nəfər etiqad üçün mübarizəyə çıxdılar. Onlar səhlənkar idilər və onların (rusların-red.) gücünü bilmirdilər və onları da ermənilər və romalılar səviyyəsində təsəvvür edirdilər. Onlar savaşa başlayandan sonra, heç bir saat keçmədi ki, ruslar sarsıdıcı hücumla onların üstünə getdilər. Nizami qoşunlar qaçıb dağıldı, onların arxasınca isə deyləmilərdən başqa könüllülər və qalan qoşunlar. Doğrudan da, onlar bir müddət dayana bildilər. Lakin onlardan at üstündə olanlardan başqa hamısı öldürüldü. Qaçanları şəhərə qədər təqib etdilər. Minik heyvanları olan həm hərbçilər, həm də mülki adamlar qaçıb dağıldılar və şəhəri tərk etdilər. Ruslar ora daxil oldu və onu ələ keçirdilər" (89).

Ruslara qarşı 5 min nəfərlik könüllü dəstəsinin toplanmasından belə bir qənaətə gəlmək mümkündür ki, bərdəlilər rusların hücumu barəsində əvvəldən xəbər tuta bilmiş və ona görə də şəhərin müdafiəsi üçün bu qədər sayda könüllü toplaya bilmişdi. Sözsüz ki, tez-tələsik toplanmış könüllülər hərbi baxımdan güclü bir qüvvəni təşkil etmirdilər. Bununla belə, rusların 5,5 mindən çox olan qüvvəyə asanlıqla üstün gəlməsi onların da sayının az olmadığını güman etməyə əsas verir. Bundan əlavə onlar yəqin ki, yaxşı silahlanmışdılar da.

İbn əl-Əsir bu hadisəni belə təsvir edir: "Bərdədə qalan Mərzbanın naibi deyləmilərdən və könüllülərdən ibarət olan beş minlik ordusu ilə rusların qarşısına çıxdı. Onlarla bir saatlıq döyüşdən sonra müsəlmanlar məğlub olub qabaqlarından qaçdılar. Deyləmilərin hamısı öldürüldü, qalanlarını isə ruslar şəhərə qədər qovdular. Minik heyvanları olanların hamısı şəhəri tərk edib qaçdılar. Ruslar şəhərdə yerləşib hamıya aman elan edib özləri də əhaliyə qarşı yaxşı rəftarda oldular" (90).

İbn Miskaveyhə görə də ruslar şəhərə daxil olandan sonra əhali arasında mövcud olan qarışıqlıq və təşvişin qarşısını almağa, onları sakitləşdirməyə və şəhərdə dinc durum yaratmağa cəhd göstərdilər. Ruslar bildirdilər ki, " Bizimlə sizin aranızda məzhəb ixtilafı yoxdur. Bizim arzuladığımız yeganə şey hakimiyyətdir. Bizim üzərimizə məsuliyyət düşür ki, sizə yaxşı münasibət göstərək, sizin üzərinizə isə bizə yaxşı itaət etmək".

İbn Miskaveyh özü də etiraf edir ki, bu fikirləri başqalarından eşitmişdi. Ona görə, rusların bu bəyanatının nə dərəcədə həqiqətə yaxın olduğunu müəyyənləşdirmək də çətindir. Aramızda məzhəb ixtilafı yoxdur – deyəndə ruslar Bərdədə və ətrafında xristian albanların olmasına işarə edə bilərdilər. Hakimiyyət məsələsinə gəlincə isə, görünür ruslar bu şəhərdə uzun müddət qalmaq istəyirlərmiş. Onlar bu şəhərdə o zaman uzun müddət qala bilərdilər ki, əhali onlara itaət etsin.

Amma yerli əhali bununla razılaşmadı. Hər halda məzhəb ayrılığına malik olan bir silahlı dəstənin Bərdədə olması əhali

tərəfindən birmənalı qarşılanmırdı. Bundan başqa çox güman ki, elə ilk günlərdən rusların sözləri ilə əməlləri uyğunluq təşkil etmirdi. Ona görə də əhalinin narazılıqları günü-gündən artmağa başladı.

Göstərilən bütün cəhdlərə baxmayaraq, ruslar şəhər sakinlərini sakitləşdirə bilmədilər. Hətta ətraf bölgələrin əhalisi də rusların Bərdəni işğal etməsi ilə razılaşmadılar və onlar da ruslara qarşı mübarizəyə qalxdılar. İbn Miskaveyhin sözlərinə görə, ətraf bölgələrdən "müsəlman qoşunları" bərdəlilərin köməyinə gəldilər. Bu fikri həm ətraf vilayətlərin hakimlərinin tabeliyində olan qoşunlar kimi qəbul etmək olar, həm də ətraf vilayətlərdən toplanmış könüllü dəstələr kimi də. Hər halda rusların işğalçılığı böyük etirazlar doğurdu və bu etirazlar silahlı qarşıdurmanı davam etdirdi. Ruslar bir neçə dəfə şəhərdən çıxaraq kənardan gəlmiş silahlı dəstələrlə döyüşə girməli oldular. Hər dəfə də onlar üstünlük qazanıb yerli qoşunları geri çəkilməyə məcbur etdilər. Bu döyüşlərdə Bərdə sakinləri də iştirak edirdilər. Ruslar şəhərdən kənarda yerli qoşunlarla döyüşən zaman Bərdənin sakinləri də şəhərdən çıxıb rusların üzərinə hücum edirdilər. Amma mənbədəki məlumatdan aydın olur ki, Bərdə sakinlərinin lazımi silahları yox idi. Onlar döyüşə qoşulan zaman "Allahu Əkbər" qışqırır və rusların üzərinə daş atırdılar. Ruslarsa bunun əvəzində Bərdə sakinlərini xəbərdar etdilər ki, onlar öz qayğılarına qalsalar və hakimiyyət məsələlərinə qarışmasalar daha yaxşıdır. Mənbə məlumatına görə, bəzi adamlar, xüsusilə də imkanlılar bu xəbərdarlığı qəbul etdilər. Lakin şəhər sakinlərinin əksəriyyəti bu xəbərdarlığı qəbul etmədilər və rusların tələbi ilə razılaşmadılar. Onlar ruslara qarşı barışmaz mövqe tutmaqda davam etdilər və ona görə də kənardan gələn qoşunların ruslara qarşı mübarizəsini dəstəkləməkdə davam etdilər. Ruslar isə işğala qarşı bütünlüklə ayağa qalxmaqda olan şəhər əhalisinin yaratdığı təhlükənin qarşısının alınması üçün onların hamılıqla kənara köçürülməsini qərara aldılar: "Bir müddət belə davam edəndən sonra rusların carçısı bəyan etdi:

"Şəhərdə sakinlərdən bir nəfər də qalmamalıdır". Bu elandan sonra müsəlmanlara üç gün vaxt verdilər" (91).

Ruslar bəyan etdilər ki, sakinlər bu tələbi mütləq yerinə yetirməlidir. Əks təqdirdə, şəhərdə qalanlara qarşı ciddi tədbirlər həyata keçiriləcəkdir. Sakinlər də məcburiyyət qarşısında qalıb şəhəri tərk etməyə başladılar. Onlardan kimin minik heyvanı var idisə ailəsini və əmlakını yığışdırıb asanlıqla şəhəri tərk etdi. Lakin heç də bütün sakinlərin belə imkanı yox idi və belələri rusların görünməmiş vəhşilikləri ilə qarşılaşmalı oldular. Üç günlük möhlət bitəndən sonra ruslar şəhər sakinlərinin üzərinə hücum çəkdilər, çoxlu sayda adamı qılıncdan keçirdilər. İbn Miskaveyhə görə, o qədər adam öldürüldü ki, onları sayıb qurtarmaq mümkün deyildi. Rusların qılıncına tuş gəlməyənlər isə əsir götürüldü. Onların da sayı çox idi: "Dördüncü gün gəldi və sakinlərin böyük hissəsi (şəhərdə-red.) qaldı. Onda ruslar öz qılınclarını işə saldılar və çoxlu adam öldürdülər. Onları sayıb qurtarmaq mümkün deyildi. Qırğınlar başa çatanda onlar 10 mindən artıq kişini və cavanı arvadları, qadınlar və uşaqlarla birlikdə əsir götürdülər. Ruslar qadınları və uşaqları şəhər daxilindəki qəsrə saldılar. Bura rusların şəhristanı idi. ...Sonra onlar kişiləri came məscidinə topladılar, qapılara mühafizəçi qoydular və onlara dedilər: "Özünüzü satın alın" (92).

Yəni, ruslar əsir götürdüyü adamlardan azad olunmaları əvəzində pul ödəmələrini tələb etdilər. İbn Miskaveyhin məlumatına görə, bu zaman Bərdədə İbn Samun adlı bir müdrik xristian yaşayırdı. İbn Samun əsir götürülmüş insanların azadlığına nail olmaq üçün ruslarla danışıqlar apardı və onlarla belə bir razılaşmaya gəldi ki, rus əsirliyində olanlar 20 dirhəm ödəməklə azadlığa buraxılsınlar. Əsir götürülənlərin əksəriyyəti bunu qəbul etmədi və hətta bu şərti şəriət baxımından da doğru hesab etmədilər. Belə olanda İbn Samun da danışıqlardan geri çəkildi. Ruslar isə öz tələblərindən əl çəkmədilər. Çünki bu tələbə onlar həm də varlanmaq mənbəyi kimi baxırdılar və gü-

man edirdilər ki, bu yolla onlar talan etdikləri sərvəti bir qədər də artıra bilərlər. Ona görə əsirlərin öldürülməsi bir müddət təxirə salındı ki, bəlkə yerli əhali öz fikrini dəyişib azad olunmaları üçün ruslara pul verdilər. Amma ümid etdikləri baş tutmayanda ruslar əsirlərin də öldürülməsinə başladılar. Mənbə məlumatına görə, əsir götürülənlərin demək olar ki, hamısı rusların qılıncından keçirildi. Yalnız kiçik sayda adam məscidə birləşən ensiz su kanalı ilə qaçıb canlarını qurtara bildilər. Bir miqdar adam isə özlərinin azad olunması üçün pul verməyə razı oldular. Ruslar onları öldürmədilər. Amma ruslar həmin adamları bütünlüklə qarət etdilər. Baxmayaraq ki, ruslar əsirlərin azad olunması üçün nə qədər pul ödənməsini elan etmişdilər, lakin onlar bu şərtə məhəl qoymurdular. Pul verməklə azad olunmaq istəyənləri ruslar evlərinə, ya dükanlarına kimi müşayiət edir və həmin adamların nəyi vardısa hamısını qarət edirdilər. O cümlədən, azad olunmaq istəyənlərin qızıl əşyaları, gümüş pulları, qiymətli malları, xalçaları, paltarları və s. əşyaları əlindən alınır və bunun əvəzində möhür vurulmuş bir gil parçası verilirdi. Qarət olunmuş adamlar bu gil parçasını digər ruslara göstərməklə yenidən talan olunmaqdan xilas olmalı idilər.

Bu yolla ruslar Bərdədə talan yolu ilə topladıqları sərvətləri daha da zənginləşdirdilər. İbn Miskeveyhin sözlərinə görə, rusların bu talançılığı və vəhşilikləri hətta digər ölkələrin müsəlmanlarının da qəzəbinə səbəb oldu və onlar da bərdəlilərin köməyinə yetmək üçün qoşun toplanmasına çağırışlar etdilər. Salarilər dövlətinin hakimi olan Mərzban ibn Məhəmməd də qoşun toplanmasına başladı. Çox güman ki, Mərzbanın başı digər qayğılara qarışdığı üçün ruslara dərhal cavab verə bilməmişdi. Amma rusların vəhşilikləri və onların törətdikləri faciələr haqqında həyəcanlı xəbərlər artanda o da daha qətiyyətli tədbirlər görülməsi qərarına gəldi. O eyni zamanda əhaliyə müraciət etdi və onları könüllü dəstələrin təşkilinə səslədi. Ölkə əhalisi bu çağırışa səs verdi və xeyli sayda insan ruslara

qarşı çıxacaq könüllü dəstələrin tərkibinə yazıldılar. Beləliklə, Mərzban 30 min nəfərlik qoşun dəstəsi topladı və Bərdə ətrafına yola düşdü.

Bununla belə, Mərzban çoxsaylı qoşunları ilə rusların müqavimətini qıra bilmədi. İbn Miskaveyhin fikrincə, Mərzban belə böyük dəstəsi ilə heç ruslarda ciddi bir təəssürat yarada bilmədi. Onun qoşunları dəfələrlə rusların üzərinə hücum etdi və hər dəfə də uğursuzluğa düçar olaraq geri çəkildi. Mənbə məlumatına görə, bu müharibə "çox günlər" davam etdi və hər dəfə də müsəlmanlar məğlub oldular.

İbn Miskaveyhin məlumatlarını ciddi bir dəyişikliyə uğramadan təkrar edən İzzədin ibn əl-Əsir "Əl-kamil fi-t-tarix" əsərində bu barədə belə yazırdı: "Rusların Bərdə əhalisinin başına, söylədiyimiz kimi, gətirdiyi işgəncələri müsəlmanlar dəhşətli hadisə kimi qiymətləndirib camaatı ruslar əleyhinə mübarizəyə çağırdılar. Mərzban ibn Məhəmməd adamlarını başına toplayıb onlara yürüşə çıxmağı təklif etdi. Mərzbanın yanına toplananların sayı otuz minə çatdı. O bu qoşunla ruslara qarşı çıxış etdisə də, onların qabağında dura bilmirdi. Mərzban onlarla hər səhər və axşam döyüşürdü, lakin hər dəfə döyülüb geri qayıdırdı. Bir çox günlər beləcə davam etdi" (93).

İbn Miskeveyhin məlumatlarına görə, Mərzbanın ruslarla döyüşlər apardığı günlərdə ruslar arasında yoluxucu xəstəlik yayıldı. Bu da rusların çoxlu sayda kal meyvə yeməsi ilə bağlı idi. Müəllif bildirirdi ki, ruslar soyuq ərazilərdə yaşayırdılar və onların vətənində meyvə heç də çox deyildi. Əksər hallarda isə onların rastlaşdıqları meyvələr digər ölkələrdən gətirilirdi. Ona görə də onlar Bərdə ətrafında hətta kal meyvələrə də acgözlüklə yanaşırdılar və onları dərhal yeyirdilər. Bu isə onlarda yoluxucu xəstəlik yaratdı. İbn əl-Əsirə görə, ruslar vəba xəstəliyinə tutuldular. Ona görə də onların arasında xəstələnənlərin və ölənlərin sayı xeyli artdı (94).

İbn Miskaveyh bu hadisədən sonra Mərzbanın ruslara qarşı mübarizə taktikasını dəyişməsindən söz açır. Ona görə,

güman etmək olar ki, rusların arasında təbii itkilərin olması onlara qarşı mübarizənin asanlaşdıracağı təsəvvürü yarada bilərdi və ona görə də Mərzban da öz taktikasını dəyişməyi qərara aldı.

Mərzban belə bir plan qurdu ki, ruslar üçün pusqu düzəltsin və onlara böyük itki yetirsin. Gecə ikən o, qoşunlarından bir dəstəni pusquda yerləşdirməyi məqsədəuyğun saydı. Qoşunlara elan etdi ki, ruslarla döyüşü özü başlayacaqdır. Ruslar onun üzərinə hücum edəndə Mərzban ətrafında olan qoşun dəstəsi ilə geri qaçmalı idi və bu da ruslarda növbəti qələbə ümidi yaratmalı idi. Mərzban öz dəstəsi ilə pusqu düzəldilmiş yerə çatanda onun dəstəsi dayanıb rusların qarşısını almağa çalışmalı və bu zaman pusquda dayananlara işarə verilməli idi. Bununla ruslar mühasirəyə alınmalı və onlara güclü zərbə vurulmalı idi. Güman edilirdi ki, bu planın həyata keçirilməsi ilə nəhayət ki, ruslar üzərində qələbə qazanmaq mümkün olacaqdır.

Mərzbanın göstərişi ilə belə bir planın icrasına başlandı. Qoşunların bir dəstəsi müəyyənləşdirilmiş məntəqədə pusquya yerləşdirildi. Mərzban isə ətrafındakı dəstə ilə yenidən rusların üzərinə hərəkət etdi. Əvvəlki tək yenə də asanlıqla qələbə əldə edəcəklərinə şübhə etməyən ruslar Mərzbanın dəstəsinə qarşı çıxdılar. Nədənsə, rusların sərkərdəsi bu döyüşə uzunqulaq belində gəldi. Ruslar qaladan çıxdıqdan sonra döyüşqabağı mövqelər tutdular və tərəflər arasında növbəti döyüş başladı. Rusları şübhələndirməmək üçün Mərzban əvvəlki kimi döyüşə girişdi və anı çatanda geri çəkilməyə başladı. Belə olanda onun ətrafındakı döyüşçülər də geri çəkilməyə başladılar. Lakin pusqunun yerləşdiyi məntəqəyə çatanda Mərzban dayansa da, onun ətrafındakılar dayanmadılar. Mərzbanın qurduğu planın mahiyyətini başa düşməyən qoşunlar belə güman etdilər ki, ruslar əvvəlki döyüşlərdə olduğu kimi, yenə də üstün gəliblər və ona görə də qaçmaqla canlarını qurtarmalıdırlar. Mərzban anladı ki, vəziyyəti dəyişməsə döyüş onun təsəvvür etmədiyi

ağır nəticələrlə başa çata bilər. Bu vəziyyətdə onun qoşunlarına ağır itki yetirilməklə bərabər, pusquda yerləşmiş dəstə də məhv ola bilərdi. Ona görə də, Mərzban qətiyyət nümayiş etdirərək geri qaçan qoşunun bir hissəsini geri qaytarmağa müvəffəq oldu. İbn əl-Əsir bu səhnəni belə təsvir edirdi: "Mərzban sonra deyirdi: "Mən əsgərlərimi çağırdım ki, döyüşə qayıtsınlar, lakin onları rusların vahiməsi elə basmışdı ki, mənim sözlərimi heç eşitmədilər. Mən əmin oldum ki, əgər əsgərlərim qaçmaqlarına davam etsələr, ruslar onların çoxunu öldürüb pusquda olanların üstünə hücum edəcək və orada olanların hamısını qılıncdan keçirəcəklər". Sözünə davam edərək Mərzban deyirdi: "Mən tək qayıtdım, dalımca qardaşım, bir də yaxın adamlarım gəldilər. Bu vaxt vəziyyəti görən deyləmilər utanıb geri döndülər və biz ruslarla vuruşmaya girişdik. Pusquda olanları müəyyən işarələrlə döyüşə çağırdıq. Onlar rusların arxa tərəfindən çıxdılar və hər iki tərəfdən biz mərdi-mərdanə onlarla döyüşdük. Biz rusların çoxunu öldürüb onların əmirini də qılıncdan keçirdik. Sağ qalan ruslar Şəhristan adlı Bərdənin iç qalasında qapandılar. Buraya ruslar qabaqcadan çoxlu ərzaq toplamışdılar. Özləri ilə əsirləri və mal-dövləti də apardılar" (95).

Mərzbanın planının icrası uğursuz başlasa da, son nəhayətdə ruslarla mübarizədə ilk dəfə ciddi üstünlük əldə etmək mümkün oldu. Çoxlu sayda rus döyüşçüsü öldürüldü. İbn Miskaveyh onların sayının 700 nəfər olduğunu bildirirdi. Rusların sərkərdəsi də bu döyüşdə qətlə yetirildi və bütünlüklə məhv olmaqdan nicat tapmaq üçün ruslar qala daxilinə pənah apardılar. Mənbələrdəki məlumatlar bildirirlər ki, Mərzban onları qalada mühasirəyə aldı. Buradan məlum olur ki, Mərzbanın planının icrasından sonra ruslar yalnız qalada müdafiə olunmaqla canlarını qurtarmaq istədilər. Yəni, döyüşdə hərbi təşəbbüs artıq Salari qoşunlarının əlinə keçdi.

Lakin Mərzban bu döyüşü və mühasirəni sona çatdıra bilmədi. O, ruslarla apardığı uğurlu döyüşdən sonra məlumat aldı ki, Suriyada hakimiyyətdə olan həmdanilər sülaləsinin núma-

yəndəsi Nəsirüddövlə əmisi oğlu Əbu Abdulla Hüseyn ibn Səid ibn Həmdanı qoşunla Azərbaycan üzərinə göndərib və bu qoşun dəstəsi artıq Səlmasa yetişibdir. Bu qoşun dəstəsinin qarşısının alınmaması bütünlükdə Salarilər dövlətinin mövcudluğunu sual qarşısında qoya bilərdi. Ona görə də Mərzban qoşunu ilə geri qayıtmağı qərara aldı. Bərdə ətrafında isə o öz sərkərdələrindən birinin rəhbərliyi altında 500 nəfərlik deyləmi dəstəsi, 1500 nəfərlik kürd atlısı və 2 min nəfərlik könüllü dəstə saxladı. Bu dəstə Bərdənin mühasirəsini davam etdirdi. Ehtimal edilir ki, bu mühasirə uzun müddət davam etdi və onun uzanması rusları da əldən saldı. Bir tərəfdən mühasirənin uzanması və bir tərəfdən də ruslar arasında epidemiyanın yayılması onlar arasında itkilərin də artmasına səbəb oldu.

İbn Miskaveyh yazırdı ki, mühasirə zamanı ölən rusları silahları, geyimləri, hətta xanımları və qulluqçuları ilə birlikdə basdırırdılar. Burada müəllifin diqqətini daha çox rusların silahları cəlb edirdi. Bildirirdi ki, sonradan bərdəlilər rusların qəbirlərini açıb onların qılınclarını götürürdülər. Çünki bu qılınclar kəsərliliyinə görə digərlərindən fərqlənirdilər və onlara böyük ehtiyac var idi.

Bununla belə, rusların mühasirəsi davam etdi və onlar xilas olmaq üçün geri çəkilməkdən başqa bir yol qalmadığı qənaətinə gəldilər. Ona görə də onlar günlərin birində gecə ikən çapıb taladıqlarından götürə bildikləri qədər götürüb Bərdəni tərk etdilər. Onlar əsir götürdükləri qadınları, qızları da özləri ilə apardılar. Ruslar Kür çayına doğru hərəkət etdilər. Yuxarıda qeyd edildiyi kimi, Mübarəki adlı kəndin yaxınlığında onlar öz gəmilərini saxlamışdılar. Bu gəmiləri dənizçilər və bir də 300 nəfərlik bir dəstə mühafizə edirdi. İbn Miskaveyhin yazdığına görə, gəmilər səfərə hazır vəziyyətdə rusları gözləyirdilər. Çox güman ki, ruslar əvvəlcədən gəmilərin mühafizəsində olanlara xəbər göndərmiş və onlara səfərə hazır olmağı tapşırmışdılar. Ruslar topladıqları qənimətin bir hissəsini gəmilərin mühafizəsində dayananlara verdilər və sonra da yola düşdülər.

Əl-Əsir yazırdı ki, Mərzbanın əsgərləri rusları izlədilər. Lakin onların özləri ilə apardıqları qənimətləri geri ala bilmədilər və qayıtmalı oldular (96).

Rusların geri səfərləri haqqında mənbələrdə artıq məlumat yoxdur. Hər halda belə bir qənaət hasil olur ki, yerli əhali və qoşunlar onlara artıq maneçilik yarada bilmədilər və ruslar ciddi bir problemlə qarşılaşmadan geri qayıtdılar.

Bununla da rusların Bərdə üzərinə yürüşü başa çatdı. Bəzi mənbələr onların bir il, bəzi mənbələr isə onların 9-10 ay Bərdədə qaldıqlarını bildirirlər (97). Bu müddət ərzində ruslar şəhəri talayaraq onu viran hala qoydular. Şəhərin əvvəlki görkəmindən və zənginliklərindən əsər-əlamət qalmadı. Nizami Gəncəvi "İsgəndərnamə" əsərində rusların törətdikləri dağıntıları təsvir edərkən Bərdəni vəziyyətini aşağıdakı kimi qələmə almışdı:

Gördüyün o Bərdə olmuşdur viran,
O zəngin şəhərdən qalmamış nişan (98).

Moisey Kalankatuklu isə rusların yürüşünü və bu yürüşdən sonra Bərdədə yaranmış vəziyyəti aşağıdakı kimi təsvir edirdi: "Elə həmin vaxt şimaldan Ruzik adlanan əcaib və yabançı xalqın üç minə qədər nümayəndəsi tufan kimi geniş Xəzər dənizini aşaraq qəflətən Albaniya paytaxtı olan Bərdəyə çatdılar və şəhər də onlara heç bir müqavimət göstərə bilmədi. Onlar əhalini qılıncdan keçirərək istədikləri var-dövləti mənimsədilər. Saların özü onları mühasirə etdi, lakin heç bir ziyan gətirə bilmədi, çünki onlar güclü və yenilməz idilər. Şəhər qadınları hiylə işlədib Ruziklərə ölüm piyaləsindən içirtmək istədilər, lakin onlar xəbərdar olub qadınlarla uşaqları amansızcasına məhv etdilər. Altı ay Bərdədə qaldıqdan sonra onlar şəhəri dağıdıb boşaltdılar və hamıdan gizli böyük və müxtəlif qənimətlə öz ölkələrinə qayıtdılar" (99).

Moisey Kalankatuklu digər müəlliflərdən fərqli olaraq həm rusların sayının 3 min nəfər olduğunu göstərirdi, həm də

onların Bərdəni gizli şəkildə tərk etdiklərini yazırdı. Rusların Bərdəni necə tərk etməsi ilə bağlı bu məlumat həqiqətə daha yaxın görünür. Çünki, Bərdəni mühasirə etmiş qüvvələr vaxtında xəbər tutsaydılar mühasirədə zəifləyib əldən düşmüş ruslara xeyli itki yetirə bilərdilər.

Bununla rusların Xəzəryanı ərazilərə hərbi yürüşləri heç də dayandırılmadı. Onların Xəzəryanı ərazilərə növbəti yürüşü 987-ci ildə baş verdi. Onların bu yürüşünün məqsədləri haqqında mənbələrdə ətraflı məlumat yoxdur. Bu yürüş mənbələrdə daha çox dövrün Dərbənd hakimi Məymun ibn Əhmədin adı ilə əlaqədar olaraq çəkilir. Rusların yürüş etdiyi il Dərbənd əyanları, şəhərdə olan hərbçilər Məymun ibn Əhmədin hakimliyinə qarşı üsyan qaldırdılar. Onlar Məymunun hakimliyindən narazı idilər və onu hakimiyyətdən uzaqlaşdırmaq istəyirdilər. Məymun üsyançılardan xilas olmaq üçün şəhər qəsrində gizlənsə də, üsyançılar onu yaxaladılar və həbs etdilər. Elə bu vaxtlarda ruslar 18 gəmidə Dərbəndə yaxınlaşdılar. Çox güman ki, onlar yenə də qənimət ələ keçirmək üçün yürüşə çıxmışdılar. Məymun rusların gəlməsindən xəbər tutdu, hansı yolla isə onlarla əlaqə yaratdı və xilas olması üçün onlardan kömək istəydi. Ruslar bu xahişi qəbul edirlər. Görünür, bunun üçün onlara müəyyən mükafatlar vəd olunubmuş. Rus gəmilərinin bir hissəsi Məymunun azad edilməsi üçün Dərbənd limanına daxil oldular. Onların sayı və şəhər daxilində necə hərəkət etmələri haqqında lazımi məlumat mövcud deyil. Məlum olan odur ki, ruslar Məymunu azad etməyə və özləri ilə gəmiyə gətirməyə müvəffəq oldular. Şəhər əhalisi rusların bu hərəkətindən xəbər tutan kimi, onların üstünə hücum etdilər. Bildirilir ki, Dərbənd ətrafında olan gəmilərin bəziləri yerli əhali tərəfindən məhv edildi. Bəzi gəmilər isə, o cümlədən də Məymunun minmiş olduğu gəmi şəhərdən uzaqlaşa bildi. Bu gəmilər şəhərdən aralı dayanan gəmilərlə birləşdikdən sonra cənuba doğru hərəkətlərini davam etdirirlər. Dərbənddən cənubda yerləşən Maskat yaxınlığında yerli əhali yenidən

rusların üstünə hücum etdi və onları talan etdilər. Gəmilər oradan da cənuba doğru uzaqlaşmalı oldular. Amma bir müddətdən sonra Məymun yenidən Dərbənddə hakimliyi ələ keçirdi (100). Mənbələrdə məlumat olmasa da, mümkündür ki, ruslar hakimiyyəti ələ keçirmək üçün ona kömək etmişdilər. Çünki Məymun hakimiyyətini bərpa etdikdən sonra yanında ruslardan ibarət qulamlar dəstəsi saxlayırdı.

1030-cu ildə rusların Xəzəryanı ərazilərə yürüşü yenidən bərpa edildi və onlar 38 gəmidə Bakıya qədər gəlib çıxdılar. Şirvanşah Mənuçehr ibn Yəzid ruslara qarşı öz donanmasını çıxardı. Amma döyüşdə məğlub oldu. Şirvanşahın donanmasına və qoşunlarına ciddi itki verildi. Ruslar yenidən Kür çayının axarı ilə üzü yuxarı üzməyə başladılar. Bu dəfə onlar Araz çayına keçdilər və bu çayla üzü yuxarı üzməklərini davam etdirdilər. Şirvanşah qoşunları burada da onların qarşısını kəsməyə çalışsalar da bir nəticəyə nail ola bilmədilər (101).

Məlumatlara görə, Araz boyu yürüşü davam etdirəndən sonra ruslar sonra piyada şəkildə Bizans sərhədinə çıxdılar və Qara dənizlə öz vətənlərinə qayıtdılar.

Mənbələrdə rusların 1032-ci ildə və 1174-cü ildə də Azərbaycan ərazisinə yürüşləri haqqında məlumat vardır. 1032-ci ildə həyata keçirilən yürüş də talan məqsədilə həyata keçirilən yürüş idi. Bu yürüş zamanı ruslar xeyli miqdarda sərvət ələ keçirsələr də, geri qayıdarkən Dərbənd hakiminin qoşunları tərəfindən bu qənimətlər onların əlindən alındı. 1174-cü ildə həyata keçirilən yürüş zamanı ruslar yenə Kür çayı ilə üzü yuxarı üzmüş və hətta Bərdə yaxınlığındakı Ləmbəran kəndi yaxınlığında düşərgə salmışdılar. Lakin ruslar Şirvan qoşunları tərəfindən hücuma məruz qaldılar. Ruslar və onların gəmiləri Şirvan qoşunları ilə döyüşdə məhv edildilər (102).

Bununla da rusların Azərbaycanın feodal dövlətlərinin əraziləri üzərinə hərbi yürüşlərinə son qoyuldu.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. Новосельцев А.П. Восточные источники о восточных славянах и руси VI-IX вв.
http://apnovoselcev.narod.ru/text/tx/tx003.html

2. Yenə orada

3. Шарифли М.Х. Феодальные гоударства Азербайджана второй половины IX-XI веков. Баку, Кавказ, 2012, с. 166.

4. Новосельцев А.П. Восточные источники о восточных славянах...

5. Kalankatuklu M. Almaniya tarixi. Qoş M. Alban salnaməsi. Bakı, Elm, 1993, s.190-191

6. Новосельцев А.П. Восточные источники о восточных славянах...

7. Олейниченко В. Свидетельства аль-Масуди о славянах и русах. http://a-oleynichenko.narod.ru/index/0-45

8. Коновалова И.Г. Походы русов на Каспий и русско-хазарские отношения.
http://annales.info/hazar/rus_kasp.htm

9. Yenə orada

10. Якубовский А.Ю. О русско-хазарских и русско-кавказских отношениях IX-XI вв.
http://annales.info/hazar/small/jakub46.htm

11. Судостроение в Киевской Руси.
http://sailhistory.ru/sudostroenie-v-kievskoy-rusi.html

12. Коновалова И.Г. Походы русов на Каспий и русско-хазарские отношения...

13. Теоретический анализ военного искусства Древнерусского государства в IX-XI веках. http://mirznanii.com/info/teoreticheskiy-analiz-voennogo-iskusstva-drevnerusskogo-gosudarstva-v-ix-xi-vekakh_341025

14. Судостроение в Киевской Руси.
http://sailhistory.ru/sudostroenie-v-kievskoy-rusi.htm
15. Боевая летопись русского флота. М., 1948, Воениздат, с. 7
16. Yenə orada, s.10
17. Базилевич К.В. Из истории морских походов в VII-XII вв. http://www.xlegio.ru/navy/medieval-ships/sea-campaigns-history-7-12ad/
18. Yenə orada
19. Дыгало В.А., Нарбеков Н. Русская боевая лодья (ладья).
20. Базилевич К.В. Из истории морских походов в VII-XII вв. http://www.xlegio.ru/navy/medieval-ships/history-of-shipbuilding/russian-war-lodya.htm
20a. Мамедов С. Военное искусство в Азербайджанском государстве Ширваншахов (IX – начало XIII веков). Диссертация представленная на соискание ученой степени доктора философии по истории. Баку, 2013, с.127
21. История военной стратегии России. М., Кучково поле. Полиграфресурсы, 2000, с.21
22. Ибн Фадлан о русах (921-922г.).
23. Новосельцев А.П. Восточные источники о восточных славянах...
24. Ибн Мискавейх. Книга испытаний народов. http://www.vostlit.info/Texts/rus13/Ibn_Miskawaich/frametext1.htm
25.Войска Древней Руси.
https://ru.wikipedia.org/wiki/Войско_Древней_Руси
26. Разин Е.А. История военного искусства. Т.II, Москва, Воениздат, 1957, с.60
27. Yenə orada
28. Каинов С. Древнерусский дружинник второй половины X века/ Военный сборник. Москва, 2004, с.6-12

29. Войска Древней Руси.
https://ru.wikipedia.org/wiki/Войско_Древней_Руси
30. Azərbaycan tarixi. II cild. Bakı, Elm, 1998, s.283
31. Şərifli M. Göstərilən əsəri, s.63
32. Yenə orada, s.66
33. Azərbaycan tarixi. Z.Bünyadov və Y.Yusifovun redaktəsi ilə. Bakı, Azərnəşr, 1994, s.274
34. Şərifli M. Göstərilən əsəri, s.74
35. Yenə orada, s.71
36. Azərbaycan tarixi. II cild. Bakı, Elm, 1998, s. 288
37. Şərifli M. Göstərilən əsəri, s.127; Azərbaycan tarixi. Z.Bünyadov və Y.Yusifovun redaktəsi ilə. Bakı, Azərnəşr, 1994, s.277
38. Şərifli M. Göstərilən əsəri, s. 131-132
39. Azərbaycan tarixi. II cild. Bakı, Elm, 1998, s. 330
40. Şərifli M. Göstərilən əsəri, s. 180
41. Мамедов С. История войн и военного искусства Азербайджана. Баку, Нафта-Пресс, 1997, с. 147-148
42. Azərbaycanın hərb işi tarixi. I cild. Bakı, Hərbi nəşriyyat, 2006, s. 138
43. Şərifli M. Göstərilən əsəri, s. 83
44. Мамедов С. История войн и военного искусства Азербайджана... с.148
45. Мамедов С. Военное искусство в Азербайджанском государстве Ширваншахов (IX – начало XIII веков). Диссертация представленная на соискание ученой степени доктора философии по истории. Баку, 2013, с.65
46. Şərifli M. Göstərilən əsəri, s.180
47. Мамедов С. Военное искусство в Азербайджанском государстве Ширваншахов..., с. 69
48. Şərifli M. Göstərilən əsəri, s.108
49. Мамедов С. Военное искусство в Азербайджанском государстве Ширваншахов..., с. 71

50. Yenə orada, s. 120
51. Şərifli M. Göstərilən əsəri, s.108
52. Мамедов С. Военное искусство в Азербайджанском... с. 61
53. Yenə orada, s. 61
54. Azərbaycanın hərb işi tarixi. I cild...., s.140
55. Yenə orada, s.151-152
56. Новосельцев А.П. Восточные источники о восточных славянах...; Базилевич К.В. Из истории морских походов в VII-XII вв....
57.Бартольд В.В. Сочинения . Т.2, часть 1, М., Восточная литература, 1963, с.684
58. Каспийские походы русов. https://ru.wikipedia.org/.../Каспийские_походы_русов
59. Коновалова И.Г. Походы русов на Каспий и русско-хазарские отношения...
60. Каспийские походы русов. https://ru.wikipedia.org/.../Каспийские_походы_русов
61. Sitat S.Məmmədovun adı çəkilən dissertasiyasından götürülmüşdür, s. 120
62. Yenə orada, s. 129
63. Yenə orada, s. 120
64. Коновалова И.Г. Походы русов на Каспий и русско-хазарские отношения...
65. Галкина Е. Морские походы русов и образ ойкуьены в трудах Ал-Масуди. http://suzhdenia.ruspole.info/nofe/3551
Олейниченко А. Свидетельства Ал-Масуди о славянах и русах. http://a-oleynichenko.narod.ru/index/0-45
66. Коновалова И.Г. Походы русов на Каспий и русско-хазарские отношения...
67. Олейниченко А. Свидетельства Ал-Масуди о славянах и русах. http://a-oleynichenko.narod.ru/index/0-45

68. Из сочинений Абуль-Хасана Али ибн-Хуссейна, известного под прозванием Аль-Масуди.

http://www.vostlit.info/Texts/Dokumenty/Russ/X/Garkavi_mus_pis/frame11.htm

69. Yenə orada

70. Yenə orada

71. Бакиханов А. Гюлистани-Ирам. Баку, Элм, 1991, с.60

72. Из сочинений Абуль-Хасана Али ибн-Хуссейна ...

73. Yenə orada

74. Ибн Мискавейх. Книга испытаний народов... (Şərhlər)

75. Бартольд В.В. Сочинения . Т.2, часть 1, М., Восточная литература, 1963, с.681

76. Sitat Qasım Hacıyevin "Bərdə şəhəri. Coğrafi, siyasi və mədəni tarixi" kitabından götürülmüşdür. Bakı, UniPrint, 2008, s.19

77. Yenə orada, s.20

78. Коновалова И.Г. Походы русов на Каспий и русско-хазарские отношения...

79. Вах: Ибн Мискавейх. Книга испытаний народов... (Şərhlər

80. Kalankatuklu M. Almaniya tarixi. Qoş M. Alban salnaməsi. Bakı, Elm, 1993, s.16

81. Nizami Gəncəvi. İsgəndərnamə. Şərəfnamə. Bakı, Lider, 2004, s.201-202

82. История флота русского. http://www.morye.crimea.ua/ru/about.html

83. Вах: Ибн Мискавейх. Книга испытаний народов... (Şərhlər)

84. Поход русов в Азербайджан в 943-944 гг. http://cont.ws/post/206642

85. Вах: Якубовский А.Ю. О русско-хазарских и русско-кавказских отношениях ..

86. Ибн Мискавейх. Книга испытаний народов...
87. İzzəddin ibn əl-Əsir. Əl-kamil fi-t-tarix. Bakı, Şur, 1998, s.80
88. Новосельцев А.П. Восточные источники о восточных славянах...
89. Ибн Мискавейх. Книга испытаний народов...
90. İzzəddin ibn əl-Əsir. Əl-kamil fi-t-tarix. Bakı, Şur, 1998, s.80
91. Ибн Мискавейх. Книга испытаний народов...
92. Yenə orada
93. İzzəddin ibn əl-Əsir. Əl-kamil fi-t-tarix. Bakı, Şur, 1998, s.81
94. Ибн Мискавейх. Книга испытаний народов...
İzzəddin ibn əl-Əsir. Əl-kamil fi-t-tarix. Bakı, Şur, 1998, s.81
95. İzzəddin ibn əl-Əsir. Əl-kamil fi-t-tarix. Bakı, Şur, 1998, s.81-82
96. İzzəddin ibn əl-Əsir. Əl-kamil fi-t-tarix. Bakı, Şur, 1998, s.82
97. Şərifli M. Göstərilən əsəri, s.185
98. Nizami Gəncəvi. İsgəndərnamə. Şərəfnamə. Bakı, Lider, 2004, s. 310
99. Kalankatuklu M. Almaniya tarixi. Qoş M. Alban salnaməsi. Bakı, Elm, 1993, s.201
100. Şərifli M. Göstərilən əsəri, s.82
101. Каспийские походы русов. https://ru.wikipedia.org /.../ Каспийские_походы_русов
102. Şərifli M. Göstərilən əsəri, s.84
103. Şərifli M. Göstərilən əsəri, s.84
104. Каспийские походы русов. https://ru.wikipedia.org/.../Каспийские_походы_русов

# IX. NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA HƏRBİ FİKİRLƏR

Ən qədim zamanlardan Azərbaycan torpaqlarında vaxtaşırı tüğyan edərək insanlara fəlakət gətirən müharibələrin baş verməsi, onların qarşısının alınması, düşməndən etibarlə surətdə müdafiə və ona qalib gəlmək yolları xalqı düşündürən aktual məsələlərdən biri olmuşdu və hətta bu barədəki fikir və mülühizələr yazılı ədəbiyyatda da öz əksini tapırdı. Həmin fikir və mülahizələr arasında hərbi baxımdan maraq doğuran xeyli məqamlar mövcuddur. Sözsüz ki, bu mülahizə və fikirləri, təcrübi ümumiləşdirmələri Azərbaycanda hərbi fikrin, hərb elminin müstəqil inkişafı və formalaşması kimi qəbul etmək olmaz. Çünki hələ ictimai-tarixi şərait buna zəmin yaratmamışdı və ümumiyyətlə, dünya miqyasında hərb elminin müstəql sahə kimi formalaşmağa başlaması tarixi inkişafın çox-çox sonrakı dövrlərinə aiddir.

Azərbaycanın orta əsr mütəfəkkirlərinin hərb işinin ayrı-ayrı məsələləri ilə bağlı söylədikləri fikirlər bir tərəfdən onların bu məsələlərin mahiyyətini başa düşməyə biganə olmadıqlarını nümayiş etdirdiyi kimi, digər tərəfdən də yaşadıqları dövrdə aparılan müharibələrin xarakterini, hərb işinin təşkilinin xüsusiyyətlərini, ictimai fikrin hərb işinə münasibətini öyrənmək üçün böyük əhəmiyyət kəsb edir. Moisey Kalankatuklunun "Albaniya tarixi"ndə, Əfzələddin Xaqaninin əsərlərində hərb işinin müxtəlif məqamları ilə bağlı elmi-tarixi əhəmiyyət kəsb edən xeyli maraqlı faktlar mövcuddur. Bu baxımdan Nizami Gəncəvinin yaradıcılığı xüsusilə xarakterikdir.

Azərbaycanın ictimai-siyasi fikir tarixində əzəmətli yer tutan Nizami Gəncəvi miras qoyduğu "Xəmsə"si ilə bütün dünyada məşhurdur. Həmin əsərlər mütəfəkkir şairin təkcə bədii istedadının deyil, onun elmi, ictimai, siyasi və mənəvi dünya-

görüşünün parlaq təcəssümüdür. Dövrünün elə bir elmi və ictimai fikir sahəsi yoxdur ki, Nizami əsərlərində ona toxunmamış, onun barədə öz mülahizələrini söyləməmiş olsun. Ona görə də Nizami Gəncəvinin əsərləri Azərbaycanda ictimai, hərbi fikrin inkişaf mənzərəsini öyrənmək baxımından qiymətli mənbədir.

Hərb işinin müxtəlif məsələləri barədə söylədiyi fikirlər Nizaminin böyük mütəfəkkir olduğunu bir daha sübut edir. Çünki belə fikirləri söyləmək, ümumiləşdirmələr aparmaq üçün Nizami Şərqin hərb tarixinə, hərbi fikir və müharibələr tarixinə yaxından bələd olmalı idi. Onun poemalarında həm hərbi-strateji, taktiki, həm də hərbi-texniki fikirlərlə rastlaçmaq mümkündür. Həmin fikirlərin bir çoxu metodoloji baxımdan bu gün də öz əhəmiyyətini itirməyib. Bunlar Nizaminin nəzəri bilik və ümumiləşdirmələrinin, praktiki müşahidə və qənaətlərinin məhsuludur.

Nizami poemalarının hamısında bu və ya digər dərəcədə hərb məsələlərinə toxunulmuşdur. Lakin sonuncu əsəri olan "İsgəndərnamə"də hərbi fikirlərə daha çox yer verilmişdir. Bu poemadakı hərbi fikirlər öz dolğunluğu və əhatəliliyi ilə fərqlənir.

## 1. Nizami müharibələr haqqında

Hər şeydən əvvəl müharibələr, onların mahiyyəti, başlanması səbəbləri haqqında Nizaminin maraqlı fikirləri var. Məlumdur ki, Nizami Gəncəvi öz dövrünün geniş dünyagörüşünə malik olan şəxsiyyətlərdən biridir. O istər şərq ölkələrinin, istərsə də yunan mütəfəkkirlərinin yaradıcılığından kifayət qədər bəhrələnmiş və onların fikir və qənaətlərindən istifadə etmişdi. Nizami öz əsərlərində yunan filosofları Platonla (Əflatun-red.) Aristoteli (Ərəstun-red.) böyük ehtiramla xatırlayır. Şübhəsiz ki, bu onun həmin filosofların yaradıcılığına olan ehtiramı idi. N.Gəncəvi sözsüz ki, onların müharibələr haqqında söylədikləri fikirlərlə tanış idi. Platon müharibəni xalq-

ların həyatının təbii bir elementi sayır, Aristotel isə onu yeni-yeni qullar ələ keçirmək üçün ortaya atılan ədalətli bir hadisə kimi qiymətləndirirdi. Nizami isə müharibələrə başqa bir mövqedən yanaşırdı. O, müharibəni heç də xalqların həyatının təbii bir elementi saymır, əksinə, bütün yaradıcılığı boyu müharibələrə qarşı etiraz etməklə dinc və sakit yaşayışı vəsf edirdi.

Müasir hərbi-elmi qənaətlər müharibəni siyasətin zorakı vasitələrlə davamı kimi qiymətləndirir. Yəni müharibələr o yerdə meydana çıxır ki, orada dövlətlərin, siyasi qüvvələrin siyasi mövqeləri toqquşur və bu ziddiyyətlərin aradan qaldırılması üçün zorakı vasitələrə əl atılır. Nizami Gəncəvinin əsərlərində bu fikrin rüşeymlərini görmək mümkündür. Onun təsvirlərindən aydın olur ki, müharibəni öz qarşılarına müəyyən məqsədlər qoymuş şahlar aparırlar. Onlar yeritdikləri siyasətlə müharibəni başlaya və ya dayandıra bilərlər. Nizami təcavüzkarla təcavüzə məruz qalanı bir-birindən fərqləndirir, onların yeritdikləri siyasət arasında fərqi aydın görürdü. Ona görə şair də müharibələri iki yerə bölürdü: ədalətli və ədalətsiz müharibələr. O, başqa dövlətlərin, xalqların ərazilərinin tutulması üçün aparılan müharibələri pisləyir, onlara qarşı öz etirazını və qəzəbini bildirirdi. Bu mövqe "İsgəndərnamə" poemasında İsgəndərin Bərdə hökmdarı Nüşabə ilə qarşılaşmasında çox gözəl verilmişdir. Yemək stolunun üzərinə Nüşabə tərəfindən müxtəlif yeməklərlə bərabər, qablarda qiymətli daşlar düzüldüyünü görəndə İsgəndər təəccübünü bildirir. Nizami ona Nüşabənin dili ilə deyir ki, onlar yeməyə yaramırsa, daha onların uğrunda bu qədər çarpışmağa dəyərmi?

Cəmiyyətin ictimai inkişaf qanunauyğunluqlarının açılmadığı bir dövrdə Nizami müharibələrə gətirib çıxaran siyasətin arxasında nə dayanması, bu siyasətin mahiyyəti və xarakteri barədə belə bir fikir ortaya qoyması sözsüz ki, təbiidir. Burada müharibənin aparılması daha çox subyektiv amillərlə bağlanılırdı. Amma onun əsərlərində müharibənin başlanmasının başqa səbəblərlə bağlanması halları da vardır.

Məsələn, Nizami əsərlərində müharibənin başlanmasının qəzavü-qədərlə, alın yazısı ilə bağlanması cəhdləri vardır. İsgəndər Zəngibar şahını məğlub etdikdən sonra həlak olub meydanda qalan döyüşçülərə təəssüf edirsə də bunun əsas səbəbini onun özünün və Zəngibar şahının yeritdiyi siyasətin məntiqi nəticəsində deyil, qəzavü-qədərdə görürdü.

Yanlışdır bir suçu bunlarda görmək
Özümdə görmək də xətadır gerçək
Fələyin işi baş vurmaqdır, ancaq
Qəzadan olurmu, boyun qaçırmaq?

Görünür, bu səbəb də Nizamini bütünlüklə qane etmirdi. Hər hansı bir səbəb üzündən bir dövlətin qoşununun başqa bir dövlətin ərazisini işğal etməsinə o heç cürə haqq qazandıra bilmirdi. "İsgəndərnamə" poemasının başqa bir yerində şair hökmdara Tanrının verdiyi ruzi ilə kifayətlənməyi, yad torpaqlara, başqasının sərvətinə göz dikməməyi məsləhət bilirdi:

Dünyada var saysız ölkə və dövlət
Bu dövran hər kəsə ayırmış qismət
Ram etsən özünə Tanrı vərəni
Qismətin ondadır, o tutar səni
... Olsa düşmən evi sənin oylağın
Cilovu başına buraxma, saqın
Başqalar mülkündə durmaq nə yarar
Vurma ayağına onunla cidar
Yad mülkü nə əldə saxlamaq olar
Nə də varına bel bağlamaq olar

Nizamiyə görə, heç bir hökmdar başqa torpaqların işğalı barədə düşünməməlidir. Çünki bu, nə təcavüzkara, nə də təcavüzə məruz qalana bir xeyir gətirir. Şairin fikrincə, şahlar "az ziyan verənlər az ziyan çəkər" əqidəsi ilə yaşamalı və öz siya-

sətlərini də bu mənəvi norma üstündə qurmalıdırlar. Bununla, Nizami hərb işindən uzaq olmağı deyil, hər an törədilə biləcək təcavüzdən etibarlı şəkildə müdafiə olunmağı tövsiyə edirdi.

Təcavücün qarşısını almaq üçün isə Nizami hərbi tədbirlərlə bərabər, həm də sülh siyasətinin həyta keçirilməsinə böyük qiymət verirdi. Mühaibələrə nifrət edən şair hökmdardan öz siyasətini bu istiqamətdə qurmağı tələb edirdi. Onun fikrincə, dünyanı müharibə qan-qadasından məhz sülh vasitəsilə qurtarmaq mümkündür. Ona görə də şair həm hökmdarlara, həm də qoşunların döyüşçülərinə sülh yolunu təlqin etməyə çalışırdı. Bu baxımdan İsgəndərlə Dara qoşunları qarşılaşarkən müharibə ərəfəsində döyüşçülərin keçirdiyi hisslər ibrətamizdir. Qarşı-qarşıya dayanan hər iki qoşunun döyüşçüləri də qoşulacaqları müharibənin mənasızlığını hiss edib öz hökmdarlarının bir-birilə dil tapacaqlarına, müharibəni doğuran səbəbləri aradan qaldıracaqlarına ümid edirlər.

Nizami sülh yolunu tutmağı təlqin etməklə bərabər, sayıqlığı itirməməyi də vacib sayırdı. Xüsusilə, hökmdarların eyş-işrətə qurşanmasını, dövlətçilik işlərini, ölkənin müdafiəsinin təşkilini özbaşına buraxmağı dözülməz hal kimi qiymətləndirirdi:

Eyş-işrətlə vurursan öz ömrünü sona sən
Fələk qatıb başını, oyuncaqsan ona sən
Quranı, qılıncını bir kənara atmısan
Əlində cam, sürahi nəşəylə baş qatmısan (Sirlər xəzinəsi)

Qəfil basqınlar qarşısında ölkənin diz çökməməsi üçün Nizami hökmdarlardan bir sıra tədbirlərin həyata keçirilməsini, qoşunların təşkil və təchiz edilməsini, onun döyüşkənliyinin yüksək səviyyədə saxlanmasını tələb edirdi.

Nizami bütün əsərlərində öz qəhrəmanlarını müharibədən uzaq olmağa, abadlıq xeyirxahlıq işlərinə çağırsa da, görünür, sadəcə mənəvi təlqinlərin müharibələrin qarşısını almağa qadir

olmadığını anlayırdı. Ona görə də şair müharibələrin xarakterində və nəticələrində bir humanistlik axtarmağa çalışırdı. Bunun nəticəsi idi ki, İsgəndər öz müharibələrinin çoxunu başqa ölkələri işğal etmək üçün yox, həmin ölkələri siyasi, iqtisadi və mənəvi zülmlərdən azad etmək üçün aparırdı. Bununla Nizami müharibələrin başlanmasının yeni bir səbəbini ortaya qoyurdu. Əslində isə bu, şairin romantik təxəyyülündən, daxili arzularının ifadəsindən başqa bir şey deyildi. Çünki hərb yolu ilə bir ölkənin başqa bir ölkəyə azadlıq gətirəcəyi, onların xoşbəxt həyatını təmin edəcəyi reallıqdan xeyli uzaq idi. Ölkələr arasında əməkdaşlığın müxtəlif yolları mövcud olsa da bir ölkənin başqa bir ölkəyə hücum edib onun dövlət rejimini yıxaraq bu yolla o ölkəni çətinliklərdən xilas etmək real olmasa da Nizami bu fikirlərlə zəmanəsinin hökmdarlarını mənasız dağıntılardan və qırğınlardan uzaqlaşdırmağa çalışırdı.

## 2. Nizami yaradıcılığında hərbi-strateji fikirlər

Ölkənin müharibə bəlalarından qorunması Nizamini bütün yaradıcılığı boyu düşündürən başlıca məsələlərdən biri idi. Ölkənin etibarlı müdafiəsinə hazırlıq deyəndə Nizami ilk növbədə güclü və döyüşkən qoşun yaradılmasını nəzərdə tuturdu. Şairin fikrincə, məhz güclü qoşunun köməyi ilə qəfil düşmən basqınlarının qarşısını almaq və məmləkətdə quruculuq işləri üçün zəruri şərait yaratmaq olardı.

Hər yerdə hünərə verilmiş qiymət
O yerdə gün gündən ucalmış dövlət

Nizami güclü qoşunu dövlətin möhkəmləndirilməsinin təməli sayır və bu barədə "İsgəndərnamə" poemasında yazırdı:

Zəfərlər yaratsa ordunun əli
Daha möhkəm olar şahın təməli

Dövlətin təməlini möhkəmlədəcək və bütünlükdə məmləkəti düşmən təcavüzlərindən qoruya biləcək belə qoşunun formalaşdırılması üçün Nizami bir sıra amillərin də vacibliyini öz əsərlərində qeyd edirdi. Ölkənin iqtisadi potensialının, mənəvi tərbiyənin əhəmiyyətinin müəyyən məqamları mütəfəkkir şair tərəfindən xüsusilə vurğulanır və hökmdarların diqqəti bu məqamlara cəlb edilirdi.

Məsələn, Nizami ölkənin tərəqqisini müharibələr zamanı əldə edilən qənimətlərdə deyil, ölkənin özündə quruculuq işlərinin genişləndirilməsində görürdü. Buna görə də o, əməyi və əməkçi insanları öz poemalarında xüsusi bir vurğunluqla vəsf edirdi. Bununla, bir tərəfdən ölkənin abadlaşdıırlmasının, onun iqtisadi cəhətdən gücləndirilməsinin müharibələrdən uzaq bir şəraitdə mümkün olduğu nəzərə çarpdırılırdısa, o biri tərəfdən qoşunun təmin və təchiz edilməsi üçün ölkə daxilində əkinçiliyin, heyvandarlığın, sənətkarlığın inkişaf etdirilməsinin zəruriliyi vurğulanıdı. Çünki şair özü də qeyd edirdi ki, səfərə çıxan qoşun ehtiyac içində qalmamalıdır. Ərzaq sarıdan korluq çəkilməsini qoşunun döyüşkənliyinə xələl gətirəcəyini Nizami xüsusi olaraq qeyd edirdi:

Qarınqulu adam olsa da qoçaq
Qarnı doyan kimi tənbəl olacaq
Nə o qədər ver ki, sərxoş olsunlar
Nə də elə et ki, lap ac qalsınlar.

Şair öz əsərlərində daim hökmdarları qoşunlara qayğı göstərməyə, onun möhkəmləndirilməsi üçün zəruri şərait yaratmağa çağırırdı. Nizami əyani nümunə kimi Dara qoşunlarının parçalanmasını və gücdən düşməsini də dövlət daxilində davam edən çaxnaşmalarla əlaqələndirirdi:

Arasan ölkəni, bütün ordunu
Bir nəfər tapılmaz ki, sevsin onu

Etdiyi zülmlər hey yana-yana
Bir qıtlıq salacaq öz bazarına
...Birliyi ölkədən elə ayırdı
İt də yiyəsini tanımayırdı.

Nizami Gəncəvi güclü qoşun yaradılması üçün vacib olan amillərdən birini ölkənin daxilindəki ictimai-siyasi sabitliyin mövcudluğunda görürdü. Mütəmadi olaraq davam edən müharibələr, hakimiyyət uğrunda mübarizələr xalqı da əldən salır, ölkəni və qoşunu da zəiflədirdi. Sabit hakimiyyət ətrafında formalaşa bilməyən qoşun da daxili düşmənlərin qurbanı olurdu və beləliklə onun düşmənə müqavimət göstərmək imkanı da xeyli aşağı düşürdü.

Nizaminin fikrincə, ölkədə birlik və sabitliyin olmaması Fars şahı Daranın da qoşunlarının döyüşkənliyinə mənfi təsir edən, onun məğlubiyyətinə yol açan əsas səbəb idi. Ona görə də Nizami Gəncəvi möhkəm qoşunun yaranması üçün ölkə daxilindəki ictimai-siyasi sabitliyin bərqərar olmasına böyük diqqət yetirir və bu istiqamətdə xalqa, onun gücünə və müdrikliyinə arxalanmağın vacibliyini xüsusilə vurğulayırdı. Şairin fikrincə, cəmiyyətdə əsas qüvvə xalqın gücü idi. Əgər hökmdarlar bu qüvvəyə arxalanardılarsa müvəffəq olardılar. Əks təqdirdə, hökmdarlar yeritdikləri siyasətdə ağır nəticələrlə üzləşə bilərdilər.

El gücü-sel gücü,
hər zaman çəkin bu seldən (Sirlər xəzinəsi)

Şah əgər xalq ilə etsə ədavət
Ağ olar üzünə xalq da nəhayət (İqbalnamə)

Nizami qoşunların mənəvi-psixoloji hazırlığına da böyük əhəmiyyət verirdi. O yaxşı başa düşürdü ki, mənəvi cəhətdən düşgün olan qoşun ən zəif düşmən qarşısında da davam gətirə

bilməyəcəkdir. Nizamiyə görə, qoşunlar müharibənin dəhşətlərinə mənəvi cəhətdən dözmək üçün əvvəldən hazırlanmalı idilər. Döyüşə hazır olmayan döyüşçü güclə, cəza verməklə müharibə meydanına göndərilsə də onun fəaliyyəti ciddi bir nəticə verməyəcəkdi.

Meydanda əsgərə üz versə qorxu
Cəza bir iş görməz, dağılar ordu
...Qorxaq kimsələrdən söylə nə çıxar?
Meydanda düşməndən qorxarsa ordu
Su gətir, zəfərdən əllərini yu

Nizami əsərlərinin qəhrəmanları olan hökmdarlar qoşunlarda qarşıya çıxan çətinlikləri, o cümlədən mənəvi-psixoloji düşgünlükləri aradan qaldırmaq üçün onların ətarfında olan ağıllı adamların, vəzirlərin köməyindən istifadə edirdilər. Bu mənada Nizami dövlət işlərini, o cümlədən də qoşun işlərini dövlət səviyyəsində məşvərətçi şəxslərin məsləhəti ilə, belə bir orqanın köməyi ilə aparılmasını təqdir edirdi. Şairin poemalarından belə bir qənaətə gəlmək olar ki, qoşunlara, müharibənin aparılmasına düzgün rəhbərlik etmək üçün hökmdarın yanında xüsusi məşvərətçi orqanın olması qarşıya çıxa biləcək problemlərin vaxtında və düzgün həlli üçün müsbət təsir edə bilərdi.

Nizami Gəncəvi hərb işinin etibarlı təşkilində hərbi müttəfiqlərin tapılmasını, onların köməyinə arxalanmağı yüksək qiymətləndirirdi. Qüdrətli bir qoşuna malik olan İsgəndər kimi bir sərkərdə də hərbi müttəfiqlərin tapılmasına xüsusi əhəmiyyət verirdi və bu baxımdan onun Bərdə hökmdarı Nüşabə və hindli Keydlə ittifaq bağlaması deyilənlərə sübutdur.

## 3. Nizami qoşunların təşkili və idarə edilməsi haqqında

Nizami öz əsərlərində qoşunla onun rəhbərliyinin qarşılıqlı əlaqədə olmasının zəruriliyini vurğulayırdı. Şairə görə, güclü qoşunun formalaşdırılması üçün bu elementlərin hər ikisi böyük əhəmiyyətə malik idi. Yəni hazırlıqlı qoşun olmadan ən bacarıqlı sərkərdə də döyüşdə müvəffəqiyyət əldə edə bilməzdi və əksinə, ən hazırlıqlı qoşun da bacarıqlı sərkərdə olmadan döyüşdə qalib gələ bilməzdi.

Nizami poemalarındakı bir çox hökmdarları məharətli sərkərdə kimi təsvir etsə də bu sərkərdələrin təklikdə çoxsaylı qoşuna qalib gələ bilməyəcəklərini vurğulayırdı:

Doğrusu inanmaz buna bir insan
Böyük ordu qaçsın tək bir atlıdan

Şair onu da xatırladır ki, böyük sərkərdələr də özlərinin bütün keyfiyyətlərini İsgəndərin qoşunu kimi güclü bir qoşunun tərkibində açıb göstərə bilərlər:

Dedei: - O pəhləvan olur bəxtiyar
Ki, sən tək padşahın ordusundadır

Nizami qeyd edirdi ki, qələbə əzmi ilə döyüşə girən qoşunun təcrübəli və səriştəli sərkərdələri olmalıdır, döyüş zamanı onlar qorunmalıdır. Çünki sərkərdələri məhv olan qoşunun döyüşçüləri arasında nizamsızlıq yaranır və nəticədə başsız qoşun döyüş meydanından qaçır:

Başçılar düşüncə qara torpağa
Ordu da qorxaraq başlar qaçmağa

Nizami başqa sahələrdə olduğu kimi, hərb işində də peşəkarlığın tərəfdarı idi və qoşuna təcrübəsiz adamların cəlb edilməsini dözülməz sayırdı:

Sənətkar getməsə öz sənətinə
Yaxşı iş görsə də suçludur yenə
Əkinçi öküzdən kömək istəsin
Tarladan, kotandan dilək istəsin
Ordu işlərinə qayıtsın əsgər
Şəhər işlərinə getməli şəhər
Yalnız öz işinə getsin hər kişi
Bərk tutsun əvvəldən bildiyi işi

Sərkərdələrin, xüsusən hökmdarların döyüş vərdişləri əldə etməsi üçün Nizami fərdi hazırlığa ciddi əhəmiyyət verirdi. Onun hökmdar qəhrəmanları uşaq yaşlarından at çapmağı, silah işlətməyi öyrənməyə başlayırdılar. Onlar şahlıq taxt-tacına yiyələnməklə bərabər, həm də güclü bir sərkərdə kimi yetişirdilər. Bu cəhət Nizamidən də əvvəl tarixi-ənənəvi xarakter daşıyırdı. Çünki hökmdarlar ölkəni idarə etməklə bərabər həm də qoşunların baş komandanı idilər, bütün yürüşlər də onların rəhbərliyi və iştirakı ilə həyata keçirilirdi. Bu isə onlardan döyüş vərdişlərinə yiyələnməyi tələb edirdi.

Qoşun üzvlərinin döyüş hazırlığının texniki tərəfinə Nizami öz əsərlərində geniş yer verməsə də onların döyüşkənliyinin artırılması üçün həvəsləndirmə və mükafatlandırmadan istifadə edilməsini məsləhət bilirdi. Belə həvəsləndirmələrdən birini əldə edilmiş qənimətin bölüşdürülməsi və ya döyüşdən qabaq onlara pul paylanması təşkil edirdi. Nizami bununla dövrünün tarixi təcrübəsini yazılı ədəbiyyata çıxarmışdı. O bu işdə də ağıllı hərəkət etməyi tövsiyə edir və məsləhət görürdü ki, döyüşçüyə həddən artıq pul, qızıl verilməsin. Yoxsa onun marağı tamamilə ölər və döyüşdə fəallıq göstərməz:

Orduya nə versən rütbəylə payla
Yol xərcindən artıq pul vermə əsla
Qarınqulu adam olsa da qoçaq
Qarnı doyan kimi tənbəl olacaq

Nizami poemalarındakı təsvirlər göstərir ki, o, dövrünün bütün silahları ilə yaxından tanış idi. Çünki bu əsərlərdə Nizami dövrünün demək olar ki, bütün silah növlərindən söhbət açılır. "İsgəndərnamə" poemasından kiçik bir parça bu baxımdan xüsusilə xarakterikdir:

Geydi xam ipəkdən dar gözlü kaftan
Özünü qorudu oxdan, qılıncdan
Ən parlaq bir zireh geyindi göz-göz
Çeşmətək qamaşır ona baxan göz
Bir süngü götürdü düz otuz qulac
Varlığı ciyərin qanına möhtac
Boynundan həmayil bir qılınc taxdı
Şəfəqi günəşdən daha parlaqdı
Başında dəbilqə Çin poladından
Gövhərlər ondakı gövhərə heyran
Belinə asdı bir zəhərli kəsər
İlan tək sancaraq tökərdi zəhər
Bir ata oturdu, nə at, bir dağ tək
Görüşü sevimli, yerişi qəşəng

Nizaminin poemalarında əlavə olaraq dəmir tikan, toppuz, mancanaq, pilpay və s. silah və müharibə vasitələrinin adları ilə rastlaşmaq mümkündür. Heç şübhəsiz ki, bu silahlar Nizami dövründə qoşunların maddi-texniki bazasını təşkil edirdi.

Nizam və intizamın gözlənilməsi də Nizamiyə görə qoşunların döyüşkənliyinin qaldırılmasının vacib şərtlərindən biri idi. O qeyd edirdi ki, fərarilik hallarının qarşısı alınmalıdır. Buna görə də Nizami tövsiyə edirdi ki, qoşunların sayının

artırılmasına ehtiyac yarandıqda belə başqa qoşunlardan fərarilik edib gələn döyüşçüləri qoşuna qəbul etmək olmaz:

Döyüş adamına ehtiyac varsa
Başqa bir ordudan qaçıb gələni
Əsla qəbul etmə, aldadar səni
Qaçmağa öyrənmiş adam qaçacaq
Sənin də ordunu xarablar ancaq

Şair qoşunlarda nizam-intizamın qorunması üçün döyüşçülər və sərkərdələr arasında nüfuzun qorunub saxlanmasını, onların qayğıları ilə maraqlanmağın vacibliyini vurğulayırdı:

Orduda itirmə etibarını
Gündə iki dəfə verib ziyafət
Bütün başçıları sən eylə dəvət

Nizami intizamın möhkəmləndirilməsinin vacib cəhətlərindən biri kimi qoşun daxilində fikir vahidliyinin, döyüşçülərin eyni məqsəd ətrafında birləşmələrinin zəruriliyini qeyd edirdi:

Tanrının köməyi mənə təsəlli
Ordumsa həmrəydir, hər kəsə bəlli
Birlikdən yaranıb zəfər döyüşdə
Dostların birliyi gərək bu işdə
İki qəlb bir olsa dağı parçalar
Böyük bir kütləni edər tar-mar

Qoşun hissələrinin komplektləşdirilməsi barədə də Nizami əsərlərində müəyyən fikirlər açıqlanmışdır. O, qoşunların tayfalar üzrə təşkil edilməsindən söhbət açır:

Hər qövmün başında özündən sərdar
Çəkdilər meydanda dağ kimi hasar

Qoşunların bu əlamət üzrə toplanması Nizamidən əvvəl də mövcud idi və Nizami dövründə də bu təcrübə qalmaqda idi. Ona görə də qoşunların təşkilinin bu formasını o öz əsərlərində xatırladırdı. Qoşun növlərinə gəldikdə isə Nizaminin əsərlərində piyadalar da xatırlanır, atlılar da. Atlılar barədə o belə bir fikir söyləyirdi:

Qələbə qazanmış xoşbəxt atlılar
Səni hər səfərdə edər bəxtiyar

Nizami sərkərdələri qarşı tərəfin hərbi imkanlarını real şəkildə qiymətləndirməyə çağırırdı. Gücünə bələd olmadığı və ya özündən güclü qoşunun üzərinə hücuma keçməyi Nizami lüzumsuz sayırdı. O şübhə etmirdi ki, əsaslandırılmamış hərbi fəallıqlar son nəticədə uğursuzluğa yol aça bilər:

Yolda qolu zorlu rast gəlsə əgər
Üstünə yerimək bəla gətirər
Mümükün deyildirsə qələbə çalmaq
Nahaqdır qoşunu çətinə salmaq

Ona görə də qarşı tərəfin imkanlarını öyrənməyi, kəşfiyyat məlumatları toplamağı Nizami döyüşə hazırlığın mühüm məqamları kimi qiymətləndirirdi. O belə məlumatların toplanması üçün  həm xəfiyyələr göndərilməsindən, həm də qarşı tərəfin qoşunları içərisində tərəfdar tapılmasından, müşahidələrin aparılmasından söz açırdı:

Dışarı çıxaraq kəşfiyyat qolu
Növbəti qarovul güdərdi yolu
...Gizlicə arayıb tapdı xəfiyyə
Düşmənin halını öyrənsin deyə
...Çatdığı ölkədən bir neçə nəfər
Yedirib-işirib ələ gətirər
Sirr alıb ənamlar verər o kəsə

Nizami döyüşlərin keçiriləcəyi yerli şəraitin öyrənilməsinə də böyük əhəmiyyət verirdi. Çünki coğrafi şəraitin öyrənilməsi döyüş zamanı daha düzgün və səmərəli fəaliyyət göstərmək üçün əlverişli zəmin yaradırdı. Nizaminin fikrincə, sərkərdə qərar tutduğu məkana yaxşı bələd olardısa və ondan istifadə etməyi bacarardısa, onun ətrafında olan döyüşçülər qələbə üçün coğrafi şəraitin çətinliklərindən heç vaxt qorxmazlar:

Yola bələd olsa rəhbərlik edən
Ordu qorxu bilməz çətinliklərdən
Yollar dağa-daşa salsa da onu
Dağılmaz başından əsla qoşunu

Nizaminin əsərlərində maraq doğuran məsələlərdən biri də qoşunlarda mühafizə xidmətinin təşkilinə münasibətdir. Şair qeyd edirdi ki, qoşun hissələri istər hərəkətdə ikən, istərsə də düşərgə salarkən onların mühafizəsi təşkil edilməli və düşmənin qəfil hücumlarının qarşısını almalı idi. Buna nail olmaq üçün Nizami sayıqlığın artırılmasını, mühafizə xidmətinin gecə-gündüz qurulmasını tövsiyə edirdi:

Keşikçi adəti  üzrə ayıqdı
Ulduzu sayandan daha sayıqdı
Zənci qarovulu, rum qarovulu
Keşikdə dayanıb güdərdi yolu
...Yola çıxan yolçu cövlan edərək
Çapmasın hər yana gərək dəlitək
Keşikçi düzdürsün yollar uzunu
Getsin təhlükəsiz ta ki, yolunu
Olsun gecə-gündüz işində oyaq
Yatanı oğrutək ruzgar sayacaq
Arxaya-qabağa zilləsin gözü
Onu aldatmasın yadların sözü

Nizami qoşunların hərəkət marşrutunun öyrənilmədən seçilməsinin əleyhinə idi. Şairə görə, hərəkət zamanı əsas marşrutdan yersiz yayınmalar arzuolunmaz nəticələrə gətirib çıxara bilərdi. Nizami qoşunların hərəkət marşrutlarının əvvəlcədən müəyyənləşdirilməsini, əsas qüvvələrin hərəkətə başlamazdan əvvəl əlavə itkilərin qarşısının alınması üçün həmin marşrut boyu mühafizə dəstələrinin yerləşdirilməsini zəruri bir tədbir sayırdı.

Nizami yaradıcılığında xüsusi maraq kəsb edən məsələlərdən biri də döyüşün təşkili və onun idarə edilməsi barədə olan fikirləridir. Doğrudur, şair əsərlərində sürət, gözlənilməzlik, çeviklik, manevretmə keyfiyyətlərinə toxunsa da əsasən öz zəmanəsi üçün geniş yayılmış ənənəvi döyüş taktikasını daha çox təsvir edirdi. Bu taktikaya görə, qoşunlar qarşı-qarşıya cəbhə tuturdular və sonra da öz güclərini nümayiş etdirirdilər. Şairin poemalarından hiss etmək mümkündür ki, dövlətlər arasında başlanan müharibənin taleyi bir və ya bir neçə döyüşdə həll olunurdu. Ona görə də qarşı-qarşıya duran tərəflər elə ilk döyüşə ciddi hazırlaşaraq öz məqsədlərinə çatmağa çalışırdılar.

Nizamiyə görə, qoşunlar döyüş meydanına əvvəldən gələrək döyüşqabağı mövqe tutmalı idilər. Şair eyni zamanda döyüşün uğurla başa çatdırılması üçün əvvəldən plan hazırlanmasının vacibliyini də qeyd edirdi.

Nizaminin əsərlərindəki təsvirlərə görə, qoşunlar aşağıdakı kimi idarə olunurdu: Ölkənin hökmdarı qoşunların baş komandanı idi. O, qoşunları sərkərdələri vasitəsilə idarə edirdi. Nizami baş sərkərdənin olduğunu da bildirirdi. Ola bilsin ki, baş sərkərdə qoşun növlərinin, tayfa qoşun dəstələrinin ümumi komandanı idi. Dəstələr silah növünə görə təşkil edilirdilər. Nizami belə dəstələrdən oxatanlar dəstəsini nümunə gətirir. Şair "sançı" adlı hərbi vəzifəli şəxsin olduğunu da göstərir. Həmin şəxsin vəzifəsi hökmdarın əmri ilə qoşunlara düzülmək əmri vermək idi. Bundan sonra qoşunlar dəstələrə bölünür və sıralara düzülürdülər. Döyüşə başlamazdan əvvəl təbillər və şeypurlar çalınardı.

Nizami "İsgəndərnamə" poemasında İsgəndərin Dara və ruslarla qarşılaşmasında qoşunların döyüş meydanında yerləşdirilməsinin mükəmməl mənzərəsini yaratmışdır. Şair ruslarla döyüşdən qabaq İsgəndərin qoşunlarının aşağıdaki kimi yerləşdiyini təsvir edirdi: Döyüş meydanının sağ cinahında Dəvali və İran pəhləvanları öz tayfalarının qoşunları ilə mövqe tutmuşdular. Sol cinahda isə Fəğfurlu Qədər xan öz qoşunu ilə dayanmışdı. Cinahlarda həmçinin xüsusi hazırlıqlı qulamlardan ibarət olan oxatanlar dəstəsi yerləşmişdi. Döyüş meydanının mərkəzində isə zirehli libas geyindirilmiş fil və arxasınca da piyada dəstələr qərar tutmuşdular. Fillərin mərkəzdə yerləşməsindən güman etmək olar ki, əsas zərbənin də mərkəzdən vurulacağı nəzərdə tutulmuşdu. Qoşunların baş komandanı kimi İsgəndər döyüş zamanı mərkəzdə dayanırdı. Buradan o, həm döyüşü idarə edirdi, həm də əsas zərbənin məsuliyyətini öz üzərinə götürürdü.

Kimin ki, əmindi sədaqətinə
Saxladı mərkəzdə öz xidmətində

Yəni Nizami ən sədaqətli və seçmə qoşun dəstələrinin mərkəzdə yerləşdirilməsinin tərəfdarı idi. Bu onu göstərir ki, Nizami dövründə döyüşün taleyi əsasən cəbhənin mərkəzində həll olunurdu və şair də bu sınanmış təcrübəni öz poemasına köçürmüşdü.

Həm Daranın, həm də rusların qoşunlarında da Nizami oxşar taktikanın tətbiq edildiyini göstərirdi. Bu da ondan irəli gəlirdi ki, dövrün hərb sənətinin inkişaf səviyyəsi həmin təcrübə ilə səciyyələnirdi və Nizaminin də bu təcrübədən geniş məlumatı var idi.

## ƏDƏBİYYAT GÖSTƏRİCİSİ


1. Abbasov Ə. Nizami Gəncəvinin "İsgəndərnamə" poeması. Bakı, 1966
2. Авдиев В.И. История древнего востока. Москва, 1948
3. Агаев Ю., Ахмедов С. Военное искусство тюрков в огузском эпосе "Китаби Деде Горгуд". Баку, "ОД" ММС, 2014
4. Azərbaycan arxeologiyası. Bakı, 1986
5. Azərbaycan ədəbiyyatı tarixi. I c., Bakı, 1960
6. Azərbaycanın hərb işi tarixi. I cild, Bakı, Hərbi nəşriyyat, 2006
7. Azərbaycan tarixi. I c., Bakı, 1961
8. Azərbaycan tarixi. Bakı, 1993
9. Azərbaycan tarixi. Bakı, 1994
10. Azərbaycan tarixi. Qısa oçerk. Bakı, 1943
11. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989
12. Алиев И. История Мидии. Баку, 1960
13. Алиев И. Очерки истории Атропатены. Баку, 1988
14. Алиев К. Античные источники по истории Азербайджана. Баку, 1985
15. Алиев К. Античная Кавказская Албания. Баку, 1992
16. Арриан. Поход Александра. М-Л., 1962
17. Аристотел. Политика. Ст. Петербург. 1911
18. Амфитеатров А.Б. Армения и Рим. Петроград, 1896
19. Ахмедов Т.М. Средневековой город Бейлаган. Автореферат диссертации на соисксние кандидата исторических нул. Баку, 1972
20. Бабаев И.А., Ахмедов Г.М. Кабала. Баку, 1980
21. Бакиханов А. Гюлистини - Ирам. Баку, 1991

22. Бартольд В.В. Сочинения . Т.2, часть 1, М., Восточная литература, 1963, с.681

23. Беляев Е.А. Арабы, ислам и арабский халифат в ранее средневекове. М.,1965

24. Balazuri. Kitabi fütuh əl-Buldən/ Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989

25. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989

26. Bünyadov T. Azərbaycanda əkinçiliyin inkişaf tarixindən. Bakı, 1989

27. Cəfərova F. "Dədə Qorqud Kitabı"nda titul və epitetlərin semantikası / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XXXIV buraxılış. Bakı, 2010, s. 17-30

28. Cəmşid Ş. Kitabi-Dədə Qorqud dastanlarına müqəddimə, s.5-6/ Kitabi-Dədə Qorqud dastanları. Bakı, Nurlan, 2005

29. Вершигора П.П. Военное творчество народных масс. Москва, 1961

30. Vəlixanlı N. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993

31. Военная стратегия. М., 1963

32. Военно-энсиклопедический сдоварь. Ь., 1983

33. Война и армия. М., 1977

34. Вопросы истории древней Албании. Баку, 1966

35. Вопросы истории Кавказской Албании. Баку, 1962

36. Всемирная История. Т. I,II, М.,1955

37. Гареев М.А. Общевойсковые учения. М., 1983

38. Qədirov F. Azərbaycanın şimal müdafiə istehkamları. Bakı, 1984

39. Глускина Л.М. Греко-персидская война/История древнего мира. М., 1989

40. Голицын Н.С. Всеобщая военная история. Ч. I, СПБ, 1872

41. Готовский Л. О роли политических факторов в войне. М., 1944

42. Грудинин И.А. Диалектика и современное военное дело. М., 1971

43. Дандамаев М. А. Ираи при первых Ахеменидов. М., 1963

44. Дандамаев М.А. Мидия и Ахеменидская Персия/ История древнего мира. М., т.II,

45. 1988

46. Данилевич А.А., Рогозин О. К. И др. Международная безопасность, стратегическая стабилность и обороноспособность государства. М., 1993

47. Дарабади П. Походы римлян на Атропатены и Албанию. "Hərbi Bilik", N-4, 1996

48. Джафаров Ю. Гунны и Азербайджан. Баку, 1993

49. Дьяконов М.М. Мидия от древнейших времен до конца IV века до н.э. М-Л., 1956

50. Дьяконов М.М. Очерк истории древнего Ирара. М., 1961

51. Дьяконов М.М. Александр и Диодехи/ История древнего мира. М., 1985

52. Yusifov Y. Erkən Azərbaycan dövlətlərinin parçalanması və xarixi müdaxilələr. "Hərbi Bilik", N-6, 1993

53. Yusifov Y. Manna dövləti hərbi münaqişələr dövründə. "Hərbi Bilik", N-2-3, 1994

54. Hacıyev Q. "Bərdə şəhəri. Coğrafi, siyasi və mədəni tarixi" . Bakı, UniPrint, 2008

55. Hacıyev T. "Dədə Qorqud kitabı" ilk yazılı yaddaşımızdır, s. 6/ Ktabi-Dədə Qorqud, Bakı, Öndər nəştiyyatı, 2004

56. Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbərinin "Tarix ər-rəsul və-l-müluk" əsərindən/Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989, s. 272-300

57. Məhəmməd ibn İshaq ibn Nədimin "Kitab əl Fihrist" əsərindən/ Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989, s. 301-303

58. Əbu Hənifə Dinəvərinin "Əxbar ət-Tival" əsərindən/ Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989, s. 308-309

59. Əzimli D. "Kitabi-Dədə Qorqud" dastanları və tariximiz, s.46/ "Folklor və tariximiz" mövzusunda respublika elmi konfransının materialları. 19-20 noyabr 2012-ci il. Bakı, Elm və təhsil nəşriyyatı, s.46-55

60. Ələkbərli Ə. "Dədə Qorqud kitabı" dastanında gizlənən tarix, s.64/"Folklor və tariximiz" mövzusunda respublika elmi konfransının materialları. 19-20 noyabr 2012-ci il. Bakı, Elm və təhsil nəşriyyatı, s.64-70

61. İzzəddin ibn əl-Əsir. Əl-Kamil fi-t-tarix. Bakı, 1998

62. İbrahimov Z. Azərbaycan xalqının ərəb işğalçılarına qarşı mübarizəsi. Bakı, 1941

63. İbrahimov Z. Babək. Bakı, 1944

64. İsmayılov M. Azərbaycan tarixi. Bakı, 1993

65. Исмизаде О.Ш. Кабала – столица древней Кавказской Албании/Вопросы истории Кавказской Албании. Баку, 1962

66. Kitabi-Dədə Qorqud. Tərtib edən H.Araslı. Bakı, Gənclik nəşriyyatı, 1977

67. История военного искусства. Т. I, М., 1963

68. История военного искусства. М., 1966

69. История военного искусства.М., 1986

70. История военной стратегии России. М., Кучково поле. Полиграфресурсы, 2000

71. История древнего востока. М., 1988

72. История древнего мира. Т.III, ч. II, V.,1937

73. История древнего мира. Т.II, М., 1982

74. История древнего мира. Рассвет древних обшеств. М., 1962

75. Кавказская Албания. Баку, 1952

76. Каинов С. Древнерусский дружинник второй половины X века/ Военный сборник. Москва, 2004, с.6-12

77. Кашкай С.М. Из истории маннейского царства. Баку, 1977

78. Клаузевиц К.Ф. О войне. Т. I, II, V., 1937

79. Kalankatuklu M. Albaniya tarixi. Qoş M. Alban salnaməsi. Bakı, 1993

80. Ковалев С.И. История античного общества. М., 1937

81. Крупнов С.И. Диалектика и военная наука. М., 1963

82. Lənkəranlı Z. Babək. Bakı, 1943

83. Мамедов С. Военное искусство в Азербайджанском государстве Ширваншахов (IX – начало XIII веков). Диссертация представленная на соискание ученой степени доктора философии по истории. Баку, 2013, с.127

84. Мамедов С. История войн и военного искусства Азербайджана. Баку, Нафта-Пресс, 1997

85. Мамедов Т. Албания и Атропатена по древнеармянским источникам. Баку, 1977

86. Мамедов Т. Кавказская Албания. Баку, 1993

87. Манандян Я.А. Тигран Второй и Рим. Ереван, 1943

88. Машкин Н.А. История древнего Рима. М., 1956

89. Меликашвили Г.А. Древневосточные материалы по истории народов Закавказье. Наири-Урарту, Т. I, Тбилиси, 1954

90. Методологические проблемы военной теории и практики. М., 1965

91. Меринг Ф. Очерки истории войны и военного искусства. М., 1941

92. Мешшанинов И.И. Доисторический Азербайджан и Урартская культура. Баку, 1926

93. Məmmədova F. Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası. Bakı, 1993

94. Məsudi. Kitab Muruc əz-Zəhab/ Bünyatov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989, s.305-306

95. Мильштейн М.А., Слободенко А.К. О буржуазной военной науке. М., 1957
96. Момзен Т. История Рима. Т. III, М., 1941
97. Nəcmi N. Qəhrəmanan-e nakam-e İran. Tehran, 1369
98. Nəfisi S. Babək. Bakı, 1990
99. Nizami Gəncəvi. İsgəndərnamə. Şərəfnamə. Bakı, Lider, 2004
100. Osmanov F.A. Qafqaz Albaniyasının maddi mədəniyyəti. Bakı, 1992
101. Очерки по древней истории Азербайджана. Баку, 1956
102. Пахомов Е.А. Краткий курс истории Азербайджана. Баку, 1923
103. Попов М.В. Сущность законов вооруженной борьбы. М., 1964
104. Плутарх Избранные жизнеописания. Т. I, II, М., 1990
105. Разин Е. А. История военного искусства. Т. I, М., 1955
106. Рыбкин У.А.. Война и политика. М., 1959
107. Савкин В. Е. Основные принсипы оперативного искусства и тактики. М., 1972
108. Скирдо М.П. Народ, армия, полководец. М., 1970
109. Страбон. География в 17-ти книгах. М., 1964
110. Сумбатзаде А.С. Азербайджанцы – этногенез и формирования народа. Баку, 1990
111. Тактика. М., 1988
112. Томара М. Бабек. М., 1936
113. Тревер К.В. Очерки по истории и культуре Кавказказской Албании IV в. до н.э. – VII в. н.э. М-Л., 1959
114. Трифоненко П.И. Об основных законах хода и исхода современной войны. М., 1962

115. Тураев Б.А. История древнего востока. Т.II, М., 1936

116. Тюшкевич С.А. Реобчодимость и случайность в войне. М., 1962

117. Тюшкевич С.А. Филослфия и военная теория. М., 1975

118. Həsənov Y. Qədim Roma tarixi. Bakı, 1975

119. Hüseynov M.M. Azərbaycan aröeologiyası. Daş dövrü. Bakı, 1975

120. Fazili A. Azərbaycanın qədim tarixi müasir İran tarixşünaslığında. Bakı, 1970

121. Fazili A. Azərbaycanın qədim və ilk rta əsrlər tarixi İran atrixşünaslığında. Bakı, 1980

122. Xəlilli X. "Dədə Qorqud" oğuznamələrində mifoloji təfəkkürün qapalı tsiklinin dağılması prosesi və mexaniki islam əlavəsi" / "Dədə Qorqud" elmi-ədəbi toplu. N- 4(49), Bakı, 2013, s. 44-59

123. Шарифли М.Х. Феодальные гоударства Азербайджана второй половины IX-XI веков. Баку, Кавказ, 2012

124. Шофман А.С. Восточная политика Александра Маледонского. Казан, 1976

125. Эвалюция военного искусства. М., 1987

126. Ямполский З.И. Восстание Бабека. Баку, 1944

127. Ямполский З.И. Древняя Албания в I – III вв. Баку, 1962

128. Юнусов А.С. История военного дела в Азербайджане в IX – начале XII вв. (Диссертации на соискание кандидата исторических наук. Баку, 1986. Научный архив института Истории АН, инв. 8289)

129. Базилевич К.В. Из истории морских походов в VII-XII вв. http://www.xlegio.ru/navy/medieval-ships/sea-campaigns-history-7-12ad/

130. Боевая летопись русского флота. М., 1948, Воениздат

131. Войска Древней Руси.
https://ru.wikipedia.org/wiki/Войско_Древней_Руси

132. Галкина Е. Морские походы русов и образ ойкуьены в трудах Ал-Масуди.

133. http://suzhdenia.ruspole.info/nofe/3551

134. Каспийские походы русов. https://ru.wikipedia.org/.../Каспийские_походы_русов

135. Коновалова И.Г. Походы русов на Каспий и русско-хазарские отношения.

136. http://annales.info/hazar/rus_kasp.htm

137. Ибн Мискавейх. Книга испытаний народов

138. http://www.vostlit.info/Texts/rus13/Ibn_Miskawaich/frametext1.htm

139. Из сочинений Абуль-Хасана Али ибн-Хуссейна, известного под прозванием Аль-Масуди.

140. http://www.vostlit.info/Texts/Dokumenty/Russ/X/Garkavi_mus_pis/frame11.htm

141. Новосельцев А.П. Восточные источники о восточных славянах и руси VI-IX вв.

142. http://apnovoselcev.narod.ru/text/tx/tx003.html

143. Олейниченко В. Свидетельства аль-Масуди о славянах и русах. http://a-oleynichenko.narod.ru/index/0-45

144. Судостроение в Киевской Руси.

145. http://sailhistory.ru/sudostroenie-v-kievskoy-rusi.html

146. Теоретический анализ военного искусства Древнерусского государства в IX-XI веках.

147. http://mirznanii.com/info/teoreticheskiy-analiz-voennogo-iskusstva-drevnerusskogo-gosudarstva-v-ix-xi-vekakh_341025

148. Якубовский А.Ю. О русско-хазарских и русско-кавказских отношениях IX-XI вв.

149. http://annales.info/hazar/small/jakub46.htm

## MÜNDƏRİCAT

**ÖN SÖZ........................................................................ 3**

1. Hərb tarixinin predmeti........................................................ 6

2. Müharibələrin meydana gəlmə səbəbləri .............................. 9

3. Müharibələrin gedişini və başa çatmasını
şərtləndirən qanunlar.............................................................. 11

4. Hərb işində dövlət siyasətinin rolu...................................... 15

5. Hərbi siyasət qanunları və prinsipləri ................................. 18

6. Ordu, onun mahiyyəti və inkişaf qanunauyğunluqları........ 20

7. Hərb sənəti (məharəti), onun tərkib hissələri,
qanun və prinsipləri................................................................. 25

8. Hərb tarixinin mərhələləri.................................................... 30

**II. MANNA DÖVLƏTİNİN HƏRB TARİXİ..................... 33**

1. Dövlətlərin meydana gəlməsindən əvvəl
Azərbaycanda hərb işinin ilkin əlamətləri .............................. 33

2. Azərbaycan ərazisində meydana gəlmiş
ilk dövlətlərdə hərb işinin vəziyyəti........................................ 39

3. Mannanın hərbi siyasi tarixi................................................ 41

4. İqtisadiyyaitın inkişafının hərb işinə təsiri.......................... 48

5.Mannada hərb işinin təşkilinin xüsusiyyətləri ..................... 52

6.Mannada hərbi istehkam işinin vəziyyəti............................ 59

7 Manna qoşunlarının maddi-texniki bazası .......................... 62

8.Mannanın qoşun növləri...................................................... 64

9. Manna ordusunun quruluşu, səfərbərlik və idarəetmə xüsusiyyətləri. Hərbi strategiya və taktika məsələləri ............ 67

İstifadə olunmuş mənbə və ədəbiyyat...................................... 72

**III. MİDİYA VƏ ƏHƏMƏNİLƏR HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCANDA HƏRB İŞİ................... 77**

1. Azərbaycan Midiya və Əhəməni işğalları dövründə........... 78

2. İqtisadiyyatın inkişaf səviyyəsinin hərb işinə təsiri ............ 83

3. Midiya qoşunları ................................................................ 85

4. Səfərbərlik məsələləri ........................................................ 86

5. Qoşun növləri və idarəetmə orqanları.................................. 88

6. Qoşunların maddi-texniki bazası ........................................ 90

7. Hərb məharətinin (sənətinin) inkişaf vəziyyəti................... 91

8. Əhəmənilər hakimiyyəti dövründə hərbi-siyasi vəziyyət ............................................................... 94

İstifadə olunmuş mənbə və ədəbiyyat...................................... 96

**IV. ATROPATENANIN HƏRB TARİXİ......................... 99**

1. Atropatenalıların makedoniyalılara qarşı döyüşlərdə iştirakı ................................................................... 99

2. Atropatena dövlətinin yaranması. Atropatenada hərb işinin obyektiv əsasları .......................... 109

3. Atropatena qoşunları. Qoşun növləri, onların komplektləşdirilməsi və maddi-texniki bazası ........................................................ 114

4. Xarici istilaçılara qarşı mübarizə ....................................... 118

5. Hərbi strategiya və taktika ................................................ 131

İstifadə olunmuş mənbə və ədəbiyyat ..................................... 133

**V. ALBANİYANIN HƏRB TARİXİ ................................. 138**

1. Albanların Roma işğalçılarına qarşı mübarizəsi ............... 138

2.Albaniyada hərb işinin obyektiv və subyektiv əsasları ...... 154

3. Alban qoşunlarının silahları ............................................. 157

4. Müdafiə divarları və qalaları ............................................. 165

5. Albaniya qoşunları ............................................................ 170

6. Hərbi strategiyanın əsas istiqamətləri ................................ 174

7. Alban sərkərdələrinin hərbi keyfiyyətləri ......................... 182

8. Alban qoşunlarında tətbiq olunan
taktikanın ümumi məsələləri ................................................. 186

9. Arşakilər sülaləsinin hakimiyyəti illərində
albanların xarici istilaçılara qarşı mübarizəsi ........................ 189

10. Mehranilər sülaləsinin hakimiyyəti illərində xarici
istilaçılara qarşı mübarizə ...................................................... 199

İstifadə olunmuş mənbə və ədəbiyyat ..................................... 221

**VI. XÜRRƏMİLƏR HƏRƏKATINDA
HƏRB İŞİNİN TƏŞKİLİ ..................................................... 235**

1. Ərəb işğalçılarına qarşı Azərbaycanda xalq
üsyanları və Xürrəmilər hərəkatının meydana gəlməsi ......... 235

2. Xürrəmilər hərəkatında hərb işinin təşkili məsələləri ....... 246

3. Xürrəmi qoşunlarının apardığı döyüşlərdə
hərb məharətinin (sənətinin) inkişafı .................................... 251

4. Son döyüşlər. Babəkin qətli ............................................ 264

İstifadə olunmuş mənbə və ədəbiyyat.................................. 274

**VII. "KİTABİ-DƏDƏ QORQUD" DASTANINDA HƏRBİ MƏSƏLƏLƏR.......................... 276**

1. Dədə Qorqud dastanlarının əhatə etdiyi dövr .................. 276

2. Sərhəd xəttinin mühafizəsi məsələləri .............................. 279

3. Hərb işinin təşkili məsələləri............................................. 285

4. Oğuz qoşunlarının təşkili, sayı, silahları........................... 292

5. Oğuz qoşunlarının taktikası ............................................. 313

İstifadə olunmuş mənbə və ədəbiyyat.................................. 320

**VIII. QƏDİM RUS QOŞUNLARININ AZƏRBAYCAN ÜZƏRİNƏ HƏRBİ YÜRÜŞLƏRİ ....... 322**

1. Azəbaycana yürüşlər dövründə Qədim Rus dövlətinin və onun qoşunlarının vəziyyəti................................................ 322

2. Qədim Rus qoşunlarının yürüşləri dövründə
Azərbaycan ərazisində hərbi-siyasi şərait............................. 334

3. Qədim Rus qoşunlarının Azərbaycan üzərinə................... 346

hərbi yürüşləri ...................................................................... 346

a) rusların 913-cü ildə Xəzəryanı ərazilərə hərbi yürüşü...... 350

b) Qədim rusların 943-cü ildə Bərdə üzərinə hücumu.......... 361

İstifadə olunmuş mənbə və ədəbiyyat.................................. 380

**IX. NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA HƏRBİ FİKİRLƏR ........................................................... 386**

1. Nizami müharibələr haqqında ........................................... 387

2. Nizami yaradıcılığında hərbi-strateji fikirlər .................... 391

3. Nizami qoşunların təşkili və idarə edilməsi haqqında ...... 395

**Ədəbiyyat göstəricisi ........................................................ 403**

*Kitabın çap xərci Azərbaycan Respublikası*
*Silahlı Qüvvələri Hərbi Akademiyasının*
*rəhbərliyinin vəsatəti əsasında*
*Müdafiə Nazirliyi tərəfindən ödənilmişdir.*

**Süleymanov Mehman**
**AZƏRBAYCANIN QƏDİM VƏ**
**ORTA ƏSRLƏR HƏRB TARİXİ**
**Bakı, 2016**

**«Elm və təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

**Redaktor:** ***Rəşid Faxralı***

Çapa imzalanmış: **10.11.2016.**
Şərti çap vərəqi: **26.** Sifariş: **№ 492.**
Kağız formatı: **60x84 1/16.** Sayı: **300.**

Kitab **«Elm və təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
*E-mail: nurlan1959@gmail.com*
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4